Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə İnstitutu
“Müasir fəlsəfə problemləri” şöbəsi

Национальная Академия Наук Азербайджана
Институт философии
Отдел: “Современные проблемы философии”

Azerbaijan National Academy of Sciences
Institute of Philosophy
Department: “Modern Problems of Philosophy”

MİLLİ FƏLSƏFƏ

НАЦИОНАЛЬНАЯ ФИЛОСОФИЯ

THE NATIONAL PHILOSOPHY

“AZƏRBAYCAN”
NƏŞRİYYATI

BAKI - BAKU - BAKU - 2019

M08(19)

Məqalələr toplusu AMEA Fəlsəfə İnstitutunun Müasir fəlsəfə problemləri şöbəsinin 3 iyun 2019-cu il tarixli iclasında müzakirə edilmiş (6 saylı protokol), AMEA Fəlsəfə İnstitutu Elmi şurasının 27 iyun 2019-cu il tarixli qərarı ilə (6 saylı protokol) çapa məsləhət görülmüşdür.

Elmi redaktorlar:
Əli Abasov - fəlsəfə elmləri doktoru, professor
Əbülhəsən Abbasov - fəlsəfə elmləri doktoru, professor, Rusiya Pyotr Akademiyasının müxbir üzvü

Nəşr üzrə menecer:
Mətləb Mahmudov fəlsəfə doktoru, dosent

Redaksiya heyəti:
Əli Abasov - fəlsəfə elmləri doktoru, professor
Əbülhəsən Abbasov - fəlsəfə elmləri doktoru, professor
Aydın Şirinov - professor
Rauf Məmmədov - fəlsəfə üzrə fəlsəfə doktoru

Məsul katib:
Mahrux Abbas - fəlsəfə üzrə fəlsəfə doktoru

M08(19) Milli fəlsəfə. - Bakı, "Azərbaycan" nəşriyyatı, 2019. - 904 səh.

M $\frac{\text{4804000000 – 008(2019)}}{\text{M670(07) – 2019}}$ Sifarişlə

ISBN 9952-33-023-5

© "Azərbaycan" nəşriyyatı, 2019.

Collection of articles discussed at the meeting of the department "Modern problems of philosophy" June 3, 2019 (protocol number 6) of the Philosophy Institute of the National Academy of Sciences of Azerbaijan and the decision of the Academic Council of the İnstitute recommended for publication (June 27, 2019, protocol number 6) .

Scientific editors:
Doctor of sciences of Philosophy, Professor Ali Abasov
Doctor of sciences of Philosophy, Professor, Corresponding Member of Petrovsky Academy of Russia Abulgasan Abbasov
Doctor of sciences of Philosophy, Professor Nigina Shermuhammedova

Publisher Manager: Matlab Makhmudov, Ph.D. in Philosophy, Associate Professor

Editorial team:
Ali Abasov - Doctor of sciences of Philosophy, Professor
Abulgasan Abbasov - Doctor of sciences of Philosophy, Professor
Shirinov Aydin - Doctor of Philosophy, Professor
Rauf Mammadov - Ph.D. in Philosophy
Responsible secretary: Mahrukh Abbas - Ph.D. in Philosophy

National philosophy. Baku, ed. “Azərbaycan” - 2019, 904 p.

İSBN

Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə İnstitutu

«Müasir Fəlsəfə Problemləri» şöbəsi

Национальная Академия Наук Азербайджана
Институт философии

Отдел: «Современные проблемы философии»

National Academy of Sciences of Azerbaijan Institute of Philosophy

Department: «Modern Problems of Philosophy»

MİLLİ FƏLSƏFƏ

НАЦИОНАЛЬНАЯ ФИЛОСОФИЯ

THE NATIONAL PHILOSOPHY

BAKI - БАКУ – BAKU - 2019

CONTENTS

Instead of introducing:
Abulhasan Abbasov……....11
Ali Abasov……..…20

I

Tadeush Adoulo. Features of the development and study of national philosophy of Belarus…….30
Petr Kralyuk, Vitaliy Shepansky. The philosophical traditions in Ukraine……....50
Safar Koldybayev. National philosophy of Kazakhstan: the concept and problems of periodization…….66
Anuar Galiyev. The model of the world of the Kazakh people……..81
Nigina Shermuhamedova. History and modernity of the national philosophy of Uzbekistan……97
Muhsin Yilmaz. Philosophy and Turkey……..109
Süleyman Dönmez. Philosophy in Turkey and what Turkish philosophy may be……115
Mikheil Makharadze. National Philosophy in Georgia (IV-XX centuries)…….122
Mustafa Bilalov. About a Status of the Dagestan National Philosophy…….135
Aydar Yuzeyev. The Tatar philosophy……149
Valery Khaziyev. Cosmos and Chaos in the Bashkir mythology……167
Maka Lashkhia. Reception of Plato and Neoplatonism into the Georgian Intellectual Area……192
Giorgi Kheoshvili. Merab Mamardashvili on Russian philosophical school……..203
Dzu Junming. The brief analysis of the origin of the rise of modern national philosophy in post-Soviet republics……....211
Philip Ogo Ujomu. The role of philosophy in the General Studies Programme for Nigerian University students: key value and relevance……...228
Mykhaylo Yakubovych, Vitalii Shchepanskyi. Arab philosophical tradition: key milestones and ideas……...246

II

Tursun Gabitov. Kazakh culture in the context of traditional civilizations of Eurasia……..……259
Kurban Shadmanov. Comparativistics of philosophy of the East and the West in the Middle Ages…….……...274
Gaziz Telebayev. Turkic philosophy: basic concepts in historical retrospect..295
Arzu Hajiyeva. La ilahe illallah. Philosophical understanding of the idea of Tawhid in Narimanov heritage……...……312

Niyazi Mekhti. Azerbaijani processes of marking. What "appears" from them……...……330
Khaliaddin Khalili. Azerbaijan as the birthplace of the philosophy of fire, Sh. J. Afghani and M.E. Rasulzade……341
Rahid Ulusel. A glance at Islamic philosophy from Azerbaijan: at the crossroad of history and modernity……392
Faik Alekperli. Key problems of modern Azerbaijani Turkic philosophy…...401
Erkin Baydarov. Ibrahim Muminov as the founder of the modern philosophical school of Uzbekistan……..……..419
Irada Zargan. Philosophical views on Caucasian Muridism movement…..…433

III

Horst J. Helle. Toward a Comparative Analysis of Chinese and German philosophy……446
Anatoly Levko. National philosophy as a factor of social development: ideological and mental components……...489
Aydin Balayev. Different interpretations of the origin and nature of the nation……505
Ali Abasov. National philosophy: problem statement, methodology, history and current state, prospects……....518
Abulgasan Abbasov. Mission of philosophy in the renewing world……556
Konul Buniyatzade. "Plate tectonics" of national philosophy……566
Fizuli Gurbanov. How national philocophy is possible?.....579
Alikram Tagiyev. National philosophy, enlightenment and national identification……...…..593
Рафаил Ахмедли. The role of socio-political factors in the formation of the national consciousness in the XIX century Azerbaijan…..…….603
Tair Bayramov. Changes in value-based orientation of Azerbaijani national culture in the 19th -21st cc. within the optics of P.Sorokin's typological model……...……610
Zhang Ping. Uncertainty of existence in current society: a new discussion on risk and security……....615
Yadviga Yaskevich. Synergistic post-nonclassical methodology of geopolitical scenarios and risks in modern national philosophy……...625
Oleq Barsaynsky, Ariz Gezalov. Cognitiv technologies and national philosophy……....639

IV

Matlab Mahmudov. Problems of the formation of the Azerbaijani national philosophy in the modern……643
Hajar Abdullah. The development of national philosophical thought.....653
Gudsiya Aliyeva. Development of national philosophy……...…664

Mahrukh Abbas. Representation of a woman in Azerbaijan philosophy……669
Nazaket Salmanov. In national philosophy……..687
Zeynaddin Shabanov. Philosophical understanding of the world…..…693
Radif Mustafayev. A look at the discursive foundations of multiculturalism in the modern era of liberalism……..711
Huseyn Ibragimov. The concept of dialogue requires an interdisciplinary approach to the history of multiculturalism……..……727
Elmira Tahmazova. The problem of values in the Azerbaijani national philosophy……..……..731
Farida Bagirova. The evolution of the concepts of "ethnos" and "nation" in the history of European philosophy……..….736
Khalida Nazarova. Mythology and religion in philosophy……..…741
Asya Akhmedova. The role of the gymnasium "St. Nina "in the education of women in Azerbaijan…….……746

V

Rauf Mamedov. Socio-historical factors causing national identity and national philosophy in Europe……755
Ahmed Gashamoglu. Science of “Akhangyolu” ("A Way of Harmony") and its value for modern scientific thinking……..……801
Valentina Mirzaeva. Demand for philosophy in the 21st century……806
Azer Gasanli. "Tanmayadarlig" as a forthcoming post-capitalist formation…….……...816
Mir-Faraj Abasov. Digitalism as the philosophy and practice of the future political and economic system……..……832

Summary 843
Information by the authors…….……895

Mündəricat

Ön söz – Əbülhəsən Abbasov.....11
Вместо введения – Али Абасов.....20

I

Тадеуш Адуло. Особенности развития и изучения национальной философии Беларуси.....30
Петр Кралюк, Виталий Щепанський. Философские традиции на украинских землях.....50
Сафар Колдыбаев. Национальная философия Казахстана: понятие и проблемы периодизации развития.....66
Ануар Галиев. Модель мира казахского народа.....81
Нигина Шермухамедова. История и современность национальной философии Узбекистана.....97
Muhsin Yılmaz. Felsefe ve Türkiye.....109
Süleyman Dönmez. Türkiye'de Felsefe ve Bir Türk Felsefesinin İmkânı……115
Mikheil Makharadze. National Philosophy in Georgia (IV-XX centuries).....122
Мустафа Билалов. О статусе дагестанской национальной философии...135
Айдар Юзеев. Татарская философия.....149
Валерий Хазиев. Космос и хаос в Башкирской мифологии.....167
Maka Lashkhia. Reception of Plato and Neoplatonism into the Georgian Intellectual Area.....192
Гиорги Хеошвили. Мераб Мамардашвили о Русской философской школе.....203
Цзу Чуньмин. Краткий анализ истоков расцвета современной национальной философии постсоветских республик.....211
Philip Ogo Ujomu. The role of philosophy in the general studies programme for Nigerian university students: key value and relevance.....228
Михаил Якубович, Виталий Щепанский. Арабская философская традиция: ключевые вехи и идеи.....246

II

Турсун Габитов. Казахская культура в контексте традиционных цивилизаций Евразии.....259
Курбан Шадманов. Компаративистика философии Восточного и Западного Средневековья.....274
ГазизТелебаев. Тюркская философия: основные понятия в исторической ретроспективе.....295
Arzu Haciyeva. La ilahə illallah.Nərimanov irsində tövhid ideyasinin fəlsəfi dərki.....312

Niyazi Mehdi. Azərbaycan bilinmələrindən sezilən nəsələr.....330
Xəliyəddin Xəlilli. Od fəlsəfəsinin ilkin vətəni Azərbaycan, Ş.C.Əfqani və M.Ə.Rəsulzadə.....341
Rahid Ulusel. İslam fəlsəfəsinə Azərbaycandan baxış: tarix və müasirlik kəsişməsində.....392
Faiq Ələkbərli. Çağdaş Azərbaycan türk fəlsəfəsinin başlıca problemləri.....401
Еркин Байдаров. Иброхим Муминов как основатель современной философской школы Узбекистана.....419
İradə Zərqan. Qafqaz müridizmi hərakatına fəlsəfi baxış.....433

III

Horst J. Helle. Toward a Comparative Analysis of Chinese and German philosophy.....446
Анатолий Левко. Национальная философия как фактор общественного развития: мировоззренческие и ментальные составляющие.....489
Айдын Балаев. Различные трактовки происхождения и сущности нации.....505
Али Абасов. Национальная философия: постановка проблемы, методология, история и наличное состояние, перспективы.....518
Əbülhəsən Abbasov. Yeniləşən dünyada fəlsəfənin missiyası.....556
Könül Bünyadzadə. Milli fəlsəfənin "piltələrinin tektonikası".....566
Füzuli Qurbanov. Milli fəlsəfə necə mümkündür?.....579
Əlikram Tağıyev. Milli fəlsəfə, maarifçilik və milli kimlik problemi.....593
Rafail Əhmədli. XIX əsr Azərbaycanda milli şüurun formalaşmasında sosial-siyasi amillərin rolu.....603
Таир Байрамов. Изменения ценностной ориентации национальной культуры Азербайджана XIX-XXI вв. в оптике типологической модели П.Сорокина.....610
Zhang Ping. Uncertainty of existence in current society: A New Discussion on Risk and Security.....615
Ядвига Яскевич. Постнеклассическая синергетическая методология геополитических сценариев и рисков в современной национальной философии.....625
Олег Баксанский, Ариз Гезалов. Когнитивные технологии и национальная философия.....639

IV

Mətləb Maxmudov. Müasir dövrdə Azərbaycan milli fəlsəfəsinin formalaşması məsələləri.....643
Həcər Abdallı. Milli fəlsəfi fikrin inkişafı.....653
Qudsiyə Əliyeva. Milli fəlsəfənin formalaşması və inkişaf xüsusiyyətləri.....664

Mahrux Abbas. Azərbaycan fəlsəfəsində qadının reprezentasiyası.....669
Nəzakət Salmanova. Milli fəlsəfədə ailə dəyərlərinin rolu.....687
Zeynəddin Şabanov. Azərbaycan filosoflarının dünyanın elmi mənzərəsinin fəlsəfi dərkinə münasibəti.....693
Radif Mustafayev. Müasir dövr liberalizm şəraitində multikulturalizmin diskursiv əsaslarına baxış.....711
Hüseyn İbrahimov. Dialoq mühiti multikulturalizm tarixinə fənlərarası yanaşma tələb edir.....727
Elmira Təhməzova. Azərbaycan milli fəlsəfəsində dəyərlər problemi.....731
Фарида Багирова. Эволюция понятий «этнос» и «нация» в истории европейской философии.....736
Xalidə Nəzərova. Fəlsəfədə mifologiya və din.....741
Asya Əhmədova. Azərbaycanda qadınların maariflənməsində "Müqəddəs Nina" gimnaziyasının rolu.....746

V

Rauf Məmmədov. Avropada milli şüuru və milli fəlsəfəsini şərtləndirən sosial-tarixi amillər.....755
Əhməd Qəşəmoğlu. Ahəngyol elmi və onun müasir elmi düşüncə üçün əhəmiyyəti.....801
Валентина Мирзаева. Востребованность философии в XXI веке.....806
Азер Гасанли. «Танмаядарлыг» - философия грядущей посткапиталистической формации.....816
Мир-Фарадж Абасов. Диджитализм – философия и практика грядущей политико-экономической системы.....832

Xülasələr – Аннотации – Summary.....843

Müəlliflər haqqında məlumat – Сведения об авторах – Information about authors.....895

Ön söz

İctimai şüurun xüsusi forması olan fəlsəfə öz idraki və refleksiya fəzasına görə bütün elmlərdən köklü surətdə fərqlənir. Tədqiqat obyektlərinin çoxçeşidliyi və əhatəliyi baxımından fəlsəfəni universal elm kimi fərqləndirə bilərik. Təsadüfi deyildir ki, bəzən fəlsəfəni hər şey haqqında elm kimi səciyyələndirirlər. Onun təbiət və ictimai hadisələrindən tutmuş idraki proseslər, psixoloji və tarixi təfərrüatlar barədə açıqlamalar verməsi, fikir söyləməsi təbii sayılır. Mübahisə doğuran başqa məsələdir – fəlsəfə milli ola bilərmi? Hətta bilavasitə fəlsəfə sahəsində çalışanlar arasında elə şəxslərə rast gəlmək olur ki, "milli fəlsəfə" ifadəsinin özünü belə qəbul etmirlər. Onların qənaətinə görə, fəlsəfə həmişə ümumbəşəri xarakter daşıyıb, heç vaxt milli olmayıb və fəlsəfəni milli kontekstdən səciyyələndirmək, deməli, onu dar çərçivəyə salmaq, təyinatını və statusunu təhrif etmək deməkdir. Əlbəttə ki, belə mövqe ilə barışmaq düzgün olmazdı.

Fikrimcə, fəlsəfənin təyinatı və statusu elə ilk növbədə onun milliliyi təkzib ediləndə, nəzərə alınmayanda təhrif olunur. Milli özəyi-özəli, milli koloriti olmayan "fəlsəfə" heç vaxt bəşəri əhəmiyyət daşıya bilməz, o, nə lokal və regional, nə də universal təqdimatda bir fayda gətirməz, əksinə, şərə və ziyana yol açar. Habelə, milli köklərdən məhrum, öz tarixi ənənələrindən xaric fəaliyyət göstərən "fəlsəfə" müasirliklə ayaqlaşa bilməz; müasir olmaq üçün çarpışar, ancaq ortaya dəyərli məhsul qoymaqda aciz qalar. Fəlsəfənin milliliyi onun beynəlmiləl, bəşəri olmasını zəiflətmir, əksinə, gücləndirir. Yalnız milli ruhlu fəlsəfə bəşəri əhəmiyyətli, kamil və valehedici ola bilər, mütərəqqi inkişaf üçün dəyərli töhfə verər.

Milli-irsi qidadan məhrumluq – anadangəlmə şikəstlik əlamətidir, reallıqlar aləmində batıb-boğulmamaq naminə keçici dəblər, məcburi çırpıntılar, kənardan diktə edilən impulslarla yaşamaq deməkdir. Belə yaşamaq mənasız, deqradasiyalara yol açan həyatdır ki, çox vaxt müasirləşmə, modernləşmə, liberallaşma görüntüləri ilə ört-basdır edilir. Bəzən bu görüntüləri ekstravaqant hərəkət-davranışlarla, geyimlərlə, danışıq tərzi və leksikası ilə bəzəyirlər – təki başqalarından fərqlənəsən, özünə diqqət çəkəsən. İndi bu cür yaşamaq bizim elm və mədəniyyət, ədəbiyyat və incəsənət, habelə fəlsəfəmiz üçün, bir növ, aparıcı həyat düsturuna çevrilib ki, doğurduğu çirkabda, üfunətli gölməçələrində həqiqi elmi də, mədəniyyət və mənəviyyatı da məhv etməkdədir.

Xüsusi sübuta ehtiyacı olmayan bir həyati həqiqət var: milliliyi olmayan adam özünə hökm edərək kamilləşə bilməz, onun sosiallaşması durmadan artan qüsurlar vektoru üzrə cərəyan edər. Özünə hökm etməyi bacarmayan başqalarına da hökm etməkdə, təsir göstərməkdə aciz qalar. Fəlsəfə də belədir. Məsələn, Hegel fəlsəfəsi ona görə böyük təsir gücünə malikdir və bəşəri əhəmiyyətlidir ki, onun yaradıcısı və bu fəlsəfənin özü alman milliliyinin, alman ruhunun müfəssəl, parlaq ifadəsidir. Belə fəlsəfənin hökmdarların və yaxud hansısa siyasi düşərgənin köməyinə, sədəqəsinə, onların uzatdıqları qoltuq ağacına ehtiyacı olmur. Əsl fəlsəfənin qüdrəti Herkulesin dəmir əmudunun gücündən üstün olur.

Bəli, möhtəşəm fəlsəfə ilk növbədə milliliyin məhsuludur və bu mahiyyətdə cəmiyyətin bütün həyat və fəaliyyət sahələrinə (siyasətə, iqtisadiyyata, mədəni-mənəvi və sosial həyata) yüksək dərketmədən, inteqrativ fikir generasiyasından keçmiş millilik anlamı gətirir. Millilik, xüsusən siyasət və idarəetmədə, yalnız dərin fəlsəfi təqdimatda gözəldir və xeyirə işləyir. Fəlsəfi dərketmədən keçməyən, fəlsəfə tərəfindən yoğurulmamış milliliyin olmasından olmaması yaxşıdır. Fəlsəfəsiz millilik kal, cır, cılız, özündən müştəbeh olur. Həqiqi qərarlaşma bloklarının, sütün və nöqtələrin yoxluğu səbəbindən belə millilik daxili tarazlıqdan, harmoniyadan məhrum olur, qeyri-adekvat, zəruri norma və ölçülərlə hesablaşa bilməyən fəaliyyətin mənbəyinə çevrilir. Aydındır ki, bu cür millilik, siyasətə və idarəetməyə gətirilərsə, böyük fəsadların, hətta fəlakətlərin baş verməsinə səbəb olar. Tarix dəfələrlə bunu sübut edib. Analoji qənaətləri biz din və fəlsəfə münasibətləri barədə söyləyə bilərik. Fəlsəfəsiz din, son nəticədə, fanatizmə, cəhalətə, tənəzzülə aparır.

Həmin dahi filosof Hegel vaxtilə elə bu mövzuda da dəyərli fikirlər söyləyib, xəbərdarlıqlar edib. Məsələn, tarix fəlsəfəsi üzrə mühazirələrində islamı ətraflı nəzərdən keçirən Hegel islam monoteizmini alqışlayır və "Şərqin inqilabı" adlandırır. Onun fikrincə, "sadə vahidlik prinsipini" tərənnüm edən radikal islam monoteizmi poeziyanın və elmliliyin yüksək səviyyələrinə aparır. Sonralar isə islam monoteizmi tədricən fanatizmə və fatalizmə transformasiya edir, bu da ona görə baş verir ki, həmin vahidlik prinsipi içi boş formalizmə çevrilir və öz potensialından inanclı insanların azadlığı üçün istifadə etmir. Yəni, üzücü durumun dərin səbəbi sadə vahidlik prinsipinin fəlsəfi dərketmənin nəzarətindən çıxmasında, məzmun-mahiyyət konkretikasını itirməsindədir.

Bu günün mənzərəsinə nəzər salsaq görərik ki, həqiqətən də, müsəlman dünyası üzücü bir durumdadır və bunun mühüm səbəblərindən biri aparıcı həyat və fəaliyyət sahələrinin, o cümlədən din, siyasət və idarəetmənin nəinki milli fəlsəfədən, ümumiyyətlə, professional fəlsəfədən uzaq düşməsindədir. Professional fəlsəfənin, sanki, ictimai həyat sahələrinə girişinə, müdaxiləsinə qadağa qoyulub. Təsadüfi deyildir ki, son onilliklər ərzində ali məktəblərimizdə fəlsəfənin tədrisi olduqca zəiflədilib, elə bil ki, fəlsəfəyə qarşı hərtərəfli səlib yürüşü təşkil edilib. Hazırda, demək olar ki, ən sayğısız-qayğısız qalan sahə – fəlsəfədir, adam isə – filosofdur (söhbət, sadəcə, fəlsəfə üzrə dərəcə, diplom daşıyıcılarından getmir!).

Artıq siyasətimiz də çoxdandır ki, bu mənfur "fəlsəfəsiz həyat düsturu" ilə yaşayır. Daha dəqiq desək, bu düsturun törətdiyi fəsadlar, iyrəncliklər içərisində sürünür, milli maraqların ödənilməsi məcrasında heç bir fayda verməyən, durumu daha da dramatikləşdirən çırpıntılarla özünü nümayiş etdirir. Taleyüklü məsələlərə münasibətdə reallıqların mahiyyətilə, həqiqi səbəblərlə uzlaşan metodoloji yanaşmaların, qnoseoloji zəmin və vasitələrin yoxluğu tam çılpaqlığı ilə özünü göstərir. Siyasi diskussiyaların aparılması üçün idraki-təhlil müstəviləri adekvatlıq və obyektivlik tələblərini ödəmir, siyasi mülahizələrin generasiyası etibarlı fəlsəfi refleksiyaya və ümumiləşdirmələrə söykənmir.

Ümumiyyətlə, deyərdim ki, siyasi fəaliyyət peşəkar fəlsəfədən kənar, kon-

kret olaraq, hansısa epistemoloji paradiqmanı, zəruri fəlsəfi ideya və prinsipləri rəhbər tutmadan həyata keçirilir. Fəlsəfənin nə millisinə, nə də qeyri-millisinə müraciət belə sezilmir. Bu səbəbdən də fəlsəfənin və filosofların ictimai-siyasi proseslərdə iştirakı olduqca cüzi və zəifdir. Əlbəttə ki, belə vəziyyətin yaranmasında fəlsəfə sahəsində çalışan tədqiqatçıların da öz günahları az deyil. Onların əksəriyyətini cərəyan edən ciddi proseslər, baş verən ictimai və qlobal hadisələr, sanki, heç narahat etmir, düşündürmür. Nəticədə də fəlsəfəsiz bir siyasi mühit, fəlsəfəyə ehtiyac duymayan siyasətçilər və politoloqlar konqlomeratı formalaşır. Belə olduqda, kim zəmanət verə bilər ki, çıxarılacaq qərarlar, irəli sürüləcək təkliflər milli maraqlarımızın həyata keçirilməsinə, xalqın və dövlətin etibarlı gələcəyinə xidmət edəcək? Fəlsəfəsiz siyasət, görəsən, indiyə qədər hansısa xalqı bəlalardan qurtarıb, ona xoşbəxtlik gətiribmi?! Məgər fəlsəfəsiz dərin mətləblərə, çox vaxt alt qatlarda gizlənən səbəblərə varıb, mürəkkəb problemləri həll etmək mümkündürmü? Birmənalı deyərdim ki, yox! Bu qənaəti sübuta yetirmək üçün elə bizim öz tariximizdən, ictimai praktikamızdan kifayət qədər dəlillər gətirmək, misallar göstərmək olar.

Vurğulamaq istərdim: fəlsəfəsiz fəaliyyət, o cümlədən siyasi fəaliyyət o deməkdir ki, insan nəzəri və praktiki hərəkət müstəvilərində dünyagörüşü, metodoloji, qnoseoloji-məntiqi, aksioloji cəhətdən kamil deyil və deməli, varlıqların mahiyyətini dərk edib doğru-düzgün ontoloji mənzərəni yaratmaqda acizdir. Hansısa ontoloji təsəvvür varsa da belə, çox qüsurlu, qeyri-obyektiv, real həqiqətlərlə uzlaşmayan ola bilər. Təhrif olunmuş ontoloji müstəvi üzərində isə heç vaxt məhsuldar fikir generasiyası, problemlərin həllinə dair düzgün əqlinəticələrin çıxarılması mümkün deyil. Vəziyyətin belə olmasını biz bu gün bir sıra ciddi, gündəlikdə duran aktual məsələlərə, o cümlədən, Avropa İttifaqı ilə əməkdaşlıq və müttəfiqlik probleminə münasibətdə də görürük. Sözün düzü, bu mövzuda aparılan debat və diskussiyaların məzmun-mahiyyəti, başlıca vektorunun özü belə qaneedici deyil. Narahatçılıq üçün əsaslar çoxdur. Belə davam edərsə, yaxın gələcəkdə dövlətimiz ağır problemlərlə üzləşə bilər. Hətta, deyərdim ki, mövcudluğu təhlükə altına düşər.

Avropa İttifaqı ilə sazişlə bağlı siyasilərimizin təşkil etdikləri müxtəlif formatlı müzakirələr (səsləndirilən fikirlər, sərgilənən mövqelər baxımından) bunu deməyə əsas verir. Yenə də, sanki beyinlərə hakim kəsilmiş təfəkkür ətalətliyi üzrə, müzakirələrin ana xəttini "demokratiya", "insan haqları", "liberal dəyərlər", "siyasi məhbuslar" barədə əhəmiyyətsiz söz-söhbətlər təşkil edir. Əsas və başlıca hədəflər, yəni, millətin və dövlətin taleyi məsələsi, ərazilərimizin qeydşərtsiz işğaldan azad olunması, sərhədlərimizin toxunulmazlığı, dövlətimizin möhkəmləndirilməsi kimi problemlər lazımınca müzakirələrin gündəliyinə gətirilmir. Hətta Qarabağın işğaldan azad olunmasına dair vaxtilə qəbul edilmiş BMT qətnamələrinin birmənalı surətdə yerinə yetirilməsi imperativ bir şərt-tələb kimi qarşıya qoyulmur. Belə olan halda, Avropa Birliyi ilə bağlanacaq saziş bizə bir ölkə və dövlət olaraq nə verə bilər? Düşünürəm ki, heç nə, konkret olaraq isə, yeni-yeni ziyanlar, gözlənilən və gözlənilməyən təhlükələr, hətta faciələr gətirər!

Sağlam düşüncəli, vicdanlı hər bir kəs insan azadlıqlarına və ümumi rifaha təminat verən demokratiyaya, etibarlı və ədalətli dövlət idarəetmə formalarına qarşı deyil, lakin "yaxşı olan"ın hamısını yalnız Qərbdən ummaq, fikrimcə, ən böyük səhvlərdən biridir. Son onilliklərin acı təcrübəsi də bunu açıqca göstərir: biz Qərbə doğru daha çox cəhd etdikcə, bir o qədər normal həyat tərzindən, ədalətli ictimai münasibətlərdən uzaqlaşırıq. Faktiki, əməkdaşlıq və müttəfiqlik adı ilə Qərblə siyasi və geosiyasi oyunlara girərək, irəliyə doğru yox, geriyə gedirik, üstəlik, olub-qalan milli ənənə və dəyərlərimizi, təbii və insani-intellektual sərvətlərimizi də itiririk. İtkilərimiz o qədərdir ki, artıq həyacan təbili çalmağın vaxtı çoxdan çatıb. Nəzərə almırıq ki, Qərbin hədəflər sistemində Azərbaycanı xöşbəxt etmək kimi məqsədi yoxdur və heç vaxt da olmayıb.

Bəlkə, bir az düşünək, milli müqəddaratımızı, bütün gələcəyimizi xoş vədlərlə, şirnikləndirici başaldatmalarla öz yüzsifətli, yüzstandartlı siyasətini həyata keçirən Qərbin, dünyaya divan tutan qlobal kapitalist oliqarxatının sərəncamına verməyək. Dərk edək ki, transmilli korporasiya və şirkətlər vasitəsilə bəşəriyyətin qanını-iliyini soran, dünya xalqlarının sərvətlərini sümürən həmin bu sələmçi-spekulyativ kapital oliqarxatı həmişə alverçi-qarətçi psixologiyası ilə yaşayıb və birdən-birə mərhəmətə gəlib, rəhmdillik göstərib məzlum xalqlara, istismar altında inildəyən bəndələrə xoşbəxtlik gətirəsi deyil. Anlayaq ki, bu bədnam oliqarxatın dünyaya hesablanmış bir dəyişməz fəaliyyət proqramı var: bir tərəfdən, durmadan başqa xalqları qarət və istismar etmək, digər tərəfdən, neomaltusçuluq ideallarını həyata keçirərək (bütün vasitələrdən istifadə etməklə) həmin bu xalqların sayını azaltmaq, bir sözlə, "qızıl milyard" naminə "artıq ağız"ları ölümə məhkum etmək – minimum yaşayış imkanlarını əllərindən almaqla, hər cür xəstəliklər yaymaqla, daxili münaqişələr törətməklə, qanlı müharibələrə yol açmaqla və s.

Məgər bəlli deyilmi ki, hələ "soyuq müharibə" illərində kapital oliqarxatının məkrli planında bu üç hədəf başlıca yer tuturdu: birincisi – SSRİ-ni çökdürmək, ikincisi – müsəlman dünyasını dağıtmaq (burada türk arealına, o cümlədən azərbaycan türklərinə qarşı həyata keçiriləcək həmlələrə və onların tərkib hissəsi olan erməni amilindən istifadəyə, habelə, müxtəlif mənşəli etno-milli, dini ziddiyyətlərin kəskinləşməsinə və münaqişələrin yaranmasına xüsusi yer ayrılmışdır!), üçüncüsu – köklü islahatlar hesabına ciddi sosial-iqtisadi, mədəni-mənəvi inkişafa və günbəgün artan geosiyasi mövqelərə sahiblənən Çin Xalq Respublikasına mümkün zərbələr endirməklə onun yüksəlişinin qarşısını almaq, bununla da Britaniyanın patronajlığı altında ABŞ-ın (yəni, Qərbin və onun təqdimatındakı avroatlantik kapitalizmin) davamlı hegomonluğunu təmin etmək.

Mənəvi-intellektual, ideya-siyasi, fəlsəfi refleksiya cəhətdən başdan xarab olmuş SSRİ, gördüyümüz kimi, çökdü və parçalandı, dalınca və müəyyən qədər də parallel surətdə Qərb kapitalizmi zəngin təbii sərvətlərdən məst olmuş, ayıqlığını itirmiş müsəlman dünyasını sökməyə girişdi. Müsəlman ölkələrini viranə qoymaq üçün SSRİ-nin sürətlə zəifləyib çökməsi kapital oliqarxatına əlavə imkanlar və güc yaratmışdır. Bu gün artıq bir sıra müsəlman ölkələri formal olaraq siyasi-coğrafi xəritədədir. Türk arealının elm, mədəniyyət, ədəbiyyat

və incəsənət məbədi, fəlsəfi fikir generasiyasının nüvəsi olan Azərbaycan hər iki hədəfin (SSRİ-nin və müsəlman dünyasının çökdürülməsi!) kerçəkləşməsində xüsusi bir yer tutmuşdur. Ölkəmizin özü, faktiki, Qərb kolonializmininin, avroatlantik güclərin böyük ustalıqla və məkrlə sərgilədiyi səlib yürüşünün mühüm hədəfinə çevrilmişdir.

Anqlosakslar yaxşı anlayırdılar ki, Azərbaycanı zəiflətmək – bütün türk arealını zəiflətmək, taqətdən salmaq deməkdir. Üstəlik də, beynəlxalq irtica qüvvələr onu da gözəl anlayırdılar ki, Cənubi Qafqazda vəziyyəti qarışdırmaq, qanlıqadalı toqquşmalara yol açmaq, xalqları üz-üzə qoymaq, qarşılıqlı nifrət və düşmənçilik alovunu şiddətləndirmək – SSRİ-nin ciddi zədələnməsi və dağılması üçün mühüm amil və vasitədir. Əlbəttə ki, mənfur işlərini həyata keçirmək üçün Qərbin neoimperialist dairələri, erməni separatçılarına hərtərəfli maddi-texniki, maliyyə, mənəvi-ideoloji və informasiya dəstəyi verməklə yanaşı, ilk növbədə, elə Azərbaycana qonşu olan ölkələrin, o cümlədən Rusiya, Türkiyə və İranın müxtəlif siyasi dairələrinin, kəşfiyyat və media orqanlarının, agentura şəbəkələrinin gücündən məharətlə istifadə etmişlər. Qarabağ uğrunda mübarizədə Azərbaycan, sözün əsl mənasında, təklənmiş və amansızcasına mühasirəyə alınmışdır.

Həmçinin, 1987-ci ilin oktyabr ayında böyük ağıla. siyasi təcrübəyə, idarəçilik ustalığına malik Heydər Əliyevin artıq Qərbin maraqlarına işləyən və mahiyyətcə ermənipərəstliklə fərqlənən (Qorbaçov, Yakovlev, Yeltsin, Şahnazarov, Aqanbegyan və b.) bəzi yüksək səlahiyyət sahiblərinin əli ilə SSRİ KP MK-nın Siyasi Bürosu üzvülüyündən və SSRİ Baş nazirinin birinci müavini vəzifəsindən uzaqlaşdırılması, habelə, Azərbaycanın yerli hakimiyyətinin məqsədyönlü surətdə içəridən zəiflədilməsi, Azərbaycanın siyasi səhnəsinə xeyli sayda kəmsavad, naşı, səriştəsiz, primitiv düşüncə və emosiyalar əsasında hərəkət edən hay-küyçülərin, məsuliyyətsiz və vicdansız qaragüruh topasının çıxarılması – bütün bunlar ölkəmizə, xalqımıza qarşı təşkil olunmuş mənfur planın tərkib elementləri, dəqiqliklə hesablanmış amil-hissələri idi. Nəticə olaraq, Azərbaycanın mərd oğul və qızlarının rəşadətli müqavimətinə, igidliyinə baxmayaraq, torpaqlarımızın əhəmiyyətli bir hissəsi işğal edilmiş və bu gün də düşmən tapdağı altındadır.

Həqiqətin bundan ibarət olduğunu bilərək və yaxud da onu müxtəlif səbəblərdən pərdələyərək, yenidən Avropanın, qəddar və hiyləgər kapital oliqarxatının qapısını kəsdirmək, demokratiya və torpaqların işğaldan azad olunması ilə bağlı hansısa dəstək gözləmək, ədalətli münasibət ummaq bizə nə verə bilər? Bu, sadəcə, siyasi mazoxizmlə məşğul olmaq deyilmi?! Uzunmüddətli, davamlı belə məşğuliyyət ayrı-ayrı siyasilərə, politoloqlara, ola bilsin ki, keçici bir məşhurluq və az-çox maddi divident gətirsin, ancaq əvəzində Azərbaycan deyilən bir məmləkət, dövlət çox şey itirər, hətta, açıq deyirəm, əlavə ərazilərin işğalına da öz əlləri ilə yol açmış olar.

Bu məcrada düşünərkən, Avropa İttifaqı ilə bağlanacaq sazişin müzakirə predmetinin önünə, daha doğrusu, mərkəzinə demokratiya, insan haqları, liberal dəyərlər, siyasi məhbuslar kimi məsələlərin çəkilməsini düzgün hesab etmirəm.

Ümumilikdə isə, prinsipial olaraq, belə sazişin, yəni, Avropa İttifaqına müxtəlif öhtəliklərlə pərçimlənmə xəttinin əleyhinəyəm. Əks tərəfin daxili həyatla bağlı tələb-şərtləri altında sazişə gedmək (özü də məkri-hiyləsi məlum tərəflə və dünyanın belə bir sərt dönəmində!) əvvəlcədən dövlətin əl-qolunu bağlamaq, siyasi hakimiyyəti şantaj etmək, ona qarşı təhdidlər və hədələr ortaya qoymaqdır ki, son nəticədə dövlətin də, millətin də xeyrinə işləmir. İndiyə qədər belə bir nümunəyə rast gəlməmişəm ki, kimsə (uzaq və yaxın qonşuluqdan) gəlib başqasının evində qayda-qanun yaratsın, hansısa zorakılığa, özbaşınalığa və yaxud haqsızlığa-ədalətsizliyə son qoysun. Nizamın, qayda-qanunun etibarlı qaynaqları, insani münasibətlərin ocaqları kənardan transver edilə bilməz, bu fəzilətlər daxili potensiya, özəl determinatlar hesabına formalaşır və bilavasitə xalqın xarakterini, düşüncə tərzini, mədənilik səviyyəsini və həyat fəlsəfəsini ifadə edir.

Ruslar çoxdan, hələ sovetlər dönəmindən, ailədaxili qayda-qanun məsələsini öz rəşadətli milisinə həvalə etmişdi (indi isə polis məşğuldur). Di gəl ki, nə ailələrdə nizam-intizam yarandı, nə də, üzr istəyirəm, alkaşlığa, xəyanətə-şortuluğa son qoyuldu. Əksinə, kənardan müdaxiləyə vərdiş etmiş rus ailəsi ağlasığmaz destruksiya və deqradasiyaya uğradı. Üstəlik, bu yoluxucu xəstəliyi (hiyləgər Avropanın məstedici liberal dəyərlərinin alqışlanması və təbliği fonunda!) kənar ölkələrə, o cümlədən Azərbaycana da yaya bildi. Təsadüfi deyildir ki, son onilliklər ərzində "gender bərabərliyi", "qadına qarşı zorakılıqla mübarizə", "qadın hüquqları" mövzusunda (milli fəlsəfəmizin, güya ki, inkişafı naminə!) yüzlərcə dissertasiyalar yazılıb və yazılmaqdadır. Bu bihuşedici "elmi" dəbin təntənəsi altında isə gündə bir kişinin başı "azad sevgi aşıqləri"nin baltasına tuş gəlir. Mən heç bu bədnam müasirliyin və sivilliyin, bu şiddətli azad sevginin nəticələrindən, acı meyvələrindən – anadangəlmə bədbəxt uşaqlardan, milli genofondun zədələnməsindən danışmıram. Dahilərin, qəhrəmanların, millətə və bəşəriyyətə yararlı oğul və qızların təməli-mənşəyi biclikdən, pozğunluqdan törəyə bilməz!

Qərbin onilliklər öncə öz qarşısına qoyduğu üç başlıca hədəfdən ikisinin asanlıqla reallaşmasının mühüm səbəblərindən biri ondan ibarət idi ki, artıq nə SSRİ, nə də müsəlman dünyası tarixi zamanın tələblərinə cavab verən milli fəlsəfəyə malik deyildilər. Elə fəlsəfəyə ki, ölkədaxili miqyasda ümumi mənəvi-psixoloji, ideya-nəzəri inteqrasiyaya, əqidə və əməl birliyinə xidmət etsin, xalqların vahid məkanda birgə mövcudluğuna və fəaliyyətinə əsas olsun. İ.Stalindən sonra SSRİ-də "inkişaf" etmiş sosial-siyasi fəlsəfə qətiyyən göstərdiyim bu təyinata cavab vermək iqtidarında deyildi. Onun nə milli səciyyəsi, nə ümumdövlət gücü vardı, artıq hər şey tükənmişdir. Hökmranlıq mövqeyindən sərgilənən marksist-leninçi fəlsəfə, faktiki, heç bir təsir gücünə qadir olmayan ehkamlar sisteminə, mənasız hökmlər yığımına çevrilmişdir. SSRİ-nin bir dövlət olaraq fəlsəfi-siyasi beyini, sözün əsl mənasında, çürümüş, hansısa çevik, adekvat reaksiya vermək qabiliyyətində deyildi. Aydındır ki, məntiqi olaraq, belə dövlət birləşmiş imperialist güclərin düşünülmüş həmlələri qarşısında duruş gətirib, yaşaya bilməzdi.

Eyni mənzərə, yəni, milli-dövlətçilik fəlsəfəsinin yoxluğu və yaxud bu təq-

dimatda çıxış edən donuq, cansız, evristik məzmun-mahiyyətdən məhrum "fəlsəfə"nin mövcudluğu, ümumən, müsəlman dünyasına xas idi. Ayrı-ayrı müsəlman ölkələrinə məxsus hakim fəlsəfi-siyasi düşüncə platformaları əslində elə də daxili elmi-intellektual gücə, yaradıcı inkişaf qabiliyyətinə, zəmanənin tələblərini ödəmək iqtidarına malik deyildilər. Bu fəlsəfi-siyasi platformalar, mahiyyət etibarilə, daha çox xüsusi subyektivlik amilləri, despotik rejim təfərrüatları ilə determinasiya olunan və müəyyən qədər də xaricdən transfer edilmiş hökmverici imperativlərdən, ehkamlar yığımından ibarət idi. Bir sıra müsəlman ölkələrində "ərəb sosializmi" deyilən fəlsəfi-siyasi trend fəaliyyətdə idi ki, müxtəlif fərqləndirici modifikasiyalarına baxmayaraq, vaxtilə SSRİ-dən transfer edilmişdir və yaradıcı, mütərəqqi inkişaf baxımından elə əvvəlcədən qaneedici deyildir. Üstəlik də, "ana mənbə"nin özü, qeyd etdiyim kimi, ciddi tənəzzül yaşamaqda və tükənməkdə idi.

Qlobal kapitalizmin lokomativi-nüvəsi rolunu daşıyan Qərb imperializmi, gördüyümüz kimi, üçüncü hədəfə – Çinin inkişafının qarşısını almaq, onu zəiflətmək, çökdurmək arzusuna nail ola bilmədi. Və bəribaşdan bildirim ki, heç vaxt nail olmayacaq, çünki Çin Xalq Respubliyasının qibtəedici ümummilli mahiyyətli fəlsəfi-siyasi platforması, olduqca ağıllı, məsuliyyətli və çevik, sosial və tarixi zamanın tələblərinə müvafiq fəaliyyət göstərən dövlət beyni var. Bu beyin geosiyasi və geostrateji, iqtisadi, elmi-texniki və texnoloji, milli ruh gümrahlığı və gücü, mənəvi-psixoloji yetkinliyi və vahidliyi baxımından kifayət qədər Çini irəli aparmaqdadır. Tam əsasla deyə bilərəm ki, Çinin növbəti dünya liderinə çevrilməsi nəinki mümkündür, hətta artıq çox gözləniləndir. Bəllidir ki, belə gediş dinamikası, başda ABŞ və Britaniya olmaqla, Qərbi narahat etməyə bilməz. Bu mövzuda zəruri bildiyim bəzi açıqlamaları, təhlil və ümumiləşdirmələri, təklif və tövsiyələri 2019-cu ilin əvvəllərində nəşr olunmuş "Yeni dünya nizamı: siyasət və idarəetmə" adlı kitabımda hörmətli oxucularımıza təqdim etmişəm. Burada onları bir daha təkrarlamaq istəmirəm.

Beləliklə, ictimailəşdirmək istədiyim fikir bundan ibarətdir: milli fəlsəfəsi olmayan xalq gələcəyə vəsiqə alıb, dövlət statusunda yaşaya bilməz. Etibarlı dövlətçilik, qaneedici ictimai həyat, kamil sosiallaşma və müasirləşmə milli fəlsəfəsiz mümkün deyil. Milli fəlsəfəsiz yaşamaq – köksüz, dayaqsız və qidasız qalmaq, sərsəm-səfeh hərəkətlərə yol vermək, daha çox özün yaratdığın bataqlıqlarda batmaq deməkdir. Belə yaşayış məhsuldar, ləyaqətli və şərəfli ola bilməz, həmişə mənəviyyatı, daxili azadlıq ruhunu boğar, yaradıcılığın və tərəqqinin qarşısını alar, bütövlükdə xalqın və ayrılıqda hər bir fərdin özünəgüvənini söndürər. Aydındır ki, belə mövcudluq daxilində kənardan imdad diləmək, ələbaxımlıq etmək bir mənfur vərdişə, xəstəliyə çevrilər. Xəstəlik, əqli şikəstlik o dərəcədə qana-iliyə yeriyir ki, xalq, məğrurluğunu, simasını itirmiş fərdlər yığımına çevrilir – aqressiyası, qaragüruhçuluğu, bicliyi və hiyləsi bol, rəşadəti və casərəti isə az, iradəsi və dəyanəti zəif kütləyə! Kütlə "yer üzünün əşrəfi mənəm!" bağırtısı ilə qulaqları batıra bilər, ancaq sağlam bir cəmiyyət quruculuğu yolunda qara qəpiklik iş görə bilməz.

Milliliyi olmayan fəlsəfə – axtalaşdırılmış, "Mən"siz, cansız-qansız nəsnə-

dir, simasız və mənəviyyatsız bir şeydir. Belə "fəlsəfə" alovlandırıcı-yaradıcı ruh daşıyıcısı, idraki zirvə nümunəsi ola bilməz. Fəlsəfə, ən qədim dövrlərdən indiyə qədər, məhz milli özəlliklərinə, etno-psixoloji yükünə görə, daşıdığı və ifadə etdiyi xalq ruhu hesabına mədəniyyət sisteminin mühüm atributu, ictimai şüurun xüsusi forması kimi qərarlaşıb və inkişaf edib. Təsadüfi deyildir ki, biz, məsələn, "alman fizikası" ifadəsini qeyri-məqbul, ancaq "alman fəlsəfəsi" anlayışını məqbul sayırıq. Eləcə də, "çin fəlsəfəsi", "ingilis fəlsəfəsi" və yaxud "fransız fəlsəfəsi" deyəndə əndişələnib, narahatçılıq keçirmirik, onları yerində işlədilən, adekvat mənalı ifadələr kimi qəbul edirik. Bu kontekstdə düşünərkən, biz öz milli fəlsəfəmizdən söhbət açmağı da nəinki məqbul, hətta zəruri hesab edə bilərik. Əzəl-axır, fəlsəfəmizin genetik-tarixi, təşəkkül-təkamül müstəvisində nəzərdən keçirilməsi, onun yaddaş kodlarının, dil-təfəkkür özəlliklərinin açılması, elmi-mədəni təsir gücünün öyrənilməsi yalnız fəlsəfə tarixi üzrə mütəxəssislərin deyil, bizim hamımızın üzərinə düşən vəzifə, böyük yükdür.

Bir də ki, milli köklərə qayıdış, öz simasına sahiblənmək qətiyyən dar, məhdud çərçivələrə sığınmaqdan, ətraf aləmdən uzaqlaşmaqdan, başqa xalqların əldə etdiyi zəngin elmi, fəlsəfi, mədəni xəzinəyə laqeydlikdən ibarət ola bilməz. Əksinə, milliliyə qayıdış və ondan bəhrələnmək, öz kökü üstündə formalaşaraq yeniliklərə imza atmaq, birmənalı olaraq, başqa xalqların tarixi nailiyyətlərini, onların təcrübəsini yaradıcı surətdə öyrənməkdən keçir. Milli olmaq – dünya xalqlarını tanımaq, bilmək, onlardan öyrənmək və onlara hörmət bəsləmək, sayğılı olmaq deməkdir. Aləmə nifrət püskürməklə yaxşı nəyisə öyrənmək, qarşılıqlı fayda götürmək, yeni bəşəri əhəmiyyətli nümunələr yaratmaq, millətləşmənin və müasirləşmənin növbəti yüksək səviyyəsinə sahiblənmək mümkün deyil.

Milli ləyaqət hissi, milli mənlik şüuru və milli fəlsəfə, dil, ədəbiyyat, incəsənət bir-birini şərtləndirən, doğuran, tamamlayan və kamilləşdirən fenomenlərdir. Burada səbəb-nəticə əlaqələri olduqca dinamik və mürəkkəbdir. Elə, ən azından, bu əlaqələrin doğru-düzgün açılması və öyrənilməsi məhz milli fəlsəfənin varlığı, işgüzarlığı hesabına mümkündür. Bu mənada da fəlsəfə millətləşmənin həm ən vacib vasitəsi, həm də nəticəsi-məhsulu hesab olunmalıdır. "Millətləşmə, ilk növbədə, milli fəlsəfə vasitəsilə reallaşır" fikrini söyləmək üçün, düşünürəm ki, əlavə dəlilə, təfsilə hacət yoxdud. Bu həqiqəti dərindən anlamaqla və ona əməl etməklə biz xroniki qənim kəsilmiş şərq qaranlığından, şərq istibdadından, şərq ətalətindən azad ola bilərik. Və bu azadlığa sahiblənmək üçün müticəsinə Avropanın, ABŞ-ın müəmmalı strukturlarından işıq çırağı, mərhəmət diləməli deyilik. İmdad diləmək əvəzinə, yaxşı olar ki, Qərbdən transfer edilən entropiyanın qarşısını alaq, özümüzə məxsus olan ictimai zəmin və daşıyıcıları sağlamlaşdıraq.

Bəli, hörmətli oxucular, qarşımızda həll olunası, çözüləsi xeyli ağıryüklü məsələlər durur. Milli fəlsəfə mövzusuna həsr olunmuş bu elmi məcmuə də məhz həmin məsələlərin həlli istiqamətində hazırlanmış və təqdim edilmiş bir kollektiv əsərdir. İndiyə qədər, 2010-cu ildən başlayaraq, buraxdığımız tematik elmi məcmuələr silsiləsində onuncu olan bu kitab bizim üçün xüsusi yer tutur və

əhəmiyyət daşıyır. Onun gələcək taleyi, necə qarşılanması, fərdi və ictimai şüura nə kimi təsir göstərəcəyi, əlbəttə ki, bizi ciddi düşündürür. Gözləntilərimiz çoxdur. Şübhəsiz, istərdik ki, bu ümumi yaradıcılıq məhsulu dərin və hərtərəfli müzakirə predmetinə çevrilsin, insanlarda yeni bir impuls yaratsın, ictimai fikrin inkişafına xeyir gətirsin, tərəqqi yolunda bir töhfə olsun. Nəhayət, haqq-ədalət tələblərinə uyun olaraq, bu kitabın ərsəyə gəlməsində hamıdan çox əməyi olan dəyərli alim, fədakar insan, professor Əli Abasova bütün müəlliflər adından dərin minnətdarlığımı bildirirəm.

Əbülhəsən Abbasov
e-mail: abulhasan.abbasov@mail.ru

Вместо введения

Этой коллективной монографией завершается первая часть серии публикаций, посвященных исследованию состояния современной философии (2011 – 2019 гг.):

1. Современная философия и Азербайджан: история, теория, образование (2011);

2. Современная философия, наука и культура: постнеклассическая эпистемология (2011);

3. Национальные стратегии, идеологии и международные отношения: история, теория и современные практики (2012);

4. Общество, религия, государство (2013);

5. Современная философия: новейшие направления познания (2013).

6. Культура эпохи постнеклассической эпистемологии и постмодернизма (2014 – 2015).

7. Философия геополитики и современный мировой порядок: эпистемология постнеклассического периода (2016).

8. Философия экономики: история и современность (2017).

9. Философия истории: ретроспектива и перспектива (2018).

10. Национальная философия (2019).

Когда почти десять лет назад мы, сотрудники отдела «Гендерные исследования и новейшие направления познания, завершив 12-ти летнее исследование гендера и проблемы женщины в Азербайджане (25 монографий и сотни статей), решили сменить общую тематику, ставилась достаточно скромная задача, сформулированная вопросом: «Какая философия нужна современному Азербайджану?». Предполагалось, что обсуждение проблем развития Азербайджана на фоне его культурного наследия может способствовать определению возможных ответов на этот вопрос, заданный на гребне набегающей волны глобализации и свернувшихся в тугой узел переживаемых многочисленных переходных процессов, запущенных на излете советской формации и ускоренных распадом СССР и обретением независимости. Как говорится, конкретная исследовательская программа, вероятно, ставившаяся и решавшаяся в каждой из постсоветских стран. Планировалось в объеме одной коллективной монографии описать влияние основного геополитического фактора (*глобализации*) на ход мировых процессов в целом и на изменение политических, экономических и культурных сценариев развития отдельной страны, выраженных в ее *социокультурных моделях развития*. Мы полагали, что именно в этом контексте национальное культурное наследие или противостоит, или же, при удачной интерпретационной модели культуры, способствует устойчивой консолидации общества и позитивному развитию страны. Вдохновленные схемой Ф. Фукуямы, мы думали выяснить, когда один из вариантов так называемого «*Ве-*

ликого Разрыва» начал осуществляться в Азербайджане, и каковы последствия этого феномена (*если он состоялся*). Конечно, мы обращали внимание на общее состояние духовных и культурных исканий, объединяемых на мировоззренческом уровне концепций *постмодернизма и постнеклассического познания*, разрушивших привычную классическую картину мира, заменив мир объектов (и субъектов) миром спорадически возникающих *сетей взаимоотношений* между ними. Обращали, но в границах горизонта наличного сознания того времени, наивно полагающего решить в общих чертах проблему в заявленных объемах печати. Вокруг, в мире, все говорили о проекте создания *новой философии*, мы решили включиться в эту игру, результат *пред* читателем.

Материалы *второй* коллективной монографии стали первым опытом системного исследования в Азербайджане проблем постнеклассической философии, ее преломления и взаимодействия с наукой и культурой в целом. Нельзя сказать, что постнеклассическая философия являлась некой *terra incognito* для азербайджанских философов – многие из них давно и успешно работали в различных областях этого направления познания. Проблема заключалась в том, что большинство исследований носили историко-теоретический характер и слабо связывались с практическими реалиями философии, науки, современного азербайджанского государства и общества.

Главная цель заключалась не только в ознакомлении исследователей, занимающихся социально-гуманитарными и естественнонаучными проблемами, с потенциалом постнеклассической философии, но и в стремлении выявить те области исследований в Азербайджане, в которых эта эпистемология уже применялась, или же могла с успехом применяться в ближайшем будущем.

В этой связи объектом пристального внимания стало современное образование в республике, призванное путем освоения новых постнеклассических технологий полностью реформировать систему преподавания, подняв главный социальный капитал современности (человек+образование) на новый уровень. К сожалению, пришлось констатировать, что не только в преподавании отдельных дисциплин, но и самой философии, все еще довлели старые методы и программы образования. Достаточно сказать, что доступные нам программы, пособия и учебники по различным философским дисциплинам, преподаваемым в высших учебных заведениях страны, практически не содержали материалов по постнеклассике, в лучшем случае ограничиваясь упоминанием оппозиции: «классическое – неклассическое познание». Сложившуюся ситуацию следовало коренным образом менять, необходимо было сконструировать/создать общую непротиворечивую систему/парадигму развития и взаимосвязи классического, неклассического и

постнеклассического познания, выработать методику и методологию освоения ключевых моментов этой системы в философии и отдельных науках. Важнейшей задачей считалось внедрение постнеклассических воззрений и методов в практику исследования современного азербайджанского общества, трансформирующейся культуры и системы ценностей, формирования постнеклассической философии управления (обществом, государством, экономикой, культурой, интеллектуальными ресурсами).

Уже тогда мы поняли, что обойтись собственными немногочисленными силами не удастся, начиная со второй монографии, мы перешли к практике приглашения авторов постсоветского пространства и западных стран. Во второй монографии были опубликованы статьи ряда российских философов, любезно предоставивших свои работы.

Издание первых двух книг стало возможным благодаря всесторонней поддержке ныне покойного президента Национальной Академии наук Азербайджана, академика М. К. Керимова, проявлявшего большой интерес к развитию философских исследований в Азербайджане.

Третья монография вышла к 200-летнему юбилею со дня рождения выдающегося азербайджанского просветителя, зачинателя современной национальной философии, прозы, драматургии, беспощадного критика восточного деспотизма и религиозного фанатизма – Мирзы-Фатали Ахундзаде. Издание было посвящено этому мыслителю, идеи которого приобрели особое значение в условиях суверенного развития Азербайджана. Первая часть коллективной монографии достаточно подробно анализировала роль М.Ф. Ахундзаде в формировании идейных основ национальной самоидентификации азербайджанского народа.

200 лет назад в европейских странах не составляло особого труда писать о национальной идее, национальной идеологии, их практической реализации – национальной стратегии развития. В формирующихся в Европе национальных государствах и обществах, дифференцированных на классы и сословия, национальная идея сводилась к консолидации всех составных частей социума в единое целое с четко сформулированной системой национальных идей, ясной идеологией достижения общенациональных целей, выстроенных в конкретную стратегию развития. На том, первом этапе превращения народов в нации отличительным признаком социальной сущности человека выступала этническая идентификация, и, по снижающейся планке значимости – конфессиональная, языковая и сословная принадлежность. В процессе перехода от народно-этнической к национальной идентификации существенной осталась, пожалуй, одна, да и то не во всех государствах и обществах, идентификация – языковая. За этот в целом длительный промежуток истории государств Запада происходила трансформация основного элемента консолидации – этнического – в новый интеграцион-

ный элемент, который носил политический и отчасти экономический характер. «Единицей» анализа становилось понятие гражданин – персона, наделенная определенными политическими, экономическими и социально-культурными правами, не зависимо от этнической, конфессиональной, а в дальнейшем и гендерной идентификации этой единицы. Упрощенно говоря, консолидированная общность всех этих единиц производила новое понятие – нация, - отличие которой от понятия народа очевидно заключено в оппозиции этнических и политических различий.

Разработка национальных – идеи – идеологии – стратегии постсоветских государств и обществ наталкивалось по крайней мере на два препятствия. Эти государства и их общества в силу исторических реалий были лишены опыта западных стран, например, перипетий непрерывного независимого развития. Второе – смена движителя мирового процесса, в роли которого выступила глобализация, усложнившаяся протекание и без того тяжелого переходного периода от тоталитаризма к демократии.

Казалось бы, достаточно, откинув все сомнения, выбрать западный путь развития, шагнув из мира этнического в мир национальный. Но этому препятствовал как изменившийся политический климат мирового порядка, так и невозможность осмысленно пережить «в уме» реальный исторический переход от народа к нации. Подтверждением этого вывода стал крах попыток осуществить такой переход на практике в начальные «эйфорийные» годы независимости, когда национально-демократические режимы почти по всему постсоветскому пространству были отрешены от власти. Хотя большинство из них, так или иначе, были сторонниками «этнического» понимания нации, за годы оппозиционного противостояния многие несколько дистанцировались от жесткого национализма, в то время как новые власти, если и не по букве, то по духу, интегрировали этнический «багаж» в свою национальную идеологию по самым разным причинам.

В результате возникла заметная путаница в понимании национальной идеи и идеологии, многообразие их определений, а часто и отрицание плодотворности этих концептов и необходимости использования их на практике.

Национальная идея и национальная идеология в большинстве случаев трактуются в этно-национальном контексте, хотя в целом можно отметить существенный «плюрализм» по данному вопросу.

Термин Тенгри, также, как и в орхоно-енисейских памятниках, обозначает высшую силу, могущество: он используется в словосочетаниях «`уғантаӈрӣ» (всемогущий Тенгри) (**6, 110 строка**); «таӈрӣ `улйӣрикйаратғän» (Тенгри он землю породил) (**6, 782 строка**); «таӈрӣқулӣқулбäқ» (раб Тенгри Кулбак) (**6, 440 строка**) (который по преданию писал на твердых черных камнях, как и битигчи, оставившие орхоно-енисейские тексты); в описании природных явлений: «таӈрӣбулит `ағиттӣ» (Тенгри вознес тучу) (**6, 227 строка**), «таӈрӣйағмурйағиттӣ» (Тенгри дождь ниспослал) (**6, 706 строка**), «таӈрӣ қär қарлаттӣ» (Тенгри снег ниспослал) (**6, 727 строка**), или «таӈрӣ täғ бир лäй ӣрик басурдӣ» (Тенгри горами землю придавил) (**6, 529 строка**); в определении мистической силы Тенгри: «таӈрӣ қарғишӣ `аник `узä» (проклятие Тенгри на него будет) (**6, 429 строка**).

В словаре Кашгари понятие Тенгри употребляется также для обозначения власти высшей силы над жизнью и смертью человека. Здесь мы читаем: «таӈрӣ `уғул туғтурдӣ» (Тенгри сделал так, чтобы сын родился) (**6, 597 строка**), «таӈрӣ йалӈуқ туруттӣ» (Тенгри сотворил Адама (человечество) (**6, 695 строка**), а также: «таӈрӣ `улук тиркурдӣ» (Тенгри воскресил мертвого) (**6, 602 строка**), что весьма схоже с таким местом из памятника Kűltegin II: «вы умерли (букв. улетели) пока Тенгри не сделает вас живыми снова».

В Диване Тенгри выполняет и достаточно «приземленные» функции: встречаются нередко выражения «таӈрӣ манӣ қутғардӣ» (Тенгри меня избавил) (**6, 612 строка**), «таӈрӣ манӣ байуттӣ» (Тенгри меня сделал богатым) (**6, 711 строка**), «таӈрӣ `анӣ қинädӣ» (Тенгри его покарал) (**6, 947 строка**).

В Словаре также немало мест, где понятие Тенгри имеет чисто религиозное значение: «таӈрӣ табуғӣ» (поклонение Тенгри) (**6, 354 строка**); «таӈрӣ нӱмӣ» (вера Тенгри) (**6, 842 строка**).

Употребление понятия Тенгри в словаре Кашгари позволяет сделать однозначный вывод о том, что оно прочно вошло как в философский словарь тюрков, так и в повседневное словоупотребление. Примером последнего может служить пословица: «сускäн `ӱзқä таӈрӣ муӈуз бӣрмäс» (Бодливому быку Тенгри рогов не дает) (**6, 1011 строка**).

В философском труде Кожа Ахмета Ясауи, тюркского мыслителя средневековья, «Диуани хикмет», который принадлежит к суфийской философской традиции, важное место занимают тюркские мировоззренческие элементы.

Тюркская мировоззренческая основа заметна в понятийном аппарате «Диуани хикмет». Такие понятия, как: «канағат» (удовлетворение, мера); «тағдыр» (судьба); «ырзық, құт» (счастье, благоденствие, достаток); «хақ» (истина); «аманат» (наказ, наследие); «рух» (дух); «аруақ» (дух предков);

«ақыл» (разум); «көк» (небо); «Тәңір» (Тенгри); «Қызыр баба» и многие другие очень часто встречаются по всему тексту «Книги мудрости». Они, с одной стороны, прочно вошли в словоупотребление тюрков, с другой – их особенности употребления, их интерпретация у Яссауи повлияли затем на формирование общетюркского философского словаря.

Наиболее ярким примером проявления тюркского мировоззренческого концепта у Ясауи можно считать отрывок из 19 хикмета, где речь о почитании им памяти его учителя Арыстан Баба: «Жарасар елге тату, жайра ңзаман, Сыйындым аруағыңа, қайран бабам! (Прекрасно, когда народ мирный и радостный, Преклоняюсь перед памятью твоей святой мой предок!)» (**7, 68 б.**).

Интересные параллели наблюдаются между идеями Ясауи и жившим в 14 веке Асан Қайғы. У Ясауи мы читаем: «Түбінде дарияның жақұт жатыр, Кім сүңгіп алса – сол жан бақытты ақыр (На дне реки драгоценный камень лежит, Кто его достанет – тот станет счастливым в итоге)» (**7, 83 б.**). А у Асан-ата: «Таза мінсіз асыл тас, Су түбінде жатады. Таза мінсіз асыл сөз, Ой түбінде жатады (Чистой воды драгоценный камень, На морском дне лежит. Чистые, драгоценные слова, На дне души лежат)» (**8, 243 б.**).

В тюркской мыслительной традиции первичны этические требования к личности, как, например, в философии человека Жусупа Баласагуни. Для него наиболее важно стремление человека к знаниям, науке, моральные качества. В «Кутадгу билик» он писал: «Величье дается благим разуменьем, А знанья – основа великим свершеньям» (**4, с.42**).

Этот этический рационализм и максимализм стали затем доминантны и в антропологии Ясауи, который наряду с «совершенным человеком» выделял также «несовершенного человека», качествами которого являются тщеславие, зависть, двуличие, невежество, мстительность, ложь и др. Для избавления от этих дурных качеств необходимо нравственное совершенствование, что означает по Ясауи следующее: необходимо начистить до блеска зеркало, чтобы узреть в нем бога, т.е. очистить свое сердце.

Особое внимание уделяет тюркский мыслитель обличению такого порока, как невежество. Пятнадцатый хикмет в «Диуани хикмет» посвящен полностью невежеству, его пагубности, следствиям, к которым оно приводит и причинам его, определению видов невежества. Причем сам автор прямо призывает читателей его труда, учеников последовать его советам, побороть невежество, найти путь к истине. И выражается это в предельно эмоциональном ключе: «Ей, достар, жолдас болып қас наданмен, Өлдім де – өз қадырым жойдым міне. (Эй, друзья, если выбрали в товарищи полного невежду, Вы погибли – потеряли уважение к себе)» (**7, 60 б.**).

Этический максимализм Ясауи имеет и социальное измерение. Так, в 46 хикмете он изобличает дервишей, мулл, муфтиев, кази, имамов, акимов,

которые вместо истинной веры погрязли в мздоимстве, погоне за богатством, веруют на словах, а не на деле. Следующие слова Ясауи сказаны как будто сегодня: «Арам әкім араны бітеу жұтып параны, Өз бармағын, өкініп, өзі шайнап қалады (Нечестный аким от алчности целиком проглотит взятку, Будет потом, сожалея, кусать локти)» (**7, 108 б.**).

Другая интенция, ставшая отличительной чертой суфизма Яссауи и воспринятая им из тюркской мыслительной традиции – идея тщетности человеческого бытия.

У Ясауи есть несколько хикметов, в которых сожаление о прожитой жизни, неудовлетворенность собой, печаль и горе становятся доминантными настроениями. Так, в 30 хикмете он восклицает: «Көзім – жас, көңілім – қайғы, жаным – жалын, Қайтсем-ай, не етерімді білмен, достар. Қан жұтып, бұл қасіреттен арылмадым, Қай жаққа кетерімді білмен, достар (В глазах – слезы, в сердце – тоска, в душе – огонь, Что делать мне, не знаю, друзья. Кровью захлебываюсь, не могу избавиться от этого горя, Не знаю куда уйти, друзья)» (**7, 82 б.**). А в 45 хикмете констатирует: «Дүниеде не бар дейсің мәңгілік, Олар да ертең міскін болар қаңғырып (Думаешь в мире есть что-то вечное, И они завтра бедняги станут бродягами)» (**7, 107 б.**). В 61 хикмете сожалеет: «О, дариға, өтті өмірім, қайраным (ах, как жаль, прошла жизнь, бедная моя)» (**7, 132 б.**).

При этом акцент делается именно на временности пребывания человека на земле, на относительности человеческого существования, на краткости жизни, на сожалении о неповторимости и невозвратности человеческого бытия. Потому превалируют мотивы грусти, тоски, печали, сожаления. Подобные мотивы, эта «экзистенциалистская» мировоззренческая установка присущи Ясауи, который утверждал об иллюзорности этого мира, тщете человеческого существования.

Подтверждение этому строки из «Диуани хикмет»: «Басынан әркімнің бұл жалған өтер, Баянсыз – жатпай жиған мал да бекер. Қарындас, атаңанаң қайда кетті? Ағаш ат әлі-ақ бір күн саған жетер (Этот обманчивый мир преходящ для всех, Не утешайся тем, что много скота, его тоже не будет, Куда ушли (покинув этот мир) твои отец и мать, сестры? И ты уйдешь внезапно, когда смерть придет» (**7, 50 б.**).

Тюркские мотивы явственно слышны также в оборотах, используемых Ясауи, особенно при обращении. Например: «уа, дариға!», «ей, достарым!», «уа, құдырет!» «ай, жарандар!».

Тюркская философская традиция, в частности, через употребление понятия Тенгри, нашла продолжение в средние века. В памятнике Codex Cumanicus понятие Тенгри переведено как бог и употребляется кроме словаря и в других частях памятника.

Например, в загадках мы встречаем такое употребление этого понятия:

«Teŋridän tüškän toqmačïq – dört ajaqlï majmačïq» (Тәңірден түскен тоқмачиқ (тоқпақ) – төрт аяқты маймачиқ (кішкентайаң); Спустившийся с неба колоточек – четырехногий зверенок) (**9, с. 174**). Употребление понятия Тенгри в загадке свидетельствует о его глубоком проникновении в тюркскую ментальность, даже в повседневное словоупотребление. Здесь Тенгри употребляется как синоним неба, что было довольно распространенно также в орхоно-енисейских источниках. В этой интерпретации Тенгри представлен, к примеру, в Bitig Tač Kűltegin.

Более всего в Codex Cumanicus понятие Тенгри употребляется, что неудивительно, учитывая специфику памятника, в религиозном смысле.

Так, «Фразы для исповеди» в Кодексе начинаются следующим образом: «Men Teŋiriniŋ išine osal boldum» (Мен Тәңірдің ісіне осал болдым; Я стал нерадивым в делах Тенгри) (**9, с. 192**). А «Афоризм для проповеди» звучит следующим образом: «Eger toz-topraq quyaštan miŋ miŋ qurlayarïq bolsa edi, hanuz Teŋriniŋ yarïχlïqïna köräqaraŋγï-dïr» (Егер топ-топырақ қуйаштан (күннен) мың мың құрлы жарық болса да, тағы Тәңірінің жарығын ақарағанда қараңғы; Если даже самый прах в тысячу тысяч раз солнца светлее будет, и тогда в сравнении со светом Тенгри - это тьма) (**9, с. 192**).В подобном, религиозном контексте используются понятия «BeyTeŋri» (Господь Бог) в тексте Покаянной молитвы, «barčadan beyik Teŋri» (Всевышний бог) в Евангельском чтении о поклонении пастухов младенцу Иисусу, «Ata Teŋri» в гимне Ave, porta paradise и другие.

Интересно также в исконно тюркском мировоззренческом ключе написание имени Девы Марии как «Maria qatun», что вполне преемственно с древнетюркским текстом из Культегин: «… aqanïm Elteris qaγanïγ őgűm Elbilge qatunïγ Teŋiri tőpesinte tutup jűgűrű kőtűrműs erinč» (… әкем Елтерис қағанды, өгей (шешем) Елбилге қатынды Тәңір төбеге тұтып, жоғарыға көтерді; … моего отца Елтерис кагана, мою мачеху Елбилге катун они подняли вверх, на вершину...).

Имеют несомненное происхождение в тюркском мировоззрении словосочетания «Teŋri gayalbarsa», «yalbaruŋïz Teŋrigä», встречающиеся в Молитве о скорейшем овладении языком паствы. В подобном контексте употребляется понятие Тенгри в тюркском памятнике Iriq Bitig.

Тюркское мировоззренческое происхождение имеет и тюркский текст 3 заповеди из Десяти Божьих Заповедей: «Teŋriniŋ atïŋ bile ant ičmägil» (Тәңірдің атымен ант ішпе; букв. Не пей клятву именем Тенгри) (**9, с. 207**). Именно для тюрков было характерно испить чашу с кровью при клятве. Поэтому можно с уверенностью утверждать, что в написании этого памятника (Codex Cumanicus), в составлении словаря, в переводе текстов молитв, гимнов, псалмов непосредственное участие принимал(ли) лица, знающие досконально кыпчакский язык, либо сами носители этого языка. Это следу-

ет из того факта, что особенности словоупотребления, связанные с понятием Тенгри, являются присущими именно тюркской ментальности.

В средневековой тюркской надписи, сделанной по приказу Амира Темира и найденной в XX веке на территории Казахстана, термин Тенгри употребляется также как обозначение божества (**10**). Знаменателен сам по себе факт того, что в тюркском миропонимании XIV века сохранилось именно это понятие для обозначения высшей силы, бога.

Таким образом, сравнительный анализ древнетюркских письменных источников (орхоно-енисейских), трудов Фараби, КоркытАта, Баласагуни, Кашгари и Ясауи,памятника на кыпчакском языке Codex Cumanicus, надписи Ами Темира показывает, что видна прямая и несомненная мировоззренческая и культурно-историческая преемственность их. Это заметно, прежде всего, в употреблении такого ключевого понятия тюркского мировоззрения, как Тенгри. Употребление только этого термина, когда речь идет о боге, боге отце, господе боге, всевышнем, свидетельствует о такой преемственности. Поскольку именно из орхоно-енисейских источников берет начало традиция использовать термин Тенгри для обозначения высшей силы, источника благодати, божества.

Во всем тюркском мире, от Алтая до Дуная, употребление термина Тенгри связывает тюркское миропонимание в единое целостное мировосприятие, несмотря на географические, культурные и исторические особенности. Составляют единую тюркскую философскую традицию также понятия Qut– счастье, qanaqat– мера, taqdyr– судьба, aruaq– дух предков и другие.

Литература:

1. Bilge Qaγan I // сайт Turk Bitig, 2005. Орхонские письменные памятники.
2. Қорқыт ата кітабы. Оғыздардың батырлық жырлары: Эпос. Алматы: Жазушы, 1986. – 128 бет.
3. Аль-Фараби, Абу Наср Мухаммад Социально-этические трактаты. Алма-Ата, Наука, 1973.
4. Юсуф Баласагунский. Благодатное знание. - М.: Наука, 1983.
5. Қашқари, Махмұт. Диуани Лұғат ат-Түрк / Орта ғасырдағы түркі ойшылдары. Қазақ халқының философиялық мұрасы жиырма томдық. 5 том. Астана: Аударма, 2005. – 528 бет.
6. Махмӯдал-Кäшҕарӣ. Дӣвäн Лугäтат-Турк, перевод, предисловие и комментарии З.А. Ауэзовой, Алматы: Дайк-Пресс, 2005.
7. Иассауи Қожа Ахмет. Диуани Хикмет. Даналық кітабы. Алматы: Халықаралық Абай клубы, 2009. – 312 бет. (на русском языке подстрочный перевод автора статьи)

8. Алдаспан. XV-XVIII ғасырлардағы қазақ ақын, жырауларының шығармалар жинағы / Құраст., алғы сөзін, түсініктемелерін жазғ. М.Мағауин. А.: Жазушы, 1971

9. Codex Cumanicus. – Астана: Сарыарқа, 2016. – 240 б.

10. См.: Григорьев А.П., Телицын Н.Н., Фролова О.Б. Надпись Тимура 1391 г. // Историография и источниковедение истории стран Азии и Африки. Вып. 21. СПб., 2004. – С. 3-24.

Arzu Hacıyeva

LA İLAHƏ İLLALLAH

NƏRİMANOV İRSİNDƏ TÖVHİD İDEYASININ FƏLSƏFİ DƏRKİ

> «Kim… *ən gözəl sözü* (la ilahə illallah kəlməsini) təsdiq etsə, Biz ona ən asan olanı (cənnəti) müyəssər edəcəyik… Amma kim… *ən gözəl sözü* (la ilahə illallah kəlməsini) yalan saysa, Biz ona ən çətin olanı (Cəhənnəmi) müyəssər edəcəyik. … Bizim öhdəmizə düşən yalnız doğru yol göstərməkdir!» (**1, 92: 5-10, 12**).

Quranın təkrarolmaz və ecazkar ərəb dilinin özəllikləri – ritmli, qafiyələnmiş nəsr forması, daşıdığı emosional yük, suggestivliyi onun başqa dillərə mükəmməl tərcüməsini qeyri-mümkün edir. Çoxsaylı tərcümələrdən hər biri ilk növbədə sakral mətnin mənalarını imkan daxilində düzgün çatdırmağa yönəldiyindən, əslində, təfsirə çevrilir və anlamaq üçün əlavə şərh və izahlara ehtiyac duyur. Bəzən bu izahlar, Quranın, yuxarıda istinad etdiyim, «əl-Leyl» («Gecə») surəsindən fraqmentdə olduğu kimi, elə sözün yanındaca mötərizədə verilir. Yeri gəlmişkən, ilk, Məkkə vəhylərindən olan bu surə sirli-müəmmalı ruhu, dilinin hədsiz lakonikliyi, ifadələrinin qısalığı, səslənmə gözəlliyi ilə seçilir. Təbiidir ki, onun da müxtəlif tərcümə və təfsirləri arasında fərqlər var.

Bunu elə kitab dolabımda olan Quran kitablarının müqayisəsi təsdiq etdi. Məsələn, Q.S.Sablukovun Quranın rus dilinə tərcüməsində (1878) bizi maraqlandıran hissə «kim… *ən yaxşı olanın həqiqətini* təsdiq edirsə», «kim… *ən yaxşını* yalan hesab edirsə» (**2, s.442**) kimi səslənir. Quranın türkcəyə tərcümə-təfsirlərindən birində «*ən gözəl söz olan Allahın birliyini* doğrulayan», «*ən gözəl sözü* yalanlayan kimsə» kəlmələrini (**3, s.242**) oxuyuruq. Qurani-Kərimin azərbaycancaya sözbəsöz tərcüməsində «*ən gözəl olanı* təsdiq etsə», «*ən gözəl olanı* yalan saysa» deyilir (**4, s. 597**). Şərqşünas Əmirşah Əmirəhmədov özünün

poetik-filoloji tərcüməsində surənin həmin yerlərini «ən gözəl sözlərə inanana», «ən gözəl sözə inanmayana» kimi tərcümə edir (**5, s.163-165**) və şərhində «ən gözəl sözlər» deyəndə «la ilahə illəllah» sözlərinin nəzərdə tutulduğunu göstərir (**5, s.167**). Bu isə, göründüyü kimi, Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsinə uyğun gəlir və zənnimcə, mənaya yaxınlaşıb, onu konkretləşdirməsi baxımından daha uğurludur. Hələ keçən əsrin əvvəlində Hacı Mirməhəmməd Kərim əl-Bakuvinin özünün «Kəşfül-həqayiq»ində (1904) müxtəlif nəşrlərdə «ən yaxşı olan», «ən gözəl olan», «ən gözəl sözlər» kimi tərcümə ediləni məhz «islam», «islam dini» («kim ki, … *islamı* təsdiq etsə», «kim ki, … *dini* təkzib etsə») deyə daha ümumi anlayışla təfsir etməsi məsələyə dəqiqlik gətirir (**6, s. 628**). Belə ki, Allahın mütləq təkliyinə, birliyinə inam – tövhid istər etiqad, istər dünyagörüşü, istərsə də mənəviyyat olaraq İslamın təməlində durur, onun əsas simvoludur. Və bu simvol, rəmz, ideya «La ilahə illəhllah» – «Allahdan başqa tanrı yoxdur» kəlmələrində ifadə olunmuşdur.

İslama sidq ürəklə iman gətirən hər kəs həmin kəlmələri davamı (islamın ikinci əsas ehkamı olan «və Məhəmməd Rəsulullah») ilə birlikdə (kəlmeyi-şəhadət) rəsmi şəxs qarşısında sadəcə üç dəfə tələffüz etməklə islam dinini qəbul edə bilər. Bütün ibadətlərə, əzana daxil olan bu kəlamı müsəlmanlar həyatlarının ən müxtəlif məqamlarında tez-tez təkrar edirlər. Onların mənzillərini üzərinə kəlmeyi-şəhadətin ornament kimi gözəl xətlərlə həkk edildiyi suvenir və məmulatlar bəzəyir.

Nəriman Nərimanovun əsərlərinin diqqətli mütaliəsi zamanı onun islamın rəmzinə, «ən gözəl sözlərə» xüsusi həssas münasibəti və özünəməxsus mənəvi-idraki yanaşması ilə rastlaşırsan. Bu görkəmli şəxsiyyətin, yazıçı, mütəfəkkir, dövlət xadiminin irsinə bələd olan hər kəs söyləyə bilər ki, onun yazılarına bəhs edilən istənilən problemin, münasibət bildirilən hadisənin mahiyyətindən çıxış etmək xasdır. Qoca Şərq, daha dəqiq olsaq, islam Şərqi, onun dərdləri və dərdlərinə əlac tapılması, səadətə qovuşması – bax bu həmən o ən mühüm problemlərdən idi ki, həyatı boyu düşüncəsini məşğul etmiş, fəaliyyətinin özəyində durmuşdur. Təsadüfi deyil ki, Almas İldırım N.Nərimanovun vəfatı münasibətilə yazdığı şeirində («Nəriman») məhz bu məqamı vurğulamışdır. Burada 18 yaşlı şair təkcə N.Nərimanov üçün yox, onun ölümündən sonra sanki yetim, kimsəsiz qalmış Şərq üçün də ağı deyib ağlayır, lakin böyük kədərinə rəğmən, gənclik əzmi ilə şerini bu yolu davam etdirəcəyinə inamla, mübariz ruhda bitirir:

Şərqə bir səadət aradığın gün
Nəriman, üyrəyin parçalandımı?
Göz qapaqlarını yumarkən o gün
Dodaqların qoca Şərqi andımı?

Üfüqdən axdınmı, sən də söndünmü?
Sardı olüm rəngi dodaqlarını…

Nəriman, ölürkən heç düşündünmü
Şərqin issız qalan bucaqlarını?

Ah, şimdi ayrıldın, qaldın uzaqda,
Kəsdi aramizı ölüm pərdəsi.
Söylə, gəliyormu sənə torpaqda
Viran Şərq elinin yanıqlı səsi...

Önümüzü kəsən dərəmi, dağmı?
Uçurumlar bizi qorxudacaqmı?
Ətrafımız olsa zalımlar dolu.
Yenə izləyiriz getdiyin yolu (**8, s.16**).

Beləliklə, təbiidir ki, Azərbaycanın da daxil olduğu İslam dünyası, onun tarixi müqəddəratı, bəşər sivilizasiyasında yeri, sosial tərəqqi uğrunda mübarizəsinə həsr etdiyi bir sıra yazılarında N.Nərimanov islamın rəmzləşmiş əsas ehkamından yan keçməmişdir. Deməliyəm ki, onun tövhid haqqındakı fikirləri ümumilikdə fəlsəfi dünyagörüşünə, xüsusilə ontoloji görüşlərinə güclü işıq salır. Bu məsələdə Nərimanovun şərh və təfsirinə xas olan özəlliyi anlamaq üçün, zənnimcə, problemin tarixinə kiçik ekskurs yerinə düşər.

***

Allahın birliyindən xəbər verən, ona iman gətirməyə çağıran ehkamın – tövhidin kökü Qurandan gəlir. Burada o, müxtəlif variantlarda təkrar olunur. Bəzi yerlərdə Allahın atributları (adları və sifətləri) əhatəsində verilir:

«Sizin tanrınız bir olan Allahdır, Allahdan başqa tanrı yoxdur. O, rəhimlidir, mərhəmətlidir» (**2:163**).

«Allahdan başqa heç bir tanrı yoxdur. (…) əbədi, əzəli varlıq Odur. … Ən uca, ən böyük varlıq da odur!» (**2: 255; 3:2**).

«… O qüdrət, hikmət sahibindən başqa heç bir tanrı yoxdur!» (**3: 6**).

«Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl (…) adlar yalnız Ona məxsusdur». (**20:8**).

Quranda dönə-dönə yalnız və yalnız Allaha ibadət və itaət edilməsi tələb edilir:

«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqq-ədalətə boyun qoyaraq (*haqqa tapınaraq*) o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər» (**3: 18**).

«O Allah Rəbbinizdir! Allahdan başqa heç bir tanrı yoxdur. Hər şeyi yaradan Odur. Buna görə də yalnız Ona ibadət edin. O, hər şeyə vəkildir!» (**6: 102**).

«Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!» (**20, 14**).

«(*Ya Rəsulum!*) Rəbbindən sənə Vəhy edilənə (*Qurana*) tabe ol. (…) Ondan başqa heç bir tanrı yoxdur. Müşriklərdən isə üz çevir» (**6: 106**).

«(*Ya Rəsulum*!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, «Məndən

başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin» deyə vəhy etməyək» (**21, 25**) deyə Allah Məhəmməd peyğəmbərə xitabən Özü haqqında peyğəmbərləri vasitəsilə xəbər verdiyini bildirir. O, Nuhu, Ad tayfasına qardaşları Hudu, Səmud tayfasına qardaşları Salehi, Mədyən tayfasına qardaşları Şüeybi peyğəmbər göndərir. Onlardan hər biri öz tayfasını (xalqını) «Ey camaatım! Allaha ibadət edin, Sizin Ondan başqa heç bir tanrınız yoxdur» (**7: 59; 23: 23; 7: 65; 11:50; 7:73; 11:61; 7:85; 11:84**) sözləri ilə xəbərdar edir. Allah Məhəmməd peyğəmbərdən: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilən peyğəmbəriyəm. (*O Allah ki*) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür…» (**7: 158**) deməsini tələb edir.

Peyğəmbərlərə inanmayıb onlara şəkk gətirənlər belə son nəfəslərində, firon dənizdə batdığı məqamda (**10:90**), Zün-Nun «qaranlıqlar içində» (*balığın qarnında*) (**21:87**) Allahdan başqa heç bir tanrının olmadığına şəhadət verirlər.

Quranda yəhudilər, xaçpərəstlər peyğəmbərlərin sözlərini təhrif edərək «Allahdan başqa heç bir tanrı yoxdur» prinsipini pozmaqda ittiham edilirlər: «Yəhudilər: «Üzeyr Allahın oğludur», xaçpərəstlər də «Məsih (*İsa*) Allahın oğludur», – dedilər. Onların ağzında gəzən bu (*boş*) sözlər öncə küfr edənlərin («*mələklər Allahın qızlarıdır» – deyənlərin*) sözlərinə bənzəyir. Allah onları öldürsün! (*Allah onlara lənət eləsin!*) Necə də (*yalana uyub haqdan*) döndərilirlər!» (**9:30**).

«Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (*rəbblər*) qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah pak və müqəddəsdir. Ona şərik qoşulan bütlərlə heç bir əlaqəsi yoxdur! (*Allah müşriklərin Ona şərik qoşduqları bütlərdən uzaqdır!*)» (**9:31**).

Quranın dünyada bütün insanların bərabərliyi ideyasına əsaslanan sosial ədalət prinsipi də tövhidə söykənir:

«Allah (*Özünə*) heç bir övlad götürməmişdir. (…) Onunla yanaşı (…) heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda hər bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər, (…) və onların bir qismi (…) digərindən üstün olmağa çalışardı. Allah müşriklərin (*Ona*) aid etdikləri sifətlərdən tamamilə kənardır!» (**23:91**).

Maraqlıdır ki, Quranın bu və ya başqa ayələrində kifayət qədər aydın ifadə edilən Allahın təkliyi ideyasını dini-fəlsəfi cəhətdən əsaslandırıb sübut etmək elə də asan olmamışdır. Allahın atributları (*sifat*) və substansiyası (*zat*) arasında münasibət, tək, vahid olan Allahdan çoxluğun – dünyanın yaranma mexanizmi, onlar arasında əlaqənin xarakteri, Allahın transsendentliyi ilə Onun xəlq etdiyi dünyaya immanentliyinin nisbəti barədə rəylərin haçalanması müsəlman Şərqinin müxtəlif dini, mistik-fəlsəfi cərəyanları arasında əsrlər boyu davam edən mübahisələrə rəvac vermiş, müxtəlif şərh və təfsirlər meydana gətirmişdir.

Məsələn, əgər müsəlman antropomorfistləri (*müşəbbihə*) Quranda Allaha aid edilən bilik, güc, iradə, görmə, eşitmə və sairə kimi sifətləri birbaşa, hərfi mənasında başa düşərək, onların əzəliliyini, zaman xaricində mövcudluğunu iddia edirdilərsə, mütliq monizm tərəfdarları olan mötəzililər ilahi atributları

metaforalar hesab edirdilər. Onların fikrincə, sifətlərin əzəliliyinin qəbul edilməsi mütləq Allahın mənəvi mahiyyəti ilə yanaşı, digər daha konkret mahiyyətlərin mövcudluğuna inanmaqla «tövhid» ideyasının ciddiliyinə xələl gətirir, çoxallahlılığa (*şirk* – bütpərəstlik) aparır. Hətta Vasil ibn Ətaya görə: «Kim ki, əzəli keyfiyyətlər ideyasını qəbul edir, o, artıq iki allahın olduğunu qəbul etmişdir». Ortodoksal islamdan fərqli olaraq mötəzililər Quranın əzəldən mövcud olması fikri ilə də razılaşmır, onun dünyadakı bütün şeylər kimi sonradan, yəni zaman etibarilə yaradıldığını sübut etməyə çalışırdılar. Bu baxımdan ən-Nəzzamın Məhəmməd peyğəmbərə işarə edərək «Quran daxilində yarandığı bədənin işidir, Allahın işi deyil» sözləri səciyyəvidir (**8, s. 105**).

VIII əsrdə Ərəbistanda yaranan vəhhabilik ideologiyası erkən islamın saflığına qayıdıb, təkallahlılıq prinsipinə ciddi əməl etməyi tələb edirdi. Öz baxışlarında, əməllərində Quran və Sünnədən başqa avtoritet tanımayan vəhhabilərin nəzərində peyğəmbərlərə, müqəddəslərə, qəbirlərə səcdə etmək, onların Allahla insanlar arasındakı vasitəçiliyinə inanmaq sadəcə bütpərəstlik idi. Onlar Nəcddə dövlət yaratmış, 1806-cı ildə hücum edib Məkkəni zəbt etmiş, Kəbədən başqa bütün məscidləri dağıtmışdılar.

İslam bölgəsində yaranmış sufilik, ismaililik, hürufilik və digər qeyri və antiortodoksal mistik-fəlsəfi müsəlman təriqətləri, cərəyanları tövhidi vəhdəti-vücud konsepsiyası kontekstində izah edirdi. Müsəlman Şərqinin mənəvi mədəniyyətinin inkişafında sufilik öz azadfikirliliyi, demokratik-humanist meyilləri, dialektik görüşləri ilə xüsusilə böyük rol oynamışdır. Onun fəlsəfi dünyagörüşünün mərkəzində zəkalı, ədalətli, qüdrətli, dini və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün insanlara rəğbət bəsləyən, başlıcası isə öz sonsuz sevgisi ilə Allahı özündə təcəssüm etdirən İnsan durur. Burada kainatda mövcud olan təbii qanunauyğunluq, harmoniya və nizam Allahla dünyanın çoxsaylı, çoxcəhətli maddi predmetlərinin, başqa sözlərlə, Xaliqlə xəlq olunanların, xüsusilə insanın, mahiyyət və hadisənin, təklik və çoxluğun və i. a. vəhdəti, bir çox hallarda substansional vəhdəti ilə izah olunur. Bəzən tövhid məsələsində sufilər ifrata varıb, İblisə belə bəraət qazandırırdılar: axı o, Allahın sözündən çıxıb insana səcdə etməsə də, Onun əsas ehkamına, sözünə riayət etmişdi. Mənsur Həllaca görə isə hətta «Allah təkdir» sözlərini bəyan edən şəxs belə Ona şərik qoşur, çünki bu zaman özünü də yada salmış olur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Şərq mütəfəkkirləri Həllac, Sənai, Əbu Said, Əttar, ibn əl-Ərəbi, Rumi, Cami, Nəvai, Azərbaycandan Baba Kuhi Bakuvi, Əvhədi, Şəbüstəri, Nəimi, Nəsimi, Qasımi Ənvar, Şəms Məqribi, Yusif Qarabağı və başqaları vəhdət əl-vücuda istinadən müdrik mühakimələrlə zəngin olub özünəməxsusluğu ilə seçilən təlimlər yaratmışlar. Bu ənənə sonralar da, ta XX əsrə qədər davam etdirilmişdir.

***

Maraqlıdır ki, Qurandakı tövhid haqqında ayələrin müxtəlif dini, dini-mistik fəlsəfi məktəblərdə nəzərdən keçirdiyimiz fərqli şərhlərindən, əsaslandırmalarından üzə çıxan vəhdəti-vücud ideyası məhz özünün sufi variantında N.Nərimanovun təfəkküründə və qəlbinə daha yaxın idi. Onun irsində orta əsr-

lərdən mövcud olan bu ideya XX əsrin birinci rübünün dəyişkən Azərbaycan reallıqları kontekstində yeni çalarlarla zənginləşdirilmiş və müəyyən inkişaf yolu keçmişdir.

Tövhid insanları cəhalət məngənəsində saxlayan mühitdə ən müxtəlif insan obrazlarının mənəvi aləminin psixoloji dərinliyinə nüfuz etməsi ilə seçilən «Pir» povestində (**9**) daha parlaq və əyani şəkildə ifadə edilmiş, Nərimanov anlamında bədii-fəlsəfi həllini tapmışdır.

Nə üçün insanlar sözdə tək bir Allaha itaət, ibadət etdiklərini deyir, əməllərində isə başqa şeylərə: müqəddəs yerlərə, pirlərə, varlılara, qolu zorlulara, daha nələrə, nələrə inanır və səcdə edirlər? — yazıçı əsər boyu bu suala cavab axtarır. Əzanın tanış ahəngindən, musiqisindən tutmuş mənasına qədər, ona etdiyi təsiri, qəlbində oyatdığı ülvi hissləri dilə gətirir:

«Allahu-əkbər! Allahu-əkbər! Əşhədu-ən la ilahə illəllah!...» Səhər sübh vaxtı gün çıxmamış tamam canlı şeylər hələ yuxuda ikən təbiətin sükut bir zamanında yarıoyanmış, yarıyuxuda iraq bir minarədən bu sözlər, bu səda sizə necə təsir edir, bilmirəm, fəqət mən sevirəm. Mən çalışıram bu sözləri aşkar, aydın eşidəm. Bilmirəm bu əzanın musiqisimi, ya bu sözlərin mənasımı, yainki uşaqlıqdan qulaqlarımın bu sözləri adət etməyimi, bilmirəm, hankısı, fəqət onu bilirəm ki, bunda, bu sözlər sübh vaxtı məni bir qeyri aləmə dəvət edirlər. Hələ cocuqkən sözlərin mənasını düşünmürdüm, yenə də bu sözlər mənim üçün təsirsiz deyildi. O vaxt bunu düşünürdüm ki, dua edirlər. Fəqət nə deyirlər, nə demək istəyirlər, bilmirdim. Mənasını biləndən sonra bu sözlər məni daha artıcaq maraqlandırdı. «Allah böyükdür! Şəhadət verirəm ki, bir allahdan başqa yoxdur qeyri-məbud». Əcəba, təbiətin belə bir sükut, gözəl vaxtında allahın varlığına və birliyinə şəhadət verənlər nə üçün qeyri-məbud gərəkdir arasınlar?» (**10**). Povestin sonuncu, düyünlərin açılıb öz həllini tapdığı IX hissəsi bu sözlərlə başlanır.

Əsərdə «Bir allahdan başqa yoxdur qeyri-məbud» kəlamının mənası bədii obrazlar vasitəsilə tipik həyat hadisələri fonunda, həm də iki tərəfdən açılır.

Əvvəla, burada personajların təkliyinə və yeganəliyinə şəhadət verdikləri Allaha münasibəti təsvir edilir: onlar Onu necə təsəvvür edir, Onun hansı sifətlərini bilir, necə tanıyırlar, Onun Sözünü – Quranı necə anlayırlar? N.Nərimanov bu baxımdan «ən gözəl sözlər»in bədii örtükdə müxtəlif anlama səviyyələrini işıqlandıraraq, məcazi, mistik məqamlardan da xali olmayan fəlsəfi anlamını verir.

İkincisi, kəlamın hərfi mənası və onda gizlənib Allahın insanlara mərhəmət, şəfqət, sevgisini əks etdirən dərin batini mənası arasındakı bağlılığa diqqət yetirilir. Etiqadları kortəbii, mexaniki xarakter daşıyan dindarların bütpərəstliyin əleyhinə çevrilən, Allaha şərik qoşmağı qadağan edən bu ifadəni daim təkrar etmələri ilə pirə sitayiş etmələri arasında təzad vurğulanır: onlar pirə inanmaqla özlərini özləri də istəmədən «Allahdan qeyrilərini (*Allaha*) şərik qoşub, onları Allah kimi sevənlər»dən (**11**) etmişlər ki, bu da onları mənəvi cəhətdən deqradasiyaya uğratmışdır.

Povestdə təsvir edilən N... şəhərinin əhalisinin böyük əksəriyyəti – üçdə iki

hissəsi Allah buyruqlarına əməl edən mömin müsəlmanlardır. Onların nəzərində Allahın buyurduğu nədir: oruc, namaz, zəkat, fitrə… bunlara əməl etmələri müqabilində isə onlar Allahdan özləri, məişətləri, dolanacaqları, yəni nəfsləri üçün lazım olan şeyləri istəyirlər. Başqa sözlə, namaz-orucla tanıdıqları Allaha onların münasibəti bir növ «mən sənə, sən mənə», «əl əli yuyar…» prinsipi üzərində qurulub. Əsərin baş qəhrəmanlarından olan Məşədi Allahverən hər dəfə namazdan sonra əllərini göyə tutub ürəyində deyirdi: «Pərvərdigara! Özün şahidsən, buyurduğun əmrləri yerinə yetirirəm: orucumu tuturam, namazımı vaxtında qılıram… Özün şahidsən, rəbbim! Yetir, pərvərdigara!». Bu «yetir» sözünü hər vaxt deyəndə tamam məişətini, alını-verini, zərərini-xeyirini fikrindən keçirərdi. Son sözləri də bunun kimi idi: «Pərvərdigara! Mənim bu balama nicat ver».

Şəhərin o biri sakinləri də ona bənzəyirlər, namaz vaxtı çox və ya az dua etmələri ehtiyaclarının az-çoxluğundan asılıdır. Yazıçı onların dinin vacib olan əxlaqi tərəfini unudub, ayinləri bütün qaydaları, xırdalıqları ilə böyük ciddiliklə icra etmələrində ifadə olunan zahiri dindarlığına kinayə edir. Oruc tutarkən, «toz olan yerdən keçmirdilər, dodaqlarını büzərdilər, burunlarını yaylıqla tıxayardılar» ki, birdən toz bədənlərinə girər, orucları batil olar. Amma bunların arasında elələri də var idi ki, «dinməz-söyləməz qardaşının yetimlərinə çatan pulları hər gecə iftara toyuqplov bişirib yeyərdi; zavallı yetimlər isə ac qarınlarını yerə sürtərdilər». Daha düşünmürdülər ki, Allahın əmri təkcə oruc tutmaq deyil, xeyirxahlıqdır, yetimlərə, kasıb qohumlara rəhimli, mərhəmətli olmaqdır, onlara çatacaq payı verməkdir, qısası, yaxşı əməllərdir. Bu yerdə N.Nərimanov yəqin ki, Quranın ehtiyacı olan insanlara mərhəmət edib köməyinə yetmək barədə göstərişlərini nəzərdə tuturdu:

«(*Ya peyğəmbər!*) Sən nə bilirsən ki, əqəbə (**12**) nədir?! (*O*) …aclıq günü (*zamanı*) yemək verməkdir, qohumluq əlaqəsi çatan yetimə. Və ya (*taqətsizlikdən*) torpağa sərilmiş bir miskinə!» (**90: 12-16**) «Yaxşı əməl heç də (*ibadət vaxtı*) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyil. Yaxşı əməl sahibi … (*Allaha*) məhəbbəti yolunda (*və ya malı-dövləti çox sevməsinə baxmayaraq*) malını (*kasıb*) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, … sərf edən»dir (**2:177**).

Amma İranda ac qoyub gəldiyi arvadı və üç qızından xəbər belə tutmayan, lakin bu şəhərdə şan-şöhrət sahibi, hörmətli ailə başçısı hesab olunan pir sahibi fırıldaqçı Molla Cəfərqulunun yaxşı əməllər haqqında təsəvvürü başqadır. Onun əməli salehlik siyahısında namaz qılmaqdan və oruc tutmaqdan əlavə daha bir «mühüm» bənd var: əməli saleh insan həm də pirə gələnlərdən, nəzir verənlərdən – «pirsevən xoşbəxtlərdən» olmalıdır. «Əməli saleh adamın nəziri qəbul olunar, saleh olmayanınkı olmaz» deyə pir sahibi pirini ona şübhə ilə yanaşanlardan, dərdlərinə əlac tapmayanların qınağından sığortalayır.

Və budur hər cümə sadəlövh insanlar möcüzə sorağında ağır xəstəliklərdən qurtulub sağalmaq, həyat müşküllərini həll etmək üçün nəzirləri ilə pirə yollanırlar: «biri qoyun aparır, biri quzu, biri toyuq aparır, biri xoruz, biri qızıl üzük, biri gümüş güzgü, biri çit aparır, biri ipək parça, biri şam aparır, biri şamdan,

kimi pul, kimi portman…». Bunu N.Nərimanov «allaha rüşvət» adlandırır: «Fəqət bilmirəm, allaha rüşvət verib allahdan rüşvət istəməyi bunlara pir öyrətmişdi, yoxsa pirə rüşvət vermək aldıqları tərbiyənin nəticəsi idi»…

Bu insanların inamları kortəbiidir. Onlar hətta gündə neçə dəfə namaz vaxtı etdikləri duanın – «ehdinəssiratül müstəqim»in (**13**) mənasını da anlamırlar. Bunun səbəbi bir tərəfdən, Quranın ərəb dilində olması idisə də, digər tərəfdən Quranın mənalarına varmağa çalışmayıb, onu şüursuz əzbərləmələrində idi. Məşədi Allahverənin «heç fikrinə də gəlməzdi ki, namazda deyirlər: «Allah! Mənim ürəyimi təmizlə, mənə doğru yol göstər, o yolu ki, sənin tərəfinə gedir, o yoldan uzaq et ki, səndən uzaq düşür. Mənim qəlbimi yumşalt, həlim və mehriban et». Burada N.Nərimanov «Fatihə» surəsinin 5-7-ci ayələrini öz sözləri ilə sərbəst, sadə və anlaşıqlı şəkildə təfsir edərək, onun mahiyyət məzmununda duyub anladığı humanizmi daha qabarıq verir. Ümumiyyətlə, onun fikrincə, dua edərkən Allahdan öz nəfsin üçün nəsə diləmək olmaz, Ondan sənə yalnız doğru yol göstərməsini təvəqqe edə bilərsən. «Əl-Leyl» («Gecə») surəsində Allahın dilindən deyildiyi kimi, «Bizim öhdəmizə düşən yalnız doğru yol göstərməkdir!» (**92:12**).

Lakin Məşədi Allahverənə uşaqlıqdan bu doğru yolu «mərsiyəxanlar və mərsiyəxan kimilər» göstərmişlər. «Bunlar isə həmişə deyərdilər: filan əməl edərsənsə, filan duanı qırx dəfə oxuyarsansa, allah-təala sənə filan şeyi verəcəkdir… Uşaqlıqdan bu sözləri eşidən, bütün tərbiyəsinin bünövrəsi bu sözlərlə tikilən bir vücud müəyyən, müqəddəs bir məbuda səcdə edə bilərdimi? Belə bir tərbiyədən sonra nə üçün də Molla Cəfərqulunun «pir»inə pənah aparmaya idi? Həqiqi allaha həqiqi məhəbbət bağlamış olsa idi, pirə, ya pir kimi şeylərə səcdə edərdimi?»

N.Nərimanovun «həqiqi allaha həqiqi məhəbbət bağlamaq» sözlərindən insanı düşündürən bir sual doğur. Adı qarşısında səcdə edib hər bir müşkülündə, çıxılmaz vəziyyətində köməyə çağırdığın, lakin heç vaxt görmədiyin və heç kəsin də görmədiyi müqəddəs varlığa məhəbbət necə bir məhəbbətdir, ona aparan yol necədir?

Yadımdadır, illər öncə yay vaxtı kənddə uca, qocaman şabalıd, qoz ağaclarının kölgə saldığı bağda gəzməyə çıxmışdıq. «Bələdçimiz» altı-yeddi yaşlı xalam nəvəsi Fatimə anasının evdə dönə-dönə tapşırmasına baxmayaraq biz qonaqları dikdiri enib çayın kənarına düşməyə həvəsləndirir, hey dilə tuturdu. Başını qatmaq üçün ona məşhur «uşaq sualını» verdim: «Hələ bir mənə de görüm, sən atanı çox istəyirsən, yoxsa ananı?» O, dərhal ciddi: «ikisini də» deyib, sonra bir qədər düşünüb xüsusi vurğu ilə əlavə etdi: «Narın xala deyir ki, adam gərək əvvəl Allahı sevsin, sonra atasını, sonra isə anasını». Mən maraqlandım: «Fatimə, bəs sən Allahı necə sevirsən?» O, aşağıdan yuxarıya tərs-tərs üzümə baxdı, «Sən yaman çox danışırsan ha» deyib, pərt-pərişan böyürtkən koluna tərəf getdi, görünür, çaya enməyin bu gün baş tutmayacağını anladı.

Əslində, bu sualın cavabı nəinki uşaq üçün, heç böyük üçün də asan deyil. Orta əsrlərdən bəri bu məsələ üstə mütəfəkkirlər, ədiblər, şairlər çox düşünüb, baş sındırmış, qələm çalmış, Allaha məhəbbət və Allahdan qorxunun fəlsəfi-

əxlaqi aspektlərini şərh etməyə çalışmışlar, hər dəfə də düşüncələrini Qurana istinadla əsaslandırmışlar, çünki onda hər iki məqamı əks etdirən ayələr vardır. Hazırda fəlsəfə ilə məşğul olan alimlər arasında bu mövzu yenidən gündəmə gəlmişdir. Onlardan bir qismi yüksək əxlaqı məhz Allaha məhəbbətlə əlaqələndirir, digəri əksinə, cəmiyyətdəki bütün bəlaların, bədbəxtliklərin, zalımlığın, mənəviyyatsızlığın səbəbini Allahdan qorxunun azalmasında, yaxud itməsində görür və onu insanlarda yenidən tərbiyə edib dirçəltməyə çağırırlar. Birincilərin baxışları olduqca mücərrəd xarakter daşıyırsa, ikincilərinkindən, öz konkretliyində orta əsr obskurantizminin kif iyi gəlir, halbuki tərəfdarları bunu yeni ideya kimi təqdim edirlər.

N.Nərimanov sufi mistikləri kimi qurtuluşu məhəbbətdə görürdü, onun fikrincə, insanda müsbət sifətləri qorxu yox, məhəbbət yarada bilər. O, povestində Allahı yalnız məhəbbət vasitəsilə tanımağın mümkün olduğunu vəhdəti-vücud konsepsiyası ruhunda izah edir: Allah öz qüdrəti ilə yaratdıqlarındadır. Ona görə, O, dünyanın hər bir şeyində və hadisəsində təzahür edir: təbiətdə və ondakı nizamda, qanunauyğunluqlarda, ağacda, yarpaqda, çiçəkdə, insanda, övladda, həyatda, elmdə… Allaha məhəbbət Onun yaratdıqlarını sevən və onlarda Onun ədalətini, qüdrətini, insana qayğısını, mərhəmətini, sevgisini görən, düşünən, hiss edən insanda olur. Başqa sözlərlə, Allaha məhəbbət Onun yaratdıqlarına sevgidən yaranır və bu, yaxşı, xeyirxah əməllərə rəvac verir.

Məşədi Allahverən isə «Hər şeyi allah yaradıbdır» sözlərini tutuquşu kimi təkrar etsə də, bütün vücudu ilə bu sözlərin mənasına düşünmürdü. O, hətta dörd yaşında nə gəzə, nə danışa bilən xəstə balasına olan məhəbbətini təhlil edə bilmirdi ki, «bəlkə də məhəbbətdə allahını hiss edə idi». Lakin yazıçı günahı Məşədi Allahverəndə yox, onun aldığı tərbiyədə, ruhanilərdə, axund, mollalarda görür: «Bunlar da zavallını allahından kənar salmışdılar: filan şeyi etsən allah səni yandırar, filan əməl səndən üz verərsə, o dünyada allah sənə filan əziyyəti edər, daha nə… nə… Daha düşünmürdülər ki, qorxduqca yazıq Məşədi Allahverən öz allahından kənar olurdu, rabitə pozulurdu… Məşədi qorxudan savayı bir şey bilmirdi; saldatdan, qarodovoydan qorxu çəkirdi, insan törətdiyi qanunlardan qorxu çəkirdi. Allah göndərdiyi qanunlardan qorxardı, daha düşünmürdü ki, qorxu məbuda yavuqlaşdırmaz, uzaq salar… Nə olardı ki, buna deyəydilər allah adildir, hamıya bir gözlə baxar, allah mehribandır – hamını sevər, bəslər… Xeyr. Məşədi Allahverənə allahını oruc-namazla tanıtmışdılar. Fəqət deməmişdilər ki, allahı tanımasan namaz-orucun da heç. Əvvəl desə idilər çalış, allahın sifətlərini bil, adil, mehriban ol, hamını sev, o vaxt allahına yavuqlaşarsan, yavuqlaşıb da ona məhəbbət bağlarsan, bu məhəbbət səni namaz qılmağa, oruc tutmağa, qeyri yaxşı əməllər etməyə də vadar edər… Düşünmədilər ki, qanunla, qorxu ilə dürlü-dürlü «vədlər»lə həqiqi məhəbbət meydana gəlməz… Həqiqi məhəbbət üçün görmək, düşünmək, hiss etmək lazım gəlirdi. Bu da mümkün idi; gündə min dəfə hər addımında Məşədi istəsə idi, həqiqi allahını görərdi, düşünərdi və hiss edərdi. Daha lazım deyildi deyilə: namaz qıl, özü qılacaqdı; sevdiyi, həqiqi məhəbbət bağladığı məbuda özü səcdə edəcəkdi… Ona yavuqlaşmağa çalışacaqdı… Namaz vaxtında daha rüşvət ver-

məzdi, rüşvət istəməzdi, fəqət bunu deyərdi: «Pərvəpdigara! səni bilmək, düşünmək üçün asan və düz yol göstər! …

Həqiqi allahını tapmış olsa idi, yəqin ki, onun qüdrəti ilə meydana gələn elmin qədr-qiymətini bilərdi və bilib də bədbəxt oğlunu, özünü və arvadını müalicəsiz qoymazdı…».

Göründüyü kimi, N.Nərimanova görə necə ki, qorxu adi həyatda insanları bir-birindən uzaq salır, məhəbbət isə yaxınlaşdırır, doğma edir, Allaha münasibətdə də belədir. O, Məşədi Allahverən obrazı timsalında qorxuya əsaslanan tərbiyənin, qorxu ilə aşılanan dinin azad düşüncənin qarşısını alıb insanı inkişafdan qoyduğunu, onda zalımlıq, avamlıq, nadanlıq, ikiüzlülük, qorxaqlıq, sadəlövhlük, kütlük və s. kimi naqis sifətlər yaratdığını, onu Allahdan uzaq saldığını göstərir.

Dəqiqə başı «Şükür, pərvərdigara!», «Allahdan başqa tanrı yoxdur» desə də, hər cümə oğlunu pirə aparan Məşədi Allahverən onun sağalmasına bütün ümidini pirə bağlamışdır. Pirin kəramətləri barədə daim düşünməsi Məşədinin yuxusuna da təsir edir. O, yuxuda görür ki, oğlunu bir gün, bir gecə pirə qoymuş, və uşaq şəfa tapmışdır. Yuxusunu gerçəyə çevirmək istəyi arvadı Gülbadamı dəhşətə gətirir, onu niyyətindən heç cür daşındıra bilmir, çünki Molla Cəfərqulunun ölümündən sonra pirin şöhrəti bir qədər də artmışdır. O, pirə nifrət edir, çünki onun necə meydana gəlməsinin şahididir. Həmin yerdə Molla Cəfərqulu o vaxtlar qardaşının dul arvadı olan Gülbadamın namusuna əl uzatmaq istəmiş, qadının çığırtısına gələn çobanı aldatmaq üçün tez şam yandırıb qoz ağacının dibinə qoymuş, buranın pir olduğunu demişdi. Gülbadamın huşu özünə gəldikdən sonra ismətini qorumaq üçün Qurana and içmişdir ki, pirin sirrini ölənəcən heç kəsə açmasın. O, pirə gələn insanların insafsızcasına aldanıldıqlarına, xəstələrin özlərini müalicəsiz qoyduqlarına bais olduğunu görüb də əzab çəkir. Lakin Qurana andı onun qarşısını kəsirdi. Əsərin kulminasiyası pirə qoymaq üçün uşağı ərinə verdiyi məqamda baş verir. Sevgili balasının başı üstünü alan təhlükədən dəhşətə gələn qadının bir həftə ərzində çəkdiyi iztirabları, yuxusuz gecələri, daxili mübarizəsi qəlbində inqilab yaradır: «Mən nifrət etdiyim məkandan balama nicat gözləmirəm» deyə fəryad edir. Hiddətlənmiş ziyarətçilərin tələbi ilə əri üstünə gələndə o, şirə dönür: «Gəlmə, yavuq! Mən indi bu hində (anda) bir Allahdan başqa kimsəni böyük bilmirəm. Haman Allahdır məni indi danışdıran» deyə əhvalatı danışır. Çoban daşı günbəzə vurub dağıdır. Beləliklə, «Allahdan başqa qeyri-tanrı yoxdur» kəlamı öz təsdiqini tapır, zəfər çalır.

Məşədi Allahverənin yuxusu ilə İbrahim peyğəmbərin yuxusu arasında qəribə bir analogiya var. Bilmirəm, N.Nərimanovun özü bu yuxuların bənzərliyinə diqqət verimişdi ya yox? Ancaq onlar sanki bir medalın iki üzüdür. Yuxusunda oğlu İsmayılı qurban verdiyini görən İbrahim onu həyata keçirmək istədiyi məqamda Allah qurbanlıq qoyun göndərir, yəni İsmayılı xilas edir. Məşədi Allahverən yuxusunda xəstə oğlunun şəfa tapdığını görür, əslində isə oğlunu özü də istəmədən pirə – yalançı məbuda qurban verir. Gülbadamın «Balacığım!... Mən səni nifrət etdiyim məbuda qurban vermərəm» sözləri bunu

təsdiq edir. Yenə də Allah («Haman Allahdır məni indi danışdıran») uşağı xilas edir. Hər iki ata yuxunu inam kimi qəbul etdiklərindən səhvə yol verirlər.

Mühyiddin ibn Ərəbi «Füsus əl-hikəm» əsərində İbrahimin İsmayılı qurban verməsi haqqında Quran rəvayətinin maraqlı şərhini verir. Həmin şərh özünün N.Nərimanovun «Allahdan başqa qeyri-tanrı yoxdur» ehkamı ilə əlaqələndirdiyi həqiqi allaha həqiqi məhəbbət ideyası ilə səsləşməsi ilə bir növ onu təsdiq edib əsaslandırır.

İbn Ərəbinin fikrincə, Allah İbrahim peyğəmbəri «biliklə sınağa çəkmək», yəni yuxu yozma qabiliyyətini yoxlamaq istəyirmiş. Lakin o, bunun öhdəsindən gəlmir, çünki bilmir ki, yuxunu hazırlayan xəyaldır, xəyalı isə inam kimi qəbul etmək olmaz, onu təbir etmək, yəni yozmaq lazımdır. Təbir gördüyün formadan başqa formaya yol verən keçid deməkdir. Məsələn, inəklər quraqlıq və məhsul illərinə işarə, Məhəmməd peyğəmbərin yuxuda ona gətirdikləri və içib doyduqdan sonra Ömərə verdiyi bir stəkan süd, elə öz təbirinə görə, bilik olduğu kimi, İsmayıl formasında görünən qoyun idi. İbrahim isə xəyalına inandı. İbn Ərəbi yazır: «İbrahimə isə Allah-təala dedi: «İbrahim! Sən xəyalı doğrultdun (yəni təsdiq etdin – *A.H.*)» (**37:104**). O demədi: «Sən xəyalı doğru başa düşdün, bu, sənin oğlundur», çünki İbrahim onu təbir etmədi, yalnız aşkar olana riayət etdi, halbuki xəyal təbir edilməyi tələb edir» (**14, s. 176-177**).

İbrahim peyğəmbərin öz röyasına inanmaqla yanlışlığa yol verməsinin səbəbini ibn Ərəbinin elə öz fəlsəfəsində tapmaq olar. Onun fəlsəfəsi iki birbirinə zidd müddəanı birləşdirir, yəni eyni zamanda Allahın dünyadan həm fərqli olmasını, həm də ona oxşarlığını, başqa sözlərlə, Onun transsendentliyini – Onun dünyadan kənarda olmasını (*fürqan* – ayrılma, aralanma) və Onun dünyaya immanentliyini, yəni dünyaya daxilən xas olması, dünyada olmasınını (*quran*) təsdiq etməyi tələb edir, halbuki ikinci məqam onun əsərlərində, şeirlərində daha güclüdür. O yazır: «[əgər] birləşmə özündə ayrılmanı da ehtiva edirsə, ayrılma birləşməni ehtiva etmir. Ona görə birləşmə yalnız müstəsna olaraq Məhəmmədin və onun xalqının malıdır» və buradan belə nəticəyə gəlmək olar ki, Quranda bəhs olunan Allahdan qorxu həmin ayırmadan, Allaha məhəbbət isə birləşmədən yaranır, onun məhsuludur. İbn Ərəbiyə görə, Nuhun öz xalqını (tayfasını) tək olan Allaha inanmağa çağırışı ondakı ayırma məqamına (*fürqan*) görə xalqı tərəfdən cavabsız qaldı (**14, s.164**).

Bu mənada, İbrahim də məhz Allahdan qorxanlar cərgəsinə daxil edilir. Təsadüfi deyil ki, onun öz yuxusunu düzgün anlamaması barədə yazılan hissənin sonunda ibn Ərəbi Qurana istinad edir: «Allahdan qorxana O ayırma verəcək qulunun Allahdan fərqinə oxşar… Bu ayırma ən yüksəkdir» (**14, s.179**). [«Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqqla-nahaqqı ayırd edən (*bir nur*) verər (*dünyada və axirətdə çıxış yolu göstərər*), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (*mərhəmət*) sahibidir. (8: 29)]. Buradan belə nəticəyə gəlmək olar ki, İbrahim peyğəmbər Allahı dünyadan ayırmış, yuxusu ilə ondan qorxduğunu ifadə etmişdi. Odur ki, Allah, qoyunu böyük qurbanlıq verməklə onu bağışlamışdır. İbrahimsə öz oğlunun Allahın təcəssümü olduğunu, və Allahın öz yaratdıqlarını sevdiyini, qoruduğunu nəzərə al-

mamışdır. Qurban bayramı da elə Allahın insanlara böyük mərhəmətini xatırlatma və mərhəmətə çağırışı kimi meydana gəlmişdir.

Əgər ibn Ərəbinin məntiqinə riayət etsək, İbrahim peyğəmbərin yuxusundakı İsmayılın təbiri qoyun – böyük qurbanlıq idisə, Məşədi Allahverənin yuxusunda oğlunun şəfa tapmasının təbiri pirin dağıdılması –həqiqətin üzə çıxması, aldanılmış insanların gözünün açılmasıdır. Gülbadamın «Allahım, mənə yol göstər» yalvarışları eşidilir, onun tək Allaha məhəbbəti Onun təcəssümü olan öz övladına məhəbbəti timsalında Qurana and içib onu pozduğuna görə Allahdan qorxusuna üstün gəlir. Məhəbbət qorxuya, həqiqət yalana qalib gəlir.

N.Nərimanovun «Pir» povestini fransız yazıçısı Emil Zolyanın «Lurd» romanına (**15**) bənzədirlər (**16, s.24**). Bənzəyiş, əlbəttə, var. Hər ikisində din pərdəsi altında «müqəddəs yerlərə», möcüzələrə inam təbliğ edib, cürbəcür ağır xəstəliklərdən, yoxsulluqdan, sosial ədalətsizlikdən əziyyət çəkən sadə bədbəxt insanları aldadıb, son qəpiyini əllərindən alan, soyub talamaqla varlanan «tədbirli» ruhani işbazlar ifşa edilir. Zolyanın qəhrəmanı gənc ruhani, dinə inamı puç olmuş Pyer Froman mövcudluğunun on səkkiz əsri ərzində katolikliyin dünyaya gətirdiyi təsəlli və ümidlərinin artıq tükəndiyi bir vaxtda insanların tarix boyu bir-birini əvəz edən yeni illüziyalarla aldanılmasının qarşısını almaq üçün çıxış yolunu yeni dində görür: müasir elmə, əqlə dayanan, həyatla sıx bağlı olan yeni dinin yaradılması ideyası getdikcə şüurunda yer alıb möhkəmlənir.

N.Nərimanov isə «Pir» əsərində «La ilahə illəllah» kəlamının bütün dövrlər üçün müasir və aktual, mütləq həqiqət olduğunu göstərir. İslamın sonradan ona əlavə edilmiş yanlış qatlardan, təfsirlərdən təmizləyib, ilkin islamın təmizliyinə, fəlsəfi, elmi anlamına nail olmağa çağırır. Əsas məsələ, onun mənasını anlayıb da təkdə sözdə yox, əməldə ciddi riayət etmək, «müqəddəs ocaqlar», pirlər, dərvişlər, falçılar timsalında yeni bütlər düzəltməməkdir.

Lakin yazıçı yaxşı anlayırdı ki, nə qədər ki, həyatda xəstəliklər, bədbəxtliklər, ədalətsizlik mövcuddur, möcüzələrə, nağıllara inam qalacaq, insanlar Allahla özləri arasında vasitəçilər axtaracaqlar. Yəqin buna görə povesti «Bilməyirəm bu vaqeədən sonra bu mahalın müsəlmanları həqiqi məbudlarını tapdılarmı?» deyə bədbin bir sualla bitirir…

Bu yerdə bir haşiyə çıxıb ötən əsrin 23-24-cü illərini xatırlamaq istərdim. O zaman SSRİ-nin ilk rəhbəri N.Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» MK-ya, İ.V.Stalinə məşhur məktub-məruzəsində Mərkəzin Azərbaycandakı əlaltıları vasitəsilə planlı şəkildə Azərbaycanı simasızlaşdırma siyasəti yeritdiyini dəlillərlə ifşa etmişdi. Ardından N.Nərimanova qarşı divan kampaniyasına rəvac verilmişdi. Protokollarının "tamamilə məxfi" qrifi altında saxlanıldığı iclaslardan birində "qırmanclanmaq" üçün növbə sovet dövründə «ateist ədəbiyyat» nümunəsi kimi təqdim edilən «Pir» povestinə də çatır. Əsəri Ruhulla Axundov «liberal, liberal müsəlman» adlandıraraq damğaladığı N.Nərimanovun «nə kommunizmi, nə də Sovet hakimiyyəti prinsipini həyata keçirmək iqtidarında olma»dığına sübut olaraq yada salır. O, «rus yoldaşların» gözünü açıb ayıq salmaq məqsədilə povestdən rusçaya tərcümə etdiyi bəzi iqti-

baslar vasitəsilə N.Nərimanovun əslində xalis din ideyasını təbliğ etdiyini, nadan xalq kütlələrinin fanatizmini onların həqiqi Allahdan uzaq düşmələri ilə izah etməsini tənqid edir. Göstərir ki, din əleyhinə kitabçalar buraxmaq istəyərkən, N.Nərimanov onda düzəliş etmək təklifindən qəti surətdə imtina etmişdi, yəni əvvəlki fikrində qalmışdı. «Mən daha çox şeylər göstərə bilərdim, amma deyilənləri hələlik yetərli sayıram» deyə «müttəhim»in digər əsərlərindən, təəssüf ki, danışmır. Bununla belə, o, xoş niyyətlə və nəzakətlə olmasa da, «Pir» əsərinin doğru şərhinə xeyli yaxınlaşır (**24**).

***

Allahın birliyi ideyası N.Nərimanovun «Bahadır və Sona» romanı (1896) və roman əsasında səhnələşdirdiyi, fəlsəfi pafosu cəhətincə, zənnimcə, ondan daha qüvvətli olan eyniadlı dramında (**17**) da çözülür. Burada o, millətlər və dinlərarası münasibətlər müstəvisinə keçirilir. İki gəncin – azərbaycanlı türk oğlu Bahadır və erməni qızı Sonanın faciəvi məhəbbət hekayəsi timsalında insanları bir-birindən uzaqlaşdırıb, aralarında «uçurum dərələr» yaradan milli və dini ayrı-seçkilik pisləniilir və əslində «Bir Allahdan başqa qeyri-məbud yoxdur» kəlamının mənasının təhrif edilməsi kimi təfsir edilir. Bahadırın Sonaya məktubundan aşağıdakı sözlərini yada salaq: «Biz əsil mətləbi əldən buraxıb cüzi qanunlara sitayiş etmişik. Bir Allahı buraxıb min allaha səcdə edirik. Fəqət əsil mətləbi düşünənlər birləşirlər, danışırlar və məhəbbət nə olmağını düşünürlər».

Yazıçının həqiqi din barədə düşüncələri Bahadır və xüsusilə Sona obrazı vasitəsilə açılır. Onun Sonası olduqca ağıllı, ata-anasını, millətini, dinini sevən, ona qələmi, biliyi ilə xidmət edən pak, səmimi qəlbli bir qadındır. O, dillərə böyük maraq göstərir, türkcə gözəl danışır, çoxlu şeir, tapmaca bilir, farscanı öyrənir. Qəribə orasıdır ki, bu erməni qızının inamına, xristianlıq kimi səciyyələndirilə bilməyən, sufi örtüyündə bir mistisizm xasdır. Bu məqam dramda daha qabarıq verilir.

N.Nərimanov Sonanın dili ilə insanları dini inamlarının səciyyəsi baxımından fərqli beş qismə ayırır. Birinci qismə kor-koranə hər şeyə inanan avam, lakin ürəkləri saf, sadiq, mehriban insanlar daxildirlər: onlar Allahı öz ağılları ilə deyil, başqalarının sözləri ilə tanıyarlar, Allahın varlığını öz vücudları ilə hiss etməzlər. İkinci qismə «öz əməllərində bir şeyə inanmayıb, fəqət, əvvəlinci qisim adamlara həmişə yol göstərən olublar». Belələri həmişə Allahdan, onun qanunlarından dəm vurar, Allahın ehkamlarına dürlü-dürlü məna verib, avama satarlar. «Üçüncü qism adamlar avara bir qismdir. Bunlar nə avamdırlar, nə də alim. Onun-bunun ağzından yarımçıq məlumatları alıb, öyrənib, din məsələsinə həmişə girişərlər. Özlərini ariflər cərgəsində tutub zahirdə bir şeyə inanmazlar, batində isə hər bir müşkül işlərində tez Allahı köməyə çağırarlar. Fəqət, Allah nə olduğunu da düşünməzlər». Dördüncü qisim adamlar müəyyən bir əqidə sahibidirlər. Bunlar ömürlərini elm yolunda sərf edib, elmdən başqa bir şeyə pənah aparmazlar və inanmazlar. Beşinci qisim adamlar bir Allahdan başqa heç şeyə inanmazlar. Həm də Allaha itaətləri qorxu hissi ilə deyil, həqiqi məhəbbət sayəsində olur. Çünki inanmaq özü də böyük səadətdir (**18, s.141**).

Buradan göründüyü kimi, N.Nərimanov üçün «heç bir şeyə gərək olmayan

şeylərə səcdə» edən, «quru daşları öpən» sadəlövh, avam dindar kütlənin səmimi dindarlığı müəyyən qədər məqbuldur. Lakin inamda din adından danışıb «vicdanlarını daima satan», Allah ehkamını yanlış təfsirlərlə saxtalaşdıran riyakar, fırıldaqçı ruhanilər yaxud əslində indefferent olub, ilahiyyat bilicisi kimi özünü göstərən diletant praqmatiklər kimi dindən başqalarını aldatmaq, şəxsi mənafe və xudbin məqsədlərlə istifadə edilməsi yolverilməzdir. Müəllifin rəğbəti Bahadırın timsalında elm, Sonanın timsalında Allahı ağlı və qəlbi ilə tanıyıb sevən din tərəfdarlarınadır. Bununla belə, ikincilərə mənəvi planda sanki daha çox üstünlük verir. Çünki özünü «elmdən başqa bir şeyə inanmayan»lardan hesab edən Bahadır Sonanın onu «tam həyatın məhəbbətdən ibarət bir şey kimi görün»düyü «qeyri aləmə» dəvətini qəbul edib, Allaha inanacağını və sevəcəyini deyir.

Əslində Sonanın Allaha saf, müqəddəs məhəbbəti panteistik məqamları ilə güclü olan vəhdəti-vücudu təcəssüm edir. O, öz inancını belə təsvir edir: «həm dəhşətli bir vaqiədə və həm də böyük bir səadətdə bulunduğum halda mən allahımı unutmuram, onu var qüvvəmlə sevirəm, onu hər zamanda, hər məkanda görürəm, hiss edirəm, düşünürəm. Gecə ulduzlu, gündüz təmiz, buludsuz göyə baxıram da allahımı düşünürəm. Bu gözəl gülün ətri, nazik zərif yarpaqları, o bülbülün nəğməsi, bu qırmızı gözəl almalar, almalarda olan toxumlar, toxumlardan əmələ gələn budaqlı, kölgəli ağaclar, bu ağacları becərən insanlar, insanlara tabe olan dəhşətli heyvanlar… Bunların hamısında, bütün həyatımızda hər saat, hər dəqiqədə allahı görürəm, hiss edirəm, düşünürəm…»

Burada N.Nərimanov «Pir» povestindəki «Həqiqi məhəbbət üçün görmək, düşünmək, hiss etmək lazım gəl»diyi barədə fikirlərini inkişaf etdirərək, Allaha bu cür inamı, birbaşa deməsə də, ən gözəl sözləri – «La ilahə illəllah»ı doğrudürüst anlamağın nümunəsi kimi təqdim edir və Sonanın «ən sevimli duası» vasitəsilə Qurana bağlayır.

Məsələ burasındadır ki, Sona Allaha inamından danışarkən, ən sevimli duasının bir türk şeiri olduğunu və bunu zikr etdikcə sanki qəlbinin təmizləndiyini, ümidinin artdığını hiss etdiyini, gələcəyini böyük səadətdə gördüyünü söyləyir:

«Yarəb, həmişə lütfünü et rəhnüma mənə,
Göstərmə ol təriqi ki, getməz sənə, mənə».

Yəni bu, Məşədi Allahverənin namaz vaxtı ərəbcə mənasını anlamadan zikr etdiyi elə həmin, lakin bədii-poetik libasa bürünmüş «ehdinəssiratül müstəqim»dir. Sadəcə N.Nərimanov burada «Fatihə»nin real insanda doğurduğu hiss-həyəcanın əksi kimi Füzuli qəzəlinin birinci beytinə (Füzulinin adını çəkmədən) müraciət edir. Əslində şairin parafrazı olmadan bu dua erməni-xristian qızının dilində yetərincə qəribə səslənər və onun sufiyanə inamına uyğun gəlməzdi. Nəzərə alsaq ki, «Fatihə»nin müvafiq ayələrinin bəzi şərhlərində «qəzəbə düçar olmuşlar» deyəndə müqəddəs kitabları (Tövrat, İncil) olan yəhudilər və xaçpərəstlərdən, «azmışlar» deyəndə «məcuslar, atəşpərəstlər, bütpərəstlər və başqalarından söhbət getdiyi vurğulanır (**19**).

Əsər boyu qəhrəmanları «O nə sirrdir, insanlar bir-birindən təfriqə düşüblər?!» sualına cavab axtarır, insanları bir-birindən ayrı salan «uçurum dərələr»i məhv etməyə çalışırlar. Lakin milli və dini ayrı-seçkiliyin hökm sürdüyü bir mühitdə nə elm, nə də inam onların məhəbbətini xilas etmək iqtidarında deyil. Bahadır özünə qəsd edir, Sona isə havalanır. Sonuncu pərdədə Sonanı dəlilər evində, uzun ağ xələtdə, yaylığı boynunda saçları tökülmüş halda psixi xəstələr arasında gəzən görürük. O, hərdənbir çarəsiz əllərini yuxarı qaldırır, öz-özünə danışır: «Allah bir… Qanun bir… Məqsəd bir… Yol bir… «Bir Allahı buraxıb min allaha səcdə etdik. Müsəlman, xristian, yəhudi və bütpərəst nə olmağını anlamıram, və istəmirəm də anlamaq»…«O nə sirrdir, insanlar bir-birindən təfriqə düşüblər?!»…

***

N.Nərimanov 1918-ci ildə Həştərxandakı çıxışlarında «Nadir şah», «Bahadır və Sona» əsərlərini yada salır, onlarda və əsrin əvvəllərində mətbuatda getmiş məqalələrində irəli sürdüyü dini dözümlülük, dini etiqad azadlığı barədə fikir-mülahizələrinin reallaşması vaxtının artıq yetişdiyini qeyd edirdi. Bu, Rusiya Xalq Komissarları Soveti tərəfindən 23 yanvar 1918-ci il tarixində «Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında» dekretin qəbul edilməsi ilə bağlı idi. Dekretin vətəndaşlara istənilən dinə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək hüququ verməsi, insanlar və xalqlar arasında hər cür nifrət və ədavəti qadağan etməsi N.Nərimanovun qayəsinə uyğun idi. O, dini ayrı-seçkiliyə qarşı olan dekretin müxtəlif dinləri tanımasını, əqidə və etiqad azadlığına yol verməsini müsbət qiymətləndirirdi. Lakin o, dekretin müddəalarını tam orada olduğu kimi qəbul etmirdi, çünki vicdan azadlığını daha demokratik ruhda, humanistcəsinə, geniş aspektdə və dərindən anlayırdı. N.Nərimanovun həmin dövrdə müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarına, yazdığı məqalələrinə problemin konseptuallaşdırılması xasdır. Bu, onun dini etiqad azadlığı prinsipinin mahiyyətinin açılmasında, dinə qarşı dözümlülüyün hüdudlarının müəyyənləşdirilməsində, vicdan azadlığı üçün kilsənin dövlətdən, məktəbin kilsədən ayrılmasının, dindarlara münasibətdə milli və dini özəlliklərin nəzərə alınmasının vacibliyinin rasional-fəlsəfi cəhətdən əsaslandırılmasında özünü göstərir. İslam dininə münasibətdə, müsəlmanlara yanaşılma üsulları barədə onun mövqeyi dekretdən də, o zamankı rəsmi kommunist nöqteyi-nəzərindən də köklü surətdə fərqlənirdi. N.Nərimanov Həştərxan mollaları və tatar məktəbləri müəllimləri ilə görüşündəki nitqində dekretin real gerçəkliklə səsləşməyən, ciddi etirazlar doğuran müddəalarının üzərindən nəinki sükutla ötüb keçmiş və hətta dekretə zidd öz mülahizələrini də söyləmişdir. Maraqlıdır ki, həmin nitqini N.Nərimanov islam tarixinin başlanğıcında Məhəmməd peyğəmbərin bütpərəstlik əleyhinə barışmaz mübarizəsini xatırlamaqla başlayıb, onun öz xalqını bir Allaha inanmağa çağırdığını söylədikdən sonra, müsəlman auditoriyasına müraciətlə əlavə edir: «Siz də deyəcəksiniz: «La ilahə illəllah!» («Allahdan başqa tanrı yoxdur!») (**20, s.164**).Yəni o, nitqinə islamın inam rəmzi olan «ən gözəl sözlər»in özünəməxsus təhlilindən başlayıb, onu bilavasitə vicdan azadlığı ilə əlaqələndirir. O deyirdi: «Bəs kilsəni

dövlətdən ayırmaq nə deməkdir?» «Bu ancaq o deməkdir ki, kilsəni, dini dövlətin təsirindən azad etmək lazımdır. Bu o deməkdir ki, ruhanilər: mollalar, keşişlər kənardan heç bir təsir olmadan dini, şəriəti təbliğ etsinlər. Kilsəni dövlətə tabe etmək mollalara, keşişlərə pul, qızıl, vəzifə, rütbə verib satılmaz və alınmaz əsl dinin tələblərini deyil, dövlətə lazım olan şeyləri təbliğ etməyə məcbur etmək deməkdir. Din, iman azad olmalıdır. İman şəxsi bir işdir; onu satmaq və almaq olmaz, zorla bir adamı bir dinə gətirmək olmaz» (**21, s.199**). Başqa sözlərlə, burada kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında dekretin mahiyyətini mütəfəkkir real hakimiyyətə, gücə, cəbr aparatına malik dövləti, sovet dövləti də istisna olmamaqla, «Allahdan başqa tanrı» qisminə aid edərək, imanı dövlətin təsirindən, müdaxiləsindən qurtarıb azad etmək kimi təfsir edir. Necə deyərlər, ən gözəl sözlər vicdan azadlığının qarantına çevrilir.

***

Bütün deyilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, əsərlərində N.Nərimanov bir tərəfdən, insanları mövhumat və xurafat məngənəsində saxlayan pirləri, müxtəlif səcdəgahları, digər tərəfdən, insanlar arasında hökm sürən dini və milli ayrı-seçkiliyi konservasiya edən dövləti, kilsəni; zülmün, istismarın səbəbkarı, doğmaları belə yadlaşdıran, bir-birinə düşmən kəsən mənfur kapitalı «Allahdan başqa tanrı»lar cərgəsinə daxil edir. Yeri gəlmişkən, son yüzillikdə bütlər, görünür, azalmamışdır. Marksizmdən müsəlmanlığa qədər mürəkkəb, dolanbac yol keçmiş XX əsrin görkəmli fransız mütəfəkkiri Roje Qarodinin yalançı tanrılar siyahısında pulla yanaşı elm, texnologiya, millət, seksuallıq və inkişaf da vardır. Onun fikrincə, müasir Qərb sivilizasiyasının tənəzzülünün əsas səbəbi mütləq mənəvi dəyərlərdən imtina edilməsi ilə vasitələrin son məqsədlərə, səcdə obyektinə, dinə çevrilməsidir. O, bu dini «elmi elmi spekulyasiyaya, texnologiyanı texnokratiyaya, siyasəti makiavellizmə dəyişdirən yeni bütpərəstlik və yeni mövhumat yarat»maqda suçlayır, həqiqi dəyərləri insana qaytarmaq üçün çıxış yolunu Tək Allaha inam üzərində qurulmuş islam dininə şəhadət verib də onu müasir insanlar arasında yaymağa çağırır (**22**).

Artıq deyildiyi kimi, Quranda bir olan Allah haqqında təsəvvürlər öz spesifikliyi ilə seçilir. O, şəxs deyil, çünki doğmayıb, doğulmayıb, nə ondan bir şey, nə də o bir şeydən ayırlmayıbdır. O, hər yerdədir, hər şeyi, məkanı və zamanı özündə ehtiva edir, sonsuzdur. Onu təsvir yaxud təsəvvür etmək qeyri-mümkündür. O, dünyanın yaradıcısı, ali fikrin və ədalətin təcəssümüdür. Bir sözlə, O, mücərrəd varlıqdır. Bu nəhayətsiz abstraksiya dühaların diqqətini çəkmiş, onu deizm, hətta «panteizmə olduqca yaxın» mükəmməl deizm (məsələn, Əhməd bəy Ağayevin mülahizələrinə görə), panteizm, vəhdəti-vücud və hətta fanatizm, ateizm məcrasında fərqli təfsir etmişlər. Doğrudur, islamın «fanatizmi» əslində birmənalı başa düşülmürdü. Məsələn, Hegelin məsələyə baxışı Volterin xeyli aşağılayıcı baxışından fərqlənirdi. Hegel üçün bu fanatizm abstraksiyanın (=*Tək Allah ideyasının* – A.H.) doğurduğu və onun naminə coşğuluq, ilham, şövq idi, müsəlman fanatizminə alman filosofu kiçik maraqlardan uzaq və «alicənablığa və igidliyə xas olan bütün fəzilətlərlə birləşdiri»lən

bir ucalıq aid edirdi (**23, s. 337**). Bəzi ədəbiyyatlarda bu «uca» fanatizm passionarlıq kimi də təqdim edilir.

Dahi rus yazıçısı L.N.Tolstoyun islama rəğbətinin və yüksək dəyər verməsinin kökündə məhz onda təkallahlılıq ideyasının daha ardıcıl və dürüst ifadə edilməsi dururdu. N.Nərimanovun baxışı da Tolstoyunkuna yaxın idi, o da bəhs edilən abstraksiyada islamın üstünlüyünü görür, onun rəmzini öz dünyagörüşü ilə əlaqələndirərək, xüsusilə bədii əsərlərində vəhdəti-vücud ruhunda humanistcəsinə şərh edir ki, bu şərhin ayrı-ayrı məqamlarında sufi mistisizminin təsiri görünür. Onun vəhdəti-vücudu təfsirinə müstəsna olaraq Allahın dünyaya immanentliyi məqamına istinad xasdır, yəni Allah dünyada, yaratdıqlarında təzahür edir. Allahı dərk etmək üçün Onun lütfünü, mərhəmətini, sevgisini həmin təzahürlərdə görməyi, düşünməyi, hiss etməyi bacarmaq gərəkdir, bunun isə yeganə yolu Allaha məhəbbətdir. Allah rəhimlidir, O hamıya bir gözlə baxır, Onun qarşısında dinindən, irqindən, milliyyətindən, ictimai mənşəyindən asılı olmayaraq bütün insanlar bərabərdirlər. Hər bir xalqın öz məsləyi ilə yaşamağa, özünəməxsusluğunu qorumağa haqqı var, lakin bu, xalqların ümumi vəhdətinə, dostluq və əməkdaşlığına xələl gətirməməlidir. Allahı tanımaq yaxşılıq etmək, geriliyi, zülmü, istibdadı, istismarı aradan qaldırmaq, elmə, mədəniyyətə, inkişafa yol açmaq deməkdir. Nəriman Nərimanovun ən gözəl sözlərin hikməti barədə bu düşüncələrində heç vaxt köhnəlməyəcək demokratik və humanist ideyalar, müasir mürəkkəb dünyamızdakı dövlətlərarası, milli-dini konfliktlər, miqrantlar problemi fonunda xüsusi aktuallıq kəsb etmiş multikultural dəyərlər və tolerantlıq prinsipləri öz təcəssümünü tapmışdır.

Ədəbiyyat və şərhlər:

1. Qurani-Kərim. (Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev). Bakı: «Çıraq», 2009. Burada kursiv mənimdir.

2. Коран. Перев. С арабского Г.С.Саблукова. Изд. 4-е. Санкт-Петербург: «СЕВЕРО-ЗАПАД ПРЕСС», 2004.

3. Kuran-i Kerim. Türkçe meali. Yeni asır, 1985.

4. Qurani-Kərim və Sözbəsöz tərcüməsi. Bakı: Şərq-Qərb, 2012.

5. Qurani-Kərimdən surələr. Poetik-filoloji tərcümə və təfsir. (Ərəb dilindən tərcümə edən: Əmirşah Əmirəhmədov). Bakı: «Şərq-Qərb» ASC mətbəəsi, 2013.

6. Hacı Mirməhəmməd Kərim əl-Bakuvi. Kəşfül-həqayiq. Azərbaycan türkcəsində Qurani-şərifin təfsiri. 1904-cü il nəşrindən. III cild. Bakı, 2014.

7. *Almas İldırım*. Seçilmiş əsərləri. Bakı: «Öndər nəşriyyat», 2004.

8. Закуев А.К. Философия ан-Наззама. Баку: Изд.-во АН Азерб.ССР, 1961.

9. «Pir» əsərinin ilk dəfə kitab halında buraxılması tarixi barədə məlumatlar fərqlidir. Belə ki, Vəli Məmmədov özünün «Nəriman Nərimanov» (Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, 1957) kitabında «Pir» povestinin ilk dəfə 1913-cü ildə Bakıda nəşr edildiyini və kitabın üz qabığındakı

şəkli Azərbaycanın xalq rəssamı Əzim Əzimzadənin çəkdiyini göstərir (s. 98), Nəriman Nərimanovun «Seçilmiş əsərləri»ndə (Bakı: Elm, 1973) verilən şərhlərə görə isə əsər ilk dəfə 1917-ci ildə Bakıda «Açıq söz» qəzetinin elektrik mətbəəsində çap edilmişdir (s.436).

10. «Pir» povestindən burada (s. 232) və daha sonra gətirilən iqtibasların mənbəyi bax bu kitabdandır: Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.

11. Quranda deyilir: «İnsanların içərisində Allahdan qeyrilərini (*Allaha*) şərik qoşub, onları Allah kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər (özlərinə) zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün (*qüvvət və*) qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər» (2:165).

12. Əqəbə – *ərəbcə* çıxılması çətin olan yoxuş, təhlükəli keçid, maneə.

13. Burada söhbət müsəmanların tez-tez müraciət etdikləri Quranın birinci, «Fatihə» surəsinin 5-7-ci ayələrini özündə ehtiva edən duadan gedir: «Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru (*düz*) yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (*haqdan*) azmışların (*yoluna*) yox!» (1: 5-7). (Qurani-Kərim. Bakı, «Çıraq», 2009. s. 117) Təbiidir, müxtəif tərcümələrdə həmin yer müxtəlif cür səslənir. Ə.B.Əmirəhmədovun Quranın bəzi surələrindən etdiyi tərcümələr onun ədəbi-bədii xüsusiyyətlərini saxlamaq cəhdi ilə diqqətəlayiqdir. Bəhs etdiyimiz ayələr həmin tərcümədə belə səslənir: «5.Biz Sənə qulluq edir, Səndən umuruq kömək; 6.Bizi düzgün yola çək. 7. Nemət verdiklərinin yolu ilə qoy gedək; qəzəbə uğrayanların, düz yoldan sapanların yoluna qoyma düşək». (Əmirşah Babaşah oğlu Əmirəhmədov (Hacılı). Qurani-kərimdən poetik-filoloji tərcümələr. //«Şərq-Qərb: sivilizasiyaların dialoqu» elmi-nəzəri jurnalından (№ 2 (3), Bakı, 2006) çıxarış, s.25.)

14. Ибн Араби. Геммы мудрости. //Смирнов А.В. Великий шейх суфизма (опыт парадигмального анализа философии Ибн Араби). М.: "Наука"; Издательская фирма "Восточная литература", 1993.

15. Fransanın cənub-qərbində yerləşən Lurd şəhəri XIX əsrin 70-ci illərindən kütləvi ziyarətgah yerinə çevrilmişdi. Katolik kilsəsinin yaydığı «Allah-ananın möcüzəli zühuru» haqqında əfsanəyə görə, guya bu möcüzənin baş verdiyi qəsrin yaxınlığında yerləşən bulaq müalicəvi gücə malikdir. Emil Zolya «Lurd» romanında möcüzəli şəkildə sağalmağa ümid edən bədbəxt xəstə insanları aldadan ruhaniləri və fırıldaqçı işbazları ifşa edir. // Bax: *Эмиль Золя.* Лурд. [роман]. Перев. с. фр. И. Ириновой. Киев: Изд.-во Политической литературы Украины, 1988.

16. Məsələn, bax: *С.* Вельтман. Н.Нариманов – бытоописатель Востока. //Нариман Нариманов. Собрание сочинений. (С предисловиями. Под общей редакцией и с вступительной статьей Михаила Павловича). Т. 1. М.-

Л.: «Земля и фабрика», 1926.

17. N.Nərimanov 1915-ci ilin yayında səhnələşdirdiyi «Bahadır və Sona» dramı 1916-cı ilin dekabrında səhnəyə qoyulmuşdur. Burada təhlil məhz dram əsasında aparılır və gətirilən iqtibaslar bu kitabdandır: Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.

18. Bax: Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.

19. Bax: Qurani-Kərim. Bakı: «Çıraq», 2009, s. 34. Qurani-Kərimdən surələr. Poetik-filoloji tərcümə və təfsir. Bakı, 2013.; Yeri gəlmişkən, sonuncu kitabda «Fatihə» surəsinə verilən şərhdə yəhudilər «qəzəbə uğrayanlar», xristianlar isə «sapanlar», yəni «azmışlar» cərgəsinə aid edilir (s. 28). Qeyd etmək lazımdır ki, Quranın heç də bütün şərh-təfsirlərində bu cür konkretləşdirmələrə rast gəlinmir.

20. Н. Нариманов. Избранные произведения, том 2 (1918-1921). Баку, Азернешр, 1989,.

21. N.Nərimanov. Məqalələr və nitqlər. İki cildlik, I cild. Bakı: Azərnəşr, 1971.

22. Bax: Роже Гароди. За Ислам XX века. // http://www.islam.by/at/?id=16.

23. Bax: Гегель. Сочинения. Т.8. Философия истории. М.: Государственное социально-экономическое издательство, 1935.

24. Иванов Р.Н. Нариман Нариманов основатель советского Азербайджана и первый руководитель Союза ССР. М.: ППП «Типография «Наука», 2016.

Niyazi Mehdi

AZƏRBAYCAN BİLİNMƏLƏRİNDƏN SEZİLƏN NƏSƏLƏR

Bizdən arxada oluban bizdən ağıllı olanlar

Fon Bertalanfini, sistem nəzəriyyəsini filanı köməyə çağırıb söyləmək olar, ulusların Yer dünyasında çoxlu və dürlü olmasının bir hikməti var: cürbəcür olan millətlər dünyamızın cürbəcür məqsədlərinə özəl yollar açırlar və bir ulusun dil şəbəkəsindən, alçaq adamları ilə uca adamları, pis adamları ilə yaxşı adamları, gözəl oğlan qızları ilə çirkin oğlan-qızları, dinsizləri ilə dindarları, axmaqları ilə ağıllıları, kasıbları ilə varlıları, yaradanları ilə yarınanları arasında olan dolaşıqlardan, gərilmələrdən, qurtulmalardan, bezikmələrdən, çiyrənmələrdən, birləşib birləşməmələrdən elə bir enerji "dağarcığı", elə bir təpər qaynağı yaranır ki, yalnız bu qaynağa gömülmüş bilinc (şüur), yalnız bu qaynağa köklənmiş şüur ancaq və ancaq onların arasından dolaşıb gedən yollara düşüb yollananda gedib o mənzilə, o məqsədə çatır ki, başqa uluslardan keçən yollardan həmin mənzil ya görünmür, ya da başqa taydan görünür. Əski yunanlardan, beləcə, özəl fəlsəfi mənzilə yol keçmişdi (eləcə də faciəyə, demokratiyaya və

s.-yə). Əski romalılardan, beləcə, özəl dövlət, qanunçuluq və s. mənzillərinə yollar keçmişdi.

Quzey Azərbaycan - xəritədə okeanın dərinliklərində yaşayan yastı-yapalaq əcaib canlıya bənzəyir, o canlıya ki, əvvəlcə Abşerona bənzər burnu ilə və eymənditir, bir az sonra isə zərərsizliyi bilinəndə yazıqlaşır, bax, bu Quzey Azərbaycanda yığışıb durmuş dünyadan yollar hayana gedir? Bəs bu Quzey Azərbaycanın içindəkilərə köklənəndə hansı amacları, hansı məsələləri görmək, bilmək olur?

Bu soru çox böyükdür. Onun açdığı genişliyin bir zolağı isə Azərbaycan türkcəsindən görünən yollardır.

Bir az da aydın, Azərbaycan türkcəsində ilkin, özü də metafiziki, yəni fəlsəfi gücü gizlətmiş sözlər var. Bəziləri belə hesab edir ki, dünyaya baxıb fəlsəfə yapmaq və tapmaq olar. Ancaq, biləkləri də var ki, belə ilkin sözlərə qulaq tutub, onların anlamlarını (anlatdıqlarını) çözələyib fəlsəfə tapır və yapır. Gəlin, biz də bu yolu tutaq.

Bu yolu tutmaq istəyən ilk öncə bir soruya dirənib qalır. Gərək onun cavabını verməlidir ki, onu adlaya bilsin.

Həmin sual. Belə ilkin metafiziki gücü olan sözlərə bu metafiziki gücün dağarcığı olan mənaları kim qoyub? Kimdir mənatapıcı düşüncəsi ilə bizdən min illərcə əzəldə lap daş dövründə və ya ondan da o tayda durur, sözlərə yumulu qalanda bilinməyən, açılanda dəhşətli düşüncə enerjisi olan mənalar qoyur və bugünkü bizlər həmin mənaları açanda özümüzdən ağıllı NƏSNƏLƏRLƏ rastlanırıq, di gəl ki, bu ağıllı TƏSNƏLƏRİ bizə bizdən qabaqda gedən kimsə vermir, bizdən min illərlə arxada duran daş dövründə və ya insanlığın və ya türklüyün dansökülənində durmuş və ya güman, hələ şeirləri yonulmamış olan, hələ əlləri incəlməmiş olan, bizim taydan vəhşi görünən kimlərsə verir.

Kimdir bizdən aşağı durub bizdən yuxarı olan?! Kimdir bizdən arxada oluban bizdən irəlidə duran?! Dini tarix (və ya qutsal tarix) modelində bizdən aşağıda, bizdən arxada dura-dura bizdən yuxarıda, bizdən irəlidə olanı belə edən Allah-təaladır. Odur ilk insanların bəzi sözlərinə metafiziki gücə tutulmuş anlamları qoyan və bununla da bu sözlərin yiyələrini irəli nəsillərdən irəli edən. Ancaq bu iki-üç cümlə ilə məsələ açıqlananda, - xalis dinlərsə dərin, dolaşıqlı məsələləri beləcə də açıqlayır, - açıqlama mifoloji simvolizm ruhunda olur. Elə ki, biz belə məsələlərlə bağlı açıqlayıcı deyimlərin sayını artırırıq, hər deyimi "nəyəgörəlik", "nədənlik" sorularına cavabən qururuq, o zaman fəlsəfə yapmış oluruq. Bayaq qoyduğumuz məsələni də bu yönümdə açıqlayaq. Məsələni sual şəklində bir də söyləyək: metafiziki gücü olan sözlərə bu metafiziki gücün dağarcığı olan mənaları kim qoyub ki, bizdən uzaq keçmişdə olan kəslər bu sözlərin ilk yiyələri kimi bizdən irəlidə bir ilğım ideallığında durublar?

Uzaqlığın bilgiitiriciliyinin bilgitörədiciliyi

Fizika, informasyon (bilgi) nəzəriyyəsi uzaq məsafələrdən keçəndə informasyon kanalında küyə görə bilginin korlanmasını, pozulmasını, "səsinin bat-

masını" sübut edir.

Uzaq keçmişdən bizə çatan soraq əslində hansı mənalarda, hansı formada olub? Bu soruya cavab vermək üçün bizə çox şeylər əngəl olur. Əngəl olur bu keçmişin dilini bilsək belə, dil situasyonunu, dil kontekstini pis bilməmiz.

Çağımızdan bir örnək: bu gün biz "Mən ölüm, filan şeyi elə" deyirik, min ildən sonra Azərbaycan türkcəsini qrammatika kitablarından və s.-dən öyrənən bir yabançı həmin cümləyə rast gələndə çaş qalacaq. Çünki cümləni belə anlayacaq: mən ölüm və mən öldüyüm müddətdə sən filan şeyi elə.

Bu yabançı kəs çağımızın dil situasyonunu bilmədiyi üçün belə anlayacaq. Onu da deygk ki, heç indinin özündə bir çox azərilər ki, min dəfə "mən ölüm" söyləyirlər, yaxşı bilmirlər hardandır "mən ölüm". Bircə onu bilirlər ki, "mən ölüm"lə yalvarışı, xahişi xeyli güclü bildirmək olur.

Bəs, "mən ölüm" hardandır? "Mən ölum"dən qabaq dildə and mənasında "sən öl" işlənməli idi. Ancaq andın "sən öl" qısa variantı da dil situasyonunu bilməsən, anlamsızlıq yaradır. "Sən öl" andının əsasında belə bir geniş variant durur: "sən mənə çox əzizsən, yalan deyirəmsə, sən öləsən, deməli, mən çox əziz bir varlığı itirməklə cəzalanım". Bu cümləni, bu dil situasyonunu aydın və dumanlı nəzərdə tutanda "sən öl" qısa variantı da anlaşılır. Bəs, "mən ölüm" hansı məntiqlə dildə, danışıqda olmaq hüququnu qazanır?

Yalnız "sən öl" vərdişli deyimə çevriləndən sonra. "Sən öl"ün əsasında duran geniş variantlı cümləyə yeni cümlə laylanır və ya belə deyək: həmin geniş variant başqa bir geniş cümləquruculuğuna örnək olur: "mən sənincün əzizəm, əgər filan şeyi etməsəm, mən ölüm və beləcə bu itki ilə sən cəzalanasan".

Bir çox cümlələrin lüğətdəki mənalarından başqa çoxlu anlam çalarları var və bu çalarlar çoxlu da dil situasyonlarını biləndə, dil kontekstinin içində olanda görünür. Əski çağlardan bizə çatmış deyimləri, əslində, olduğuna yaxın anlamağımıza bu və ya başqa amillər əngəl olur. Nələrin əngəl olması haqqında elmdə yetərincə bilgilər var.

Deməli, yenidən deyək: uzaqlıq, uzaqlardangələnlik bilgiitiriciliyi ilə bağlıdır.

Bəs bilgiitiriciliyinin bilgitörədiciliyi nədir? Lotman kimi alimlər buna bir örnək göstəriblər: bilgiitiriciliyi, informasyonun küylə "ləkə-lükə" olması, bilgidə itənləri qaytarmaq üçün yozmaq eyləmlərini fəallaşdırır və yozum axtarışlarının özü güclü informasyon qaynağa çevrilir

(Başqa arqumenti V.P. Rudnev adlı tanımadığım yazar verir. Onun açımı belədir: tutalım ki, heç bir teksti yozmağa gərək yoxdur. Örnəyin, "İqor polku dastanı" yazı ilə, ağız ilə yayılan kimi ondakı hər nə varsa, hamısı anlanılır. Belə olsa, görün, dastan haqqında yazılmış nə qədər kitablar mədəniyyətdə olmayacaq. Bax: V.P. Rudnev. Smısl kak travma).

Mən istərdim bu məsələdə öz axtarışımı edim. Anadolu türklərinin fəlsəfi dili üçün bir söz düzəldilib "bilinc", "Şüur" sözünün qarşılığı olan bu söz quramadır, düzəltmədir, ancaq buna baxmayaraq sönük deyil, düşüncə cərəyanını özündən keçirə bilir. Buna baxaq.

Türkcədə "bilmək" sözü şüurla sıx bağlıdır, ona görə də "müdrik" anlamını

verən "bilgə" sözünə çevrilib. Ancaq "bilmək"lə "bilinmək", "bəlirtilənmək" də bağlıdır. Eləcə də "bildirmək" sözü var. Çox güman ki, ilkində "bildirməy"i insan özü ilə bağlayıb, yəni insan bildirə bilər. Sonra antropomorfizm işə düşüb, yəni insan dünyanı özünə oxşatmaqla dünyanı anladığı üçün çevrəsindəki nəsnələri də özü kimi bildirən sayıb. İnsan sözü ilə, üz-gözü, him-cimi ilə başqasına nəyisə bildirirsə, deməli, özündə qapalı qalanı başqasına çatdırır. Bax, bu "çatdırmaq" sözündə, artıq, məsafə, ara, bir-birindən uzaqda durma var.

Dünyada nəsnələr bir-birindən uzaq düşəndə özlərindəki nəyisə bir-birinə bildirmək aktı ilə çatdırırlar.

Ancaq "bildirmək" sözündə qəsdənlik var. Yəni bilərəkdən bildirmə. (Onun üçün də nəsnələrlə bağlı bu sözü işlədirsənsə, metafiziki əsaslandırmaya keçməlisən. Buna bir variant: Tanrı nəsnələri dilləndirir və s.)

Bir də var bilinmə. Bu, artıq, insanın, nəsnənin qapalı. örtülü qalmağa dözümsüzlüyüdür. Hər nə dolursa, özündən uzağa nəyinisə atır, ondan nəsə bilinir.

Nəsnə özündən **uzağa nəyinisə çıxarmağa, çatdırmağa hamilədir.** Ancaq uzaqlar da özünə doğru çəkim gücünə yiyədir. Bilinmə olayını dunyada uzaqlara çıxmaq və uzaqdan çəkmək hərəkətlərinin qovşağında mənimsəmək gərəkdir.

İkinci bir məsələ. Uzaqlıq ideallaşmaq, ideya çeşidli olquya çevirmək sürəcinin şərtlərindən biridir, necə ki ideal, ideyasayağı ilğımlar da uzaqlıqlar sayəsində peyda olur. Çox böyük uzaqlıqları biz gözlə öz dünyamızda saxlamırıq. Çox böyük uzaqlıqlar xatirələr, təsəvvürlər sayəsində ilğımlar şəklində hər bir ayrıca adamın dünyasında təqdimatını saxlayır, (uzaqlığın ideal mahiyyətlərlə belə bağlılığındandır ki, biz uzaqlara göz dikəndə ruhumuzu, qutumuzu havalanmış duyuruq).

İnsanın öz bilincini (şüurünu) özündə necə duymasının iki ölçüsğ var. Birincisi, onu öz qafasının balaca çevrəsinə yığılmışlığı ilə duymaqdır. Bu, insanın öz şüuru ilə intim yaxınlığını əyan edir. İkincisi, insan öz bilincini uzaqların istənilən uzaqlığını öz içinə salmaq bacarığında bilərək duyur. Bu bilinc öz sınırlarını istənilən uzaqdakı nöqtədən o taya sala bilir. **Bilinc özünü istənilən-dən otaydalaşmaqda duyduqca** özünü ildırım sürəti ilə açılan, tutan, qapsıyan bacarıqda bilir və deməli, özünü bilinc, şüur kimi bilir, Çünki şüur, ideal olmaq mahiyyəti göz qırpımında uzaqdakına çatıb onu içindəki etmək bacarığıdır.

Uzaq və yaxın ölçüləri bilincin bilincliyində, belə iştirak etdyi üçün də xəlvətdən xəlvətə fəlsəfi quruculuğa keçmişdir. Budda öz axtarışlarında insana ağrı-acıları özündən uzaqlaşdırmaq yollarını göstərirdi. Kant oxucusunu fəlsəfə sayəsində mat qoymaq üçün elə bir olqu (rusca "suhee") göstərir ki, həmişə bilincimizdən, şüurumuzdan o tayadır. Buna noumen və ya həmişə özündə qalıb bilincə bilinməz nəsnə adını verir. Əgər insan psixolojisini götürsək, burada da uzaqla yaxının verdiyi dürlü haltörədicilyini görərik: nələrinsə arasında, çevrəsi içində rahatlanmaq və bundan darıxıb, bezikib qırağa çıxmaq, uzaqlara yollanmaq psixoloji üçün universal haldır. "Darıxmaq", "bezikmək" psixoloji anlayışlarının özülündə yaxın çevrədən, əhatədən çıxmaq və deməli, uzaqlıqları duymaq həsrəti gizlənib.

İnsan uzaqlıqlar və yaxınlıqlarla əlləşən, oynayan varlıqdır

Uzaqlığın beləcə mentallığı, düşüncəni fantaziyaya, xəyallara, görüntülərə, ideal mahiyyətlərə təkan verərək etginləşdirməsi (fəallaşdırması) ona gətirib çıxarır ki, uzaq keçmişdən qalmış fəlsəfə, önəmli düşüncə sözlərini metafizik mənalarla toxumlandırır.

Deməli, bizlərdən uzaq keçmişlərdə azəriliyin dansökülənində və ya daha əskidə türklüyün ilkinində sözlər peyda olur və o sözlərə bizim uzaqlığımız metafizik təpər verir, onları metafizik enerji dağarcığına çevirir, Çünki bu sözlərin bizlərə uzaqlığı anlamaq işinə qatılmış şüurumuzu rahatlandığı və içində darıxdığı çevrədən çıxarır, **otaydalığa** yollandırır. Və bu dəm vəziyyət belə olmur ki, bilincimiz bu uzaqlıqdan keçəndə boşluqdan, heçnəsizlikdən keçib o sözlərə yetişir. O sözlərlə bizim aramızdakı "fəzada" o sözlərdən törəmiş saysız düşüncələr kəsişir, asılıb durur, rasta çıxır.

Ancaq bunu burada saxlayıb qayıdaq "bildirmək", "bilmək", "bilinmək" məsələsinə. Uzaqlıqda bir-birindən ayrılmış nəsnələr və olaylar bir-birinə bilintilərlə bilinirlər. Bu bilintilərdir bilgi, informasyon daşıyıcıları. Əski türklərin şüurlu məxluqla bağlı işlətdikləri "bildirmək" sözünü dilsiz-ağılsız nəsnələrə, insandan başqa olqulara da aid etməsi bir çox şeyləri aydın edir. Birincisi, bildirməyin başlanğıcında düşüncə, şüur durur. Və əgər əski türk dünya nəsnələrindən ayrılan təsirlərə "bildirmək" ("filan nəsnə filan şeyi bizə bildirir") deyirsə, deməli, onların da arxasında fikir, düşüncə durduğuna inanır. Buna türk platonizmi, idealizmi demək olar. Ancaq bizim məqsədimiz türkcənin stixiyasına, axınına gömülüb dünya fəlsəfəsində tapılmışların oxşarını çıxarmaq deyil, imkan daxilində bu stixiyada gizlənmiş özəl fəlsəfəni tapmaqdır. Tapmaqdır ki, görək dünya fəlsəfəsinə türkün dili hansı ərməğanları verə bilər?

Bilinclə (şüurla) nəsnələr fəlsəfəsiz, dinsiz qavrayışda yad olaraq bir birinə qarşı qoyulur. Şüur biləndir, nəsnələrsə bilməzlərdir. Ancaq əski türkcə bilinci və nəsnələri başqa bir ilişgidə bir birinə ilişdirir: şüur biləndir. Bəs niyə araşdırmağa, öyrənməyə, anlamağa sinonim əlavəsi kimi türk bir də "bilməy"i artırıb? Həmin şüur işində bu "bilmək" nələri seçib saxlayıb?

Şüur üçün "bilmək" sözü anladır ki, şüurun qavramaq, "görmək" dairəsi nəsnələr və olaylar aləmində yalnız bilintiləri əhatə edir. Nəsnələr və şeylər özlərindən nəyisə bildirirlər və şüurun rastlandığı yalnız bu bildirilərdir. Ona görə də öyrənmək, anlamaq bərabərdir bildiriləndən bilinənləri mənimsəməyə. Beləliklə, şüurun bilməsi və nəsnələrin bildirməsində, bilinməsində "bil" söz kökü üst-üstə düşən nöqtə olur.

Beləliklə, şüur üçün anlamaq, öyrənmək nədir? Olqudan bilinmələri "oxumaqdır", bilməkdir. Nəsnə özündən qırağa, uzaqlara bilinmələr saçır və şüur onları bildikcə şüur olur. Oğuznamədə deyildiyi kimi "bilir bilür biliri, bilməz nə bilür biliri". Yəni bilən adam bilinənləri bilər, bilməz adam üçünsə onları bilmək olasızdır, yəni mümkün deyil.

Bu məsələ ilə bağdı bir incəlik: nəsnə bildirirsə, bu, ünvanlıdır, kiməsə, nəyəsə bildirir, soraq göndərir. Rəssamlıq əsəri beləcə bildirir. Ancaq nəsnədən

bilinirsə, bu, ünvansızdır, dörd yana aramsız olaraq şüalanma kimi axımdır. Gerçəkliyi anlamaqda şüurun çətinliyi ondadır ki, o daha çox bildiriləri, ona yönəlmiş, göndərilmiş soraqları tutmağa öyrəncəlidir. Ona görə də nəsnəni bir baxımdan qavramağa əyilir. Nəsnədəki bilinmələri tutmaq isə nəsnənin başına fırlanmağı tələb edir. Bax, bu da bilincdən, yəni şüurdan uzaqlara, həndəvərlərə yola çıxmağı tələb edir.

Radioaktiv maddələr parçalanaraq şüalanmağa tutulduğu kimi nəsnə və olaylar da həndəvərinə bilinmə prosessuallığına tutulub. Bilinmədə qəsdən hazırlıq olmadığı üçün bu aydınlıq, anlatmaq istəyi yoxdur. Bilinmədə aramsız üst-üstə yığılma, yəni birinci bilinənin üstünə ikincinin, üçüncünün və s.-nin toplanması var. Onun üçün də şüur bilinmələrə açılanda çoxlu mənaların arasına düşmüş olur. Hətta bir şey bildirilibsə, əgər əriyib yox olmursa, yazıda, heykəldə və s.-də qalırsa, onda da bilinmələr başlayır və beləcə ilkin bildirilənin üstünə laylanmalar gedir.

Beləliklə, evrəni, yəni dünyanı anlamaq, mənimsəmək bilmək baxımından çox maraqlı bir durum yaradır. Bildirmək situasyonunda qəsdənlik, ünvanara hesablanma və göndərmə olduğu üçün aldatmaq, yanlış yola salmaq istəkləri üçün də geniş imkanlar var. Bildirmənin kökündə yönətim, idarə etmək durduğu üçün yalanla doğru arasındakı yelpincsayağı genişlikdə dürlü yönümlərə yönəltmək qəsdənliyi də var.

Bilinmə isə qapalı olanın özünə yığılan enerjiyə dözməyib özünü istər-istəməz faş etməsidir. Niççenin dini əxlaqlarla bağlı, Froydun insan psixolojisi və mədəniyyətlərlə bağlı araşdırmaları bildirilərə aldanmayıb bilinmələrə üz tutmaq əsasında ifşa etmək, üstünü açmaq üstündə dayanır. **Hər ikisi bildirilənlərə yox, bilinənlərə etibar edir.**

Əgər çağdaş siyasət dünyasını, və ya "necə etməli, hansı tərəfdə durmalı?" - soruları qarşısında qıvrılan azərini götürsək, görərik ki, anlamaq baxımından onun ən əsas problemi bildirilərə uymayaraq, bilinmələrə qavrayışını açıq etməkdir. Çağdaş elmin, çağdaş idrakın başlıca problemi gizlilərə vaqif olmaqdır, çətinləşmiş olanı mənimsəməkdir. Gizlinlər, çətinlər isə daha çox bildirilərdə yox, bilinmələrdə açılır.

İndi isə elə bu məsələdən çıxaq yeni problemə.

Düşüncə məkanı

Biz öyrəşmişik düşünüş eyləmini özümüzdəki balaca məkanla bağlamağa. Beləcə, düşünüşü qafanın dar çevrəsi içində gedən nəsnə kimi anlayırıq və ya kitab, kompüter yaddaşı üçün mümkün sayırıq, hərçənd bu zaman onu da unutmuruq ki, tutalım, «kitabda fikirləşmə gedir» deyiriksə, bunu məcazi anlamda deyirik.

Teyyar de Şardenin, Vernandskinin noosfer anlayışı düşünüşü planet üçün qloballaşdırır. Ancaq burada da düşüncə aləminin planetüstü örtük olması daha çox metafora xarakteri daşıyır, Bu metafora ilə Vernandski, Teyyar de Şarden, sadəcə, XX yüzil düşünüşünün yaşam (həyat) amili kimi heç bir başqa çağlarda olmadığı

qədər planet üçün sonuclu, qlobal nəticəli olduğunu anlatmaq istəyirdilər.

Mənimsə sübut etmək istədiyim başqadır. Bunu anlatmaq üçün görkdən, obrazdan, istifadə edim. Adətən, toplumda düşünüş prosesi, yəni düşüncələrin oluşu, yəni yaradılması, ağıla gəlməsi necə təsəvvür olunur? Belə təsəvvür olunur ki, bütün bunlar ayrı-ayrı qafalarda baş verir. Gözünüzün qabağına gətirin iki nəfəri. Hərəsinin qafasında bir düşüncə baş verir. Birgə düşünüş necə baş verir? Biri düşündüyünü o birisinə söyləyir, o birisi bununla, tutalım, disputa girir, axırda onlar birgə yaradıcılığın sonucu olan fikrə çatırlar. Bax, bu vəziyyətdə iki nəfər arasında nə qədər kommunikativ, yəni soraqlaşma birgəliyi olsa da, hər halda düşünüş prosesi hər iki adamın qafasında gedir. Onların arasında isə düşünüş prosesi yox, sözlərə və başqa bildirici vasitələrə yazılmış, mənalar durur. (Əslində mənalar da durmur, durur onları bildirən nişanlar)

Sosial psixologiyada kollektiv şüur, kollektiv bilinc (Dyurkqeym) və kollektiv bilincsizlik (Yunq) anlayışları var. Eləcə də Tarixi materializmdə ictimai şüur formaları var. Ancaq bütün bu anlayışların hamısı düşünüş proseslərinin baş verdiyi məkanı ayrı-ayrı qafaların içindən çıxarmırlar. Kollektiv bilinci çoxlarının ellikcə, ancaq hərəsi öz qafasında eyni nəsnəni düşünməsindən alırlar. Adamlar bir-birinə təsir etməklə bir-birində düşüncələri dəyişirlər. Adamların ortasında düşüncələri özlərinə yazmış kitablar, radio, teledalğalar, maqnitofon lent yazıları, rəssamlıq əsərləri, qəzet-jurnallar gəzir. Ortada gəzən bu nəsnələrdə düşüncələrin necə bir-birindən doğması da qeyd olunur. Müəllifin şüurunda bir-birindən doğan düşüncə ardıcıllığı həmin ardıcıllıqla kitaba köçür və biz oxucu bu ardıcıllığı tutub gedəndə sanki müəllifin şüurundakı düşünüş prosesinə düşürük və ya tamaşa edirik. Ancaq heç kim demir ki, məsələn, kitabın özündə düşünüş prosesi öz-özünə gedir. İnanılmış gerçək budur: "kimsə düşünə bilər, yəni yeni düşüncələrə gəlib çıxa bilər". Kimsiz düşünüşsə ola bilməz. Olsa-olsa kimsiz, yəni subyektsiz düşüncə (diqqət edin, düşünüş prosesi yox, bu prosesin daşlaşmış sonucu düşüncə) fikir ola bilər.

Bizim sübut etmək istədiyimizsə odur ki, toplumda düşünüş prosesi yalnız fərdi qafalar içində getmir, düşünüş fərdlər arasında məkanda, toplumun fəzasında və eləcə də tarixin axarı boyu gedir. Deməli, düşünüş prosesini yalnız psixofizioloji strukturlarda baş verən proses saymaq azdır.

Din və idealist fəlsəfə insandan başqa bir də evrənin (dünyanın) əsasında İlahi düşünüşün olduğunu söyləyir və bunu anladan dürlü modellər qurur, - Platon, Aristotel, Plotin, İbn-Ərəbi, Sührəverdi, Hegel fəlsəfələri bütün buna örnəklərdir. Bizim işimiz bu qatda sistem qurmaq deyil, aşağı qatla bağlıdır: d*üşünüş insanlarda və insanlar arasındakı uzaqlarda, məkanda da gedir.*

Bu sübut olunsa, sonra idealist fəlsəfə qatına da çıxmaq olar və eləcə də belə bir çıxıma gərək duymadan aşağı qatda qalmaq olar.

Düşünüşün əsas göstəriciləri hansılardır? Birincisi, anlamlar, mənalar ki, özlərindən qıraqdakıları görükdürürlər. İkincisi, anlama ki, anlamlar vasitəsi ilə zəncir qurub özündən qıraqdakıların əlaqələrini öyrənir. Üçüncüsü, prosessuallıq ki, (mənalardan söhbət gedir) yığılanlardan nəyisə açır, açdıqlarından nəyisə

yığır. Hansı mənalarısa birləşdirir, hansılarısa ayırır. A. Losev demişkən, düşünmək düşüncələrdə, anlayışlarda nəyisə ayırmaq, nəyisə birləşdirməkdir. Biz düşünürük: dil semantikası, dil strukturu hikmət qaynağıdır, - deməli, hikmət qaynağı ilə dil sistemini birləşdiririk. Biz düşünürük: dil şüur deyil, - deməli, dili şüurdan ayırırıq, uzaqlaşdırırıq.

İndi gəlin görək, saydığımız düşünüş əlamətləri yalnız insan qafasında gedən prosesləri xarakterizə edir, yoxsa düşünüşün başqa məkanlarından da soraq verir?

Kimsə toplum "fəzasına" deyim göndərir, yəni hansı fikri isə bildirir. İrəlidə söyləmişik ki, bildiriş ünvanlı olur, deməli, bu fikir də hansı ünvanasa yönəlir. Bu fikir başqasının bilinci tərəfindən "udulur" və orada ya yeni fikirlər oyadır, ya da yaranmış hansı fikrisə öldürür, mənasızlaşdırır, deməli, başqasının qafasında yenidən düşünüş aktına qatılır. Ancaq biz bu trivial şeyi demirik: mədəniyyətin bir çox bölgələri özlərinə aid bildiriləri və bildirilərlə bildirilənləri fiksə edib saxlayır. İrəlidə söyləmişdik ki, beləcə saxlanılanlar düşünüşün özü olmur, olur ya düşüncə, ya da düşünüş prosesinin şəkli. Ancaq iş burasındadır ki, beləcə, fiksə olunan düşüncə qaldıqca, çağ keçdikcə özündən dörd yana bilinmələr "şualandırmağa" başlayır. Özü də bu bilinmələrdə heç də vacib deyil ki, kiminsə yozucu, açıqlayıcı, mənaverici şüuru iş görsün və bilinmələrə təkan verən səbəb olsun.

Sözsüz, belə bir vəziyyət var ki, bilinmələrin özülündə kiminsə bilinci durur. Qurani-Kərimin "ol deyəndə olur" kəlamına Ortaçağ təfsirçisi platonizmin "ideyadan (sözdən) nəsnə yaranır" fikrini verəndə öz yaradıcı şüuru ilə Quran kəlamından platonizmin bilinməsinə təkan verir.

Ancaq biz bunu da demirik. Dediyimiz odur ki, kimlərsə tərəfindən ya sözlə, üz-gözlə, ya davranışla bildirilənlər bildirən şüurdan qurtulan kimi öz yaşamlarını yaşayaraq aramsız bilinmələrə düçar olurlar və bu bilinmələr insanların qafasının, psixo-fiziologiyasının oluşdurmadığı düşünüş aktı olurlar.

Beləliklə, toplumda düşünmək işi yalnız qafalarda yox, qafalar arasındakı mənəvi, sosial "fəzalarda" gedir. Bildirilər həmin "fəzada" asılıb sallanmır, bilinmələrə düçar olmaqla nələrisə göründürür, hansı mənalarısa yığıb-açır, birləşdirib-arayır. Və bu, kiminsə şüurunun dirsək qoyub üstndə saxladığı eyləm olmur, öz-özünə oluşan bir iş olur. Və ona görə də bu subyektsiz düşünüş olur (yada salaq, Haydeqerin sözündən belə çıxır ki, Dekartdan sonra sübyekt özünün ilkin anlamına görə "altında duran" mənasında hər hansı fəallığın özülündə duran başlanğıc sayılıb və Avropa fəlsəfəsinə, beləcə, yönüm verib). Toplumun mənəvi "fəzasında", atmosferində gedən düşünüş prosesi həmin Avropa fəlsəfəsinin prinsipinə yad olaraq bu mənada subyektsizdir. Buradansa önəmli bir sonuc çıxır. Düşünüşün önünə başlanğıc, eyləmçi kimi subyekti qoyulanda, həmin subyektin bildirdiyi düşüncələr ağıllılıq-axmaqlıq, yaxşılıq-pislik, gerçəkcillik-yanlışlıq baxımından subyekti xarakterizə edir. Mən “yağış quraqlıq olammaz" söyləyirməsə, bu düşüncəni kiməsə bildirirəmsə, bu aydırmam məni heç də ağıllı tərəfdən göstərmir və s.

Ancaq toplumun mənəvi fəzasına göndərilmiş sözlər, deyimlər, bir sözlə, bildirilər bilinmələr aktivliyinə uğrayanda ağıllılıq-axmaqlıq, yaxşılıq-pislik və s. ölçüləri onlarla uyuşmur. Subyektsiz düşünüş eyləmi bu qütblərdən iraq durur. Onun üçün də tarix boyu kiminsə fikrini yox, fikirlərdən kimsiz (subyektsiz) bilinmələri seyr edəndə gözəllik qarşısında, hikmət qarşısında heyranlığa düşüblər, - fərqi yoxdur, söhbət hansı toplumdan, hansı çağdan gedir, qəbilə dünyasındanmı gedir, quldarlıq aləmindənmi gedir, yoxsa irəli sənaye toplumundan gedir.

Bir az yuxarıda düşüncənin aşağı səviyyəsinə örnək kimi ağlımıza ilk gələn "yağış quraqlıq olammaz" cümləsini söyləmişdik. Elə onu da götürüb, subyektsizləşdirib, yəni kiminsə deyimi olmasından çıxarıb toplumun fəzasına buraxaq və görək, bilinmələr döyüntüsündə, şüalanmasında və ya belə deyək: subyektsiz düşünüş prosesində ondan nələr dalğalanır?

Birincisi, Azərbaycan türkcəsini dərsliklərdən yox, dolayı yollarla, gümanlar, araşdırmalar yolu ilə (tutuşdur, beləcə, mixi yazılarının oxunmasını, əski dillərdə olan tekstlərin oxunmasını və tekstin oxunuşu əsasında həmin dillərin öyrənilməsini) öyrənənə bilgi çatacaq ki, Azərbaycan türkcəsinin sözlüyündə "yağış" və "quraqlıq" semantik baxımdan eyni deyil. İkincisi, "ola bilməz" felinin "olammaz" formasına keçidi sözlərdə səslərin itməsi, sözlərin qovuşması tarixindən mürəkkəb məsələləri bildirir. Üçüncüsü, subyektsiz, yəni konkret kiməsə aid olmayan psixoloji hallar haqqında soraq verir, məsələn, iraq-iraq, Azərbaycan Atlantida kimi itmiş məmləkət olsaydı, Azərbaycan türkcəsi haqqında bilgilər qalsaydı və bir də bu cümlə qalsaydı, kimsə araşdırma apararaq tapmağa çalışardı: hansı psixoloji fonda belə mənasız cümlə deyilə bilər. Dördüncüsü, həmin araşdırıcı belə də fikirləşə bilərdi: güman, bu Azərbaycan elinin dünyasında "hər şeydə hər şey var" prinsipinə əsaslanan fəlsəfi baxış olub və "yağış quraqlıq olammaz" cümləsi ona qarşı arqumentlər silsiləsindəndir. "Yağış quraqlıq olammaz" cümləsindən subyektsiz düşünüş döyüntüsündə bilinənlərin siyahısını, beləcə, sonsuzluğacan uzatmaq olar. Sonsuzluq sözü burada ona görə yerinə düşür ki, hər bilinən özü zəncirvari açılaraq budaqlanır.

Ancaq bu yerdə düşünüşü beyinin psixofiziologiyasının döyünməsində, pulsasiyasında olası sayan, başqa strukturlarda isə şərti olaraq, metafora kimi qəbul edən adam güman ki, "yox!" deyərək dirənəcək, Bizim söylədiklərimizi fantaziyanın özünü boş buraxaraq oynaması sayacaq. Onun üçün də "bildirmək", "bilinmək" sözlərinin metafizik enerjisindən çıxdığımız məsələyə bir neçə yöndə həmlə etməli olacağıq.

Götürək Froyddan sonra elmdə belə çox sevilən yuxu problemini. İnsanın yuxularına şüurunun bilmədiyi şəkillər, düşüncələr haradan gəlir?

Bunun bir neçə qaynağı var. Onlardan birini Ziqmund Froyd özü tapıb: bilincaltı impulsların təsiri yuxularda filan görklərin (obrazların) filan konfiqurasyonda, filan düzümdə, paylanmada olmasına səbəb olur. Ona görə də Froyd bir çox yuxu görklərinə bilinc altında baş verənlərin simvolu kimi baxıb və deyib ki, bu simvolları açmaqla insan özündə gizli gedən mental prosesləri görə bilər.

Ancaq biz istərdik yuxunu yalnız gizlində qalan, bilinc altına xəlvəti qapısı olan nəsnə kimi anlamayaq. Yəqin ki, yuxuların başqa **xəlvəti bilgiburaxıcı qapıları** da var. Din və magiya, mifologiya, eləcə də bəzi fəlsəfələr yuxunun transendentə, yəni ruhlar aləminə və ya İlahi Düşünüşə "qapısı" olduğunu söyləmişdilər. Bu qapıdan yuxulara gələcək haqqında, doğrular, həqiqətlər haqqında qəfildən soraqlar gəlir.

Biz isə bura onu artırardıq ki, yuxuların insan qafalarından qıraqda, sosial "fəzada" gəzən bildirilərdən aramsız axan bilinmələrə də qapısı var və yuxularda peyda olan bir çox görklər, xırdalıqlar bilinmələrdən, bu subyektsiz düşünüş etginliyindən, yəni etmələrdən, fəallıqdan alınır. Özü də yalnız yuxularda yox. Bizim yuxuya oxşar bir vəziyyətimiz də var. Bu zaman huş gedir, ancaq tam uyqu halına düşmür. Bilincimiz oyaqlıqla uyqu arasında gözəgörünməz keçidlərdə qalır. Bu zaman yuxunun dalğaları gəlsə də hələ şüuru tam qovmur və bu zaman da insanın qafasına görklər (obrazlar) silsiləsi sürüb gəlir. Bu silsiləni Froydsayağı bilincaltı təsirlərlə bağlamaq, biz bilmirtk, nə sayaq olar. Hər halda nə sayaq olarsa, o sayaq da toplum içindəki bilinmələrin "şüalanması" ilə də bağlamaq olar.

Söylədiyimizə görklər vasitəsi ilə açaq. Təsəvvür edin ki, sizin şüurunuzda qəsdənsizlik, yəni qəsdən nəyisə düşünməmək halında düşünüşünüz işləyir, ruhunuz heç vaxt görmədiyiniz adamların sifətlərini, hadisələri qafanıza buraxıb "axıdır", düşünüşünüzsə onlar üstünə sizə dəxli olmayan, yaşayış və yaradıcılıq məqsədləri ilə heç cür uzlaşmayan nəsə öz-özünə alınan düşüncələr yapır. Bu hal həm uyqu ilə ayıqlıq arasında dumanlanmış şüurda olur, həm də ayıq vəziyyətdə birdən özü-özünə buraxılmış, spontan fəallıqda, etginlikdə olan düşünüş axınında olur. Bax, bu zaman belə hesab etsək ki, göstərilən durumunda bilincdə, onun düşünüşündə baş verənlər sosial-mədəni-mənəvi "fəzada" bilinmələr qaynaşmasından, impulslaşmasından gələn dalğaların bilincdən sürüb, yellənib keçməsidir, həmin fəzada düşünüş aktlarının kimsiz, subyektsiz baş verməsini ağlabatan saymaq üçün bir addım atmış, bir həmləni etmiş olarıq. Ancaq bu da azdır.

Keçək ikinci həmləyə, bəlkə anlamaq qalasına bir az da yaxınlaşmış olduq. Götürək bilincsizlik (qeyri-şüurilik) problemini. Froyd, Yunq da qatılmaqla bir çoxları bu problemlə məşğul olublar. Bilincsizlik anlayışı onu anladır ki, düşünüş axtarışları bir çox sonucları, xasiyyətləri ilə insanda şüurun bulunuşu (iştirakı) olmadan da sürüb gedir. Şüurun düşünüşdə iştirakı o deməkdir ki, insan düşünüşündə özünün, subyektinin yönəldici, saxlayıcı, buraxıcı nəzarətini duyur. Bilir ki, düşünür, bilir ki, hansı qəsdlər, amaclar üçün düşünür. Ancaq elə ki, düşünüş axınında qəsdənsizlik yaranır, özbaşınaburaxılmışlıq yaranır, subyekt də bu prosesdən sönüb gedir.

Baxaq elmdə gerçəklər, doğrular axtarışına. Puankaredən tutmuş bir çox alimlərəcən düşünərlər qəsdənlik şəraitində axtardıqlarını ya yuxuda, ya bu haqda xüsusi olaraq fikirləşmədikləri vəziyyətdə tapıblar. Belə şeylərin açımı kimi elmdə söyləyirlər: deməli, şüur həmin problemləri düşünməsə də alimdə bilincsiz düşünüş davam edir və gerçəyi tapır.

Bu açıqlama, əslində, nəyəgörənliklərə az toxunan açıqlamadır, onun üçün də zəifdir, bəlkə də yönəldici addımdır, vəssalam! Çünki aydın etmir anlayışların "kadrları" ilə məntiqin, ilişgiləndirmələrin "montajı" ilə düşüncələr düzən şüur yoxa çıxanda bilincsiz düşünüş necə oluşur, anlayışsız, montajsız necə filmi çəkir. Əgər bilincsiz düşünüş də anlayışlarla və məntiqlə bağlayıb-açaraq işləyirsə, onları müşahidə edə bilmədiyimiz üçün onları sübut etmək gərəkdir. Düzdür, bu zaman fizikadakı "qara qutu" prinsipindən çıxış etmək olar: bizim bilincli olaraq düşünüb tapdıqlarımız həqiqətlərə bilincsiz düşünüş də aparıb çıxarırsa, deməli, o da elmi vasitələrdən, yəni modellərdən, anlayışlardan, gümanlardan, metaforalardan, informasyonlardan və s.-dən istifadə edir, sadəcə, biz bunları görmürük.

Bu da açıqlamadır, ancaq zəifdir. Bizimsə məsələdən belə çox danışmağımızın başqa amacı var. Bizim yuxarıda irəli sürdüyümüz ideyaya, yəni toplum "fəzasına" atılmış bildirilərin (şəkillərin, deyimlərin, kəlmələrin, bir sözlə, tekstlərin və simvolların) özlərindən onun-bunun qafasının iştirakı olmadan da bilinmələr törətməsinə və beləcə, kimsiz, subyektsiz düşüncə yox, düşünüş, yəni düşüncətörədici proses olmasına hələ də metafora, fantastik obraz kimi baxmaq olar. Ancaq indi insandakı bilincsiz düşünüşün spontan aktivliyini, subyektsiz baş verməsini, sürüb getməsini, olasılıq (mümkünlük) kimi anlasaq, sosial fəzadakı aramsız bilinmələri də olasılıq kimi mənimsəyərik. Ancaq inandırmaq üçün bu da azdır. Hərçənd nəsə bir addım, nəsə bir yaxınlaşdırıcı həmlədir.

İndi isə götürək cismani (nəsnəl) reallıq və funksional reallıq anlayışlarını. Lotman yazılarının birində bu ikisini ayırır. Fəlsəfədə olqu (suşee) anlayışı var, olanları bildirir. Adi qavrayıcılar üçün nəsnə kimi olanların olması inandırıcıdır (olduğunu əlinlə yoxlaya bilərsən və s.). Lotmansa söyləyir ki, funksional reallıq da var, yəni bu olquya maddi toxuna bilmirsən, götürüb bu yerdən basqa yerə qoya bilmirsən, ancaq onların varlığını, olqusunu onların gözəgörünməz etgilərinin sonuclarından bilirsən. Örnəyin, əxlaqi normalar toplumun mənəvi "fəzasında" asılmış buyuruqlar olub görünməsələr də ayrı-ayrı sahələrdə onu-bunu nəyisə etməkdən çəkindirirlərsə, onu-bunu yönəldirlərsə, bu nəticələrinə görə də onların olduğunu qəbul etməliyik (söhbət getmir ayrı-ayrı əxlaqi normaların ayrı-ayrı qafalarda olmasından, söhbət gedir onların qafalardan dişarı gerçəklikdə olmasından və söhbət getmir onların bu gerçəklikdə kitaba, Kodekslərə yazılmasından, söhbət gedir, onların kiçik tanrıcıqlar kimi hamıdan üstdə durub çoxluğa tanrıcıqlar kimi təsir etməsindən).

Toplumun "fəzasında" simvolların, tekstlərin spontan düşünüş prosesinin olmasının necəliyini bir az da mənimsəmək üçün indi funksional reallıq anlayışını dadımıza yetə bilər. Həmin subyektsiz, kimsiz, psixofizioloji struktursuz düşünüş olmasının olquluğunu biz birbaşa qavraya biləmmərik, ancaq toplumdakı, mədəniyyətdəki nəticələrinə, sonuclarına görə onların olquluğunu duymaq olar. Yəni mədəniyyətə simvol, tekst, atılıbsa, bu simvol, tekst aramsız bilinmələr döyüntüsünə düşərsə, bu zaman elə bir bolluq, bərəkət yaranır ki, heç bir

şüur bu bolluğu özünün həmin simvol, tekst üstündə yaradıcılığı kimi duymur, hamı həmin bilinmələri uzaqdan-uzağa özünə tərəf gələnlər kimi duyur. Bax, azəri türkcəsinin axınına özümüzü buraxıb fəlsəfə yapanda qafalardan dişarıdakı məkanda bilinmələr aktivliyində düşünüşün getməsini belə sezmək olar.

Xəliyəddin Xəlilli

OD FƏLSƏFƏSİNİN İLKİN VƏTƏNİ AZƏRBAYCAN, Ş.C.ƏFQANİ VƏ M.Ə.RƏSULZADƏ

Mütləq ruhun bəşər tarixində ilk dəfə Azərbaycanda doğub, insan ruhuna qovuşub dünyanı dərk etmə elmi − "Od fəlsəfəsi"nin Azərbaycanda yaranması, bu ölkənin elmi-intellektual səviyəsinin yüksək olması ilə zaman-zaman dünyanı mənəvi intellektual dəyərlərlə qidalandırmaqda mühüm rol oynamışdır (**11, s.6-11; 12, 8, s.37-38,72; 13, s. 34; 14, s. 322, 376-377; 16, s. 299-302**).

Azərbaycan dünya zəka işığının − ruhunun ilk ocağı olmaqla bəşəriyətin ilk yaradıcılıq enerjisini vermişdir. Bəşəriyətin Azərbaycandan doğan zəka-ruh hadisəsini məşhur Amerika filosofu Uill Dürant obrazlı şəkildə aşağıdakı kimi təsvir edir: "Əgər siz Avropanın xəritəsini nəzərdən keçirsəniz, onda asanlıqla müşahidə edəcəksiniz ki, Yunanıstan sanki əyilmiş barmalarını Aralıq dənizinə tərəf uzadan bir skelet əlinə bənzəyir. Ondan cənubda böyük bir ada − Krit adası yerləşir. Bizim eradan əvvəl ikinci minillikdə həmin o qəsbkar barmaqlar həmin o adadan sivilizasiyanın və mədəniyətin başlanğıcını ələ keçirə bilmişdir. Egey dənizi boyunca Şərqə doğru Kiçik Asiya yerləşmişdir; həmin Kiçik Asiya bu gün sakit və durğun görünsə də, o vaxt − Platon dövrü ərəfəsində öz sənayesi, ticarəti, mücərrəd mühakimələri ilə çiçəklənmə çağını keçirirdi. İoniya dənizi boyunca qərbə doğru isə sanki dənizdə əyilmiş bir qüllə kimi görünən İtaliya, sonra Siciliya və İspaniya durur. O günlər onların hər birində çiçəklənən yunan koloniyaları vardı. Və nəhayət, o vaxt "Herakl sütunları" adlanan Cəbəllütariq boğazı; bu elə bir qaranlıq qapı idi ki, onu antik dənizçilərin əksəriyyəti keçməyə cəsarət etməzdi. Şimalda isə Fessaliya, Epir və Makedoniya adlı hələ ki, mədəniyətdən uzaq, yarı vəhşi regionlar var idi. Bu regionlardan gələn və ya onlardan adlayaraq cənuba doğru sel kimi axan enerjili tayfalardan Homer və Perikl yunanıstanının dühası törəyir...

Xəritəyə sonuncu dəfə bir də baxın və Afinanın tutduğu mövqeyi diqqətlə müşahidə edin: bu, Yunanıstanın böyük şəhərləri içərisində onun ən uzaq şərqində yerləşəndir. O, Yunanıstanın sanki bir qapısı olmaq üçün son dərəcə əlverişli vəziyətdədir. Məhz bu qapı vasitəsi ilə yunanlar Kiçik Asiyanın işgüzar şəhərlərinə keçə bilər, eləcə də Asiyanın qədim şəhərləri öz zinət əşyalarını öz mədəniyətlərini gənc Yunanıstana göndərə bilirdilər" (**15, s. 11-12**).

Beləcə, Avropanın ilk qabaqcıl xalqı yunanlar varlıq qanunları fəlsəfəni Zərdüşt-Avesta-Od fəlsəfəsini Azərbaycan maqlarından mənimsədilər. Maqlar ilk yunan filosoflarının müəllimləri oldu. İlk yunan filosofları Avestanı oxuyub

mənimsəmələri, yüksək qiymətləndirmələri, onun müəllifi Zərdüştdən, dövrü və xdmətindən ətraflı məlumat verdilər. Azərbaycan maqlarının şagirdi olması haqqında ətraflı məlumatı olan Pifaqor fəlsəfəni hikmətsevərlik, "hikməti sevmək" mənasında Avestadan mənimsəmişdir (**11, s. 6-11; 12, s. 8-10, 40-78; 16, s. 299-308**).

Tarixi faktlar fəlsəfənin dünyada üç mərkəzi kimi göstərilən Hindistan, Çin, Yunanıstan varlığın od, torpaq, su, hava başlanğıcı haqqında fəlsəfəni, onun qanunlarını özündə ehtiva edən Zərdüşt-Avesta fəlsəfəsini Azərbaycandan mənimsəmişdir.

Bütün Asiyada mənimsənilib, üç imperiyanın dövlət dininə çevrilmiş Zərdüşt fəlsəfəsi − dininin ziyarətgahının ancaq Azərbaycanda olmasını ört-basdır edib, bunu diqqətdən yayındıran uydurma hind-avropa nəzəriyəçiləri "od fəlsəfəsi"nin kəşfini adlarına çıxmışlar. İngilis fəlsəfə tədqiqatçısı Meri Boysun qənaətinə görə Zərdüşt-Avesta fəlsəfəsi bəşəriyətə bütün etiqad növlərindən daha artıq dərəcədə təsir göstərmişdir (**12, s. 48**).

"Ya Mazda, yaxşı oda, bilik mənbəyinə can atmaqla", "Od elmimizi verməkdə davam edir uca Armati" − deyə "işıq elmindən" bəhs edən, sonralar fəlsəfənin yeni mərkəzləri kimi formalaşan Hindistan, Çin və Yunanıstan "Od fəlsəfəsi"ni (**17, s.53-55, 66-67; 15, s. 11-12; 12, s. 37-38**), ilahi elmi, Zərdüştdən, onun qanunlarını "Avesta" kitabından mənimsədilər. Beləcə bütün qədim dövr və orta çağda Azərbaycan dünya elm və fəlsəfəsində öz mövqeyini birincilər sırasında qoruyub saxladı (**12; 17; 18; 19**).

Yer məkanında Mütləq ruhun ilkin doğduğu Azərbaycandan əqli zəka və elmi biliklərin Avropa da daxil olmaqla müxtəlif ölkələrə axını davam etdi. XVII əsrin sonu − XVIII əsrdə elm Şərqdən-Qərbə keçdiyi zaman Avropada elmi-nəzəri təfəkkür VIII əsr İslam Şərqi səviyəsində deyildi. XVIII əsrdə Avropa elmləri və fəlsəfəni Şərqdən hazır aldı. Qərbi Avropanın bu dövr elmi durumuna nəzər saldıqda aydın olur ki, onun bu dövrdə nail olduğu elm İslam Şərqindən, birinci növbədə Azərbaycan alimlərini plagiatdan başqa bir şey deyildir (**12; 15; 16; 17; 18; 19; 20, 35; 21, s. 76; 22, s. 98-133**).

Şərq-Qərb münasibətlərindən bəhs edən rus sovet tarixçisi S.Smirnov yazır ki, XV-XVII yüzillikdə Avropa Şərqdən (Osmanlı nizamından) həvəslə və məcburiyət qarşısında özünə lazım olanı öyrənib mənimsəyirdi, Şərqə həsəd aparırdı. Şərq ruhu Avropaya daxil olub, onu çalxalayıb oyadırdı (**19, s. 151-152**).

Şərqdən elmi, fəlsəfəni, mədəniyəti mənimsəyib dərhal iqtisadi, siyasi-sosial, mənəvi-ideoloji həyata tətbiq edən Avropa milli həyatın bütün sahələrində uğur qazandılar. Beləliklə elm, sosial-siyasi, mənəvi-ideoloji sahədə uğurlar qazanan Şərqlə müqayisədə üstünlüyə nail olan Avropa siyasi xadimləri və elm adamları avropalıların ali irq olub, dünyada elm və mədəniyəti də əzəldən onların yaradıb yayması haqqında irqçilik nəzəriyəsi yaratdılar. Dünyanın kütləvi işğalına başladılar və sürətlə bu siyasəti həyata keçirdilər.

Şərqdən əxz etdiyi elm və fəlsəfə ilə qazandığı yaradıcılıq enerjisini xalqla-

rın işğalı və əsarətinə sərf edən Avropa öz ölkələri istisna olmaqla dünyanın qalan bütün xalqlarının, birinci növbədə də türk-müsəlmanların səfaləti və alçaldılmasına yönəltdilər. Bütün bəşəriyət Avropa əsarətində inləməyə məcbur edildi.

Avropanın ən məşhur şərqşünas filosofu E.Renanın mülahizələrinə görə, İslam dini elmə, fəlsəfəyə, azadlığa təşviq etmir. İslam aləmində fəlsəfə ilə məşğul olanların hamısı məhv edilmiş, kitabları yandırılmışdır. O, Şərq-İslam fəlsəfəsi haqqında bu qənaətdə idi ki, "İslam fəlsəfəsi deyilən şey yunan fəlsəfəsinin tör-töküntüsündən başqa bir şey deyildir və heç kəs onlara müraciət edib faydalanmayıb" (**5, s.52**).

Beləcə, bəşəri sivilizasiyanın beşiyinin, bütün yaradıcılığa, insanlığa töhfələri danılır, amansızcasına alçaldılır, təhqir olunurdu. Ədalətsizlik, insafsızlıq, ölçüsüzlük o həddə çatmışdı ki, sanki hər şey taleyin ümidinə buraxılmış, Allahın müdaxiləsinə qalmışdı.

Gözlənilən baş verdi. Mütləq ruh Azərbaycandan dünyaya "Od fəlsəfəsi"ni Azadlıq − İstiqlal ideologiyası kimi yenidən doğdu. Onun banisi avropalıların "Böyük bir müsəlman", "Böyük bir şərqli", "Müsəlman dünyasının mümtaz siması" adlandırdığı Şeyx Cəmaləddin Əfqani idi. Ş.C.Əfqani Azərbaycanda doğulmuş Azərbaycan türkü idi. Hindistanlılar onu − hind, ərəblər− ərəb, farslar − fars, əfqanlar − əfqan kimi tanıyır və qiymətləndirir, Anadolu türkləri də onu özününkü hesab edirdi. Bütün dünyada elm və fəlsəfədə birincilik qazanmış, lakin elm və fəlsəfənin mahiyətindən imtina edib, "ilahi elm" olan fəlsəfəni Avropa müstəmləkəçiliyinin alətinə çevirən *Avropa alim və filosoflarının fəlsəfi mühakimə və şərhləri ilə razılaşıb səhvlərini etiraf etdirməsindən görünür ki, o, adi istedad, talant deyil. Mütləq ruhun ilkin ocağı Azərbaycandan nurlanan bəşəri dahi idi*. Mülahizələri ilə Avropa filosoflarının rəğbətini qazanıb, onları ilahi fəlsəfə yoluna qaytarmağa müvəffəq olduğundan, dövrünün birinci bəşəri filosofu səviyəsinə yüksələn Ş.C.Əfqani həm də dövrünün ən parlaq din xadimi idi. Odur ki, onun şərhlərində tərəqqinin, tənəzzülün, elmin, fəlsəfənin inkişaf səbəbləri, tarixi və rolu çox aydın və dəqiq izahını tapdığından mübahisəsiz, birmənalı qəbul olunurdu. O, Avropa mərkəzçilik ideologiyasının təkzibi üçün Parisdə fəlsəfə klubunda Avropa filosofları qarşısında konkret faktlara istinadən söylədiyi nitqində "Dünyanın sultanı həmişə elm olmuş, elmdir və elm olaraq qalacaqdır... Dünyanın həqiqi hökmdarı olan elm ancaq vaxtaşırı paytaxtını dəyişmiş, gah Məşriqdən Məqribə, gah da Məqribdən Məşriqə getmişdir. Bütün var-dövlət, sərvət əsasən elmin məhsullarıdır... Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyətin əlindən alsan, daha dünyada insanlıqdan əsər qalmaz. Elm bir nəfərin gücünü on nəfərə, min və on min nəfərə bərabər edir". Avropa müstəmləkəçiliyinin qələbələrinin səbəbində elmin rolundan bəhs edərək deyir: "Bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Hindistanı zəbt etmiş ingilisi, Tunisi işğal etmiş Fransanı götürün Bunlar nə ingilisin hünəridir, nə də fransızların, bunlar ancaq onların elminin hünəridir" (**5, s. 196**).

"Hər halda İslam fəlsəfəsi deyilən şey yunan fəlsəfəsinin tör-töküntüsüdür"

deyən E.Renana cavab olaraq Ş.C.Əfqani bildirdi ki, "Elmə qarşı mühafizəkarlıq bütün dinlərdə olmuşdur. Katolik dinində bu, indi də vardır. Amma nəzərə almaq lazımdır ki, İslam dininin yaranması ilə ərəb dünyası vəhşilikdən xilas oldu. Xüsusən İran (Azərbaycan − X.X.) və yunan fəlsəfəsini əldə etdikdən sonra ərəb elmləri misli görünməmiş şəkildə sürətlə inkişaf etdi və bu inkişaf ərəblərin nüfuzu altında olan bütün məmləkətlərdə hiss olundu. O zaman Rum və Bizans asimani və fəlsəfi elmlərin mərkəzi idi. Sonra elə bir zaman gəldi ki, bu iki mədəniyət alimləri təhqiqat və tədqiqatdan geri qaldılar və elm üçün qaldırdıqları bayraqlar yox oldu. Ərəb ayıldı və mədəni millətlərin əldən verdikləri elmi əldə etməyə çalışdı. Buna görə də onlar köhnəlmiş elmləri təzədən diriltdilər. Ərəblər həmin köhnəlmiş elmlərə o qədər gözəllik və parlaqlıq bəxş etdilər ki, heç bunlar keçmişdə o elmlərdə yox idi". Sözünə davam edən Ş.C.Əfqani dedi ki, "bu doğrudur ki, ərəblər fəlsəfəni yunanlardan almışlar. Ərəblərə məxsus elmlər iranlılardan (azərbaycanlılardan − X.X.) gəlirdi, bir fərqlə ki, bu elmləri ərəb alimləri genişləndirmiş, ona məntiqi nizam bəxş etmişlər. Bunun oxşarlığını başqa millətdə az tapmaq olar. Fransızlar, almanlar, ingilislər Rumdan və Bizansdan o qədər də uzaq deyildilər. Bu iki elm xəzinəsindən istifadə etmək onlar üçün daha asan idi, amma buna baxmayaraq istifadə etməmişlər. O vaxta qədər ki, ərəb mədəniyətinin məşəli Bizans dağlarının başında nur saçan gün gəlib çatdı və öz işığını Qərbə tərəf saldı. Artıq elə bir vaxt gəldi ki, avropalılar Aristoteldən asanlıqla istifadə etməyə başladılar, halbuki ərəb ictimaiyətində Aristotel çoxdan dolaşırdı. Aristotel ərəb paltarı geyənə qədər Avropa ona maraq göstərmir və heç onu xəyalına da gətirmirdi" (**5, s. 53-54**).

Ş.C.Əfqani yekun olaraq bildirdi ki, bir vaxtlar avropalılar elmləri Şərqdən əxz etmişlər, indi "biz Avropaya müraciət ediriksə, öz malımızı geri istəmiş oluruq" (**5, s.23**).

Ş.C.Əfqani çıxışına son verəndə fəlsəfə klubunda − zalda heyrət, həsəd, etiraz səsləri bir-birinə qarışdı. O, yenidən kürsüyə yaxınlaşdı. Əvvəlkindən fərqli olaraq bu dəfə Ş.C.Əfqani kürsüyə yaxınlaşanda bir anda səslər kəsildi, zalda tam sakitlik yarandı. O, elm haqqında çıxışına obrazlı bir əlavə edərək dedi: "Elm ki, bu qədər gözəlliyə və hüsnücamala malikdir, o, insanlığı heç vaxt mükəmməl surətdə razı sala bilməz. Həmin insanlıq son idealı əldə etməyə can atan ictimai varlıqdır və alimlərin, filosofların görə bilmədiyi bütün qaranlıq üfüqlərdə pərvaz etmək istəyir" (**5, s. 54**). Onun bu obrazlı ifadəsi artıq heç kimdə etiraz oyatmadı. Yeni fikir, zəka çırağı olması hamıya aydınlaşdı. Paris fəlsəfə klubunun liderlərindən E.Renan kürsüyə yaxınlaşıb, sükut içində Ş.C.Əfqaniyə baxmaqda olan dinləyicilərə bildirdi: "*Təqribən iki ay əvvəl tanış olduğum Şeyx Camaləddin şəxsən məni öz təsiri altına salmışdır. Onunla mən hər dəfə söhbət edəndə mənə elə gəlir ki, İbn Sina, İbn Rüşd və yaxud insanları əsarət zəncirindən qurtarmağa çalışmış başqa Şərq dahilərindən biri ilə üzbəüz oturub söhbət edirəm*" (**5, s. 54**).

Özünü alim, filosof kimi göstərən idrakı sönük müasirlərindən və eyni zamanda müasirlərimizdən fərqli olaraq Ş.C.Əfqani Avropada elmi və fəlsəfəni

əlahiddə, əlçatmaz hesab edib qarşısında vahimələnmədi (Fəlsəfənin üç qanunu Azərbaycanda − bəşəriyətin ilk filosofu Zərdüşt tərəfindən kəşf olunmuş və "Avesta" kitabında şərh olunmuşdur. Bundan sonra fəlsəfənin anlayışlarından, ayrı-ayrı predmet və hadisələrindən bəhs olunmuşdur − X.X.).

Təhsilindən və tərcümeyi-halından göründüyü kimi, Ş.C.Əfqani Paris fəlsəfə klubunda Avropa filosofları ilə polemikada o, Şərq filosoflarının fəlsəfi baxışlarına söykənirdi. Bu sahədəki bilikləri əsasında Avropa filosoflarını İslam Şərq fəlsəfəsini dərk etmədikləri qənaətinə gətirdi, razılaşdırdı. "Elmin vətəni yoxdur", "elm onu mənimsəyənindir" deyən Ş.C.Əfqani elə bu dövrdən Avropa filosoflarının "Avesta" kitabında təqdim olunan fəlsəfənin qanunları, Şərqdən aldıqları elmi bilgilər əsasında təbiətşünaslığın və sosial həyatın dərkini yeni səviyyəyə qaldırılması şərhləri ilə tanış oldular. Ş.C.Əfqani sübut etdi ki, varlığın bütün formalarının dərki onun haqqında çoxsaylı informasion məlumatlarla deyil, onun varlığını ehtiva edən təməl qanunlarının dərki və qiymətləndirilməsindən keçir.

Ş.C.Əfqaninin Avropadakı elmi görüşləri heç də böyük Avropa mütəfəkkiri K.Yaspersin dediyi kimi "*əzəli bilmək arzusundan*" (**23, s. 514**) doğan elmi fədakarlıq, deyil, "*əzəli sübut etmək*" müdrikliyi idi; Mütləq ruhun ilkin ocağında nəinki yenidən doğması, hələ sönməməsi, bu ocağın yenidən canlanması kimi də qiymətləndirilə bilər. Göründüyü kimi, Ş.C.Əfqani nəinki Avropa elm və fəlsəfəsinin nüfuzu, təsiri altına düşür, elmi-fəlsəfi eridusiyası, idrakı səviyəsi ilə ondan üstün olduğunu nümayiş etdirərək, elm və fəlsəfə nümayəndələrində heyrət doğurur. Onlara qarşı iddialarla çıxış edir.

Milliliyin və dindarlığın fövqündə duran, bəşəri mütəfəkkir Ş.C.Əfqani "azadlıq və demokratiya" libası geymiş Avropanın təcavüzünü dəf edib, Şərq xalqlarının müstəmləkə əsarətindən qurtarıb, azad milli cəmiyət quruculuğuna çatdırmağın yolunu müəyyən etmək missiyasını üzərinə götürmüş kimi çıxış edirdi. Fəaliyətindən göründüyü kimi, o, həyatını bu bəşəri missiyanın həllinə həsr etmişdi.

Problemə təsir göstərmək, onun həllinə nail olmaq üçün, birinci növbədə ona düzgün yanaşma metodu tapılmalı idi. Ş.C.Əfqani tərəqqi və tənəzzlü tarixi bir qanunauyğunluq kimi qiymətləndirsə də, eyni zamanda hər bir xalqın tənəzzülünün onun mənəvi durumundan, ruhundan doğduğunu, onun çoxşaxəli səbəblərini də yüksək səviyədə görürdü. Tarix dəfələrlə sübut etmişdir ki, insan, cəmiyət, xalq ağır vəziyətə düçar olarkən fəlsəfəyə üz çevirməkdən, ona sığınmaqdan başqa çarəsi qalmır (**14, s.323**).

İlahi fəlsəfəyə vaqif olan Ş.C.Əfqani tarixi-mənəvi yaradıcılığı ilə bütün bəşəriyətə yaradıcılıq ruhu və nümunəsi vermiş, nəhayət sönüb müstəmləkəçilərə yem olan Şərqin ayağa qaldırılması, insanlıqda yerini almasının fəlsəfi ruha yiyələnməsən keçdiyini bütün incəliyi ilə dərk edən Ş.C.Əfqani fəlsəfəyə üz tutaraq yazdı: "Fəlsəfə insan əxlaqını müəyyənləşdirən elmdir, fəlsəfə dünya mədəniyətinin əsasıdır" (**5, s. 195**). Bunun ardınca insanlığın mənəvi dünyasında, onun bütün səviyəsində fəlsəfi ruhun funksiyasını bütün aydınlığı ilə şərh

etdi. Fəlsəfənin tərkibində elmin funksiyasından bəhs edən Ş.C.Əfqani göstərir: "dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır... Deməli bütün var-dövlət, əsasən elmin məhsuludur. Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyətin əlindən alsan, daha dünyada insan qalmaz" (**15, s. 196-197**).

Elmləri ayrı-ayrılıqda təsnif edən, onun predmetindən bəhs edən, onların əlaqə və münasibətlərini şərh edən Ş.C.Əfqani əsaslandırır ki, "elmlərin heç biri öz mövzu dairəsindən kənara çıxmır. Yaxşı diqqət etsək görərik ki, bu elmlərin hər birinin mövzusu ümumi elmin bədəni üçün bir üzv kimidir və bunların heç biri ayrı-ayrılıqda yaşaya bilməz və bəşəriyətə xeyir də verə bilməz... Deməli, elə bir elm gərək ki, bütün elmlərin ümumi ruhu kimi olsun və onların hər birini qoruyub saxlasın, onların hər birinin tərəqqi və inkişafına zəmin yaratsın − bu, fəlsəfə elmidir" (**5, s. 197**).

"Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyətin əlindən alsan, daha dünyada insan qalmaz" − yazan Ş.C.Əfqaninin elmin funksiyası və faydası haqqında şərhindən görünür ki, onun qənaətincə elm heç də həmişə insanlığa yaradıcılıq ruhu, fayda vermir. Elm ancaq fəlsəfi təfəkkür mühitində yaradıcılıq göstərə bilir. O, bu haqda yazır: "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər". Şərhinə davam edən Ş.C.Əfqani yazır ki, fəlsəfi ruh olmadan elmlərdən nəticə çıxarmaq mümkün olmur (**5, s. 197**). O, sözünə davam edərək yazır: "Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasaydı, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək. İnsanda insanlığı oyadan, insanın şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir" (**5, s. 196**).

"İnsanlığın məzmunu... özünün mənlik şüurunda varlığını əldə edən azad ruhdur" (**25, s. 42**) fəlsəfə ideologiyası əsasında milli demokratik dövlətlər quran, məişətin, həyatın bütün sahələrində xalqlarına yetərli hüquq və azadlıqlar verən Avropa dövlət başçıları və siyasətçiləri bütün dünyanın, birinci növbədə İslam-Şərq dünyasının cəlladına çevrilmişlər. Mədəniyətin, elmin, fəlsəfənin − bütövlükdə bəşəri sivilizasiyanın beşiyi yorulmuş, əzilmiş, əsarət altında kölələşmiş, bir qədər də simasızlaşmış Şərqin istiqlal-azadlıq ideologiyasını yaratmaq, xalqlara yiyələndirmək və həyata keçirmək missiyasını Mütləq ruh yenə "Od fəlsəfəsi"nin beşiyi Azərbaycanın, onun övladı, öz sözləri ilə desək, Ş.C.Əfqaninin "çiyninə" qoymuşdu.

Ş.C.Əfqaniyə görə, dünyanın göz önündə olan seyri, Avropa və Asiya xalqlarının həyat tərzinin müqayisəsi insanlığın mahiyətinin onun azadlığında, azadlığın isə insanın ruhunda olmasını zəka sahiblərinə bütün aydınlığı ilə göstərirdi. Beləliklə, Şərqi Avropanın müstəmləkəçiliyindən və özlərinin despotik rejimlərinin əsarətindən, köləliyindən xilas yolu ruhun, onun hələ Avropaya bəlli

olmayan ən dərin qatlarına enilməli, təməlinə çatmalı, bu təməldən onu yenidən hərəkətə gətirməli vəzifəsi bütün aydınlığı ilə Ş.C.Əfqaninin gözləri önündə dayanırdı. İnsanlığı köləlikdən xilas etmək üçün o, mənəvi-ruhi varlıq kimi aydın təsəvvür olunmalıdır. Ş.C.Əfqani insanlığın mənəvi varlıq olması haqqında fəlsəfədəki bilgiləri yeni faktlarla və mülahizələri ilə daha da zənginləşdirdi. Xalqların tarix səhnəsinə gəlməsi və məhv olub yox olmasının mənəviyat hadisəsi olmasını faktlarla hər kəsin başa düşəcəyi səviyədə şərh edirdi. Ş.C.Əfqani "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyəti əsəri" Onun fəlsəfəsinin proqram əsası kimi qiymətləndirilə bilinər. Müsəlman və Şərq xalqlarının etnik mənəvi durumunu bilavasitə öyrənmək üçün səyyah, dərviş kimi Hindistandan başlamış Şərq ölkələrini, İslam xalqlarının həyatını öyrənməyə başladı. O, əkinçi, maldar, sənətkar, ticarətçi, ziyalı, din xadimi, dövlət başçıları ilə görüşür, xalqın real vəziyəti və gələcəyi haqqında düşüncələri ilə tanış olurdu. O, müəyyən etdi ki, Hindistan xalqları da daxil olmaqla İslam xalqlarının dili müxtəlif təsirlərdən pozulub elə bir həddə çatmışdır ki, nəinki bu xalqların sosial təbəqələri, hətta fərdlər belə bir-birini aydın başa düşmürlər. Yazarların dilini nəinki xalq başa düşmür, hətta onların özləri birbirinin dilini başa düşmədiklərindən bir-birilərinin əsərlərini oxuya bilmirlər. Ərəb və fars dilində yazmaq ənənəsi türk-müsəlman xalqlarında milli dil yaradıcılığını öldürmüşdür. Bu xalqlarda təhsilin ərəb və fars dillərində olması, əhalinin çox az hissəsini əhatə etməsi, elmi və digər bilgiləri xalqın üzünə bağlanmışdı. Təhsilin ana dilində olmaması, İslam dininin öz mahiyətini itirib mövhumata çevrilməsi, intellektual səviyənin ardıcıl aşağı düşməsi, milli mənlik şüurunun ölməsi, mövhumatın dini İslamı şüuru, milli şüuru sıxışdırıb aradan çıxarması, onu məhv etməsi türk-müsəlman xalqların etnik-milli xarakter xüsusiyətlərini itirib əfsanəvi-mövhumi etiqadlara yönəltmişdi ki, bu da nəticədə xalqları cahil səviyəyə endirmişdi. Bu və digər səbəblərdən Asiya xalqları, birinci növbədə türk-müsəlman xalqları düşünmək, yaratmaq qabiliyətini, həyat ruhunu itirmiş, okeanda kompassız qalmış, hansı səmtə getmək lazım olduğunu bilməyən gəmi vəziyətində idi. Odur ki, Avropanın aciz köləsinə, yem bazasına çevrilmişdi.

Ş.C.Əfqani dəqiq müəyyənləşdirdi ki, Şərq xalqları, birinci növbədə türk-müsəlman xalqları ciddi mənəvi travmalara məruz qalaraq, dəyərlər və intellektual səviyə itkisinə uğramışdır. Odur ki, bu xalqlar normal həyatlarını bərpa etmək üçün mütləq fəlsəfi terapiyadan keçməlidirlər (**24**).

Fəlsəfə tarixçiləri hələ qədimdən fərdlərin fəlsəfi terapiya olunduğundan bəhs edir və onu da bildirirlər ki, fəlsəfi terapiyanı ilk dəfə XX əsrin əvvəllərində L.Vittgenşteyn, ondan sonra E.Form tədqiqata cəlb etmişdir (**14, s.183-246**). Lakin fəlsəfə tarixinə obyektiv yanaşdıqda bütün aydınlığı ilə görünür ki, fəlsəfi terapiyanı ilk dəfə elmi səviyədə yaradan və tətbiq edən Ş.C.Əfqanidir. O, birinci dəfə xalqların mənəvi durumunda, mənəvi-sosial strukturunda toplumu yaradan mənəvi sistemin element, hissə, yarımsisteminin hər birini ayrılıqda təsvir etmiş, funksiyasını göstərmiş, onu vahid sistem kimi birləşdirən vəhdət

yaradıcı dəyərləri bütün aydınlığı ilə əsaslandırmışdır. Bunun ardınca tənəzzülə uğramış Şərq, o cümlədən müsəlman xalqların mənəvi orqanlarının, bütövlükdə varlığının müalicə üsul və vasitələrini diqqətə çəkmişdir.

Dinin vəhdət yaradıcı əsaslardan olmasını göstərən Ş.C.Əfqani, öz varlığı dövründə dinini bir neçə dəfə dəyişib, lakin ölməyən millətlərdən bəhs edir, ancaq dilini dəyişməsi ilə toplumun əriyib, başqa toplumlar içərisində yox olması faktını diqqətə çəkir. Xalqları düşdüyü yerdən qaldırmaq üçün "şüuru-milli məfkurə" lazımdır yazan Ş.C.Əfqani milli şüuru özünüdərk, özünü qiymətləndirmə, xalqlar arasında yerini göstərən zəka, məfkurə toplumun mütərəqqi gələcəyini təmin edəcək milləti və vətəni tam − bütöv ifadə edən, onu öz ətrafında birləşdirən vahidləşmiş fikir yığını, ideyalar məcmusu ideologiya idi (**5, s. 60-61**).

Millət yaradıcı səbəblər, toplum əxlaqının qorunması və yaşadıcısı dininə mühüm əhəmiyət verirdi. İslam dinini bəşəriyətin ən mütərəqqi və elm dini kimi qiymətləndirirdi. İslam dininin mövhumu vəziyətə düşməsini, savadsız, cahil dini başçıların yarıtmazlığının nəticəsi hesab edirdi. Milli vəhdət yaradıcı mənəvi dəyər kimi İslam dinindən istifadə üçün, islahatlarla bu dini mövhumatdan təmizləyib, "Qurani-Kərim" təməlinə qaytarmağı müsəlman xalqların qarşısında duran zəruri vəzifə hesab edirdi.

Toplum yaradan başlıca dil, din kimi əsaslarla bərabər Ş.C.Əfqaninin insanı, onunla birlikdə toplumu yaradan element və yarımsistemlərdən də xüsusi bəhs edir. Göstərir ki, insanın bədən üzvlərinin hər birinin özünün ruhi funksiyası olmaqla, biri digərinə xidmət edir, onlar arasında rabitə yaradır. Hamısı birlikdə fərdi, onun həyat ruhunu yaradır. "Nə qədər ki, həyat ruhu öz qüvvə və qüdrətini saxlayır, onda bir-birindən fərqli və təzadlı üzvlərin qarşılıqlı rabitəsi pozulmur, əksinə, daha da artır, onların fəaliyətinin vahid yaşama meyli də çoxalır... Həyat ruhu söndükdə və ya zavala uğradıqda həmin müxtəlif ünsürlərin birliyi də yavaş-yavaş pozulur. Nəhayət az keçdikdən sonra həmin bədən üzvləri və əzaları tamamilə dağılır, insan da yox olur və ölüb gedir" (**24, s. 8-9**).

"Həyatda insanlar arasındakı birliyin yaranma vacibliyi də, dağılma səbəbləri də belədir" yazan Ş.C.Əfqani göstərir ki, insan təzadlı, fərqli, müxtəlif funksiyalı bədən üzvləri və əzaların qarşılıqlı, bir-birinə xidmət edən vahid ruhundan yarandığı kimi, toplumda müxtəlif vəzifələri və funksiyaları icra edən sosial təbəqələrin birləşdirici, yaradıcı ruhundan törəyir. O, bu haqda yazır: "Başqa millətlərlə qonşu kimi yaşayan, aralarında möhkəm müamilə və mübadilə əlaqələri olan bir millət insan cəmiyətinin möhkəm əsaslarını təşkil edən bütün təbəqələrə malik olmadıqca heç vaxt öz milliliyini, məziyət və hüquqlarını qoruyub saxlaya bilməz.

Hər bir millətin içərisində bu təbəqələr olmalıdır, faydalı elmləri yayan ziyalılar, cəmiyət üçün xeyirli fənləri təsis edən yaradıcı fazil və alimlər, insan hüququnu mühafizə edən siyasi xadimlər, fəzilətin və ədalətin keşikçiləri olan qanunşünaslar, xalqın əxlaqını saflaşdırmağa çalışan nəsihətçilər, lətif və şairanə kəlamlarla yatmış insanları oyadan və xalqın xarakterini qüvvətləndirən ədi-

blər və şairlər, öz sənətlərini elmi əsaslar üzrə inkişaf etdirən sənayeçilər, torpağını əkinçilik fənni əsasında əkib becərən əkinçilər, iqtisadiyat qanunları əsasında millətin ticarət yollarını arayıb tapan tacirlər.

Əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, əlbəttə o millətin fərdləri arasında məişət və həyati əhəmiyətli əlaqələr get-gedə qırılar və millətlər məhv olar" (**24, s. 11-12**).

Ş.C.Əfqani fəlsəfi sistemində insanlığın yaranışı, onun mənəvi dəyərlər sisteminin vəhdətinin formalaşması və mühafizəsində idraki güc-zəka kimi fəlsəfi ruh mühüm yer tutur. O, yazır: "İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin hər şeydən əvvəl fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir".

"Dövlətin möhkəmliyi ədalətindən, millətin diriliyi elmindən asılıdır" yazan Ş.C.Əfqani göstərir ki, "bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımınca nəticə çıxarmaqda çətinlik çəkər... Fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək" (**24, s. 29-30**). Göründüyü kimi, Ş.C.Əfqani milli ruhda fəlsəfənin birləşdirici və dərkedici, yaradıcılığa sövqedici roluna xüsusi önəm verir. Onun yaradıcılığında fəlsəfə milli arzu doğuran, ideya və ideologiya yaradan elə mənəvi bir sistemdir ki, təkləri, fərdləri birləşdirir, ümumiyə qoşur, onda birgə fəaliyət, birgə yaşayış qayda və normaları, harmoniya yaradır; onlarda ideyalar doğurub ideologiya səviyəsinə çatdıraraq sonda özünüdərk səviyəsinə yüksəldir. Özünüdərk isə insanlığı, xalqları, millətləri, nəhayət mütərəqqi bəşəriyəti yaradır. Ş.C.Əfqani yaradıcılığında toplumu yaradan mənəvi dəyərlər sistemində mənlik şüuru azadlıq ruhunu doğurur, nəhayət insanlıq öz mahiyətini tapır. Beləliklə, insanlıq öz azadlığını tapmaq mərhələsində müstəqil yaradıcılıq qüvvəsi (ikinci təbiət − X.X.) səviyəsinə çatır və bütünlüklə mənəvi varlıq mahiyəti kəsb edir. Hər bir toplumun mənlik şüurunu, özünüdərki ancaq milli dil, din, adət-ənənə, mənəvi dəyərlər, milli fəlsəfə mühitində formalaşır, onda azadlıq ruhu yaradır. Nəhayət azadlıq ruhu toplumları milli dövlət quruculuğuna sövq edir.

Ş.C.Əfqani fəlsəfəsində dil milli-mənəvi, sosial strukturun təməli və vəhdət yaradıcı əsası, etiqad sistemi olan dində mühüm vəhdət yaradıcı funksiya daşıyır; adət-ənənə tənzimləyici sistemdə əsas funksiyaya malikdir. Mənəvi dəyərlər özünəməxsusluqları, milli xarakter yaradan təməl əsasıdır; fəlsəfi ruh bütün mənəvi dəyərləri, intellektual bilgiləri vahid sistem halına salan, özünürefleksiya doğurmaqla toplumu mənlik şüuruna, özünüidarə, özünü qiymətləndirmə və adlandırmaya − millət olma, milli orqanizm səviyəsinə çatdıran yaradıcı sistemdir.

Mənəvi dəyərlər, inam, etiqad, adət-ənənə, idrak və s.-dən ibarət mənəvi sistemin yatdığı bu milli orqanizm, əkinçi, maldar, sənətkar, sənayeçi, hərbçi, ziyalı və b. sosial təbəqələrdən ibarətdir. Etnosun ilkin təşəkkülündən yaranan

və yaşam prosesində ardıcıl zənginləşən bu mənəvi dəyərlər sistemi ilə vahid adət-ənənə, əxlaqi dəyərlər əsasında yaşayan və bir-birinə xidmət edən, biri digərinin tələbatını ödəyən sosial təbəqələrin vahid orqnizmini yaradır. Nəticədə milli obrazını təcəssüm etdirir.

Ş.C.Əfqani fərdin bədənində bir orqanın normal işləməməsi, funksiyasını icra edə bilməməsi ilk öncə fərdin bədəninin zəifləyib tədricən bütün orqanların qarşılıqlı funksiyasını pozub onun ölümü, məhvi ilə nəticələndiyi kimi millətdə sosial təbəqələrdən hər hansı birinin funksiyasını normal icra edə bilməməsi ilk onca onu zəiflədir, tədricən bütün sosial sistemin harmonik yaradıcı fəaliyətini pozur, tədricən onu dağıdıb məhv edir.

Milli həyatda iqtisadiyatın, maddi istehsal sahələrinin, texniki tərəqqinin yerini və rolunu yüksək qiymətləndirən Ş.C.Əfqani bütün hallarda xalqların yaranması, yaşaması, zəfərləri və ölüb tarixin yaddaşına keçməsini mənəvi səbəblərlə izah edirdi. Odur ki, onu müstəqil mənəvi varlıq kimi dəyərləndirir, onu ən kiçik elementlərinə qədər araşdırır, hər bir element, hissə, yarımsistemin funksiyasını, sistemdə yeri və rolunu dəqiq müəyyənləşdirir. Beləliklə, Ş.C.Əfqani etnos yaradıcı və yaşadıcı bütün dəyərləri, mənəvi sistemin strukturunu, şərtləri və təsirləri dəqiqləşdirib, azadlıq ruhunu itirmiş xalqların həyat ruhunu yenidən canlandırmaqla onları azad insani həyata qaytarmaq üçün marifçi-demokrat kimi inqilabi fəaliyətə başladı. O, qətiyət və əminliklə bütün bəşəriyətə elan etdi: “Bütün yenilən millətlər mənəvi muxtariyətlərini təkrar qazanacaqlar və zəfəri paylaşacaqlar” (**5, s. 214**).

Bu mənada Ş,C.Əfqani fəlsəfəsini diktatura və müstəmləkə rejimlərin kölələşdirib azadlıq-istiqlal ruhundan məhrum etdiyi xalqların müalicəsi − terapiyası fəlsəfəsi adlandırmaq daha düzgün olar. Beləliklə, azadlığın − istiqlalın ideologiya səviyəsinə çatan fəlsəfi təlimini yaradan zəmanəsinin adamlarının səyyardərviş adlandırdığı bu filosof Hindistandan başlamış Qacarlar monarxiyası, Ərəbistan, Şimali Afrika, Mərkəzi Asiyanı piyada gəzərək əkinçi, maldar, sənətkar, yazar, şair, elmmənsəb, din xadimi, dövlət başçısı və s. hər bir zümrənin nümayəndəsi ilə görüşür. Milli vicdanının oyadılması mümkün olan hər kəsi oyadır, xalqlarının vaxtilə yaratmış olduğu azadlıq çırağını zəif, ilk işartılar səviyəsində olsa da, qəlblərində yenidən yandırır, onların sönmüş olan milli ruhlarını oyadır. Milli ruhun bütün gücü ilə alovlandırmaq üçün dilin, dinin, dəyərlərin, adət-ənənələrin təmizlənib ona sarılmasını, təhsil və mətbuatla özünün və dünyanın qavranılmasını, onu dərindən dərk etmək üçün elmə yiyələnməsini, onların hamısının milli ruhda vəhdət yaratması, milli fəlsəfi səviyəyə yüksəldilməsini tövsiyə edir. Fəlsəfi səviyəyə yüksəlmiş idrakı dərk etməni milli ruha hopdurub, milli fəlsəfəyə çevirməklə özlərini dərk edəcəklərini, azadlığın zərurət olduğunu duyub, görüb, dərk edib, bütün maneələri dəf edib, istiqlallarına qovuşacaqlarını bütün xalqlara inandırmağa çalışırdı. Ş.C.Əfqani fəlsəfəsində azadlıq fərdin, toplumun fəlsəfi ruh səviyəsinə yüksəlib Mütləq ruha qovuşmuş, heç bir məhdudlaşdırma, təzyiq qarşısında susmayan, şərəf, ləyaqət və heysiyətin qorunması üçün tərəddüd etmədən maddiyatını qurban verməklə simvollaşan

əbədi ruhdur. Təsadüfi deyil ki, Ş.C.Əfqani İstanbul həbsxanasından dostlarına yazırdı ki, bunlar məni öldürməklə fikirlərimi öldürəcəklərini düşünürlər. Anlamırlar ki, fikir sahibini öldürmək onun fikrini öldürə bilmək deyil, başa düşmürlər ki, mənim fikirlərim çoxdan şüurlara həkk olunub. Əfqanıstanda Qacarlar monarxiyasında, Hindistanda, Misirdə, Osmanlı imperiyasında, Fransa və İngiltərədə, müəyyən müddət ABŞ və Kanadada, qısa müddət Rusiyada yaşayan Ş.C.Əfqaniyə bu ölkələrin imperator və monarxları rahatlıq vermirdi. Tez-tez bir ölkədən digərinə ya qovulur, ya da sürgün olunurdu. Onu ən çox təqib edən dövrün ən güclü imperiyası İngiltərə idi. Ədalət naminə deməliyik ki, Hindistanda, Misirdə ona qarşı ilk üsyanları təşkil edən də Ş.C.Əfqani idi. Beləliklə Şərqin, bütün türk-müsəlman dünyasının ilkin mədəniyət ocaqlarını piyada gəzib dolanan, oradakı zəka və milli vicdanı hələ tam sönməmiş, milli duyğulu fərdləri aşkarlayıb ilk öncə onlarda tarixi yaddaşı, milli vicdanı oyadaraq, onları yeni məktəblər və mətbuat, müxtəlif yazılı əsərlər vasitəsi ilə toplumda təmiz aydın ana dili vasitəsi ilə milli dəyərləri, adət-ənənələri, bütövlükdə tarixi yaddaşı oyadıb xalqda ardıcıl idraki qabiliyəti yüksəltməklə özünüdərk səviyəsinə çatdırmağı bir vəzifə olaraq qarşıya qoyurdu. Ş.C.Əfqani fəlsəfəsində milli özünüdərk, sağlam qan dövranı canlı orqanizmi qidalandırdığı kimi toplumu mənəvi qida ilə təmin edir, onu milli ideologiya ətrafında birləşdirməklə qarşıda duran milli problem və vəzifələrin həllinə yönəldirdi.

Şərq − Azərbaycan − Zərdüşt − Avesta fəlsəfəsini, orta əsrlər İslam dünyası elm və fəlsəfəsini mənimsəyib tərəqqiyə çatan, azadlıq-demokratiya donu geyinən Avropa bütün dünya xalqlarına, xüsusilə tənəzzül dövrünü yaşayan türk-müsəlmanları əsarətə alıb kölələşdirmə yolu tutdu. Tarixin belə bir məqamında Mütləq ruhun ilkin doğuş məkanı Azərbaycanda Ş.C.Əfqaninin ruhunda Mütləq ruh yenidən doğdu. Azərbaycanda adi əkinçidən dövlət başçısına qədər hamının Ş.C.Əfqaninin şəxsiyətinə böyük marağı var idi. Müasir fikir adamlarından bir qədər yüksəkdə, əlçatmaz olduğunu hər kəs anlayırdı. Onun görüşləri heç vaxt təsirsiz qalmırdı. Ş.C.Əfqani ilə görüş zamanı müstəmləkəçi, diktator dövlət başçıları onun inqilabi ideyalarından həyəcanlandıqları kimi, qəlbində milli və azadlıq ruhu hələ tam sönməmiş istiqlal axtarışlı şəxslərin varlıqları lərzəyə gəlir, ruhən coşub daşırdılar. Müxtəlif janrlarda yazdığı əsərlərin predmeti və aydın şərhi, yeni dünya düzümü doğuran ruhi-mənəvi gücü, mənəviyatın bütün sahələrinə təsir edib, onu oyadacaq və canlandıracaq təsiri, yaradıcı insanları elə ilk təmasda mənəvi təsir gücü ilə özünə bağlaya bilməsi göstərir ki, dövrünün fövqündə, vəhyi-peyğəmbəranə dahi idi.

Ş.C.Əfqani dinindən, dilindən asılı olmayaraq Şərq ölkələrini gəzir, xalqların ruhi vəziyətini müşahidə edib dəyərləndirərək, söndürülmüş milli yaradıcılıq ruhunun yenidən bərpasının fəlsəfi əsas və metodlarını yaradıb içərisindən seçdiyi zəki şəxslər və tələbələri vasitəsi ilə toplumun mənəviyatına aşılayır, onların milli ruhunu yenidən oyadırdı. Beləliklə, XIX əsrin üçüncü rübündən Hindistandan başlayıb Mərkəzi Asiyanı, Şimali Afrikanı, Şərqi Avropanı əhatə edən müstəmləkəçiliyə və diktatura rejiminə qarşı istiqlal və demokratiya hərə-

katı Ş.C.Əfqani fəlsəfəsindən doğan milli istiqlal hərəkatı olub, ona özü və tələbələri başçılıq edirdi. Ş.C.Əfqani fəlsəfəsi ilə yaranan bu milli hərəkat müstəmləkəçiliyə və diktaturaya qarşı adi siyasi və demokratik mübarizə deyildi. Bütöv bir milli-mənəvi quruculuq hərəkatı idi. Müsəlmanlarda təfəkkürü ölmüş milləti dini mövhumatdan təmizləmək, İslam dinini "Qurani-Kərim" təməlində bərpa etmək, dirçəltmək və mənimsəmək; ümmətçilikdən millətçiliyə − milli dilə, adət-ənənəyə, dəyərlərə keçmək və bu zəmində milli mənəviyatı canlandırmaq, milli şüur zəminində milli orqanizmdə hər bir sosial təbəqənin öz vəzifəsini dərk etməsi və funksiyasını icra etməsi; elmlərə yiyələnib milli intellektual səviyəni yüksəltmək; milli mənəviyatın oyadılması və canlandırılması üçün milli təhsil, mətbuat, teatr, kitabxana və s. yaratmaq, mənəvi intellektual yüksəlişə nail olmaq, onu milli ideologiya və fəlsəfə səviyəsinə çatdırmaq, bu prosesin milli dövlət quruculuğu ilə tamamlanması və b. vəzifələr nəzərdə tutulurdu. Hindistan və Şimali Afrikada xalqların mənlik şüurunu, milli ruhunu ingilis, fransız müstəmləkəçiləri, 30 türk xalqının Rus imperiyası, Cənubi Azərbaycan türklərinin İranda 10 əsr hakimiyətdə olan doğma türk sülalələri, üç qitəni əhatə edən Osmanlı imperiyasında türkləri milli kimlik şüurundan, türk ruhundan məhrum edən doğma hakimiyətləri idi.

İmperiyaların müstəmləkəçi istismar, alçaltma və assimilyasiya siyasətindən, öz diktator rejimlərinin təzyiqindən, təhsilin düzgün qurulmaması, dinin mahiyətini itirib mövhumatı xarakter alması və milli şüuru əvəz etməsi və s. səbəblərdən milli mənlik şüurunu itirməsi, dilləri pozulmuş Hindistan, Osmanlı imperiyası, Qacarlar monarxiyası, Ərəb dünyası, Rusiya imperiyası əsarətində Şərqi Avropa və Mərkəzi Asiyadakı türk və müsəlmanlar Ş.C.Əfqaninin milli fəlsəfəsinin, peyğəmbəranə inqilabi fəaliyətinin təsiri altında tədricən milli mənliklərini dərk etməyə, dillərini düzgün qiymətləndirib onu təmizləməklə doğma dil vasitəsilə unutdurulmuş tarixlərinə yiyələndikcə tədricən milli özünüdərk səviyəsinə yüksəlib insan, millət üçün azadlığın zəruriliyini dərk etməyə, istiqlal mübarizəsi yolunu tutmağa başladılar. Beləliklə, Ş.C.Əfqaninin istiqlal, demokratiya fəlsəfəsi canlı ideologiyaya çevrilib Hindistandan qərbə doğru bütün Avroasiyada, Şimali Afrikada hakim olmaqla dövlət başçılarından tutmuş, ziyalı, zadəgan, dindar, sənayeçi, əkinçi-maldar − bütün zümrələri hərəkətə gətirmiş, onun ardıcıllarına − mütərəqqi yenilikçilərə −istiqlalçıların və milli azadlığı məhv edən mənəvi infeksiya mühafizəkarların qarşılıqlı mübarizəsi kimi vüsət almışdı. *Göstərilən hüduda Ş.C.Əfqaninin bilavasitə davamçıları yetişdi. Təsadüfi deyil ki, onun ən parlaq istiqlalçı, savaşçı ardıcılları Azərbaycan türklərindən doğuldu*. Bəşəriyətin, türk dünyasının ən parlaq istiqlalçılarından Əhməd Ağaoğlu Parisdə Sorbon Universitetinin tələbəsi olarkən Ş.C.Əfqani ilə bir mənzildə yaşamış, onun Paris fəlsəfə klubunda Avropa filosofları, xüsusilə antiislamçılığı ilə fərqlənən Ernest Renanla polemikalarının şahidi olmuşdu. Təsadüfi deyil ki, onları yaxından tanıyanlar Ə.Ağaoğlunun davranış və yaradıcılıq üslubunda Ş.C.Əfqani eyniyətindən, xatırlatmasından həmişə bəhs etmişlər. Ə.Ağaoğlu isə bütün yaradıcılığı boyu onun mənəvi

ucalığından həmişə bəhs etmişdir. Azərbaycan türklərindən bəşəriyətin istiqlal, azadlıq ideologiyasını zənginləşdirən dahilərdən Ə.Hüseynzadə Əfqani ilə şəxsi görüş və münasibətlərindən bəhs etməsə də, Ş.C.Əfqani fəlsəfəsi onun yaradıcılığından günəş şüası kimi keçir (**29**).

Türk-müsəlman dünyası ictimai fikri-fəlsəfəsi, elmi, tarixi, ədəbiyatı, jurnalistikası, mətbuatı, hüququ, dini, bütün hissi və hissiyatı Ş.C.Əfqaninin milli vəhdət fəlsəfəsi əsasında yenidən qurulmaya yönəlmişdi. Beləliklə, türk-müsəlman dünyasının böyük simaları və Ş.C.Əfqaninin tələbələri Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Z.Göyalp müsəlman Şərq dünyasında diktatura və müstəmləkəçiliyin milli-mənlik şüurunu, elmi-intellektual səviyəsini və etnik dəyərlərini məhv etməklə kölələşdirdiyi xalqları azadlıq və istiqlala çatdıracaq fəlsəfi sistem yaratdılar. Bu fəlsəfə türk-müsəlman xalqların mənəviyatını ilkin təməlində türkləşmək, islamlaşmaq və müasirləşmək düsturu əsasında yenidən qurulması zəruriliyini müəyyən etdi. Bu düsturda Türkləşmək − türk xalqlarının mövhumi İslam ümmətçiliyindən çıxıb hər bir xalq öz əslinə, kökünə, soyuna qovuşmalı, özünü dərk etməli, həmişə yaşar mənəvi dəyərlərini bərpa etməli; İslam dinini "Qurani-Kərim" təməlində mövhumatdan təmizləməli, onun inam etiqad, əxlaq və göstərişlərini olduğu kimi qorumalı; müasirləşmək − dünyada mövcud olan qabaqcıl elmi-texniki yeniliklərə, idrak metodlarına yiyələnməklə milli və bəşəri intellekt istehsalında yerini bərpa etmək, dünyanın yeni düzənində yer almaq və onunla birlikdə gələcəyə addımlamaq mənaları alırdı.

Bu fəlsəfə adi qara camaatdan başlamış bütün sosial təbəqələrin şüuruna aşılanmaqla sürətlə türk-müsəlman dünyasında hakim fəlsəfi ideologiyaya çevrildi. Bu ideologiyanın dönməzlik alması üçün yeni yaradılan təsisatlar − məktəb, mətbuat, qəzet, jurnal, ədəbiyat, publisistika, poeziya, nəsr, dramaturgiya, kitabxana, teatr, musiqi və folklor, elmi-fəlsəfi əsərlər, birliklər və xeyriyə cəmiyətləri xalqların mənəviyatını milli-mənəvi qidalarla, şüurunu elmi bilik və idrakı üsullarla "Qurani-Kərim" təməlində mənəvi-dini bilgilərlə qidalandırmaqla sürətlə milli mənlik şüuruna yiyələnib, millətlər arasında imzaları ilə görünməyə yönəltdi. Bu yönəlik onları intellektə təhrik etdi. İntellekt öz növbəsində onları sağlam dini şüura istiqamətləndirdi. Beləliklə, türk-müsəlman dünyasında istiqlal və azadlıq, demokratiya uğrunda dönməz mübarizə başladı.

Yuxarıda bəhs etdiyimiz kimi, Azərbaycanda XVIII əsrdən sönmədə olan Şərq − İslam dünyasının tərkib hissəsi idi. Bütün İslam − Şərq dünyası kimi milli-mənəvi, intellektual tənəzzülü o da keçirirdi. A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin yazılma səbəbləri, əsərdə milli-mənəvi məsələlərə münasibət, Rus imperiyasının Azərbaycanı işğalının ilk günündən süqutuna qədər ona qarşı fasiləsiz silahlı mübarizə aparan "xalq intiqamçıları"nın mübarizəsi göstərir ki, Azərbaycan xalqı siyasi cəhətdən məğlub olsa da o, Rus imperiyasına mənən enməyib, milli yaradıcı ruh dönməzdir, o, kölələşməmişdir. Bu çoxsaylı səbəblər içərisində Azərbaycanın Mütləq ruh − Zəkanın ilkin doğduğu ocaq, bəşəri "Od fəlsəfəsi"nin ilkin vətəni olmaqla burada mənəvi dəyərlərin və intellektin zəngin xəzinəsi yaranmış, yaşamış və toplanmışdı. Bu mənəvi enerji ocağı tam

sönməmiş, varislik əlaqəsi kəsilməmişdi. Səfəvi sülaləsinin süqutu, Rusiya, Fransa, İngiltərə imperialist dövlətləri, onların alətləri fars və ermənilərin təsiri ilə separatçı ünsürlər mərkəzləşmiş Azərbaycan dövlətini feodallıqlara parçaladılar. "Türk tayfaları əfşarlar və qacarlar bir-biri ilə mübarizə aparmaqla ümumi düşmənin qələbəsi üçün imkan yaratdılar" (**31, s. 58-59**) deyə qacar sülalə başçıları məhz milli şüur zəminində əfşarlara müraciət edib, Azərbaycan dövlətçiliyini bərpa etmək naminə onları birliyə dəvət edirdi. Lakin müxtəlif üsullarla Rus imperiyası qacarlar sülaləsinə mərkəzləşmiş Azərbaycan dövlətçiliyini bərpa etməyə imkan vermədi, separatçılığı gücləndirməklə Şimali Azərbaycanın işğalına nail oldu. İmperiyanın Azərbaycanda birinci tədbiri milli mənlik şüurunu öldürmək üçün göstərdiyi amansızlıq oldu. Bu məqsədlə milli özünüdərkin nüvəsi, mənəvi enerjinin əsas istehsalçısı zadəgan zümrəsini məhv etməyə başladı. Zadəganlığın müdafiəsində radikallıq göstərən Cəfərqulu xan Simbirskə, Sankt Peterburqa (1823-1829) sürgün edildi. Sürgündən Qarabağa dönən Cəfərqulu xan milli varlığın yaşadılması üçün "güclü zadəgan zümrəsi"nin qorunması və yaşadılmasının vacibliyini şüurlara diktə etdi (**8, s. 166**).

A.A.Bakıxanovun elmi səviyəsi Rusiya tarixşünaslığında yüksək qiymətləndirilən "Gülüstani-İrəm" əsərində yazılan "Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir... hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır; çünki, tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyətləri bildirir, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər. Buna görə... yol göstərmək məqsədilə... bu kitabı yazdım" (**30, s. 10-11**) deyən, milli zadəganlığın qorunmasında fədakarlıq göstərən, milli yaşam üçün mənəvi dəyərlərin, əxlaqın və elmi intellektual səviyənin yüksək səviyədə olması zəruriliyinin xüsusi vurğulanması, xələfi (**1; 2; 33**) M.F.Axundovun "adamların damarlarına təzə və isti qan dağıtmaq və onları hərəkətə gətirmək lazımdır, göz qabağında olan bu əsas kökündən, dibindən qoparılmalıdır" (**32, s. 196**) müddəaları, tarixi mənbələr, məlumatlar, elmi-nəzəri müddəalar göstərir ki, Azərbaycan xalqının siyasi həyatında çöküş olsa da, mənlik şüuru, milli ruh və elmi yaradıcılıq üçün intellektual səviyə bütövlükdə sönməmişdi, milli-mənəvi, intellektual həyatı qidalandırmaqla qorumaq və yaşatmaq üçün nəzərə çarpacaq mənəvi enerjiyə, gücə malik idi. Elə bu səbəbdən də Avropa müstəmləkəçiliyinə cavab reaksiyası olaraq bu mənəvi ocaq yenidən alovlanaraq, Şərqi Azadlıq üçün yenidən qidalandırmağa başladı. Odur ki, Ş.C.Əfqaninin istiqlal, azadlıq fəlsəfəsinin Azərbaycandan doğulması, Şərq İslam dünyasına buradan yayılması təbii-mənəvi, bəşəri bir hadisə kimi qiymətləndirilməlidir.

Beləliklə, Ş.C.Əfqaninin istiqlal, azadlıq fəlsəfəsi Şərq dünyası müstəmləkə əsarətində olan xalqların hələ milli mənliyi, ruhu, dəyərləri, zəkası tam sönüb kölələşməmiş ziyalı, zadəgan,burjua və mülkədar, yazar, şair, musiqiçi, din xadimi və s. cismində yaradıcılıq ruhu olan şəxslərin mənəviyatını qidalandırıb onları oyadır, canlandırır, insanlığın mahiyətinin özünüdərk edən azadlıq olduğunu şüurların yeridirdi. Beləliklə, müstəmləkə Şərqində Ş.C.Əfqaninin filo-

sof, yazar, nasir, şair, publisist, naşir, maarifçi, burjua və tacir davamçıları − yeni ziyalı, zadəgan nəsli, zümrəsi yetişir. Onlar müxtəlif üsullarla yaratdıqları mətbuat, məktəb, qrup, təşkilat vasitəsi ilə xalqı milli özünüdərkə istiqamətləndirir, bu da təbii bir proses kimi onlara istiqlal, azadlıq ideologiyası aşılayır. Müstəmləkə və diktatura əsarətində olan xalqların istiqlal və azadlıq mübarizəsi vüsət aldı. Beləliklə, Ş.C.Əfqaninin milli vəhdər fəlsəfəsi tənəzzülə uğramış xalqların yenidən tərəqqi yoluna çıxması, milli inkişafın təbii qanunauyğunluğu kimi doğulmuş Avropanın demokratik həyat tərzi məzmun və formalı yaşam yolunu tutması üçün fəlsəfi terapiya idi. Odur ki, onun fəlsəfəsinin əsas məzmununu ifadə edən "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyəti" və başqa əsərlərindən hind, türk, ərəb, fars və b. xalqların Ş.C.Əfqaninin ideya təsirində olan mütərəqqi ziyalı, burjua, aristokrat və b. nümayəndələri xalqlarının durumuna uyğun istifadə etməklə istiqlql və azadlıq yolu tutdular. Yuxarıda göstərdiyimiz kimi, Ş.C.Əfqaninin Osmanlı və Azərbaycan türk tələbələri onun milli vəhdət fəlsəfəsini "türkləşmək, islamlaşmaq, müasirləşmək" formasında milli ideologiya yaratdılar. Tarixin göstərdiyi və Ş.C.Əfqaninin tarixə istinadən yaratdığı fəlsəfədə milli özünüdərk milli varlığın yaşamında birinci təməl əsas olduğu üçün türk xalqlarının istiqlal və azadlıq mübarizəsində də türkçülük birinci başlıca əsas kimi götürülmüşdür. Təsadüfi deyil ki, Ş.C.Əfqani fəlsəfəsinin türk və dünya xalqlarının tarixindən aldığı əsaslar, Şərqin yeni intibahı prosesində gedən istiqlal və azadlıq mübarizəsindən aldığı materiallar əsasında yeniləşən şəraitə müvafiq yenidən işləyən və inkişaf etdiərn M.Ə.Rəsulzadə türkçülüyün yaranma tarixindən bəhs edərkən, Ş.C.Əfqaninin milli fəlsəfi ideyalarının türkçülüyün inkişafına təkan verdiyini, "türkçülük ideologiyası siyasi sistem kimi birinci plana çıxdı"ğını, "inqilabçı türkçülüyün nəzəriyəsi"nin də Ş.C.Əfqani olduğunu yazır (**5, 9, 28**).

Yuxarıda ictimai fikir tariximizə nəzərən (A.A.Bakıxanov nəzərdə tutulur, ziyalı milli düşüncə və arzunun barometridir − X.X.) görünür ki, Azərbaycan xalqı özünü rus imperiyası əsarətinə qarşı qoymuş, şüurlu və elmi əsaslarla əsarətdən çıxma yolunu axtaran xalq idi; "adamların damarlarına təzə və isti qan dağıtmaq və onları hərəkətə gətirmək lazımdır, göz qabağında olan bu əsas kökündən, dibindən qoparılmalıdır" − deyən M.F.Axundov istiqlal üçün inqilabi yol tutulmasını tələb edirdi. Ondan sonra doğulan, H.B.Zərdabi ilə başlayan − doğulan yeni milli ziyalı nəsli milli özünüdərki reallaşdıracaq məsələlərin, işlərin həllinə təşəbbüs göstərdilər, daha doğrusu başladılar. Bu sahədə ilk, ən böyük və təməl iş H.B.Zərdabinin milli mətbuat yaratması − "Əkinçi" qəzetinin nəşrinə nail olması idi. Dünya xalqlarının təsərrüfat həyatının bütün sahələrindən, qabaqcıl təcrübələr haqqında məlumat və tövsiyələr verən qəzetin ana xəttini Ç.Darvinin "yaşamaq uğrunda mübarizə" nəzəriyəsi və "öz dilində" "elm və ədəbiyat meydana gətirmək" ideyası təşkil edirdi. Çarizmin türk-müsəlman xalqlara anadilli məktəb və mətbuat yaratmağa icazə vermədiyi, sərt senzura şəraitində belə bir taktika dahiyanə üslub idi. Birinci sayı çapdan çıxanda naşiri,

yazarı, mürəttibi bir nəfər − H.B.Zərdabidən ibarət olan qəzetin ətrafında tezliklə yeni-yeni ziyalılar səfərbər olundu. 1877-ci ildə rus-türk müharibəsi haqqında nəşr etdiyi məlumatlarda Osmanlı tərəfkeşliyi ilə "Əkinçi" qəzeti bağlansa da, Səid və Cəlal Ünsizadə qardaşlarının "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" qəzetləri nəşr olundu. Bununla da xalqda milli mənlik şüurunun yenidən canlandırılması, yaradılması, intellektual səviyənin yüksəldilməsi, dünya hadisələri fövqündə özünüdərk, siyasi şüurun yaradılmasının ən mühüm vasitəsi, milli mətbuatın əsası qoyuldu, yaradıldı. Bu hadisə mütərəqqi rus və Avropa mütəfəkkirlərinin "əqli və mənəvi inkişafa qabil", "Qafqazın sivilazsiyaçıları" (**34, s. 128; 35, s.11**) kimi qiymətləndirdikləri Azərbaycan türklərinin milli özünüdərk və intellektual səviyəsini bərpa edib, istiqlal və azadlıq yolu tutması üçün ilkin təkan oldu. Bir az sonra bunların sayı getdikcə artdı. H.B.Zərdabini "Azərbaycan mətbuatının piri" (M.Ə.Rəsulzadə) hesab edən, onun demokratik ənənələrini davam və inkişaf etdirən böyük bir qələm ordusu yarandı. Onların arasında dörd nəfər ən istedadlı publisist meydana çıxdı: bunlar Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə və Ömər Faiq Nemanzadə idi (**5, s. 123**).

"Hər xalqın tarixi ona öz millətinin təbiət və adətindəki xüsusiyətləri bildirər", yol göstərmək məqsədilə "Gülüstani-İrəm" əsərini yazdığını deyən A.A.Bakıxanov, Azərbaycan türkləri arasında farsca yazmaq ənənəsinə son verən, Azərbaycan türkcəsini şeirdə, nəsrdə, dramaturgiya və elmdə yüksək səviyədə işlədən, Azərbaycan ədəbiyatına gətirdiyi dramaturgiya janrı ilə xalqı ilə üz-üzə oturub danışan, ona "qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur" deyən M.F.Axundov toplumundan sadəcə olaraq "millət" deyə bəhs edirdilər. Ş.C.Əfqani haqqında Qafqazda məlumat yayan "Ziyayi-Qafqaziyyə" qəzetinin naşirləri Ünsizadə qardaşları qəzetə əlavə kimi nəşr etdikləri "Kəşkül" dərgisində XIX əsrin 80-ci illərin ilk çağlarında "türk milləti" anlayışından istifadə etməyə başladılar (**36, s. 81; 8, s. 178**). Təəssüf ki, ərəb dünyası, Hindistan, müasir İran hüdudunda Ş.C.Əfqani fəlsəfəsinin maddiləşməsi prosesini təhlil etməyə dil bilgimiz imkan vermir. Odur ki, Türkiyə və Azərbaycanda bu fəlsəfənin milli yaradıcılıq təsirindən bəhs etməklə kifayətlənirik.

XVIII əsr Şərq müsəlman dünyasının tənəzzülünü yaşasa da, Azərbaycan xalqında milli yaradıcılıq ruhunun tam sönməməsi, köləliyin ruha hakim olmaması, toplumun qürurunu yaşatması, şərəfini qorumaq, təhsilə, elmə can atması, elmi intellektual səviyəni yüksəltmək və s. mənəvi dəyərləri qoruması, xalq qarşısında cavabdehlik hiss edən ziyalının varlığı xalqın milli özünüdərki üçün bir ideya ehtiyacı aydın görünürdü. Bu ideya Ş.C.Əfqani fəlsəfəsində doğma xalqına təqdim olundu. Beləliklə, Ş.C.Əfqaninin milli-vəhdət fəlsəfəsində doğma türkcənin toplum üçün birinci birləşdirici, yaradıcı təməl əsas olmaqla milli özünüdərk, "Qurani-Kərim"dən doğan həmin din, elmi bilgilərə vahid yaradıcı impuls verən fəlsəfə, cəmiyət qarşısında öz borcunu bilən, funksiyasını icra edən sosial təbəqələrin olması və s. ideyalar, bu ideyaların həyta keçirilməsini təmin edən təsisatların yaradılması ilk dəfə Ş.C.Əfqani tərəfindən irəli

sürüldü. Ş.C.Əfqani nəzəriyəçi ideoloq olaraq qalmayıb, ideyalarının həyata keçməsinə bilavasitə rəhbərlik etməsi, onun fəlsəfəsinin sürətlə yaradıcılıq doğurmasının əsas səbəblərindən idi. Ş.C.Əfqaninin fəlsəfəsini birinci, sürətlə mənimsəyən doğma vətəni Azərbaycan xalqı, Azərbaycan türkləri idi. Bunun əsas səbəblərindən biri vətənində milli yaradıcılıq ruhunun tam sönməməsi idisə, digər səbəb onun sağlığında Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə fəlsəfəsini yetişməsi, onların ardınca onun fəlsəfəsini yüksək səviyədə yenidən işləyən M.Ə.Rəsulzadə kimi dahilərin yetişməsi idi. Ş.C.Əfqaninin ideyaları yalnız elmi, fəlsəfi, siyasi üslubda deyil, çox yüksək səviyədə obrazı yaradılaraq bədii əsərlər vasitəsilə sadə xalq dilində, xalq təfəkkürünə aşılanırdı. Elə bu səbəbdən də Ş.C.Əfqaninin ideyaları digər ölkələrlə müqayisədə Azərbaycanda sürətlə mənimsənilir və yaradıcı mənəvi qüvvəyə çevrilirdi (**5**). Beləliklə, milli problemlərə sistemli yaradıcı yanaşma yolu tutmağa nail olub, "Hələ iyirminci əsrin əvvəllərinə kimi Azərbaycan türkləri milli ədəbiyat, teatro, mətbuat və maarif məsələlərinə şüuru etmişlər" (**38, s. 14**).

XX əsrin əvvəllərində Azərbaycana milli həyata qarşı yönəlmiş, Rus imperiyasından daha təhlükəli, xəstə, nekrofil, cinayətkar təfəkkürün mhsulu sosialist ideologiyası daxil oldu. Avropa təhsilindən, həyat tərzindən, xəstə təfəkküründən doğan xəstə sosialist ideologiyası XIX əsrin sonunda Rusiyaya, Rusiyadan XX əsrin əvvəllərində Azərbaycana keçdi. Xəstə sosialist ideologiyası Rus xalqının tarixindən doğub, onun mentalitetinə çevrilmiş, keçmişinə nifrət psixologiyasına tam uyğun olduğundan sürətlə onun şüuruna hakim olub, dağıdıcı rus bolşevizmini doğurdu (**40**).

XIX əsrin üçüncü rübündən Azərbaycan neftini talama siyasəti yeridən Avropa və Rus imperializmi özlərinə milli-sosial baza yaratmaq məqsədi ilə Azərbaycana çoxlu xristian fəhlə, işçi qüvvəsi gətirib yerləşdirmişdi. Onların içərisində keçmişinə nifrət hissindən doğan dağıdıcı ruha malik ruslar, nekrofil ermənilər çoxluq təşkil edirdi. Elə bu səbəbdən də Azərbaycan, onun sənaye mərkəzi Bakı dağıdıcı kütlə ideologiyasının mərkəzlərindən birinə çevrilmişdi. Sosialist insanların bərabərliyi şüarı ilə pərdələnən Avropanın kriminal elementləri, mənsəbpərəstləri, milli satqınlar, macəraçıları, anormal düşüncə sahibləri RSD(b)FP-nin rəhbərliyində birləşmişdilər. Xüsusi mülkiyəti və onun sahiblərini məhv edərək ictimai mülkiyət təşkil edib, ondan hamının eyni dərəcədə − bərabər yararlanması şüarı altında hakimiyyətə, sahibkarlara qarşı mübarizəyə başladılar. İnsanların, xalqların bərabərliyi, bütün dünya xalqlarının bərabər yaşayacağı, sosializm quracağı şüarı ilə çıxış edən xristian sosial-demokrat rəhbərləri və xristian fəhlələr də türk-müsəlman fəhlələrini, bütövlükdə xalqını ikinci dərəcəli toplum kimi qiymətləndirirdi. Bu yanaşma türk-müsəlman fəhlələrin heysiyətinə toxunurdu (**42, s. 278**).

Vahid dəyərlərə malik xalqı siniflərə bölən xüsusən onun ziyalı, zadəgan yaradıcı təbəqəsini sinfi düşmən kimi şüurlara təlqin edən RSD(b)FP-nin türk-müsəlman fəhlələri xristian fəhlələrlə müqayisədə ikinci dərəcəli hesab etməsi bütün Azərbaycanı əhatə edən böyük bir sosial təbəqənin (fəhlələrin) milli və

siyasi şüurunun aydınlaşması və passiv kəndli təbəqəsini də oyatması, milli ideallar uğrunda səfərbər etməsi üçün təkanverici hadisə idi. Bu ideologiyanın Azərbaycana gəlişinin ilk 2-3 ilində azərbaycanlı gənclər bu ideologiyanın təsirinə düşüb, sosial-demokrat təşkilatlar yaratmağa meyl etsələr də, tezliklə ondan uzaqlaşdılar, bu ideologiyadan qəti imtina etdilər. XX əsrin əvvəllərində Azərbaycana daxil olan sosial-demokrat (rus bolşevik) ideologiyasından qəti imtina edilməsi Mütləq ruhun ilk doğuşundan Azərbaycanda doğan tarixi yaradıcılıq ruhunun burada zəifləsə də, kəsilməz yaşamının nəticəsi idi. Elə bu səbəbdən də Azərbaycan xalqını təşkil edən bütün sosial təbəqələr vahid orqanizm kimi xəstə təfəkkürün məhsulu olan yad sosialist ideologiyasından imtina etdilər. Azərbaycanın bütün türk-müsəlman əhalisi seçkilərdə ancaq milli qüvvələrə səs verdi (**8, s. 214, 241**).

1920-ci il 27 aprel işğalı zamanı N.Nərimanovun rəhbərlik etdiyi azərbaycanlı bolşeviklərin sayı 300 nəfərdən artıq deyildi (39, 92). Tarix aşkarladı ki, bunlar ictimai əmlakı talamaqla eyş-işrət içərisində yaşamaq arzusunda olan "macəraçılar" idi. İki milyonluq xalqın içində 300 nəfər xəstənin olması çox böyük göstərici olmasa da, artıq millət üçün yaşatdığı faciədən tarix özü danışdığından, burada əlavə bəhs etməyə ehtiyac yoxdur.

Rus imperiyasının mədəni həyatında dərin izlər buraxan 1905-ci il inqilabına qədər Azərbaycan xalqına milli mənlik şüuru, özünüdərk doğuran, dövrün tələblərini xalqın diqqətinə çatdıran ədəbiyat, teatr, mətbuat, maarifin əsaslarının yaradılmasının nəticəsi idi ki, inqilabın elə ilk günlərində xalq dövlət idarələrində, ictimai yerlərdə onun tatar, dilinin tatar dili adlandırılmasına qəti etiraz etdi, məhz Azərbaycan türkü adlandırılmasına nail oldu (**37, s. 27**).

İnqilabi şəkildə milli özünü adlandırma, milli mənlik şüuruna keçid Azərbaycan xalqının milli ideallar naminə təşkilatlanmasına vüsət verdi. Əlbəttə, bunun çoxsaylı səbəbləri arasında Ş.C.Əfqaninin milli vəhdət fəlsəfəsini milli ideologiyaya çevirmiş tələbələri Ə.Ağaoğlu və Ə.B.Hüseynzadənin Azərbaycan milli hərəkatına rəhbərlik etməsi idi. Məhz onların 1905-ci ildə birbaşa "Həyat" və "Kaspi", "Füyuzat" qəzetlərinə rəhbərlik (redaktorluq) etməklə Ş.C.Əfqaninin milli vəhdər fəlsəfəsi əsasında yaradılan milli-mənəvi həyatın canlandırılması və təşkilatlandırılması idi. Çarizmin bütün müqavimətinə baxmayaraq, milli mətbuat vasitəsi ilə milli həyatın canlandırılması elə vüsət aldı ki, 1906-cı ildən 1918-ci ilə qədər 12 il müddətində milli ideologiya zəminində 60-a qədər qəzet və jurnal nəşr olundu (**38, s.15**).

Artıq 1905-ci il inqilabı başlayanda aydın milli şüura malik ziyalı, zadəgan, fəhlə, kəndli, tacir, doğma ata kimi çıxış edən milli burjuaziyadan ibarət, "türkləşmək, islamlaşmaq, müasirləşmək" müddəalarından ibarət yaradıcı milli fəlsəfə zəminində vahid orqanizmə çevrilmiş Azərbaycan türklüyü var idi. Toplumun idrak təcəssüm etdirib milli iradə nümayiş etdirə bilməsi üçün fəlsəfi, ideoloji və siyasi liderin zəruriliyini nəzərə alsaq, Azərbaycan türklərinə dövrün Ə.B.Hüseynzadə və Ə.Ağaoğlu kimi böyük dahilərin rəhbərlik etməsi onun tərəqqi yoluna çıxmasının əsas səbəblərindəndir.

Təəssüf ki, kommunist Rus sovet tarixçiliyinin tərkib hissəsi olan Azərbaycan sovet tarixçiləri xalqımızın mənəvi və ərazi itkilərindən məlumat vermədən XIX əsrdə xalqımızı tam tənəzzül etmiş, ilk öncə çar Rusiyasının əsarətində bir qədər mədəniləşmiş, XX əsr kommunist Rus əsarətində "çiçəklənən" bir xalq olduğundan bəhs edirlər. Hansı ki, Azərbaycan xalqı Rus əsarətinə qarşı mübarizə şəraitində XIX əsrdə milli tərəqqi yolunu qoruyub yaşadan böyük bir nəsil − şair, yazıçı, pedaqoq, tarixçi, filosof − yaradıcı ziyalı yetişdirmişdir. XIXəsrin sonu XX əsrin əvvəllərində Azərbaycan xalqının milli-mənəvi yaradıcılığı nəinki öz tələbatını ödəmişdi, bəşər mədəniyətini qidalandırıb zənginləşdirmək səviyəsinə çatmışdı. Xüsusilə tənəzzülə düşmüş xalqların mənəvi-sosial, ideoloji-siyasi terapiyası sahəsində yaradılmış elmi, fəlsəfi, tarixi, əsərlər bəlkə də dünyanın heç bir xalqı tərəfindən yaradılmamışdır. 1905-ci il Rus inqilabı başlayanda tarix özü buna şahidlik etdi. Rus inqilabı Avropa burjua inqilablarından fərqli, Avropa dövlətlərinin, siyasi xadimlərinin planlı yönəltdiyi sosialist-proletar inqilabı idi (40). Belə ki, inqilabi hərəkatı demokratik quruculuq uğrunda burjuaziya deyil, RSD(b)FP-nin rəhbərlik etdiyi azadlıq, demokratiya haqqında heç bir təsəvvürü olmayan rus proletariatı sosial ədalət demoqoqiyası ilə başladı. Fəhlə hərəkatının təsiri altında çarın güzəşti ilə Rusiyada burjua partiyaları yarandı və liberal islahatlar uğrunda mübarizəyə qoşuldu. Çarizmin bu güzəştlərindən rus burjuaziyasından əlavə məhdud səviyədə əsarət altına salınmış xalqlara da aid edildi. Odur ki, məhkum xalqların burjuaziyası, ziyalı və zadəganı da bu güzəştdən cüzi istifadə edə bildi.

Azərbaycanın sənaye mərkəzi Bakı Sankt-Peterburqdan sonra Rus imperiyasının ikinci proletar mərkəzi kimi qiymətləndirilsə də, inqilab 1903-cü ilin yayında buradan başladı, 1904-cü ilin dekabrında burada "mazut konstitusiyası" adlandırılan hakimiyətin güzəştə məcbur ediməsindən sonra 1905-ci ildə bütün imperiyanı əhatə etdi. İnqilabın gedişində dünya proletariatının vahid birliyi şüarı ilə çıxış edən RSD(b)FP nəinki türk-müsəlman xalqların fəhlə və digər zəhmətkeş zümrələri ilə müttəfiqlik qurur, onların sıxışdırılmasında çarizmlə müttəfiq kimi çıxış edirdilər. İnqilabi proses bütün Qafqaz hüdudunda çarizmlə RSD(b)FP-nin müttəfiqliyi şəraitində milli qırğınla müşaiyət olunurdu. Ermənilər Qafqazda türk-müsəlmanların qırğını üçün çarizmin vasitəçisi olduğu kimi, RSD(b)FP-nin də aləti idi. Həyasızlıq o dərəcəyə çatmışdı ki, inqilabın ilk günlərində ermənilər Bakıda Ramana, Balaxanı, Suraxanı, Zabrat və b. ərazilərdən azərbaycanlı kəndliləri doğma torpaqlarından köçürülməsi tələbi ilə çıxış etməklə bərabər, bunun ardınca özlərinə məxsus qorxu və vahimə yaratmaq taktikası tətbiq etməyə başladılar. Bütün Qafqazda ermənilər vasitəsi ilə kütləvi milli qırğın başladı. Çarizmin bu amansız təcavüzü, irqçiliyi RSD(b)FP-nin beynəlmiləlçiliyi ilə üst-üstə düşürdü. Təcavüz o qədər amansız idi ki, türk-müsəlmanlar üçün vəziyət çıxılmaz görünürdü. Vəziyəti dərindən təhlil edən Şərq və Qərb fəlsəfəsinə mükəmməl yiyələnmiş, Şərq inqilabı fəlsəfəsinin yaradıcısı, Ş.C.Əfqaninin yaradıcı tələbəsi, mənəviyat qanunlarını dərindən bilən Ə.Ağaoğlu bildirdi ki, təcavüzün qarşısı alınmasa, qorxu xalqın ruhuna hoparsa,

bu millətin sonu olacaq. Bir an gözləmədən fəaliyətə keçilməlidir. Beləliklə, Ə.Ağaoğlu "öz həyatından əl çəkəcək dərəcədə" (**43, s. 21**) təhlükəyə atılaraq, düşməni dəf etmək üçün xalqı səfərbər etmə təşəbbüsünə girdi. İlkin olaraq problemi qanun və hüquq çərçivəsində həll etmək üçün Qafqaz canişini Voronsov-Daşkovun qəbuluna Ə.Ağaoğlu başda olmaqla millət vəkilləri Kərbəlayı İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Məmmədağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər Xanməmmədov, Ədil xan Ziyadxanov və b. ibarət nümayəndə heyəti təşkil olundu. 1906-cı il fevralın 20-də Qafqaz canişini Voronsov-Daşkov erməni nümayəndələri ilə birlikdə Azərbaycan nümayəndə heyətini qəbul etdi. Qafqaz canişini etiraf edir ki, o, bütün hadisələrdən xəbərdardır, Daşnaksütyunun terror fəaliyəti qarşısında rus hökuməti acizdir. Azərbaycan nümayəndə heyəti bütövlükdə qətiyətli idi. Lakin Ə.Ağaoğlu tamamilə fərqli idi. Canişinin dediklərinə cavab olaraq Ə.Ağaoğlu ona bildirdi: "İndi ki, belədir, indi ki, bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub və hökumət adamları bunu bilib və nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər. Bizim istər hökumətdən, istər ermənilərdən belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəlləh partiyamız olsun. Bizim də gərək daşnasütyunlarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə, yoxsa ki, hərc-mərclik olar" (**44, s. 114-115**). Sözləri birbaşa Qafqaz canişinin üzünə deyən Ə.Ağaoğlu "özümüz öz əlacımızı edərik" sözlərini xüsusi vurğuladı. Tiflisdən qayıdan Ə.Ağaoğlu Gəncə şəhərində ziyalı və zadəganların iştirakı ilə "Qafqaz Müsəlmanlarının Müdafiə Komitəsi" adlandırılıan "Difai" (Müdafiə) partiyasını yaratdı. "Difai" xəbərdarlıq edərək bildirdi ki, "Daşnak partiyası əmin olsun ki, heç vaxt biz öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol vermərik" (**36, s. 121-122**).

"Difai" partiyası rəsmi surətdə bildirdi ki, türk və müsəlmanlara qarşı terrorla məşğul olan ermənilərlə bərabər, onları bu işə təhrik edən rus idarəsinin yüksək vəzifəli məmurları və yerli satqınlar da aradan götürüləcək (**36, s. 124**). Qısa müddətdə Azərbaycanın bütün şəhər və bölgələrində "Difai" partiyasının ilk təşkilatları yaradıldı, erməni terroruna qarşı kütləvi mübarizəsi başlandı. Qısa müddətdə vətənində xalqına saymazlıq göstərən ermənilər, rus imperiyası məmurları və yerli milli satqınlara Azərbaycan türklərinə məxsus sahibinə düzgün qulluq göstərməyən itlərə tətbiq olunan elə bir qulaqburması tətbiq olundu ki, çarizmin yerli nümayəndələri, ermənilər, milli satqınlar yeri və rəhbərliyi heç kimə məlum olmayan "Difai" partiyasının qanunları ilə razılaşmalı, bir dövlət kimi hesablaşmağa məcbur oldular. Gəncə (Yelizavetpol) qubernatoru Qafqaz canişininə raportunda yazırdı: "Bir neçə ay bundan əvvəl belə bir partiyanın mövcudluğundan xəbəri olmayanlar da indi "Difai"ni tanıyırlar, hamı onun hərəkətlərini təqdir edir, ona inanır. Məhz buna görə də partiyanın nümayəndələrinə qarşı cəza tədbirlərindən çəkinirəm. Həm də hamı hər yerdə partiyanın üzvlərinin adını və hərəkətlərini son dərəcə məxfi saxlayır" (**45, s. 24**).

Bununla bərabər bir-birindən məharətlə istifadə edən ermənilər və Rus imperiyasının Bakı kəndlərinin neftlə zəngin doğma torpaqlarından köçürülməsi siyasətinə qarşı Ə.Ağaoğlu Sankt-Peterburq və Moskva məhkəmələrində apardığı mübarizə nəticəsində "Bakı müsəlmanlarının neft və mədən evləri öz əllərində qaldı" (**43, s. 21**).

Ə.Ağaoğlunun Vətən və millət qarşısında xidmətlərindən bəhs edən "Azərbaycan" qəzeti yazır: "Bizi İstanbul və Avropaya bildirdi, bizim də dünyada var olduğumuzdan lazım olan yerlərə xəbər verirdi..." (**43, s. 22**).

Göründüyü kimi, XVIII əsrdən Azərbaycan xalqının həyatında başlayan mənəvi tənəzzül onun dövlətçiliyinin parçalanması, milli müqaviməti lazımi səviyədə olmamasından rus imperiyası əsarətinə düşülməsi və elə bu vaxtdan A.A.Bakıxanovla başlayan milli varlığın bərpası istiqamətində mənəvi axtarışın M.F.Axundov tərəfindən bir qədər dərinləşdirilməsi, nəhayət Ş.C.Əfqani tərəfindən milli varlığı yaradan mənəvi sistemin obyektiv müəyyən edilməsi, fəlsəfi sistem yaradılması, bu sistemin Ə.Ağaoğlu və Ə.B.Hüseynzadə tərəfindən Azərbaycan xalqının mənəvi durumunun özünəməxsusluğuna müvafiq yaradıcı fəlsəfi sistem kimi yenidən işlənməsi və ruha aşılanması milli özünüdərk, bunun nəticəsi olaraq milli təşkilatlanma, milli iradə ilə varlığını dünyaya çatdırma ilə nəticələndi. "Difai" partiyasının yaranması milli həyatın bütün sahələrinin mənəvi-sosial sistemin işləklik səviyəsini, harmoniyasını, sosial qrupların ziyalı, zadəgan, burjuaziya, mülkədar, tacir, əkinçi, maldar, fəhlə, sənətkarların vəhdətdə vahid orqanizm səviyəsində olub millət olma iddiası üçün yetərli mənəvi enerji təcəssüm etdiyini göstərdi. Elə bu günlərdə Azərbaycan xalqının milli arzusunu, ona nail olma iradəsini göstərən digər ən böyük əməl Xeyriyə cəmiyətlərinin yaradılması, bu işdə imkanı və qabiliyəti olan bütün zümrə və fərdlərin göstərdikləri fədakarlıqlardır. Azərbaycanda ilk Xeyriyə cəmiyəti H.B.Zərdabi tərəfindən 1872-ci ildə çox çətinliklə yaradılıb. Üzvlük haqlarının kəsilməsi ilə qısa müddətə fəaliyətini dayandırsa da, 1905-ci il inqilabı günlərində Xeyriyə cəmiyətləri yaranır və onların sayı sürətlə artırdı. Təsadüfi deyil ki, bu günlərdə ilk Xeyriyə cəmiyəti "Hidayət"i də Ə.Ağaoğlu yaratmışdı. Cəmiyətin idarə heyəti H.Z.Tağıyev, İsa bəy Hacınski, Mir Məhəmməd Kərim, Molla Ruhulla, Mustafa bəy Əhmədov və b. ibarət idi. Bunun ardınca (1905) H.Z.Tağıyevin dövlətdən icazə alması ilə "Müsəlman Xeyriyə Cəmiyəti" yaradıldı. Cəmiyətin idarə heyəti H.Z.Tağıyev, Ə.Topçubaşov, Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə, İsmayıl bəy Səfərəliyev və b. ibarət dövrün qabaqcıl ziyalıları və milli burjua nümayəndələri idi. Bunun ardınca "Nicat", "Nəşri-maarif", "Səadət", "Ümid", "Səfa", "Cəmiyyəti-Xeyriyyə" və başqa cəmiyətlər yarandı. Artıq 1908-ci ildə təkcə Gəncədə 15 mədəni-maarif cəmiyəti fəaliyət göstərirdi (**41, s. 73**).

Xeyriyə cəmiyətlərində maarifçilik planlı, sistemli vahid dövlət siyasəti xarakteri daşıyırdı. Onların həyata keçirdiyi bütün tədbirlər milləti başqa xalqlarla rəqabətdə, varlığını qorumağa və yaşatmağa imkan verməyi nəzərdə tuturdu. Şəhər məktəbləri, gecə kursları türk-müsəlman öyrəncilərini qısa vaxtda peşəyə yiyələndirməklə texniki bilik tələb edən müəssisələrdə işlənə bilməsini təmin

etmək üçün təşkil olunurdu. Sənət məktəblərinin və "yetimlər məktəbi"nin açılmasının məqsədi haqqında deyilirdi: "bir sənət şöbəsi bulundurmaq, bununla... bir parça yemək üçün daha məsum çağlarında küçələrdə... başqalarının çəkmələrini silməklə, dilənməklə əxlaqsızlıq və tərbiyəsizlik çirkabları içərisində çürüyən... millət balalarının gələcəklərini, onların məişət yollarını təmin etməkdən ibarət idi". "Anaları, qadınları bisavad olan camaat kor kimidir" − deyən H.Z.Tağıyev Azərbaycanın cahil mollalarının müqavimətini qırıb Bakıda, ardınca əyalətlərdə qız məktəbləri açıb, maliyələşdirilməsini də öz üzərinə götürdü. 1906-cı ildə Tiflisdə təşkil etdiyi Qız məktəbinin işləməsi üçün 25 min manat toxunulmaz kapital ayırdı ki, bundan gələn gəlir məktəbin ehtiyaclarına sərf olunsun (**8, s. 204-205**).

Yuxarıda Azərbaycan xalqının mənəviyatına etdiyimiz ekskurs xalqın mənəvi varlıq (maddi və bioloji tərəfini inkar etmirik) olaraq tərəqqi və tənəzzülünün mənəviyatla bağlı olduğunu aydın göstərdi. İntellektual və milli xarakterinin zəifləməsi ilə XVIII əsrdə Azərbaycan xalqı tənəzzül edib, dövlətçiliyi parçalanıb, bir hissəsi Rus imperiyasının əsarətinə düşsə də mənəvi dəyərləri, həyat ruhu − yaradıcılıq ruhu tam sönmədiyindən rus əsarətinə qarşı dirəniş Azərbaycan xalqının hər nəfərinin (xəstə təfəkkürlü tək-tək fərdlər istisna olmaqla) qəlbində müəyyən səviyədə azadlıq ruhu doğururdu. Bu şüurdan Azərbaycan xalqının yeni nəsil ziyalı və alimləri yetişirdi. Ş.C.Əfqaninin milli mənəvi fəlsəfəsinin "faydalı elmləri yayan ziyalılar, cəmiyət üçün xeyirli fənlər təsis edən yaradıcı fazil və nur mənbəyi bu alimlər" Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə və başqaları mənəvi həyatı yaradıcılıq göstərəcək səviyəyə çatdırmaq üçün fərdlərin, sosial təbəqələrin hər birinin ruhunun və intellektinin qidalandırılması üçün təsisatları təşkil etdilər, ideyalar verdilər. Bu ideyalar Azərbaycan xalqının hər bir sosial təbəqəsinin ruhuna aşılandı, bu sosial təbəqələr − ziyalı, zadəgan, burjuaziya, tacir, kəndli, fəhlə, sənətkar və b vəhdət halına gəlib vahid arzu, ideyaya yiyələnməklə bəşər tarixində ilk dəfə dünya nizamının qurucusu kimi çıxış etmiş Böyük Türk irqinin varisi olduğunu dərk etdi. Milli özünüdərk, varisi olduğu mədəniyətdən, mənəviyatdan şüurlu qidalanma, milli mənəvi dəyərlərin, adət-ənənələrin, mənəvi normaların ölçüsü milli vicdanı oyatdı ki, bu vicdan, əxlaq hər kəsə daxilində köləliyi qadağan etdi. Azərbaycan türkləri sürətlə siyasi bir millət kimi təşəkkül etdi. Ş.C.Əfqaninin, onun yaradıcı tələbələri Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə və b. yaradıcı ideyaları və şəxsiyətləri Azərbaycan xalqının bütün sosial təbəqələrinin ruhunda milli qürur, ləyaqət və şərəfi ideyalaşdırır, bu ideyalar sürətlə vahid milli ideologiya kimi təşəkkül edir, milli bir coşqu yaradırdı. Bu milli coşqudan Azərbaycanın yeni ziyalısı − müəllim, filosof, alim, şair, yazıçı, dramaturq, musiqiçi, rəssam və s. doğulurdu.

1905-ci il Rus inqilabı sosial-siyasi, ideoloji bir zəlzələ olaraq imperiyanın zorla bir-birinə pərçim edilmiş divarlarını (mənəvi-ideoloji − X.X.) çatlatdı. Bu çatların qopub ayrılmasının qarşısını almaq üçün imperiya xalqlara söz, mətbuat, seçki və b.. hüquqlar verməklə güzəşt etdi, geri çəkildi.

Əsri duyan, milli mənlik şüuruna malik ziyalı və burjuaziyası olan xalqlar bu güzəştdən faydalandılar. Bu xalqlardan biri də Azərbaycan türkləri idi. Azərbaycan türkləri bütün XIX əsr müddətində Rus imperiyasına qarşı dirəniş prosesində Krım və Kazan tatarları ilə qarşılıqlı anlaşmada olmuşdular. 1883-cü ildə Krım tatarı İsmayıl Qaspıralının rəhbərliyi ilə "dildə, fikirdə, işdə birlik" ideyası yürüdən "Tərcüman" qəzetinin fəaliyəti prosesində Krım tatar və burjuaziyası ilə Azərbaycan türkləri sanki vahidləşəcək qədər eyni ideyaların daşıyıcısına çevrilmişdilər. Odur ki, Azərbaycan və Tatar ziyalı və burjuaziyası bütün türk və müsəlman xalqların imperiyaya qarşı mübarizədə müttəfiqliyinin yaradılması ideyası ilə çıxış etdilər. Ə.M.Topçubaşov, Y.Akçuraoğlu, İ.Qaspıralı, A.İbrahimov Ümumrusiya Müsəlmanlar İttifaqının yaradılması işinə başladılar. Beləliklə, 1905-ci il 15 avqustda Ə.M.Topçubaşov, İ.Qaspıralı və Y.Akçuraoğlunun rəhbərliyi və təşkilatçılığı ilə Nijni-Novqorod şəhərində Rusiya Müsəlmanlar İttifaqının təsis qurultayı keçirildi və Rusiya Müsəlmanlar İttifaqı təşkilatı yaradıldı. Növbəti qurultaya qədər təşkilatın proqram və nizamnaməsinin hazırlanması qərara alındı.

Ümumrusiya Müsəlmanlar İttifaqının ikinci qurultayı 1906-cı il 13 yanvarda Sankt-Peterburq şəhərində keçirildi. Qurultaya sədrliyi Ə.M.Topçubaşov edirdi. Qurultay onun yazdığı proqram və nizamnaməni qəbul etdi. Qurultay I Dövlət Dumasında Rusiya müsəlman deputatları fraksiyasının yaradılmasını qərara aldı və "Rusiya Müsəlmanları İttifaqı"nın taktikasını müəyyən etdi. I Dölət Dumasında milli hüquq və azadlıqlar uğrunda mübarizə aparan müsəlman millət vəkilləri Parlamentdə vahid fraksiyada birləşdilər. Fraksiyanın sədri Ə.M.Topçubaşov seçildi. Ə.M.Topçubaşovun rəhbərlik etdiyi müsəlman fraksiyası, onun azərbaycanlı millət vəkilləri I Dövlət Dumasında Rus imperiyasının milli mənəviyata qarşı yönəlmiş iyrəncliklərini ifşa edən ən mübariz nümayəndələr idi. Artıq onlar Azərbaycan xalqının istiqlal mübarizəsini Peterburqun Qış sarayına, I Dövlət Dumasının kürsüsünə gətirmişdilər. Millət vəkili İsmayıl xan Ziyadxanlı I Dövlət Dumasının tribunasından imperiyanın üzünə deyir: "Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bir əsr müddətində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq... Ölkəmiz istila edilən kimi dərhal varlığımıza təcavüz edildi". Sözünə davam edən İ.Ziyadxanlı Rus imperiyasının yüz illik qeyri-insani fəaliyətini, Qafqazda gedən erməni-müsəlman müharibəsində təşkilatçının o olduğunu imperiyanın üzünə dedi (**36, s. 126-130**). I Dövlət Dumasının tribunası yenicə yetişməkdə olan rus və əsarət altına salınmış xalqların millət vəkillərinin inqilab tribunasına çevrilməsilə onun qarşısında dayana bilməyən çar II Nikolay I Dövlət Dumasını buraxdı. Kadet partiyası buna etiraz etdi. Etiraz bəyannaməsi imzalayan deputatlar arasında Ə.M.Topçubaşov və İ.Ziyadxanov da var idi. Odur ki, onlar üç ay azadlıqdan məhrum edilməklə bərabər, bir daha deputat seçilmək hüququndan da məhrum edildilər. Çarizmin bu kimi təzyiqlərinə baxmayaraq, artıq Ş.C.Əfqaninin terapiyası Azərbaycan türklərinin mənəviyatında öz işini görmüşdü; milli ziyalının

Azərbaycan türkcəsini sağlamlaşdırması, bu dildə məktəb və mətbuatın yaradılması və b. mənəvi tədbirlər bütün sosial təbəqələri milli özünüdərkə çatdırmış, H.Z,Tağıyev başda olmaqla milli burjuaziya və ziyalının ciddi səyi nəticəsində "Azərbaycan türklərinin hər addımında qabaqlarına tikan düzən, işlərində maneə quran ruhanilər... onların kor tərəfdarlarının iradəsi sındırıldı" (**38, s. 21**).

H.Z.Tağıyevin vəsaiti hesabına Bakı qazisi Mir Məhəmməd Kərim "Qurani-Kərim"i Azərbaycan türkcəsinə tərcümə edib, nəşr edərək xalqın istifadəsinə verdi (38, 70). Bununla da İslam dini tədricən öz inam və etiqadlarını, əxlaqi və iradi dəyərlərini bərpa yönümü aldı, milli həyatın müxtəlif sahələrini deyil, onu bütövlükdə qiymətləndirən, milli mənəvi həyatın ən kiçik elementlərinin, hissə, yarımsistem və sistemlərin, hər bir sosial təbəqənin milli orqanizmdə funksiyasını bilən və onların fəaliyətini məqsədəmüvafiq uzlaşdırmağı və istiqamətləndirməyi bacaran, onları vahid ideyaya yiyələndirən "nur mənbəyi alimlər", milli "fəlsəfi ruh" yaratmış Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə və Ə.Topçubaşov kimi mənəviyata yaradıcılıq ruhu verən filosoflar yetişmişdir ki, artıq milli hərəkat, milli azadlıq, haqq və hüquqlar uğrunda mübarizə dönməz idi. Rus imperiyası türk-müsəlman xalqları əsarətə saldığı elə ilk gündən onların din və adət-ənənəsinə alçaldıcı münasibət göstərməsi, onlara qarşı xristianlaşdırma siyasəti yeritməsinə cavab reaksiyası olaraq xalqda dini hissləri və əməlləri gücləndirdi. Elə bu səbəbdən də inqilab illərində müsəlman birliyi, ittifaqı təbii bir proses kimi gücləndi və son nəticədə siyasi birliyə çevrildi. İmperiyada, xüsusən Azərbaycan kimi sənaye mərkəzləri xristianlarla məskunlaşdırılır, əyalətlərdə gözlənilməz hadisələr baş verir, milli qırğınlar törədilirdi. Vəziyəti təhlil etmək, ona nəzarət etmək üçün "Rusiya Müsəlmanlar İttifaqı"nın III qurultayı 1906-cı ilin 10 avqustunda Nijni-Novqorod şəhərində təşkil olundu. Qurultayda Ə.M.Topçubaşov və İ.Qaspıralının məruzələri xüsusi maraq doğurdu. Qurultay əvvəlki qurultaylarla müqayisədə daha canlı və siyasi cəhətdən mütəşəkkil keçdi, rəsmi olaraq təşkilatı siyasi partiya elan etdi. *Qurultayda 15 avqust hər il bütün Rus imperiyası müsəlmanlarının birlik günü kimi qeyd edilməsi qərara alındı. Bakı Rusiya imperiyası müsəlmanlarının mərkəzi elan edildi* (**36, s. 163**).

Bakı Ş.C.Əfqaninin şəxsində Azərbaycanda doğan yeni dövr Şərq intibahının ocağı kimi görünmədə idi. Elə bu səbəbdən də 1907-ci ilin 20 fevralında açılan II Dövlət Dumasında müsəlman fraksiyası daha mütəşəkkil idi. F.Xoyski və X.Xasməmmədov Dumanın müsəlman fraksiyasının büro üzvü idilər. Ə.M.Topçubaşov deputat seçilməsə də Dumanın müsəlman fraksiyasının işində yaxından iştirak edirdi. Həlledici, gərgin anlarda isə fraksiyanın iclaslarına şəxsən rəhbərlik edirdi. I Dövlət Duması kimi II Duma da inqilabi mövqe tutduğundan 3 iyun 1907-ci il tarixdə çar tərəfindən qovuldu. İmperiya əsarətinə saldığı türk-müsəlman xalqları "qeyri-yetkin" elan edərək, onların seçki hüququnu daha da məhdudlaşdırdı. Orta Asiya xalqlarını bütünlüklə seçki hüququndan məhrum etdi. III Dövlət Dumasına seçkilərdə Zaqafqaziya əhalisi-

nə cəmi 5 deputat yeri verilmişdi. Beləliklə, əvvəlki Dumalarda 46 millət vəkili ilə təmsil olunan müsəlman fraksiyası 1 noyabr 1907-ci ildə açılan III Dumasında 8 nəfərlə təmsil olunmuşdu. Dumanın müsəlman fraksiyasına yenə Ə.M.Topçubaşov rəhbərlik edirdi. X.Xasməmmədov Dumanın müsəlman fraksiyasının dövlətin türk-müsəlmanlara qarşı qeyri-insani siyasətini ifşa edərək, onlara vətəndaş və siyasi hüquqlar tələb edən ən inqilabi millət vəkili idi (**41, s. 71**).

1912-ci ilin noyabrın 10-da açılan IV Dövlət Dumasında Qafqaz müsəlmanları 27 yaşlı gənc millət vəkili M.Y.Cəfərovla təmsil olunurdu. Müsəlman fraksiyası 7 nəfərdən ibarət idi. Dövlət Duması yarandığı gündən ardıcıl olaraq dağılmaqda olan imperiyanı qoruyub möhkəmlətmək, əsarət altına alınmış xalqları, xüsusilə türk-müsəlmanları müxtəlif üsullarla kölələşdirmək, mənəvi-psixoloji cəhətdən simasızlaşdırıb məhv etmək siyasəti yeridirdi. Bütün qəddarlıqları ilə bərabər Duma senzuradan keçmədən söz demək mümkün olan yeganə müəssisə idi. Gənc Azərbaycan millət vəkili M.Y.Cəfərov Dumanın ən məhsuldar və inqilabçı, hökumətə etimadsızlıq göstərən deputatları sırasında idi. Əvvəllərdə olduğu kimi, IV Dövlət Dumasının fəaliyəti dövründə də Ə.M.Topçubaşov və b. Azərbaycan ziyalıları Sankt-Peterburqa gedib, müsəlman fraksiyasını yeni materiallar, mülahizələr, dəyişən şəraitə uyğun yeridiləcək yeni taktiki üsulların hesablanması və b. üsullarla kömək edirdilər (**46, s. 96-119**).

Azərbaycanın rus imperiyası əsarətində olan türk-müsəlman xalqların intellektual zəka mərkəzi olması bütün aydınlığı ilə görünürdü. *Bu dövrün, daha doğrusu Ş.C.Əfqaninin şəxsində yeni dövr Şərq intibahını doğuran Mütləq ruhun doğuşundan yaranan ən görkəmli dahilərdən biri M.Ə.Rəsulzadə idi*. O, 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində dini aristokratiyaya mənsub ailədə anadan olmuşdur. Atasından ilk və dini təhsil almış, dövrünün ənənəsinə uyğun ondan fars dilini mükəmməl öyrənmişdir. Bunun ardınca S.M.Qənizadənin yaratdığı və müdiri olduğu II "Müsəlman-rus" məktəbində oxumuşdur. Lakin ailənin maddi ehtiyaclarını ödəmək üçün uşaq yaşlarından işləməyə məcbur olur. Bir sənət öyrənmək məqsədilə Bakı Texniki Məktəbinə daxil olur, lakin burada təhsilini sona çatdıra bilmir. M.Ə.Rəsulzadənin bu məktəbdə təhsilini başa vura bilməməsi haqqında sovet məktəbi yetişdirmələrinin müxtəlif qeyri-obyektiv mülahizələri var. Həqiqət bundan ibarətdir ki, ailəsinin maddi ehtiyacı onu işləməyə məcbur etsə də, o, bir fəhlə peşəsi öyrənmək üçün bu məktəbə gəlsə də, istedadı bu təhsil müəssisəsinə sığmırdı. Çox yüksək yaradıcılıq qabiliyətinə və sonsuz milli duyğuya malik idi. Elə bu səbəbdən də sanki rus müstəmləkəçiliyinin düşməni kimi doğulmuşdu. Milli ruhu yad kimsəyə, hər hansı rusa sığınmanı qəbul etmədiyindən, Bakıda fəaliyət göstərən çarizmin qəddar düşməni RSD(b)FP-yə də qoşulmur. 1902-ci ildə özü müxtəlif litseylərdə oxuyan azərbaycanlı tələbələrdən ibarət müstəqil, milli gizli gənclik dərnəyini yaradır. 1903-cü ildə bu dərnəyi "Müsəlman Gənclik Təşkilatı"na çevirir. İmperiyanın milləti üzərindəki qeyri-milli, ruhu təhqir edən

əməllərini milli hissiyatı qəbul etmir, mənliyinə sığdıra bilmir, inqilabi bir çıxış yolu axtarırdı. O, bu haqda duyğularını yazıb həmvətənləri ilə bölüşmək istəsə də, bunu edə bilmirdi. Nəhayət bu cəsarəti ona oxucusu olduğu "Şərqi-rus" qəzetinin özündən gəlir" (**47, s. 62**). İlk məqaləsini "Şərqi-rus" qəzetinə göndərir. Məqalədə Bakı şəhəri İçərişəhər əhalisinin, hətta sıralarında M.Ə.Rəsulzadənin tanışlarının da olduğu azərbaycanlıların kişili-qadınlı hamısının Qubernator (Filarmoniya) bağında istirahət edərkən "ana dillərini pis bildikləri ruscaya dəyişmələri eyiblənir", (**47, s. 63**) sonda "Bakı əhlindən təvəqqe edilirdi ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa heç bir niyyət tutmasınlar" (**48, s. 12**). Qəzet məqaləni nəşr etməklə bərabər "təqdir və təşviqə səbəb olmuşdu" (**47, s. 63**). Beləliklə, bu hadisə gənc Əmində özünə, tutduğu yolun düzgünlüyünə əminlik yaradır.

Azərbaycanda Avropanın mütərəqqi sosial-demokrat donuna girmiş monarxist, irqçi və müstəmləkəçi RSD(b)FP-nin rus və Avropa burjuaziyası, dünyanı yenidən bölmək uğrunda mübarizə aparan böyük dövlətlər açıq, gizli Azərbaycan-Bakı nefti uğrunda mübarizə aparırdılar. Azərbaycanın sənaye mərkəzi Bakıda həyat anbaan siyasiləşir, Bakı siyasət qazanı kimi qaynayırdı. Bu siyasət fırtınası gənc, coşqun, vətənpərvər, millət sevər, təcrübəsiz M.Ə.Rəsulzadəni bir sahildən digər sahilə tullasa da, şüurunda çaşqınlıq yaradıb, bu siyasi fırtınada xalqına düzgün yol müəyyən etmək məcburiyətini bir an belə unutdura bilmirdi. Bakıda bütün münasibətlər anbaan siyasiləşirdi. Azərbaycan xalqının bu siyasi fırtınada milli yolunu azmaması, itirməməsi üçün siyasi bir partiyanın yaradılması zərurətini dərk edən M.Ə.Rəsulzadənin rəhbərliyi ilə və onun "Müsəlman Gənclik Təşkilatı"nın üzvləri 1904-cü ilin sonunda "Hümmət" təşkilatını yaratdılar, eyni adlı qəzetini nəşr etdilər. Qəzetin naşirlərindən biri M.Ə.Rəsulzadə idi. Təəssüf ki, M.Ə.Rəsulzadənin azərbaycanlı tədqiqatçıları onun inqilabi fəsliyətə RSD(b)FP-nin sosial-demokrat ideyasının təsiri altında başlaması qənaətindədirlər. Lakin onlar M.Ə.Rəsulzadənin yetərli dini − İslamı təhsilində insanların "azadlıq və bərabərliyi" ideyasının qırmızı xətlə keçməsini nəzərə almırlar. Təsadüfi deyil ki, M.Ə.Rəsulzadənin yaratdığı "Müsəlman Gənclik Təşkilatı" yaranmasından az sonra "Müsəlman demokrat "Müsavat" cəmiyəti adı ilə fəaliyət göstərmişdir (**41, s. 49; 51, s. 42**).

M.Ə.Rəsulzadənin RSD(b)FP ilə təması Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatının yaradılması (**50, s. 22**) səbəbləri və zərurəti onun aşağıdakı şərhində bütün aydınlığı ilə cavablandırılır. O, yazır: "Milli Azərbaycan hərəkatının hər dürlü siyasi, sosial, iqtisadi və kültürəl (mədəni) hərəkatları üzərində müəssir olan mərkəzi müəssirlər əksəriyətlə burada bulunurdu. Bakı sənayesində, petrol ocaqlarında çalışan işçilərin böyük bir qismi ilə orta məktəblərdə təhsil edən gəncliyin mühüm qismini Azərbaycan türkləri təşkil edirdilər. Bu səbəblə burada fəaliyətdə bulunan ümumi ixtilal və müxalifət cərəyanlarının yanında müstəqilən hərəkatda bulunan yerli və milli qruplarla təşkilatlar da vardı. O cümlədən, tərəfimdən təşkil olunmuş, üzvlərin müxtəlif rus liselərində və digər orta məktəblərdə oxuyan Azərbaycan türk tə-

ləbələrindən ibarət gizli bir dərnək vardı... Cəmiyət xüsusilə gənclik içindəki hər cür qaynaşma və birləşmələri öz nüfuzları altına almaq üçün rəqabət edən bolşeviklərlə menşeviklərin fürsət qaçırmayan propaqandistləri, təbii, bizim dərnəyə soxulur, hər necə olsa da, bizləri öz hesablarına qazanmaq istəyirdilər. Bolşevik fraksiyası Tiflisə nisbətən Bakıda qüvvətli idi" (**49, s. 13-14**).

İmperiya ilə bağlı Bakıda olan müxtəlif təmayüllü təşkilatlarla M.Ə.Rəsulzadənin əlaqələrinin səbəbləri, yaratdığı gizli dərnəyin RSD(b)FP təsirindən qorunması bütün aydınlığı ilə ifadə olunmuşdur. RSD(b)FP Bakı təşkilatı yarandığı gündən o da imperiya kimi yerli türk və müsəlmanlara, məhz yerli fəhlələrə ikinci dərəcəli adamlar kimi baxması, onların heysiyətini alçaltması aydın görünürdü (**42, s. 278**).

1905-ci il inqilabının başlanması ilə bolşeviklərin bu pərdəli siyasəti bütün çılpaqlığı ilə aşkarlandı. Odur ki, M.Ə.Rəsulzadə və arkadaşları RSD(b)FP ilə əaqəni kəsmək məqsədilə yaranışda sosial-demokrat əlamətləri kəsb etmiş "Hümmət" təşkilatını buraxdılar. Göründüyü kimi, M.Ə.Rəsulzadə milli istiqlal hərəkatına milli dəyərlər və təfəkkürlə gəlmiş, sürətlə bəşərin, insanlığın azad quruculuq ideyalarını mənimsəyən nurlu zəka sahibi olduğunu ardıcıl nümayiş etdirmişdir. Göründüyü kimi, 17 yaşından M.Ə.Rəsulzadə xalqın milli-mənəvi ehtiyaclarını təmin etmək üçün mənəvi, ideoloji, siyasi cəhətdən sürətlə ardıcıl təkmilləşmişdir. "Hümmət" təşkilatını yaradanda onun 20 yaşı vardı. Gənc M.Ə.Rəsulzadənin bu siyasi fırtına, milli təcavüz şəraitində milli yolu itirməməsinin hər kəsin görə bilməyəcəyi səbəbi vardı. Adi texniki peşə məktəbi təhsilini tam başa vurmamış M.Ə.Rəsulzadənin Avropanın qabaqcıl universitetlərində təhsil almış, istedadı ilə fərqlənmiş, siyasi təcrübəyə malik böyük dövlətlərə və siyasi güclərə arxalanan siyasətçilərə uduzmadan zəka gücü sayəsində bu təcavüzkar düşmən qüvvələr arasında milli yolu sevmək və xalqı buradan arzu olunan gələcəyə aparmaq onun Mütləq Zəka, Ruhla bağlılığından, missiyasından xəbər verir. Təsadüfi deyil ki, 18 yaşında yazdığı birinci məqaləsində xalqı yaradan və yaşadan iki mənəvi qüvvəni, elmi − intellekti və tərbiyə ilə yaradılan milli xarakteri müəyyən etmiş, həmvətənlərinə kiçik yaşlardan övladlarına aşılanmasını tövsiyə etmişdir.

XVIII əsrdə tənəzzülə uğrayan, lakin milli-mənəvi hüceyrələri tam ölməyən Azərbaycan mədəniyətinin A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi tərəfindən canlandırılan, Ş.C.Əfqani fəlsəfəsi ilə həyat ruhu almış bu mənəvi hüceyrələr birləşdi, bütövləşdi, sistemləşdi, yaradıcı qüvvəyə çevrilib milli istiqlal fəlsəfəsini yaratdı. M.Ə.Rəsulzadə Azərbaycanda, eləcə də türk dünyasında milli özünüdərk fəlsəfəsini yaradan Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu və bu fəlsəfənin hüquq sistemini quran, onu hüquq fəlsəfəsinə çevirən Ə.Topçubaşov kimi dahilərin yanında ilk əmək fəaliyətinə başlaması ona hüdudsüz yaradıcılıq təcrübəsi qazandırdı. M.Ə.Rəsulzadə Ş.C.Əfqaninin şəxsində Azərbaycanda Mütləq ruhdan doğan milli yaradıcı fəlsəfə ilə birlikdə, onun ruhundan doğuldu. Artıq Azərbaycanda Ş.C.Əfqani fəlsəfəsi ilə milli yaradıcılıq qazanmış, mənəvi inkişaf yoluna düşmüş məktəb, mətbuat, ədəbiyat, incəsənət, musiqi, "Qurani-

Kərim” təməlinə qayıtmada olan İslam dini vardı. Milli mənlik şüuruna dayanan milli ideologiya vardı. Milli həyatın yüksək təbəqələri tərəfindən kütlənin şüuruna aşılandı. Rus imperiyasının yaratdığı məşəqqətlərə, rəzilliyə, alçaltmalara qarşı inqilabi səviyədə milli qürur, yaradıcılıq göstərilirdi.

M.Ə.Rəsulzadənin “Kaspi” qəzeti mətbəəsində Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov mühitində, dövrünün ən yüksək mətbuat, elmi-siyasi, mənəvi-ideoloji şəraitində mürəttib kimi əmək fəaliyətinə başlaması mətbuatın texniki, ədəbi, hüquqi qanun və qaydalarının incəliklərinə yiyələnməklə bərabər, dövrün mətbuatı qarşısında duran mədəni-mənəvi, ədəbi-bədii, elmi, siyasi-ideoloji vəzifələri, buna çatmağın mənəvi qanunlarını da çox yüksək səviyədə mənimsədi. “Həyat”, “Füyuzat”, “İrşad”, “Tərəqqi”, “Təkamül”, “Yaddaş” və b. qəzet və jurnallarda müxtəlif janrlarda yazdığı yazıları ilə çıxış etdi. Mətbuatda fəal çıxış etməklə bərabər “Səfa”, “Nicat”, “Ədəbi yurd”, “Cəmiyyəti-xeyriyyə” və b. cəmiyətlərdə fəaliyət göstərməklə bütün sosial təbəqələrin milli arzu və istəklərinin canlı şahidi olmaqla real həyatdan aldığı materiallar əsasında müxtəlif qəzet və jurnallarda milli-mənəvi həyatın canlandırılması üçün ideyalar verən elmi-nəzəri, publisistik məqalələr nəşr etdirirdi. Dövrün mətbuatından məlum olduğu üzrə o, Azərbaycan xalqının bütün sosial təbəqələri, siyasi qüvvələri tərəfindən tanındığı kimi, Bakıda yaşayan qeyri-müsəlman xalqların nümayəndələri, imperiya dövlət orqanları, inqilabi-siyasi təşkilatlar tərəfindən də tanınır və dəyərləndirilirdi. RSD(b)FP rəhbərliyində terrorçu kimi məşhur olan İ.V.Stalinlə münaqişələrinə (“Hümmət”in RSD(b)FP-yə birləşdirilməsinə etiraz − X.X.) baxmayaraq, 1907-ci il sentyabrın 29-da Xanlar Səfərəliyevin Bibiheybətdə dəfnindəki mitinqdə İ.V.Stalin, Qafqazın başqa məşhur inqilabçıları ilə bərabər M.Ə.Rəsulzadənin də çıxış etməsi onun Azərbaycan inqilabı hərəkatında, siyasi qüvvələr arasında zəka və nüfuz sahibi olmasının göstəricisidir.

M.Ə.Rəsulzadə inqilabi fəaliyəti ilə paralel xalqda azadlıq, özünəinam hisslərini canlandırmaq üçün nəsr, nəzm, publisistika janrlarında mətbuatda ardıcıl çıxış edirdi. Nəhayət 1908-ci ilin dekabrın 5-də onun “Nicat” Xeyriyə cəmiyəti tərəfindən “Qaranlıqdan işıqlara” pyesi tamaşaya qoyulur. Bu əsərlə M.Ə.Rəsulzadə Azərbaycan dramaturgiyasında ilk dəfə açıq şəkildə Rus müstəmləkəçiliyinə qarşı çıxır, xalqı ilə üz-üzə danışır. Göründüyü kimi, dramaturgiya janrı təsadüfən seçilməmişdir. Çarizmə və erməni terroruna qarşı “Difai” təşkilatını yaradan Ə.Ağaoğlu imperiyaya qarşı hərbi-siyasi güc mənbəyi kimi qiymətləndirilmədə idi. 1907-ci ilin sonunda ölkədə inqilabi hərəkat dalğasının aşağı düşməsi ilə imperiya inqilabi qüvvələrə və onun liderlərinə qarşı hücuma keçdi. Çarizmin Azərbaycan milli qüvvələrindən məhvi üçün birinci hədəf seçdiyi liderlər Ə.Ağaoğlu, Ə.B.Hüseynzadə və M.Ə.Rəsulzadə idi. Göründüyü kimi, 23 yaşlı M.Ə.Rəsulzadə Azərbaycanda imperiyaya qarşı təhlükə yaradan inqilabi-siyasi lider kimi qiymətləndirilirdi. Ə.Ağaoğlunu hər an ölüm təhlükəsi izlədiyindən o, 1908-ci ilin sonlarında Vətənini tərk edib İstanbula sığınmağa məcbur oldu. Gənc M.Ə.Rəsulzadə Qacarlar monarxiyasına keçdi, 1909-cu ilin əvvəllə-

rində Ə.B.Hüseynzadə İstanbula mühacirət etdi. M.Ə.Rəsulzadə Qacarlar monarxiyasına gedərkən ölkədə ideoloji və siyasi ocağı Cənubi Azərbaycan, Təbriz olan inqilabi məşrutə hərəkatı vüsət almışdı. Odur ki, Qacarlar monarxiyasına daxil olan kimi M.Ə.Rəsulzadə rejimə qarşı mübarizə aparan S.H.Tağızadə, H.Nəvvab, S.Mirzə, S.M.Rza və b. siyasi mübarizlərə qoşulur. Səttarxan və Bağırxanla təmasda olur, onların rəhbərlik etdiyi məşrutə hərəkatında iştirak edir. Qacarlar monarxiyasında M.Ə.Rəsulzadə coşqun inqilabi situasiyanın iştirakçısı olmaqla bərabər, Azərbaycan türklərinin tarixi və müasir mənəvi durumunun dərki üçün əlverişli bir mühitlə üzləşir. Ona Azərbaycan türklərinin tarixi şöhrətini və müasir mənəvi ölüm səviyəsində duruma enməsinin səbəblərini öyrənməklə bu durumdan çıxmağın yollarını axtarmağa sövq edir. Qacarlar monarxiyasında ilk öncə "Tərəqqi" qəzetinin müxbiri kimi fəaliyət göstərən M.Ə.Rəsulzadə 1909-cu ilin mart-avqust aylarında bu qəzetdə "İran məktubları" rubrikası ilə 43 məqalə nəşr etdirir (**52, s. 298-444**).

Elə buradaca M.Ə.Rəsulzadənin yaradıcılığı ilə bağlı bir haşiyəyə çıxmağa ehtiyac duyuram. M.Ə.Rəsulzadə yaradıcılığına xeyirxah münasibətlə yanaşıb, onu gələcək nəsillərə təqdim etmək istəyənlərin hamısına böyük hörmətlərim var, elə bu əməllərinə görə onların qarşısında baş əyirəm. Lakin nəzərə almaq lazımdır ki, M.Ə.Rəsulzadə yaradıcılığı hər kəsin, nəinki orta və yüksək səviyəli elmlər doktoru, professorların, hətta bundan yüksək səviyəli alimlərin də, hər kəsin onun tədqiqatçısı olub, onu olduğu səviyədə şərh etməsi çətin işdir. M.Ə.Rəsulzadə türklüyün XX əsrdə bəşər tarixinə verdiyi elə bir bənzərsiz dahidir ki, dünyanın ən ağır mənəvi duruma düşmüş hər hansı bir xalqı onun müəyyən etdiyi üsulla qısa müddətdə özünü mənən bərpa edə bilər. Bu cəhətdən Qustav Le Bonun yaradıcılığından sonra M.Ə.Rəsulzadənin yaradıcılığı ilə müqayisə olacaq ikinci filosof yoxdur. Qustav Le Bondan sonra M.Ə.Rəsulzadə tənəzzülə düşmüş xalqların özünübərpa probleminin həlli üsullarını daha da zənginləşdirmişdir.

M.Ə.Rəsulzadənin dünyagörüşünə Qacarlar monarxiyası məşrutə hərəkatı mərhələsinin təsir etdiyini deyən tədqiqatçılar "Səttarxan hərəkatı" ifadəsi istisna edilərsə, heç bir mənəvi-ideoloji siyasi hadisədən bəhs etmədən onun dünyagörüşünün təməl əsasları ifadə olunmuş "İran məktubları"ndan bəhs edərkən "Bu məktublar əsrin əvvəllərindəki İran siyasi mühitini və böyük ədibin İrandakı fəaliyətini öyrənmək üçün son dərəcə qiymətli məxəzlərdir" və ya "M.Ə.Rəsulzadə ilkin vaxtlarda İranda "Tərəqqi" qəzetinin xüsusi müxbiri kimi fəaliyətə başladı. Xalqın güzəranının ağırlığı, mübarizliyi və qətiyəti onu ciddi maraqlandırırdı. M.Ə.Rəsulzadənin "Tərəqqi" qəzetində "İran məktubları" başlığı ilə çap edilən yazıları böyük diqqətə səbəb oldu". Bu kimi yanaşmalar və tədqiqatlarla M.Ə.Rəsulzadə zəkasına, nəinki fəlsəfəsini, jurnalistikasını belə heç kimə təqdim etmək olmaz, çünki mümkün deyil.

M.Ə.Rəsulzadənin milli fəlsəfəsinin təməl əsasları Qacarlar monarxiyasındakı həyatı və fəaliyəti mərhələsində aydınlaşır. O, burada türklüyün tarixi əzəmətinin abidələri ilə bərabər son ölüm nəfəsində olan xurafatı duyumu ilə

çulğalaşmış məşrutə uğrunda mübarizəsini, hara gedəcəyini bilməyən liderlərini, milli həyatın harasında olduğunu bilməyən, hara necə gedəcəyini bilməyən qəhrəmanı Səttarxanın fəaliyətinin; feodal-zadəgan zümrəsinin hakimiyətə yarınmaq üçün ölkədə heç bir islahatı dəstəkləməməsi; Azərbaycanda xalqın qızının, oğlanının namusuna təcavüz edən Rəhim xanın və onun kimilərin hakimiyət tərəfindən dəstəklənməsi; dövlət başçısı monarxın ingilis və rus müstəmləkəçiliyinin əlində oyuncaq olması, xalqına deyil, imperialistlərə xidmət göstərməyə hazır olması, xalqını rus kazaklarının talanına verməsi − bütün bu səhnələrin hamısına M.Ə.Rəsulzadə mənəvi ölüm hadisəsi kimi yanaşır. "Tərəqqi" qəzetinə 1909-cu il 3 avqustda göndərdiyi məktubunda Qacarlar monarxiyasının paytaxtı Tehran milli meydanı Topxanada edam cəzasını təsvir edərək yazır: "Dövrü sabiq xanlar ilə hesablaşmıyorlar, boğazlarından alıb dardan asıyorlar. Əhali bu edamlardan xeyli xoşlanır. Topxana meydanında yığılan cəmaətin halına diqqət yetirilirsə, *müstəbidlərin edamından bu dərəcə bir həzz apardıqları insanı heyrətə salıyor.*

İnsan nə qədər düşər, nə qədər alçaqlanarmış, cəmaət yanında böyük hörmətlərə, artıq şanlara dara olan bir "molla"nı alırlar da, haman cəmaətin alqışları altında boğazına tənab salıb dardan asıyorlar, kimsə etiraz etmiyor...

Axşam tərəfi qürub yaxınlaşıyor. Tehranın istisindən qaçıb zirzəmilərdə gizlənən əhali axşam kölgəsindən bilistifadə bayıra çıxmış "görək bu gün kimi asacaqlar" güman ilə Topxana meydanına yığılmış, kəsrət edilmişdir.

Meydandan qalxan ğubar Tehranı, quru havaya olduqca bulandırmış kəsafət vermiş, insan boğulur. Amma tamaşa üçün gələn cəmaət məhkum boğulunca boğula-boğula qalar da tamaşasını təkmil etmək istəyir.

İzdhamda böyük bir xəlcan və hərəkət görnüyor. Qarışqa kimi hərəsi bir tərəfə dartınır, boylanır, özünə hündür yer hazırlayır ki, asılacaq olanı iyicə görsün, tamam təfsilatı bilsin.

Nagah dar ağacının yanında cavan bir mücahid çıxıb əhaliyə ixtar ediyor ki, bu gün növbə seyyiati-qanuni şəkianə və iqdamati-irticapəstanə və məvazixəyanətkarənəsi ilə məşhur olan əmudi mütləqiyyət Şeyx Fəzullahdır.

Cavan xütbəsini təmam edər-etməz, "zindan-bad-məcazat" sədası asimanfərsa olyor.

Bu sədadan sonra izdiham bir daha xəcanlaşıyor. Yer üstə davada olanların mühacələridir eşidilir.

"Muzand, midavada" − deyə izdiham tamam qulaqlarını şəkləyir. Bütün nəzərlər dar ağacına tərəf olunur.

Nagah "zindanbad azad!", "zindanbad qanun" − deyə izdiham bir ağızdan olduğu kimi dad ediyor...

Tamaşadan geri qalmışları görürəm ki, qaça-qaça gəlir, gülyor, "zindabadi azadi", "zindanbadi-qanun Məhəmmədi" − deyə qışğırırlar.

Ümumi bir şadlıqdır.

Nə qədər bir təbəddül!..

Şeyx Fəzullahın oğlu Şeyx Mehdi dəxi atasının edamından xoşhaldır.

Bu adamı bir gün irəlidən tamam tehranlılar hər soqaqda, hər küçədə göryorlarsa, atasının edam olunacağından dolayı təbrik edər təhniyyət dilyorlar idi.

Bu isə tamam bu alqışları qəbul edib, cavabında "zindanbad mükafat", "əcazat" − deyə atasının cəzalanmasını lazım bilyor idi...

Şeyx Fəzullahdan sonra sabahı acudanbaşı dəxi dardan asıldı. Cəmaət haman hal ilə şadlıq ediyor, bu edamlardan nəhayət dərəcə razı qalıyor idi...

Zira böylə bir edam beynənnas bir bədxahlıq ihdas ediyor. Məsələn, axırıncı dəfə acudanbaşını asdıqda xırda uşaqlar gəlib ayağından tutub dartır idilər.

Cəmaət ilə bərabər bütün mətbuat dəxi edamları təqdir ediyor. Hansı qəzetəyə baxsanız, edam cəzasını təqdir edən bir ayeyi-Quraniyyə ilə başlanan birər məqalələr görəcəksiniz!.." (**52, s. 419-421**).

Göründüyü kimi, M.Ə.Rəsulzadə Qacarlar monarxiyasında "... Cəmaətin halına diqqət yetirilirsə, müstəbidlərin edamından bu dərəcə bir həzz apardıqları insanı heyrətə salıyor.

İnsan nə qədər düşər, nə qədər alçalarmış" − deyə gördüklərindən dəhşətə düşür.

Təəccübünü ifadə edərək yazır: "İnsan dəryaları fəth ediyor, suyu məğlub ediyor, fəqət bu vasitə ilə qitaəti-xəmsəyi zəmində cəzrairi-müxtəlifdə olan insanları bir-biri ilə rabitə və bənd edib dəhr ilə elədiyi mübarizədə müttəhid etmək əvəzinə bir-birlərinə hücum edib, yek-digərlərini nurlandırmaq, mərifətləndirmək üçün bilik, mərifət, hissi-bəradəri aparmaqları yerində, bir-birini tələf və məhv etmək məqsədilə aləti-naziyə və təxribiyyə daşıyorlar...

Əvət, təbiət insanların mədəniyətinə gülyor. Atəşin və müdhiş bir surətdə gülyor" (**52, s. 283-284**) deməsi gənc M.Ə.Rəsulzadənin hələ insanlığın − mənəvi varlığın mənəvi-ideoloji, sosial-siyasi qanunlarını bilmədiyi, sadəcə ülvi hisslərlə yaşayıb, daxilində özünün də bilmədiyi bir qüvvə onu şəxsi ehtiyaclarını unutdurub insanlığın bu naqisliklərini yox etmək üçün mübarizəyə atmışdır.

Gördüyü faciə və dəhşətlər, amansızlıq, ona qarşı olan təqib, yaşadılan məhrumiyətlər onu xalq üçün azad insan cəmiyəti quruculuğu idealından döndərə bilmir. O, mənəviyat qanunlarını mükəmməl bilmək zərurətini dərk edir. Bu məqsədə nail olmaq üçün Qacarlar monarxiyasında fəaliyət göstərmək dəhşətli olduğu qədər də insanlığın mənəvi həyatının müxtəlif çalarlarına daxil olmaq, onu öyrənmək üçün əlverişli idi. Beləliklə, Qacarlar monarxiyasında inqilabi fəaliyətində davam etməyə qərar verən M.Ə.Rəsulzadə Türk tarixinin trixi əzəmət nümunəsi Qacarlar monarxiyasında dini, mənəvi, intellektual səviyənin itirliməsinin acı, ağlasığmaz vəziyətlərinin şahidi olur. İnsan mənəviyatsızlığının, despotizmin bütün faciələrini ona açır, o, burada insanlığı yaradan və məhv edən mahiyətə daxil olmağa inadkarlıq göstərir. Şimali Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanda da azadlıq ruhunun, məşrutə hərəkatının onu doğma yurdundan didərgin salmış rus imperiyasının əli ilə boğulması M.Ə.Rəsulzadənin ruhunu sarsıdır. Vətəninin, Millətinin istiqlal ruhuna, mənliyinə təcavüz edən bu şər qüvvənin dəf edilməsi yolunu tapmağı öz

varlığının mənası kimi qiymətləndirir. Qacarlar monarxiyasındakı hərcmərclik, milli simasızlaşma, rus, ingilis imperiyası özbaşınalığı M.Ə.Rəsulzadə idealları-na inamsızlıq yaradıb onu ruhdan sala bilmir, onu hadisələri doğuran səbəbləri dərindən dərk etməyə istiqamətləndirir. Bu günlərdə Qacarlar monarxiyasında məşrutəçi və demokratik qüvvələrdə narahatlıq doğuran, onlarda ruh düşkün-lüyü yaradan hadisələrdən biri məşrutə hərəkatından sonra mülkədar və kiçik burjua təbəqələrinin − "Etidaliyn" partiyasını yaradaraq, monarxiyanı müdafi-əyə qalxması idi. M.Ə.Rəsulzadə ilk dəfə bu sualın cavablandırılmasında artıq mükəmməl bir filosof kimi çıxış edir, "Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi" kitabını yazır, əsər 1910-cu ildə Tehranın "Taros" nəşriyatında çap olunur (**53, s. 84-107**).

M.Ə.Rəsulzadə əsərdə bütün hadisələrin obyektiv və subyektiv səbəblərini göstərir, bunun əyani sübutu üçün tarixə ekskurs edir. Göstərir ki, anaxaqan-lıqdan ataxaqanlığa keçid mərhələsindən, ataxaqanların yanında fəal, qabiliyətli adamlardan ibarət bir zümrə yaranır. Dövlətin yaranması ilə bu zümrə daha da fəallaşır, hökmdarın yanında yer almağa, hakimiyətdən faydalanmağa çalışırlar. Milli dövlətlərə keçid, siyasi partiyaların yaranması ilə bu zümrə xalqlara adı xoş gələn partiyalar yaratmaqla, xalqın vasitəsilə, onu aldadaraq, hakimiyətə yarınır və ondan öz məqsədləri üçün istifadə edir. "Dünyanın mədəniyət tarixi və mədəni millətlərin təkamülünün gedişi bizim müddəamız üçün aydın sübut-dur. Hazırda müəyyən dərəcədə və qismən milli hökumət quruluşunda olan Av-ropa məşrutə və respublika dövlətlərinin hər biri hakimiyəti imtiyazlı sinfin cə-ngindən çox qanlar bahasına alıb öz əllərinə keçirmişlər" (**53, s. 86**).

M.Ə.Rəsulzadə ayrı-ayrı xalqların tarixində belə partiyaların çox olmasını misal gətirərək göstərir ki, "Etidaliyun" partiyasının adını eşidən kimi onun da hakimiyətdən bəhrələnmək üçün yaradıldığını düşündüm, məramnaməsi ilə ta-nış olan kimi düşüncəmdə haqlı olduğum aydınlaşdı. Bir də ki, hər hansı par-tiyanı ən yaxşı tanıdan onun fəaliyətidir. Qacarlar monarxiyasının "Etidaliyun" partiyası da müxtəlif xalqların bu mahiyətli ada malik partiyaları həmişə eyni əməlin sahibi olmuşlar. "Başqa məmləkətlərdə mühafizəkar və sağ firqələr bu kimi gözəl, xoşagələn aldadıcı adlar altında zühr etmişlər. Fəlsəfi təhsil nöqteyi nəzərindən mədəniyət tarixinə və dünya dövlətlərinin bu məsələnin həllindəki problemlərinin inkişafına diqqətlə yanaşsaq görərik ki, bu firqələrin belə tədbir-lərə əl atması təbiidir. Çünki adları onların əsas məqsədlərinə uyğun gəlir" (**53, s. 89**).

Qacarlar monarxiyasının "İctimaiyun" partiyasının yaranma səbəbləri və məqsədlərinə aydınlıq gətirən M.Ə.Rəsulzadə yazır ki, bütün bunlar azmış ki-mi, bir-birinə zidd Etidaiyun ideyalarını − İctimaiyun (sosialist) ideyaları ilə bir-ləşdirmək istəyirlər − yazaraq, bu ideologiyanın yaranma tarixi, ideoloji ma-hiyətini şərh edərək yazır: "Avropada sosialist adlanan "İctimaiyun" elə bir fir-qədir ki, yalnız Avropanın konservatorları deyil, hətta onların demokratlarını, liberallarını və radikallarını da "Etidaliyun" (mühafizəkar) sayaraq, onlarla mübarizə aparırlar. Bunlar (yəni sosialistlər) elə firqədir ki, təkcə siyasi bəra-

bərlik deyil, ictimai-iqtisadi bərabərlik də tələb edirlər. Bunlar Avropa məişətinin bütün kiçik və böyük məsələlərində nüfuzu olan kapitalizm üsul-idarəsinin əleyhinə çıxıb onu (kapitalizmi) Avropa, Amerika, Yaponiya və s. yerlərdə dağıdıb sosializm idarə üsulunu bərqərar etmək istəyirlər. Çünki onlar bütün bəşəriyətin səadətini sosializmdə görür və öz ali məqsədlərinə çatmaq üçün təkamül qanunu sosializm amalına uyğun bilərək, siyasi hakimiyəti mənafeyi olanlarla üst-üstə düşən siniflərə vermək istəyirlər" (**53, s. 93**).

Sosialist partiyaların ideologiyasından məlumat verən 25 yaşlı gənc, texniki peşə məktəbi tamamlayacaq təhsil almamış M.Ə.Rəsulzadə K.Marksın təkamülçü sosializmi, ondan sonra yaranan inqilabçı sosialist ideologiyasının sinifi, ideoloji, sosial-iqtisadi-milli-mənəvi əsaslarını dərindən şərh edərək yazır ki, onların "aralarında heç bir fərq yoxdur" (**53, s. 95**).

Sosialist ideologiyasını bütün incəliyinə qədər şərh edən M.Ə.Rəsulzadə yazır: "Əcəba! Yarım arşınlıq xətlə, tam iftizarla öz adlarına "İctimaiyun" sözünü də əlavə edən bizim (Qacarlar monarxiyası − X.X.) "etidaliyunumuzun" fəlsəfi nəzəriyələri mütərəqqi dünyanın sosialistləri ilə eynidirmi? Bizim mühafizəkarlarımız kapitalistlər əleyhinə mübarizə aparırlarmı? Onların fikri hakimiyəti proletariata verməkdirmi? İran qadınlarını çadradan çıxarıb Milli Məclis kürsüsündə oturtmaq istəyirlərmi? Onlar mülkədarlarln torpaqlarını zəbt edib, əkinçilər arasında bölüşdürməyə razılıq verirlərmi? Ölkə qanunlarını fəhlələrə yazdırmaq istəyirlərmi?"

Şərhinə davam edən M.Ə.Rəsulzadə yazır: "Onların məramnaməsinə baxmayaraq, hərəkətlərindən bizə məlumdur ki, onlar yuxarıdakı fikirlərə heç yaxın da deyillər və ola da bilməzlər. Çünki, əvvələn İranda Amerika və Avropa kapitalizmi yoxdur ki, sosialistləşib kapitalizm əleyhinə mübarizə edəsən, kapital və kapitalizm olmadığı üçün proletariatizm də yoxdur və mövcud olmayan bir sinfin hakimiyəti haqqında danışmaq da qeyri-mümkündür". Sosialist ideologiyasını dərindən təhlil edən M.Ə.Rəsulzdə birmənalı nəticə çıxararaq yazır: "Sosializmin həqiqətə çevrilməsi yalnız boş bir xəyaldır" (**53, s. 97**).

Tarixin təcrübəsinə, fəlsəfəsinə istinad edən M.Ə.Rəsulzadə yazır: "Amma biz heç vaxt siyasi hürriyyətin iksir gücünə, yəni ictimai və iqtisadi ziddiyyətləri məhv edərək bütün milləti müttəhid bir partiyaya çevirmək gücünə malik olduğunu güman etmirik. Dünyanın ilk azad məmləkəti və bir neçə yüz il öncə parlamenti olan İngiltərə hələ indi də bir partiyalı ölkə deyildir. Əksinə, hürriyət və azadlıq bir-birinə zidd olan partiyaların təşkilinə səbəb olmuşdur. Bütün Avropa millətlərinə inqilab və azadlıq nümunəsi olan Fransada da müxtəlif firqələr mövcuddur. Azadlıq olan ölkələrdə və fikirlərini açıq-aşkar mübadilə edən cəmiyyətlərdə aydındır ki, müxtəlif əqidə və fikirlər meydana çıxır. Azadlığın ilk günlərindən biri digərinə zidd partiyaların əsası qoyulur. Çünki, təbiət müxtəlif və fikirlər qarışıqdır" (**53, s. 101**).

Beləliklə, təbiətin, insanlıq tarixinin fəlsəfəsinə söykənən M.Ə.Rəsulzadə qəti əminliklə, ilahi uzaqgörənliklə doğma xalqının, o cümlədən bütün dünya xalqlarının iqtisadi və azadlıq mübarizəsinin gələcəyi haqqında qənaətini belə

ifadə edir: “Bəli, təkamül qanunu kainatın ən güclü qüvvəsidir. Onun tələbi ilə tarixin təkərləri sabit və müəyyən bir nizamla hərəkət edir. Onu öz hərəkətindən saxlaya biləcək bir qüvvə yoxdur. Bu təkərlərin fırlanmasına mane olmaq istəyənlər məğlubiyyətdən başqa bir nəticə əldə etməyəcəklər” (**53, s. 86**).

Yaradıcılığından göründüyü kimi, bu əsərə qədər məqalələrində insanlığın müəyyən hadisələrindən, mənəvi-ideoloji, sosial-siyasi və s. sahələrinin element, hissə və yarımsistemlərindən bəhs edən M.Ə.Rəsulzadə “Mühafizəkar və sosial-mühafizəkar partiyaların tənqidi” əsərində tarixə fəlsəfi sistem kimi yanaşmaqla azadlıq və istiqlalı millətlərin yaşayacağı təbii-milli qanun kimi qiymətləndirməklə bəşəri filosof kimi çıxış edir. Elə bu mənəvi zəka gücü ilə də milli həyatın canlandırılması və təşkilatlandırılmasının üsul və vasitələrini yaratmağa başlayır. M.Ə.Rəsulzadə 1909-cu ilin avqustunda xalq həyatının canlandırılması və təşkilatlandırılmasının birinci dərəcəli vasitəsi, aləti “İrani-Nou” (Yeni İran) qəzetini təşkil edir. Bu qəzetin həyatından yazan müəlliflər bildirirlər ki, “İrani-Nou” qəzetinin imtiyaz sahibi Seyid Məhəmməd Şəbüstəri (Əbu Ziya), Baş redaktoru isə M.Ə.Rəsulzadə idi (**51, s. 46**).

”İrani-Nov” qəzetinin 23 avqust birinci sayında qəzetin gücündən bəhs edərək “Qəzetin qüvvəsi qala dağıdan və qranit deşən toplardan çoxdur. Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur. Dili olmayan isə dilənçi və möhtacdır. Biz insanlar ki, qəzetimiz yoxdur, beynəlxalq aləmdə cənub və şimal qonşuların informasiya tör-töküntülərini yeyirik. Hər sahədə ehtiyac olub, əlimizi ona-buna açırıq. Məgər bu sahədə dilənçi deyilik?” − deyə yazan M.Ə.Rəsulzadə təşkil etdiyi bu qəzetin İran xalqının mənəviyatında boşluq yaradılmış bütün sahələrdən ayrıca bəhs edir, onun qidalandırılmasını qəzetin qarşısında duran əsas vəzifə olaraq seçildiyini bildirir (**53, s. 7-9**).

Qacarlar monarxiyasında xalqların azadlıq, istiqlal mübarizəsinin sistemli, səmərəli mübarizəsinin təşkili məqsədilə S.H.Tağızadə, H.Nəvvab, S.Mirzə, S.M.Rza və b. ilə birlikdə İran Demokrat Partiyasını yaradır və Mərkəzi Komitəsinin üzvü seçilir. Təsadüfi deyil ki, partiyanın məramnaməsini M.Ə.Rəsulzadə yazmışdır, partiyanın bir çox iclaslarını o idarə etmişdir. Bu partiyanın fəaliyətindən bəhs edən dövrün yazarları göstərirlər ki, onun təşkilatçısı Heydər Əmioğlu olmuşsa, partiyanın əsas nəzəriyəçisi M.Ə.Rəsulzadə idi. Göründüyü kimi, artıq 25 yaşlı M.Ə.Rəsulzadədən müasirləri nəzəriyəçi kimi bəhs edirlər (**51, s. 45**).

Vətənini əsir etmiş, millətinin ruhuna təcavüz etmiş, özünü yurdundan didərgin salmış rus imperiyası M.Ə.Rəsulzadənin ürəyinə sancılan, qəlbini ağrıdan, mənini sarsıdan şər ruh idi. Fövqəl qəhrəmanlığı ilə ona bu ağrını unutduracaq qədər qürurlandıran, gələcəyə ruhlandıran insanlığın idealı uğrunda Səttarxan hərəkatının ordu deyil, pozqun küçə toplantısı rus kazakları vasitəsilə məhv edilməsi M.Ə.Rəsulzadə ruhunu, iradəsini zədələyəcək, əlindən alacaq dərəcədə yeni sarsıntıya məruz qoydu. O, çətinliklə də olsa, bu sarsıntıdan çıxıb özünü psixoloji cəhətdən bərpa edə bildi, inqilabi fəaliyəti, insan ruhuna fəhmi

yeni vüsət aldı. Fəaliyətinin inqilabi mövqe tutmasında "İrani-Nou" qəzeti mühüm rol oynadı. Artıq onun "İrani-Nou" qəzetində nəşr etdirdiyi məqalələrində yeni səviyə, təsir gücü aydın görünür. Yazılarının mənəvi təsir gücü insan ruhunun ən incə məqamlarına qədər işləyir. Artıq o, bütünlüklə ruh adamı, yaradıcı filosof kimi təcəssüm edir. Bu cəhətdən 1910-cu il 14 yanvar tarixdə "İrani-Nou" qəzetində nəşr olunan "Şər arvadlar" məqaləsi son dərəcə təsirlidir. M.Ə.Rəsulzadə düzgün olaraq yazır ki, spirtli içki şərin anasıdır. Övlad verən ananın deməli əri də var, o da şərdir. Axı, şərin anası tək şərab deyil. "Beləliklə, mən o fəlsəfəyə inanıram ki, xəbisliyin anaları vardır. Bunlardan biri də çox barlı-bəhrəli olan işsizlikdir. Bəli, işsizlik şərin birinci, beş hərəmidir, "öz qadıncığazlarını İranda tapmışdır... Bu qədər gördüyünüz rəngarəng dilənçi və müxtəlif cinsli gədaların hər biri cürbəcür oyun və hoqqabazlıqla alçaqcasına hər kəsə əl açırlar, rəzalət dilini hamının hüzurunda işə salır və rüsvayçılıqla dolanırlar. Bunların hamısı şərin sevimli övladlarıdır, işsizlik anasından doğulublar. Bəziləri söz gəzdirmək, fitnəkarlıq, casusluqla məşğuldurlar. Bunlar Tehranda o qədər artmışlar ki, hətta bir qismi xarici səfirlərin siyasi məqsədlərinə, o birisi "ruhani"lərin dığdığına, üçüncüsü şeytanpərəstlərə qulluq edirlər, dördüncüsü isə qorxulu yalan xəbərlərlə aləmi bir-birinə vurub, meydan qızışdıranlara alət olublar. Bunlar hamısı hiyləgər işsizliyin əziz balalarıdır"... Şəri aradan qaldırmaq üçün M.Ə.Rəsulzadə yazır: "Şəri məğlub etmək və ailəsini dağıtmaq üçün arvadlarının sayını azaltmaq lazımdır. İlk aradan götürüləsi qadın işsizlikdir. Onun çarəsi nə qədər tez olsa, bir o qədər yaxşıdır" (**53, s. 34-35**).

Beləcə, M.Ə.Rəsulzadə Qacarlar monarxiyasında hamının gözü qabağında olan, lakin bu həyata vərdiş etdiklərindən hər kəsin görüb qiymətləndirə bilmədiyi işsizliyin böyük mənəvi faciələri ilə bərabər eyni ilə hamının gördüyü, lakin dəyərləndirə bilmədiyi bəşəriyətin böyük hadisələri haqqında cəmiyətə xəbərdarlıq edib yazırdı: "Belə görünür ki, bütün dünyanın işləri bir-birinə dəyib, əlaqələr kəsilir. XX əsrdə dinclik və rahatlıq barədə düşünmək olmayacaq. Bir qovğa qurtarmamış, ayrı bir inqilab başlayır, siyasət aləmi günbəgün dəyişir. Siyasət səmasının qaranlıq üfüqündən sabah hansı ulduzun parlayacağını və teatr pərdəsinin arxasından aktyorların hansı birbaşa bu oyun səhnəsinə daxil olacağını heç kəs bilmir". Şərhinə davam edən M.Ə.Rəsulzadə dünya dərdləri içərisində Qacarlar monarxiyasının vəziyətindən bəhs edərək yazır: "Lakin hər nə olursa-olsun, bizim ulduzların üfüqləri qaranlıqdır... Əcnəbi qoşunlar heç bir səbəb olmadan hələ də bizim ölkədə qalmaqdadır və getmək xəyaında deyillər. Nə vaxt ki, bu barədə müzakirə olur, bizim dost və düşmənlərimiz yekdilliklə deyirlər ki, "ruslar İranı boşaldacaqlar" (**53, s. 12-13**).

Qacarlar monarxiyasının daxili və xarici həyatının hansı sahəsinə nəzər saldıqda burada yaranmış rəzalətdə Rus imperiyasının izi görünürdü. Odur ki, M.Ə.Rəsulzadə hansı mövzuda yazır-yazsın, rus rəzalətindən bəhs edir, Şimali Azərbaycanda sətiraltı dediyi sözləri burada bütün çılpaqlığı ilə deyirdi. Rus qoşunlarının nəzarətində olan bütün Qacarlar monarxiyası kimi M.Ə.Rəsulzadə də burada onun nəzarətində idi. Odur ki, "İrani-Nou" qəzetində M.Ə.Rəsulzadənin

fəaliyəti uzun sürmür, az vaxtdan sonra bir gün hərbi nazirliyin əmri ilə bir zabitin rəhbərliyi ilə 10 nəfər əskər onu nəzarətə götürmək üçün redaksiyaya gəlirlər. Beləliklə, M.Ə.Rəsulzadə "İrani-Nou" qəzetinin redaktorluğundan istefa verib, 1911-ci ilin mayında İstanbula getməyə məcbur olur. M.Ə.Rəsulzadənin "İrani-Nou" qəzetində fəaliyətini dayandırıb, bu ölkəni tərk etməyə məcbur edilməsində Qacarlar rejimi, Rus imperiyası ilə bərabər Böyük Britaniya imperiyasının da yetərincə təzyiqi onun yaradıcılığının, siyasi fəliyətinin böyük təsir gücünün nəzərə alınmasının, qiymətləndirilməsinin nəticəsi idi. M.Ə.Rəsulzadənin İstanbula getməsindən sonra "İran Demokrat Firqəsinin fəaliyətinin büsbütün pozulmuş və nizam-intizama əməl olunmamasından", həmçinin "İrani-Nou" qəzeti mövqeyini qoruyub saxlaya bilmədiyindən hər ikisinin fəaliyətini dayandırmağa məcbur olması M.Ə.Rəsulzadənin böyük mənəvi-ideoloji, siyasi təsir gücünə malik olmasının göstəricisidir. M.Ə.Rəsulzadə tarixdə bəlkə də heç kimlə müqayisə olunmaz zəka gücünə malik şəxsiyətdir. Texniki-sənət məktəbini başa vurmağa imkanı olmayan, Bakı mühitində fars və rus dillərini öyrənən 20-25 yaşlarında bir gəncin dünya tarixinə, ictimai və fəlsəfi fikrinə son dərəcə yüksək bələdlik, lazımi anda onlar üzərində müqayisələr aparmaqla yeni ideyalar yaratmaq, nəticələr çıxarmaq, ictimai elmlərdə bir insanın nail olması heyrət doğurur. Gənc M.Ə.Rəsulzadə mənəvi həyatı Hegel kimi fəhm edən nadir filosoflar səviyəsində zəka gücünə malik idi. Elə bu səbəbdən də Şimali Azərbaycanda 1905-1907-ci illər rus inqilabının ardınca Qacarlar monarxiyasında məşrutə hərəkatında iştirakı, burada mənəvi-sosial həyatın çöküşünün, mənəvi durumun canlı şahidi olması talant sahibinə bir insan və ya heyvan skeletində əzaların yerini, formasını, funksiyasını öyrənən zooloq kimi insanı bir fərd və toplum olaraq mənəvi varlıq kimi yaradan mənəvi element və hissələrin hər birinin ayrılıqda funksiyasını, vəhdətdə yaratdığı yeni keyfiyətləri, eləcə də bu dəyərlərdən hər hansı birinin itirilməsi, bütövlükdə bu sistemin pozulmasının yaratdığı mənəvi dəyişikliyi canlı müşahidə etmək şəraiti qazanmaqla mənəvi varlıq, onun müxtəlif durumu və səviyələri haqqında zəngin real biliklər qazandı. Qacarlar monarxiyası kimi İstanbul mühiti də M.Ə.Rəsulzadənin insanlığın, toplumun yaranma və yaşam qanununun dərki üçün təkanverici imkana malik idi. Qacarlar monarxiyası türk və müsəlmanlığın ölüm vəziyətinə çatana qədər tənəzzülü, mənəvi durumun, əxlaqın, dinin əcaib məzmun və forma almış durumunun müşahidəsi insanda məyusluq doğurmaqla bərabər, bu şəraiti yaradan səbəblərin axtarışına da sövq edirdi. İstanbulda bu xəstənin xilasına can atan, həyatını bu yolda qurban verməyə hazır düşüncə sahiblərinin ideyaları həqiqəti aşkar etmək üçün intellektual qida mənbəyi idi. Rusiya imperiyası əsarətində olan, istiqlal mübarizəsi aparan xalqların təqib olunan lider və fikir adamlarının, o cümlədən Qacarlar monarxiyasının təsirindən bura sığınan məşrutəçi və demokratik ideyalı şəxslərin türk və müsəlmanlığın xilası yolunda ardıcıl polemika və fikir mübadiləsi gedirdi ki, fəlsəfi düşüncə bu mülahizələr arasında ortaq məxrəci tapmaqla, türk və müsəlman xalqların mənəvi müalicəsinin üsulunu aşkarlamaqla onların gələcək yaşam yolunu müəyyən edə bilərdi.

Bu mühit 26 yaşlı gənc M.Ə.Rəsulzadənin milli-mənəvi həyatı − millətin yaranma və yaşam qanununun sistem halında obyektiv, elmi fəlsəfi düşüncəyə yiyələnməsi üçün çox əlverişli mühit idi.

Türkiyəyə gələndə M.Ə.Rəsulzadənin maddi durumu çox ağır olmuş, hətta ayaqqabısı belə yox imiş. İki ilə yaxın S.H.Tağızadənin mənzilində yaşayan M.Ə.Rəsulzadə ayda bir lirə əmək haqqı ilə fars dili dərsi deməyə məcbur olmuş, bu vəsaitlə yaşamışdır (**51, s. 49**).

M.Ə.Rəsulzadə Türkiyəyə gələndə türkçülüyün ilk azərbaycanlı baniləri, demokratik islahatçı liderləri Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu burada məskunlaşıb, rus imperiyasından mühacirətə məcbur olmuş türkçülərdən Y.Akçura, osmanlıdan Z.Göyalp kimi fikir nəhənglərinin üzvü olduğu "Cəmaləddinin ruhu məndə yaşar" − deyə hayqıran Məmməd Əmin Yurdagilin rəhbərlik etdiyi, 1908-ci ilin sonunda yaradılan "Türk Yurdu" dərnəyində, osmanlının, bütövlükdə türklüyün nicatını axtarırdılar. M.Ə.Rəsulzadə bu cəmiyətə daxil olanda mənəviyatını, ruhunu, təfəkkürünü qidalandıran, arzu etdiyi, axtardığı bir həyata qovuşdu. Burada təmasa girdiyi "Gənc türklər" təşkilatının liderləri və üzvləri, "Cəmaləddinin ruhu məndə yaşar" − deyə hayqıran Məmməd Əmin Yurdaqul, "Azadlıq nəğməkarı" kimi ad çıxarmış Məmməd Akif Ərsoy, türkçülüyün başqa poetik yaradıcıları ilə təmas ona yaradıcılıq ruhu verirdi. Bir sözlə bütövlükdə yaradıcı vətən, millət fədailəri mühiti türkçülüyün fikir istehsalçıları mərkəzində idi. Əslində bu dərnək Ş.C.Əfqani fəlsəfəsi zəminində yaradılan bir fəlsəfə cəmiyəti idi ki, onun aparıcı üzvləri də bilavasitə onun tələbələri idilər. Ş.C.Əfqani ilə bağlı əsas xatirələr də, onun ən mühüm əsərləri də elə burada toplanmışdı. Deməli, fəlsəfi ruhun mövcudluğu burada mütləq gələcəyə aparan yaradıcı ideyalar doğurmalı idi. Bu mühit 27 yaşlı gənc, zəka çevikliyi ilə həmişə diqqəti cəlb edən M.Ə.Rəsulzadə üçün yeni yaradıcılıq impulsu verəcəyi gözlənilən idi. Beləliklə, M.Ə.Rəsulzadə burada türkçülüyün elmi mərkəzi funksiyasında olan "Türk yurdu" dərnəyində fəaliyətə başlayır və onun 1911-ci ilin payızında fəaliyətə başlayan "Türk yurdu" jurnalı ilə əməkdaşlıq edir.

Yaradıcılığından göründüyü kimi, M.Ə.Rəsulzadə özü də yetərli bədii, poetik qabiliyətə, bu sahədə əsərlərə malik olsa da, kütlə, bütövlükdə xalq üçün daha cazibədar olan bu üslubu deyil, Türkiyədə bədii-poetik, publisistik, elmi-nəzəri, fəlsəfi formada çulğaşıq türkçülük ideologiyasında çıxış etməyin elmi-fəlsəfi formasını seçdi. Hətta bu fikir axınları içində onu "vəcdə gətirənlər" olsa da (**53, s. 28**) Vətəninin və Millətinin əsarətdən gördüyü acılar, məhrumiyətlər, mənəvi alçaltmalar 27 yaşlı gənc M.Ə.Rəsulzadəni soyuqqanlılığa məcbur edir, bu fikir axınları içərisində istiqlala yönəldən fikirləri tapmağa və ya onların vəhdətindən həqiqəti ifadə edəcək yeni bir fikir istehsal etmək istəyinə düşürdü. Dinlədiyi fikir axınları içərisində Ş.C.Əfqaninin istiqlal mübarizəsi haqqında xatirələr onu birinci olaraq Əfqaninin yaradıcılığı ilə ciddi tanışlığa sövq etdi. Əsərləri ilə ilk tanışlıqda Ş.C.Əfqaninin milli fəlsəfəsinin əsaslarını əks etdirən "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" əsərini farscadan türkcəyə tərcümə edib "Türk yurdu" jurnalında nəşr etdirdi. Onun bu addımı

Ş.C.Əfqaninin milli fəlsəfəsini yüksək qiymətləndirdiyindən, onun türk xalqları arasında sürətlə kütləvi yayılması istəyindən doğurdu. Tədqiqatçıların qənaətinə görə "Şeyx Cəmaləddin Azərbaycan ziyalıları arasında ən çox qiymətlənlərdən və əsərlərini tərcümə edib yayanlardan biri M.Ə.Rəsulzadədir. Onun nəzərində Şərqdən bu böyük mütəfəkkiri İslam dünyasının əvəzsiz mücahidlərindən və fədailərindən biri olmaqla bərabər, həm də "Şərqin inkişaf və tərəqqi bayrağını yüksəklərə qaldıranların" önündə dayanan bir dahidir" (**5,** s. **147**).

Beləliklə, biz M.Ə.Rəsulzadənin İstanbulda Ş.C.Əfqaninin əsərləri ilə tanışlıq və onun doğma türkcəyə tərcüməsi və türkçülük ideyası mühitində bir qədər yaşamasından sonra yazdığı əsərlərdə, ciddi dünyagörüş fərqi, daha doğrusu bitkin bir fəlsəfi təfəkkürün formalaşmasının şahidi oluruq. Bu cəhətdən onun dünyagörüşünün formalaşması haqqında Azərbaycan türk tədqiqatçılarından Aydın Balayevin "Əvvəlcə Rusiya, sonra isə İrandakı inqilabi fəaliyətinin nəticələrindən dərin məyusluq hissi keçirən M.Ə.Rəsulzadə məhz türkçülük ideyaları və Ş.C.Əfqaninin yaradıcılığının təsiri altında milli məfkurə və ideallara doğru həlledici addımlar atmış oldu.

İstanbulun həmin dövrdəki siyasi mühiti bütün bu illər ərzində Azərbaycan türkləri üçün "milli nicat yolu" axtarışında olan M.Ə.Rəsulzadənin siyasi baxışlarının qəti olaraq formalaşmasında həlledici rol oynadı" (**48, s. 23-24**) qənaəti ilə tam razıyıq. Deyilənlər M.Ə.Rəsulzadənin əsərlərində bütün aydınlığı ilə görünür. M.Ə.Rəsulzadə İstanbulda olduğu müddətdə Osmanlı imperiyası və türkçülüklə bağlı siyasi hadisələr o qədər sürətlə gedirdi ki, Osmanlının İtaliya ilə müharibədə, Balkan müharibələrində ardıcıl məğlubiyəti imperiyada etnik və dini mənsubiyəti fərqli etnosların vahid millət kimi "qovuşması" ideyası süqut edib turançılığı bir qədər canlandırsa da, Osmanlı imperiyasının rəhbərliyi altında məhkum türk xalqlarının qurtuluş hərəkatı ideyası da iflasa uğradı, bir illüziya olduğu aşkarlandı (**48, s. 24-25**).

Bütün bunlar M.Ə.Rəsulzadənin yaşadığı, onu mənən və təfəkkürən qidalandıran türkçülük mühitində, onun gözü qabağında baş verirdi. Türklüyün ardıcıl məğlubiyəti M.Ə.Rəsulzadənin qəlbini nə qədər incitsə də, türklüyün gələcəyini düşünən və düşüncələrinə inanan kiçik bir mühit M.Ə.Rəsulzadəni yaradıcılığa, türklüyün xoşbəxt gələcəyinə yolların axtarışına sövq edirdi. Sözsüz, M.Ə.Rəsulzadə türklüyün ağır məğlubiyəti günlərində "İran türkləri" əsərini türkçülərin türklüyün xoş gələcəyinə olan ümidlərinin, arzularının təsiri altında yazmışdır. Belə ağır şəraitdə,nikbinlik duyulmayan mənəvi təsirlər altında yazılmasına baxmayaraq, bəlkə də elə bu səbəbdən əsərdə M.Ə.Rəsulzadə yaradıcılığında yeni mərhələ başlayır, elmi-fəlsəfi prinsiplərinin əsasları qoyulur. Əsərdən göründüyü kimi, burada nə türkçülüyün eyforiyası, nə də reallığın doğurduğu məyusluq var. Sırf fəlsəfi üslubda yazılmış əsərdə türk tarixində ilk dəfə "İran (Azərbaycan − X.X.) türklərinin nümunəsində milli həyatı yaradan və məhv edən mənəvi əsaslardan sistem halında bəhs olunur, onların müxtəlif tarixi vəziyətini müəyyən edən mənəvi sistemlərin təsirindən ayrı-ayrılıqda bəhs olunur. Beləliklə, milli həyatın təbii-coğrafi şəraiti, iqtisadi-siyasi, sosial

həyatının hər bir sahəsindən aydın, dəqiq bəhs edən M.Ə.Rəsulzadə milli həyatın mənəvi əsasları üzərində xüsusi dayanaraq, onu mənəvi varlıq kimi dərindən təhlil edir, milli tərəqqi və tənəzzül hadisələrinin məhz mənəviyatla bağlılığını tarixi faktlarla əsaslandırır, dünyagörüşü formalaşmış, hadisələrə obyektiv yanaşan filosof kimi çıxış edir (**53, s. 86-166**).

Artıq məşəqqətli hadisələr içərisində bərkiyən, həyata göz açdığı gündən fövqəladə şəraitdə yaşamağa və fövqəladə vəziyətlərdən düşüncəsi ilə çıxış yolu tapmağa alışmış, fəlsəfi təfəkkürə malik M.Ə.Rəsulzadə türklüyün xilası ideyasının türkçülərin ideyaları arasında olacağına inanırdı. Çünki, bu ideyaların hamısı doğma olmaqla bərabər, həm də bəşəri idi. Həyatı boyu heç vaxt bilgi eqosu göstərməyən M.Ə.Rəsulzadə zəkavi gücünü qiymətləndirirdi. O, türkçülər arasında fikir fərqini, onların fikirlərindəki məqbul cəhətləri və hazırkı şərait üçün fayda verməyəcək tərəflərini bütün aydınlığı ilə görürdü. Turançılıq − türk birliyi ideyasına xələl gətirməmək üçün (48, 36) bu fikirlərdən hansının tərəfində olduğunu qabartmadan şəxsi mövqeyini özünəməxsus üslubda bildirirdi. İstanbul türkçüləri arasında hakim olan turançılığa da belə incə bir üslubda yanaşdı.

Nəhayət ki, M.Ə.Rəsulzadə axtarışına nail oldu. Həqiqətən türkçülüyün xilası turançılıqda idi. Dünya hadisələrini, ayrı-ayrı türk xalqlarının durumunu dərindən təhlil edən M.Ə.Rəsulzadə göstərdi ki, türk birliyinə, turançılığa nail olmaq üçün hazırkı şəraitdə ümumidən xüsusiyə deyil, xüsusidən − "real və konkret milli məqsədlər güdən" türkçülükdən − ümumi məqsəd − milli istiqlal uğrunda mübarizədə onların bərabər hüquqlu ittifaqının yaradılması ilə türk birliyinin, onun xoşbəxtliyinə nail olmaq ideyasını irəli sürdü (**48, s. 27**).

Məhz elə bu ideyası əsasında türkçülük ideyalarına əsaslanaraq Azərbaycan türklərinin milli-istiqlal mübarizəsi taktikasını yaratmağa başladı. Hələ İstanbula gələndən bir az sonra burada cəmləşən türkçülük ideoloqlarının təsiri ilə Bakı və Tehranda çəkdiyi acıların təsirindən çıxmağa müvəffəq olan M.Ə.Rəsulzadə 1911-ci ildə Bakıdakı arkadaşlarına milli partiyanın yaradılması zərurətini anlatdı. Onlardan Məhəmməd Əli Rəsuloğlu, Abbasqulu Kazımzadə və Tağı Nağıoğlu 1911-ci ilin oktyabr ayında "Müsəlman Demokratik "Müsavat" Partiyası"nı yaratdılar. 1913-cü ildə Romanovlar sülaləsi hakimiyətinin 300 illiyi ilə əlaqədar verilmiş əfvi-ümumidən istifadə edərək M.Ə.Rəsulzadə vətənə döndü. Qısa müddətdə "Müsavat" partiyasının ideoloqu və liderinə çevrildi. Vətənə dönən M.Ə.Rəsulzadənin yazdığı ilk əsər iki şeir kitabına yazdığı "Təzə kitablar" adlı rəydir. Birinci kitabın məzmunundan bəhs edən M.Ə.Rəsulzadə göstərir ki, "Bu əfəndi şu vacibi kitabında əvvəla elmi, saniyən məhəbbəti, salisən tərbiyəni kəndi millətinə təlqin etmək istəmiş və bunları da şeirlər hüsula gətirmiş!".

Şeirdən nümunələr göstərən M.Ə.Rəsulzadə kitab haqqında belə nəticəyə gəlir ki, "İştə şairimiz nə demək istədiyini kəndisindən başqa bilən olmayacaqdır"... (**53, s. 178**).

İkinci kitabın müəllifi Bakı ticarət məktəbinin şagirdidir. M.Ə.Rəsulzadə ki-

tab haqqında təəssüratını belə ifadə edir: “Binaən əleyh məzkur kitabı oxuyan zaman şagird əfəndinin türk, fars və ya ərəb − hankısından olduğunu anlamaq mümkün deyildir. Düşündükcə bunları hər birindən olmadığına hökm etmək lazım gəliyor. Zira kitabı türkcə yeni qiraətə başlamış uşaqlar üçün yazmaq istəmiş, lakin təkcə imla nədir? − əsla bunları bilməyə ehtiyac hiss etməmişdir” (**53, s. 178-179**).

M.Ə.Rəsulzadə Azərbaycan gənclərinin camaatın marağına səbəb olan kitabların yazılmasından doğan sevincini belə ifadə edir: “Az bir zamandan bəri bir çox gənclərimiz və ürafamızın həmiyyətilə vücuda gələn əsərləri görüb də şad olmamaq qabil deyildir. Məəmaftun, bu əsərlər mütaliə edildiyi zaman, insanı bir çox nöqtələr düşünməyə məcbur ediyor.

Məsələn, bir əsərin mütaliəsində, əcaba, bunu yazan nə məqsədlə yazmış və yazdığı zaman kəndi iqtidarını düşünmüşmü? Əgər bunu yazdısa, yazdığı əsərin əfkari−ümumiyyə üzərində nasıl bir təsir buraxacağını aramış və anlamışmı? Yazdıqlarını kimlər oxuyacaq və nasıl bir iqtidara (savada) malik olan kimsələr mütaliə edəcək. Mütaliə edənlərə nə surətlə fayda verə biliyorum − deyə təsirlənmişmi?.. və ilaxır kimi suallar mütaliə əsasında hər kəsin xatirinə gəlir zənnindəiz” − deyə yazarları gənclik, xalq qarşısında məsuliyətə dəvət edir (**53, s. 176**).

M.Ə.Rəsulzadənin bəzi tədqiqatçıları “Milli dirilik” əsərini onun “bu dövr yaradıcılığında... xüsusi yer tutduğunu”, digəri “Milli dirilik” başlığı ilə maraqlı yazılar çap etdirdi” yazır. Lakin onların şərhində “xüsusi yerin” və “maraqlı” olanın nədən ibarət olduğu deyilmir. Tədqiqatçılardan Aydın Balayev “Milli dirilik” əsərini ciddi araşdırmış, məzmununu aydın şərh etmişdir.

M.Ə.Rəsulzadənin 1911-ci ildə farsca nəşr olunan “Bəşərin xoşbəxtliyi” (təəssüf ki, əsər hələ tapılmamışdı) əsəri istisna edilərsə, “İran türkləri” əsəri milli-mənəvi varlığın yaranması, onun tərəqqi və tənəzzül səbəbləri, ümumiyətlə milli həyatın mənəvi tərəfləri haqqında yazdığı ilk elmi-nəzəri-fəlsəfi əsərdir. Bu gün də bu əsər səviyəsində Qacarlar monarxiyasında (indiki İran) obyektiv olaraq türk və fars qarşılıqlı mənəvi təsirindən, onun nəticələrindən bəhs edən ikinci bir əsər yoxdur. Demək olar ki, orta əsrlər Şərq-İslam alimləri, xüsusən N.Tusi istisna edilərsə, ümumtürk tarixində mənəvi dəyərlərin yaranma və məhv olma səbəbləri, onun funksiyaları haqqında belə bir əsər yazılmamışdı. Artıq bu əsərlə M.Ə.Rəsulzadə milli-mənəvi həyatın bütün elementlərini ehtiva edən elmi-nəzəri sistem yaratmaq istəyinə düşür. Bir inqilabçı olaraq, milli arzulara malik siyasi liderin milli-mənəvi həyatı tam təsəvvür etmədən, onu yönəltmək və arzu olunan istiqamətə, hədəfə aparmağın mümkünsüzlüyünü M.Ə.Rəsulzadə dərk etdi. Milli əməlsizlikdən doğan mənəviyatdakı boşluğu görür və bu haqda yazırdı: “Bizdə işlərimizin ruh və mənəviyatına aid olmaq üzrə böyük bir boşluq var: Əməl (ideal) boşluğu, bu boşluq hər tərəfdən hiss olunuyor. Bunun mürəvvici olmaq məcburiyyətində olan mətbuat demək olar ki, hakkdan ziyadə idealsızdır... Məlumdur ki, mağazaların caməkanlarını dolduran yazılar əksəriyyətlə cavanlarımızın qələmindən çıxyor. Cavanlar içərisin-

də bəzi xudpəsəndləri olmaqla bərabər − çox kərə də səmimiyyət və hüsniyyətlə qələmə sarılıyorlar. Arzu olunan nəticəni verə bilmiyorlarsa, qüsur özlərində deyil, mühitimizin əməl nöqteyi-nəzərindən boşluğundadır. Böyük əməllərə malik olmayan yazıçıdan, əmin olunuz ki, fövqəladə və müasir bir əsər gözləmək xatadır. Binaən əleyh böyük əməllər nəşrinə xidmət edəlim ki, bütün nöqsanlarımızı ancaq bu islah edə biləcək. Ancaq budur ki, işlərimizə bir ruh verəcək, diriliyimizə milli bir dirilik bəxş edəcəkdir" (**53, s. 475-476**).

Artıq Şimali Azərbaycanda, Qacarlar monarxiyasında, Osmanlı imperiyası həyatında gördüyü mənəvi çırpıntılar və durum, İstanbul türkçülüyündən aldığı fərqli canatmalar, Ş.C.Əfqaninin "Milli vəhdət" nəzəriyəsi və dünya fəlsəfəsindən aldığı elmi-nəzəri bilgilər M.Ə.Rəsulzadə türk milli-mənəvi həyatını obyektiv əks etdirən milli-fəlsəfi sistemi yaratmağa imkan verirdi. Odur ki, millətin − mənəvi olaraq dirilik obrazını sistem halında yaratmağa təşəbbüs etdi. Əsərindən göründüyü kimi, M.Ə.Rəsulzadə "Milli dirilik" deyəndə toplumun normal, yaradıcı mənəvi durumunu nəzərdə tuturdu. Beləliklə, M.Ə.Rəsulzadə "Milli dirilik" əsərində toplumu, onun özünəməxsusluğunu yaradan, ona mənəvi yaradıcılıq enerjisi verən yarımsistem, hissə və mənəvi dəyərlərin vəhdətdə bir-birini hərəkətə gətirən, vahid sistem kimi fəaliyət göstərən sistemini müəyyən etdi, fəlsəfəni yaratdı.

Beləliklə, M.Ə.Rəsulzadə "Milli dirilik" əsərində milli fəlsəfənin təməl əsaslarını yaratdı. M.Ə.Rəsulzadə yaradıcılığından göründüyü kimi, bu sistem "Milli dirilik" əsərində ilkin olaraq o qədər dəqiq, düzgün müəyyən edilmişdir ki, onun sonrakı yaradıcılığı dövründə əsaslara deyil, ancaq üst sistemə cüzi əlavələr edilmişdi.

M.Ə.Rəsulzadənin millət konsepsiyası Şərq intibahı doğuran Ş.C.Əfqaninin milli vəhdət fəlsəfəsinin yenidən işlənib, yeni daha yüksək səviyəyə qaldırılması olaraq yaradıcı davamıdır, XX əsrdə dünyada millət haqqında yaradılmış ən mükəmməl, ən yüksək səviyəli fəlsəfi konsepsiyalar sırasındadır. M.Ə.Rəsulzadənin "Milli dirilik" əsərindəki millət konsepsiyasının əsas müddəa və mülahizələrini qısaca oxucuya təqdim edirik. O, yazırdı: "Hər millət yaşadığı mövqe, keçdiyi tarix, mənsub olduğu irq nəticəsi olaraq bəzi xüsusiyyətləri vardır ki, o xasiyyətlər onlara məxsusdur. Ondakı bu xüsusiyyətlər aləmi-mədəniyyətdə xüsusi bir taqım ibda və ixtiralar vücuda gətiriyor ki, onların əsilikləri (orijinalnost) müdəqqiqlər nəzərində fövqəladə qiymətlərə dəyər şeylərdir. Diqqət olunmuşsa, hər millətin bir şeydə mahir olduğu görülmüşdür. Almanlar sənətdə, fransızlar zərəfətdə, ingilislər gəmiçilikdə"... (**53, s. 463-464**).

M.Ə.Rəsulzadə etnik birliyin üç inkişaf mərhələsi və bu mərhələləri müəyyən edən keyfiyət, xarakter xüsusiyətlər haqqında yazır: "Qövmiyyət − narodnost" yalnız nəsil və dil birliyi; milliyət − natsyonalnost" − dil və mədəniyət birliyi və "millət − natsiya" da mədəniyət və milli birliyi dərk etməklə" − yəni mədəni və milli diriliyini dərk etdiyi, milli mənlik şüuruna malik olması ilə yaranır (**53, s. 468**).

Milli birliyi yaradan əsaslardan bəhs edən M.Ə.Rəsulzadə göstərir: "Milliyyətin ümidə rükünü təşkil edən şey dildir. Dil adətən hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasətçilər də əsil bunun üçündür ki... Ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. "Milli əsaslardan "din daha qüvvətli bir ictimai amildir" (**53, s. 476**) yazan M.Ə.Rəsulzadə müəllimi Ş.C.Əfqani kimi onu dildən sonra ikinci əsas hesab etsə də, tarixin bəzi məqamlarında ondan təsirli olduğundan bəhs edərək yazır: "Din nə qədər dildən sonra gələn bir amil isə də, bəzi şərait daxilində ondan daha müəssər bir qüvvət şəklini də ala bilir" (**53, s. 480**).

"Bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad və təməddün amili təsəvvür oluna bilməz" − yazan M.Ə.Rəsulzadə şərhinə davam edərək göstərir: "Milliyyət amillərindən birisi də tarix ilə adət və ənənədir. İllərdə bir miknət və qüvvət tapa bilmək üçün millətlər həman tarixlərindən istimdad edərlər. Zəif düşdükləri, əzilib, inqiraza tərəf çəkildikləri, hətta inqiraz bulub, hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq dəmlərini xatirə salmaqla istiqbal üçün bir ümid bəslərlər. Keçmişini iyicəsinə tədqiq etmiş olan millətlər daima mazinin ölüb topraqlar altında çürümüş olan qəhrəmanlarından birər ideal modeli yapıb da onu gələcəyin bir nümunüyi−həmasəti kəsdirərlər" (**53, s. 483**).

M.Ə.Rəsulzadənin milli konsepsiyasında milli vicdan və milli iman mühüm yer tutur. Bu dəyərlərin yaranması və milli dirilikdə funksiyasından bəhs edən M.Ə.Rəsulzadə yazır: "Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanından hasil oluyor. Hər millət deyil, hətta bir şəxsin özünə görə bir əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi "ideal" gəliyor. Osmanıcada son zamanlarda buna "məfkurə" deyə tərcümə edənlər də var".

Milli əməl və milli vicdanın yaranıbda milli mənəviyyatda yer tutmasından bəhs edən M.Ə.Rəsulzadə yazır: "...Fəqət bir fərd öz mühitinin faydasını düşünərək şəxsi deyil, qövmi və yaxud millət üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar, bu kimi adamlara da böyük əməlpərvər, yaxud məfkurəçi ismi verərər. Məsələn, ruslarda Böyük Pyotr, Lomonosov, firənglərdə Jan Jak Russo... Bir millət arasında bu kimilər məhdud, ya məfruq olarsa, o millət müstəqil və sağlam bir vücud üzü görməz və başqalarının ziri-dəsti olub, ayaqları altında əzilər, gedər. Çünki, şəxslərə mümkün olmadığı kimi, millətlərə də əməlsiz yaşamaq qabil deyildir. Fəqət böyük əməlpərvərlər bu böyük əməli haradan alıyorlar?

− Əsli arasında yaşadıqları mühitin özündən".

M.Ə.Rəsulzadənin şərhindən aydın görünür ki, milli məfkurəçi şəxsiyətlər millətin vicdan və imanından doğulurlar (**53, s. 70-71**).

Tarixdə çoxsaylı faktları nümunə gətirən M.Ə.Rəsulzadə məfkurəçi böyük şəxslərin milli diriliyin mühüm ünsürü olduğunu əsaslandırmaq üçün məfkurəçi

milli şəxsiyətlərin haqqında ölü xalq kimi bəhs olunan Bolqar xalqının tarixini yazıb, buradan gələn ruhu yeni nəslin mənəviyatına aşılamaqla onları tarixə qaytarmalarını ətraflı şərh edir (**53, s. 472**).

Milli varlığın milli diriliyin yaranması üçün əsas müddəalarının təqdimindən sonra millətə aşağıdakı kimi tərif verir: "Milli mədəniyyət və yaxud millət, dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət etiqadi diniyyə birliklərinin məcmusundan mütəşəkkil bir məhsuldur" (**53, s. 486**).

Nəticə olaraq diriliyə tərif verərək yazır: "Dirilik − dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir" (53, 463). Son olaraq millətin və gələcəyin əsas qurucusu gənclərə müraciət edərək deyir: "Ey millətin istiqbalını təmin edəcək türk gəncliyi, haradasan?!" (**53, s. 479**).

Etnosun həyati qabiliyətinin fəlsəfi əsasları haqqında "Milli dirilik" əsərində M.Ə.Rəsulzadə milli həyatın maddi tərəfinin mənəvi tərəflə həmahəng olmasını xüsusi vurğulayıb diqqətə çəkərək yazırdı: "Dirilik isə elmən, ruhən və cismən qüvvətli olmaqdan və diriliyi sevməkdən ibarətdir... dirilik dünyanı sevməkdən ibarətdir. Mənayi xassi dünyapərvərlikdir" (**53, s. 462**).

Lakin onun ilk məqaləsində, söykəndiyi Ş.C.Əfqani fəlsəfəsində, həmişə diqqət mərkəzində saxladığı düny mütəfəkkirlərinin yaradıcılığında milləti hərəkətə gətirən qüvvə mənəviyat, mənəvi güc, arzu və ideyalar olduğu xüsusi vurğulanır, milli ideologiyanın yaradılmasına fövqəladə həssaslıqla yanaşaraq, bu işdə hətta xalıqn gizli hiss və arzularının nəzərə alınmasını vacib bilərək göstərir ki, "iştə millətin ümumən də mövcud olan hakim bir əməl və arzu yolunda bəslənən gizli hisslər milli vicdan ilə imanı tövlüd ediyorlar", "fəqət onlar bu arzulara bir şəkil və surət verməkdə acizdirlər" bu işin öhdəsindən ancaq "ayrı-ayrı əməlpərvərlər tərəfindən təsvir və təyin olunan, başqa təbirlə, ehzar olunan milli əməllər layihəsi xalqın əsl düşünüb də hiss və arzu etdiyi ilə təvafüq edərsə, məzkur əməl əsri bir surətdə xalq arasında iktişar edər və bollu tərəfdarlar qazanar. Yoxsa məxsus bir dairədə intişar tapıb nəhayət, nisyan bucağına atılıb qalar" (**53, s. 470-471**).

Beləliklə, "Milli dirilik" əsərində Ş.C.Əfqaninin "milli vəhdət" fəlsəfəsini yenidən işləyən, milli özünüdərkdən sonra demokratiya və milli dövlət quruculuğu uğrunda mübarizənin fəlsəfi əsaslarını yaradan M.Ə.Rəsulzadə bu mübarizədə hər bir sosial təbəqənin göstərməli olduğu əməli fəaliyyəti xüsusi vurğulayaraq real üzləşilən I Dünya müharibəsinin dəhşətləri içərisində tutulacaq yoldan, millət olaraq çıxılmasının şərtlərini müəyyənləşdirdi.

1915-ci il oktyabın 2-də Bakıda M.Ə.Rəsulzadənin redaktorluğu ilə fəaliyətə başlayan "Açıq söz" qəzeti ilə onun fəlsəfi və istiqlal mübarizəsinin yeni mərhələsi başlayır. Qəzetin adının altındakı "Siyasi-ictimai və ədəbi Türk qəzetəsi" təqdimindən göründüyü kimi, M.Ə.Rəsulzadə Azərbaycanı yeni məzmunda − "Türk yurdu, Türk vətəni" kimi dünyaya təqdim edir. Bu sözə qədər qəzetlərin, kitabların, məktəblərin, teatr binalarının üzərindəki "tatar", "müsəlman" sözündən heç vaxt xoflanmamış rus hərbi senzoru nə rus-yapon müharibəsində,

nə də alman cəbhəsində rus qoşunlarının məğlubiyət xəbəri belə həyəcanlandırmamışdır. Beləliklə, milli həyatı xalqa verəcək milli özünüdərk, milli mənlik şüurunu ifadə edən "Türk" sözünün canlandırdığı mənəvi dəyərlərin, həyatı gücün bir andaca üzə çıxardığı istiqlal mübarizəsinin yeni mərhələyə daxil olduğunu göstərdi. "Açıq söz" qəzetinin birinci sayındakı "Tutacağımız yol" adlı baş məqaləsində M.Ə.Rəsulzadə yazırdı: "Dəhşətlərinə şahid olduğumuz bu yol bir həqiqəti-əsrimizin milliyyət əsri olduğunu isbat etdi. "Dünyanın xəritəsi hərbə dəyişəcək" − deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir" (**61, s.171**). O, xəbərdarlıq edirdi ki, "Dünya xəritəsinin alacağı şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər, heç şübhə yoxdur ki, vüzuh və rüsuh peyda etmiş milliyyət məfkurələrinin də böyük bir təsiri olacaqdır" (**61, s. 171**). Xüsusi vurğulayırdı ki, "yalnız əsasında milli başlanğıcın durduğu və ya idarəetmə sistemində həmin başlanğıca xüsusi verildiyi dövlətlər bu tarixi sınaqdan üzüağ çıxacaqlar (**61, s.171**). M.Ə.Rəsulzadə böyük uzaqgörənliklə göstərirdi ki, müharibədən sonrakı Avropanın siyasi meydanında "özlərini kifayət qədər tanıtmış və istiqlal üçün müəyyən bir ideal məfkurə yaratmış millətlər real qüvvə təşkil edəcəklər (**61, s.171**). Bununla da o, bir qədər örtülü formada olsa da, milli dövlətin yaradılmasının zəruriliyini qeyd edirdi (**48, s.43**).

M.Ə.Rəsulzadə xüsusi xəbərdalıq edirdi ki, "Yeni əsaslar üzərində qurulacaq həyat vahid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə hesablaşmayacaq və belə bir silahdan məhrum olan cəmiyyətlər kimsəyə söz eşitdirə bilməyəcəklər". O, həmvətənlərinə bir daha xəbərdarlıq edirdi ki, "Söz eşitdirmək, milli varlığını qorumaq haqlarını, hürriyyətlərini əldə etmək üçün milliyyət məfkurəsi ətrafında birləşməyə və müştərək bir hala gəlməyə" səsləyirdi (**61, s.171**).

Tarixin bütünlüklə təsdiq etdiyi bu uzaqgörənliyi söyləyəndə M.Ə.Rəsulzadənin 31 yaşı vardı. İkinci Dünya müharibəsi, faşizmin Karl Yaspers kimi dahiləri bədbinliyə uğradıb, özünəqapılmaya məcbur etdiyini nəzərə alsaq, 31 yaşlı, texniki peşə məktəbini sona qədər oxumamış bir gəncin Birinci Dünya müharibəsinin dəhşətləri içərisində bir əjdahanın (imperiyanın) ağzında olan və digər əjdahaların onun ağzından alıb udmaq istədiyi amansız müharibə (döyüş) şəraitində olan xalqın önünə düşüb istiqlal davası açması, onun mənəvi güc və zəka mənbəyi ancaq Mütləq ruhdan doğan fəlsəfə ola bilər.

Beləcə, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi əməlləri ilə canlanan, Ş.C.Əfqani yaradıcılığı ilə fəlsəfi ruh qazanıb yaradıcılıq göstərən (Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu) Azərbaycan türk mənəviyatı M.Ə.Rəsulzadə yaradıcılığı ilə fəlsəfi mahiyət qazanaraq müstəqil yaradıcılıq göstərdi. "Müsavat" partiyasını lideri və ideoloqu səviyəsinə yüksəlməsi, "Açıq söz" qəzetinin partiyanın orqanına çevrilməsi M.Ə.Rəsulzadə ideyalarının müxtəlif sosial təbəqələr arasında sürətlə mənimsənilməsinə şərait yaradırdı. M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində nəinki Azərbaycan türklərinin istiqlal mübarizəsi yollarından, eləcə də rus imperiyası əsarətində olan türk və müsəlman xalqların mənəviyatına impe-

riyanın təcavüzündən bəhs edir, onların istiqlal təşkilatları ilə əlaqələrinin qurulmasını, istiqlal mübarizələrini istiqamətləndirirdi. Odur ki, "Açıq söz" qəzeti Azərbaycandan kənarda da oxunur, onda qoyulan ideyalar başqa xalqlar arasında da mənimsənilirdi. Beləliklə, M.Ə.Rəsulzadə fəlsəfəsi rus əsarətində olan türk və müsəlman xalqların müstəqillik ideologiyası kimi də təsir gücü qazanmaqda idi.

Romanovlar sülaləsinin bütün hakimiyəti dövründə türk və müsəlmanlara qarşı amansızlıq ardıcıl yüksəldi. İmperiyanın Qafqazı əsarət altına saldığı elə ilk gündən burada türk və müsəlmanların müxtəlif formada, üstü örtülü didərgin salınması siyasətinə 1905-1907-ci illər inqilabı zamanı ermənilər vasitəsi ilə milli qırğınlar törədilməsi, Birinci dünya müharibəsinin başlanması ilə rus ordusu və bu orduda iştirak edən erməni hərbi birləşmələri müxtəlif bəhanələrlə türk müsəlman yaşayış məskənlərini xarabazara çevirib, əhalisini didərgin salmaq adi hal almışdı. Müharibə zamanı Cənubi Qafqaz cəbhəyanı zona hesab olunurdu. Odur ki, ən kiçik etiraz hərbi qanunlar əsasında amansızlıqla məhv edilirdi. Odur ki, bütün bu ağır şəraitdə xalqın ruhuna istiqlal hissləri aşılasa da, ən kiçik siyasi addımını atmaqda belə xalqı amansızlıqla üzləşdirib, ruhuna qorxu hissi düşməsinə imkan vermirdi. Hər addımının siyasi şəraitini nəzərə alırdı. M.Ə.Rəsulzadə istiqlal duyğusunu xalqın ruhuna nə qədər yoğursa da, dövlət müstəqilliyi ideyasını məqamı çatana qədər elan etmədi. "Milli dirilik" məqaləsində "milli istiqlaliyyət millətlərin xüsusiyyətlərinin mühafizəsini təmin etmək" iqtidarındadır, "Azıq söz" qəzetinin ilk sayında "milliyyət millət səviyyəsinə keçid etmək üçün milli dövlətin yaradılmasının zəruri olduğunu" desə də, yalnız Fevral inqilabından sonra "millət − dövlət olmaq əzmində israr edən bir milliyyətdir" − dedi (**48, s.45**) və xalqı bu işə səfərbər etdi.

Fevral burjua inqilabından sonra gələcəyin siyasi yolu məsələsində yenə M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat partiyasının baxışı Azərbaycan siyasi elitası üçün məqbul mövqe olduğu açkar oldu. 1917-ci il aprelin 15-20-də Bakıda Birinci Ümumqafqaz müsəlmanlarının qurultayı keçirildi. Ölkənin siyasi gələcəyi haqqında M.Ə.Rəsulzadə məruzə etdi. Onun məruzəsində təklif olunan formada *Azərbaycan türklərinin milli ərazi muxtariyəti formasında milli dövlətçiliyin yaradılması zərurəti əsaslandırıldı və qəbul edildi*. Həmçinin qurultayda birmənalı şəkildə milli tərkibli hərbi strukturların yaradılması haqqında qərar qəbul edildi. Bu, dövlət müstəqilliyi yolunda atılan praktik addım idi. Qurultay ictimai-siyasi, mədəni, maarif və digər qarşıya qoyulan vəzifələrin icrasına başlamaq üçün milli fond yaratdı. Qurultayın fəxri qonağı H.Z.Tağıyev elə oradaca fonda 50 min rubl verdi (**50, s. 138**).

Qurultayda M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ətrafında milli elitanın, siyasi qüvvələrin birləşməsi baş verdi. Gəncədə N.Yusifbəylinin rəhbərlik etdiyi "Türk Ədəmi-Mərkəziyyət Xalq Partiyası" ilə "Müsəlman Demokrat Partiyası Müsavat"ın birləşməsi haqqında razılığa gəlindi. 1917-ci il 17 iyunda partiyaların birləşdirici qurultayı keçirildi. N.Yusifbəylinin təklifi ilə birləşmiş partiya "Türk Ədəmi Mərkəziyyət Firqəsi Müsavat" adlandırıldı. Bu

partiyaların birləşməsi Azərbaycanın türk və müsəlman əhalisinin milli, dini, siyasi və ideoloji birliyinin daha da güclənməsində həlledici hadisə oldu. Qurultayda M.Ə.Rəsulzadə "Milli istiqlala malik olmayan bir mir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal!" sözləri ilə müstəqil dövlətçilik uğrunda mübarizəni rəsmi elan etdi.

Bakıda Qafqaz müsəlmanlarının qurultayı başa çatan kimi Azərbaycan siyasi liderləri milli azadlıq hərəkatını Rus imperiyasının digər türk və müsəlman xalqlarının hərəkatı ilə uzlaşdırmaq üçün Ümumrusiya müsəlmanlarının qurultayının keçirilməsinin təşkilinə başladılar. Ümumrusiya müsəlmanlarının qurultayı 1917-ci il mayın 1-dən 11-ə kimi Moskvada Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına hədiyyə etdiyi binada keçirildi. Qurultaya 600 nəfər nümayəndə dəvət olunduğu halda, 900 nəfər iştirak edirdi. Qurultaya müzakirə üçün tatarların nümayəndəsi Əhməd Salikovun milli-mədəni muxtariyat, M.Ə.Rəsulzadənin təqdim etdiyi milli ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika layihələri təqdim olunmuşdu (**41, s.140**).

M.Ə.Rəsulzadənin təklif etdiyi federasiya təklifinə Ə.Salikov irad tutaraq iddia etdi ki, federasiya idarə şəkli türk-müsəlman qövmlərini parçalayacaq. M.Ə.Rəsulzadə türk xalqlarının tarixi, dili, ədəbiyatı, məruz qaldığı mənəvi-ideoloji, siyasi təzyiq və sarsıntılarından ətraflı bəhs edərək, hazırkı şəraitdə federasiya idarə şəklinin lazım gəldiyini əsaslandırdı. Qurultay təkliflərin müzakirəsinə uzun vaxt sərf etdi. M.Ə.Rəsulzadə bir neçə dəfə kürsüyə çıxmalı oldu. M.Ə.Rəsulzadənin çıxışı və ətraflı izahlarından sonra onun irəli sürdüyü Rusiyanın gələcək idarə şəkli milli muxtariyat ideyası qurultayda 271 səsə qarşı 446 səs çoxluğu ilə qəbul edildi (**50, s.39**).

Qurultayda iştirak etmiş görkəmli tarixçi Zəki Vəlidi Toğan Azərbaycan nümayəndələrinin qurultaydakı fəaliyətini xatırlayaraq yazır: " Moskvada toplanan Ümumrusiya müsəlmanları qurultayına azərbaycanlı Əlimərdan bəy Topçubaşov rəyasət ediyordu. Emin bəy qonuşuyordu. Bütün konreyə azərbaycanlıların hakim olduğu görünür, Azərbaycan liderlik edirdi. Əgər 700 kişi içərisində Emin bəy və arkadaşları olmasaydılar, konfrans istiqlal muxtariyyət tezisinə rəy verməzdi" (**56, s. 61**).

Qurultayın digər iştirakçısı, mühacir tatar istiqlal mübarizi Abdulla Taymas M.Ə.Rəsulzadənin qurultaydakı rolunu xatırlayaraq yazır: "Bu parlaq fikri sayəsində Məhəmməd Əmini bütün Rusiya türklüyü tanımış, artıq o, sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün Rusiya türkçülüyünün əzizi olmuşdur" (**41, s.146**).

Qurultaya azərbaycanlıların "rəyasət etməsi", "bütün kongreyə azərbaycanlıların hakim olması", kongredə "parlaq fikir" sahibinin 33 yaşlı gənc azərbaycanlının olması adi, təsadüfi hadisə deyildi. Mütləq ruhdan Ş.C.Əfqaninin yaradıcı fəlsəfəsinin yaşamı, gələcəyə can atması idi. Məhz yaradıcı fəlsəfi ruha malik olmanın nəticəsi idi ki, Azərbaycan türkləri bütün rusiya imperiyası türk-müsəlman xalqların milli-azadlıq hərəkatının lideri səviyəsinə yüksəlmişdir.

Romanovlar sülaləsinin devrilməsindən sonra hakimiyəti üzərinə götürən

Müvəqqəti hökumət Zaqafqaziyanı idarə etməsi üçün Transqafqazdan olan deputatlardan ibarət Zaqafqaziya Komitəsini yaratdı. Lakin komitə Zaqafqaziyada intizam yaratmaq nüfuzunda deyildi. Həqiqətdə türk-müsəlman əhaliyə qarşı məğlub rus ordusunun, erməni hərbi birləşmələrinin təcavüzünün qarşısını almaqda maraqlı kimi də görünmürdü.1917-ci ilin oktyabrında dövlət çevrilişi ilə bolşeviklərin hakimiyəti ələ alması ilə Qafqazda türk-müsəlman xalqlara qarşı yeni − bolşevik-daşnak təcavüzü də əlavə olundu.

"Müsavat" partiyası Peterburqdakı bolşevik hakimiyətini tanımaqdan imtina etdi. Həqiqətdə bu dövrdə rus imperiyası əsarətində olan polyak və fin xalqı istisna edilərsə, imperiyanın məhkum xalqlarından kimsə siyasi müstəqillik tələb etmirdi. Hətta "özlərini Qafqaz demokratiyasının mürşidi mövqeyində görən gürcülər də istiqlalçı deyildilər" (**48, s. 62**).

Müəssislər Məclisinə seçkilərdə "Müsavat" partiyası xalqın dəstəyini qazandı. 1918-ci il yanvarın 6-dan 7-nə keçən gecə bolşeviklərə məxsus ÜRMİK Müəssislər Məslisini buraxmaq haqqında dekret qəbul etdi. 1918-ci il fevralın 23-də Zaqafqaziya Seymi Tiflisdə işinə başlayanda M.Ə.Rəsulzadə təklif etdi ki, Seym Müəssislər Məclisi kimi tanınsın, Zaqafqaziyanın konstitusiyasını hazırlasın. M.Ə.Rəsulzadənin təklifiin qəbul edilməsi ilə Peterburq bolşevik hakimiyətinin tanınmasından imtina edildi. Zaqfqaziya Seyminin 1918-ci il 1 mart iclasında M.Ə.Rəsulzadə Seymdə müstəqilliyin tanınması tələbi ilə çıxış etdi. Bu zaman Bakıda hakimiyəti ələ keçirən bolşeviklərin rəhbəri S.Şaumyan Bakını Azərbaycanın paytaxtına çevirmək istəyənlərə xarabazar verəcəyi ilə hədələyərək, Bakı şəhəri və Bakı quberniyasında kütləvi türk-müsəlman qığınına başlayaraq 30 min nəfər insanı məhv etdi. Bakının mədəniyət mərkəzi, küçələri, kəndləri xarabazara çevirdi. Qırğın o qədər dəhşətli və amansız idi ki, rus artilleriyasının Allahı kimi qiymətləndirilən general Ə.Şıxlinski vəziyəti "çıxılmaz" kimi qiymətləndirirdi. Belə bir ağır şəraitdə Azərbaycan partiyaları fraksiyasının lideri M.Ə.Rəsulzadənin təklif və təkidi ilə 1918-ci 22 apreldə Zaqafqaziya Federativ Respublikasının müstəqilliyi elan edildi. Lakin Seym ardıcıl olaraq Zaqafqaziyada olan təsirini itirirdi. Nəhayət 1918-ci il mayın 26-da Almaniya və digər xristian dövlətlərin gizli təsiri ilə gürcülər Seymdən çıxıb müstəqilliklərini elan etdilər. Qafqaz federasiyası ideyası M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycan milli liderlərinin taktiki gedişi deyil, Azərbaycanın əbədi müstəqilliyini Qafqaz xalqlarının birliyində görürdülər. Lakin bu birlikdə olan xalqlardan hər birinin hər hansı imperiya ilə müttəfiqlik meylinin onların birliyini pozacağı Azərbaycan milli liderləri üçün gözlənilən idi və gözlənilirdi. Odur ki, milli liderləri Qafqaz federasiyasını qorumaqla yanaşı, parçalanacağı anda Azərbaycanın Müstəqil idarəsi və müdafiəsi istiqamətində tədbirlər görürdülər (**8, s. 279**).

Beləliklə, yaranmış şəraiti nəzərə alan Zaqafqaziya Seyminin Azərbaycan millət vəkilləri mayın 27-də fövqəladə iclas keçirdi. Yaranmış şəraitdə Qafqazda və Azərbaycanda siyasi prosesləri tənzimləmək, Azərbaycanı idarə etmək üçün legitim hakimiyət orqanı yaradılmasının zəruriliyini nəzərə alaraq haki-

miyəti öz üzərinə götürəcək Milli Şura yaradılmasını qərara aldı. Zaqafqaziya Seymindəki bütün müsəlman fraksiyalarının nümayəndələrindən ibarət Mili Şura və onun rəyasət heyəti yaradıldı. Batum danışıqlarında olan M.Ə.Rəsulzadə Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov sədrin müavinləri seçildilər. Milli Şuranın 9 nəfər üzvündən ibarət icraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdillikla icraiyyə orqanının sədri seçildi.

1918-cil Mayın 28-də Milli Şuranın ilk iclası keçirildi. Milli Şura beynəlxalq vəziyəti, Qafqazda və Azərbaycanda yaranmış siyasi şəraiti, Bakıdan hərəkət edən bolşevik-daşnak qoşunlarının Yevlağı tutub Gəncəni təhlükə altına alması və s. məsələləri dərindən təhlil edib, təxirə salınmadan Azərbaycanın müstəqil Respublika elan olunmasının zəruriliyi əsaslandırıldı. Məsələ Mili Şura üzvlərinin səs verməsinə çıxarıldı. Milli Şura üzvləri 24 səslə, 2 nəfər bitərəf qalmaqla Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul etdi və 6 bənddən ibarət "İstiqlaliyyət bəyannaməsi"ni elan etdi (**50, s. 47-50**).

1918-ci il mayın 30-da isə Nazirlər Şurasının sədri F.X.Xoyskinin imzaladığı radiotelqrafla dünya dövlətlərinin xarici işlər nazirlərinə, onların paytaxtı − İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristaniya (Oslo) və Kopenhagenə bu haqda xəbər göndərildi (**57, s. 34**).

Beləcə, Azərbaycan xalqının fiziki varlığına yaranmış təhlükənin aradan qaldırılmasının "çıxılmaz" kimi göründüyü bir şəraitdə M.Ə.Rəsulzadə dahi, mütəfəkkir, ideoloq, filosof, uzaqgörən siyasətçi kimi mümkünsüz kimi görünəni mümkün olana − həqiqətə çevirdi.

Azərbaycan Xalq Cümhuriyətini − Azərbaycanın dövlət müstəqilliyini elan edib onu düşməndən təmizlədi. Azərbaycanın müstəqillik istəyənlərinə Bakını "xarabazar" kimi verəcəyini deyənlərə cavab olaraq Bakını bütün "Azərbaycanı və bütün türklüyü daimi işıqlandıran", hər bir azərbaycanlının "bismilləsi" (**58, s. 30, 49**) olan müqəddəs şəhərə çevirdi. M.Ə.Rəsulzadənin ideoloqu və qurucusu olduğu Azərbaycan Cümhuriyəti Şərqdə türk-müsəlman xalqları arasında Azərbaycan türklərinin qurduğu ilk demokratik dövlət olmaqla bərabər, o, Avropa və ABŞ demokratiyasından da irəli gedib onların demokratiyasının ikili xarakterindən qəti imtina etdi. Avrop dövlətləri, o cümlədən ABŞ öz xalqı üçün demokratik olub, digər xalqlar üçün, xüsusilə türk və müsəlmanlara qarşı irqçi olduqları halda, Azərbaycan Xalq Cümhuriyəti daxili və xrici siyasətində irqindən, cinsindən, milliyətindən asılı olmayaraq, bütün millətlərin hüquq bərabərliyinin real təminatçısı kimi çıxış etdi.

Rus xalqının tarixindən doğan, təbiətindən çıxan, intiqamlar və acıqlar, dağıdıcı vulkan − bolşeviklik (**59, s.42**) bəşəriyətin ən mütərəqqi, ən demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyətini tariximizdən gələn bütün yaradıcı fəlsəfi, ictimai-siyasi ideyalarımızı, adət-ənənələrimizi, milli vicdan və imanımızı məhv edib, bizi mənəvi təməlimizdən ayıracaq dərəcədə zəiflətdi.

Lakin göründüyü kimi, ölmədik, tarixi şəraitdən istifadə edib dövlət müstəqilliyimizi bərpa etdik. Təəssüf ki, kiminsə etiraf etməsi və etməməsindən asılı

olmayaraq 30 ilə yaxın müddətdə dövlət müstəqilliyimizi bərpa etsək də, milli-mənəvi durumumuzu bərpa edə bilmirik. Ümumən mənəvi köklərə bağlanmağımız tövsiyə edilsə də, mətbuatımız, ilk növbədə də televiziya kanallarımız nəyi necə göstərməyi demədən hər şeyi Avropadan mənimsəməyi tövsiyə edirlər. Ancaq yaxşı və vacib şeyləri nəinki Avropadan, bütün qitələrdən mənimsəmək vacibdir.

Xalqımızın, vətənimizin bəşəri inkişafına təkan verən filosofu Ş.C.Əfqaninin − əgər bir millətin hamısı alim olsa belə onun fəlsəfəsi yoxdursa, o millət heç vaxt yaradıcılıq göstərə bilməz − müddəasını təqdim etmişik. Tarix onun bu müddəasını bütünlüklə təsdiq etmişdir. Varlığın maddi, mənəvi, sosial bütün formalarının fəlsəfədə ehtiva olunan vahid qanunu var. Məsələn, insanın bütün qan qrupları bir-biri ilə uyğunlaşmayıb bütün insanın qan tələbatını ödəyə bilmədiyi, bir-birinə uyuşmayan qan qrupunun birinin digərini öldürdüyü kimi bütün mədəniyətlər də bir-biri ilə uyğunlaşıb, bir-birini çiçəkləndirə bilmir. Təməl əsası uyğun olmayan mədəniyətin qəbulu son nəticədə ilkin əsasları öldürməklə onun daşıyıcısını köklərindən ayırıb, assimilyasiya edərək yox edir. Bütün hallarda insanlıq tarixi mənəviyat tarixidir. Mənəvi dəyərlərin ən yüksəyi fəlsəfi ruhdur, milli-mənəvi dəyərləri vahid sistemə salmaqla, yaradıcılıq ruhu verməklə yaşamını təmin edir.

Yuxarıda gördüyümüz kimi, türk-müsəlman dünyasının bütün qabaqcılları İstanbula toplaşaraq, onu türk-müsəlman dünyasının xilaskarı kimi bərpa etmək istəsələr də buna nail ola bilmədilər. "Osmanlı imperiyası türk dünyasının istiqlal və tərəqqi proseslərinin lokomotivi rolunu oynaya" bilmədi (**48, s.25**).

Bu missiyanı Azərbaycan, məhz M.Ə.Rəsulzadə yerinə yetirdi. "... Əski Turanın göbəyində Azərbaycan adında bir gənc igid, dəliqanlı var. Yeni Turanın açarı ondadır". Xatirəsinə davam edən M.Ə.Rəsulzadə yazır: "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə və Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi. Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl islamiyyətçilik və federasyon formalarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" kimi üç ayaqlı bir şüar ortaya atılmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan Turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək, qurduqları milli siyasi partiyaların prinsipi elan etdilər" (**60, s.35-36**).

M.Ə.Rəsulzadə "Milli dirilik" əsərində Azərbaycan xalqının özünübərpası üçün itirmiş olduğu dəyərləri müəyyən edərək, onu zamana uyğun, onun tələbinə müvafiq məzmun və formada ədəbiyat, mətbuat, məktəb, elmi-fəlsəfi yaradıcılıq və s. üsullarla milli özünüdərk səviyəsinə çatdırana qədər mənəviyatına, ruhuna aşıladı. Qısa vaxtda ən ağır siyasi şəraitdə dünyanın ən mütərəqqi dövlət qurucusu səviyəsinə çatdırdı.

Biz bu məqaəmizdə M.Ə.Rəsulzadənin yaradıcılığında milli-mənəvi həyatdan bəhs edən yalnız iki əsərini şərh etdik. Onun müxtəlif şəraitdə, xüsusilə Avropa alim və siyasətçiləri ilə təmas və polemikalardan sonrakı əsərlərində fəlsəfəni nə qədər zənginləşdirməsini ancaq həmin dövr yaradıcılığının tədqi-

qindən sonra demək olar. Lakin onun 1915-ci il oktyabrın 2-də "Açıq söz" qəzetinin birinci sayında "Tutacağımız yol" adlı məqaləsində Birinci Dünya müharibəsindən dövlətlərin və xalqların necə çıxacağı haqqında proqnozlarının nəticələri, bu dövrdə doğma xalqını gələcəyə psixoloji, mənəvi, siyasi-ideoloji, fəlsəfi cəhətdən hazırlaması onun XX əsrin ən böyük filosoflarından olub, birincilər cərgəsində olduğunu göstərir.

Azərbaycan Xalq Cümhuriyəti qurulanda M.Ə.Rəsulzadənin 34 yaşı var idi. Əgər milli-mənəvi tənəzzülə uğramış xalqın yenidən mənəvi bərpası üçün onun bircə dənə "Milli dirilik" əsərini göstərsək, M.Ə.Rəsulzadə fəlsəfi terapevt kimi dünya filosofları arasında birincilərdəndir. Texniki peşə məktəbini tamamlamağa imkanı olmayan 34 yaşlı bir şəxsin fəlsəfədə bu səviyəyə çatması onun Mütləq ruhdan doğan filosof olmasına şübhə yeri qoymur.

Ey dünyanın cənnəti Azərbaycanın gəncliyi!.."

Ədəbiyat:

1. N.K.Kərimov. Qüdsinin səyahətləri. B., 1983.
2. V.Həbiboğlu. Abbasqulu Ağa Bakıxanov. B., 1992.
3. Б.А.Будагов, Э.А.Керимов. Кавказский отдел имперторского Русского Географического Общества и вопросы географии Азербайджана. Б., 2002.
4. X.D.Xəlilli. Sovet tarixşünaslığı − milli ölüm elmi. B., 2010.
5. Ş.Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., 1996.
6. H.Əhmədov. XIX əsr Azərbaycan məktəbi. B., 2006.
7. В.Л.Величко. Кавказ. С. Петербург, 1904
8. X.Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. B., 2007.
9. В.П.Алексеев. Этногенез. М., 1986.
10. Anri Şino. Sağlamlığın gizli kodu. B., 2018.
11. Avesta. B., 2017.
12. A.Şükürov, G.Abdullazadə. Azərbaycan fəlsəfəsi. B., 1993.
13. Azərbaycan fəlsəfə tarixi. 1-ci cild. B., 2012.
14. F.İsmayılov. Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi. B., 2015.
15. Uill Dürant. Fəlsəfi hekayətlər. B., 2006.
16. X.Xəlilli. Tarixin fəlsəfi problemləri. − Tarixin fəlsəfəsi: retrospektiv və perspektiv. B., 2018.
17. B.C.Şəfizadə. "Avesta" ədəbi abidə kimi − Zərdüştün qatları (doktorluq dissertasiyasının avto. ref.). B., 1996.
18. A.Ağayev. Elmin, sənətin zirvəsində duran sadə insanlar haqqında kitab. B., 2012.
19. Elçibəy. Azərbaycandan başlayan tarix. B., 2003.
20. Ə.Qəşəmoğlu. Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri. B., 2008.
21. B.Şəfizadə. Zərdüşt, Avesta, Azərbaycan. B., 1996.

22. N.Qəhrəmanlı. Nəsib Bəy nümunəsi. B., 2008.
23. K.Yaspers. Tarixin mənası və təyinatı. B., 2008.
24. C.Əfqani Seçilmiş əsərləri. B., 1998.
25. Hegel. Ruh fəlsəfəsi. B., 2003.
26. Z.Göyalp. Türkçülüyün əsasları. B., 1991.
27. Y.Akçura. Türkçülüyün tarixi. B., 2010.
28. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı.. B., 1992.
29. Ə.B.Hüseynzadə. Siyasəti-fürusət. B., 1994.
30. A.A.Bakıxanov. Gülüstani-İrəm. B., 1951.
31. N.Mustafayev. Cənubi Azərbaycan xanlıqları. B., 1995.
32. M.F.Axundov. Əsərləri. 2-ci cild. B., 1961.
33. A.A.Bakıxanov. Seçilmiş əsərləri. B., 1984.
34. V.Q.Veliçko. Qafqaz. B., 1995.
35. Edmond Hippo Azərbaycan haqqında. − Hamlet Qoca. Fransızlar yurdum haqqında. B., 1990.
36. H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., 1992.
37. N.Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. B., 1997.
38. M.Məhəmmədzadə. Azərbaycan türk mətbuatı. B., 2004.
39. M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi. B., 1991.
40. Q.L.Bon. Sosializm psixologiyası. B., 2011.
41. X.Məmmədov. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). B., 1996.
42. M.İsmayılov. Azərbaycan tarixi. B., 1997.
43. Z.Bünyadov. Qırmızı terror. B., 1993.
44. M.S.Ordubadi. Qanlı illər. B., 1991.
45. V.Quliyev. Ağaoğlular. B., 1997.
46. Д.В.Сеидзаде. Азербайджанские депутаты в Государственной Думе России. Б., 1991.
47. M.Ə.Rəsulzadə. İlk məqalə. − "Çapar" jurnalı. №2, 2019.
48. A.Balayev. M.Ə.Rəsulzadə. B., 2011.
49. M.Ə.Rəsulzadə. Stalinlə ixtilal xatirələri. B., 1991.
50. N.Yaqublu. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. B., 2001.
51. V.Sultanlı. Ağır yolun yolçusu. B., 1996.
52. M.Ə.Rəsulzadə. Əsərləri, 1-ci cild. B., 1992.
53. M.Ə.Rəsulzadə. Əsərləri, 2-ci cild. B., 2001.
54. N.Yaqublu. Cümhuriyyət qurucuları. B., 2018.
55. Azərbaycan dilinin izahlı lüğəti, 1-ci cild. B., 2006.
56. N.Yaqublu. M.Ə.Rəsulzadə. B., 1991.
57. Fətəli Xan Xoyski − həyatı və fəaliyəti. B., 1998.
58. M.Ə.Rəsulzadə. Bakı və Azərbaycan tarixinə dair əsərlər. (1918-1919). B., 2013.

59. Y.V.Çəmənzəminli. Xarici siyasətimiz. B., 1993.
60. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. B., 1991.
61. M.Ə.Rəsulzadə. Əsərləri. 3-cü cild. B., 2012.

Rahid Ulusel

İSLAM FƏLSƏFƏSİNƏ AZƏRBAYCANDAN BAXIŞ: TARİX VƏ MÜASİRLİK KƏSİŞMƏSİNDƏ

Azərbaycan milli fəlsəfəsi uzun əsrlər boyu Şərq islam mədəniyyət düşüncəsinin tərkib hissəsi olaraq inkişaf etmişdir. Buna görə də islam dünyasında baş verən proseslər xüsusilə ən yeni tarixi dövrə qədər Azərbaycan mədəniyyətinin bütün qatlarında iz buraxmışdır. Ancaq burada ən maraqlı cəhət orasındadır ki, islam intibahının çiçəkləndiyi zamanlarda da Əbülhəsən Bəhmənyar Azərbaycani, Şihabəddin Yəhya Sührəvərdi, Nəsirəddin Tusi və s. kimi mütəfəkkirlər onun ön sıralarında dayandıqları kimi, XIX əsrin sonları və XX əsrin əvvəllərində də islam dünyasında modernləşmə hərəkatının ilk güclü dalğaları Mirzə Fətəli Axundzadə, Cəmaləddin Əfqani, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və s.-in timsalında konseptual bir istiqamət kimi Azərbaycanda başlamışdır. İslam fəlsəfəsinin keçdiyi tarixi yola bir daha yeni nəzərlə baxmaq həm də ona görə zəruridir ki, bizim milli mədəniyyət düşüncəmizin həmin prosesdə hansı təsirlərə məruz qaldığını, mütərəqqi və gerilədici meylləri öz ictimai, mədəni, dini və fəlsəfi fikir arealında necə yaşadığını müşahidə etmək mümkündür.

İslam dünyaya sivilizasiyanın "gözlənilməz" nöqtəsindən – Ərəbistan cəzirəsində *("əl-cəzirə əl-ərəbiyyə")* doğulmuşdu. O zamankı tarixin "kosmik sürəti ilə" dünya siyasəti, mədəniyyəti və fəlsəfəsinin mərkəzlərindən birinə çevrilmişdi. Hələ hicrət (622) ərəfəsində və daha sonrakı dövrdə yunan filosoflarının əsərlərindən tərcümələrlə antik və klassik abidələrə çıxış tapan islam təşnəliklə özünəqədərki dünya dini, fəlsəfi və mədəni irsini – Babilistan, Misir, İsrail, İran, Midiya, Hindistan, Çin və Yunanıstanın mədəniyyət xəzinəsini mənimsəyərək, özünün başlıca olaraq *Tövhid* (Vəhdət) fəlsəfəsində cəm etmişdi. Min il bundan qabaq – "X əsr Bağdadında bir ərəbdilli oxucunun Aristoteli bugünkü ingilisdilli oxucu qədər oxumaq imkanı var idi"(**1**). Tarixdə ilk dəfə olaraq islam – Şərq və Qərb genezisinə malik ayrı-ayrı mədəniyyətlərin kongeniallığını yaradaraq, özünün hegemon mövqeyinə uyğun gələn şəkildə – onların həm birlikdə, həm də müstəqillikdə yaşamaq təcrübəsinə yol açmışdı.

İslam planetin bir nöqtəsindən onun geniş coğrafiyasına, təbii ki, həm də Azərbaycana yayıla-yayıla sövq-təbii hiss edirdi ki, bu fütuhatın nüvəsi bərkiməlidir. Bu inteqral isə Ruhun İdrak dayağında – fəlsəfədə gerçəkləşir. Güclü bir hərəkata çevrilən fəlsəfi ensiklopedizm ümumən islam mədəniyyətinin rasional əsaslarını yaradaraq, digər elmlərin də inkişafına təkan verir. Lakin bu mədəniyyətdə hər zaman ilahi müdriklik *(hikməti ilahiyyə)* fəlsəfi düşüncənin

cövhərini təşkil etmiş olur. İslam fəlsəfəsi – o cövhəri küll halında əxz edən, insan-dünya münasibətlərinin böyük *irfan* yolunu açan sufilikdə ən yüksək səviyyəsinə çatır. Antik yunan ənənəsinin davamı kimi, lakin dünya tarixinin yönünü dəyişdirəcək gücdə *elmi əxlaqla birləşdirən fəlsəfi dünyagörüşünün özülü* qoyulur. Dörd yüz ildən çox müddətdə islam *"Əski Dünyanın brilyant sivilizasiyası"* olur (**2**).

Bir-birini təsdiq və təkzib edən müxtəlif fəlsəfi məktəb və cərəyanlar, onlara mənsub filosoflar Kə'bədəki *Həcər-ül-əsvədin* başına dolanırmış kimi islamın "mütləq və müqəddəs" cazibəsində fırlanır da, öz həqiqətlərinin dalınca hətta ölənədək gedirlər də. "Ədalət və təkallahlıq" *("əhl əl-ədl və tövhid")* inancına sadiq *kəlamçıların* ilk böyük məktəbi ilə – *mötəziliklə* polemikaya girən Əl-Əş'əri "Mənim ağlım dinin dəlillərindən yüksəkdirsə, mən necə *"qeybdən"* gələn vəhylərə inana bilərəm?" – deyə sual edir və *zəkanı* mütləq meyar kimi götürərək onun dindəki *"qeybə"* inam prinsipi ilə bir yerə sığmadığı qənaətinə gəlir. Böyük türk imperatoru Mahmud Qəznəlinin Hindistana hərbi yürüşünü müşayiət edən Biruni ilk dəfə bu ölkənin mədəniyyət dəyərləri ilə islam dünyasını tanış edir, Platon və Pifaqor fəlsəfəsi ilə hind müdrikliyi və sufilik arasında uzlaşım taparaq, fərqli mədəniyyət düşüncələrinin vahid kontekstinə komparativist yanaşmanı elmi təcrübəyə gətirir. İki xəlifənin – Əl-Mə'mun və Əl-Mü'təsimin sevimlisi, üçüncü xəlifəninsə (Əl-Mütəvəkkil) qovduğu, ömrünün sonunu tənhalıqda keçirən Əl-Kindinin qneseologiyası fəlsəfə və məntiq də daxil olan humanitar elmlərlə *("ilm insani")* yalnız peyğəmbərə açılan ilahi elmi *("ilm ilahi")* fərqləndirir. "Birinci ustad" *("Magister primus")* Aristoteldən sonra "İkinci ustad" *("Magister secundus")* sayılan, ensiklopedik elmi irs yaradıcısı, 117 kitab müəllifi Əl-Fərabi belə hesab edir ki, müdriklik (erkən fəlsəfə) dünyada ilk dəfə Babilistanda xaldeylər arasında meydana gəlmiş, buradan Misirə ötürülmüş, sonra Yunanıstanda yazılı mətnlər şəklində elmə çevrilmişdir. Filosof belə hesab edir ki, onun da missiyası bu bilikləri sistemləşdirərək yenidən yarandığı ölkəyə qaytarmaqdır. Əl-Fərabi "İki müdrikin – İlahi Platon və Aristotelin baxışlarının harmoniyalaşdırılması" traktatında fikir tarixində ilk dəfə olaraq həmin çağdaş antik filosofların dünyagörüşlərinin fundamental cəhətlərindəki ortaq məqamları – onların "dünya əzəlidir, yoxsa yaradılmışdır?" probleminə yanaşmalarınadək – üzə çıxarır (**3**). Yunan fəlsəfəsində "İlahi" Platon xəttini xüsusi səylə inkişaf etdirən, incə bir fərqlə Aristoteli "İlahi" saymayan Əl-Fərabi "Mükəmməl Şəhər" *("əl-mədinə əl-fədilə")* layihəsi ilə *cahil cəmiyyətə* qarşı *adil cəmiyyət* idealını alternativ qoyur. 30-dək elm sahəsini əhatə edən 450 traktatın müəllifi İbn-Sinanın *(Avisenna)* tibb ensiklopediyası – "Qanun" əsəri Şərqdə və Qərbdə əsrlərin kitabı olur.

Tövhidi yalnız monoteizm çərçivəsinə sığdıran və ehkamlaşdıran islam onu böyük *Vəhdət fəlsəfəsinə* çevirən sufiliklə münasibətlərini heç cür yoluna qoya bilmir: bilmir ki, onu inkar etsin, yoxsa təsdiq. Sufilik – islamın canından Qorxunu, Hərfi, Ehkamı, hətta Şəriəti dartıb çıxarır, yerini onun susuzluq çəkdiyi Sevgi, Həqiqət və Vəhdətlə doldurur. Sufilik eşqin Ana Yurdundan –

Qadın Qəlbindən tarixinə başlayır: Rabiyə əl-Ədəviyyə elə islamın sübhündə "Mən öz mövcudluğumu dayandırmış, Allaha qərq olmuş, Onunla vəhdətə gəlmişəm!" – deyərək yerüzü məhəbbətinin yönünü yalnız Xaliqə tuşlayır. Zərdüştçü farsın nəvəsi Mənsur Həllac Məkkədən Hindistana, Türküstana və Çin sərhədlərinədək islamı və islam içində sufiliyi yaya-yaya, insan mənəviyyatının ilahi başlanğıcını oyadır. 922-ci ildə edam edilən və bütün sufi nəsilləri üçün, onunla eyni taleyi yaşamış bizim böyük Nəsimi və Sührəvərdi üçün əzabkeşliyin məşəlinə çevrilən Mənsur Həllac, əslində, elə gəncliyindən şəriətin formal edam hökmünə doğru şəhid ola-ola gəlirdi!

Bistami, Cüneyd, Timrizi, Əl-Qəzali, İbn Ərəbi, Xəyyam, Kübra, Sə'di, Əttar, Rumi, Şirazi, Şəbüstəri, Lahıci, Kirmani, Bektaşi, Nəimi, Nəsimi, Cami, Füzuli, Kaşifi, Ənsari, Nablusi, Nur Əli Şah kimi ulu sufi mütəfəkkirləri və sufilikdən keçənlər təriqətçi özəllikləri ilə birgə sufiliyi praktikasından metafizikasına qədər dərinləşdirib zənginləşdirərək, *sivilizasiyanın hərəkət trayektoriyasını onun bütün dəyərlərini yaradan məkana – insanın mənəviyyat aləminə* köçürürlər. Çünki Əbədiyyətin gerçək mahiyyətində dərk olunduğu ocaq buradır! Bağdad şeyxi Əbu Bəkr əs-Şibli söylər: "Sufi olmaq – bu dünyada doğulanadək necə olmuşdunsa elə olmaq deməkdir!" Əl-Qəzaliyə görəsə, insanın yeganə sərvəti – gəmi batarkən onun itirmədikləridir. Fəlsəfənin yalnız sufilik yolunda dünyanın *sakrallığı* və *metafizikliyi* öz vəhdətini tapa bilir!

İslam dünyasının *("dar-əl-islam")* Qərb sonunda – İspaniyada da ərəbdilli islam fəlsəfəsi və onun sufilik özəyi yaranır. Qərb-Şərq dialoqu – İbn-Rüşd *(Averroes)*-Qəzali polemikası başlayır (**4**). "İnsan elmini" idrakın mərkəzinə çəkən İbn Rüşdün də təsir göstərdiyi "Renessans epoxasını çiçəkləndirən yeni bəşəriyyət buradan doğulur" *(Kvadri)*. 17 yaşında İbn-Rüşdlə qeyri-adi söhbətdə bulunmuş, illər sonra bu böyük alimin dəfnində iştirak etmiş, Cəlaləddin Rumi ilə dostluğundan bəhrələnmiş və böyük Azərbaycan filosofu Nəsirəddin Tusi ilə məktublaşmış İbn Ərəbi islam fəlsəfəsinin Şərq və Qərb qanadları üzrə bütün başlıca xətlərindən gələn ideyaları konsentrasiya edərək varlığın transendental vəhdətində *("vəhdət əl-vücud")* qərar tutur. İslam əxlaq fəlsəfəsini etik-rasional əsaslarda Nəsirəddin Tusi, mistik əsaslarda Cəlaləddin Rumi konseptual bitkinliyinə çatdırır. Mövlana Cəlaləddin Rumi varlıq təkamülündə insan substansiyasının taleyinə hind *sansara* təlimindən daha dərin, Darvindən daha müdrik, həm də onun kosmik perspektivində yanaşır: "Sən başlanğıcında gil idin. Mineral qatından keçib bitki oldun. Bitkidən canlıya, canlıdan insana döndün. Bütün bu mərhələlərdən keçərkən hara getdiyini bilmədən uzun bir yolçuluğun cazibəsindəsən. Keçəcəyin yüzlərlə dünyalarsa hələ sənin qarşındadır"(**5**).

Nitsşenin "üstinsanı" heç görünməzdir islam fəlsəfəsindəki makrokosm – *İnsani Kəbir (Böyük İnsan – Homo maximus)* qüdrətinə çatan və *"ən-əl-həqq"* deyən *"İnsani-Kamil"*in yanında. "Avesta" atəşini öz fəlsəfəsinə içirən azərbaycanlı düha – "İşıq Şeyxi" *(şeyx-əl-işraq)* Şihabəddin Yəhya Sührəvərdi Zaratuştraya (Zərdüştə) dünyanın mənəviyyat məbədini tikən bir ustad tək, Nitsşe isə həmin ari peyğəmbərinə o məbədi sökən bir qiyamçı tək istinad edir. İşraq

Şeyxinin "nurlar nuru" *("nur-əl-ənvar")* insanı öz kamilliyinin omeqa nöqtəsinə çatdıran əbədi ilahi fəzilətdir ki, o – kənardan, hansısa dini kitablardan, didaktik qaynaqlardan gəlmir, insanın elə öz varlığından doğur! Yalnız İşraq Şeyxinin obrazlaşdırdığı "Platonlaşmış Aristotel"(**6**) ona belə deyə bilər: *"Özündə özünü oyandır!"* Belə bir inqilabi təfəkkürlə ortodoksal islamın mütləq kanonikasına qarşı bizim işraqilik fəlsəfəsinin yaradıcısı özünün həlak edilməsinə (1191) səbəb olan tarixi mühakimələrindən birini irəli sürür: *"Nübüvvəti batiniyyə"* (ezoterik peyğəmbərlik) tükənməzdir, daimidir və hər zamanın öz peyğəmbəri zühur edə bilər! Allahın öz nurundan yaratdığı *İnsanın Peyğəmbər olmaq qüdrətinin* qarşısını kim və nə ala bilər?!

Əsasən, rəsmi islama müxalifət tendensiyasında ruhun böyük təkamülünü yaşayan bir sıra müqtədir islam filosofları "Quran" təməlindən çıxış edərək dini ehkamlara zidd mövqelərini məharətlə irəli sürmüşlər. Onlar islamı təkcə din kimi deyil, dünyanın dərki vasitələrindən biri kimi qəbul edərək, intixab etdikləri unikal metodologiyalarla bir çox yarar fəlsəfi və dini sistemləri, baxışları özlərinin vəhdət fəlsəfəsinə sintez edə bilmişlər. Dövrü üçün ən geniş coğrafiya boyunca – Mərkəzi Asiya və Hindistandan İspaniyaya, Azərbaycandan Misirə qədər islam sivilizasiyasının ideya qatında yüzilliklərlə davam edən diskurs mühiti təşəkkül tapmışdır. Özü də ərəblərdən daha çox digər xalqların mənsubları (xüsusilə farslar və türklər) islam fəlsəfəsinin yaradılması prosesində iştirak etmiş, XVI əsrə qədər Avropa fəlsəfəsindən daha zəngin mənəvi-intellektual məkanı ərsəyə gətirmişlər. Bu məkanda dini-fəlsəfi məktəblərin diferensiasiyası da təkcə fikir ayrılıqları səbəbindən deyil, özəlliklə güclü potensiala malik ideyaların törəyib artma, şaxələnib çoxalma stixiyasındandır. Buna görə də İslam Şərqində hətta aralarındakı konfliktlərlə müşayiət olunsa da, çoxtəriqətlilik və ya təriqətləşmə səngiməz ideya mücahidliyinə də rəvac vermişdir. Bəzən bu axın o qədər qarşısıalınmaz olmuş ki, siyasi böhran və çevrilişlərə gətirib çıxarmışdır.

Ürəfa və üləmalar arasında nüfuza malik olan mütəfəkkirlərə islam dövlətlərinin saraylarında etinasız qala bilməmiş, ya ehtiramdan, ya da məcburiyyətdən onlara sayğı göstərmiş, fikir və məsləhətlərinə diqqət də yetirmişlər. Modern Avropa tarixşünaslığına və sosiologiyasına belə güclü təsir etmiş İbn Xaldunun Teymurilər imperiyasının yaradıcısı Əmir Teymurla 1401-ci ildə Dəməşqdəki görüşü bu mənada ibrətlidir: həmin görüşün nəticəsi olaraq, İbn Xaldun mövcud türk-islam dövlətçiliyi sisteminin sosial, siyasi və hüquqi əsaslarını işləmiş, orta əsrlər klassik idarəetmə sisteminin başlıca cəhətləri xüsusunda orijinal düşüncələrini bəyan edərək, optimal idarəçilik təsnifatını irəli sürmüşdür (**7**). III Moğol imperatoru Əkbər şah isə Hindistan, İran və Azərbaycandan olan sufilər və digər filosoflarla dərin münasibətləri, xüsusilə işraqilik fəlsəfəsinə rəğbəti zəminində elan etdiyi *"Din-i-İlahi"* (1582) doktrinası ilə ölkəsindəki müxtəlif din və məzhəblərə etiqad edən insanların – müsəlman, induist, jaynist, yəhudi, zərdüşt, yezuit və s. din daşıyıcılarının universal birliyinə siyasi, əxlaqi, teoloji və ideoloji bünövrə qoymuş, din və siyasətin əxlaq konvergensiyasına zərurət yaşadığını sübut edən islahat həyata keçirmişdir (**8**).

Lakin islam sivilizasiyasının tarixi inkişafında belə mütərəqqi islahatlar, həmin tendensiyada fəlsəfə və siyasətin, cəmiyyət və dövlətin, xalq və hakimiyyətin yaxınlaşdırılmasına, uzlaşdırılmasına və bu proseslərin praqmatik müstəviyə keçirilməsinə edilən cəhdlər mütləqiyyətçilik statusunu nə dünyagörüşündə, nə də monarxik və despotik dövlətlərin praktikasında heç bir dəyişikliyə uğratmayacaq dərəcədə zəif olmuşdur. Mütləq teokratik imperiyanı – Xilafəti kim təkzib və rədd edə bilərdi?! İslamda "peyğəmbər" sayılan, hətta "Quran"da *(18:83-99)* özünə məqam tutmuş ekspansionist Makedoniyalı İsgəndər hansı şahı nə ilə tərbiyə edə, ona nədə nümunə ola bilərdi?! Örnəyi – İsgəndər olan bəşəriyyətin, tarixi də – belə olar: müharibələr tarixi. Nizami Gəncəvi ilə birlikdə dövrünün bir çox mütəfəkkirlərini düşündürmüş "Rəhim və Rəhman" Allahın yerüzündə kölgəsi "ədalətli ideal şah" konsepti sülalə monarxiyasına əsaslanan bir sistemi – əski şahlıqdan zəmanəmizin şeyx-krallar səltənətinədək – azacıq da laxlatmaq gücündə idimi?! Heç buna can da atılmırdı. *Dövlətdən çox, Hərəmxana "quruculuğu"* ilə, "Yeddi Gözəl"in cərgəsini günümüzədək sıxlaşdırmaqla məşğul olan bir qafanın içərisində yalnız öz nəslini – hətta onlar bir-birini qırsalar da! – ali hakimiyyətdə möhkəmlətmək, "əbədi olaraq" sarsılmaz etmək niyyətləri dolanıb. "Fəlakət" effektində bir inqilab – ancaq *saray çevrilişi* ola bilərdi: Şərq istibdadlarının ayrılmaz atributu! Deməli, bu düşüncə yalnız *birincini* hansı formada isə devirməkdən uzağa gedə bilmir, *vətəndaş iradəsi* müstəvisinə qalxmırdı. Əl-Fərabinin "Vətəndaş siyasəti" traktatı da siyasi nəsihətçilik cızığını keçmirdi. İslamın Türk Epoxasında (XI-XVIII yüzilliklər – islam sivilizasiyası və siyasi tarixinin 14 əsrinin 8 əsri!) böyük ulusçuluq gələnəyinə sahib bu passionar superetnos "islamın qılıncı və qalxanı"(**9**) sayılırdı. İslam siyasi fəlsəfəsi ən azı "türk parlamentarizminin" ilk rüşeymləri – *qurultay və gənəşək* üzərində təsisatlanmanı mümkün edən şərtlərə diqqət yetirməli, çarpaz fikir yorumlarına yol açan "İnkar mübarəkdir"(**10**) mövqeyi inkişaf etdirilməli idi. Bir sıra Qərb ölkələrində isə ortaçağ parlamentarizm təcrübəsi artıq yeni dövrdə onların demokratik platforma üzərində siyasi inkişafına təkan verəcək bir istiqamətə çevrilmişdi.

Yeniləşən dünyada "bəşəriyyətçilik" məzmununa dola bilməmiş "ümmət" universalizmi içrə ləng-ləng dövr edən islam cəmiyyətləri milli özünüdərk, milli mədəniyyətlərin təşəkkülü, *ümmətçilikdən milliyyətçiliyə* keçid proseslərini də çox ağrılı yaşamışdır. XIX əsrdə islam dünyasının əsas dövləti Osmanlı Türkiyəsinin çırpıntıları buna örnəkdir. Hətta XX əsrin əvvəllərinə qədər milli kimlik təyinatında mikroskopik erməni özünü məhz "erməni" sayır, kosmopolit azərbaycanlı isə özünə "müsəlman" deyir, Mirzə Ələkbər Sabirə "Harda müsəlman görürəm, qorxuram!" – üşəntisini yaşadır, elə ondan da "Açsan gözünü, rəncü məşəqqət görəcəksən // Millətdə qəm, ümmətdə küdurət görəcəksən!" – tənəsini acqarına yeyir, Cəlil Məmmədquluzadəyə elə onlara – dolandıqları ölkənin adını belə bilməyən "lüt-üryan Vətən qardaşlarına" müraciətlə "Azərbaycan" məqaləsini yazdırırdı. Beləcə, bütün İslam Şərqi milli müəyyənlik oriyentasiyasından sapdığı və sapdırıldığı üçün bu çalxantılı region milli dövlət-

lərdən daha çox monarxik və ya avtokratik rejimlərin, seqmentləşdirici milli ideologiyalardan daha çox, bir-birinə zidd məzhəblər zəminində qərarlaşmış təpəgöz dini ideologiyaların məkanına – planetin potensial təhlükəlilik zolağına çevrilmişdir. Əlbəttə, *ümmət* düşüncəsi ilə *qəbilə* düşüncəsinin eybəcər qaynağında və qaçılmaz toqquşmasında yaşayan bir cəmiyyət və onun tirələnmiş dünyagörüşü özünə necə dürüst yol ayırd edə bilərdi?! Etiraf edilməlidir ki, keçmişindən gələcəyinə doğru tərəqqi etmək əvəzinə, tərsinə, əsas yönləri ilə getdikcə qartıyıb qalınlaşan, zirehləşib deşilməz olan, sanki nüvəsini yeyincəyədək ortodoksallasan islam – müasir dünyaya onunla ayaqlaşa bilməyən əhalicə çox, ideyaca cırtdan cəmiyyətlər gətirib çıxarıb...

Əski (Misir, Şumer, Akkad, İudey, İran...) kahinliyin sərtliyini özündə yaşadan qatı şəriətçilik İslam Şərqində *azadlığın sonuncu qalasını – Sufiliyi* yenməsəydi, şübhəsiz ki, bu böyük mədəniyyət ehkamdayaqlı yox, insandayaqlı fəlsəfənin yoluna çevrilər, alimənsəblər qarşısında itaətkarlığa göz yummayan, cəmiyyəti ədalətli sosial qanunlara doğru hərəkət etdirən Siyasi İradəyə üfüq açılardı. Qərbdə isə məhz belə olmuşdu. Orada Şəxsiyyət *Vətəndaş statusunda* özünü Şərqdəkindən tez tanımışdı. Elm Dinə meydan oxumağı bacarmışdı. Elə Sufiliyin də məğzini təşkil etdiyi, Şərq və Qərb fəlsəfəsinin qaynağında yetişən Panteizm Avropa Renessansını, Renessans Yeni Çağ dünyagörüşünü, bu da Azadlıq fəlsəfəsini meydana gətirmişdi. Təxminən XVII əsrdən başlayaraq, *Şərqlə Qərbin yanaşı getməli olduğu yol* məhz Şərqdə dayandığından, dünya inkişafına daha yetkin rasionallaşma istiqamətində tarazlıq gətirə biləcək imkanlar da aradan qalxmış – "bütün dünyaya tacir və quldur kimi" soxulan(**11**) imperialist Qərbin Azadlıq və Humanizm fəlsəfəsinə xəyanət etməsi ilə onun Şərq üzərində dominantlığına meydan açılmışdı... Bu dayanış, Şərq-Qərb meqasistemində Qərbin irəli çıxması, dünya sivilizasiyasının dixotomiyasında Qərbin hökmranlaşması – təkcə Şərqin geriyə atılması ilə nəticələnməyəcək, ən əsası, dünyanın idarə edilməsini Qərbin əlinə verəcək, hətta beynəlxalq hüquq normalarının büsbütün Qərb modelində təsbit olunmasına tarixi şərait yaradacaqdı!..

Fəqət mütləqiyyətçi rejimlərin islam dünyasını qəfəsə saldığı gerçəyi çox gec – Qərb imperializmi Şərq dövlətlərini tapdalamağa başlayanda bütün faciəsi ilə, həm də perspektiv uğursuzluğu açıq görünən *geopolitik məğlubiyyət faktı* kimi üzə çıxdı. Şərq teokratik düşüncə sistemi görün nə qədər qatı idi ki, hətta islam sivilizasiyasının çöküş epoxasında (XIX əsr – XX əsrin əvvəlləri) onu dirçəltməyə çalışan mütəfəkkirlərin belə islahatçılığında islam faktoru hər şeyi üstələyərək, bütün problemlərin başında dayanırdı. Teokratiya Şərqi yedikcə, Qərb də Şərqi yeməyin əlverişli imkanlarına malik oldu. Nəticə isə göz qabağındadır: XX əsrin əvvəllərindən bu günə qədər islam dünyasının episentrində bir-birini təşviq edən üç neqativ tendensiya – militarlaşma (milliləşmə yerinə!), radikallaşma (iradə azadlığı yerinə!) və ifrat təməlçilik (fərqli konseptual ideyaların polifoniyası yerinə!) təkamül məntiqindən uzaq olan bir yolla təmərgüzləşərək, nəinki özünü, hətta müsəlmanların yaşadığı nisbətən demokratikləşmiş "mülayim" respublikaları da burulğanına çəkmək meylində və iddia-

sındadır. Hətta XXI əsrdə Mehdi Sahib-əz-Zəman axtarışına çıxır, "Hezbollah"la Allahı partiyalaşdırır, "müsəlmanca" qardaşlaşmaqdan savayı bir yol tanımır, "əl-qaidə"ləşir, "işid"ləşir, bir-birinin ətini yeyib sümüyündən barrikadalar qura-qura Xilafət ideologiyasının ekspansiyasına can fəda edirlər. İslamın bu yöndə ideolojiləşməsi və siyasiləşməsi, bütün cəhdlərə baxmayaraqsa, islam cəmiyyətlərinin passivlikdən və əyintilərdən qurtulmaması onun dünyagörüşündə tarixi çatların nə qədər dərin olduğunu göstərir. Bu prosesdə həmin dünyagörüşünü bilavasitə funksionallaşdırmağa məsuliyyət daşıyan fəlsəfənin özünütənqidianalizi elə erkən təşəkkül vaxtlarından ta indiyədək hər zaman gərəksənib. Görkəmli fransız şərqşünası Anri Korben tamamilə haqlıdır: "İslam filosoflarının konseptual təməli sosial normalar haqqında etik doktrina deyil, mənəvi kamillik ideyasıdır ki, bu təməldə insan individuumu *horizontal* ictimai-siyasi ölçülərini deyil, onu transendental iyerarxiyaya, şəxsi taleyinin yüksək zəmanətinə bağlayan *vertikal* ölçülər əldə etməyə qadirdir" (**12**).

On dörd əsrlik tarixə malik islam fəlsəfəsi insanın içində böyük qüdrətlə yaratdığı işıq səltənətini onun ətrafında da eyni səylə yarada bilməməklə, əslində, nəinki idrakın daxiləyönlü və xaricəyönlü fəaliyyətləri arasındakı balansı pozub, həm də çağımıza doğru hərəkətində özünü çıxılmaz dekadansa yuvarladıb: Kamil İnsan və Piramidal Cəmiyyət. – Zahirən oxşasalar da, axı, bunlar bir-birini inkar edir! Fəlsəfənin heç bir probleminin – kəlamdan təbiətədək – gözdən qaçırılmadığı bunca bəsirətli mədəniyyət dünyasında onun konseptuallığı məntiqi olaraq təkcə insanın *özünün* deyil, insanlararası "kamil" münasibətlərin də rasional ədalətlilik, bərabərlik, qanunun aliliyi modelində təsbitini imperativləşdirməli idi. İslam fəlsəfəsinin antik yunan ənənəsindən gələn və universumu əksliklərin vəhdəti dialektikasında dərk edən dünyaqavramı da buna əsas verirdi: *baqi* (əbədi) və *fani* (keçəri), *batin* (ezoterika) və *zahir* (ekzoterika), *zaman afaki* və *zaman anfusi, tənzil* və *tə'vil.* Müvafiq "Quran" ayəsinə *(41:53)* söykənən bu fəlsəfi yanaşmada *zaman afaki* – vaxt kimi kəmiyyət ölçüsünə malik homogen, obyektiv, *tarixi zaman* və *zaman anfusi* – insanın daxili aləminin keyfiyyət ölçüsünə malik əbədi, *mənəvi zaman* fərqləndirilmək həssaslığındadır. İslam fəlsəfəsi insan mənəviyyatını ən dərin irfan qatında bu intəhasız dərinliyə kökləyir: *tənzil* o yoldur ki – Müqəddəs Kitab səmadan enir, *tə'vil* o yoldur ki – insan onu dərk edib özünküləşdirir, varlığına hopdurur, sonra yenidən əslinə, ilkinliyinə qaytarır. Bu mistik dialektikanın gizli mənası odur ki, Kainat proqramında ilahi vəhyin insan sferasında – yerüzündə gerçəkləşdirilmək zərurəti vardır: ideal "maddiləşir" və mükəmməl antropoloji keyfiyyətində yenidən səmaya – öz başlanğıcına qayıdır. Yəqin ki, məhz bu məqamda dönüşyaradıcı cəsarətli addım atılmalı idi: monarxik sistemin ideasional bazası olan və onun çox rahat yerləşdiyi *"fani dünya"* modelindən əl çəkilməli, yetkin şəxsiyyətlərin yaşaya biləcəyi cəmiyyət və dövlət qurmaq məqsədləri və vəzifələri (utopiya kimi yox!) ortaya gətirilməli idi. Axı, bu fəlsəfənin bir an belə mehvərindən ayrılmadığı *həqiqət* və ə*dalət* yalnız insanın içərisindədirsə və təzahür edə bilmirsə, deməli, məhbəsdədir və öləcək!

İslam fəlsəfəsi öz din qınında daralıb-sıxıldıqca, spekulyativ sillogizmlərində boğulduqca, bir dərviş sərgərdanlığı ilə axtardıqlarını tapmadıqca, prafetologiya (peyğəmbərlik elmi) və imamologiya (imamət) hüdudlarından kənara çıxa bilməmək, təriqətlərində axıb itmək, azıb itmək iradəsizliyini daha çox əyan etmiş oldu. "Quran" özü bir fəlsəfədir" hökmü – fəlsəfəni onun mənafelərinə rəğmən ilahiyyatlaşdırmaq, ən yaxşı halda teosofiya çərçivəsində qərarlaşdırmaq israrından əl çəkmədi. Min il sonra (XVI əsr) "Səfəvi Renessansı" *(Anri Korben)* onu silkələyib-titrətsə də, fəlsəfənin dinə "qulluq etməsinin" lap başlanğıcdan gələn məşum xətti üzrə deqradasiya qaçılmaz oldu. Əlbəttə, klassik islam fəlsəfəsi bəşəriyyətin yalnız keçmişində qalan dəfinəsi deyil, böyük mənəviyyat potensiyası ilə onun tükənməz sərvətidir. Elə yanar olduğu üçün də onun "Günəş ləkələri" zamanın teleskopunda sezilməkdədir. Hələ bu gün də yetkin və örnək bir dövlət qura bilməyən islam dünyasının çaşqın vəziyyəti bir vaxtlar insan mənəviyyatını və əxlaqını ən yüksək mərtəbəyə qaldırmış ilahi fəlsəfənin boşluqlarından çox aydın görünür. Öz çağdaşlığını yarada bilməyən İslam Şərqi "Qərb müasirliyi" cildinə girirkən, olduqca köhnədəb görsənir. İnsanı bunca ucaldan fəlsəfə onun *mənəvi kosmosunun* ölçülərinə heç cür uyğun gəlməyən piramida-dövlətlərin – *darısqal sülalə rejimlərinin* haçansa uçulub üstünə töküləcəyini də fəhm etməli idi...

Qərb çoxdan tarixin *postxristian* mərhələsinə keçsə də, İslam Şərqi nəinki *postislam* mərhələsinə keçməyib, heç 800-1000 il qabaqkı yaradıcı enerjisini belə saxlaya bilməyib. Hələ də burada yeni qlobal sivilizasiyanın zahiri nailiyyətlərindən bəhrələnən ridumental cəmiyyətlər fəxrlə özlərini "islam dünyası" (hamı da onlara öz sözləri ilə belə deyir) adlandırırlar – fərqinə varmadan ki, bu gün planetin heç bir guşəsində özlərini "xristian dünyası", "buddist dünyası", "induist dünyası", "iudaist dünyası" olaraq öygüləyən bir kimsə yox. Bu isə təəssübkeş Qərb siyasi-kulturoloji analitikasına fürsət və bəhanə verir ki, məsələn, Samyuel Hantinqton nümunəsində "islam sivilizasiyasına" yalnız dini parametrlərlə yanaşma meyarını əsas götürərək onun problemlərindən – əlbəttə, birtərəfli şəkildə – bəhs etsinlər (**13**). İslam Şərqi *dindən sivilizasiyaya doğru təkamülün* əzablı yollarını adlaya bilməyərək, öz ziddiyyətləri içərisində boğulub qalıb. Nə o özü, nə də onun üzərində üstünlüyündən məharətlə yararlanan Qərb bu regionda artıq "psevdo-islam" mahiyyətini almış mövcudluq durumundan sıyrılmağa imkan verir: mücərrəd "islam dünyası" özlərinin böyük gələnəkləri təməlində Ərəb sivilizasiyası, İran sivilizasiyası, Türk sivilizasiyası... gerçəkliyini ala bilmir, həmin sivilizasiyalara mənsub millətlərin və dövlətlərin planetar çağdaşlığını, həm də təbii, güclü müttəfiqliyini yaradacaq siyasi fazaya adlamaqda çətinlik çəkir.

Ümumiyyətlə, üzü gələcəyə deyil, keçmişə dayanan islam orta əsrlər çəyirdəyindən çıxıbmı?! Elə çıxa bilmədiyindən də onun "müasirləşməyi" *özgələşmənin* məcrasına dolub, burada özünəbənzəməz sifətlər alıb və yetərincə gülüncləşib. Günümüzün ekzotik ərəb monarxları ona görə köhnə qiyafədə zühur etmirlər ki, öz milli adət-ənənələrinə belə dərindən bağlıdırlar, əksinə, ona görə

ki, onların qafası ortaçağ donundadır və cəmiyyəti də hər vəchlə bu donun ölçülərində saxlamaq çabasındadır. *Göydələnli islamla minarəli islamın ittifaqı* təbii deyil, zorakı konsensusdur. O göydələnlərdən "müasir" islamın orta əsrlər ruhu, xüsusilə top-siyasi-mərtəbədə monarxik içalatı – *təksoy hakimiyyətçiliyi* və onların fəsadları, geriyəçəkərliyi əsl panoram görüntüsündə açılır...

Belə olduğu halda islamın və islamçılığın müasir dünya siyasətinə, beynəlxalq münasibətlər sisteminə hər hansı bir dəyişdirici, yeniləşdirici təsiri mümkündürmü?! Hegemonlar üçün vasitə olmaqdan başqa onun əlindən nə gəlir ki?! Siyasi analitiklər 1,5 milyard insanın yaşadığı 57 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının "boş ritorika forumundan başqa bir şey" olmadığını zənn etməkdə haqlı deyillərmi?! (**14**). Məsələn, elə həmin Təşkilatın iki üzv dövlətini – ideologiyasından geopolitikasına qədər kəskin qarşıdurma vəziyyətində olan (hələ tarixi ziddiyyətlər bir yana qalsın...) Səudiyyə Ərəbistanı ilə İranı islam sivilizasiyasına mənsubluqda hansı dəyərlər birləşdirir?! Təkcə Kə'bə ziyarətimi?!

Bəs bu gün islam dünyasındakı fəlsəfə, görəsən, onun harasında gizlənib?! Yadıma iştirak və çıxış etdiyim XXII və XXIII Dünya Fəlsəfə Konqreslərini (Seul – 2008 və Afina – 2013) salıram: hətta bilavasitə islam fəlsəfəsi problemlərinin müzakirə olunduğu bölmə və diskussiyalarda özək islam ölkələrinin filosofları və fəlsəfəşünasları sanki yoxmuşlar kimi gözə dəymirdilər. Amma ləzzət süzülən bütün məkanlarda müsəlmanlar milyonlarcadır. Neft pullarını "fani" adlandırdıqları dünyada onun tam əskinə – Dəbdəbəyə, Qadına və Silaha xərcləyirlər. Qarından qalanı da başın xıltına – çürük ideologiyaların tuluqlaşıb yayılmasına. Düşünürəm: islam fəlsəfəsində o çatmır ki, məhz o – islam dünyası faciəsinin əsas determinantlarını yuvalanmağa qoymazdı. Bu – alternativ yanaşmaları boğmayan, əksinə, onlara nəfəs verən özününtənqid mədəniyyətidir!

Doğrudanmı, *homo-islamicus* sivilizasiyanın həm dövlət, həm də düşüncə sistemində monokratiyadan ölüncəyədək əl çəkməyən *sonuncu insanı* olacaq?!

Bu suallar həm də dini inancına görə əhalisinin böyük əksəriyyəti müsəlman olan, hər zaman islam dünyasına yenilik ruhu gətirməyi bacaran Azərbaycanın – müasir beynəlxalq sistemin inkişaf etmiş demokratik dövlətləri arasında özünəməxsus yer tutmaq iddiası və haqqı olan ölkəmizin qarşısındadır.

Ədəbiyyat:

1.Adamson P. Philosophy in the Islamic World. Oxford University Press, 2018.

2.Braudel F. A History of Civilizations. Trans. By R.Mayne, NY.: Penguin Books, 1993, p.73.

3. Alfarabi. The Political Writings. "Selected Aphorisms" and Other Texts. Ed. and trans. by Butterworth Ch.E., Ithaca and London: Cornel University Press, 2001, pp.115-167.

4.Classical Arabic Philosophy. An Anthology of Sources. Ed. and trans. by

McGinnis J., Reisman D.C. Hackett Publishing Company, 2007, pp.295-308.
5.Суфии. Собрание причт и афоризмов. М.: ЭКСМО-Пресс, с.191.
6.Корбен А. История исламской философии. М.: Прогресс-Традиция, 2010, с.206.
7.Fischel W.J. Ibn Khaldun and Tamerlane. Berkeley: University of California Press, 1952, pp. 70-71.
8.Koller J.M. Asian Philosophies. New Jersey: Pearson Prentice Hall, 2007, pp.182-183.
9.Рахманалиев Р. Империя тюрков. Великая цивилизация. Тюркские народы в мировой истории с X в. до н.э. по XX в. н.э. М.: Рипол Классик, 2009, с.10.
10.Oğuznamə. Çapa hazırlayan: Samət Əlizadə. Bakı, Yazıçı, 1987, s.43.
11.Гердер И.Г. Идеи к философии истории человечества. М.: Наука, 1977, с.313.
12.Корбен А. История исламской философии. М.: Прогресс-Традиция, 2010, с.246.
13.Huntington S.P. The Clash of Civilizations and the Remaking of World Order. N.Y.: A Touchstone Book, 1997.
14. Oborne P. 25 Years on, Huntington's "Clash of Civilisations" Theory has been Refuted // https://www.middleeasteye.net/columns/twenty-five-years-huntington-s-clash-civilisations-theory-has-been-refuted-308271749

Faiq Ələkbərli

ÇAĞDAŞ AZƏRBAYCAN TÜRK FƏLSƏFƏSİNİN BAŞLICA PROBLEMLƏRİ

XIX-XX əsrlər Azərbaycan türk fəlsəfi və ictimai fikri bu günümüzlə, gələcəyimizlə birbaşa bağlı olduğu üçün onu araşdırmaq və təhlil etmək çox vacib və məsuliyyətli məsələdir. Ona görə ki, bu dövrdə Azərbaycan türklərinin ictimai-siyasi həyatı və mədəni-fəlsəfi mühiti yeni bir mərhələnin başlanğıcına təsadüf edir. Yeni mərhələyə baxışın müsbət ya da mənfi çalarlar daşımasından asılı olmayaraq bir şey həqiqətdir ki, Azərbaycan xalqı bir tərəfdən yeni ictimai-siyasi və elmi-fəlsəfi həyata bütöv şəkildə daxil ola bilməmiş, digər tərəfdən isə Qərb mədəniyyətinin ciddi təsirinə məruz qalmışdır.

Hər iki amil son iki əsrdə Azərbaycan türk fəlsəfəsinin, tarixinin, mədəniyyətinin, ədəbiyyatının, siyasətinin başlıca problemləri sırasında qalmaqdadır. Əgər son iki əsrdə Azərbaycan xalqı maddi və mənəvi anlamda bütövlüyünü itirmisdirsə, bu, dolayısıyla onun tarixinin, ədəbiyyatının, dilinin, mədəniyyətinin və fəlsəfəsinin yazılmasında yarımçıqlıq kompleksinin ortaya çıxmasına səbəb olmusdur. Etiraf edib-etməməyimizdən ya da bunun fəlsəfə ilə nə qədər bağlı olub olmamasından asılı olmayaraq, bu, bir həqiqətdir ki, əgər hər hansı

xalqın fəlsəfəsi, tarixi, ədəbiyyatı yarımçıqlıq kompleksi şərtləri altında yazılırsa, o zaman həmin xalqın, sözün həqiqi mənasında, milli ruhunu əks etdirə biləcək fəlsəfədən, tarixdən, ədəbiyyatdan, mədəniyyətdən söhbət gedə bilməz. Yəni natamamlıq kompleksi şərtləri altında yazılan hər hansı millətin tarixi, fəlsəfə tarixi, ədəbiyyat tarixi, mədəniyyət tarixi milli ruhdan başqa nə varsa hər şeyi özündə əks etdirir, ancaq milli ruh qarşısında gözlə görünən ya da gözlə görünməyən saysız-hesabsız sədlər çəkilir, divarlar hörülür.

Son iki əsrdir ki, Azərbaycan türk xalqı da məhz maddi-fiziki və milli-mənəvi parçalanma nəticəsində natamamalıq kompleksinə doğru sürüklənmiş, bu natamamlıq çərçivəsində də əsasən hər hansı doğma və yad tədqiqatçılar onun tarixini, fəlsəfəsini, mədəniyyətini, hüququnu, ədəbiyyatını yazmışlar və yazmaqdadırlar. Bir sözlə, XIX əsrin əvvəllərində Azərbaycan türklərinin ictimai-siyasi və fəlsəfi həyatında yeni mərhələyə qədəm qoyması onun maddi-fiziki və milli-mənəvi parçalanması fonunda baş vermiş, bununla da onlarla, bəlkə də yüzlərlə problemlərin təməli qoyulmuşdur. Hər halda Səfəvilər Türk dövlətinin süqutundan sonra onun yerində yeni imperiya quran Əfşarlar Türk dövlətinin az bir müddət ərzində uğursuzluğa düçar olması Azərbaycan türkləri üçün, bu günə qədər çözülməsi heç də asan olmayan ciddi ictimai-siyasi və elmi-fəlsəfi problemlərə yol açmışdır. Doğrudur, XVIII əsrin sonlarına doğru keçmiş Səfəvilərlə Əfşarlar dövlətlərinin qalıqları üzərində Qacarlar Türk dövlətinin meydana çıxması türklər, o cümlədən Azərbaycan türkləri üçün yeni bir ümid işığı olub, bəlkə də bu günə qədər yaşadığımız və yaşamaqda olduğumuz problemlərin xeyli qisminə son verə bilərdi. Ancaq Qacarlar dövləti çar Rusiyası ilə Böyük Britaniyanın hərbi-siyasi oyunları nəticəsində keçmiş Səfəvilər Türk dövlətinin bütün ərazilərinə, o cümlədən Güney Qafqaza, eyni zamanda Azərbaycanın quzey hissəsinə sahib ola bilmədi. Bununla da Azərbaycan türk xalqının, Azərbaycan türk torpaqlarının bir hissəsi çar Rusiyasının işğalı altında qaldı ki, bu da, yuxarıda da qeyd etdiyimiz kimi, onun yalnız gələcək ictimai-siyasi həyatında deyil, elm-mədəniyyət və fəlsəfə sahəsində də xeyli fərqliliklərə, problemlərə yol açdı. Hər halda Azərbaycan türk torpaqlarının, Azərbaycan türk xalqının çar Rusiyasının işğalı altında qalan bir hissəsi ilə, Qacarların tərkibində qalan böyük hissəsi arasında baş verən maddi-fiziki və milli-mənəvi ayrılıqlar, antitürk ideyaların da birbaşa təsiri ilə onların mütəfəkkirlərinin dünyagörüşündə yarımçıqlığa, natamamlığa, hətta, bəzən qeyri-milli düşüncələrə yol açmış oldu.

Bu gün, Azərbaycan alimlərinin boynuna düşən əsas vəzifə bir tərəfdən təxminən XIX əsrin əvvəllərindən çar Rusiyasının işğalı altında yaşamağa məcbur olan Azərbaycan türk xalqının dünyagörüşü ilə, Qacarların tərkibində, ancaq onun ana sütununu təşkil edən Azərbaycan türklərinin dünyagörüşündəki oxşarlıqları və fərqlilikləri çox həssaslıqla tədqiq edib obyektiv qiymətini vermək, digər tərəfdən bütövlükdə fəlsəfi və ictimai fikrimizin əsas inkişaf yollarını, onun mahiyyətini ortaya qoymaqdır. Bu anlamda son iki əsrdə ayrı-ayrılıqda yaşamağa məcbur edilmiş Quzey Azərbaycan türkləri ilə Qacarlar

dövlətinin ana sütununu təşkil etmiş türklərin bu dövr ərzində yaşadıqları ictimai-siyasi, ədəbi-mədəni, elmi-fəlsəfi mühiti ayrı-ayrılıqda ələ almaqdan daha çox bir bütünün, vəhdətin tərkib hisssi kimi tədqiq etmək lazımdır. Yəni çar Rusiyası ilə Qacarlar arasında bağlanmış 1828-ci il Türkmənçay müqaviləsindən sonra, bəlkə məcburiyyətdən bir çox hallarda vahid Azərbaycan türklərinin deyil də, Quzey Azərbaycan xalqının və Güney Azərbaycan xalqının tarixindən, iqtisadiyyatından, mədəniyyətindən, fəlsəfəsindən bəhs etmişik ya da etməyə davam edirik. Bizcə, artıq bu ənənəyə birmənalı şəkildə son verilməli, yəni vahid Azərbaycan türk xalqının tarixindən, iqtisadiyyatından, mədəniyyətindən, fəlsəfəsindən kitablar, əsərlər yazılmalıdır. Əlbəttə, bu, o demək deyil ki, biz XIX əsrin başlarından etibarən çar Rusiyasının işğalı altında qalan Azərbaycan xalqının bir hissəsinin ya da Qacarlar dövlətinin ana sütununun təşkil etmiş Azərbaycan türklərinin böyük hissəsinin məcburən ayrı-ayrılıqda yaşamalı olduğu tarixi, fəlsəfəni, mədəniyyəti, ədəbiyyatı da mütləq şəkildə, heç bir məntiq olmadan vahidləşdirməli, bütövləşdirməliyik. Əsla belə bir şeyə yol verilməməlidir. Sadəcə, burada əsas məqsəd Azərbaycan türk xalqının parçalanmadan sonra yaşadığı tarixi, fəlsəfəni, ədəbiyyatı, mədəniyyəti oxşarlıqları və ziddiyyətləri ilə yanaşı, vahid bir çatı altında ümumiləşdirməyi, bütöv şəkildə görməyi bacarmaq, yəni natamamlıq kompleksindən qurtulub 50 milyonluq vahid xalqın fəlsəfəsini, tarixini, ədəbiyyatını, mədəniyyətini yazmaq olmalıdır. Bu anlamda Azərbaycan da daxil olmaqla, böyük bir tarixi ərazidə hökm sürən Qacarlar dövlətinə və həmin dövrün türk mütəfəkkirlərinə diqqətlə yanaşılmalıdır.

Burada öz əksini tapmış ən önəmli məsələlərdən biri də, çar Rusiyasının işğalı altında qalan Azərbaycan türklərinin bundan sonarkı həyatının hansı formada davam etməsi ilə bağlı problemlərin, yəni bütün sahələrdə (sosial, iqtisadi, təhsil, mədəni və s.) baş vermiş dəyişikliklərin, müsbət ya da mənfi anlamda olsun, mümkün olduğu qədər obyektiv şəkildə qiymətləndirilməsidir. Yəni bizlər bu məsələni, Azərbaycanın quzey torpaqlarının çar Rusiyasının işğalı altında qalmasını SSRİ dövründəki olduğu kimi, nə birmənalı şəkildə mütərəqqi hadisə kimi qələmə verməli, nə də bu məsələdə həddən artıq ifrata vararaq, o dövrdə hər hansı bir müsbət məsələ olubsa onu da görməzdən gəlməməliyik. Ancaq bütün hallarda çar Rusiyasının işğalı altında ya da SSRİ-nin tərkibində birgə yaşamağa məcbur olduğumuz dövrdə baş vermiş istənilən "müsbət məsələ"yə də həssaslıqla yanaşılmalıdır. Şübhəsiz, bir tərəfdən Rusiyaya münasibətdə həssaslıq nümayiş etdirmək, digər tərəfdən isə milli maraqlarımızı qorumaq bir çox hallarda böyük quzey qonuşumuzun mənafeləri ilə üst-üstə düşmür ki, bu zaman isə bizim üçün önəmli olan obyektivliyin özündən çıxış etməliyik. Bütün hallarda bizlər tariximizi, ədəbiyyatımızı, fəlsəfə tariximizi millətimizin bu günü və gələcəyi üçün qələmə alırıqsa, o zaman ilk növbədə, milli maraqlarımızın hər şeydən bir addım öndə olması bir an olsun unudulmamalıdır. Bir sözlə, Azərbaycan xalqının fəlsəfə tarixi qələmə alınarkən rus-sovet metodologiyasından və həmin dövrün təfəkküründən uzaq durulmalı, Qərb metodolo-

giyasına isə həsaslıqla yanaşılmalıdır. Çünki birinci metodologiya qədər Qərb metodologiyası da İslam-Şərq mədəniyyəti və Türk mədəniyyəti ilə xeyli dərəcədə uzlaşmır.

Bizcə, yalnız çar Rusiyasının, Sovet Rusiyasının işğalı altında qalmış Azərbaycanın quzey hissəsindəki xalqımızın, onun mütəfəkkirlərinin deyil, eyni zamanda Qacarlar dövlətinin əsas sütunu kimi uzun müddət təsir gücünü qoruyub saxlamış Azərbaycanın güneyindəki xalqımızı, onun mütəfəkkirlərinin dünyagörüşünün də obyektiv və milli maraqlarımız baxımından ciddi tədqiqatlara ehtiyacı vardır. Hər halda Təbriz mərkəzli Azərbaycan vilayəti Qacarlar dövlətinin ictimai-siyası həyatında əsas rol oynadığı kimi, Azərbaycan türk mütəfəkkirləri elm-mədəniyyət və fəlsəfi mühtin formalaşmasında da öncüllər sırasında olmuşdur. Yəni çar Rusiyasının işğalı altında olan Azərbaycanın quzeyində yaşayan mütəfəkkirlərimiz kimi, Azərbaycanın güneyində öz soydaşlarının qurduqları Qacarlar dövlətinin tərkibində yaşayan aydınlarımız da elm-mədəniyyət və fəlsəfi mühitdə ön cərgədə olmuşlar.

Eyni zamanda unutmamalıyıq ki, fərqli dövlətlərin, yəni doğma və yad dövlətlərin tərkiblərində yaşamalarına, yaratmalarına baxmayaraq bütün Azərbaycan türk mütəfəkkirləri əsasən, vahid amala, vahid ideyaya xidmət etmişlər. Burada vahid amal, vahid ideya deyə bəhs etdiyimiz, Azərbaycan türklərinin birləşməsi və dövrün şərtləri altında yeniləşməsidir. Biz görürük ki, Azərbaycan türklərinin, onun mütəfəkkirlərinin dünyagörüsündə milli bütövlük məsələsi, yeniləşmə və Azərbaycan milli ideyası ətrafında birləşmə daima əsas siyasi-fəlsəfi və ictimai məsələlərdən biri olmuşdur. Buna ən bariz örnək 1918-ci ildə Böyük Azərbaycanın bir parçasında qurulan yeni bir Türk Cümhuriyyətinə Azərbaycan adının verilməsidir. Əslində 90 illik çar Rusyasının işğalına son verə bilən Azərbaycan türklərinin başda milli ideoloq Məhəmməd Əmin Rəsulzadə olmaqla Azərbaycan adının üzərində dayanılmasında milli birlik fəlsəfəsi həlledici rol oynamışdır. Bununla da Azərbaycanın birləşməsi məsələsi siyasi-ideoloji foramada yeni bir mərhələyə qədəm qoymuşdur. Digər tərəfdən Azərbaycan türklərinə aid mədəniyyət, fəlsəfə, ədəbiyyat və digər sahələrdə də milli bütövlük, milli birlik şüuru əsas istiqamətlərdən biri olmuşdur.

Ümumiyyətlə, 19-20-ci əsrlərdə yaşamış Azərbaycan türk mütəfəkkirlərinin yaradıcılıqlarında fəlsəfənin hansı şəkildə öz əksini tapması daima mübahisə ya da müzakirə obyekti olmuşdur. Belə ki, xeyli qisim tədqiqatçılara görə bu dövrdə Azərbaycanda sırf fəlsəfəyə aid əsərlər çox az olmuş, dolayısıyla da Azərbaycanda fəlsəfədən və filosoflardan çox az bəhs etmək olar. Bu düşüncələrdə ilk baxışda müəyyən həqiqətləri ifadə etməklə yanaşı, onu da bildirməliyik ki, **birincisi,** Azərbaycan xalqı ancaq bugünkü Azərbaycan Respublikasından ibarət deyil. Bu anlamda A.A.Bakıxanov, M.F.Axundzadə, H.B.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.b.Hüseynzadə, Ə.b.Ağaoğlu qədər S.Ə.Nəbati, M.Ə.Talıbzadə, M.Xiyabani, M.Şəbüstəri, C.Əfqani, S.C.Pişəvəri, C.Heyət də Azərbaycan türk mütəfəkkirləridir. **İkincisi,** yeni dövrdə bütün dünyada mütəfəkkirlərin əsas fəlsəfi yaradıcılıqları ontoloji və qnoseolojidən çox sosial fəlsəfə, tarixin fəlsəfəsi, so-

sial psixologiya, sosiologiya, politologiya, antropologiya, demokratiya, liberalizm və buna uyğun məsələlər olmuşdur. Bu anlamda Bakıxanov, Zərdabi, Əfqani, Hüseynzadə, Rəsulzadə, Şəbüstəri, Heyət və başqa Azərbaycan türk mütəfəkkirləri Şopenhaur, Nitsşe, Marks, Engels, Freyd, Ceyms, Toynbi, Haydegger və başqa Qərb mütəfkkirləri qədər filosof adına layiqdirlər. Demək istədiyimiz odur ki, Azərbaycan türk mütəfəkkirlərini düşüncələrində ümumiləşdirmələr aparıb, sonra da bu fəlsəfə deyil, fəlsəfə yalnız ontoloji və qnoseoloji məsələlərə həsr edilmiş əsərlərlə bağlıdır, deyib mənasız iddialar irəli sürmək kökündən yanlışdır. Çünki fəlsəfə dediyimiz, ən azı hərfi mənada müdriklik ya da müdrikliyə sevgidirsə, hikmətsevərlikdirsə, o zaman insan, cəmiyyət, millət, dövlət, siyasi əqidələr, mənəvi dəyərlər, sosial münasibətlər və digər məsələlər də ümumilikdə ontologiya və qnoseologiyanın tərkib hissəsidir.

Bizcə, XIX-XX əsrlərdə yaşamış Azərbaycan türk mütəfəkkirlərinin yaradıcılığında klassik anlamdakı ontoloji və qnoseoloji məsələlər nə qədər az müşahidə olunsa da, ancaq qeyri-klassik fəlsəfəyə aid insan, cəmiyyət, dövlət, millət, dini inanclar, siyasi əqidələr, mənəvi dəyərlər, sosial münasibətlər və bu kimi fəlsəfi problemlər kifayət qədərdir. Bu, o deməkdir ki, Azərbaycan türk mütəfəkkirlərini Azərbaycanın quzeyində yaşayan xalqla məhdudlaşdırmaq qədər, onların klassik anlamdakı ontoloji və qnoseoloji məsələlərlə məşğul olmadığını iddia edib fəlsəfədən uzaq tutmaq da anlamsızdır. Bu baxımdan Qərb mütəfəkkirlərini mənalı ya da mənasız düşüncələrinə görə, göylərə qaldırıb ağızdolusu "filosof" adlandırdığımız halda, öz mütəfəkkirlərimizə həddən artıq yuxarıdan aşağı baxmaq prinsipindən də əl çəkməliyik. Əlbəttə, bu, o demək deyil ki, bütün Azərbaycan türk mütəfəkkirləri də yeri gəldi-gəlmədi dağın başına qoyulub "filosof", "müdrik", "mütəfəkkir" adlandırılmalıdır. Sadəcə, onların hər birini də haqq etdiyi yerə görə obyektiv qiymətini verməliyik.

Burada əsas məqsədlərimizdən biri də Şərq-İslam mədəniyyəti ilə Qərb-Avropa mədəniyyətinin sintezi fonunda meydana çıxan Azərbaycan Cümhuriyyətinin milli fəlsəfi dərkini ortaya qoymaqdır. Başqa sözlə, Azərbaycan Cümhuriyyətinin varlığının həm qədim və orta əsr türk dövlətçilik ənənələri üzərində qurulmasının fəlsəfə tarixi anlamda izahları, həm də bu yolda böyük əmək sərf etmiş Azərbaycan türk maarifçilərinin və onların davamçılarının fəlsəfi, ictimai-siyasi dünyagörüşlərinin ifadəsi çox vacibdir. Demək istədiyimiz odur ki, Azərbaycan Cümhuriyyətinin əsas mahiyyətini təşkil edən "Azərbaycan ruhu"nun, "Azərbaycan məsələsi"nin yalnız tarixi deyil, fəlsəfi mahiyyətinə (tarixin fəlsəfəsi) də varılmalıdır. Məhz "Azərbaycan məsələsi"ni doğru idrak edərsək, o zaman istər Sovetlər Birliyi dövründə, istərsə də torpaqlarımızın bir hissəsində müstəqilliyimizi bərpa etdikdən sonra ortaya çıxan bir çox tarixi, mədəni, fəlsəfi, siyasi suallara da cavab tapmış olarıq.

Burada izah olunan əsas məsələlərdən biri də "Azərbaycan məsələsi" və onunla bağlı meydana çıxmış müsbət ya da mənfi anlamda, "Azərbaycan tarixi", "Azərbaycan fəlsəfəsi", "Azərbaycan dili", "Azərbaycan mədəniyyəti", "Azərbaycan ədəbiyyatı" və buna oxşar digər anlayışların mahiyyətinə, mə-

nasına obyektiv şəkildə işıq tutmaqdır. Xüsusilə də bizi burada ən çox maraqlandıran bir məsələ "Azərbaycan fəlsəfəsi" ya da "Azərbaycan fəlsəfə tarixi" anlayışlarıdır ki, 1918-ci ildə yeni bir türk dövlətinə verilən adın, yəni "Azərbaycan" məfhumunun çox keçmədən bilərəkdən ya da bilməyərəkdən həmin dövlətin qurucusu olan millətin adıyla eyniləşdirilməsinin də elmi-fəlsəfi izahları olmalıdır. Hər halda bu gün millətimizin adından (azərbaycanlı), dilindən (Azərbaycan dili) tutmuş onun fəlsəfəsi (Azərbaycan), tarixi (Azərbaycan tarixi), ədəbiyyatı (Azərbaycan ədəbiyyatı), mədəniyyəti (Azərbaycan mədəniyyəti) artıq türk milli kimliyindən çox Azərbaycan dövləti kimliyi üzərində oturuşmuşdursa, o zaman bu "Azərbaycan məsələsi"nin hərfi mənadan ya da tarixi aspektdən daha çox, elmi-fəlsəfi, tarixi-fəlsəfi şərhinə ethiyac vardır. Əks təqdirdə 1918-ci ilin 28 mayında yeni bir türk dövlətinə Azərbaycan Cümhuriyyəti adı verilməsindən sonra meydana çıxmış "Azərbaycan milləti"nin ya da "azərbaycanlı" millətinin tarixindən, fəlsəfəsindən, mədəniyyətindən, dilindən, ədəbiyyatından bəhs etmək də məntiqsiz görünə bilər.

Deməli, burada ən incə məsələ yeni bir türk dövlətinə verilmiş Azərbaycan Cümhuriyyəti adıyla ("Azərbaycan məsələsi" ilə), onun qurucusu olduğu türk xalqının müstəsna rolunu obyektiv şəkildə dəyərləndirməkdir. Başqa sözlə, yeni bir türk dövlətinə verilmiş "Azərbaycan" adının həmin dövlətin qurucusu olan Azərbaycan türklərinin milli varlığının, milli kimlik adının üstündən xətt çəkilərək yeni bir "xalq" kimi yozulması bir şey, ancaq "Azərbaycan" anlayışının qədim dövrlərdən günümüzədək keçdiyi yolu izləməklə bərabər bütün Azərbaycan türklərini daima vahid xalq kimi bir arada tutub gələcəkdə də vahid dövlətin çətiri altında yenidən birləşdirilməsini hədəfləmək tamamilə başqa bir şeydir. Ona görə də, bu gün "Azərbaycan fəlsəfəsi", "Azərbaycan tarixi", "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı" dedikdə, birmənalı şəkildə onu türk kimliyindən uzaq tutub "mələz"ləşdirilmiş, yəni qarışıq bir "xalq"a aid etmək kökündən yanlışdır. Çünki birincisi, "Azərbaycan" anlayışı nə çoğrafi, nə də əhali baxımından yalnız Azərbaycan Respublikasından ibarət deyil ki, onun fəlsəfəsini, tarixini, ədəbiyyatını, dilini, milli kimliyini də qismən çar Rusiyası, əsasən də Sovetlər Birliyi dövründə planlı şəkildə müəyyənləsdirilmiş və hələ də həmin siyasəti davam etdirənlərin antitürk, antiazərbaycan siyasəti ilə qarışıq "xalq" çərçivəsində dəyərləndirək! "Azərbaycan" anlayışı ən azından Dərbənddən Kəngər körfəzinə, Bakıdan Kərkükə qədər uzanan bir coğrafiya olduğu qədər, eyni zamanda bu coğrafiyada yaşayan on milyonlarla Azərbaycan türkünün qədim dövrlərdən günümüzədək ortaya qoyduqları tarixin, fəlsəfənin, ədəbiyyatın, mədəniyyətin bir sözlə, ona məxsus olan hər bir şeyin ifadəsidir. Belə olduğu təqdirdə, bizlər tariximizi, fəlsəfəmizi, ədəbiyyatımızı, mədəniyyətimizi qələmə alarkən rusun, ingilisin, amerikalının, fransızın, farsın, ərəbin bizi görmək istədikləri yad metodologiyalarla deyil, özümüzüm özümüzə biçdiyimiz milli bir üsulla hərəkət etməliyik.

Çox yazıqlar olsun ki, tarixi-coğrafi Azərbaycanımızın çox az bir hissəsində müstəqilliyimizi bərpa etdikdən (1991) sonra da milli metodologiyaya əsaslanan

milli tarix, milli fəlsəfə, milli ədəbiyyat, milli mədəniyyət yazmaqdan çox mələz (qarışıq), kosmopolit "Azərbaycan" kimliyi çərçivəsində kitablar, dissertasiyalar yazmaqda davam edirik. Ən acınacaqlısı da odur ki, bunu edənlərin xeyli bir qismi də "Azərbaycan məsələsi"nin əsil mahiyyətinə varmadan, "Azərbaycan" anlayışını antitürk, antiislam ideolqlarının planlı şəkildə ortaya atdıqları siyasətlərə uyğun olaraq türklüyə, Azərbaycan türklüyünə zidd olaraq təbliğ edirlər. Bunun da nəticəsində "Azərbaycan tarixi" (**1; 2**), "Azərbaycan fəlsəfə tarixi" (**3; 4**), "Azərbaycan mədəniyyət tarixi", "Azərbaycan ədəbiyyatı tarixi" (**5; 6; 7**) və buna oxşar kitablarda əsasən Azərbaycan türk xalqının tarixi, fəlsəfəsi, mədəniyyəti, ədəbiyyatı bir çox hallarda naməlum, ya da qarışıq bir xalqın məhsulu kimi ortaya çıxmaqda davam etməkdədir.

Azərbaycan xalqının fəlsəfə tarixində nəzərə alınmalı mühüm məqamlardan biri çar Rusiyası, Sovetlər Birliyi, "Pəhləvilər" və "İran İslam Respublikası" dövrlərinə aid məsələlərdən bəhs edərkən "dövrün şərtləri belə idi" prizmasını də nəzərə almaqla yanaşı, onu mütləqləşdirmək də doğru deyildir. Demək istədiyimiz odur ki, dövrün şərtlərini nəzərə almaqla yanaşı hər bir mütəfəkkirin fəlsəfi dünyagörüşlərində kim hansı mövqe tutubsa onu da olduğu kimi yazmaq, şərh etmək lazmdır. Əks təqdirdə Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixinə obyektiv yanaşma söz olaraq qala bilər. Bizim burada əsas məqsədimiz nə o dövrün şərtlərinə görə nəticə çıxarmaq, nə də indiki zamanın praqmatist şərtləri altında mülahizələr yürütmək olmamalıdır. Bizcə, bir xalqın tarixini ya da fəlsəfə tarixini yazarkən göz önündə tutulmalı olan başlıca məsələ onun milli, dini və bəşəri ruhunun bütöv şəkildə cəmiyyətə çatdırılması bacarığıdır. Başqa sözlə, müstəmləkə və azad məmləkətdə yaşamaqdan, eyni zamanda milli və beynəlmiləl, milli və dini ideyalardan hər hansının təsiri altında olmasına baxmayaraq bir tarixçi ya da fəlsəfə tarixçisi ilk növbədə, millətinin tarixini ya da fəlsəfə tarixini yazdığını bir an olsun unutmamalıdır. Çünki bir toplumu var edən öncə onun milli, daha sonra dini və bəşəri kimliyidir.

Yeri gəlmişkən, tədqiqatımızla birbaşa bağlı olan 19-20-ci əsrlərdə Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixini ümumi kontekstdə ilk yazanların başında akademik Heydər Hüseynov gəlir ki, onun dünyagörüşü də yuxarıda qeyd etdiyimiz problemlərdən xali olmamışdır. Sovetlər Birliyi dövründə yaşamış H.Hüseynov, 1949-cı ildə işıq üzü görmüş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsərində Azərbaycan türk mütəfəkkirlərindən A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundzadə, Mirzə Kazım bəy, H.Zərdabinin dünyagörüşlərini hərtərəfli şəkildə tədqiq etməklə yanaşı, dövrün şərtləri altında onların türk və islami kimliyini deyil, antitürk Sovet ideologiyasına uyğun olaraq daha çox "mələz", ya da qarışıq bir "Azərbaycan" kimliyini, üstəlik də bolşevizm ideologiyasına uyğun olaraq da "ateist", "materialist" dünyagörüşlü baxışlarını ön plana çıxarmağa çalışmışdır (**8, s.30-49**). Sovetlər Birliyi dövründə H.Hüseynovla başlayan "Azərbaycan fəlsəfəsi tarixi"ni bu yöndə yazmaq ənənəsini davam etdirən Ziyəddin Göyüşov da Quzey Azərbaycanın "sovetləşməsi"ndən sonrakı dövrə aid yazdığı «Sovet Azərbaycanında fəlsəfi fikir»

(1979) kitabında fəlsəfə tariximizi araşdırarkən eyni müddəalardan çıxış etmişdir (**9, s.47-68**). Həmin dövrdə "Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər" (1966) adlı ümumi icmal halında kollektiv yaradıcılığın məhsulu olan, qədim dövrlərdən 18-ci əsr də daxil olmaqla, fəlsəfə tarximizdən bəhs olunan kitabda da "sovet ənənəsi" pozulmamışdır. Bir sözlə, bu kitabları oxuduqda əsasən məlum olmur ki, "Azərbaycan fəlsəfə tarixi" adı altında hansı xalqın fəlsəfə tarixi yazılmışdır.

Ancaq SSRİ dağılıb Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra digər sahələrdə (tarix, ədəbiyyat, dil və s.) olduğu kimi, fəlsəfə tarixçiliyi sahəsində də nisbətən Qərb-Sovet ideoloqlarının uydurduqları naməlum, ya da qarışıq "Azərbaycan" kimlikli deyil, məhz Türk kimliyi mahiyyətinə uyğun olaraq kitablar, dissertasiyalar yazılmağa başladı. Belə kitablardan biri də, AMEA-nın müxbir üzvü, f.e.d. Zakir Məmmədovun qələmə aldığı qədim dövrlərdən 19-cu əsr də daxil omaqla böyük bir dövrü əhatə edən "Azərbaycan fəlsəfəsi tarixi" (1994) kitabıdır. Yalnız bu kitabda nisbətən qarışıq bir "Azərbaycan" xalqının deyil, Türk nüvəli Azərbaycan xalqına aid fəlsəfə tarixinin öz əksini tapdığını görə bilərik (**10, s.3-18**). Eyni zamanda, insaf naminə deməliyik ki, "Azərbaycan fəlsəfə tarixi"nin son dövrünü, yəni 19-20-ci əsrləri özündə müəyyən qədər əhatə edən kitablardan birinin müəllifi olan prof. Ağayar Şükürov da, öz əsərində nisbətən Türk nüvəli Azərbaycan xalqının fəlsəfə tarixini əks etdirməyə çalışmışdır (**11**). Ancaq ümumilkdə "Fəlsəfə" ya da "Fəlsəfənin əsasları" kitablarının əksəriyyətində "Azərbaycan fəlsəfəsi"ndən bəhs olunarkən çox zaman məlum olmur ki, burada konkret hansı xalqın fəlsəfəsindən ya da fəlsəfə tarixindən bəhs olunur. Daha doğrusu, bu kimi kitablardan belə bir nəticə çıxarmaq olur ki, "Azərbaycan fəlsəfə tarixi"adı altında xaotik ya da qarışıq bir fəlsəfə tarixi şüurlara yeridilir.

Hər halda müstəqilliyimizin bərpasından sonra akademik şəkildə "Azərbaycan fəlsəfə tarixi"nin ən qədim dövrlərdən 18-ci əsr də daxil olmaqla, böyük bir dövrünü əhatə edən 4 cildliyinin ilk iki cildi nəşr olunub ki ("Azərbaycan fəlsəfə tarixi"nin XIX-XX əsrlərini əhatə etməli olan 3-4-cü cildlər isə hələlik işıq üzü görməmişdir), bu kitabları oxuduqda burada konkret bir deyil, bir neçə xalqın sintezindən ibarət, yəni qarışıq Azərbaycan xalqının fəlsəfəsindən bəhs olunması açıq şəkildə ifadə edilmişdir. Bu baxımdan "Azərbaycan fəlsəfə tarixi"nin ilk iki cildində razılaşmadığımız əsas məqamlardan biri, Azərbaycan xalqının bir neçə xalqdan (qafqazdilli-albandilli, irandilli-farsdilli və türkdilli) formalaşmış "mələz" bir xalq kimi qələmə verilib "Azərbaycan fəlsəfəsi"ni də həmin "mələz" xalqın məhsulu kimi dəyərləndirilməsidir: "...Azərbaycan fəlsəfəsi dedikdə əsas etibarilə Azərbaycanda məskunlaşmış qafqazdilli, türkdilli, irandilli etnosların üzvi birləşməsi zəminində formalaşmış Azərbaycan etnosunun (xalqının) fəlsəfi görüşləri nəzərdə tutulur. Azərbaycan xalqının fəlsəfəsi və bütövlükdə mədəniyyəti etnik kökləri sayəsində tarixən qafqazdilli, türkdilli, irandilli mədəni bölgələrin mədəni ənənələri ilə əlaqədar olmaqla yanaşı eyni zamanda onların müəyyən mənada davamı olmuşdur" (**3, s.14**). Bu sətirlərin

müəllifi, əməkdar elm xadmi, f.e.d. Zümrüd Quluzadə Azərbaycan fəlsəfə tarixi elmi qarşısında duran problemlərə həsr etdiyi başqa bir məqaləsində də təxminən eyni fikirləri irəli sürmüşdür: "Qarşımızda duran problemlərdən biri də Azərbaycan fəlsəfə tarixini türkdilli, irandilli və Qafqaz dilli xalqların fəlsəfə tarixləri ilə əlaqədə tədqiq etməkdir" (**12, s.43**). Qeyd edək ki, çar Rusiyası və Sovet Rusiyası dövründə ortaya çıxan bu problem yalnız Azərbaycan fəlsəfə tarixinin tədqiqində deyil, eyni zamanda tarix, ədəbiyyat, dilçilik, etnoqrafiya, mifologiya, politologiya və digər sahələrin elmi araşdırmalarında da özünü büruzə vermişdir və verir də.

Hesab edirik ki, "Azərbaycan fəlsəfə tarixi" adlı kitablarda ya da digər əsərlərdə (o cümlədən, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı və b.) çar Rusiyası-Sovet Rusiyası-Avropa ənənəsinin davamı olaraq, Azərbaycan türk xalqını üç ayrı-ayrı etnik qruplardan, ya da xalqlardan törəmiş bir xalq kimi təqdim edib, "Azərbaycan fəlsəfəsi"ni də həmin qarışıq xalqın adına yazmaq birmənalı şəkildə yolverilməzdir. Çünki "Azərbaycan" ideyası, ya da "Azərbaycan məsələsi" türklüyün eyniyyəti kimi meydana çıxmışdır, qafqazdilliliyin və irandilliliyin yox. Bunu, Azərbaycan Cümhuriyyətinin qurucusu, milli ideoloq Məhəmməd Əmin Rəsulzadə "Qafqaz türkləri" əsərində çox dəqiq ifadə etmişdir: "…Güney Doğu Qafqaz torpaqlarının bütünlüklə Azərbaycan adı altında yaranmış siyasi quruluşlarda olması tutalqasından (sübutundan – F.Ə.) başqa Azərbaycan türklərinin yaşadıqları bir ölkə olduğu üçün buraya Azərbaycan deməkdə heç bir sıxıntı görülməmişdir. Bu adın yeni Türk Cümhuriyyətinə verilməsində ən böyük tutalqa sözsüz bu türklük olmuşdur" (**13, s.61**).

Bu anlamda "Azərbaycan etnosu" ya da "Azərbaycan xalqı" anlayışları istər tarixi-coğrafi, istərsə də elmi-mədəni anlamda dünən olduğu kimi bu gündə Türklüklə, Türk kimliyi ilə bağlıdır. Başqa sözlə, Azərbaycan türk mədəniyyətinə, Azərbaycan türk fəlsəfəsinə, Azərbaycan türk tarixinə mənsubluqla qafqazdilliliyi, irandilliliyi, ərəbdilliliyi, rusdilliliyi qarışdırmaq doğru deyildir. Çünki biz tarixən də bu gündə "Azərbaycan" adlı istənilən dəyərin (fəlsəfi, tarixi, mədəni, iqtisadi, siyasi və s.) ilk növbədə, türklüklə, Türk-Oğuz ya da Türk-Qıpçaq kimliyi ilə bağlı olduğunu öz adımız kimi dəqiq bilirik. Ona görə də, bizim üçün "Azərbaycan fəlsəfəsi", "Azərbaycan tarixi", "Azərbaycan mədəniyyəti"nin sinonimi ya da eyniyyəti Türklüklə bağlıdır. Bir sözlə, bizim üçün yalnız doğma türk dilində deyil, eyni zamanda digər dillərdə də yazıb yaratmış Dədə Qorqud, Bəhmənyar, Baba Kuhi, Nizami Gəncəvi, Xaqani, E.Miyanəci, Qul Əli, N.Tusi, Nəimi, Nəsimi, Füzuli, M.Şəbüstəri, Ş.İ.Xətayi, Rəcəbəl Təbrizlii, Saib Təbrizi, Yusif Qarabağı, A.A.Bakıxanov, C.Əfqani, H.Zərdabi, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, H.Hüseynov, S.C.Pişəvəri, M.Şəhriyar, Cavad Heyət və başqa mütəfəkkirlərimizin hər biri Azərbaycan türk fəlsəfəsinin təmsilçiləridirlər.

Hesab edirik ki, milli tariximiz, milli fəlsəfəmiz, milli ədəbiyyatımız, milli dil tariximiz, milli mədəniyyətimiz yazılarkən burada Türk kimliyi əsla gözardı edilməməlidir. Məsələn, milli fəlsəfi tariximiz yazılarkən "Azərbaycan fəlsəfə

tarixi" deyil "Azərbaycan türk fəlsəfə tarixi" ya da ən azı "Azərbaycan xalqının fəlsəfə tarixi" anlayışı önə çəkilməli, bu anlamda yalnız Quzey Azərbaycan xalqının deyil, Güney Azərbaycan da daxil olmaqla vahid Azərbaycan türk xalqının fəlsəfə tarixi tədqiq olumalıdır. Bu zamanda özündən əvvəlki fəlsəfə tarixinin davamı kimi, Azərbaycan türk ziyalılarının fəlsəfi düşüncədə ortaya qoyduqları mənəvi-zehni əmək qeyd olunmalıdır. Başqa sözlə, qeyri-müəyyən, "mələz" bir xalqın fəlsəfi düşüncəsi deyil, konkret olaraq Azərbaycan türk xalqının fəlsəfi düşüncə tarixi yazılmalıdır. Təbii ki, tarix boyu Azərbaycan türkləri ilə yanaşı qeyri-türk etnik qrupların, etnik azlıqların nümayəndələri arasında da müəyyən fəlsəfi fikir payı sahibləri olubsa, həmin kitablarda yer almalıdır. Ancaq bütövlükdə Azərbaycan xalqının fəlsəfəsi dedikdə, burada söhbətin ilk növbədə, Azərbaycan türk mütəfəkkirlərinin fəlsəfi irsindən getdiyi açıq şəkildə ifadə olunmalıdır.

Hazırda əski dövr və orta çağ Azərbaycan türk fəlsəfə tarixinə həsr olunmuş kitablarda, dissertasiyalarda deyil, eyni zamanda XIX-XX əsrlər Azərbaycan türk fəlsəfə tarixinə aid əsərlərdə də həmin ciddi nöqsanlara rast gəlmək mümkündür. XIX-XX əsrlərdə milli fəlsəfə tariximizlə bağlı ayrı-ayrı dövrləri, mütəfəkkirləri həm "Azərbaycan fəlsəfə tarixi" şöbəsinin əməkdaşları, həm də digər tədqiqatçılar işləmişdilər ki, yuxarıda qeyd etdiyimiz ümumi nöqsanlar burada da vardır. Hər halda bu bir həqiqətdir ki, istər "Azərbaycan fəlsəfə tarixi" adlı kitablarda, istərsə də bu məsələyə həsr olunmuş digər tədqiqat işlərində milli fəlsəfə tarixindən çox qeyri-milli ya da kosmopolit fəlsəfə tarixi öz əksini tapmışdır.

Ümumiyyətlə, çağdaş dövrdə Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi ilə bağlı araşdırmalar və metodologiya aşağıdakılardan ibarət olmalıdır.

Birincisi, Azərbaycan türk fəlsəfəsini yalnız Azərbaycanın bir hissəsində yazıb yaratmış türk mütəfəkkirləri ilə məhdudlaşdırmadan, onu bir bütün kimi vahid Azərbaycan türk fəlsəfəsi çərçivəsində tədqiq etmək lazımdır. Başqa sözlə, Azərbaycan türk fəlsəfəsini yalnız onun bugünkü müstəqil hissəsi çərçivəsində görmək, əslində bu fəlsəfənin böyük ölçüdə əhəmiyyətinin itirilməsi deməkdir. Hesab edirik ki, ən qədim dövrlərdən 19-cu əsrə qədər olan Azərbaycan türk fəlsəfəsinin bütünlüyünə burada da əməl etmək ən vacib məsələlərdən biridir. Doğrudur, bu gün Azərbaycanımızın böyük bir qismi vaxtilə əsrlərboyu hökm sürdüyü Ön Asiyada hazırda ikinci, üçüncü dərəcəyə düşürülərək zəif duruma gətirilmişdir. Məhz Azərbaycan türklərinin ən azı son min ildə hakim olduğu Ön Asiyada təxminən bir əsrə yaxın, böyük hissəsinin (Güney Azərbaycan) yad qüvvələrin əliylə hakimiyyətlərinin əlindən alınıb farsdilli qüvvələrə "hədiyyə" edilməsi, digər hissəsinin (Quzey Azərbaycan) isə torpaqlarının bir qisminin də işğal edilməsi reallığı ilə müstəqilliyini qazanması fonunda həmin xalqın vahid bir fəlsəfə tarixini, tarixini, mədəniyyət tarixini, ədəbiyyat tarixini yazmaq heç də asan deyildir. Çünki bu zaman Azərbaycan türk tədqiqatçısı bir tərəfdən Rusiya Federasiyası, digər tərəfdən isə "İran İslam Respublikası" faktorlarını da az ya da çox dərəcədə nəzərə almaya bilməz. Əl-

bəttə, bu "nəzərə almaq" heç də milli maraqlarımıza və elmi obyektivliyə zidd olacaq hər hansı düşüncələrin tədqiqatlarda öz əksini tapması da demək deyildir. Sadəcə, bütün məsələlərə baxışlarda heç bir ifratçılığa ya da duyğusallığa yol vermədən ilk növbədə, elmi obyektivliyi və Azərbaycan xalqının milli mənafeyini unutmamaqdır. Bu anlamda biz tədqiqatımızın bu hissəsində həm Azərbaycanın bir hissəsini 19-cu əsrin əvvəllərindən işğal edərək uzun müddət burada imperiya siyasətini yürütmüş çar Rusiyasına, həm də Qacarlar Türk dövlətinin yaranması və inkişafı prosesinə mümkün olduğu qədər elmi obyektivlikdən yanaşılmalıdır.

İkincisi, fəlsəfə tarixi ilə bağlı tədqiqatlarda "Azərbaycan fəlsəfəsi" deyil, "Azərbaycan türk fəlsəfəsi" anlayışından istifadə edilməlidir. Çünki fəlsəfə xalqın mütəfəkkirlərinin dünyagörüşü ilə bağlı olub onun dövlət ya da coğrafiya adıyla məhdudlaşdırılması doğru deyildir. Şübhəsiz, 1918-ci ildə qurulan yeni bir türk dövlətinə Azərbaycan adının verilməsi ilk növbədə, türklüklə bağlı olmuşdur. Ancaq bütün hallarda bir xalqın tarixinin, fəlsəfəsinin, ədəbiyyatının, musiqisinin, mədəniyyətinin adının hər hansı dövlətin adıyla məhdudlaşıdırlması çox da doğru deyildir. Azərbaycan türklərinin Azərbaycan Cümhuriyyətinə qədər bu bölgədə sahibi olduğu onlarla başqa türk dövlətləri də olmuşdur. Bu zaman gərək biz hər dövrə aid fəlsəfəmizi, tariximizi, ədəbiyyatımızı onların adlarına (Albaniya, Azərbaycan Atəbəyləri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və b.) uyğun olaraq Albaniya fəlsəfəsi, Qaraqoyunlu fəlsəfəsi, Ağqoyunlu tarixi, Səfəvi mədəniyyəti adlandıraq. Digər tərəfdən, əgər 1918-ci ildə yeni bir türk dövlətinin adı "Azərbaycan" deyil, Xəzəristan, Qafqaz Türk Cümhuriyyəti, Oğuzustan və başqa bir adla adlandırılsaydı, o zaman bu gün bizim fəlsəfəmizin, tariximizin, ədəbiyyatımızın, dilimizin adı da onlardan biri ilə bağlı olub Qafqaz fəlsəfəsi, Oğuz mədəniyyəti, Xəzər ədəbiyyatı, Oğuz dili və s. adlandırılacaqdı. Ona görə də, burada ən məqbulu və doğru olanı "Azərbaycan türk fəlsəfəsi" anlayışıdır. Çünki bu anlayış özündən əvvəlki Qaraqoyunlu Türk mədəniyyəti, Ağqoyunlı Türk mədəniyyəti, Səfəvi Türk mədəniyyəti və başqalarını tamamlamış olur.

Üçüncüsü, Azərbaycanın da daxil olduğu İslam-Şərq mədəniyyətində 18-ci əsrin sonu – 19-cu əsrin əvvəllərindən başlayan elmi-fəsləfi və ictimai-siyasi yeniliklərin mahiyyətini ortaya qoymaq lazımdır. Bunun üçün də, ilk növbədə 19-cu əsrə qədərki İslam-Şərq mədəniyyəti, o cümlədən də Azərbaycan türk mədəniyyətinin düşdüyü həm gerilikçi-sxolastik-ehkamçı mədəniyyətin-fəlsəfənin mahiyyəti izah olunmalı, həm də "Şərq mədəniyyəti", "İslam mədəniyyəti", "milli mədəniyyət" anlayışlarına aydınlıq gətirilməlidir. Çünki bu anlayışların əsil mahiyyətini dəqiqləşdirmədən hər hansı müsəlman xalqının fəlsəfi və ictimai fikirdə yerini müəyyənləşdirmək mümkün deyildir. Biz də, bu anlayışları təhlil edərək belə bir qənaətə gəlirik ki, tədqiq etdiyimiz dövrdə Azərbaycan türk mədəniyyəti və fəlsəfəsi özündə İslam mədəniyyətini, Şərq mədəniyyətini, Qərb mədəniyyətini əks etdiməklə yanaşı milli mədəniyyətlə milli fəlsəfəsində də özünəməxsusluğu ilə seçilmişdir. Hər halda ən azı Orta

çağda Azərbaycan türk mədəniyyəti uzun müddət əsasən İslam-Ərəb mədəniyyəti, İran-Fars mədəniyyəti, qismən də Avropa (Yunan-Roma) mədəniyyəti ilə qarşılıqlı münasibətlər içində olmaqla yanaşı, Türk mədəniyyəti və Türk fəlsəfəsinin əsas nüvəsindən heç bir zaman uzaqlaşmamışdır.

Dördüncüsü, İslam mədəniyyəti ilə Qərb mədəniyyətindən qaynaqlanan fəlsəfi və ictimai məsələlər ayrı-ayrı mütəfəkkirlərimizin (A.A.Bakıxanov, H.Zərdabi, M.F.Axundzadə, C.Əfqani, M.Ə.Talıbzadə, M.Kazımbəy və b.) dünyagörüşü baxımından təhlil olunmasıdır. Burada da əsas məqsəd uzun müddət İslam mədəniyyətinə ya da İslam fəlsəfəsinə əsaslanan mütəfəkkirlərimizin Qərb mədəniyyəti ilə yaxından tanış olduqdan sonra ortaya qoyduqları fəlsəfi və ictimai düşüncələrin mahiyyətini ifadə etməkdir. Eyni zamanda, burada ən önəmli məsələlərdən biri də İslam fəlsəfəsi və Qərb fəlsəfəsi ilə yanaşı, milli fəlsəfi fikirmizin də varlığının ifadəsidir.

Əslində **milli fəlsəfə dedikdə**, burada əsas məqsədimiz Azərbaycan türk mütəfəkkirlərinin İslam fəlsəfəsi və Qərb fəlsəfəsinə aid görüşləri ilə yanaşı, özünəməxsus görüşlərinin tədqiq olunub ortaya çıxarılmasıdır. Əks təqdirdə belə anlaşıla bilər ki, bu dövrdəki mütəfəkkirlərimiz sadəcə, İslam fəlsəfəsi və Qərb fəlsəfəsi ilə bağlı münasibətləri təhlil etməklə məşğul olmuş, orjinal fikirlər və mülahizələr yürütməmişlər. Başqa sözlə, burada irəli sürdüyümüz "milli fəlsəfə" ilk növbədə, Azərbaycan türk fəlsəfəsinin digər xalqların (ərəb, alman, yunan, fars, ingilis və b.), xüsusilə də "İslam mədəniyyəti" çərçivəsinə daxil olan millətlərin fəlsəfəsi ilə müqayisədə az-çox özünəməxsusluğunu ortaya qoymaqdır.

Ümumiyyətlə, fəlsəfə tarixinə aid tədqiqatlarda bütün bunları obyektiv şəkildə ifadə etmək, milli fəlsəfəmizin hansı yollarla inkişaf etdiyini göstərmək üçün XIX-XX əsrlər Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi üç istiqamətdə təhlil edilməlidir:

1) Azərbaycanda Şərq-İslam-Türk mədəniyyəti və fəlsəfəsinin davamı: sxolastik fəlsəfədən dünyəvi fəlsəfəyə, dini təfəkkürdən dünyəvi təfəkkürə dönüş: Abbasqulu Ağa Bakıxanov, Zeynalabdin Şirvani, Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Seyid Əbülqasim Nəbati, Əbuturab Axundoğlu, Mir Həmzə Nigari və başqaları;

2) Azərbaycanda Qərb-Avropa mədəniyyəti və fəlsəfəsinin təşəkkülü: avropaçılıq təsirindən radikal-inqilabçı fəlsəfəyə doğru: Mirzə Şəfi Vazeh, Tahirə (Zərintac) Qürrətul-Eyn, Mirzə Məhəmməd Əli Kazım bəy, Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Zeynalabdin Marağalı, Cəlil Məmmədquluzadə, Sultan Məcid Əfəndiyev, Nəriman Nərimanov, Heydər Hüseynov və başqaları;

3) Azərbaycanda Şərq-İslam-Türk mədəniyyəti və Qərb-Avropa mədəniyyətinin "sintezi" problemi və həll yolları: Cəmaləddin Əfqani, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Əbdürrəhim Talıbzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavid və başqaları.

XIX-XX əsrlər Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixində Şərq-İslam-Türk mədəniyyəti və fəlsəfəsinin davamı əsas yerlərdən birini tutmuşdur. Bu, ilk növbədə Azərbaycan türk mütəfəkkirlərinin Şərq mədəniyyəti, o cümlədən də əsasən İslam mədəniyyəti və müəyyən qədər də türk mədəniyyəti-fəlsəfəsi ilə əsrlər boyu izini sürdüyü bağlılığın nəticəsi idi. Artıq o başqa məsələ idi ki, 19-cu əsrdə mövcud olan İslam mədəniyyəti və Türk mədəniyyəti öz ilkin mahiyyətindən nə qədər uzaqlaşmışdır ya da uzaqlaşmamışdır. Əlbəttə, həmin dövrdə olduğu kimi indinin özündə də bu məsələ ilə bağlı fərqli fikirlərin olması təbiidir. Sadəcə, burada real olan odur ki, həmin dövrdə Şərq-İslam-Türk mədəniyyəti və fəlsəfəsinin varlığı ortada olub, üstəlik aparıcı mövqeyə malik idi. Ancaq bununla yanaşı o da, bir gerçəklik idi ki, Şərq-İslam-Türk mədəniyyəti və fəlsəfəsinin bu formada, bu üsulda davamı artıq mümkün deyildi. Hər halda bunu, bu yolun davamçısı olan Azərbayə n ürk d səfoirl

dzadə, Mirzə Kazımbəy və Marağalının bir tərəfdən Qərb mədəniyyətinə, o cümlədən irançılığa ifrat aludəçilikləri, hətta bundan irəli gələrək Axundzadə və Marağalının türk olmalarına baxmayaraq, siyasi-ideoloji baxışlarına görə özlərini farsdilli müsəlman elan etmələrinin, Kazımbəyin xristianlıq dinini, Qürrətül-Eynin isə babilik tərəfdarı olmasının da bir izahı olsun gərək. Əlbəttə, bu zaman o da iddia oluna bilər ki, onların sonralar öz etnik mənşələri ilə bağlı fərqli fikirlər söyləmələri ya da yeni dini kimlik qəbul etmələri fəlsəfə ya da ictimai fikir tarixi anlamında müzakirə obyekti olmamalıdır. Bizcə, məsələ heç də bu qədər sadə deyildir. Hər halda istənilən fəlsəfi və ictimai dünyagörüşün təməlində milli özünüdərk və dini özünüdərk də mühüm yeri tutur. Bu anlamda Axundzadə, Kazımbəy, Marağalı, Qürrətül-Eyn kimi mütəfəkkirlərimizin milli kimlik və dini kimlik məsələsində sonralar gəldikləri qənaətlər bu və ya digər dərəcədə həm də dünyagörüşlərindəki ziddiyyətlərin məhsulu idi. Xüsusilə də, Qərb-Rus mədəniyyətinin (o cümlədən iran-fars mədəniyyətinin) milli və dini kimlik məsələsində onların dünyagörüşlərinə təsiri göz önündədir.

Bu isə o deməkdir ki, onlar Qərb mədəniyyətinin, Qərb fəlsəfəsinin təsiri altında milli fəlsəfi və ictimai fikrimizdən çox, özlərini görmək istədikləri başqa mədəniyyət ya da fəlsəfi fikir tarixinə calamağa çalışmışlar. Bunun nəticəsində də Kazımbəylərin, Axundzadələrin, Marağalıların dünyagörüşləri yad ideologiyaların təbliğat vasitəsinə çevrilmişdir. Məsələn, Sovetlər Birliyi dövründə Axundzadə, Kazımbəyin fəlsəfi-ictimai irsi marksizm-leninizm nəzəriyyəsinə uyğunlaşdığı halda, Marağalının irançılıq təəssübkeşliyi isə Pəhləvilərin işinə yaramışdır . Yəni bütün bunlar ortada olduğu halda hal-hazırda Axundzadəni, Kazımbəyi, Marağalını ideallaşdırmaq, onları Sovetlər Birliyi dövründə olduğu kimi, indi başqa bir formada (milli mədəniyyətə və milli fəlsəfəyə uyğun olaraq) fəlsəfi və ictimai fikrimizin ən böyük yol göstərən filosofları olaraq təqdim etmək doğru deyildir. Bu o demək deyil ki, Axundzadə, Kazımbəy, Marağalı və başqa bir mütəfəkkirimiz milli fəlsəfədən, milli mədəniyyətədən çox yad mədəniyyətlərə xidmət etdikləri üçün onlardan imtina etməliyik ya da onların elmi-fəlsəfi istedadlarına kölgə salmalıyıq. Əsla! Sadəcə, bizim burada ifadə etdiyimiz əsas məsələ odur ki, çar Rusiyası, Sovetlər Birliyi və Pəhləvilər dönəmində əsasən qeyri-milli ideyaların təbliği üçün ön plana çıxarılan bu mütəfəkkirlərimizi, indi isə bir çox məsələləri nəzərə almadan kor-koranə ya da məqsədli şəkildə ideallaşdırmaq çıxış yolu ola bilməz. Təklif edirik ki, bu gün milli fəlsəfəmizin, milli mədəniyyətimizin, milli ideyalarımızın mahiyyətinə uyğun olaraq onların fəlsəfi və ictimai-siyasi görüşləri dəyərləndirlərək öz obyektiv qiymətini tapmalıdır. Bizcə, eyni zamanda bu çar Rusiyası, Sovetlər Birliyi və Pəhləvilər dönəmində mümkün olduğu qədər kölgədə saxlanılan bəzi mütəfəkkirlərimizin (Bakıxanov, Zərdabi, Əfqani və b.) də milli fəlsəfədə, milli mədəniyyətdə daha çox rolunun ortaya çıxarılması üçün də vacibdir.

XIX əsrdə Azərbaycan türk fəlsəfi və ictimai fikrini özündən əvvəlki iki inkişaf xətti ilə müqayisədə daha dolğun şəkildə əks etdirənlər Şərq-İslam-Türk mədəniyyəti ilə Qərb-Avropa mədəniyyəti arasında ortaq nöqtələri tapıb "sin-

tez” etməklə bu poblemi həll etmək istəyən mütəfəkkirlərimiz (C.Əfqani, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Əbdürrəhim Talıbzadə, Ə.Gorani və başqaları) olmuşlar. Hər halda Əfqanilər, Zərdabilər, Talıbzadələr birinci və ikinci inkişaf yollarından fərqli olaraq bəzi məsələlərdə həm orta, həm də rasional yolu tutmağı bacarmışlar. Bu fəlsəfi inkişaf yolunda “orta” ya da mötədil olaraq başa düşdüyümüz məsələ, həm İslam-Şərq mədəniyyətinə, həm də Qərb mədəniyyətinə münasibətdə ideallaşdırmalardan, ifratçılıqdan yan qaçılmasıdır. Eyni zamanda, burada əsasən iki fərqli mədəniyyət arasındakı ziddiyyətlərdən çox oxşar cəhətlərin tapılması və milli-dini xüsusiyyətlərə zidd olmayacağı təqdirdə hər hansı müsbət cəhətlərin qəbul olunmasının mümkünlüyü idi. Bunula yanaşı, bu fəlsəfi inkişaf yolunda “rasional”olaraq gördüyümüz məsələ isə, hər iki mədəniyyətə münasibətdə hər bir şeyi ağ ya da qara rəngdə görməkdən əl çəkib zəmanənin şərtlərini də nəzərə almaqla müsəlman xalqlarına daha inandırıcı və obyektiv bir xətti ortaya qoymaq idi.

Bizcə, bu məsələdə də, yəni fəlsəfi inkişafın bu yolunda “orta” və “rasional” düşüncədən çıxış etməkdə ən böyük pay sahibi C.Əfqani və H.Zərdabi olmuşdur (**22, s.32-34; 23, s.186-188, 210-214; 24, s.59, 82-83, 106**). Çünki həmin dövrdə indi olduğu kimi, müsəlman ölkələri xalqlarının antiislam, antinsani qüvvələrə qarşı qoya biləcəyi iki əsas silahı var idi: 1) İslam dini ya da islam fəlsəfəsi, 2) milli özünüdərk ya da milli oyanış. Ancaq biz onu da yaxşı bilirik ki, antiislam, antiinsani qüvvələr hər iki məsələdə özünəməxsus planları var idi. Məsələn, antiislam, antiinsani qüvvələr İslam dini məsələsində türklərlə, farslar arasında bir təbliğat, ancaq ərəb xalqları arasında isə tamam başqa təbliğat aparırdılar. Belə ki, antiislam, antiinsani qüvvələr türklər və farsları, ancaq daha çox da farsdilli xalqları (fars, kürd, tacik və b.) inandırmağa çalışırdılar ki, İslam dini onların hər şeylərini (dövlətlərini, mədəniyyətlərini, var-dövlətlərini, hüquq və azadlıqlarını və s.) əllərindən almış, bunun əvəzində onları kölə halına gətirmişlər. Bu anlamda antiislam, antiinsani qüvvələr farsdilli xalqların dövlətlərini, mədəniyyətlərini farsdillilərin gözündə ucaldıb dağlara qədər qaldırdıqları halda, ərəbləri isə ən aşağı və barbar xalq kimi qələmə veridilər. Antiislam, antiinsani qüvvələrin ideoloqları farsdillilәri inandırmağa çalışırdılar ki, İslam dini qətiyyən səmavi bir din deyil, ərəblər öz milli maraqlarına uyğun olaraq bu dinin səmaviliyini zahirən qəbul ediblər. Eyni zamanda, antiislam, antiinsani qüvvələr farsdilli xalqlar arasında apardıqları planlarına uyğun olaraq da ərəb xalqlarından sonra İslam dininə bəlkə də onlardan çox tapınmış türk xalqlarını da eyni şəkildə onların gözündən salmağa çalışırdılar. Çünki dini hakimiyyət ərəblərin əlində olduğu qədər də, dünyəvi hakimiyyətdə (Qacarlar, Osmanlı və b.) türk xalqlarının əlində idi. Ancaq həmin antiislam, antiinsani qüvvələr Ərəb xalqları arasında isə tamam başqa cür təbliğat apararaq farsdilli və türksoylu xalqları barbar, vəhşi kimi qələmə verirdilər. Bu zaman, xüsusilə dünyəvi hakimiyyətə sahib olan, üstəlik ərəb torpaqlarında da hökm sürən Osmanlı Türk dövlətinə, türklərə qarşı ağlasığmaz müddəalar irəli sürən antiislam, antiinsani qüvvələr ərəb xalqlarının isə nəcibliyindən, böyüklüyündən,

hətta islamdan öncəki mədəniyyətindən ağızdolusu bəhs edirdilər.

Bütün bunlar o demək idi ki, antiislam, antiinsani qüvvələr istər İslam dini, istərsə milli oyanış məsələsini planları çərçivəsində şərtlərə uyğun olaraq həyata keçirməyə çalışmışdır. Yəni antiislam, antiinsani qüvvələr yeri gələndə İslam dinini sərt şəkildə qamçıladığı halda, başqa bir şərtlər altında isə onun müdafiəçisi qılığında ortaya çıxmağı bacarmışdı. Şübhəsiz, antiislam, antiinsani qüvvələrin, onların ideoloqlarının çirkin niyyətlərini ən doğru şəkildə mənimsəyən, bu anlamda da islamlıq fəlsəfəsi ilə milli oyanış fəlsəfəsi haqqında dəyərli mülahizələr irəli sürən mütəfəkkirimiz Əfqani olmuşdur. Əlbəttə, indinin özündə olduğu kimi, həmin dövrdə də əsas suallardan biri o idi ki, antiislam, antiinsani qüvvələrə qarşı İslam dini ya da İslam birliyi fəlsəfəsi tək çıxış yolu olduğu halda, müsəlman xalqları arasında milli oyanış düşüncəsini irəli sürmək doğrumu idi? Məhz bu anlamda da İslam birliyi ideyasının yeni dövrün şərtlərinə uyğun olaraq banisi hesab edilən Əfqaninin bununla yanaşı müsəlman xalqlarının milli oyanışından, milli azadlığından bəhs etməsi birmənalı qarşılanmamışdır.

Əfqaninin XIX əsrdə əsasən, doğru müəyyənləşdirdiyi, ancaq ondan asılı olmayan səbəblərdən farsdilli, ərəbdilli və türk xalqlarının din və millət məsələsində tutduğu fərqli yollar onun irəli sürdüyü İslam birliyi və müsəlman xalqlarının milli özünüdərk konsepsiyası ideyalarının əsil mahiyyətinə kölgə salmışdır. Üstəlik, hər iki mühüm məsələ ilə bağlı antiislam, antiinsani qüvvələrin ideoloqlarının planlı şəkildə ortaya atdıqları ideyalarla Əfqaninin ideyaları arasındakı bəzi zahiri oxşarlıqlar uzun müddət əsil həqiqətin aşkara çıxarılmasında ciddi çətinliklər yaratmışdır. Ancaq bizə elə gəlir ki, başqa müsəlman xalqlarından fərqli olaraq Əfqaninin İslam birliyi və müsəlman xalqlarının milli özünüdərk konsepsiyası ideyalarını az-çox doğru dəyərləndirən Türk xalqları (Türkiyə türkləri, Azərbaycan türkləri, Türküstan türkləri, Krım türkləri, Tatarıstan türkləri və b.) olmuşdur. Xüsusilə də, Azərbaycan türklərinin doğma torpaqlarımızın bir qismində yaratdıqları Azərbaycan Cümhuriyyəti dövlətinin quruluşunda və ideologiyasında Əfqaninin özünəməxsus yerinin olması danılmazdır. Bizcə, Əfqaninin din, millət və müasirlik məsələsini ondan sonra ən doğru müəyyənləşdirən də Azərbaycan türk mütəfəkkirlərindən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Nəsib bəy Yusifbəyli və Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Başqa sözlə, C.Əfqaninin dünyagörüşündə türkçülük, islamçılıq və çağdaşlıq prinsiplərinin ilk cizgilərini öz əksini tapması şimallı-cənublu Azərbaycan türkləri üçün eyni dərəcədə əhəmiyyətli olmuş, bugünkü üçboyalı bayrağımızın ilk tezisləri məhz C.Əfqani tərəfindən ortaya atılmış, Ə.Hüseynzadə tərəfindən əsaslandırılmış və M.Ə.Rəsulzadənin ideoloji-təcrübi fəaliyyəti nəticəsində həyata keçərək Azərbaycan Cümhuriyyətinin dövlət bayrağında öz əksini tapmışdır. Bu o deməkdir ki, XIX əsr bütün Türk-İslam dünyası, o cümlədən Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixində Əfqaninin özünəməxsus yeri olmuşdur.

Bizcə, XIX əsrdə Azərbaycan türk fəlsəfi və ictimai fikrinin üçüncü və ən

doğru inkişaf yolunun müəyyənləşməsində Əfqanidən sonra ən böyük pay Zərdabiyə məxsus olmuşdur. Zərdabi də "orta" və "rasional" mövqedən çıxış edərək həm İslam birliyi, həm də milli oyanış ideyalarının təşəkkülü və inkişafında mühüm rol oynamışdır. Burada ən çox diqqəti çəkən məsələ odur ki, H.Zərdabi yenilkçi ruhlu islam mənəvi birliyi, türk mədəni birliyi əsasında Azərbaycan türkçülüyünün, bir sözlə «milli (türk) Azərbaycan» ideyasının ilkin cizgilərinin formalaşmasına cəhd göstərmişdir. Bu baxımdan H.Zərdabinin «Əkinçi»dən sonrakı fəaliyyəti də millətinin oyanışı və inkişafı ilə bağlı olmuş, o, həm bir çox çağdaşlarının, həm də yeni nəslin (Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və b.) milli-dini və yenilikçi ruhda yetişməsində və formalaşmasında müstəsna rol oynamışdır. Təsadüfi deyil ki, çağdaşları ilə yanaşı, XX əsrin əvvəllərində yaşamış bir çox tanınmış ziyalılarımız da – Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov və başqaları milli məsələlərdə H.Zərdabini özlərinin müəllimi, ideoloqu saymışlar.

Bütün bunların sonucu olaraq hesab edirik ki, XIX əsr Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixində ən doğru yol üçüncü inkişaf yolunun təmsilçilərinə (Əfqani, Zərdabi, Talıbzadə və b.) məxsus olmuş, XX əsrin əvvəllərindən etibarən isə bu yolu Hüseynzadələr, Rəsulzadələr, Topçubaşılar, Yusifbəylilər, Ağaoğlular və başqaları davam etdirərək Azərbaycan Cümhuriyyətinin timsalında müəyyən qədər də olsa, öz məntiqi yekununa çatdıra bilmişlər. Əlbəttə, XX əsrin əvvəllərində və sonrakı dönəmlərdə Azərbaycün türk mütəfəkkirləri arasında bu yeganə xətt olmamış, digər inkişaf yollarına da ciddi meyillər olmuşdur.

Ədədiyyat və qaynaqlar:

1. Azərbaycan tarixi. VII cild. I c. Bakı, Elm, 2007

2. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinədək. B.: «Elm», 1993, 284 səh. (red. İqrar Əliyev).

3. Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: "Elm" nəşriyyatı, 2012

4. İstoriə azerbaydjanskoy filosofii, t.1. – Baku: Glm, 2002. – 360 s. (otvetstvennıy red. Z.A.Kulizade).

5. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, II cild. Bakı: Elm, 2007

6. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, Elm, 2002

7. Əlibəyzadə Elməddin. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər). Bakı, Qarabağ, 2009

8. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, «Şərq-Qərb», 2007

9. Qeöşev Z.B. Filosofskaə mıslğ v sovetskom Azerbaydjane. Baku, Glm, 1979.

10. Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, «Şərq-Qərb», 2006

11. Şükürov A. Fəlsəfə. Bakı, «Adiloğlu» nəşriyyatı, 2002, 492 səh.

12. Kulizade Z. Konüeptualğnıe problemı issledovaniə soüiokulğturnoqo razvitiə (koneü XX – naçalo XXI vv.). ç.II. Baku: «Teknur», 2009

13. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012
14. Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı, Avrasiya-Press, 2005
15. Zakir Q.B. Seçilmiş əsərləri. Bakı, "Avrasiya Press", 2005
16. Vazeh M.Ş. Nəğmələr. Bakı, Şərq-Qərb, 2004
17. Nəvvab M.M. Əsərləri. Bakı, "Şərq-Qərb", 2006
18. Axundzadə M.F. Əsərləri. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2005
19. Kazım bek Mirze. İzbrannıe proizvedeniə. Baku: Glm, 1985
20. Marağalı Z. İbrahim bəyin səyahətnaməsi. Bakı, «Avrasiya pess», 2006
21. Vəzirov N. Əsərləri. Bakı, Şərq-Qərb, 2005
22. Əfqani Cəmaləddin. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1998
23. Qurbanov Şamil. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, Azərnəşr, 1997.
24. Zərdabi Həsən bəy. Əkinçi. 1875-1877. Tam mətni. Bakı, Avrasiya Press, 2005.

Еркин Байдаров

ИБРОХИМ МУМИНОВ КАК ОСНОВАТЕЛЬ СОВРЕМЕННОЙ ФИЛОСОФСКОЙ ШКОЛЫ УЗБЕКИСТАНА

Введение

Изучая историю общественной мысли народов Центральной Азии, включающей в себя, пять новых независимых государств – Казахстан, Кыргызстан, Таджикистан, Туркменистан и Узбекистан, мы видим, какое место регион занимает в истории всемирного интеллектуального наследия. Огромный вклад в интеллектуальную сокровищницу внесли выдающиеся мыслители-энциклопедисты Центральной Азии – Абу Наср аль-Фараби (780-950), Абу Райхан аль-Бируни (973-1148), Абу Али ибн Сино (980-1037) и многие не менее знаменитые мыслители, имена которых известны во многих странах мира.

Однако, к сожалению, сегодня в современных государствах региона мало что знают о выдающихся ученых-мыслителях стран Центральной Азии советского периода (1917-1991). В данной работе автор как уроженец Ташкента и Республики Узбекистан, в которой он получил образование, где создал семью и, где родились его дети, хотел бы посвятить памяти выдающегося узбекского ученого-философа и историка – Иброхима Муминова (1908 -1974).

К большому сожалению, 110-летний юбилей мыслителя в ноябре 2018 года прошел мимо внимания общественности, как в Узбекистане, так и в других странах региона. Почему так произошло? Неужели так коротка у нас память, что мы не можем вспомнить своих выдающихся сынов? В связи с этим, изучение научного наследия выдающихся мыслителей Центральной Азии XX века приобретает как актуальность, так и интерес, так как

связано с процессами трансформации и модернизации всех сторон общественной жизни стран Центральной Азии, а также возрождением интереса к интеграционным проектам в регионе.

Становление И. Муминова как ученого и развитие науки в Узбекской ССР (1920-1940 гг.)

С первых дней независимости Республики Узбекистан, как и других новых государств Центральной Азии, важнейшей проблемой, поднятой на уровень государственной политики, явилось возрождение того огромного культурного наследия, которое в течение многих веков создавалось их предками. Культурное наследие узбекского народа складывалось в процессе становления и развития национального самосознания, постоянно обогащалось собственным и мировым культурным опытом и представив миру вершины художественных и научных достижений, вошло неотъемлемой частью в мировую культуру и науку. Одним из тех, кто оставил свой яркий след на небосклоне узбекской науки XX столетия был – академик Иброхим Муминович Муминов.

Будущий философ, основатель философской школы Узбекистана, академик Академии наук Узбекской ССР (1956), И. Муминов родился 7 ноября 1908 г. в селе Тезгузар Шафирканского тумана, входившего тогда в состав Бухарского эмирата.

В начале XX-го века площадь эмирата составляла 217 674 кв. вёрст, где проживало около 3 миллионов человек. Этнический состав населения был представлен современными титульными этносами Центральной Азии, а также проживавшими здесь в тот период евреями, арабами, афганцами, цыганами, индусами и персами.

Несмотря на довольно обширную территорию и многочисленное население, в экономическом плане Бухарское ханство представляло собой отсталую сельскохозяйственную страну, с зачатками кустарной промышленности. При этом бухарский эмир пользовался неограниченной деспотической светской властью, являясь на основании шариата и духовным главой государства. Один из российских ученых-востоковедов оставивших интересное описание Бухарского эмирата того периода отмечал: «Как пастух может зарезать во всякое время любую овцу из своего стада, так и Эмир имеет законное право пресечь жизнь любого из населения» (**1, с. 32**).

Высшим должностным лицом Эмирата являлся – *кушбеги*, который отвечал за внутреннее управление, а в отсутствии эмира принимал на себя управление страной. В административном отношении ханство разделялось на 25 бекств. Беки подчинялись кушбеги, при этом не получали никакого содержания от государства, а должны были кормиться самостоятельно, за счёт разницы между собираемыми податями и суммами, отправляемыми в казну эмира.

К моменту рождения И.Муминова, в Бухарском эмирате, как и на всей территории Центральной Азии, зарождалось движение джадидизма, которому суждено было сыграть решающую роль в ликвидации, как эмирата, так и Хивинского ханства (оба были ликвидированы в 1920 г. при непосредственной помощи большевиков, т.е. приверженцев Советской власти *–Е.Б.).*

Конечно же, эти суровые годы дооктябрьского периода запечатлились в душе еще юного семнадцатилетнего парня, начавшего трудовую деятельность в 1925 г. учителем школы.

Bu kontekstdə düşünərkən və yaranmış real situasiyanı nəzərdən keçirərkən hesab edirəm ki, ən yaxşı alternativ nümunəsi kimi Çin Xalq Respublikasının ali rəhbərliyi tərəfindən irəli sürülmüş Yeni İpək Yolu layiəsini göstərmək olar. Çinin "Bir kəmər – bir yol" konsepsiyası bütün xalqlar və dövlətlər üçün yeni şanslar yaradır, onlara layiqli yaşamaq və inkişaf etmək imkanı verir. Bu layihə beynəlxalq münasibətlərin sağlam düşüncə və sinergetik əməl birliyi əsasında tam yeni bir modelidir ki, köhnə dünya durumuna xas olan geosiyasi, iqtisaditicari, etno-milli, dini-mədəni qarşıdurmaların, münaqişə və lokal müharibələrin

aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər. Layihənin fəlsəfi-etik, mənəvi-mədəni imperativlərindən, elmi-texniki və texnoloji üstünlüklərindən, maddi-maliyyə təminatının etibarlı olmasından çıxış edərək, artıq indidən əhəmiyyətli uğurdan, alınacaq nəticələrin məhsuldarlığından danışmaq olar. Şübəhəsiz ki, Azərbaycanın belə bir mühüm və perspektivli layihədə yaxından iştirakı olduqca vacibdir. Bu iştirak, həm də, ölkəmizin öz özəl meqatrendini müəyyənlişdirməkdə və təkmilləşdirməkdə əhəmiyyətli rol oynaya bilər. Bu mənada da milli fəlsəfəmizin üzərinə böyük məsuliyyət düşür. Bir çox ciddi məsələlər ortaya çıxır ki, onların qaneedici həlli fəlsəfəsiz mümkün deyil. İnteqrasiya məqsədi daşıyan layihə elə ilk növbədə inteqrativ funksiya daşıyan fəlsəfənin idrak obyekti olmalıdır.

Qeyd edim ki, "Yeni İpək Yolu" ideyası keçən əsrin 90-cı illərin ortasından başlayaraq Beynəlxalq Şiller İnstitutu (1984-cü ildə yaradılıb) tərəfindən gündəmə gətirilib. Məhz bu qurum Çinin siyasi və iqtisadi dairələri ilə sıx əməkdaşlığı əsasında bu ideyanı inkişaf etdirib və kifayət qədər irəli aparıb. Bu işdə iki tanınmış alimin – Lindon Laruş və onun həyat yoldaşı, silahdaşı Helqa Tsepp-Laruşun böyük rolu olub. Hal-hazırda Helqa Tsepp-Laruş həmin İnstitutun direktorudur və əhəmiyyətli fəaliyyətini davam etdirməkdədir.

Beynəlxalq Şiller İnstitutunun işləyib irəli sürdüyü məhsuldar fiziki iqtisadiyyat konsepsiyası hal-hazırda həyata keçirilən Yeni İpək Yolu layihəsinin nüvəsini təşkil edir. Bu konsepsiyanın özü müharibə və dağıntılara, xalqların amansız istismarına, ayrı-ayrı ölkələrin məhvinə rəvac verib, yol açan spekulyativ maliyyə imperiyasına, totalitar kapitalizmə qarşı olan bir ümidverici alternativdir. Düşünürəm ki, yalnız belə alternativ konsepsiya və trendlər hesabına Britanıyanın BP kimi mənfur şirkətinin istismarçı fəaliyyətinə, Siti və Uoll-strit hökmdarlığına son qoymaq olar. Qarabağ probleminin, ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünün həllini də mən bu məcrada görürəm. Azərbaycana qarşı yapılan məkrli siyasətin, Ermənistana edilən himayədarlığın, hər cür dəstəyin başında da məhz Britaniya, onun transmilli korporasiyalarla bir yerdə qurduğu sirli-gizli fəaliyyət Və

dünya fəlsəfəsinin zirvələrindən biri olsa da, onu maraqlandıran ilk növbədə öz xalqı olub və o, öz xalqının mənəviyyatının, düşüncəsinin inkişafı üçün çalışıb. Bir qeydində yazdığı kimi, "Alman həyatı indiki vəziyyətində qala bilməz, çünki hər şey bütün qüvvəsini, bütün ləyaqətini itirib, nə isə mənfi bir hadisəyə çevrilib". Yaxud dahi bəstəkar Richard Vagner dünyanı fəth edən musiqisini məhz Alman təfəkkürü üzərində qurmuşdu. Deməli, tarixdə qalan mütəfəkkirlərin ümumbəşəri ideyaları olsa da, əhəmiyyətli olan bu ideyaların milli təməli, köküdür. Təbii ki, təməl nə qədər möhkəm, sabit, zəngin olarsa, üzərində qurulan abidə də bir o qədər möhtəşəm olar. Hər insanın və ya cəmiyyətin müəyyən təməl prinsipləri var ki, nəsildən-nəslə keçir, həmin xalqın varlığını və orijinallığını qoruyub saxlayır. Başqa sözlə desək, hər yeni doğulan uşaq artıq bu dəyərlər içərisində doğulur və onlara sahib olur. Məsələn, yaponlar öz cavanlarının bəzən Qərb dəyərlərinə meylinə, qərbləşmək həvəslərinə rahat reaksiya verirlər. Çünki haqlı olaraq düşünürlər ki, şintonun (yaponların milli inanc sistemi) prinsipləri o dərəcədə möhkəm və sabitdir və o dərəcədə yaponların qanına hopub ki, onlar gec-tez mütləq öz köklərinə qayıdacaqlar, yəni başlanğıc, təməl düzgün qoyulduğuna görə, nəticədən əmindirlər. Deməli, möhkəm təməl nəinki dayanıqlı divar, həm də əyrini-düzü obyektiv şəkildə dəyərləndirmək imkanı, ən vacibi isə, yenilikləri qəbul edə bilmək bacarığı deməkdir.

Azərbaycan xalqının varlığını sübut edən yalnız onun öz müstəqil dövlətinin olması deyil, həm də qədim eposları, dastanları, zəngin folklorudur. Bir sözlə desək, bu xalqın dərin kökü, bitməyən xəzinəsi var və onun milli dəyərlərini dərk etmək, milli ruhunun əzmini tanımaq üçün ilk növbədə bu kökün mahiyyətinə müraciət etmək lazımdır. Bu səbəbdən istər "Kitabi Dədə Qorqud"a, istər muğamlara, istərsə də milli ruhun daşıyıcısı olan başqa sənət nümunələrinə dövlət səviyyəsində qayğı göstərilir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, milli dəyərlər həm də bir növ bəşəriyyətin ümumi dəyərlərinin bir hissəsidir və bu səbəbdən onlardan xüsusilə əhəmiyyətli olanlar beynəlxalq səviyyədə qorunur, gələcək nəsillərə çatdırılması üçün diqqət göstərilir. Çünki bunlar, amerikan şairi Ezra Paundun Nobel mükafatı alan Rabindranat Tagor haqqında dediyi kimi, "...unudulan müdrik həqiqətləri bir daha xatırladırlar". Bu sırada Azərbaycan xalqına məxsus yaradıcılıq da var. Xatırladaq ki, həm Kitabi Dədə Qorqud, həm də muğam YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Yaxud 1977-ci ildə NASA-nın Voyager 1 (20 Avqust) və 2 (5 Sentyabr) peykləri ilə kosmosa göndərdiyi "Yerin səsləri" sırasında Azərbaycan muğamı da var (**1**).

Dediklərimizdə vurğulamaq istədiyimiz bir məqam var. Xalqın düşüncə tarixi ilə yanaşı inkişaf yolu keçmiş xalq yaradıcılığı matrisa kimi özündə bir çox ideyanın rüşeymini ehtiva edir və onlar üzərində qurulan hər bir fəlsəfi nəzəriyyə, fəlsəfi prinsip milli ruhun təzahürüdür. Okeanın dibində balıqqulağının içinə kiçik qum dənəsi düşməsə, zamanla onun üzərinə qatlar gəlib bir inci dənəsi yaranmaz. Deməli, *milli nüvəsi olmasa, müasir düşüncələrin meydana gətirdiyi hər bir əsər bijuteriyadan başqa bir şey olmayacaq*. Təsadüfi deyil ki,

Nitsşe Vaqnerdən ilhamlanaraq belə hesab edirdi ki, miflər və əfsanələr millətin ruhunu ehtiva edir və ondan doğulan möhtəşəm alman musiqisi – "Baxdan Bethovenə, Bethovendən Vaqnerə gedən günəş qaçışı" elə həmin millətin ruhunu oyadacaq bir qüvvədir". Şərt heç də həmin yaradıcılıq haqqında yazmaq, onu təhlil etmək deyil. Şərt onlardakı milli dəyərləri dərk etməklə müasir dövrün tələblərinə uyğun ideyalar irəli sürmək, ümumbəşəri miqyasa çıxıb orada da öz millətinin identikliyini qorumaqdır.

Sabit özək və dəyişən formalar

Tarixdə unudulan millətlər də çoxdur – düşüncələri davam etməyən və bu səbəbdən ruhu da məhvə düçar olan, buna görə də zamanın yalnız müəyyən dilimində var olub, indi artıq yoxluğa qovuşan millətlər də. Deməli, ruhun yaşaması üçün düşüncənin daim cilalanması, düşüncələrin "genişlənməsi" zamanı güclü ideya xaosu arasında əriyib yox olmaması, yaxud dəyişməməsi bir zərurətdir. Başqa sözlə desək, onurğa nə qədər möhkəm olarsa, tarix boyu dəyişən formalar ona nəinki təsir etməz, əksinə, onun yeni bir cəhətinin tanınmasına, hətta böyüməsinə xidmət edər.

Azərbaycanın çox keşməkeşli tarixi olub və bir neçə böyük "genişlənmə" prosesi yaşayıb. Biz yalnız ikisinin nümunəsində əsas məqsədimizi çatdırmağa çalışaçağıq: Azərbaycan İslam mədəni bölgəsinin üzvi hissəsi və keçmiş Sovet İttifaqının bir tərkibi olaraq.

İslam dini Azərbaycan bölgəsinə çox erkən əsrlərdə gəlmiş və çox tezliklə dini mədrəsələr yaranmış, alimlər yetişmişdir. Danılmaz faktdır ki, İslam sivilizasiyasının qurulmasında Azərbaycan mütəfəkkirlərinin əvəzsiz xidmətləri vardır. Təsadüfi deyil ki, istənilən sahədə – fiqh, kəlam, hədis, fəlsəfə və başqalarında mütləq Azərbaycanlı mütəfəkkirin adına rast gəlmək mümkündür. Məsələn, akademik Ziya Bünyadov öz tədqiqatlarında Xilafətin başqa şəhərlərində, o cümlədən, Bağdadın "Nizamiyə" mədrəsəsində" dərs deyən azərbaycanlı alimlərin – hədisçi və fəqihlərin də adlarını göstərir. Bunlardan "Nizamiyyə"də dərs deyən və "Azərbaycan tarixi" əsərinin müəllifi olan Fəxrəddin Əbü`l-Fəzl İsmail ibn əl-Musənnə ət-Təbrizinin, yenə də "Nizamiyyə"də və "Kəmaliyyə"də dərs keçən fəqih Əbü`l-Fəzl Mahmud ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbilinin, Mosulda, Dəməşqdə və başqa şəhərlərdə fəaliyyət göstərən hədisçi və fəqihlərin adlarını çəkmək olar (**2**). Belə bir siyahı hər dövrdə, hər sahədə təqdim etmək mümkündür. Lakin biz diqqəti başqa bir məsələyə yönəltmək istəyirik.

İslam dövrünün araşdırmaçıları hər zaman bir faktı vurğulayır – İslamda millət deyil, ümmət öndədir. Bu səbəbdən, İslam mütəfəkkirlərinin milliyəti əksər hallarda ikinci plana keçirilir. Lakin məsələnin fərqli tərəfi də var. Əslində, İslam düşüncəsi zəminində milli təfəkkürü oyatmaq istəyən əksər düşüncə sahibləri bu fikri qabardıblar. Belə ki, Qurani Kərimin təqribən üç fərqli surəsində qeyd edilir ki, "Allah istəsəydi sizi tək ümmət olaraq yaradardı" (Quran 5/48, 42/8 və b.). Bir başqa ayədə isə buyurulur ki, "Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə

ayırdıq" (Quran 49/13). Deməli, ümmətçilik ayrı-ayrı xalqların eyni prinsiplərə hörmət etməsi, öz həyatını, cəmiyyətini də bu prinsiplərlə idarə etməsidir. Bu faktdır ki, din mənəvi bir hadisədir, siyasi müstəviyə keçəndə bu mənəvi keyfiyyətlər fərqli və çox vaxt əslindən uzaq bir mahiyyət qazanır. Ümmət olmaq mənəvi bağlarla əlaqəli olub, yüksək ilahi həqiqətləri dərk etməkdir və bu, heç bir milli dəyərləri tapdalaya bilməz. Zatən, İslamın yayılması zamanı və sonralar xilafətin idarə olunmasında da milli kimliyə toxunulmayıb. Bu, mümkün də deyildi. Belə olan halda, cəsarətlə demək olar ki, birincisi, müsəlman olmaq, İslam ümmətinin bir hissəsi olmaq hələ öz milliyyətini itirmək demək deyil. İkincisi, məlum faktdır ki, hər millət öz dininə məhz milli ruhundan irəli gələn, milli təfəkkürünün nəticəsi olan incəliklər də əlavə edib. Məsələn, belə iddia etmək olar ki, Şihabəddin Sührəvərdi məhz milli təfəkkürünə əsaslandığına görə, həm İslam düşüncə tarixində, həm də dünya fəlsəfəsində yeni bir səhifə yaza bildi – İşraq fəlsəfəsinin əsasını qoydu. Əslində kitabının girişində bu hikmətin Zərdüştdən başlayan və neçə müdriklərdən keçib gəldiyini və indi onda təzahür etdiyini Sührəvərdi özü də etiraf edir (**3**). Yaxud heç cür özünü unuda bilməyən milli təfəkkürün oyanışı nəticəsində İslam mədəni bölgəsində ilk daha uzunömürlü Respublika Azərbaycanda quruldu. Əhəmiyyətli faktdır ki, Pakistanın ideoloqlarından olan Məhəmməd İqbal da dini düşüncə zəminində milli təfəkkürün oyanışını bir zərurət kimi təqdim edir və məhz türklərdən nümunə gətirir: "Oxşar düşüncə və duyğuları sadalamaq, bizcə heç bir düşüncə və duyğuya sahib olmamaq deməkdir. Bu gün müsəlman ölkələrinin çoxunun vəziyyəti belədir. Onlar keçmiş ənənə və dəyərlərini qeyri-şüuri bir şəkildə təkrarlayırlar. Halbuki türklər yeni-yeni dəyərlər yaradırlar. Türk milləti böyük təcrübələrdən keçdikdən sonra öz daxili mən-liyini kəşf etmişdir. Onda həyat və hərəkət vardır. O tərpənməyə, genişlənməyə və böyüməyə başlamışdır" (**4**). Deyilənlərdən maraqlı bir nəticə çıxartmaq mümkündür: Azərbaycanda İslam dini ilə milli təfəkkürün ən yüksək sintezini yaratmaq mümkün oldu, çünki xalqın ziyalısı hər ikisinin əsl mahiyyətini dərk edə bilmişdi.

Nəzərdən keçirtmək istədiyimiz ikinci dövr isə Azərbaycanın Sovet İmperiyasının tərkibində olduğu 70 ildir.

Sovet hakimiyyəti Azərbaycanda milli təfəkkürün ən zirvə məqamında olduğu vaxt gəldi və sözün hər mənasında onu işğal etdi. Bu sadə bir İmperiya deyildi. Bəlli ideologiyanın taxta çıxması idi və təbii ki, bütün sahələri, ilk növbədə isə düşüncələri, hətta milli kimliyi də zəbt etməli idi – öz ömrünü uzatmaq, rəqibləri məhv etmək üçün. Ən böyük rəqib isə milli ruh idi! Bu səbəbdən gecə gündüz təbliğat maşınları işlədi, əsərlər yazıldı, təhsillə bərabər beyinlərə İmperiyanın ruhuna uyğun informasiyalar dolduruldu. Millət sözü işlədən hər kəs təqibə məruz qaldı, az qala bütün nəsli məhv edildi. Bu gündən o zamana baxanda təqribən üç mərhələ müşahidə etmək mümkündür: milli təfəkkürün yox edilməsi – Repressiyalar, İmperiya baxış bucağından millətin tarixinin təkrar təftişi – marksizm-leninizm ideologiyasının tədrisi, yaradıcılığın hər növündə, xüsusilə fəlsəfədə bu ideologiyanın ön planda olmasını təmin et-

mək, İmperiyanın çökməsi – milli təfəkkürlə ideologiya arasında uçurumun dərinləşməsi. Bu şərti bölgünün hər birinin ayrıca təhlilə ehtiyacı olsa da, biz yalnız mövzumuza uyğun xətti izləyək – milli təfəkkürü.

Milli təfəkkür 1920-ci ildə bir işğalla yox ola bilməzdi. Ona görə yox ki, zirvədə idi. Ona görə ki, kökü çox dərində idi. Düzdür, millətin daha müstəqil respublikası olmadı, ancaq ruhu yaratmaqda davam etdi. Məsələn, tanınmış alim, biblioqraf Salman Mümtaz 1927-28-ci illərdə Azərbaycan aşıq poeziyasının nümunələrini iki cilddə nəşr etdirdi, böyük çətinliklərlə orta əsrlərə aid Azərbaycan şair və mütəfəkkirlərinin əlyazmalarını topladı. O, Repressiya zamanı həbs ediləndə 250-dən çox nadir əlyazma məhv edildi. Həmin illərdə Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və daha neçə ziyalını "yox etməklə" milləti qorxuya salmaq, yalnız susmasını deyil, hətta düşünməməsini tələb edirdilər. Tarixi yaddaşından, zəngin təcrübəsindən nəticə çıxaran millət də bu amansız təzyiqə müdrikcəsinə cavab verdi. Əvvəla, dövrün tələbinə uyğun olaraq yazdığı əsərlərə Sovet ideologiyasının notlarını qatsa da, bir çox tanınmış Azərbaycan mütəfəkkirlərinin yaradıcılığı araşdırıldı, orijinaldan tərcümə edildi, orta əsr Azərbaycan irsi haqqında sanballı traktatlar yazıldı. Bu, milli yaddaşın qorunması idi. Yazıçı və bəstəkarlar isə daha dərinə millətin kökünün üzərində bugünü qurmağa başladı. Məsələn, qanlı 37-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində ilk dəfə Üzeyir Hacıbəyovun "Koroğlu" operası oynanıldı. Səməd Vurğun 1938-ci ildə Vaqif obrazı ilə millətin "əyilməz vicdanının böyük heykəli"ni göstərdi və xatırlatdı ki,

Dayan...bu bağçanın hər bir budağı
Üstqündə min çiçək, min gül bitirmiş
Sizin güldüyünüz çoban torpağı,
Nizamilər, Füzulilər yetirmiş.

1960-cı ildə YUNESKO-nun təşəbbüsü ilə hazırlanan "Şərqin Musiqi antologiyası" (*UNESCO Musical Anthology of the Orient)* (**5**) seriyasına Azərbaycanın tanınmış tarzəni Bəhram Mansurovun ifasında muğam da daxil edildi. Bir neçə il sonra – 1975-ci ildə yenə də YUNESKO-nun təşəbbüsü ilə hazırlanan "Dünyanın ənənəvi musiqi kolleksiyası"na (*UNESCO Collection of Traditional Music of the World*) Bəhram Mansurovun ifasında 7 muğam daxil edildi (**6**). O vaxtlar Qərb dünyası üçün bağlı bir zona olan Sovetlər Birliyindən dünyaya məhz Azərbaycan muğamı çıxdı və dünyada rezonans yaratdı (**7**).

Maraqlı və diqqətə layiq hadisələrdən biri də 1970-ci ildə Ulu Öndər Heydər Əliyevin Hələb şəhərinə səfər etdiyi zaman orada israrla Nəsiminin məzarını ziyarət etmək istəyidir. Azərbaycana qayıdandan sonra dahi şairin 600 illik yubileyinin keçirilməsi haqqında Heydər Əliyev SSRİ Nazirlər Sovetinə müraciətlər edir, neçə əziyyətdən sonra Nəsimi yaradıcılığının araşdırılmasına, haqqında bədii filmin çəkilməsinə, ən nəhayət, şəhərin mərkəzində abidəsinin ucaldılmasına nail olur. Xalq yazıçısı Mirzə İbrahimov səkkiz il sonra Ali Sovetin IX sessiyasında belə bir fikir səsləndirir: "… Heydər Əliyev yoldaşın əməyi,

zəhməti, onun ilhamlı fəaliyyəti ...Azərbaycan torpağının şərəfini, şöhrətini artırıb… Sevimli oğlumuz Heydər Əliyev yoldaş sinəsini qabağa verərək Nəsiminin heykəlini ucaltdı" (**8**). İstər istəməz belə bir rəy formalaşır: *Sovet ideologiyasının özünün zirvə məqamını yaşadığı bir çağda Ulu öndər sinəsini qabağa verərək əslində milli təfəkkürə heykəl ucaltdı.* Son illərdə Qərbin müxtəlif məkanlarında Azərbaycan ziyalılarının məzarlarına göstərilən qayğı da eyni məntiqin davamıdır. Bəli, bu, sadəcə bir şairə, bir ziyalıya göstərilən diqqət deyil, bu milli təfəkkürün qorunması, gələcək nəsilə ötürülməsidir. Səlahəddin Xəlilov yazır: "Sivilizasiyanın ən mühüm şərtlərindən biri məhz kəsilməz tarixdir. Belə ki, cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam - etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir." Bunu dərk edən hər ziyalı, hər şəxsiyyət formasından asılı olmadan özəyin qorunmasına, tarixin kəsilməməsinə diqqət göstərir. Çünki bilir ki, tarixin sərt şərtlərinə baxmayaraq milli ruh və milli təfəkkür yaşayırsa, heç bir dəyişən forma ona zərər verə bilməz, əksinə, o, özünün daha bir qatını yaşayar.

Milli təfəkkürün coğrafiyası

Müəyyən anlayışın sərhədləri bəlli olanda ona təhlil vermək asanlaşır. Bu baxımdan biz də milli təfəkkürün təqribi "coğrafiyasını" müəyyənləşdirməyə cəhd edək. Söhbət nə tarixi Midiyadan, nə Albaniyadan, nə də Əfqanıstandan İraqa qədər məkanı əhatə edən Səfəvilərdən gedəcək. Mövzumuz milli düşüncənin hüdudlarıdır.

"Kitabi-Dədə Qorqud"da deyildiyinə görə, "24 sancaqlı oğuz eli" dəmir qapı Dərbənddən tutmuş türkmən ellərinə qədər gedib çıxırmış. Eposdan o da məlumdur ki, hətta yağılarla qonşu olsalar da, Oğuz elində nə divar varmış, nə səngər. Oğuzda evlənən gənc ox atarmış: ox hara düşsə, bəylik çadırı – gərdəyi orada qurularmış, yeni ailənin ocağı orada çatılarmış. Deməli, ox çatan yer həmin igidin qoruya bildiyi, namusunu etibar edə biləcəyi məkandır. Nə qədər cürətli, biləyi güclü igid olarsa, bir o qədər oxu uzaq məsafəyə uçar və yerə daha möhkəm sancılar! Hunların adətinə görə isə, vəfat etmiş igidi atının yəhərində dik oturdub, mahmızlarını da tikanlı edib çölə buraxarmışlar. Tikanlar atı yaralayar, o da ağrıdan ölənə qədər çaparmış. Təbii ki, bu, həmin millətin təfəkkürünün məhsulu idi – azad, özünə güvənən, oxunun, sonralar isə bayrağının sancıldığı, atının çapa bildiyi qədər uzanan məkanı ehtiva edən bir təfəkkürün. Bu səbəbdəndir ki, bu millətin bir deyil, bir neçə dövləti olub və var. Maraqlı faktlardan biri də bu millət bir neçə adla tanınması və qurduğu dövlətlərin, İmperiyaların adlarında əksər hallarda bunun əks olunmasıdır. Eramızdan əvvəl Böyük Hun İmperiyasından tutmuş bu gün Özbəkistana, Qazaxstana və başqalarına qədər. Bununla belə, digər türk dövlətləri arasında yalnız Azərbaycanın adı milli mənsubiyyətin deyil, tarixi məkanın ifadəsidir. Yaxın tarixə nəzər salsaq görərik ki, Azərbaycan ərazisində müstəqil Respublika iki dəfə elan edilib – 1918-ci və 1991-ci illərdə. Hər iki dəfəsində də dövlətin qurucuları türk milləti ilə yanaşı bu ərazidə yaşayan bütün digər kiçik millətləri, etnik qrupları da ehtiva etmək üçün məhz Azərbaycan adının üzərində daya-

nıblar. Bu ad qeyd-şərtsiz Sovetlər Birliyində də saxlanılıb. Bununla belə, əhəmiyyətli bir məqam vurğulanmalıdır: bu dövlətin müqəddəs rəmzləri türklük, islamçılıq və müasirləşmədir. Başqa sözlə desək, Azərbaycan ərazisində yaşayan bütün millətlər, etnik qruplar öz dilindən, dinindən asılı olmayaraq bu prinsiplərə hörmət etməli, onları müqəddəs qəbul etməlidir. Dövlətin bayrağının altı milli dəyərlərə sadiq qalan bütün digər millətlər üçün güvənli Vətəndir. Bəli, millətin adı dövlətin adında yox, ruhunda, yürütdüyü siyasətində, başqa millətlərə göstərdiyi münasibətdədir. Axı, müasir Azərbaycanda multikulturalizmin dövlət siyasəti kimi qədul edilməsi bir təsadüf deyil, millətin xoşgörülü ruhunun inikasıdır. *Türk Vətən dediyi ərazinin hər insanına, hər daşına sahib çıxıb. Bu qeyrət "Azərbaycan" adında özünü bütün mükəmməlliyi ilə ifadə edir.*

Azərbaycan tarixən bir çox işğallara məruz qalıb, sənətkarları yad ellərə sürgün edilib, yaxud elm dalınca özləri uzaq məkanlara, "Çinə qədər" üz tutublar. Ancaq bu sənətkarlar hara getsələr də, milli təfəkkürlərini nəinki qoruyublar, onu olduğu məkanda da yaya biliblər. Məsələn, muğamın tədqiqatçılarından birinin gəldiyi qənaətə görə, "türklər tarixləri boyu dünya coğrafiyasının hüdudsuzluğunda yaşamağın verdiyi irqi bir alışqanlıqla bir çox məqamlara coğrafi adlar vermişlər"(**9**). Milli ruh güclü olduğuna görə başqa millətlər arasında nəinki əriyib yox olmayıb, əksinə öz orijinallığı ilə yerli mədəniyyətə, təfəkkür sisteminə yeni rəng qata bilib. Maraqlı bir məqama diqqət çəkək – əvvəllər oxunun düşdüyü yer necə Vətən, təfəkkürün həddi hesab edilirdisə, sonralar artıq sözünün, mədəniyyətinin gücü yetdiyi yerə qədər Vətən deyilməyə başlanıldı. Bu təfəkkürün təzahürüdür ki, Şimal, Cənub, Şərq, Qərb bilmədən hər azərbaycanlı mütəfəkkirin, sənətkarın doğulduğu və vəfat etdiyi məkanı çox böyük rahatlıqla Vətən kimi qəbul edə billirik.

Onu da mütləq əlavə etmək lazımdır ki, milli təfəkkürə irsən xas olan özgüvən bəzən onun öz əleyhinə çevrilə bilib. Məsələn, düşmən onun musiqisini özününkü kimi təqdim edəndə, tarixi ərazilərində qazıntı aparıb guya özünə aid faktlar "tapanda" mütəfəkkirini milliyyətini dananda buna böyük bir təmkinlə cavab verir. Çünki bilir ki, 3 metrlik dərinlikdə əvvəldən gizlədilmiş o faktın yerini daha 4-5 metr qazsa, o məkanın əsl sahibinin izləri çıxacaq. Bilir ki, oğurlanan sənət əsərinin səsini, notunu mənimsəyə bilərlər, ancaq tarixini, mənbəyini yox. Hər halda, belə bir deyim təsadüfən dillər əzbəri olmayıb: *türklər tarixi yaradır, başqaları onu yazır*. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, türklər yalnız qılınc yox, qələm tutmağı da gözəl bacarıblar və dünya mədəniyyətində öz imzasını qoymuş mütəfəkkirlər buna nümunədir. Məsələn, müasir dövrdə bu qədər haqsızlıqla üz-üzə duran Azərbaycan öz gücünün varlığını bəyan etməklə yanaşı, bütün dünyaya yenə də yüksək mədəniyyətini, tolerantlığını göstərir və burada ən böyük missiya yenə də milli təfəkkürün üzərinə düşür. Təsadüfi deyil ki, muğamın daxildən, tarixi köklərindən qaynaqlanan gücünü, təsir dairəsini, ehtiva etdiyi həqiqətin miqyasını nəzərə alsaq, cəsarətlə onu Azərbaycanın "yumşaq gücü" adlandıra bilərik. Bu millətin adını belə eşitməyən bir xarici vətəndaş muğam vasitəsilə bu millətin aşiqinə çevrilə bilir.

Dil və milli təfəkkür

Azərbaycanın mürəkkəb düşüncə tarixindən çıxış edəndə milli təfəkkürün dili haqqında konkret fikir bildirmək çətinləşir, mübahisələr yaranır. Biz də müəyyən bir rəy bildirək.

Hər şeydən əvvəl vurğulayaq ki, milli təfəkkürün coğrafiyası haqqında dediklərimiz birbaşa onun dilinə də aiddir. Belə ki, nəzərə alınmalıdır ki, Azərbaycanda elə etnik qruplar var ki, onların öz dili, əlifbası yoxdur, yaxud bu dil bir kənd, bir bölgə miqyasında tanınır. Bu baxımdan, fərqli illərdə dövlət dilinin adının nə olmasından asılı olmadan, məhz "Azərbaycan dili" sözün hər mənasında bu torpaqda, bu bayraq altında yaşayan bütün xalqların, millətlərin, etnik qrupların dili, tribunası kimi anlaşılır. Onların adı türk olmasa da, türkün qoruması altındadırlar və onun dili vasitəsilə öz kimliklərini tanıda, öz adət-ənənələrini bütün gözəlliyi ilə yaşada bilirlər. Hər nə qədər Azərbaycan dilinin sütunu, özəyi türk dili olsa da, missiyası daha genişdir. Ulu Öndər Heydər Əliyev 2001-ci ildə Azərbaycan dili haqqında Fərmanında deyir: "Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu əsasda Azərbaycan ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüz illər boyunca mürəkkəb bir yol keçmişdir. Qədim və zəngin tarixə malik türk dil ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdı. Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türk əsilli boyların və soyların dili təşkil etmişdir" (**10**). Deməli, Azərbaycan dilinin bir missiyası da Azərbaycana Vətən deyən bütün millətləri birləşdirmək, hər mənada eyni dildə danışdırmaqdır.

Bir neçə kəlmə də mövcud paradokslar haqqında. Bir çox Azərbaycan mütəfəkkirləri Azərbaycandan uzaqda yaşasalar da, öz doğma dilində də yazıb yaradıb, Məsələn, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və s. Amma digərləri Gəncədə, Təbrizdə yaşasa da, farsca yazıblar. Eyni vəziyyət XX əsrdə Sovetlər Birliyində də yaşanıb – əksər elmi, fəlsəfi əsərlər mütləq ya rusca yazılıb, ya da ruscaya tərcümə edilib. Bu hal tez-tez belə sualları aktuallaşdırır: əcəba, başqa dildə yazan azərbaycanlı mütəfəkkir, alim milli mədəniyyətimizin xəzinəsinə bir bəhrə vermiş sayılmırmı?! Yaxud uzaq ellərdə yaşayan azərbaycanlı müəllifin yazdıqları bizim milli təfəkkür tarixinə daxil edilə bilərmi?!

Məsələyə fərqli bir baxış bucağından baxaq. Bəli, Azərbaycan xalqının taleyində təfəkkür və dil arasında bir neçə dəfə uyğunsuzluq yaşanıb. İslamın gəlişindən sonra bir neçə əsr ərzində elmi əsərlərin dili ərəb, poeziyanın dili isə fars oldu. Daha sonra XX əsrin əvvəllərində Osmanlı türkcəsinin təsiri hiss edilir, Sovet dövründə isə rus dili düşüncələri idarə edir. İlk baxışda belə düşünmək olar ki, milli təfəkkür daim dəyişib, milli ruh "dildən dilə" düşüb. Lakin məsələnin başqa bir tərəfi də var.

Dil təfəkkürü tamamlayan başlıca amillərdən biridir, çünki Haydeggerin də dediyi kimi, "dil – varlığın evidir" (**11**). Bununla belə, bir var dil təfəkkürün

ifadəçisi, "xidmətçisidir", bir də var təfəkkürün istiqamətləndiricisi. Əlbəttə, elə sahələr var ki, xüsusilə dəqiq elmlərdə, dil istər-istəməz köməkçi vasitədir. Lakin ictimai və humanitar sahələrdə, yəni varlığı, ruhu ifadə edən sahələrdə dili "xidmətçi" səviyyəsində saxlamaq çox çətindir.

Məlum məsələdir ki, bütün dövrlərdə hakim dil hansı olubsa, ciddi əsərlər də həmin dildə yazılıb. Bu, öz dilini unutmaqdan daha çox öz tarixini, mədəniyyətini hakim dairədə tanıtmaq istəyidir. Bu taleyi əksər millətlər yaşamalı olub. Məsələn, Məhəmməd İqbal əsas əsərini – "İslam düşüncəsinin rekonstruksiyasını" ingilis dilində qələmə alıb. Qəribədir, böyük mütəfəkkir milli ruhu ingilis dilində oyatmaq istəyir! Düzdür, bu əsərdən heç də az əhəmiyyətli olmayan digər əsərləri urducadır. Lakin fakt budur ki, İqbalın nə ingilissayağı "Ser" ləqəbi ilə tanınması, nə Avropa təhsili görməsi, nə də əhəmiyyətli fikirlərini ingilis dilində çatdırması onun milli ruhuna az da olsa, kölgə salmır. İş burasındadır ki, *təfəkkür gərək elə bir zirvəyə – fəlsəfi zirvəyə qalxa bilsin ki, dilin xidmətçisinə çevrilməsin. Bu zirvəyə yol isə yalnız milli təfəkkürdən və milli ruhdan keçir.* Eyni sözlər Azərbaycan mütəfəkkirlərinə də aiddir. O zirvəyə qalxa bilmiş bir təfəkkür sahibinin dili artıq köməkçi vasitədir. Məsələn, Nizami Gəncəvi irsinin araşdırmaçısı Azadə xanım Rüstəmova yazır: "Türk xalq hikməti Nizami şeirinin ruhuna, canına hopmuşdur. Nizami əsərlərində nə qədər sırf azərbaycanca-türkcə çalar incəliyini yalnız türkün anlayıb, başa düşəcəyi idiomatik ifadələr vardır" (**12**) Dahi şair "mətndə təqdim etdiyi bu və ya digər fikri daha artıq təsbitləşdirmək üçün" (**13**). Azərbaycan xalq məsələlərinə toxunur, istifadə edirdi. Ən vacib məqam budur ki, *fəlsəfi zirvədə "yerləşmiş" ruh, təfəkkür üçün yad dil, yad mühit, yad təfəkkür heç bir maneə və təhlükə kəsb etmir, əksinə, öz milli hikməti ilə həmin dili zənginləşdirir.*

Bəli, əksər Azərbaycan mütəfəkkirləri başqa dildə olsa da, həmişə öz milli ruhunun dediklərini çatdırmağa can atıb. Lakin bu bəs edə bilməzdi. XI əsrdə Mahmud Kaşğari "Divani-lüğət it-türk" əsərində 7500-dən çox sözün şərhini, türk xalqlarının həm şifahi, həm də yazılı ədəbiyyatından şeir nümunələri təqdim etməklə ilk dəfə türk təfəkküründün, türkün yaradıcı ruhunun varlığından xəbər verirdi. Bu, türk dilinin hakim dairələrə təqdimi, qəbul etdirmək cəhdi idi. Ancaq bu da kifayət etmədi. Cübranın da dediyi kimi, "dil bütün millətin və ya onun ümumi mahiyyətinin yaradıcılıq təzahürlərindən biridir. Əgər yaradıcılıq zəifləyirsə, dilin inkişafı da dayanır" (**14**). Dədə Qorqudda "boy boylayan, soy soylayan" milli ruh təqribən XIII əsrdə təkrar səsini qaldırdı və şairlərimiz doğma dildə əsərlərini yazmağa başladılar. Burada ilk növbədə İzzəddin Həsənoğlunun və Şeyx Səfi Ərdəbilinin adları çəkilir. "Hələ XIV əsrdə yaşayıb-yaratmış Azərbaycan şairi Arif Ərdəbili Şeyx Səfidən qürurla danışır, onu "din və millət hamisi" adlandırır, onun qəbrinin Ərdəbil şəhərində olmasını bu şəhər üçün əlçatmaz bir məziyyət kimi qeyd edir"(**15**). Biz ədəbiyyatı, şeir nümunələrini araşdırmadan iki məsələyə diqqət çəkmək istəyirik: birincisi, hər iki şair türk dilinin dəbdə olmayan, şahların özlərinə "Türkanə nəzmi layiq" bilmədiyi və "fars-ərəb bəzəyinin vurulmasını" (**16**) vacib bildikləri bir vaxtda bu dildə

yazıb. Bu, ərəb, yaxud fars dilinin yaradıcı milli ruhun tələblərinə cavab verməməsinin nəticəsi idi. İkincisi, məhz Şeyx Səfinin milli ruhunun təsiri idi ki, XVI əsrdə xələfi Şah İsmayıl Xətai Səfəvilər kimi bir Azərbaycan dövləti qurdu, dövlət dili olaraq Azərbaycan dilini elan elədi və öz şeirlərini məhz bu dildə yazdı. Bu, milli təfəkkürün hərtərəfli mükəmməl bir təzahürü idi.

Eyni halı Azərbaycan xalqı Sovet dövründə də yaşamalı oldu. Yəni millətin hikmətini başqa dildə təqdim etməklə, hakim xalqa öz ucalığını göstərməklə, təsdiqləməklə yanaşı, öz doğma dilində yazdığı bədii əsərlərdə, milli musiqisində milli ruhunu yaşatdı. Dediklərimizə bariz nümunə kimi, yəqin muğamlarımızı göstərmək olar: neçə əsrlik yaşı olan dəstgahlarda Azərbaycan dilində oxunan qəzəllər, qoşmalar, bayatılar. Təsadüfi deyil ki, Haydegger düşüncə sahiblərini və şairləri varlığın evinin – dilin qoruyucusu adlandırır (**17**). Cübran da belə hesab edir ki, dili "diriltməyin yeganə üsulu şairin ürəyində, dilindədir. Şair xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləmində baş verənləri əql dünyasına ötürən, bilik dünyasında baş verənləri bilik xəzinəsinə toplayan bir bələdçidir"(**18**). Azərbaycan xalqını və onu ruhunu qoruyan da məhz doğma dilində yazılan və milli köklərə söykənən əsərlər oldu.

Deyilənlərdən belə bir nəticə çıxartmaq olar. Bir var millətin fəlsəfəsi, bir də var milli fəlsəfə. Birinci millətin təqdimatıdır və hansı dildə olursa olsun, ən yüksək səviyyədə millətin xəzinəsinin, dünya fəlsəfə tarixinə, mədəniyyətinə verdiyi bəhrələr çatdırılmalıdır. Nəticədə bu yazılanlar özləri də bir xəzinəyə çevrilə bilir. İkinci isə millətin qədimdən bəri qopmadan uzanıb bugünə gələn hikmət zolağının qırılmamasını təmin etməkdir. Axı, bu gün yazılanlar sabah üçün tarixdir. Bunu yalnız ruhunun dilində, milli kökünə dayanan təfəkkürlə yaratmaq mümkündür.

Milli təfəkkür və siyasət

Fəlsəfə birmənalı olaraq siyasət deyil. Düzdür, hər siyasətin öz fəlsəfəsi var. Lakin bir var yad mənbədən qaynaqlanan siyasət milli təfəkkürü idarə edir, onu yox etməyə çalışır. Bir də var siyasət milli təfəkkürün üzərində bərqərar olur və onun qorunmasına, inkişafına xidmət edir. Birincinin nümunəsini imperiyaların, ideologiyanın hakim olduqları zaman müşahidə etmək daha rahatdır – bütün millətlərin təfəkkürlərini idarə etmək, lazımi axara yönəltmək üçün istifadə edilən metodlar, nəzəriyyələr, strategiyalar. İkinci halda isə milli-mənəvi dəyərlər dövlətin daxili balansını qoruyan ən güclü amillərdən biri kimi çıxış edir. Fəlsəfə isə bu tarazlığı dərk etməyin yollarından biridir.

Hər dəfə Azərbaycan əhəmiyyətli bir mərhələnin başlanğıcında olanda milli təfəkkür, milli fəlsəfə sanki yenidən aktuallaşır. Bu təsadüf yox, zərurətdir. Bu, növbəti mərhələ üçün yeni zəminin və istiqamətin təyinidir. Tarixən də belə olub, bu gün də elədir. 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə keçid dövrünün başa çatdığını bəyan edəndə akademik Ramiz Mehdiyev ictimai və humanitar elmlərə bir çağırış etdi və vurğuladı ki, "fəlsəfə bütövlükdə tarixi bir dövrün özünüdərki ilə məşğuldur və onun araşdırdığı problemlər əslində həmin tarixi dövrün ən ümdə, ən vacib tələblərindən irəli

gəlir". Bəli, öz dövrünü, onun tələblərini nə qədər dərindən dərk edərsənsə, sabaha da bir o qədər güclü çıxarsan. Akademik Azərbaycanın çətin məqamlarını qeyd edəndə onu da bildirir ki, "milli mədəni-mənəvi oriyentasiyanın olmaması, xarici dövlətlərin stereotip inkişaf modellərinə kor-koranə riayət edilməsi hökmən millətin öz simasını itirməsi ilə nəticələnir"(**19**). Bəli, ilkin təkan kimi, gələcək yolda simasını itirməmək üçün milli-mənəvi dəyərlərə istinad təklif edilir.

Azərbaycan yenə yeni bir mərhələnin başlanğıcındadır. Dünyanın siyasi mənzərəsi dəyişir, tələblər sərtləşir, milli kimliyin təsdiqi ön plana keçir və belə bir vaxtda Azərbaycan da öz mövqeyini müəyyənləşdirməli və özünü digər dövlətlər arasında təsdiqləməlidir. 2019-cu ilin yanvarın 22-də Davos Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Prezidenti müsahibələrinin birində deyir: "Bizim əsas məqsədimiz Azərbaycanı potensial risklərdən qorumaqdır. Bunun üçün... biz daxildə güclü olmalıyıq... Düşünürəm ki, biz milli maraqlarımızın, milli kimliyimizin, müstəqilliyimizin çox güclü müdafiəsi və eyni zamanda, qeyd etdiyim ölkələrlə yaxşı iş münasibətləri arasında balansı tapa bilmişik"(**20**). Prezidentin sözləri bir daha təsdiqləyir ki, milli ruh nə qədər güclü olarsa, milli təfəkkür nə qədər özünə güvənərsə, bir o qədər qonşularla rahat dialoqa girib, həm özünün, həm regionun təhlükəsizliyinə təminat verə bilər.

Fəlsəfə uzaq məsafəyə gedə bilən bir vasitədir və onu siyasətdə istifadə etməklə, həm keçmişdən lazımi məqamları dəyərləndirmək, həm indinin ən parlaq anlarını tutmaq, həm də gələcəyə hansı dəyərləri götürməkdə düzgün yol göstərə bilər. Bəli, fəlsəfənin verdiyi xeyir, məsələn, kənd təsərrüfatı kimi göz qabağında deyil. Ancaq onun da öz faydaları var. Onlardan birini də biz əlavə edək: necə ki, Yer kürəsinin piltələri tərpənəndə yer üzündə böyük fəsadlar – zəlzələlər, sürüşmələr, sunamilər baş verir, eləcə də düşüncə qatının "piltələri" hərəkət edəndə bəşəriyyətin düşüncə sistemində dəyişikliklər baş verir. Öz milli kimliyini unudan və milli təfəkkürü "pas atan" millətlərin belə "zəlzələlərdən" sağ çıxmaq şansı çox az olur. Fəlsəfi təfəkkürün hərəkətverici qüvvəsi milli-mənəvi dəyərlər olanda isə, o, istənilən "zəlzələnin" təkanlarını yumşaltmaq qüdrətində olur. Başqa sözlə desək, fəlsəfi yükü, xüsusilə, milli təfəkkürə istinad etməyən siyasət istər-istəməz daxili balansı itirir və o, tədricən "genişlənməyə" və öz milli kimliyindən çıxmağa məhkum olur.

Ədəbiyyat:

1.UNESCO Musical Anthology of the Orient: Vol. 24, Azerbaijan I. By: Mark Slobin. Asian Music Vol. 2, No. 1 (1971), University of Texas Press, pp. 43-45. http://www.jstor.org/stable/833813?seq=1#page_scan_tab_contents

2. З.М.Буниятов. Государство Атабеков Азербайджана, с. 130-132.

3. (*Sührəverdi Şihabəddin*. Əsərləri 2 cilddə) 11. صد .سهروردي شهاب الدين يحيي شيخ إشراق. مجموعة دوم مصنفات, بقلم هنري كربين, تهران, 1952,

4. *İqbal M.* İslam düşüncəsində hərəkət prinsipi // Fəlsəfə və sosial-siyasi

elmlər jurnalı, № 4, 2009, s. 181.

5. İnna Naroditskaya. Song from the Land of Fire. Continuity and Change in Azerbaijanian Mugham. New York & London, 2003, p. 234 https://books.google.az/books?id=yP6Gz0-irUgC&pg=PA234&lpg=PA234&dq=mugham+UNESCO+1997&source=bl&ots=P-P6XmBb4V&sig=smeBReMJdQE7U1FQiyvYZqS4utY&hl=ru&sa=X&ved=0ahUKEwjew-MWersLKAhWCjCwKHWClDVcQ6AEIYDAJ#v=onepage&q=mugham%20UNESCO%201997&f=false

6. UNESCO Collection of Traditional Music of the World – Netherlands, 1975.

7. *UNESCO Musical Anthology of the Orient: Vol. 24, Azerbaijan I.* By: Mark Slobin. *Asian Music* Vol. 2, No. 1 (1971), University of Texas Press, pp. 43-45. http://www.jstor.org/stable/833813?seq=1#page_scan_tab_contents.

8.http://qlobal.az/heyder-eliyev-nesiminin-mezarini-nece-berpa-etdi-tarix/#.XFlKQlwzbb0

9. *Keskiner Ph.B*. Klasik türk müziğinde makam ve usûl isimlerinin yan-anlamları ve etimolojik kökenleri, s. 2 https://www.academia.edu/1437492/Klasik_Turk_Muziginde_Makam_ve_Usul_Isimlerinin_Yan-anlamlari_ve_Etimolojik_Kokenleri_The_Connotations_and_Etimological_Roots_of_Makam_and_Usul_Names_in_Classical _Turkish_Music, s. 2, 3.

10. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 18 iyun 2001-ci il.

11. Мартин Хайдеггер. Время и бытие. Статьи и выступления. – М.: Республика, 1993, с. 192.

12. Azadə Rüstəmova. Seçilmiş əsərləri (iki cilddə). İkinci cild. Bakı, "Elm", 2014, s. 240.

13. Yenə orada, s. 555.

14. Cübran. Ərəb dilinin gələcəyi // Cübran. Sükutun poeziyası, Bakı, "Şərq-Qərb", 2009, s. 190.

15. Şah İsmayıl Xətayi. Əsərləri. "Şərq-Qərb", Bakı, 2015, s. 6.

16. Yenə oarada, s. 242.

17. Мартин Хайдеггер. Время и бытие.., с. 192.

18. Cübran. Ərəb dilinin gələcəyi, s. 194.

19. Ramiz Mehdiyev. İctimai və humanitar elmlər: zaman kontekstində baxiş https://azertag.az/store/News/Politics/ICTIMAI%20VA%20HUMANITAR%20ELMLAR.htm

20. İlham Əliyevin Çinin CGTN televiziyasına müsahibəsi *https://president.az/articles/31601*

Füzuli Qurbanov

MİLLİ FƏLSƏFƏ NECƏ MÜMKÜNDÜR?

Giriş

Azərbaycan fəlsəfəsinin özrefleksiya kontekstini genişləndirmək lazımdır. Onu daha əhatəli mənbədən qaynaqlanan fikir dinamikası kimi analiz etmək gərəkdir. Bu həm də "milli fəlsəfə" və "azərbaycançılıq" ideyalarına aiddir. Adından da göründüyü kimi "milli fəlsəfə" anlayışı millətin sosial-mədəni orqanizm kimi təşəkkülü prosesi ilə sıx bağlıdır. Bunun kökündə millətlərin mədəni yaradıcılığın subyekti halına gəlməsi dayanır. Alimlər həmin hadisənin "mədəniyyət millətçiliyi" kimi yeni dünyagörüşünün formalaşmasına gətirib çıxardığı fikrindədirlər. Bu mədəniyyət millətçiliyi yeni fəlsəfi mədəniyyətin inkişafının "sosial-psixoloji və şəxsi əsaslarını hazırladı" (**1**). Deməli, milli fəlsəfə hər şeydən öncə kollektiv şüur üzərində refleksiyadır. Bu proses mahiyyətcə özrefleksiya olmalıdır. Çünki kənar şəxsin hər hansı millətin kollektiv şüuru üzərində refleksiyası "milli fəlsəfə" anlayışının ehtiva etdiyi məna sahəsinə uyğun gəlmir. Konkret deyilərsə, bu cür refleksiya milli fəlsəfənin şəxsi əsasları müstəvisindən kənarda qalır.

Burada bir vacib məqamı vurğulamaq gərəkdir. Dünya fəlsəfəsi tarixində fəlsəfəyə **xalqın** kollektiv şüuru üzərində refleksiya kimi yanaşmanı bilərəkdən qəbul edən fəlsəfi təlimlər mövcud olub. Hətta qədim dövrdə belə etnosun kollektiv şüuru üzərində fəlsəfi refleksiya cəhdi olub. Nümunə kimi Miladdan öncə I əsrdə Romada meydana gələn və əsasını romalı Kvint Sekstin qoyduğu fəlsəfi təlimi göstərmək olar. Bu təlim geniş öyrənilməyib. Onu bir halda stoisizmin bir qolu, digər halalda isə pifaqorçuluğa yaxın olan təlim, bir başqa yanaşmada isə stoisizmlə pifaqorçuluğun elementlərini uyğunlaşdıran fəlsəfi cərəyan adlandırırlar. Senekanın bu təlimdən faydalandığı haqqında biliklər vardır. Bir sıra tədqiqatçının) fikrinə görə isə Sekstiya məktəbi yunan fəlsəfəsinin əksinə olaraq özəl Roma fəlsəfəsi yaratmaq cəhdi idi. Məsələn, rusiyalı tədqiqatçı T.Y.Boroday yazır ki, Kvint Sekstiy "...həyatın qurulmasının əsl Roma fəlsəfəsini yaratmaq üzərində işləyirdi" (**2, s. 8**). Bu baxımdan Senekanın aşağıdakı fikri də maraqlıdır. O yazırdı ki, Sekstiy "..romalı kimi düşünür, yunanca yazırdı". Ancaq bu fəlsəfə çox mövcud olmadı. Təqribən 100 ildən sonra unudulmağa başladı.

Avropada milli fəlsəfə: messianizmin taleyi

Bu fəlsəfi təlimin meydana gəlməsindən bir neçə əsr sonra Avropada yenidən cəmiyyətin öz fəlsəfəsini yaratmaq ideyası aktuallaşdı. Məsələn, XIX əsrdə bu dalğa daha da qabardı. Ancaq həmin mərhələdə artıq özünəməxsus milli fəlsəfədən bəhs etmək olar. Avropada bu, normativ-dəyər sistemi kimi praktiki fəaliyyətin məqsədlərini müəyyənləşdirməyə xidmət edirdi. Məsələn, Polşa, İtaliya və İspaniyada (**1**). XIX əsrin 30-40-cı illərində Polşada milli fəlsəfə yaratmağa cəhdlər intensivləşmişdi. Onlar məhz özünəməxsus Polşa fəl-

səfəsi yaratmağı qarşıya məqsəd kimi qoymuşdular. Həmin istiqamətdə yazan filosoflara "messianistlər", cərəyana isə "messianizm" deyirlər. Messianizm ölkə və xalqın dünyada xüsusi rola malik olması haqqında təsəvvürdür ki, antroposentrist istiqamətə və personalist xarakterə malikdir.

A.Çeşkovskiy. B.Trentovskiy, K.Libelt, Y.Kremer, Y.Qoluxovskiy (Şellinqin tələbəsi) və başqaları bura aid edilir. Y.Qoluxovskiy məşhur "Bütün xalqların və hər bir insanın həyatına aid olan fəlsəfə" (1834-cü il) müəllifidir. Onu vurğulayaq ki, Polşa messianizmi həmin dövr polyak ədəbiyyatında da geniş yer almışdı.

Polyak fəlsəfi messianizminin xüsusiyyəti etnik istisnalıqla yanaşı, inqilabın Avropa üçün təhlükəli olması və sosial dünyanın yaradılması ideyası ilə seçilirdi. Yəni onlar təkamülün tərəfdarı idilər. Eyni zamanda, inqilabi dəyişiklikləri qəbul etmirdilər. Hesab edilir ki, polyak və deməli, ümumi halda slavyan messianizminin banisi Yozef Qayone-Vronski olub. O, Parisdə yaşayıb. Bir sıra tədqiqatçının fikrinə görə, o, V.Solovyovdan öncə Ümumvəhdət fəlsəfəsindən bəhs edib. Maraqlıdır ki, vurğulanan filosofların əksəriyyətinin Hegelin fəlsəfəsi əsiri altında olduğu qeyd edilir, lakin onlar bir sıra fundamental məsələlərdə alman filosofdan fərqli mövqe tuturdular. Bu daha çox Tanrı və ruhun ölümsüzlüyü məsələlərinə aid idi (**1**). Onların içərisində Karol Libelt seçilirdi. O, artıq 40-cı illərin başlanğıcında zəkanın tamhakimliliyinə qarşı çıxırdı və slavyan fəlsəfəsindən danışırdı. K.Libelt iddia edirdi ki, zəka insan üçün çox vacib olan iki məsələdə - Tanrının kimliyi və ruhun əbədiliyinin həllində acizdir. Bu səbəbdən də Dekartdan başlayaraq istisna olaraq zəkaya əsaslanan idealizm din və milliliyin əsaslarını dağılmasına gətirib çıxardı. Real dünya isə canlı və bölünməz bütövdür. Bu cür varlıq yalnız təxəyyülün köməyi ilə əxz oluna bilər. Təxəyyül zəkaya yardım edir. "Çünki zəka məhz ruhun qabiliyyətini təşkil edən təxəyyülün məhsuludur. Zəka istisna olaraq analitik gücdür və o, həqiqətin tam fəlsəfi dərki üçün yetərli deyil; zəka tək fəaliyyətdə olanda parçalayan və ölgünləşdirən gücdür"(**1**). Buna görə də tamamilə yeni prinsipə əsaslanan yeni fəlsəfə yaratmaq lazımdır.

K.Libeltin fikrinə görə, "bu cür fəlsəfə yalnız əqli həyatın yeni şərtləri daxilində və, deməli, ancaq yeni xalqda, yarana bilər" (**1**). Beləliklə, bu fəlsəfə yalnız milli ola bilər. Burada milli ilə yanaşı, etnik çalar da hiss edilir. Təbii ki, bu cür fəlsəfə "köhnəlmiş zəka və abstrakt təfəkkür fəlsəfəsindən fərqli olaraq obrazların və fəaliyyətin fəlsəfəsi" (**1**) olmalıdır. Və, nəhayət, K.Libeltin bütün bu məntiqi nizamının sonu: bu yeni fəlsəfəyə slavyan etnosuna xas olan Dünyaya çevik (mütəhərrik, yumşaq, plastik), təbii və sadə baxış uyğun gəlir! Bunun üçün hər şeydən öncə slavyan ruhunun elementlərini anlamaq və onlara nüfuz etmək gərəkdir. K.Libelt bu cür dərk etdiyi yeni fəlsəfəni yaratmaq üçün "slavyan fəlsəfəsinin 10 təməl müddəası"nı hazırlayır. Onlar aşağıdakılardır:

"1. Slavyan fəlsəfəsi görünən dünyanın görünməyən dünya ilə vəhdətini təməl hesab edir.

2. O, zəkanın mütləq hakimliliyini inkar edir və həqiqətin birbaşa əbədi ruhla əlaqə gücü ilə dərk edilməsi mümkünlüyünü qəbul edir.

3. Ruhun bütün təzahürləri təsəvvür edilən olmalıdır; ruhu formalaşmış fərd, şəxsiyyət kimi anlamaq lazımdır.

4. Ruhun mahiyyəti fəaliyyətdir, həyatdır, reallıqdır.

5. Heç bir dualizmə yol verilmir; şər xeyir qarşısında yox olur, qaranlıq işıq qarşısında çəkilir, insan cinsi gözəlliyin, həqiqətin və xeyirxahlığın reallaşması vasitəsi ilə xoşbəxtliyə çatır.

6. Hər bir maddi rifah insanlardan deyil Allahdandır; bu müddəa ilə maddi dünya sahmana salınır, şəxsi mülkiyyət isə Allahın insana istifadə üçün verdiyi mülk olur.

7. Eyni bir xalqa mənsub olanlar İlahi iradə sayəsində bərabərdirlər və qardaşdırlar. Onların təmsilçisi isə xalqdır. Ancaq bu, həmin məqsədin (bərabərlik və qardaşlıq ideyasının – F.M.) reallaşması üçün göstərilən xidmətin fərqləndirilməsinə əsaslanan ictimai ierarxiyanı istisna etmir.

8. Hakimiyyət İlahi fikrinin reallaşması üçün onun həyata keçirilmə vasitəsidir;

9. Slavyan dini Xristosun dinidir, ancaq eyni zamanda bu, ehkamlamış katolisizmdən fərqli olan tərəqqi dinidir;

10. Ümumiyyətlə elm, o cümlədən fəlsəfə, məktəb formasından xalq elmi formasına çevrilməlidir, yəni kütləviləşməlidir. Xalqa xas olan İlahi fikirlə birləşərək o, (yəni, elm – F.M) fəaliyyət vasitəsi ilə bu fikri inkişaf etdirməlidir" (**1**).

XIX əsrdə İtaliyada da milli fəlsəfə yaratmaq cəhdi özünü göstərib. Belə qəbul olunub ki, XVIII əsrdə italyan mütəfəkkirləri ingilis və fransız maarifçiliyinin təsiri altında olublar və müstəqil ideyalar irəli sürməyiblər. XIX əsrdə isə Paskal Qalluppinin, Antonio Rozmininin və Vinçentso Cobertinin yaradıcılığında milli fəlsəfə elementləri özünü göstərir (1). İtalyan fəlsəfəsinin yaxşı bilicisi hesab edilən V.Ernin fikrinə görə, V.Cobertinin "Ayələrin fəlsəfəsi" (1857) fikir dərinliyinə görə Şellinqin ən yaxşı əsərlərindən belə geridə qalmır. Ancaq o, daha çox, obrazlı desək dinin fəlsəfəsinin italyan variantıdır.

Həmin dövr üçün V.Cobertinin "İtalyanların mənəvi və vətəndaş üstünlüyü" (1843) adlı əsəri daha məşhur olub. Bu kitabda V.Cobertini İtaliyanın keçmişini şan-şöhrətli göstərir və bu əsasda italyanları mənəvi və siyasi olaraq dirçəltməyə cəhd edir. Rusiyalı filosof R.N.Dyominin fikrinə görə, bu əsəri Fixtenin "Alman xalqına səslənişlər"i ilə müqayisə etmək olar (**1**).

T.Mamiani XIX əsrdə Rozmini və Cobertinin ideyalarını sintez edərək platonizm mövqeyinə keçib və bu əsasda "əsl italyan fəlsəfi sistemi" yaratmağa çalışıb. Bu məqsədlə o, "İtalyan cərəyanlarının fəlsəfəsi" adlı jurnal dərc edib. Ancaq Mamianinin tələbəsi olmuş Ferri jurnalı ümumavropa fəlsəfi kontekstində dərc etməyə başlayıb.

İspan fəlsəfəsi ideyasını ilk dəfə 1876-cı ildə ispan tarixçisi Menendes Pelayo "İspan elmi" əsərində irəli sürüb. İspan fəlsəfəsi ideyasının tərəfdarları hesab edirlər ki, bu fəlsəfə milli özşüurun ifadəsidir və o, bu şüurun xarakterik və ənənəvi xüsusiyyətlərini ifadə edir. İspan fəlsəfəsi ideyasının tərəfdarları kimi Q.A.Qanivelanı və X.Abelanı da qeyd edirlər (**1**). Mütəxəssislər

X.Abelanın "İspan təfəkküründün tənqidi tarixi" adlı çoxcildli əsərini xüsusi vurğulayırlar. Müəllif özü bu əsəri "milli şüur zənginə zərbə" adlandırıb ki, ondan bu təkana "cavab gücü" gözləyib. X.Abelan İspaniyanın intellektual və fəlsəfi inkişafının izahına mənəvi dəyərlərin böhranının aşılmasının və milli şüurun bərpasının zəruri şərti kimi baxır. Maraqlıdır ki, o. milli şüur dedikdə yalnız intellektual səviyyəni nəzərdə tutmur, bura emosional məqamların cəmini də daxil edir. O hesab edir ki, milli şüurun emosional qatını dərk etmək mürəkkəb işdir (**1**).

Burada çox maraqlı bir özəllik vardır. X.Abelan İspaniyaya milli şüuru qaytarmağın konkret yollarını da göstərir. Hər şeydən öncə onlar təhsilə aiddir. Birincisi, tədris müəssisələrində öyrədilən tarixin ispan xalqının real inkişaf prosesinə maksimum yaxınlaşdırılmasına nail olmaq. İkincisi, ölkə universitetlərində ispan fəlsəfəsi tarixinin fənn kimi bərpasını həyata keçirmək. Belə ki, X.Abelan hesab edirdi ki, Frankonun hakimiyyəti dövründə ispan fəlsəfəsi tarixi və ispan ədəbiyyatı tarixi tamamilə təhsil sistemindən çıxarılıb. Halbuki ispan fəlsəfəsi tarixi və ispan ədəbiyyatı tarixi fənn kimi təhsil sahəsində müxtəlif mərhələlərdə informativ, stimulverici rol oynayırdı və "milli şüura" kəsilməzlik, davamlılıq vermək funksiyasını yerinə yetirirdi (**1**). Tədqiqatçılar onu da vurğulayırlar ki, X.Abelan yunan və Roma fəlsəfəsi arasındakı fərqi göstərirdi.

Bizə o da maraqlıdır ki, tədqiqatçılar ispan və rus fəlsəfi ənənələri üçün ortaq olan bir sıra məqamları vurğulayırlar. Məsələn, messianizm hər ikisində oxşar əlamətlərə malik idi. O cümlədən, ölkə və xalqın dünyada xüsusi rola malik olması barədə təsəvvürlər, personalist xarakter, antroposentrist meyllilik, daim özünü Avropanın digər kəsimi ilə müqayisə etmə, özünün mədəni-siyasi, iqtisadi və tarixi özəlliyə malik olmasını dərk etmə kimi parametrlər üst-üstə düşür. Bu xüsusiyyətlərin XIX əsrin birinci yarısı Polşa fəlsəfəsi ilə də üst-üstə düşdüyü qeyd olunur (**1**).

XIX əsr Avropada milli fəlsəfənin yaradılması prosesində digər özəl cəhət onun poeziya və ədəbiyyatla sıx bağlı olmasında idi. Məsələn, İspaniya, İtaliya və Polşa ilə bərabər Rusiyada da belə idi. R.N.Dyomin yazır: "Bu ölkələrin ədəbiyyatları üçün xarakterik olanı milli şüuru inteqrasiya etmək və stimullaşdırmaq idi, fəlsəfi-tarixi və metafizik məsələlərə şiddətli maraq göstərməsi idi" (**1**).

Rusiyalı tədqiqatçı fikirlərinə davam edərək vurğulayır ki, digər ölkələrdə də fəlsəfənin milli xarakterdə olduğunu qeyd edən mütəfəkkirlər mövcud idi. Məsələn, XIX əsrin sonunda şotlandiyalı Endryü Set (o, mütləq idealizmin personalist formasının nümayəndəsi və Bredlinin tənqidçisi idi) belə bir əsər yazmışdı: "Şotland fəlsəfəsi: Yuma şotland və alman cavabların müqayisəsi" (1885). 1875-ci ildə isə M.Ceymsin şotland fəlsəfəsinin fərqli izahı verilən kitabı işıq üzü görmüşdü: James McCosh. The Scottish Philosophy. Biographical, Expository, Critical. From Hutcheson to Hamilton (1875). Maraqlıdır ki, hər iki kitabı şotlandlar 2000-ci və 2001-ci illərdə yenidən çap ediblər. Yəni Şotlandiyada indi də "milli fəlsəfə" anlamına önəm verirlər. 1970-ci ildə isə Argenti-

nada bir qrup filosof Latın Amerikası fəlsəfəsi yaratmağı qarşılarına məqsəd kimi qoymuşdular.

Bütün bunların fonunda R.N.Dyomin Rusiyada milli fəlsəfə ideyasının özəl tarixinin olduğunu qeyd edir. V.NKarpov, A.VVedenskiy, V.Ern, v.n.Yerşov – ub adını çəkir. Müasir dövrdə isə milli fəlsəfə ideyasını hazırlayanlar sırasında N.P.İlinin ismi hallanır. Onun "Rus fəlsəfəsinin faciəsi" adlı kitabı maraq doğurub (3). Kitabda marksistlərin və dini filosofların Rusiya fəlsəfəsi haqqında mif yaratdıqları iddiası vardır. Qaynaqları tədqiq etməklə N.İlin belə qənaətə gəlib ki, XIX əsin ikinci yarısında rus fəlsəfi mədəniyyəti zirvəyə yüksəlib. Bu dövr fəlsəfə ən böyük nailiyyətlərin əldə edildiyi mərhələdir. Maraqlıdır ki, müəllif rus klassik fəlsəfəsini dərk etmək üçün şəxsi və milli özşüurun vəhdətini başlıca prinsip kimi təqdim edir. Bunun fonunda İ.V.Kireevskinin, Ap.A. Qriqoryevanın və N.N.Straxovanın yaradıcılığı rus fəlsəfi mədəniyyətinin formalaşması kontekstində analiz olunur. Müəllif hesab edir ki, hazırkı mərhələdə rus milli-fəlsəfi irsi mahiyyətcə terra incognita-dır. Onun mahiyyətini hələ dərk etmək lazımdır. Bu məqsədlə N.P.İlin rus fəlsəfi fikrinin tarixi-fəlsəfi anlamı üçün 6 pinsip irəli sürüb. Onlar aşağıdakılardır: 1. Faciə prinsipi; 2. Özşüur pinsipi; 3. Açıq özünəməxsusluq prinsipi; 4. Rasional metafizika prinsipi; 5. Özünü müəyyənetmə prinsipi; 6. İnsan haqqında fikir prinsipi (**1**).

R.N.Dyomin isə hesab edir ki, rus fəlsəfi fikrini dərindən dərk etmək üçün onun Avropa fəlsəfi ənənəsi ilə müqayisəsinin aparılması vacibdir. Məsələn, Rusiyada personalizm və spiritualizm ənənəsindən danışanda onu XIX əsr Fransa, İtaliya və İspaniya personalizmi və spiritualizmi ilə müqayisə etmək gərəkdir. Bundan başqa, həmin ənənəni İsveçdə XIX əsrin birinci yarısında inkişaf etdirilən şəxsiyyətin fəlsəfəsi ilə müqayisə etmək lazımdır. Əlavə olaraq, İngiltərə və ABŞ-dakı personalizmlə müqayisə aparmağa ehtiyac vardır. Hətta indiki dövrdə M.Epşteyn fəlsəfi lüğətdə "filosofia" (filosofiə) ilə "philosophy" terminləri arasında fərq axtarır. Onun fikrincə, "folosofia" rus ifadəsində daha akademik məzmun kəsb edir, nəinki ingilisdilli "philosophy". M.Epşteynə görə, hər bir milli mədəniyyətin öz humanitar fənlər sistemində nəyi fəlsəfə hesab etməyin öz meyarları vardır. Onun təbirincə, anqlo-amerikan akademik elmi rus fəlsəfəsinin mövcudluğuna şübhə ilə yanaşır. Rus fəlsəfəsinin nümunələrini daha çox slavistika çərçivəsində tədris edirlər. Ən yaxşı halda rus fəlsəfəsinə ideologiya, publisistika, ictimai-tarixi fikir kimi baxırlar. Onu yarıədəbiyyat, fantaziya, utopiya, tənqid, "hər şeyin hər şeylə qarışığı" kimi qəbul edirlər. Bu, rus fəlsəfi fikir tarixində yeri olan millət haqqındakı refleksiyanı inkar etmək deməkdir (**1**). Əslində isə "philosophy" və "filosofia" arasındakı fərq intellektual ənənə arasındakı fərqi ifadə edir.

Biz, qısaca olaraq XIX əsr Rusiya milli fəlsəfəsinin metafizikası üzərində dayanaq. Bu sırada adı daha çox hallananlar sırasında V.S.Solovyov da vardır. Onun metafizik görüşlərində ümumvəhdət konsepsiyası mərkəzi yer tutur. Y.N.Gennadyevna bu metafizikanı belə xarakterizə edir: "V.S.Solovyovun ümumvəhdət konsepsiyası ideal və çoxmənalı sistem kimi mistik və rasional

olanın nisbətinə nəzər salan müxtəlif fəlsəfi təlim və yanaşmaların universal sintezidir. Onun daxili mahiyyəti varlığın bütün komponentlərinin Mütləqdə vəhdətindən ibarətdir. Varlığın komponentləri şübhə doğurmayan reallığın yalnız səthi təzahürü və predikatıdır. Filosof Mütləqi Müsbət Nəsnə kimi müəyyən edir. Mütləq "xalis zəka" ilə tam ifadə olunmayan və daim yaradan başlanğıcdır. Bu konsepsiyaya o, cəmiyyətin "bütöv orqanizmi" çərçivəsində hər şeyi əhatə edən hadisə kimi baxır" (**4, s. 10**).

Ancaq ümumvəhdət konsepsiyası fəlsəfədə qədim dövrlərdən mövcud olub. Tədqiqatçılar Platon fəlsəfəsində və neoplatonizmdə ümumvəhdət konsepsiyasına rast gəlindiyini vurğulayırlar. O cümlədən, Plotinin (neoplatonist) "Vahid-Ağıl-Can (Qəlb)" triadası ümumvəhdət konsepsiyasının formalarındandır. Filosofların fikrinə görə, Plotinin triadası ilə ümumvəhdət konspesiyasının digər formalarını birləşdirən məqam filosoflarda Mütləqi dərketməyə canatmanın öz ifadəsini ekstaz vəziyyətində tapmasından ibarətdir (**4, s.10**). Plotinlə V.S.Solovyovun yanaşmalarındakı fərq dünya quruluşunun bütövlüyünün, tamlığının və dolğunluğunun fərqli təsəvvür edilməsindədir. Plotində harmoniya və tamlıq Vahidin emanasiyasında ifadə olunub. Bu zaman hərəkət alidən adiyə istiqamətlənib. Bundan sonra isə hərəkət Mütləqə yönəlir. V.S.Solovyovda isə gerçəkliyin sxematik yaranışı yoxdur. Burada "Gerçəklik-Varlıq-Mahiyyət" dərəcələnməsi aydın deyil. Əvəzində V.S.Solovyov üçün vahid və bölünməz mənəvi reallıq mövcuddur. Lakin Gerçəklik, Varlıq və Mahiyyətin hər biri şəffaf sərhədə malikdirlər və onların hər biri "öz başqasının başlanğıcıdır" (**4, s. 10**).

Nəhayət, onu da qeyd edək ki, S.V.Solovyovun metodologiyasında insanın və bəşəriyyətin Allaha rasional-mistik yüksəlişi əksini tapıb. Filosof bu bu üsulu idrak, mənəvi dəyərlər, fərdi və kollektiv subyektin həyat dünyasına qədər genişləndirir (**4, s. 11**).

"Millət" və "milli fəlsəfə" işığında: Azərbaycanda fəlsəfi-elmi təfəkkürün bir transformasiyası haqqında

Biz, bir sıra tədqiqatçının mili fəlsəfə kateqoriyasına aid etdiyi təlimlərin qısa xarakteristikası üzərində məqsədli şəkildə dayandıq. Təbii, onların hər birinin daha geniş və dərin kontekstdə fəlsəfi refleksiyası vacibdir. Ancaq burada başlıca məqsədimiz "Azərbaycan milli fəlsəfəsi" ideyasının yuxarıda vurğulanan özəlliklər işığında necə görünməsindən ibarətdir. Öncə, bir məqama aydınlıq gətirməyə çalışaq. "Milli fəlsəfə" ifadəsinin konkret fəlsəfi ölçülməsi lazımdır. Burada "milli" sözü şərtidirsə, onda tarixin bütün mərhələlərində hər bir etnosun (o cümlədən, xalqın) təfəkkürünün özünün həyat tərzini refleksiya etməsi ilə bağlı formalaşan (əgər varsa) fəlsəfi təsəvvürlər sistemini bura aid etmək olar. Həmin meyarla qədim romalıların fəlsəfəsini (məsələn, yuxarıda vurğuladığımız K.Sekstiyin fəlsəfəsi) "milli" hesab etmək olar. Ancaq bu bölgünün bütövlükdə fəlsəfi təfəkkür üçün hansı faydanı verəcəyinin fəlsəfi anlamı elə də aydın deyil.

Başqa mövqedən yanaşaraq, "milli" sözünə tarixi-siyasi və mənəvi-əxlaqi kateqoriya kimi baxsaq, onda "milli fəlsəfə" ifadəsi hər bir etnosun təkamülü-

nün ancaq konkret mərhələsinə aid ola bilər. Yəni Avropa sosioloji-fəlsəfi fikrində formalaşmış "millət", "milli" anlayışları işığında "milli fəlsəfə" tamamilə fərqli məzmun kəsb etmiş olur. Burada tarixin müəyyən mərhələsində etnosun (daha dəqiq, cəmiyyətin) sosial-mədəni inteqrasiyasının xüsusi forması olan millətin kollektiv şüurunun özrefleksiyasından bəhs etmək olar. Lakin bu refleksiya da birbaşa həyat tərzinin fəlsəfi dərkini təşkil edər. Yəni milli fəlsəfə adlandırılan idraki prosesin başlıca hədəfi konkret cəmiyyətin milli kimliyi ilə şərtlənən həyat fəlsəfəsi olar. Burada dövlət anlayışı da açar rolunu oynayan faktorlardan birinə çevrilir, çünki Avropa təcrübəsində millətlə dövlət bir-biri ilə sıx bağlıdır, hətta birinin varlığı digərinin mövcudluğu ilə şərtlənir.

Deməli, milli fəlsəfədən ikinci anlamda danışmaq lazım gəlirsə hər bir cəmiyyətin millətləşməsi mərhələsinə baxmaq gərəkdir. Onda sualı belə qoymaq doğru olardı: Azərbaycan milləti nə zaman formalaşıb? (eyni qayda ilə alman, rus, fransız, ingilis, italyan, yunan və digərlərini nəzərdə tutmaq olar). Və bu məsələni Azərbaycan dövlətçiliyi ilə sıx bağlılıqda götürmək daha uyğun olardı. Müqayisə üçün deyək ki, Avropa millətləri müasir anlamda XVII-XVIII əsrlərdən başlayaraq formalaşıblar. Milli dövlətlər isə əsasən XVIII-XIX əsrlərdə formalaşıb. Ancaq bu proses iki istiqamətdə gedib: bir qrup xalqlar dövlətdən millətləşməyə keçid ediblər, digərləri isə millətləşib dövlətə keçiblər. Məsələn. ingilislər və fransızlar millətdən dövlətə, almanlar və italyanlar isə dövlətdən millətə keçid ediblər. XIX əsrdə İtaliya və Almaniyada dövlət formalaşandan sonra onların əsas şüarı belə olub: ölkəni yaratdıq (məsələn, İtaliyanı), indi də milləti yaratmalıyıq (yəni italyanları). "Millət" anlayışının özünün də Avropada təkamül özəlliyi olub. Öncə, o, cəmiyyətin yalnız seçilmiş təbəqəsinə aid edilib (əsasən Orta Əsrlərdə), sonralar isə bütün əhaliyə aid olunub. 1789-cu ildə fransızların "üçüncü təbəqəsi" özünü millət elan edib. Bu keçidin nəzəri platformasını Maarifçilik filosofları hazırlamışdılar. XVIII əsrin başlanğıcında Fransa Akademiyası milləti eyni dövlətdə, eyni ölkədə, eyni qanunlara görə yaşayan və eyni dildən istifadə edən əhalinin toplumu kimi tərif etmişdi (**5, s. 33-34**).

Azərbaycanda fəlsəfi təfəkkürün təkamülünə yuxarıda vurğulanan məqamların işığında nəzər salsaq, maraqlı qənaətlər əldə edə bilərik. Öncə qısaca baxılan problemin tarixi aspekti üzərində dayanaq.

Heydər Əliyev Yeni əsr və III minilliyin gəlişi ilə bağlı Azərbaycan xalqına etdiyi müraciətdə vurğulamışdı: "...Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyasının güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır". Yəni Azərbaycanda fəlsəfi-elmi təfəkkürün təkamülünün ideya-mənəvi stimulu ölkənin müxtəlif mədəniyyətlərin kəsişmə sahəsi olması ilə şərtlənib. Məhz həmin təməl üzərində ictimai, humanitar və təbiət elmləri qarşılıqlı əlaqədə və vahid elmi mühitdə tərəqqi edib. Hələ IV-VII əsrlərdə Azərbaycanda əsas elmi istiqamətlər mövcud olub. "Tənsarın məktubu" adlı mənbədə bu barədə yazılıb.

Daha əhəmiyyətli məqam ondan ibarətdir ki, Azərbaycan qədim dövrlərdən vahid fəlsəfi-elmi-mədəni məkanın tərkibində olub. Bu prosesdə V-VI əsrlərdə Bizansın Akademiyaları ləğv etməsi xüsusi rol oynadı. Orada çalışan alimlər Şərqə üz tutmağa məcbur qaldılar. Onların sırasında Afina Akademiyasının rəhbəri suriyalı Damask VI əsrdə indiki İran ərazisində yerləşən Cündişapur Akademiyasını yaratdı. IX əsrdə məşhur Bağdad Akademiyası ("Beytül-hikmət" – "Hikmət evi") meydana gəldi. Həmin Akademiyanın öz dövrü üçün yüksək səviyyəli elmi kadrları vardı. Orada riyaziyyat, tibb, biologiya, astronomiya, həndəsəni öyrənirdilər (**6, s. 10**). Bağdad Akademiyasının tarixi xidmətlərindən biri fəlsəfi-elmi ədəbiyyatı ərəb dilinə tərcümə etməsindən ibarətdir. Bunun sayəsində İslam aləmində vahid elmi mühit formalaşdı. Eyni zamanda, geniş məkanda kadrların qarşılıqlı mübadiləsi baş verdi. Bu da öz növbəsində bütöv elmi mühitin formalaşmasına ciddi təkan verməli idi. Həmin dalğa üzərində Azərbaycan ərazisində çoxlu sayda sanballı elmi tədqiqat ocaqları - akademiyalar yarandı. Bütövlükdə Akademiya təsisatı, Azərbaycanda elmi fəaliyyətin təşkilinin əsas forması oldu. Akademik A.Əlizadə bu bağlılıqda vurğulayıb: "Tarixi Azərbaycan ərazilərində IX-XIV əsrlərdə yaranan Akademiyalar elmlərin strukturlaşması, fəaliyyətin təşkili, elm sahələrinin inkişaf etdirilməsi və ümumilikdə yaradıcılıq qabiliyyətinin yüksəldilməsi prosesində ciddi rol oynadı" (**6, s. 10-11**). O cümlədən, İsfahan, Həmədan, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiyə və digər şəhərlərdə yaradılan elmi-tədqiqat mərkəzləri vahid Azərbaycan elmi mühitinin formalaşmasına ciddi təkan verdi. Həmin mərkəzlər arasında sıx fəlsəfi, elmi və ideya əlaqələrin mövcud olması barədə tutarlı qaynaqlar mövcuddur.

Azərbaycanın elm ocaqlarının fəaliyyəti ancaq müsəlman fəlsəfi-elmi məkanı ilə məhdudlaşmırdı. Akademiyalar geniş xarici əlaqələrə malik idi. Müxtəlif ölkələrdən, o cümlədən Çin, Hindistan, Misir və Yunanıstan kimi güclü fəlsəfi-elmi ənənəyə malik ölkələrdən Azərbaycanda elm öyrənməyə gələnlər az deyildi. Məsələn, Azərbaycanda ilk akademiya sayılan Şamaxı akademiyasında çoxlu əcnəbi alimlər çalışırdılar. Həmin akademiyanın əsasını məşhur Azərbaycan həkimi və alimi Ömər Osman oğlu qoymuşdu. N.Tusinin rəsədxanasında Dəməşqdən Müvəidəddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini, Qəzvindən Nəcməddin Dəbiranini, Buxaradan Cəmaləddin əz-Zeydi Buxari, Hindistandan Kəmaləddin Əflatun əl-Xindi və digərləri də çalışıblar. Pekin rəsədxanasının əsasını qoyanlardan olan Fao Mun Çi Marağa rəsədxanasında astronomiya elmini öyrənib.

XIII əsrdə Azərbaycan tarixçisi və həkimi Fəzlullah Rəşidəddin Təbrizdə böyük akademiya təşkil etdi. Bu elm ocağı Təbriz yaxınlığındakı "Rəbi-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi. Akademiyanın izləri indi də həmin yerdə qalmaqdadır. Dünyanın müxtəlif guşələrindən Təbriz Akademiyasına elm öyrənməyə gəlirdilər. Onların sırasında Çin, Misir, Hindistan və hətta Qərb ölkələrini təmsil edənlər olub.

Maraqlıdır ki, Təbriz Akademiyasında müasir anlamda şəhərcik salınmışdı.

Orada alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar mövcud olub. Akademiyanın yaxınlığında "Fəxrabad" adlı yerdə böyük botanika bağı salınıb. Tarixi məlumatlara görə, F.Rəşidəddinin Akademiyasında 1000 yerli tələbə yetişdirilib, xaricdən gəlmiş 6000 gənc elm öyrənib. Bunların gündəlik tələbatları dövlət tərəfindən ödənilirdi. Deməli, həmin dövrdə fəal Azərbaycan elmi mühiti mövcud idi. Bunlar göstərir ki, Təbriz Akademiyası dövrünün qabaqcıl elm ocaqlarından idi. Maraqlıdır ki, burada sadəcə elm öyrənməyirdilər, elmi tədqiqatlar aparmırdılar, həm də alim həyatının müxtəlif aspektlərini əhatə edən elmi mühit formalaşdırırdılar.

N.Tusinin özü Təbrizdə akademiya təşkil etmişdi. Bu alimin özünün fəaliyyəti müxtəlif elm sahələrini əhatə edirdi. Onu tibdə statistik metodu ilk olaraq tətbiq edən alim kimi də, məşhur "Əxlaqi-nasir", "Fərəcnamə", "Cavahirnamə" əsərlərinin müəllifi kimi də tanıyırlar. Bunlarla yanaşı, Azərbaycanda Akademiyanın bir elmi struktur olaraq ənənəyə çevrilməsində ciddi rol oynamış iki özəlliyi vurğulamaq lazımdır. Bunlardan biri Tusinin Alimlər Yığıncağını təşkil etməsi idi. Bu, müasir anlamda Akademiyanın Rəyasət Heyəti deməkdir. Hələ XIII əsrdə Azərbaycanda elm sahəsində idarəetmənin və yeni elmi kəşfləri kollegial müzakirənin xüsusi modeli mövcud idi. Digər özəllik N.Tusinin yaratdığı Akademiyanın Azərbaycanın müxtəlif bölgələrində hissələrinin olması ilə bağlıdır. Marağa rəsədxanası bunun gözəl nümunəsidir. Bu elm məbədi Savalan dağındakı bir düzənlikdə 12 ilə tikilib. Orada laboratoriyalarla yanaşı, 400 minə qədər fondu olan böyük bir kitabxana da vardı. Rəsədxanada 100-ə qədər alim işləyirdi.

Marağada tətbiq edilən 10 cihazdan 5-i yeni idi. Burada yeni astronomik cihazlar da yaradılmışdı. Onlardan göy cisimlərinin müəyyən anda üfüqi koordinatlarını təyin edən aləti, günəşin meridianda hündürlüyünü təyin edən aləti, yer və göy (ulduz) qlobuslarını və göy cisimlərinin istənilən anda üfüqi koordinatlarını dəqiq təyin edən fırlanan kvadratı göstərmək olar.

Bütün bunların həmin dövrdə Azərbaycanda görkəmli elm adamlarının yetişməsində ciddi rol oynadığını inkar etmək olmaz. Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Mahmud Şəbüstəri dünyada tanınmış simalardandırlar. Həmin dövrün görkəmli Azərbaycan mütəfəkkirlərinin "...əsərlərində olduqca dəyərli elmi və bədii-fəlsəfi fikirlər öz əksini tapıb. Bu bəii-fəlsəfi ideyalar...qloballaşan...müasir dünyanın xilas yollarına cavab verməkiqtidarına malikdir" (**6, s. 11**).

Həmin dövrdə riyaziyyatçı Übeyd Təbrizi "Risalət ül-hesab" ("Hesab üzrə kitab") əsərini yazdı. Nəcməddin Əhməd Naxçıvani İbn Sinanın tibb və fəlsəfə üzrə əsərlərinə şərhlər və əlavələr yazıb. Hinduşah Naxçıvani XV əsrdə

səhnədən çıxır. Ancaq yenə də bəzi yerlərdə elmlərin öyrədilməsində Akademiya ənənəsi saxlanırdı. Məsələn, Şamaxıda akademiya qaldı. Ümumilikdə isə Akademiyalarda əsası qoyulmuş elmi mühit bütövlüyünü qoruya bildi.

Müəyyən mərhələlərdə Azərbaycan alimləri vətəni tərk etməyə məcbur qalsalar da, onların fəaliyyətində Təbriz, Marağa, Şamaxı, Ərdəbil, Naxçıvan və başqa elmi mühitin qaydaları qalmaqda idi. O cümlədən, Sührəvərdi, Bəhmənyar, Miyanəci və digər filosofların ideyaları inkişaf etdirilirdi. Azərbaycan məktəb və mədrəsələrində Orta Əsrdə formalaşmış elmi ruh saxlanmaqda idi. Əsrlərin keşməkeşlərində intellekt çırağını sönməyə qoymayan azərbaycanlılar XIX-XX əsrdə fəlsəfə və elm sahəsində öz dəst-xəttlərini inkişaf etdirdilər.

Akademik A.Əlizadə vurğulayır ki, XIX əsr Azərbaycan tarixində bir neçə aspektdə dönüş nöqtəsi sayıla bilər. Vətən coğrafi, siyasi və mədəni olaraq ikiyə bölündü. Tarixi torpaqlar fərqli geomədəni mühitlərə düşdülər (**6, s. 12**). Ölkənin şimal hissəsi Rusiya və Avropa elmi-mədəni mühitinə inteqrasiya olmağa başladı. Bu dəyişiklik başqa məqamlarla yanaşı, Azərbaycanda Maarifçiliyin meydana gəlməsinə təkan verdi. Bir neçə əsr müsəlman fəlsəfi-elmi və mədəni mühitində ciddi yer tutmuş Azərbaycan, yeni şərtlər daxilində fərqli sosial-mədəni mühitdə özünə yer tapmalı idi.

Azərbaycan mütəfəkkirləri bütövlükdə sosial-mədəni sahədə yeniləşmələrin həyata keçirilməsini tam dərk edirdilər. Bu bağlılıqda A.A.Bakıxanov, Həsənbəy Zərdabi, M.F.Axundzadə, Qasımbəy Zakir, Mirzə Kazımbəy, Mirzə Cəfər Topçubaşovun fəaliyyətini xüsusi vurğulamaq gərəkdir. Eyni zamanda, Azərbaycanın təhsil ocaqlarında və elmi mərkəzlərdə dünyəvi elmlərin öyrənilməsinə üstünlük verildi (**6, s. 12**). Maarifçilərin bu addımları elmi təfəkkürün müasirləşməsində böyük rol oynadı. Tədricən aydın olurdu ki, tamamilə yeni təhsil sisteminə keçid zəruridir. Bu kontekstdə alimlərin də vurğuladığı kimi əhəmiyyətli məqamlardan biri XIX əsrdə Azərbaycanda ictimai-humanitar fikrin inkişafı ilə fundamental elm sahələrinin mənimsənilməsi və inkişaf etdirilməsinin paralellik təşkil etməsi ilə bağlıdır (**6, s. 12**).

Həmin dövrdə Azərbaycanda biologiya və aqrar elmlərin inkişafında Həsən bəy Zərdabi ilə Nəcəf bəy Vəzirov müstəsna rol oynadılar. Nəcəf bəy Vəzirov Qafqazın bitki örtüyünü ilk öyrənən alimlərdən idi. Tibb sahəsində araşdırmalar Bakı Həkimlər Cəmiyyətində aparılırdı. Burada M.M.Vəkilov, Ə. Axundov, Ə.M.Mehmandarov və başqaları çalışırdı.

XIX əsrdə tarix üzrə Azərbaycanda bir neçə əsər yazıldı. Onlardan Qarabağa həsr edilmiş Mirzə Adıgözəl bəyin yazdığı "Qarabağnamə"ni, Mir Mehdi Xəzaninin "Kitabi-tarixi Qarabağ"ını, Rzaqulu bəy Mirzə Cavanşir oğlunun "Tarixi-Qarabağ"ını göstərmək olar. Bu əsərlərdə gətirilən faktlar Qarabağın tarixi Azərbaycan torpaqları olduğunu bir daha təsdiq edir.

XIX əsr Azərbaycan alimləri Rusiyanın şərqşünaslıq elmində hiss ediləcək rol oynayıblar. Mirzə Kazımbəy, Əbu Turab Vəzirov, Mirzə Məhəmməd Şəfi, Sadıx bəy Cəfərov, Mirzə Abdulla Vəzirov, Mirzə Həsən Tahirov, Mirzə Ab-

dulla Qaffarov, Mirzə Cəfər Rizayev və başqaları şərqşünaslıq sahəsində tanınan alimlər idilər. Azərbaycan alimləri Rusiyanın müxtəlif universitetlərində dərs deyirdilər.

Azərbaycan elmi XIX əsrdə yeni səviyyəyə qalxdı. Humanitar və təbiət elmlərinin demək olar ki, bütün sahələrində elm adamları yetişdilər. Onlar yeni təhsil sisteminin tələblərinə uyğun bilik sahibləri idilər. Eyni zamanda, azərbaycanlı alimlər əhalinin dünyəvi elmlər üzrə maariflənməsi üçün ciddi çalışırdılar. Azərbaycan maarifçiləri faktiki olaraq tarixi missiya yerinə yetirirdilər. Bununla Azərbaycan elmi mühitinin təkamülündə yeni mərhələnin – rus-avropa elmi mühitinə inteqrasiyanın XIX əsrdə konkret məzmun kəsb etdiyini demək olar. Bu məqam Azərbaycanda elmi fəaliyyətin təşkilində də islahatların aparılması zərurətini diqtə edirdi. O cümlədən, orta və ali təhsilin və elmi tədqiqatın yeni tələblərə uyğun təşkili böyük aktuallıq kəsb etməyə başladı. XX əsr bu istiqamətdə ciddi yeniliklərin meydana gəldiyi yüzil oldu.

Keçən əsrin əvvəllərində Azərbaycanda dünya elminin inkişaf dinamikasının tələblərinə cavab verən ali təhsil məktəbləri, elmi cəmiyyətləri və elmi-tədqiqat qurumları yaradılmasına ciddi ehtiyac meydana gəldi. Lakin çar hökuməti bu istiqamətdə əsaslı addımlar atmadı. Həmin dövrdə zəngin azərbaycanlıların mesenatlığı sayəsində cəmiyyətdə yüksək təhsilli intellektuallar fomalaşdı. Tarixi təcrübə göstərdi ki, məhz həmin adamlar ölkənin siyasi taleyində əhəmiyyətli yer tutdular. O dövrün azərbaycanlı mesenatları – "Hacı Zeynalabdin Tağıyev, Ağa Şəmsi Əsədullayev, Ağa Musa Nağıyev, İsa Bəy Hacınski, Ağa Musa Muxtarov və başqaları milli mədəniyyətin və oyanışın intişarında ciddi rol oynadılar" (**6, s. 13**). Cəmiyyətin böhran dövründə bu cür insanlar yetişdirməsi xalqın tarixən elmə, təhsilə, yüksək mədəniyyətə meylli olmasının göstəricisidir.

Nəticə

Beləliklə, qısa tarixi gəzişmələr belə göstərir ki, Azərbaycanda fəlsəfə və elm qədim ənənəyə malikdir. Burada elmi yaradıcılıqla onun təşkili mexanizmi bir-biri ilə sıx əlaqədə mövcud olub. Yəni Azərbaycan pərakəndə şəkildə elmi yaradıcılıqla məşğul olan insanların məkanı deyildi – o, dövrünün sanballı elmi fəaliyyət strukturuna malik, özəl funksional missiya yerinə yetirən sistemə malik idi. Maraqlıdır ki, həmin sistemdə akademiyaların xüsusi yeri olub. Onlar Azərbaycanın coğrafi məkan kimi hər bir guşəsində mövcud olublar. Marağa, Təbriz, Naxçıvan, Bakı, Şamaxı və digər yerlərdə mövcud olan elm mərkəzləri vahid fəlsəfi-elmi mühitin tərkibi idilər. Həmin mühiti "müsəlman elmi mühiti" adlandırırlar. Deməli, Azərbaycanda İslam mədəniyyətinin çiçəkləndiyi dövr də daxil olmaqla elmi-mədəni mühit mövcud olub. Bu isə fəlsəfi və elmi fəaliyyətdə məxsusi ideya, konsepsiya, fəlsəfi məktəblərə malik olmaq demək idi. Onu, məsələn, N.Tusi, S.Y.Bakuvi, İ.Nəsimi və başqalarının yaradıcılığında görmək olar.

Bunlardan məntiqi nəticə alınır: XIX əsrə qədər Azərbaycanda fəlsəfi-elmi və ideya özəlliyinə sahib sistemli fəaliyyət məkanları olub. Azərbaycan filoso-

fları yunan rasionalizmi ilə İslam və qədim türk mənəvi (o cümlədən, mifik) dünyasının sintezində öz fəlsəfi baxışlarını formalaşdırırdılar. Bu proses XIX əsrdə Rusiya imperiyasının Qafqaza yürüşləri ilə epistemoloji aspektdə sındı (bir mərakeşli filosofun təbirincə desək, "epistemoloji qırıq" yarandı). Bir neçə əsr vahid fəlsəfi, mədəni və elmi mühitdə təkamül edən Azərbaycan fəlsəfi təfəkkürü məzmunca yeni bir məkana - avropa-rus fəlsəfi-mədəni, elmi mühitinə transformasiya etməli oldu. Bu gedişat təbii olaraq həmin dövrə qədər ki fəlsəfi irsə münasibət tələb edirdi. Bizcə, məhz bu məqamda yanlışlığa yol verildi. Əsrlərlə Azərbaycanın içində olduğu fəlsəfi-elmi mühitdən kəskin qopmaq olmazdı. Doğrudur, həmin irs sonrakı mərhələdə saxlanıldı, lakin o, aparıcı və müəyyənedici deyildi. Kənardan gətirilmiş fəlsəfi-elmi təfəkkürün daxilində daha çox tarixi və ənənəvi kontekstdə yer almışdı. Azərbaycan fəlsəfi-elmi təfəkkürü Tusinin, Nəsiminin, Sührəverdinin, Şəmsi Təbrizinin, Bakuvinin, Füzulinin və digərlərinin mənəvi, fəlsəfi, elmi ruhu, kateqorial aparatı, metodoloji özəllikləri üzərində inkişaf etmədi. Əvəzində, avropa-rus mühitində olan və daha qabaqcıl hesab edilən mədəni, fəlsəfi və elmi mühitə düşdü.

Bununla Azərbaycanda fəlsəfi təfəkkürün dinamikası baxımından prinsipial hadisə baş verdi. Birincisi, ənənə sındı. İkincisi, onun əvəzində yeni mühitə transformasiya baş verdi. Üçüncüsü, yeni mühitdə əsas təkanverici faktor maarifçilik oldu. Bu üç amil Azərbaycan fəlsəfi təfəkkürünün yeniləşmə sərhədlərini və şərtlərini müəyyən etdi. Təbii ki, burada kökü Avropa və Rusiya maarifçiliyində olan Azərbaycan Maarifçiliyi həlledici rol oynadı.

Dünyagörüşü və metodoloji aspektdə bir məqamı vurğulamaq lazımdır. Biz, yuxarıda təqdim etməyə çalışdığımız keçidin müsbət və ya mənfi olaraq qiymətləndirilməsini məqsəd hesab etmirik. Milli fəlsəfə kontekstində hazırda baş verən dəyişikliklərin gələcək naminə obyektiv, real və konstruktiv müstəvidə refleksiya olunmasına önəm veririk. Bu baxımdan, bizcə, Azərbaycanın vahid bir mədəni məkan olaraq XIX əsrdə yeni mühitə transformasiyasının fəlsəfi dərkini olduqca vacib vəzifə hesab edirik. Bu, ayrıca tədqiqatın mövzusudur.

Beləliklə, Azərbaycan milli fəlsəfəsi haqqında peşəkar səviyyədə danışmaq üçün hələ bir sıra tarixi, fəlsəfi, elmi və mədəni prosesləri araşdırmağımız lazımdır. Bu araşdırmalar keçmişə qayıdış naminə deyil, gələcəyin fəlsəfi-elmi ölçülməsinə istiqamətlənməlidir. Fəlsəfi olaraq problem ənənə ilə müasirliyin vəhdəti kontekstində qoyulmalıdır. Bu müstəvidə problemə baxanda deyə bilərik: Azərbaycan milli fəlsəfəsi mövcuddur və o, tədqiqatçılarını gözləyir!

Ədəbiyyat:

1. Демин Р.Н. Идея национальной философии, компаративный анализ и будущее отечественного любомудрия/«Русская мысль»: Историко-методологический семинар в РХГА//http://rhga.ru/science/conferences/rusm/stenogramms/national_idea.php.

2. Бородай Ю.Т. Луций Анней Сенека и его философская проза/Предис-

ловие к изданию: Л.А.Сенека. Философские трактаты, СПб, "Алетейя", 2001, с. 5-11.

3. Ильин Н.В. Трагедия русской философии. М.: Айрис-Пресс, 2008, 608 с.

4. Юхнович Н. Г. Концепция всеединства В.С. Соловьева: синтез рационализма и мистицизма. Автореферат, 2006, Саратов, 24 с.

5. Альтерматт У. Этнонационализм в Европе. М.: РГГУ, 2000, 366 с.

6. Əlizadə A. Azərbaycan akademik elmi son 70 ildə / "Azərbaycan Milli Elmlər Akademiyası – 70" kitabına ön söz, Bakı, 2015, s. 7-35.

Əlikram Tağıyev

MİLLİ FƏLSƏFƏ, MAARIFÇİLİK VƏ MİLLİ KİMLİK PROBLEMİ

Bir inam istiyorum, uğrunda baş qoyacaq
(Behcət Kamal Çağlar)

Fəlsəfə... Ümumbəşəri dəyərlərin və sərvətlərin məcmusudur. Bəs eləisə "milli fəlsəfə" nədir və onun predmeti nədən ibarətdir? Kateqoriyaları, qanunları, əsas anlayışları və metodları hansılardır? Əgər fəlsəfənin tərifində "insan" sözünü millət sözü ilə əvəz etsək, onda belə məlum olurki fəlsəfə millətin dünyaya və özünə münasibətini aydınlaşdıran bir elmdir və yaxud biliklər sistemidir. Deməli, dünyada nə qədər millət varsa, bir o qədər də fəlsəfə növləri olmalıdır. Bəs elə isə mövcud fəlsəfi cərəyanlar, məktəblər necə olsun, yaxud elə bəlkə onları da müəyyən bir millilik donuna və qəlibinə salaq? Bu isə qeyri-mümkündür. Bunları mifologiyasından, mədəniyyət tarixindən aşkarlamaq mümkündür. Dünyagörüşü kimi fəlsəfə də özünü millətin ideyasında, mentalitetində, fikirlərində, xarakterində göstərə bilər. Necə deyərlər millət necədirsə, fəlsəfəsidə elədir (Fixte). Görünür, "milli fəlsəfə" termini işlədənlər elə məhz bunu nəzərdə tuturlar. Yəni millətin amalı və inamı nəyə əsaslanır, onun dünyaya, başqalarına münasibətini müəyyən edir, dünyagörüşünün əsasında nə durur, ruhunu və nəbzini nə ilə ölçmək, müqayisə etmək olar və s.

Türk dünyasının böyük mütəfəkkiri Ziya bəy Göyalp özünün "Türkçülüyün əsasları" kitabında fransız jurnalisti və dramaturqu Rostondan belə bir misal gətirir: "Hər bir komandan üçün qarşısındakı düşmən ordusunun nə qədər əsgəri, nə qədər silahı və sursatı olduğunu bilmək faydalıdır, lakin onun üçün bunlardan daha çox faydalı bir şey vardır ki, o da qarşısındakı düşmən ordusunun fəlsəfəsini bilməkdir". Belə ki, "iki ordu və iki millət bir-biriylə savaşarkən, birinin qalib, digərinin məğlub olmasının ən başlıca amilləri hər iki tərəfin fəlsəfəsidir. Fərdi həyatı Vətənin istiqlalından, şəxsi mənfəəti namus və vəzifədən daha da qiymətli görən bir ordu mütləq məğlub olur. Bunun əksi bir fəlsəfəyə malik olan ordu isə mütləq qələbə çalır". Ziya bəy Göyalpa görə

türklərin Çanaqqala savaşında ingilisləri yenməsi onların milli fəlsəfələrinin qələbəsi idi. Aparıcı filosoflarımızdan biri olan professor Səlahəddin Xəlilov özünün "Fəlsəfə: tarix və müasirlıik" adlı fundamental monoqrafiyasında (Bakı, 2006) çox haqlı olaraq fəlsəfəni ümumbəşəri bir dəyər kimi təqdim edir, sonra o, millilikdən də məhrum deyil. Belə ki, onlar vəhdətdədirlər. Müəllif bu problemə özünəməxsus şəkildəmünasibət bildirərək yazır: "Vahid milli ideyanın təsiri ilə istiqamətləndirilməyən, qarşılıqlı surətdə tamamlana bilməyən, bir növ kortəbi proseslərə çevrilən fəaliyyət aktları, özümüzün də xəbərimiz olmadan, qlobal miqyas kəsb etmiş yad ideyaların, ilk növbədə qloballaşma tendensiyalarının təsir dairəsinə düşərək millət daxilində onun özünə alternativ olan sir dairəsinə düşərək millət daxilində onun özünə alternativ olan lokal güc mərkəzləri yaradır. Milli mənəvi dəyərlərin, əxlaqın, adət-ənənlərin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikirtarixinin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin maddi sərvətlərini deyil, həm də milli mənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində milli fəlsəfi fikir zəminində formalaşır. «… milli-etnik təfəkkürün milli dövlətçilik durumuna gedən yolu milli və ümumbəşərinin sintezindən keçir».

Müəllif haqlı olaraq qeyd edir ki, milli-fəlsəfi fikir olmadan Qərbin qabaqcıl fəlsəfi irsinə yiyələnınək də qeyri-mümkündür. O, fikrini əsaslandırmaq üçün C.Əfqanidən belə bir iqtibas gətirir: «Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. C.Əfqani öz fikrini Şərq ölkələrinin praktikasına müraciətlə əsaslandırır: Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürməmişdir. Səbəbini isə o haqlı olaraq fəlsəfi ruhun çatışmamazlığında görürdü.

Yuxarıda misal gətirdiyimiz bütün iqtibaslarda «milli fəlsəfə» məhz «milli ideya», «milli inam», hətta «milli ruh» və «milli idealogiya» mənalarını verir. Professor Z.Quluzadə çox haqlı olaraq yazır: «Humanitar elmlər tələblərinə görə tarixən ideologiya ilə üzvi surətdə bağlı olaraq müəyyən mənada onu ehtiva ediblər. Xalqların milli idealogiyaları onların fəlsəfəsi, ədəbiyyatı, mənəvi mədəniyyətindən ayrı mövcud olmayıb və əksinə, bu bağlılıq onların obyektiv universal mövcudiyyat qanunauyğunluğu olaraq qəbul edilmişdi».

Ümumiyyətlə, milli fəlsəfənin yaradılmasının zəruriliyini qeyd edənlər nədənsə onun özünün nədən ibarət olduğundan heç də söhbət açmırlar, amma onun mövcudluğunun zəruriliyini daim vurğulayırlar.

Milli fəlsəfə- etnik mənada başa düşülən milli idealogiyadır. Çünki milli idealogiyanın digər bir mənası da var- yəni dövlət idealogiyası, başqa sözlə desək azərbaycançılıq etnik mənada isə onu türkçülük kimi başa düşmək lazımdır. Milli fəlsəfədə türkçülüklə azərbaycançılıq birləşir, yəni milli ideya ilə

milli ideologiya burada bir vəhdət halına gəlir. Millətin fəlsəfəsi onun milli şüuru, mentalitet və xarakteridir. Əgər millətdə bu xüsusiyyətlər yoxdursa, o millət xalqların fəlsəfəsini nə dərk edə bilər, nə də həzm. Yəni millətin dünya fəlsəfəsi fikrini qavraması üçün onun müəyyən hazırlıq səviyyəsi olmalıdır. Əgər bu yoxdursa, onda milli fəlsəfədən danışmağa dəyməz. Milli ruh, milli fəlsəfə ümumbəşəri dəyərləri başa düşməyə və milli zəmində onu reallaşdırmağa bir açar vermiş olur. Millətin ruhu, onun ideyası bu fəlsəfi irsi özününkü etməyə, özününkü ilə zənginləşdirməyə şərait yaradır, dünya ilə özü arasında ötürücülük rolunu oynayır, bir körpü olmaq missiyasını öz üzərinə götürür.

Ramiz Mehdiyevin "Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair" ("Azərbaycan", qəzeti, 5 may 2009-cu il) məqaləsində Azərbaycan fəlsəfəsinin qarşısında duran vəzifələri belə qruplaşdırılmışdır:

Sosial sifarişə cavab verməlidir;

Gələcəyə dair proqnozlar verilməlidir;

Yeni konsepsiyalar irəli sürməlidir.

Bütün bunların hamısı azərbaycançılıq mövqelərindən çıxış etməklə əldə olunmalıdır. Milli fəlsəfəmiz daim milli maarifçiliklə qırılmaz əlaqədə inkişaf etmişdir.

Azərbaycan maarifçiliyinin fərqləndirici xüsusiyyətləri və özəllikləri haqqında çox yazılmışdır. Azərbaycan filosoflarından F.Köçərli, Z.Göyüşov, İ.Rüstəmov, Z.Quluzadə, X.Quliyeva, R.Əhmədov, Ə.Əhmədov, N.İsayev, N.Məmmədov və b. Onlar bu problemi əhatəli şəkildə tədqiq etmişlər. Bizim tərəfimizdən yazılan bir sıra yazılarda da bu məsələyə toxunulmuş və maarifçiliyə milli ideyamızın mühüm mənbələrindən biri kimi baxılmışdır (Tağıyev Ə.M. Fəlsəfə. Dərs vəsaiti, Bakı, 2012; Azərbaycanın fəlsəfi və sosial-siyasi fikri tarixi oçerkləri. Bakı, 2015). Aşağıdakı yazıda bu fikir daha da genişləndirilmiş və əsaslandırılmışdır.

Qərb və rus maarifçiliyindən fərqli olaraq Azərbaycan maarifçiliyi "vahid axın"a əsaslanırdı. Çünki xalqımız bütövlükdə əzilən bir xalq olduğundan Azərbaycan maarifçisi onun bütün nümayəndələrini eyni səviyyədə görür, millətin azadlıq və istiqlaliyyətini eyni qəliblə, eyni ölçülərdə qiymətləndirir və sinfi tərəfi nəzərə almırdılar. Ona görə də türkçülük və islamçılıq ideyaları ən əvvəl maarifçi ideyalar kimi yaranmış, özünün sonrakı inkişafında siyasiləşmişdir. "Fyuzatla" "Molla Nəsrəddin" arasında heç bir ideoloji mübarizə mövcud olmamışdır. Sadəcə olaraq onlar millətin azadlığını, elm və mədəniyyətə çatması yollarını müxtəlif şəkildə izah edirdilər. Daha doğrusu burada müyyən fərqlər, yəni mənəvi dəyərlərə sahib olmaq yolunda fərqli cəhətlər mövcud idi. Məsələn, Molla Nəsrəddin (Cəlil Məmmdquluzadə) deyirdiki "mən türkün təmiz ana dilində yazacağam" Fyuzat isə osmanlı ləhcəsini üstün tuturdu. Bu dil əslində qarışıq bir dil idi və heç türklərin özü də onu başa düşmürdü. N.Kamal yazırdı ki, "yahu, bu nasıl dildir ki, onu nə osmanlı, nə əcəm, nə də türk anlıyor". So-

nralarda 30-cu illərdə Kamal Atatürk tərəfindən keçirilən "Dil devrimində" bu dil ciddi tənqidlərə məruz qaldı və türklərin danışıq dili, milli ədəbi dili kimi qəbul edildi. Azərbaycanda isə milli ədəbi dilin yaranmasında və formalaşmasında Molla Nəsrəddin dili əsas götürüldü. Bu mənada türkçülük və azərbaycançılıq Azrbaycanda milli ideya rolunu oynamış oldu.

Molla Nəsrəddinçilər maarifçiliyi, maarifçilikdə Molla Nəsrəddinçiliyi şərtləndirirdi. Çünki dövr elə bir dövr idiki ümmət içərisində millət yaranışı prosesi gedirdi. XIX əsrin II yarısı və XX əsrin I yarısı məhz islam ümmətçiliyindən türk millətinə, azərbaycançılığa keçid dövrü idi. Bu dövr həm də maarifçiliyi siyasi maarifçiliyə, millətimizdə siyasi millət deyilən bir mərhələyə qədəm qoydu.

Azərbaycan maarifçiliyinə təsir göstərən amillrdən biri də buraya daxil olan yeniləşmə hərəkatlarının istiqamətlərini müəyyən etmək olmuşdur. Bunlar bir neçə istiqamətdə həyata keçirilmişdir. Qərb (Rusiya kanalı), Şərq (Türkiyə və İran) "Molla Nəsrəddin" birincinin, "Fyusat" isə ikincinin nəticəsi kimi yaranmışdır. Son nəticədə birincilər üstünlük qazandı və azərbaycanlıların gələcək mədəni inkişaf yolunu müəyyən etdi. Onu da deyək ki vaxtilə bu problem ətrafında mübahisələr akademik Firudin Köçərli ilə əslən gəncəli olan türk professoru Əhməd Cəfəroğlu arasında baş vermişdir. Onların mübahisəsi məhz bu kanalların hansının daha çox səmərə verməsi və xalqımızın həyatında bu kanallrın hansının daha əhəmiyyətli rol oynaması üstündə idi. Onların mübahisələri mənsub olduqları ictimai-siyasi quruluşların arasında gedən ideya mübarizəsinin bir barometri idi və mövcud siyasətə xidmətlərilə səciyyələnirdi.

Deməli, yuxarıda deyilənlərdən bu qənatə gəlmək olar ki, Qərb dünyasında maarifçilik bir burjua hərkatı idi. Bizdə isə maarifçilik bir ümumxalq məfkurəsi idi. Bu özünü "ağa-bəy" münasibətlərində göstərirdi. Çünki bizdə Rusiyada mövcud təhkimçilik hüququ yox idi. İstər Qərb, istərsə də Rus maarifçiliyi sinfi xarakter daşıyırdı və burjua mülkədar siniflərinin mənafelərini güdürdü. Buda əslində burjua humanizmi ideyalarından ibarət idi. Amma bir maarifçilikdə var idiki oda Azərbaycan maarifçiliyi kimi sinif, təbəqə, irqi, dini fərqi nəzərdə tutmurdu. Bu ABŞ maarifçiliyi kimi idi. 1773-1785-ci illər İstiqlaliyyət müharibəsi dövründə bütün vətəndaşların azadlığını eyni dərəcədə qoruyan istiqlaliyyət Bəyannaməsi (1776) və onun maarifçiləri Hamilton, Peyni, Ceferson milli istiqlalı hamının azadlığı kimi başa düşürdülər. Azərbaycan maarifçiliyidə bir növ buna bənzəyir. Hətta Ə.B.Haqverdiyevin "Bəxtsiz cavan" və N.B.Vəzirovun "Müsibəti Fəxrəddin" faciələrində bəylər və nökərlər qan davası vuruşlarında eyni cəhətdən çıxış edirdilər. ABŞ-da da ağalar və qullar, ağlar və qaralar azadlıq üçün çiyin-çiyinə mübarizə aparırdılar. Hərçənd ki, quldarlıq bundan təxminən 100 il sonra ləğv olundu (1865). Amma bu həmrəyliyin və birgə mübarizənin axırı müsbət uğurla nəticələndi. Azərbaycanda da Azərbaycan maarifçilərinin uğrunda vuruşduqları istiqlal savaşı 1918-ci ildə öz bəhrəsini verdi və cümhuriyyəti vücuda gətirdi. Behcət Kamal Çağlar yazırdı: "Bir inam istiyorum uğrunda baş qoyacaq". Bizim inam yerimiz 200 ildəndə artıq bir

müddətdə bütün bəşəriyyətin zehniyyatını məşğul etmiş məhz bu maarifçilikdir və onun beşiyi başında böyük mütəfəkkirlərimiz olan M.F.Axundzadə, H.B.Zərdabi, Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu, N.Nərimanov, Y.V.Çəmənzəminli, M.Ə.Rəsulzadə, Sabir, Ü.Hacıbəyov kimi elm və mədəniyyət korifeyləri dayanır. Onlar bizim ilk maarif çıraqlarımızıdr. Biz onların şölələrində böyüyüb formalaşmışıq. Bizim amalımız da, idealımız da bu maarifçilərdən nəşət etmişdir. Bu böyük şəxsiyyətlərin xidmətlərinin nəticəsidir ki, islam şərqində teatr (1773), qəzəl (1875), opera (1908), əlifba (1919), universitet (1919) ilk dəfə olaraq Azərbaycanda yaranmışdır. Azərbaycanlılar etnik millətdən siyasi millətə doğru irəliləmiş, özünün siyasi təsisatlarını: Müsavat partiyasını (1913), cümhuriyyətini (1918-1920) və parlamentini (1919) yaratmışdır. Azərbaycan dili milli ədəbi dil səviyyəsinə qalxmış, elmin və mədəniyyətin ən incə mətləblərini ifadə etməyə qadir olan bir dilə çevrilmişdir. Azərbaycan maarifçiliyinin bir xüsusiyyətidə islam dinilə bağlıdır. Bizdə islam həmişə həyat tərzi olmuşdur, elə bir kənd, şəhər tapılmazdır ki, orada məktəb, mədrəsə, molla kursları olmasın. İkinci bir tərəfdən xaricdən isalm dünyasının – İran, Türkiyə, Mərkəzi Asiya, Ərəb dünyası ölkələrində baş verən yeniləşmə hərəkatı öz təsirini Azərbaycana göstərirdi. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra islami qaydalara və dinə qarşı nə qədər sərt tədbirlər həyata keçirilsə belə onlar islami qaydaları pozmurdu. Hətta türk-tatar ziyalıları içərisində SSRİ daxilində "müsəlman qaydalarına əsaslanan sosializm cəmiyyətinin qurulması" mümkünlüyündən söhbət gedirdi. Buna uyğun olaraq "İslam sosializmi", "müsəlman milli komunizmi" ideyaları nəzərdən keçirilirdi. Hətta Soltan Quliyev "Müsəlman komunist partiysaının" yaradılmasını tələb edirdi. O illərdə N.Nərimanovun özünü də "milli komunist" (məsələn, Sun Yat Sen) adlandıranlar tapılırdı. Xaricdə Sovetoloqlar SSRİ-nin Şərq respublikalarında idarəçiliyin islam variantının tətbiq olunmasından yazırdılar. Deyirdilər ki, bu ölkələrdə mərkəzin siyasi-iqtisadi, mədəni-ideoloji xətti əvəzinə hamı öz işini "müsəlman milli komunizmi" prinsiplərinə əsasən qurur (məsələn, Wimbuş, Bennigson, Broksap və b.).

Bütün bu yuxarıda deyilənlərdən məlum oldu ki, Azərbaycan maarifçiliyinin ümumi maarifçilikdən fəqlənən xüsusi və onunla səsləşən ümumi cəhətləri vardır. Bu ümumi və xüsusi cəhətlər müəyyən mənada elə indinin özündə də mövcuddur və onlar bilavasitə millətin ideyası və ideologiyası ilə, habelə milli fəlsəfəsilə qarşılıqlı əlaqədədir.

Milli fəlsəfə və maarifçilik milli kimlik problemilə əlaqədardır. Məlumdur ki, hər bir millətin və şəxsin kimliyi və pasportu olur. Bu problemin çox qədim bir tarixi vardır. Ən qədim dövrlərdən indiyədək inkişaf edərək müxtəlif mərhələlərdən keçir. Qədim və antik dövrdə bu problem "biz-onlar" spektrində həll olunurdu. Məsələn, çinlilər özlərindən olmayanları "tatar" yəni "özgə" adlandırırdılar. Qədim misirlilər mis rəngində olmayanları etibarsız sayırdılar. Antik yunanlar asiyalıları "barbar" adlandırır və onlara qarşı aparılan müharibələri heyvan ovuna bənzədirdilər. Onlar hətta bu prosesdə "polonium" (yəni mühari-

bə) terminini işlətməyi də artıq sayırdılar. Yunanlara görə əsl polonium yunan polisləri arasında gedən müharibədir. Esxil "Farslar" əsrində asiyalılara qarşı mübarizəyə səsləyirdi. Elə əslində məhz bu dövrlərdə avropasentrizimin əsası qoyulmuşdur.

Orta əsrlərdə şəxsi və milli fərqlərin əsasında sosio-kultur müəyyənlik dururdu. Bunun da əsasını din təşkil edirdi. Xristianlar müsəlmanları "saransin" (əslində ərəb sözü olan "səhranişin"in qərb variantı), müsəlmanlar isə xristianları "kafir" adlandırırdılar və onlar bir-birinə qarşı olan düşmənçiliyi və mübarizəni təbii sayırdılar.

Yeni tarixi dövrdə, ən azı Böyük Fransa inqilabından sonra millətçiliyin meydana gəlməsi ilə əlaqədar olaraq Avropada böyük-böyük millətlər və milli dövlətlər yarandı. Və bunlar da milli-etnik fərqləri din amilindən önə keçirtdi. İslam cəmiyyətləri (ümməti) içərisində də millət yaranması baş verdi. İslam dünyasında ərəblər, farslar, türklər kimi iri millətlər və onların ideologiyası olan islam millətçiliyi, etnik millətçilik, sosial millətçilik və s. yarandı.

Ən yeni tarixi dövrdə, yəni XX əsrdən başlayaraq millətlər arasında olan müxtəlif münasibətlər müxtəlif məcralara, məsələn qloballaşmaya və etnokultural münasibətlərə daxil oldular. Millətlər iki formada: a) etnik zəmində; b) etnososial orqanizm zəmnində inkişaf edərək müasir millətlər və xalqlar şəklinə düşdülər. Millətlər arasında qloballaşma və etnokultural münasibətlər həm pozitiv və həm də neqativ çalarlar aldı. Onların birincisi millətlərin bir-birini zənginləşdirməsi, bir-birinə yaxınlaşma, hətta qovuşması, ikincisi isə onların mübarizəsini, toqquşmasını (The clash of civilzations – Hantington) və s. nəzərdə tuturdu. İndi bu əsasda gedən mübarizədə də xristian dünyası islamı ittiham edir, onu problemli bir din olmaqda (Fransua Holland), terror həvarisi olmaqda günahlandırırlar. Halbuki bu günkü bütün dağınıqlığın, müharibələrin kökündə məhz Qərb ölkələrində yeridilən siyasət dayanır. Ona görə də onlar multikulturalizmi qəbul etmirlər.

Multikulturalizmin, eləcə də qloballaşmanın tarixi qədimdir. Amma onlar bir reallıq kimi bütün dünya xalqlarını əhatə edir. Avropaya sərf etməyən multikluturalizm bizdə həyat tərzinə çevrilib. Onun aparıcı qüvvəsi tolerantlıqdır, yəni digər millətlərə, dinlərə, hətta insanlara qarşı dözümlülük göstərməkdir. Azərbaycan xalqı yerləşdiyi coğrafi məkana, tarixi inkişafına, milli-mənəvi xüsusiyyətlərinə uyğun olaraq daim onunla qonşu olan xalqlarla müxtəlif əlaqələr qurmuş, onlarda olan yaxşı cəhətləri mənimsəməyə çalışmışdır. Bu istiqamətdə biz region xalqlarına nümunə göstərməkdəyik.

Qonşumuz ermənilər isə sivilizasiya fərqlərini bəhanə gətirərək bizə qarşı dözümsüzlük göstərdilər. Əslində isə onların xəstə millətçilik, irqçilik və sosial-şovinizm siyasəti buna mane oldu. Onlar beləliklə də özlərinin "müstəsnalıqları" kölgəsində təcrid olunmuş şəkildə yaşamağı üstün tuturdular. Bu da onların bütün qlobal və multikultural dəyərlərdən mərhum olmasıyla nəticələndi. Onlar habelə regional layihələrdən də kənarda qaldılar. Erməni dövlətinin bizə qarşı yeritdiyi ardıcıl soyqırım siyasəti son anda onların özlərinə qarşı çevrilməlidir.

K. Marks və F. Engelsin çox uzaqgörənliklə söylədikləri kimi, “bir xalqa zülm edən xalqın özü azad yaşaya bilməz”.

Hər bir xalqın, millətin, tayfanın, regionun və hətta ayrılıqda götürülmüş bir insanın özünəməxsus müəyyən bir ideyası, fikri, amalı, yəni uğrunda mübarizə apardığı bir məqsədi olur. Bu fenomen özlüyündə ya milli ideyanın özüdür, ya da ona yaxın bir anlayışdır. Bu ideyalar geniş və dar mənada işlənə bilər. Məsələn, Qərb ideyası ilə yanaşı, “alman ideyası”, “fransız ideyası”, “anqlo-saks ideyası” və s. mövcuddur. “Slavyan ideyası” ilə yanaşı olaraq “rus ideyası” mövcud olduğu kimi, “islam ideyası” və “türk ideyası” ilə bağlı olan bir “Azərbaycan ideyası” da olub və indi də var. Bu ideyalar özlüyündə öz siyasi-coğrafi məkanlarını çıxış nöqtəsi sayırlar. Məsələn, Qərb ideyasının məqsədi “Avropa evidir”. Slavyan ideyasının və eləcə də türk ideyasının məqsədi “Avrasiya evinə” sahib olmaqdır. Bu ideyalar öz “evlərini” qurub yaratmaq üçün bəzən başqalarını rədd edirlər. Məsələn, Qərb ideyası “West is against rest” (Qərb hamıya qarşı!) şüarından bir vasitə kimi istifadə edir. “Qafqaz ideyası” “Qafqaz – qafqazlılar üçün” şüarını irəli sürür. Belə olan şəraitdə “Azərbaycan ideyası” da Azərbaycanı özünə sığınacaq bilir, onun siyasi-coğrafi vəhdətini ön sıraya qoyur.

Milli ideyalar iki şəkildə mövcud olur: 1) etnik ideya; 2) etnososial ideya (milli dövlət ideyası). Hər iki ideyanın milli vəhdəti etnososial orqanizm ideyasını təşkil edir.

Bu da məhz “azərbaycançılıq” adlandırdığımız anlayışdır. Azərbaycançılıq – Azərbaycanda yaşayan aborigen xalqların vahid dövlətdə yaşamaq ideyası və siyasətidir. Azərbaycançılığın vahid dövlət ideologiyasına çevrilməsi prosesi ulu öndər H.Əliyevin adı ilə bağlıdır. Ulu öndərin azərbaycançılıq siyasəti – ölkədə yaşayan bütün etnosların özlərinə məxsus olan etnik ideyalara xələl gətirmədən vahid milli azərbaycançılıq ideologiyası şəkilində və səviyyəsində qavranılması deməkdir.

Milli ideyalar əvvəlcə etnik ideya kimi yaranıb püxtələşir və sonradan artıq siyasi xarakter kəsb edərək milli ideologiyaya çevrilir. Azərbaycançılıq – bizim milli amalımız və ideologiyamızdır. O bu gün artıq milli-etnik ideyadan – milli dövlət ideologiyasına çevrilmişdir. Onun bu şəkilə düşməsi ulu öndər H. Əliyevin yorulmaz və məqsədəuyğun fəaliyyətinin nəticəsidir.

Azərbaycançılıq özünün ilkin yaranmasında maarifçilik və romantizm mərhələlərini keçir. Millət yaradıcı ideyalar yaxud millətləşmə prosesinin özü mütləq bu mərhələləri keçməlidir. Bu ideyaları yaradanlar yaxud onu təbliğ edənlər millət üzvlərində özünəinam hissi yaratmış, millətin tarixini mütləqləşdirmiş, dil və mədəniyyətə sahiblik hisslərini formalaşdırmış, onun geopolitikasını müəyyənləşdirmişdir. Millətə başa salınmalıdır ki, toplumlar arasında onun yeri və rolu hardadır. Millət öz milli müəyyənliyini, milli kimliyini tapmalıdır, özü ilə başqalarının fərqini bilməlidir. Özünün məqsəd və vəzifələrini, yaranışı və inkişafının səbəblərini anlamalıdır. Millət özünü müdafiə etmək qabiliyyətinə malik olmalıdır, onun ordusu istənilən düşmənə cavab ver-

mək iqtidarında olmalıdır. Bütün bunlar olmayanda millət bunlar üçün başqa bir millətə müraciət edir ki, bu da onun müstəqilliyinin və suverenliyinin itirilməsi ilə nəticələnir.

Azərbaycanlıların milli ideyası onun milli idealının tərcümanı olmuşdur. Milli idealımız isə müstəqil, vahid, bütöv, azad və suveren Azərbaycandır. Milli ideya və milli ideologiya problemləri, Azərbaycan milli ideologiyasının formalaşmasında ümumilli lider H.Əliyevin rolu Azərbaycan alimləri tərəfindən hərtərəfli şəkildə tədqiq olunmuşdur.

H.Əliyev milli ideologiyanın təcəssümüdür. Onun şəxsiyyəti, fəaliyyəti, siyasi, əxlaqi keyfiyyətləri, elmi-nəzəri irsi əsl azərbaycançılıq nümunəsidir. H.Əliyev milli ideologiyayanın təməlini, guşə məhək daşını qoymuşdur və indi də bu ideya bu möhkəm təməl, özül üzərində qərar tutmuşdur.

Azərbaycançılıq, başqa sözlə desək Azərbaycanizm ölkədə yaşayan bütün millət və xalqların maraq və mənafelərini eyni dərəcədə ifadə edir, onların son məqsədlərini əks etdirir. Bu ideologiya milləti təşkil edən ayrı-ayrı etnosların azadlıq və bərabərlik arzularının tərcümanıdır.

Azərbaycanlıların siyasi bir millət olaraq tarix səhnəsinə çıxması, onun dünya birliyi xalqları tərəfindən qəbul edilməsi onların müstəqil və suveren bir subyekt kimi başa düşülməsi ilə müşayiət olunur. Bütün bu yuxarıda deyilənlər azərbaycançılıq fəlsəfəsinin mahiyyətini təşkil edir.

Dünya azərbaycanlılarının hamısını bir ideya – vahid Azərbaycan ideyası birləşdirməlidir. Elmi-nəzəri ədəbiyyatda bu anlayış azərbaycançılıq termini ilə ifadə olunur. Bunun qayəsi ondan ibarətdir ki, azərbaycanlı hansı ölkədə məskunlaşmasından asılı olmayaraq Azərbaycanı özünə vətən bilməli, onun çiçəklənməsi naminə əlindən gələni etməlidir.

Milli ideyalar xaotik şəkildə uzun illlər xalqın içərisində yaşayır və sonradan onun qabaqcıl siyasət adamları və ziyalıları tərəfindən işlənərək formulə edilir və sistemləşdirilir. Milli ideyanın milli ideologiyaya çevrilməsi üçün millət olmaq xüsusi rol oynayır. Millətin özünəməxsus müəyyən ərazisi, dövləti, ədəbi dili, şəxsiyyət vəsiqəsi, tarixi yaddaşı, millət uğrunda hər cür mərhumiyyətlərə dözən, onun fanatı olan mərd oğlanları olmalıdır.

Bu təbii-tarixi şərtlərdir və millətin özünü tanıtması, dünya millətləri içərisində özünəməxsus müəyyən bir yerin tutması üçün zəruridir. Məsələn, əgər XX əsrin əvvəlllərində yaranmış bu təbii-tarixi şərtlər olmasaydı, azərbaycanlılar dünya millətləri birliyinə "siyasi bir millət" kimi daxil ola bilməzdi. Siyasi bir millət olan azərbaycanlılar artıq XX əsrin əvvəllərindən etibarən özlərinə məxsus yeni bir ideoloji görüşə malik oldular.

Azərbaycançılıq bir növ "türkləşmək, islamlaşmaq, yeniləşmək" şüarının sonuncusunu təcəssüm etdirir.

Azərbaycançılıq- ölkəni məskunlaşdıran xalqlarda Azərbaycan dövlətinə mənsubluq hisslərinin formalaşdırılması, ölkədə vahid vətəndaş siyasi mədəniyyətini inkişaf etdirmək vəzifələrinin yerinə yetirilməsini tələb edir. İnsanlar öz polietnik rəngarəngliyini politik rəngarəngliyə çevirməməlidir. Əksinə, ça-

lışmalıdırlar ki, yaşadıqları Azərbaycan Respublikasının ümumi maraqları və mənafeləri kölgədə qalmasın. Milli ideyalar milli liderlərin ətrafında sıx birləşəndə reallığa çevrilir. Heydər Əliyev böyük hərflərlə yazılan azərbaycanlı idi. Özü də əbəs yerə deməyib: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, azərbaycanlıyam".

Ulu öndərin 90 illik yubileyi haqqında Azərbaycan Respublikasının 21 yanvar 2013-cü il tarixli sərəncamında deyilir: "Azərbaycan məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləndirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub." Bu baxımdan xalq milli ideyanı milli liderin ideyası kimi qəbul edəndə onun rolu daha da artır və yalnız o halda milli ideya dönməz olur. Azərbaycançılıq iqtidar tərəfindən hakim ideyaya, bir siyasi xəttə, dəstihərəkətə çevrilib.

Digər "Müasir dövrdə, məlum fəlsəfi konsepsiyaların əhatəsində olmaqla, onların təsirlərini dərk etməklə yanaşı, bu və ya digər millət özünün spesifik fəlsəfi məktəbini yaratmağa qadirdirmi?" tezis-sualımda əsas fikir mövcud ətrafımızı xarakterizə etməkdir. Bir neçə indikatora görə bizim xalqımız, millətimiz üçün müstəsna əhəmiyyət kəsb edə biləcək milli fəlsəfi bilik sisteminin yarada biləcəyimizə imkanlarımızın olması məsələsidir. Niyyətin olması vacib şərtdir və bunun heç zaman reallaşmayacığı haqqında öncədən fikir söyləmək yanlışlıq olardı. Lakin Azərbaycan cəmiyyətinin heç də homogen olmadığı bir halda bəzi skepsizliklər vardır. Məsələn, bir qisim fəlsəfi fikir daşıyıcılarımız (başqa bir formada fəlsəfi fikir söyləmək qabiliyyəti olan ziyalılarımız) öncə qeyd edilən marksist-materialist fəlsəfi düşəncəsinin daşıyıcılarıdılar və bu fəlsəfi konseptin həm universal, həm də hər bir millətə aid olduğunu vurğulayırlar. Sözsüz ki, kənar təsirlər də az deyil. Lakin, bizim bu ziyalılarımızın böyük bir əksəriyyəti sovet dövründə yaşayıb-yaratdıqlarından, həmin dövrün humanist təbiətini birmənalı formada qəbul etdiklərini, dağılan ittifaqın nə zamansa bərpa olunacağı ilə əlaqədar nostalji arzularda olduqlarını təsəvvür etsək, bu turbolentliyin nə qədər mürəkkəb olduğunu görə bilərik. Marksist fəlsəfəsi qalsın bir yana. Kantın, Hegelin fəlsəfi sistemləri üzərində yaranan müasir modernist, postmodernist, qeyri-klassik konseptlər səviyyəsində, kimləri isə təəccübləndirə biləcək milli fəlsəfi sistem yarada bilərikmi? Fəlsəfi araşdırmalarla məşğul olmaq, hələ bu sistemin yaradılması deyil. Məncə, bu tezis hələ çox uzun müddət bizim tədqiqatçıları düşündürəcək.

Mən digər tərəfdən razıyam ki, bu istiqamətdə araşdırmalara dövlət və cəmiyyət tərəfindən böyük dəstək verilməlidir. Bu dəstək kompleks xarakter daşımalı, perspektiv trendləri və alternativləri nəzərə almalıdır.

Növbəti - Milli fəlsəfə insan təfəkkürünün inkişafını məhdudlaşdırır və ya genişləndirir? tezis-sualına cavab axtarışıdır. Yuxarıda artıq bu haqda bir neçə fikir söylənilmişdir. Məlumdur ki, müasir dövrümüzə qədər böyük inkişaf yolu keçmiş, müəyyən mənada təcrübə qazanmış fəlsəfi konsepsiyalar və sistemlərlə yanaşı hər hansı bir dövlətdə (inkişaf səviyyəsindən asılı olmayaraq) yeni, bəşəriyyəti təəccübləndirə biləcək fəlsəfi məktəb yaranmayıbdır. Yeni, taktiki və strateji xarakterli konsepsiyalar həmişə olub (Marşall planı, Adenaur isla-

hatları, Solidarizm, sosialist kapitalizmi, sosial dövlət, rifah dövləti, liberalizm, konservatizm və s.). Müasir dövrdə postsovet məkanında da müəyyən islahatlar konsepsiyalarının şahidi olmuşuq. Bununla yanaşı, yenə də, beynəlxalq simpoziumlarda, konfranslarda hələ də Aristotelə, Platona, K.Marksa, Hegelə, Kanta və s. istinadlar verilir, onların bu və ya digər tarixi təcrübələrə verdikləri qiymətlər xatırlanır. Bütün bu qeyd edilənlər müstəvisində bu cür fəlsəfi bilik mənbələrini danmaq, və ya onlara alternativ olmayan bir fəlsəfi bilik sistemi yaratmaq cəhdləri öncədən uğursuzluğa düçar ola bilər. Bu niyyətdə ilk növbədə insan düşüncəsinin məhdudlaşdırılması durur.

Digər bir - milli fəlsəfənin hansı spesifik xüsusiyyətləri olmalıdır ki, onu digər milli fəlsəfələrdən fərqləndirsin? tezis-sualında mövcud fəlsəfi fikir səpgisində malik olduğumuz özəlliklərin peşəkar formada ifadə olunması, beynəlxalq səviyyədə təqdim olunması məsələləsidir. Mövcud fəlsəfi fikir səpgisi dedikdə, mən ilk növbədə tarixən Azərbaycanda formalaşmış fəlsəfi bilik fondunun imkanlarını nəzərədə tuturam. Bu fond ta qədim dövrlərdən indiyə kimi qoruyub saxladığı, müəyyən məqamlarda inkişaf etdirdiyi özəl fəlsəfi konseptlərin dərindən araşdırılmasını, onların mütərəqqi xüsusiyyətlərinin aşkarlanması üçün cox vacibdir. Azərbaycan ərazisində müxtəlif dini-fəlsəfi və siyasi xarakterli cərəyanların yaranması, sözsüz ki, həmin dövrün bu fikirləri yaradanlarının sayəsində mümkün olmuşdur. Bu günə kimi Azərbaycan ərazisində Sührəverdinin, Səbzivarinin, Nəimi və Nəsiminin təlimləri, xəlvətiyyə, bayramiyyə, hürufiyyə, kübrəviyyə, heydəriyyə, səfəviyyə, batiniyyə kimi sufi və irfani təriqətlər geniş vüsət tapmışdılar. Bu təlimlərdəki dəyərlər həm elmi-fəlsəfi, həm ədəbi müstəvidə təbliğ olunurdu. Nəimi, Nəsimi, Xaqani, Nizami, Füzuli, Şəms Təbrizi və s. dahi şairlər, Xacə Nəsirəddin Tusi, Bəhmənyar, Biruni kimi alimlərin əsərlərində öz əksini tapmışdır (**13**).

XII əsrdə müsəlman Şərqində Azərbaycan filosofu Şihabəddin Yəhya Sührəvərdinin yaratdığı işraqilik elmi-fəlsəfi təliminin ayrı-ayrı ideyaları Qədim Şərq və Qədim Yunanıstan fəlsəfi fikrinə gedib çıxır.

Şihabəddin Sührəvərdinin və onun davamçılannm peripatetik mövzulara - məntiq, metafızika və fizikaya (təbiiyyata) xüsusi əsərlər həsr etmələri onların aristotelizmdən kifayət qədər bəhrələnmələrinə parlaq misaldır. İşraqiliyin banisi bəzi məsələlərdə peripatetizmə tənqidi yanaşsa da, Aristotelin adını birinci müəllim kimi həmişə ehtiramla çəkmişdir.

XII əsrdə Şərq peripatetizmi, panteizm və işraqilik dünya fəlsəfi fikrinin inkişafında bir zirvədir (**14**).

Müasir dövrdə milli fəlsəfənin formalaşdırılmasında hansı amillər təkanverici element kimi çıxış edə bilərlər? adlı tezis-sualında bir neçə taktiki və strateji xarakterli amillərin milli fəlsəfənin formalaşmasında təkanverici xüsusiyyətə malik olması məsələlərinə diqqətin yetirilməsi vacib sayılmışdır. Məsələn, ərazilərimizin işğalına dözümsüzlük, onların azad olunmasına çağırışlar, bunun üçün dünya azərbaycanlılarının birliyinin baş tutması bir təkanverici amil kimi çıxış edə bilər. Digər amil kimi turançılıq ideologiyasının inkişaf etdirilməsi,

müəyyən funksional-institusional tədbirlər silsiləsinin təşkil edilməsi ola bilər. Başqa bir amil isə, müasir dövrdə insan hüquq və azadlıqlarının tam təmin olunması uğrunda mübarizənin aparılması və s. kimi bu səpgidə məsələlər ola bilər.

Hazırda Azərbaycanda dualistik cərəyanların dialektikasını müşahidə etmək olar. Bir tərəfədən multikulturalizm və tolerantlıq, digər tərəfdən isə, türkdilli xalqların birliyinə təşəbbüslər, türk adət ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Məncə bu fəaliyyətlər müəyyən növbəlilik müstəvisində öz həllini tapsa idi pis olmazdı. Bu fəaliyyətlərin paralel aparılması bəzi həssas elementlərin ürəyincə deyil. Ancaq hər ikisinin vacib olmasının dəyərliliyini də azaltmaq olmaz.

Müasir dövrdə milli fəlsəfəni formalaşdırmaq üçün hansı təşkilati məsələlər öz həllini tapmalıdır? adlı tezis-sualda mövcud pesurslardan səmərəli istifadə edilməsi ilə müəyyən institusional fəaliyyətlərin keçirilməsi məsələlərinə diqqətin yetirilməsidir. Hər bir halda, milli fəlsəfə haqqında danışan ziyalıların bir araya gətirilməsi, milli təəssübkeşliyin təşviqi kimi vəzifələr həyata keçirilməlidir. Bu baxımdan, AMEA Fəlsəfə İnstitunun əməkdaşlarının, onun rəhbərliyinin pozitiv mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Son zamanlar institut səviyyəsində bu mövzuda silsilə tədbirlərin keçirilməsi, institutun "Müasir fəlsəfi problemlər" şöbəsinin təşkilatçılığı ilə bu mövzuda beynəlxalq kollektiv elmi monoqrafiyanın hazırlanması təqdirəlayiq addımlardan biridir. Sözsüz ki, digər ölkələrin bu sahədə təcrübələrinin öyrənilməsi, zəruri komponentlərin əldə edilməsi kimi fəaliyyətlərlə yanaşı, bir çox stimullaşdırıcı tədbirlərin də keçirilməsinə ehtiyac var.

Milli fəlsəfə digər mövcud fəlsəfi konsepsiyalardan üstün ola bilərmi? tezis-sualında əsas məqsəd yaradılması nəzərədə tutulan milli fəlsəfi konsepsiyanın digər mövcud fəlsəfi konsepsiyalardan üstün olub olmamasına münasibətin bildirilməsidir. Nəzəri baxımdan bu mümkün olsa da, əməli baxımdan bunun hələ də arzu olaraq qalmasıdır. Öncə olaraq, bizə məxsus olan hansısa bir maddi və qeyri-maddi xüsusiyyətin, məhsulun digər xalqlardakından mütləq üstünlüyünü müəyyənləşdirməyimizdir. Məsələn, ailəcanlılıq, qonaqpərvərlik, milli adət-ənənələrə sadiqlik, qeyrət, namus kimi xüsusiyyətlərdən tutmuş Zirə pomidoru, Abşeron zəfəranı, Qarabağ atı, Bakı və Şəki paxlavası, şəkərbura və s. Bütün bu qeyd edilənlərin qiymətləndirilməsi meyarları müəyyənləşərsə, deməli yarana biləcək fəlsəfi konsepsiyamızın üstünlük meyarlarını da müəyyənləşdirməyə nail olmaq mümkündür.

Əgər milli fəlsəfi konsepsiya dünyanın ontoloji və qnoseoloji təsvirini mövcud digər fəlsəfi konsepsiyalardan fərqli forma da verərsə, bunun evristik dəyərini necə qiymətləndirmək olar? tezis-sualında əsas məqsəd milli fəlsəfənin evristik dəyərinin qiymətləndirilməsini müəyyənləşdirməkdir. Öncə qeyd etdiyimiz kimi, milli fəlsəfə milli-mənəvi dəyərlərə söykənən bir bilik sahəsi kimi, ilk növbədə bu dəyərlərin daşıyıcıları üçündür. Məqsəd heç də hər bir Azərbaycan vətəndaşının fəlsəfi biliklərinin milli müstəvidə zənginləşdirilməsi

deyildir. Bu ilk növbədə, sözsüz ki, milli mənəvi dəyərlərin qorunub saxlanmasına və inkişafına məsul olan milli ziyalılarımızın dövlətçilik maraqları çərçivəsində zəruri fəlsəfi biliklərə yiyələnməsinin təmin edilməsidir. Bu maraqlar hər bir halda pozitiv bəşəri maraqlarla uzlaşmalıdır. Əgər hər hansı bir ekoloji təhlükə qlobal problemlərin tərkib hissəsinə daxildirsə, deməli hər bir coğrafi məkanda cərəyan edən neqativ geo-fiziki hadisələrə biganə qalmaq olmaz. Bizim üçün müasir dövrdə evristik dəyər, ilk növbədə ədalətli cəmiyyətin qurulması, vətəndaşlarımızın hüquq və azadlıqların təmin edilməsi və qorunmasını şərtləndirən fəlsəfi fəaliyyətlərin qiymətləndirilməsidir.

Bu mövzu ilə əlaqədar digər tezis-sualların cavablandırılması da vacibdir. Bütün deyilənlər yekun vuraraq, Azərbaycanda özünəməxsus fəlsəfi məktəbin formalaşması üçün kifayət qədər intellektual potensial olduğu halda, bunun hazırki dövrdə hələ də mümkün olmamasını şərtləndirən bir sıra obyektiv və subyektiv səbəblərin olmasını qeyd etmək lazımdır. Bu baxımdan AMEA Fəlsəfə İnstitutu tərəfindən bu istiqamətdə məqsədyönlü və təxirəsalınmaz tədbirlərin təşkilinə və keçirilməsinə böyük ümüdlr var.

Ədəbiyyat:

1. Abasov Ə. Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. Ön söz. Elm və Təhsil, Bakı 2014, c. 16
2. Xəlilov S. Fəlsəfə: tarix və. müasirlik. (fəlsəfi komparativistika). Bakı– 2006
3. Mehdi Niyazi və Mehdi Dilarə. Fəlsəfə tarixində fəlsəfə (fəlsəfə üzrə dərs vəsaiti). Bakı, 2006
4. Ələkbərli Faiq. Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) I hissə, Elm və
5. Təhsil, Bakı, 2018
6. Мехтиев Р.Э. Философия . Учебное пособие . Баку, «Şərq-Qərb», 2009 г., 376 стр.
7. Второе издание,
8. Zümrüd Quluzadə. Qədim dövrdən XX əsrin 20-ci ilinədək Azərbaycan fəlsəfəsi (oçerk), 26-
9. 03-2011 http://orientalphilosophy.org/nesrler/meqale/15-qedim-dovrden-xx-esrin-20-ci- ilinedek-azerbaycan-felsefesi-ocherk.html,
10. Əhmədli C. Materialist dialektikanın əsas qanunları haqqında. Bakı, 1997.,
11. Fərhadoğlu M. Fəlsəfənin əsasları.XI-XIII fəsillər,səh.231-235.Bakı.-1996,
12. Rüstəmov Y. Fəlsəfənin əsasları, Bakı, Təknur, 2004,
13. Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010
14. Abbasov Ə. Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. Elm və Təhsil, Bakı 2014, c. 69

15. Abbasov Ə. Zəmanəmiz və fəlsəfəmiz , http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyun2009/81744.htm
16. Məmmədov Z.C. Azərbaycan Fəlsəfəsi tarixi. "CBS PP" MMC, 2006
17. https://www.azerbaijans.com/content_631_az.html

Həcər Abdallı

MİLLİ FƏLSƏFİ FİKRİN İNKİŞAFI

Hazırda müntəzəm inkişaf edib dərinləşən Azərbaycan fəlsəfəsi qarşısında duran ən başlıca vəzifə respublikamızın suverenliyinin möhkəmlənməsinə kömək edən milli-mənəvi, mədəni irsi sosial-fəlsəfi aspektdən tədqiq və təhlil etməkdən, müstəqil dövlət quruculuğu prosesində tarixi-milli ənənələrimizdən istifadə edərək yeni mədəniyyətimizin formalaşması və inkişafı üçün sosial-fəlsəfi konsepsiyalar, nəzəriyyələr işləyib hazırlamaqdan, onu geniş təbliğ etməkdən ibarətdir.

Azərbaycan fəlsəfə elminin, sosial-siyasi fikrin inkişafında, elmlə dövlət idarəçiliyinin üzvü surətdə əlaqələndirilməsində, milli-dövlətçilik ideologiyasının püxtələşməsi və həyata keçirilməsində danılmaz xidmətləri olmuş filosoflar haqlı olaraq qeyd edirlər ki, sosiohumanitar elmlər tarixi tədqiqatlarla məhdudlaşmamalı, müasir dövrün sosial-siyasi, iqtisadi, mənəvi-əxlaqi problemlərinin obyektiv araşdırılmasında, ölkənin mütərəqqi inkişafı baxımından strateji əhəmiyyətə malik istiqamətlərin, optimal üsul və formaların müəyyənləşməsində qorunmasında öz sözünü deməli, sosial sifarişlərə həssaslıq göstərməli və çevik reaksiya verməlidir; bu işdə isə fəlsəfə ön cərgədə olmalı, üzərinə düşən şərəfli missiyanı ödəməlidir.

Milli fəlsəfi fikir dedikdə, ilk növbədə, hər bir ölkənin görkəmli filosofları, onların əsərləri yada düşür. Belə bir fikir formalaşıb ki, müasir dövrdə milli fəlsəfi fikrin formalaşması və təbliği üçün əsas vəzifə fəlsəfə tariximizin öyrənilməsi və tədris edilməsidir. Hələ, Bəhmənyarın, Nizaminin, Şəbüstərinin, Nəiminin, Nəsiminin, Füzulinin, A.Bakıxanovun, M.F.Axundovun və b. kimi şəxsiyyətlərin bədii yaradıcılığındakı fəlsəfi əsərlərini öyrənərək ön plana çəkmək lazımdır.

Fəlsəfə varlığın dəyişməyən qatlarını, dəyişkənlik görüntüsü arxasındakı sabitliyi öyrənir. Bir sözlə, fəlsəfə əsasən ümumbəşəri səciyyə daşıyır. Çünki başlıca məqsəd insanları (insan qruplarını) bir-birindən fərqləndirməkdən daha çox, ümumiyyətlə insanı, onun mahiyyətini, həyatın mənasını, dünya ilə münasibətini araşdırmaqdır. İnsanların öz arasındakı fərq fəlsəfi tədqiqatın sonrakı, diferensiallaşmış pilləsində üzə çıxır. Özünü dərk etmək istəyən insan, əlbəttə, öz fərdi (və milli) xüsusiyyətlərini də dərk etməyə çalışır. Lakin o, əvvəlcə insan ümumisini, insan varlığının səciyyəsini dərk etmək məcburiyyətindədir. Həm də ancaq bu ümumiləşmə səviyyəsindəki düşüncələr və tədqiqatlar bütün

bəşəriyyət miqyasında əlaqələndirilə və ortaq məxrəcə gətirilə bilər. Elə buna görə də Zərdüştün, Konfutsinin, Sokratın fikirləri ümumbəşəri səciyyə daşıdığı kimi Fərabinin, İbn Sinanın, Bəhmənyarın fəlsəfi tədqiqatları da ümumbəşəri məzmunludur. Bəzən fəlsəfə tarixi ayrı-ayrı xalqların fəlsəfi fikir tarixləri kimi (məsələn, "qədim yunan fəlsəfəsi", "islam ölkələrində fəlsəfə", "klassik alman fəlsəfəsi" və s.) təsnif edilir.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimiz həqiqətən böyük təhlükələrlə üzləşir və milli-fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünüqoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətindir. Bu gün Avropada aşkar şəkildə etiraf olunsa da, olunmasa da onların qazandığı nailiyyətlərdə fəlsəfi düşüncə tərzinin rolu böyük olmuşdur. Təsadüfi deyil ki, hələ Siseron fəlsəfəni xeyirxahlığın bələdçisi, həyat müəllimi adlandırırdı. Bütövlükdə, antik sivilizasiya fəlsəfi düşüncə üzərində qərar tutmuşdu. Avropanın ikinci böyük inkişaf dövrü, renessans da fəlsəfi düşüncəyə qayıdışından başlanır. Yeni dövrün bütün siyasi-hüquqi və mədəni-mənəvi dəyərlər sistemi də, demokratiya, insan haqları, beynəlxalq hüquq normaları da fransız maarifçi filosoflarından, Con Lokdan, Kantdan qidalanır. Bu gün biz bu dəyərlər sistemini Avropadan hazır şəkildə götürməyə çalışırıq.

Fəlsəfi düşüncə tərzi fərdi-mədəni inkişaf üçün, insanın kamilləşməsi üçün nə dərəcədə lazımdırsa, fəlsəfi biliklər sistemi, elmi-fəlsəfi tədqiqatlar da cəmiyyət üçün, dövlət quruculuğu üçün,ictimai-siyasi və sosial-mədəni təşkilatlanma üçün bir o qədər vacibdir. Milli fəlsəfi fikrin dövlətçiliyə xidmət etməsi əslində ictimai təşkilatlanma dərəcəsindən asılıdır. Avropa ölkələrində bu proses artıq ictimai şüur səviyyəsində öz əksini taparaq qeyri-aşkar müstəviyə keçmişdir. Azərbaycan da Avropalaşma prosesində bu yolu keçməlidir. Fəlsəfə yalnız o zaman öz başlıca məqsədinə və metoduna sadiq qalmış olur ki, o yaradıcı xarakter daşısın, zamanla ayaqlaşsın və onu qabaqlaya bilsin.

Azərbaycan fəlsəfəsinin və bütövlükdə mədəniyyətinin inkişafı ölkənin siyasi vəziyyətilə sıx bağlı idi. Ölkə ərazisində dəfələrlə müstəqil və nisbətən müstəqil dövlətlərin yaranması sosio-mədəni inkişaf üçün müəyyən stabilliyi

əlaqədardır. İslam dini başqa dinlərdən fərqli olaraq, eyni zamanda bir şəriət kimi çıxış edərək insanlara da ictimai münasibətlərdə də bələdçilik edir. İnsani mahiyyətlə dini duyğunun bağlılığı olduğuna görə onların kökləri çox qədimlərə malikdir. C.Əfqaninin fikrincə,"İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır" (**4,s.33**). Əlbəttə, fəlsəfi düşüncənin formalaşmasında dini hiss böyük rol oynayır. İndiki dövrdə bəşəriyyətin əldə etdiyi ictimai təcrübə və yüksəldiyi intellektual səviyyədən elm, fəlsəfə, din, əxlaq və bu kimi intellektual-mənəvi dəyərlər sisteminə baxılmasına və insan həyatında onların rolunun dəyərləndirilməsinə həmişə ehtiyac duyulur.

Daha sonra S.Xəlilov həmin məqalədə, yəni, "Fəlsəfə tərbiyə və özünütərbiyə vasitəsi kimi" məqaləsində yazmışdır: "Dini hiss—insanın Allah qarşısında məsuliyyət hissi mərhələ-mərhələ; ailə qarşısında, millət qarşısında, bəşəriyyət qarşısında məsuliyyət hisslərinin davamı kimi ortaya çıxdıqda bu daha sadəcə hiss yox, dərk olunmuş, zəka ilə qovuşmuş bir hissdir " (**2, s.100**). Müəllif bir daha qeyd edir: "Dini hissdən kənarda din yoxdur. Dinin sosial infrastrukturu hələ din deyil. Din—mənəviyyat hadisəsidir. Dinin mahiyyəti dini hisslə - Allaha inamla bağlıdır. Mütləqə inam yolu nisbi inamlardan keçir. Məhdud miqyaslı, cılız hissiyatlı, ümumiyyətlə, inam hissindən məhrum olan adamda Allaha inam da ola bilməz. Mütləqə sevgi yolu nisbi sevgilərdən keçir. Sevgi hissindən məhrum olan adam dindar ola bilməz. Nisbi müqəddəslik duyğuları olmadan mütləq müqəddəslik duyula bilməz.

İnsanın öz həyatında, fərdi mənəviyyatında müqəddəs heç bir şey yoxdursa, ali, ülvi, toxunulmaz heç bir şey yoxdursa—dini müqəddəslik duyğusu da olmayacaq.

...Din insandan Allaha doğru aparan yolu işıqlandırmalı, bu yolun istiqamətini göstərən mayak olmalıdır. Nə zaman ki, din bu missiyanı unudub başqa iddialara düşür—o daha artıq din olmur (**2, c.101**).

...Ancaq fərdi mənəvi aləmi işıqlandıran və ancaq mənəviyyat prizmasından baxdıqda üzə çıxa bilən həqiqi din, mərkəzində müqəddəslik duyğusu dayanan dini mahiyyət ictimai həyatda konkret hadisələrlə təzahür edir və təəssüf ki, çox vaxt bu hadisələr, təzahürlər dini mahiyyəti əvəz etmək, onun yerini tutmaq iddiasına düşür (**2,c.102**).

Bir çox mütəfəkkirimiz - M.F.Axundov, Mirzə Cəlil, Hüseyn Cavid, Cəfər Cabbarlı və b. öz əsərlərində din pərdəsi altında gizlənənlərə qarşı mübarizə aparırdılar. Təriqətlər arasında fərq bir qayda olaraq, dinlər hadisə, mərasim müstəvisində özünü biruzə verir. Müqəddəslik duyğusu isə dinin mahiyyətilə bağlıdır, əslində bu duyğu olmadıqda dini ehkamlar, dini ayinlər, dini mərasimlər əsl dini əvəz edir və din əvəzinə dini pərdəyə bürünmələr yaranır ki, onlar da mahiyyətcə dinsizlikdən heç də fərqlənmirlər. Yuxarıda qeyd etdiyimiz kimi, Ö.Xəyyam, H.Cavid və C.Cabbarlı da öz əsərlərində "din pərdəsi"nə, "din qalxanı"na qarşı mübarizə aparıblar (**5, s.361**).

Ş.Xəlilovun qeyd etdiyi kimi, "Din özü böyük tərbiyəvi gücə malik olduğu üçün, bu hissin hər hansı bir formada zəiflədilməsi, ümumiyyətlə, tərbiyə işinə

də ziyan vura bilər. Bu baxımdan, məqsəd dini dünyagörüşü ilə fəlsəfi dünyagörüş arasındakı zahiri ziddiyyəti aradan qaldırmaq və gənclərin mənəvi aləminin bütövlüyünü təmin etmək olmalıdır. İslam aləmində fəlsəfi təlimlər bir qayda olaraq məhz mənəviyyatla bağlıdır... (**2, s.108**).

"Şərqdə insanın dünyaya münasibəti əsasən aksioloji xarakter daşıyır, fərdi mənəviyyat prizmasından kənar hadisəyə ancaq qiymət verilir, ona yaxşı və ya pis münasibətlər bəslənir, sonra isə bu münasibətlər ya poetik yolla vəsf edilir (mədhiyyə və ya həcv yazılır), ya da daha sistemsiz və daha impulsiv yolla adi şüur səviyyəsində büruzə verilir"(**2, c.110**).

Hər bir millətin fəlsəfi fikri onun milli xarakterini və kimliyini əks etdirir. Milli fəlsəfə millətin ideyasını təşkil edir. Vaxtilə alman filosofu Fixte yazırdı ki, millət necədirsə onun fəlsəfəsi də elədir. Fixte almanları dünyanın "ən ali irqi" elan edirdi. Şübhə yoxdur ki, ən ali irq olan almanların fəlsəfəsi də ali olmalıdır. Amma nə qədər ali olsa da, bu sözlərdə müəyyən həqiqət də var. Almanlar dünya fəlsəfəsinə Hegel, Kant, Fixte, Şellinq və onlarca başqalarını bəxş etmişdir. Lakin bu filosoflar da hakim millətçilik və şovinizm xəstəliyindən xilas ola bilməmişlər. Onların əksəriyyəti Şərqə qarşı hakim Avropa mərkəzçilik mövqelərdən yanaşmış, Şərq xalqlarının özlərinə məxsus təfəkkür tərzinin ola biləcəyi fikrini inkar etmişlər. Hegel yazırdı: "Şərq xalqları azad ola bilməzlər, çünki onlar azadlığın nə demək olduğunu dərk etmək səviyyəsinə yüksəlməmişlər". Hegelə görə, "mütləq ideya Şərqdən Qərbə doğru getmiş və bütün yaxşılıqları da özü ilə birgə aparmışdır". Fixte "Alman millətinə nitqlər" adlı əsərində sosial şovinizm ideyalarını əsaslandırmağa çalışmışdır. Bu ideyalardan sonralar alman faşistləri istifadə etmiş və özlərinin irqçilik fəaliyyətlərini əsaslandırmaq və pərdələmək üçün istifadə etmişlər, yaxud Danimarka dilçisi Otto Jesperson "millət necədirsə dili də elədir" tezisi ilə çıxış etmişdir. O yazırdı: "Mədəni dünyada ingilis millətindən yüksəkdə dayanan bir millət və ingilis dilindən təkmil bir dil yoxdur".

Z.B.Göyalp isə "Türkçülüyün əsasları" kitabında fransız dramaturqu və jurnalisti Rostandan belə bir misal çəkir: "Bir-biri ilə qarşı-qarşıya duran iki düşmən ordusunu xatırlayaq. Onların hər biri üçün şübhəsiz ki, digərinin silah-sursatının, qoşununun sayının nədən ibarət olması zəruridir. Bundan da zəruri olanı qarşıdakı düşmənin nə düşündüyünü, nə fikirləşdiyini, daha doğrusu onun milli fəlsəfəsinin nədən ibarət olduğunu bilməkdir" (**7, s.33**).

Bu mənada Çanaqqalada ingilisləri yenən məhz türklərin milli fəlsəfəsi idi. Burada müəllif milli fəlsəfəni milli ideya, milli xarakter, milli ideologiya ilə eyniləşdirir və bizcə o burada tamamilə haqlıdır. Doğrudur, "Milli fəlsəfə" deyilən bu məfhum, fəlsəfə aləmində hələ də özünə tam vətəndaşlıq hüququnu qazandıra bilməyib. Fəlsəfə ümumbəşəri bir dəyər hesab olunur. Zənn edilir ki, o məhdud milli sərhədlərə sığmaz. Bununla belə bir millətin özünəməxsus milli düşüncə tərzi vardır ki, o da milli kimliyinin aynasıdır. Bunu da "milli fəlsəfə" adlandırırıq. Fəlsəfə sahəsində tez-tez terminlərlə rastlaşırıq: antik fəlsəfə, fransız fəlsəfəsi, hind fəlsəfəsi, maarifçilik fəlsəfəsi.

Orta əsrlərin fəlsəfi irsi, xüsusən XI-XIII əsrlərdə mövcud olmuş Azərbaycan intibahı milli fəlsəfəmizin çox mühüm sütunlarından birini təşkil edir. Nizami, Xaqani, Məhsəti, N.Tusi və onlarla digər mütəfəkkirlər ictimai-siyasi və mədəni həyatın mühüm sahələri haqqında böyük gələcəyi olan fikirlər irəli sürmüşlər. Bu fikirlər sonradan yaranmış yeni Azərbaycan intibahı üçün yaşıl işıq yandırmış, burada yeniləşmə və millətləşmə hərəkatının əsasını qoyaraq, XIX-XX əsrlər ictimai-siyasi fikri üçün zəngin material vermişdir.

Qədim və orta əsrlərdə köçərilik Şərqdə təkcə türklərə aid deyildi, yəni ərəblər, hindlilər, pakistanlı, əfqanıstanlı - onlar da köçərilik edirdilər və hələ indi də edirlər. Yəni ictimai-siyasi fikir tarixində köçəriliyi əxlaq, saflığın əsas amili hesab edən böyük mütəfəkkirlər vardı. Demək hələ o dövrdə İbn Xaldun köçəri xalqları təmiz, cəngavər, əxlaqlı insanlar kimi qiymətləndirmiş və köçərilər oturaq həyata keçəndə başqaları tərəfindən əsarət altına alındıqlarını yazmışdı.

Azərbaycan dilində yazmaq ənənəsi Həsənoğlu, Nəsimi, Qazi Bürhanəddin kimi mütəfəkkirlərin mövcudluğu, Füzuli kimi dahilərin yaranmasına və onların milli dil və mədəniyyətimizin daha da inkişaf etdirilməsinə gətirib çıxardı və tarixdə ilk dəfə olaraq Azərbaycan, türk dilində əsərlər yazıldı, həm də fars və ərəb dilləri ilə rəqabət etməyə başladı. Bu mütəfəkkirlər milli fəlsəfəmizin mühüm tərkib hissəsidir.

Qloballaşma dövrünün cəmiyyət və dövlətinin həyat fəaliyyətinin yeni gerçəkliklərinin dərk olunması, Azərbaycanın yeni fəlsəfi paradiqmaya əsaslanmaqla müasir zamanın hansı möhtəşəm təhdidlərini adekvat cavab tapmalı olduğunu nümayiş etdirir.

Qloballaşma prosesinin necə fəaliyyətdə olması, ayrı-ayrı xalqların mədəni inkişafının xarakterinə necə təsir göstərəcəyinin düşünülməsi buna ayrılan zaman qıtlığı şəraitində keçir. Ümumi qəbul edilmiş dünyagörüşü mövqeyi və dəyərlərinin yoxluğu şəraitində texnoloji sıçrayışın nəticələri haqlı əndişələr doğurur, belə ki, bu zaman mentallığın dəyişməsi texnoloji sferanın kəskin və informasiya partlayışı ilə ayaqlaşa bilmir. Qloballaşmanın daha təhlükəli törəməsi mədəni çoxobrazlığın azalmasıdır. Unifikasiya prosesləri, mədəniyyətlər arasında fərqlərin radikal şəkildə yuyulması labüddürmü? Bundan öncə dilin çoxluğunun ölməsi, xalqlar və mədəniyyətlər arasında vahid dilin formalaşması bu qədərmi zəruridir? Bəşəriyyət vahid mədəni standartlara gələcəkmi və bu zaman nələr itirilə bilər? Bu və heç də az kəskin olmayan digər problemlər, çoxları artıq bu problemi müstəqil həll etmək imkanlarından məhrum olan müxtəlif xalqların həyati vacib mədəni atributlarını qoruma yolları haqqında məsələni labüd olaraq ortaya çıxarır.

Qloballaşma tarixin dikəltdiyi və xalqları ayıran müxtəlif çeşidli sərhədləri sürətlə dağıdır, lakin eyni zamanda mədəniyyət və xalqların çoxluğunun tədricən itmə təhlükəsini artırır. Bu mürəkkəb problemlərin həlli, yalnız təkcə ayrı-ayrı şəxslərin deyil, həm də bütöv xalqların hüquq və azadlıqlarının ən ümumi, universal və mütləq xarakterini qəbul edən plüralizmin fəaliyyət göstərdiyi

gerçək demokratik cəmiyyətlərdə mümkündür. Dünya hələ ki, belə ideal vəziyyətdən çox uzaqdır.

Qloballaşma tərəfdarları və əleyhdarları arasında kəskin qarşıdurmanın artması, bütün xalqların qəbul edəcəyi və dünyanın ən müxtəlif regionlarının sakinlərinin mədəni təcrübəsini inteqrasiya edəcək ümumbəşəri dəyərlərin formalaşdırılmasına yeni yanaşmalar tələb edir. Əks halda bu təcrübənin bəşəriyyətin daha yaşarlı, "ekoloji təmiz" həyat mədəniyyəti tipini aşkarlamazdan və bu dəyərli ünsürləri ümumbəşəri mədəni irsə daxil etməzdən öncə biryolluq itmə təhlükəsi qaçılmaz olacaq (**8, s.28,29,30**).

Dinin Azərbaycanın dünyəvi dövlətçilik sistemində yeri və cəmiyyətdə rolu haqqında yeni, daha geniş müzakirələr lazımdır. İlk baxışda hər şey sadədir: din siyasətə deyil, mədəniyyətə inteqrasiya olunmalıdır, o mədəni ənənəni rəngarəng etməli, mənəvi amil və əxlaqi dəyərlər formasına çevrilməlidir. Təcrübədə isə biz yerli islam dəyərlərinin sosiomədəni inkişaf modelinə plastik, üzvi inteqrasiyası kimi fövqəladə mürəkkəb məsələ ilə üzləşirik. Deməli bizə müasir dövrün təhdidlərinə və inkişafın gerçəkliklərinə uyğun "islam protestantizmi" modeli lazımdır. Bu Azərbaycan üçün heç də təzə məsələ deyil, onunla hələ Mirzə Fətəli Axundov məşğul olub. Axundov (əsərləri şahidlik edir) ilk şüurlu və ardıcıl islam islahatçısı, nəzəri də olsa ilk islam "protestantı" olmuşdur. Onun "islam protestantizmi" tamamilə aşkar və bu gün hətta o qədər inqilabidir ki, onun üzərindən sükutla keçirlər: "İslam dini yalnız o halda möhkəm və uzunmüddətli ola bilər ki, ona etiqad edənlər elmin köməyilə dinin mahiyyətinə nüfuz etsinlər və bilsinlər ki, o nədir, ona hansı zərurət var və o

ballaşma nəzərdə tutulur; sonra, Azərbaycanın təcrübəsinə uyğun modernləşmə prosesləri çərçivəsində qalmaqla müasir dövrün sosiomədəni inkişaf modeli kimi mühüm paradiqmasını müzakirə etmək lazım gəlir. Məhz bu kontekstdə milli mədəni irs cəmiyyətin dayanıqlı konsolidasiyasına və ölkənin pozitiv inkişafına ya mane olur, ya da mədəniyyətin uğurlu təsir modeli olduqda ona yardım edir; sosiomədəni problemlərə müraciət onu göstərir ki, müasir şəraitdə mədəniyyətin ümumi qəbul edilmiş maddi və mədəni tərkib hissələrinə bölünməsi nəinki kifayət deyil, həm də mədəni ənənə və ictimai inkişafın qarşılıqlı əlaqə modellərinin nəzəri qaydalarının praktiki gerçəkləşdirilməsinə əngəl törədir; belə vəziyyət müzakirə edilən diskursa bu qüsuru qismən aradan qaldıran sosial mədəniyyət konseptini daxil etməyi israrla təklif edir. Azərbaycan cəmiyyətinin optimal inkişafı və onun, müəyyən mədəni daşıyıcısı olan fərdinin fəaliyyəti üçün hansı sosiomədəni modelə (M.Veberin "protestant etikası" yanaşmalarının islam mədəni gerçəkliklərinə uyğunlaşması kontekstində) üstünlük verilməsini məhz bu rakursda müəyyənləşdirmək olar (**8, s. 25-26**).

Biz Azərbaycanda dinamik və sabit inkişafa kömək edən məxsusi "etikanı" formalaşdırmalıyıq. Lakin bu zaman yeni mədəni özünü identikləşdirmə, Yaponiya və bir sıra Cənubi-Şərqi Asiya ölkələrində olduğu kimi, yəni modernləşmənin çoxsaylı risk və təhlükənin aradan qaldırılmasına yardımçı olan məxsusi ənənə Qərb siyasi dəyərlərinin mənimsənilməsinə kömək etməlidir. Qərb politoloji terminologiyasında bu proses belə göstərilir. "Müasir liberal dövlətin əsaslandırılmasına zəmin belə bir təsəvvür idi ki, hökumət siyasi dünyanın maraqlarına uyğun olaraq din və ənənəvi mədəniyyət tərəfindən hansısa əxlaqı tələbi dəstəkləməyəcək. Əsas dəyər tolerantlıq olmalıdır.Əxlaqi konsensusun yerini siyasi nizamı təmin edən aydın qanun və ictimai institutların tutması fərz edilir " (**10, s. 21,22**).

Fəlsəfənin bütün zamanlar üçün əsas məsələsi insan varlığının vəhdət və bütövlüyünyn isbatlanması olmuşdur. Bu gün belə isbatın prinsipial mümkünsüzlüyü sübut edilmişdir, ona görə də, idrak natamam və nisbi biliyi formalaşdırmağa məhkum olmuşdur. Belə ki, yeni idrak mexaniki determinizmi ardıcıl dəf edən dünyagörüşü sferasında dünyanın vahid mənzərəsinin əvəzinə zəruri seçim tələb edən bir sıra ehtimali ssenarilər təklif edir.

Nəhayət, qeyd etmək olar ki, millətin fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq, milləti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan, milli özünüdərk baryerini keçmiş olan tək-tək şəxsiyyətlərinfilosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarət olar.

Ədəbiyyat:

1.Abbasov Ə.F. Fəlsəfə millətləşmənin və müstəqil dövlətçiliyin zəruri əsaslarındandır//Müasir fəlsəfə və Azərbaycan:tarix,nəzəriyyə,tədris. Toplu. Bakı, Elm, 2011, s. 6-7.

2. Xəlilov S.S. İslam dünyasında milli fəlsəfi fikir və onun tədrisi

məsələləri.(Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Akademiyası.-AFSEA). "Fəlsəfə jurnalına əlavə". "İlay" MMC mətbəsi,B.2008.
3.Axundov M.F.Kritika. Bədii və fəlsəfi əsərləri. B. "Yazıçı".1987,s.333-334.
4.Əfqani C.Seçilmiş əsərləri.Tərtib edəni.-prof. Şamil Qurbanov. B.1993. s.33.
5. Hüseyn Cavid. Əsərləri 3 cilddə.3-cü cild,B,2003.s.361.
6 .Cəfər Cabbarlı. Seçilmiş əsərləri.s.292.
7. Ziya Göyalp. Türkçülüyün əsasları. B. Maarif. 1991.s.33.
8. Abasov Ə.S. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?// Müasir fəlsəfə və Azərbaycan: Tarix,Nəzəriyyə,Tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. B, "Elm", 2011, s.6-7 və 25-26.
9. Ахундов М.Ф. Избранные произведения. Azərnəşr.B.,1987, s.99.
10. Фукуяма Ф. Великий Разрыв. М: АСТ, 2003, с.21-22.

Qudsiyə Əliyeva

MİLLİ FƏLSƏFƏNİN FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Müasir elm anlayışı, konkret tədqiqat obyekti və empirik yanaşmalar ilə səciyyələnir. Ənənəvi fəlsəfə bu parametrlərə cavab vermir. Çünki metodoloji baxımdan bu mümkün deyildir. Lakin, fəlsəfə rasionallıq və məntiqi təfəkkür baxımından elm ilə kəsişir.

Əksər elmlər fəlsəfənin bazasında meydana çıxmışdır. Çünki fəlsəfə, Yeni Dövrə qədər elmin özünü təmsil etmişdir. Empirik metodologiyanın meydana çıxması, onun arxa plana keçməsinə səbəb olmuşdur. Halbuki, empirik tədqiqatlar sahəsi qədim və orta əsrlərdə elm kimi deyil, bir sənət sahəsi kimi tanınmışlar. Empirik təfəkkür məhdud olduğu üçün, onun qeyri-məhdud fəlsəfi təfəkkürə ehtiyacı vardır. Xüsusilə, bu gün, bu əlaqəyə daha çox ehtiyac vardır. Onu fəlsəfədən başqa heç bir bilik sahəsi təmin edə bilməz. Bu gün, fənlərarası əlaqə əsasında müasir elmi dünyagörüşü sisteminin yaradılması, yeni paradiqmaların formalaşdırılması fəlsəfənin funksiyalarına aiddir. Bu baxımdan, fəlsəfə elm haqqında elmdir. O, elmüstü elm kimi daha obyektiv və ümumbəşəridir.

Fəlsəfə, elm kimi sırf kumulyativ xarakterli deyildir. Çünki elm aksiomaların, fəlsəfə isə, əksər hallarda inkarların üzərində qurulur. Qərb fəlsəfəsinin nigilizmi üzərində qurulan Nitşe fəlsəfəsi bunu təsdiq edir. Çünki mütləq həqiqətə səy göstərən təfəkkür özünüinkar mərhələlərindən keçməlidir. Bu baxımdan, fəlsəfə, elmdən fərqli olaraq, saatın əks istiqamətinə yönəlir.

Fəlsəfənin idrak obyekti həqiqətdir. Fəlsəfənin həqiqəti, elmin həqiqətindən fərqlidir. Həqiqətə münasibətdə hər ikisi nisbidir. Lakin, elmdən fərqli olaraq fəlsəfinin obyekti nisbi həqiqət deyildir. Məhz bu müstəvidə fəlsəfə müx-

təlif dünyagörüşü sistemləri ilə kəsişir və bir dünyagörüşü sisteminə çevrilir. Fəlsəfənin obyekti mütləq həqiqət olduğu üçün, o, bu dünyagörüşü sistemləri arasında əlaqə yaradıb ümumi bir dünyagörüşü sistemi yaratmalıdır. Yəni, o, dünyagörüşləri üstündə bir dünyagörüşü, hikmətüstü bir hikmət olmalıdır. Bu baxımdan, o, daha subyektiv və millidir. Çünki subyektivlik və millilik, obyektivlik və ümumbəşərilikdən daha dərin məzmuna malikdir.

Milli olmaq nə deməkdir?

Millət (nation) anlayışı, orta əsr avropasında istifadə olunsa da, Yeni Dövrdə kapitalizmin formalaşması ilə fərqli bir mənaya gəlmişdir. Modern milli dövlətdə fərdin seçim və azadlığı, kollektiv dəyərlərin üstündədir. Milli dövlətin (national state) vətəndaşları kimliyindən asılı olmayaraq, vətəndaşı olduğu dövlətin kimliyini daşıyır və onun milli dəyərlərini mənimsəyirlər. Bu dəyərlərin başında milli dil gəlir. O, təhsil vasitəsilə cəmiyyətin bütün üzvlərinə yayılır.

Millilik - Yeni Dövrdə Avropada meydana çıxan millət, milli dövlət konsepsiyaları və vətəndaş kimliyi ilə bağlı olan bir anlayışdır. O, proqress, modernləşmə, demokratiya, bazar iqtisadiyyatı, sənayeləşmə, şəhərləşmə, azad mətbuat, fikir və söz azadlığı kimi anlayışlarla səciyyələndirilir. Milli dövlətlərdə, bütün vətəndaşlar etnik-dini kimliyindən asılı olmayaraq, bərabərhüquqlu şəkildə seçib seçilmək, öz ana dilində təhsil almaq hüququna malikdirlər. Bu baxımdan, millilikdən bəhs olunanda, Yeni Dövr nəzərdə tutulur.

Bundan əvvəlki dövrlər milli hesab oluna bilərmi?

Yeni Dövrə qədər avropa cəmiyyətlərində, həmçinin, dünyanın digər yerlərində sosial təbəqələşmə, kütləvi savadsızlıq, sadə xalq dilində təhsilin olmaması, hüquq bərabərsizliyi, fikir və söz azadlığının olmaması, elmi-texniki inkişafın olmaması cəmiyyətin bir bütün olmasına mane olmuşdur. Bunlar aradan qaldırılmadan bütün cəmiyyəti bir araya gətirən milli şüur formalaşa bilməzdi. Buna görə də, Yeni Dövrdən əvvəlki dövrlər milli hesab oluna bilməz.

Milli fəlsəfə nədir?

Elm ümumbəşəridir. Onu hər hansı bir xalqa aid etmək absurddur. Bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də dünyanın tanınmış elmi mərkəzlərində çalışan insanlar müxtəlif etnosların nümayəndələrindən təşkil olunublar. İntellektual resursların müəyyən bir mərkəzdə toplanması, elmin yüksək səviyyədə təşkili və onların müəyyən strateji bir istiqamətdə yönləndirilməsi elmin inkişafını təmin edir. Təbii ki, bu ilk növbədə, təhsilin və iqtisadiyyatın inkişafından asılıdır.

Fəlsəfədə bu mümkündürmü?

Fəlsəfədə rasionallıq baxımından elm ilə kəsişdiyi üçün, müəyyən parametrlər üst-üstə düşür. Fəlsəfənin inkişafı üçün, filosofların mütəmadi şəkildə bir araya gəlmələri, disputların olması, azadfikirliliyin tam təmin olunması zəruridir. Çünki bu təməl üzərində meydana çıxan orijinal fəlsəfi ideyalar və onlar üzərində formalaşan özünəməxsus fəlsəfi məktəblər milli xarakter daşıyacaqdır. Ən azı ona görə ki, onlar müəyyən bir sosial-mədəni mühitin məhsuludurlar.

Ortaya çıxan məhsul hansı dildə və hansı mühitdə yetişirsə, onu təmsil edir. Məsələn, muğam musiqisi əksər müsəlman ölkələrində bu və ya digər şəkildə mövcuddur. Onlar arasında Azərbaycan muğamının özünəməxsus yeri vardır. Milli muğam məktəblərindən kənarda mövcud olan obyektiv muğam yoxdur. Eynilə, milli və dini fəlsəfələrin fövqündə obyektiv bir fəlsəfə mövcud deyildir. Biz, alman, fransız, ingilis fəlsəfəsinə diqqət yetirəndə də bunu görürük. Filosoflar müəyyən fəlsəfi məktəblərin təsiri altında yetişir və onun üzərində fəlsəfə yaradırlar. Fəlsəfi dil formalaşdıqca, fəlsəfə də inkişaf edir. O olmadan, fəlsəfi təfəkkür də formalaşa bilməz.

Fəlsəfə də, rasionallıq baxımından elm ilə kəsişdiyi üçün, müəyyən parametrlər üst-üstə düşür. Fəlsəfənin inkişafı üçün, filosofların mütəmadi şəkildə bir araya gəlmələri, disputların olması, azadfikirliliyin tam təmin olunması zəruridir. Çünki bu təməl üzərində meydana çıxan orijinal fəlsəfi ideyalar və onlar üzərində formalaşan özünəməxsus fəlsəfi məktəblər istər-istəməz milli xarakter daşıyır. Ən azı ona görə ki, onlar, müəyyən bir sosial-mədəni mühitdə və konkret bir dildə ortaya çıxırlar. Fəlsəfi dil formalaşdıqca, fəlsəfi mühit də inkişaf edir və yaxud əksinə. Çünki onlar bir-birini tamamlayırlar.

"Milli fəlsəfə" anlayışında "milli", "fəlsəfə" anlayışının əlamətini ifadə edir. Lakin, fəlsəfənin belə bir əlamətə malik olmasını birmənalı şəkildə təsdiq etmək mümkün deyildir. Çünki bu, fəlsəfə üçün yeni bir əlamətdir. Onun olub-olmamasını müəyyənləşdirmək üçün, fəlsəfənin nə olduğunu, onun necə meydana çıxdığını və hansı istiqamətdə inkişaf etdiyini yenidən dəyərləndirmək lazımdır. Çünki bu günədək fəlsəfəyə bu kontekstdə baxış olmamışdır. Ancaq, bu o demək deyildir ki, biz, indiyədək deyilənləri doğma kimi qəbul etməliyik. Bəzi hallarda paradoksların sübut olunması elmə böyük töhfələr gətirir. "Milli fəlsəfə" anlayışının dəyərləndirilməsi, fəlsəfəyə metodoloji baxımdan yeni bir baxışın formalaşmasına təkan verə bilər.

Fəlsəfə milli ola bilərmi?

Bu günədək fəlsəfə adı altında tanınan təlimin yarandığı və inkişaf etdiyi yer qədim Yunanıstandır.

Bu gün fəlsəfədə qəbul olunan yunan, çin, hind, klassik alman fəlsəfəsi anlayışları mövcuddur. Bu fəlsəfələri birləşdirən və bir-birindən fərqləndirən cəhətlər vardır. Birləşdirən ümumi fəlsəfi yanaşmadırsa, fərqləndirən özünəməxsusluqlardır. Biz, bunu milli fəlsəfə adlandıra bilərik.

Milli fəlsəfənin formalaşmasında və inkişafında dövlətin öz rolu vardır. Qədim Şərq fəlsəfəsinin mərkəzləri olan Çin, Misir, Babil qədim güclü dövlətlər olmuşlar. Bu dövlətlərin özünəməxsus siyasəti və ideologiyası, özünəməxsus şüurun formalaşmasına təsir göstərmişdir. Məhz, bu şüur üzərində özünəməxsus fəlsəfə məktəbləri yaranmışdır. Qədim Konfutsi, Dao, Budda təlimlərinin meydana çıxmasında bu amillərin öz rolu olmuşdur (**1, s.44**).

Azərbaycan böyük türk və müsəlman dünyasının tərkib hissəsi olduğu üçün, onun fəlsəfəsi də Müsəlman Şərq fəlsəfəsinin ayrılmaz bir hissəsidir. Azərbaycanda milli dövlət quruculuğu, XX əsrin əvvələrindən başlayır. Sovet

dövründə azərbaycan dilində milli fəlsəfə yaranmışdır. Elmlər Akademiyasının Fəlsəfə İnstitutu, son 40-50 ci illərdə Azərbaycanda milli fəlsəfənin inkişafında mühüm rol oynamışdır. XX əsrin əvvəllərində qoyulan türkçülük-islam-müasirlik və bu gün onun davamı kimi meydana çıxan azərbaycançılıq ideyası milli fəlsəfənin əsas mahiyyətini təşkil edir. Bu gün Azərbaycanda aparılan multikulturalizm siyasətinin təməli, azərbaycan milli fəlsəfəsinin əsasında dayanır. Bunun əsas tərkib hissələrini ailə, ümumbəşərilik və tolerantlıq təşkil edir.

Bu gün orta və ali təhsil sistemi filosof yetişdirə bilirmi? Bunun üçün necə təhsil olmalıdır? Milli fəlsəfənin inkişafı üçün nə edilir?

Milli fəlsəfənin inkişafı zəruridir. Bunun üçün, azərbaycan dilində fəlsəfi terminlərin dəqiqləşdirilməsi istiqamətində bir çox işlər görülübdür. Azərbaycan fəlsəfəsi irsi, fəlsəfə tarixi kontekstində ciddi araşdırılır. Bunlar, milli fəlsəfi ənənəmizin bərpa olunmasına və nəsillərarası əlaqənin yaradılmasına şərait yaradır. Bizim əsas problemlərimizdən biri varislik prinsipinin pozulmasıdır. Biz, bu gün, sovet dövründə əldə etdiyimiz nailiyyətlərimizi qoruyub saxlaya bilmirik. XX əsrin 30-cu illərində də öz minillik irsimizdən qırılmışdıq. Əlifbanın bir neçə dəfə dəyişməsi, bu irsin davam etdirilməsinə ciddi zərbə vurmuşdur. Lakin, digər tərəfdən, rus dili və mədəniyyəti vasitəsilə, Azərbaycan, avropa fəlsəfəsinə yol açmışdır (**3, s.55**). F. Axundovun şəxsiyyəti milli fəlsəfə sahəsində önə çıxır. F. Axundovun şəxsiyyəti ziddiyyətli, müəmmalı olduğu qədər də, olduqca cəlbedici və maraqlıdır. Onu, birmənalı şəkildə dəyərləndirmək çətindir.

Təhsildə fəlsəfəyə maraq çox azdır. Fəlsəfə seçim fənni kimi universitetlərdə az və aşağı kurslarda tədris olunur. Tələbələrdə fəlsəfəyə maraq yarada bilən pedaqoqların sayı çox azdır. Əksər pedaqoqlar, auditoriyalarda öz mühazirələri və şəxsiyyətləri ilə fəlsəfəni cansıxıcı və lazımsız bir təlim kimi tanıdırlar. Ümumən götürsək, gənc əhali arasında fəlsəfəyə münasibət müsbət deyildir. Belə bir cəmiyyətdən filosoflar çıxarmaq çətindir. Milli fəlsəfənin yaradılması və inkişafı probleminin kökünü burada axtarmaq lazımdır. Buna görə də, təhsildə fəlsəfə məsələsi barədə ciddi düşünmək və müəyyən tədbirlər görmək vacibdir.

Biz, Avropada olduğu kimi İntibah yolunu seçməliyik. Yəni, F. Axundova qədər olan fəlsəfi irsimizi müasir tələblər səviyyəsində dirçəltməliyik. Ümumiyyətlə, mədəni inkişaf tariximizdə olan qırılma nöqtələrini birləşdirməli və ümumi varislik prinsiplərimizi bərpa etməliyik. Bu əlaqələr bərpa olunduqdan sonra, milli fəlsəfə fenomeni ortaya çıxacaqdır. Çünki heç bir xalqın mədəni inkişaf tarixi digərininkini təkrarlaya bilməz. Fəlsəfi irsdə özünəməxsusluq, milli fəlsəfənin təməlində dayanır. Buna görə, müasir fəlsəfəmizi yaradanda daha çox öz fəlsəfi irsimizə istinad etməliyik. O zaman, fəlsəfə ilə cəmiyyət arasında olan anlaşılmazlıq tədricən ortadan qalxacaq və fəlsəfi refleksiya artacaqdır.

Fəlsəfə "əsrin ruhudur" deyimi vardır. Əgər elədirsə, onda niyə Aristotelin formal məntiqi, Platonun bir çox ideyaları bu günədək aktualdır. Yaxud, İbn

Xəldunun cəmiyyət və dövlət barədə ortaya qoyduğu "ümman konsepsiyası" nədən bu qədər maraq doğurur?

Belə çıxır ki, cəmiyyətdəki inkişaf elmi-texniki xarakter daşıyır. İnsanlar mənəvi-psixoloji baxımdan az dəyişikliyə məruz qalırlar. Buna görə də, Aristotelin, Platonun, İbn Xəldunun bir çox ideyaları bu günədək öz aktuallığını qoruyur.

Nəsimi və ya Nizaminin fəlsəfəsini milli və müasir hesab etmək olarmı? Onlar bizimlə eyni ərazidə yaşadıqları üçünmü millidirlər? Nizami Gəncəvi İran ərazisində yaşasaydı, biz onu özümüzün mütəfəkkiri hesab edə bilərdikmi?

Nizami Gəncəvini və Nəsimini milli kimliklə bağlayan sosial-mədəni ənənələrdən gələn milli ruhdur. O, onların əsərlərində əks olunmuş və bizimlə ünsiyyətə girmişdir. Lakin, milli ruhun nə olduğu, fəlsəfənin tədqiqat obyektidir. Milli ruhun özünəməxsusluğunu hiss edən və dərk etməyə çalışan təfəkkür, milli fəlsəfəni yaradan təfəkkürdür. Kollektiv psixika kültürün obyektləşmiş nəticəsi, dünya duyumudur. Onu yaradan etnos və millətdir.

Milli ruh, özünü dildə ifadə edir. Dil şüuru strukturlaşdırır. Fəlsəfə bu şüurun fövqündə refleksiya etmir. Deməli, dil ilə milli fəlsəfə arasındakı əlaqə milli ruh ilə təmin olunur. Fəlsəfi dilin formalaşması, milli fəlsəfənin başlanğıcıdır. Nizaminin əsərlərinin dili fars dili olsa da, milli ruhu fars deyildir. Bu baxımdan, onun fəlsəfəsi və milli ruhu, milli fəlsəfənin yaranmasında iştirak etmişdir. Bunu, orta əsrlərdə yazıb yaradan əksər mütəfəkkirlərimizə aid etmək olar.

Milli rəmzlərimiz milli düşüncənin atributlarıdır: səkkizgüşəli ulduz, bayraq rəngləri, aypara, novruz, dövlət və milli bayramlar, adət-ənənələr. Bunlar xalçaçılıq (buta) sənətində, geyimlərdə, rəqsdə, mətbəxdə, musiqidə və memarlıqda əks olunur. Bu simvol və miflər etnosun ümumi kültürəl xarakterini ifadə edir. Milli elementlər maddi və mənəvi kültürdə aşkar olur. Mənəvi kültür şifahi və yazılı şəkildə ifadə olunur və kültür yoluyla, varisliklə ötürülür. A.E. Smit bunu etnosimvolizm adlandırır. Sonra bunlar fəlsəfədə rasionallaşaraq milli fəlsəfənin tərkib elementlərinə çevrilirlər.

Fəlsəfənin elit bir məşğuliyyət olduğunu da söyləyirlər. Təbii ki, bu orta əsrlər üçün xarakterik sayıla bilərdi. Çünki yaxşı təhsil almadan fəlsəfə ilə məşğul olmaq çətindir. Orta əsrlərdə zadəgan ailələrdən olan insanlar yaxşı təhsil alır və onlardan bəziləri də fəlsəfi refleksiyaya malik olurdular. Lakin, Müsəlman Şərqində X-XII əsrlərdə mütəfəkirlər arasında yoxsul ailələrdən olan insanlar da olmuşdur. Bu onu göstərir ki, Müsəlman Şərqinin həmin dövrlərdə inkişafının əsas səbəblərindən biri də, hamının təhsil almaq imkanlarının olması idi. Səlcukilər dövründə Nizamiyyə mədrəsələrinin geniş yayılması və böyük elmi mərkəzlərin ortaya çıxması, sivilizasyon və milli özünüdərkin əsasında dayanmışdır.

Fəlsəfə milli müstəvidə yaranaraq ümumbəşəri müstəviyə keçir. Çünki onu yaradan öz ana dili ilə millidir. Onun fəlsəfəsində əks olunan milli ruh sözün mənasının dərinliklərinə vardıqca ucalır və genişlənir. O, ucalmaqla və genişlənməklə fəlsəfi dili və milli ruhu da ucaldıb genişləndirir. Buna kosmopolitizm

deyil, ümumbəşərilik demək olar. Çünki o, öz kökündən ayrılmadan universallaşır və hamı tərəfindən sevilir. Biz Şekspiri, Tolstoyu, Nəsimini, Nizamini bu səbəbdən sevir və oxuyuruq. Ancaq, onlar, eyni zamanda, öz xalqlarının milli fəlsəfəsini, milli ruhunu ifadə edirlər.

Azərbaycan fəlsəfəsində irfan və sufizm fəlsəfəsi önə çıxmışdır. Bu fəlsəfə milli ruhda özünə yer tapmışdır. Azərbaycanda milli muğam məktəbi və xalçaçılıq sənəti bu ruhun ifadəsidir. O, mif, epos, klassik ədəbiyyatın içindən keçərək bu günədək gəlmişdir. Fəlsəfənin onlardan fərqi odur ki, o, milli ruhun irrasional müstəvidən rasional səviyyəyə endirilməsinə şərait yaradır. Bunu etmədən milli fəlsəfədən danışmaq olmaz. İdeal fəlsəfənin yüksək səviyyəsinə ucalan panloqist F. Hegel, alman milli kimliyini aşa bilməmişdir (**2, s.77**). SSRİ dövründə marksizm ilə məhdudlaşan fəlsəfə, onun fövqünə çıxa bilmirdi.

Filosof sistemin içində yaşasa da, onun fövqünə çıxmağı maksimum bacarmalıdır. Çünki onun obyekti həqiqətdir. Həqiqət isə, sistemin içində məhdudlaşa bilməz. Lakin, Həqiqət sistemin daxilində obyektiv şəkildə də təzahür oluna bilməz. Filosof isə, sistemi tam şəkildə tərk edə bilməz. Bu zaman, fəlsəfənin ən yüksək refleksiyası milli çərçivədə baş verən refleksiyadır. Bu refleksiya özünütəsdiq formasıdır. İnsanların iqtisadi maddi maraqları öndədirsə, milli fəlsəfə onlardan da öndədir. Çünki onlar gələcəyini və hara gedəcəklərini bilmək istəyirlər. İnsan bilmədiyi tərəfə gedəndə dağınıq olursa, bildiyi tərəfə gedəndə daha mütəşəkkil və inamlı olur. Bu inam onu dağılmaqdan və yox olmaqdan qoruyur və müqavimət etmək üçün stimul yaradır.

Ədəbiyyat:

1. История философии: Энциклопедия. - Мн.: Интерпрессервис; Книжный Дом. 2002.
2. Гегель Г.В.Ф. Энциклопедия философских наук: В 3 т. - М., 1974-1977.
3. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994.

Mahrux Abbas

AZƏRBAYCAN FƏLSƏFƏSİNDƏ QADININ REPREZENTASIYASI

Metodologiya

Hazırda Azərbaycanda elmi, siyasi çevrələrdə “qadın” deyəndə, ağla gələn ilk söz “gender” olur. Gender tədqiqatlarının ölkədə inkişafı isə ilk növbədə beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlıdır. Qadının yeni kontekstdə öyrənilməsi də məhz bu anlayışla bağlıdır. Azərbaycanda qadın, cinslərarası münasibətlərin öyrənilməsi ötən əsrin 90-cı illərinin sonlarından etibarən qərb feminist nəzəriyyələrindən istifadə etməklə həyata keçirilməyə başlanır. Amma başqa reallıq, sosial-mədəni kontekst bunun nə dərəcədə düzgün olması məsələsini qabardır. Bu səbəbdən feminist diskursda konkret cəmiyyət və stratlarda

gender münasibətlərinin empirik təhlili ilə bağlı məzmun bloku ilə geniş anlamda tədqiqat metodologiyasını ayırmaq lazımdır. Konkret empirik tədqiqatların nəticələri, sözsüz ki, fərqlənəcək. Məsələn, cinslər ailədaxili etnik, dini, mədəni və başqa əlamətlərə görə fərqlənəcək. Mədəniyyətlə şərtlənmiş xüsusiyyətləri bir xalqdan başqası üzərinə köçürmənin doğru olmayacağı əvvəlcədən bəllidir. Metodologiyadan geniş planda, yəni epistemologiya, mövzunun seçilməsi və formalaşdırılması və tədqiqatın metodik təminatı sahəsində qərb nəzəriyyələrindən faydalanmaq olar.

Qərbdə və keçmiş Sovetlər Birliyində qadının öyrənilməsi

Gender münasibətlərinin öyrənilməsində bilik sosiologiyası yanaşmasından istifadə olunur. «Bilik sosiologiyasının əsas tezisinə görə, təfəkkür növləri mövcuddur ki, sosial kökləri üzə çıxarılmadan adekvat anlaşıla bilməz... Biliyin sosiologiyası təfəkkürü, onun tarixi və sosial situasiya ilə konkret bağlılığını başa düşməyə çalışır» **(1).**

Bu tezisi qadının öyrənilməsinə tətbiq etsək, tədqiqatın ontoloji, siyasi, qnoseoloji və koqnitiv faktorlarını ayırd etməli olarıq. Ontoloji faktorlara gündəlik praktika çərçivəsində cinslərarası və cinsdaxili münasıbətlərin gender kontraktları kimi razılaşması aiddir. Siyasi faktorlara gender münasibətlərini problem olaraq ələ alan qadın hərəkatı təcrübısini, qnoseoloji faktorlara isə gender mövzusunun təhlilində istifadə olunan dərketmə alətlərini aid edirik. Koqnitiv faktorlar qadın hərəkatında iştirak ilə bağlı gender münasibətlərinin refleksiyası və bilikləri nəzərdə tutur. Bu faktorların Qərb kontekstində işləməsi 1970-ci illərdın başlayaraq qadın və gender tədqiqatlarının institutlaşması formasında cərəyan edib. Tədqiqatlar ikinci dalğa qadın hərəkatının koqnitiv praktikası olaraq inkişaf edib. Makrososial nəzəriyyənin gender mövzusuna adaptasiyası əsasında 3 tədqiqat istiqaməti formalaşıb: 1). Liberal feminizm- cinsi rollar yanaşması, 2). Radikal feminizm- təkcə qadınların araşdırılması, 3). Konstruktivizm-gender tədqiqatları. Bu yanaşmalar bir-birilərini inkar və əvəz edərək bu günədək yanaşı mövcuddurlar.

Liberal feminizmin irəli sürdüyü cins-rol (sex-role theory) yanaşması pablik sferada kişi və qadınların bərabərliyi məsələsini ön plana çıxarır. Ontoloji planda qadın hərəkatının liberal qanadı Qərb cəmiyyətində dominant "evdar qadın" gender kontraktını diqqət mərkəzinə gətirdi. Qadına evdar qadın rolu verən gender kontraktı qadının belə bir vəziyyətini ön görür ki, onun iqtisadi müstəqilliyi, müstəqil mövcudluq mənbəyi yoxdu, o, ailədə ana və arvad rolu oynayır. Bu cür gender konvensiyası tək və uşaqsız qadınları istisna və deviant qrup durumuna salır. Bu yanaşmada orta sinfə aid ərli ağ qadının təcrübəsi başqa kateqoriya qadınların üzərinə köçürülmüş olur.

Bu gender ontologiyası müxtəlif cür yozulub. Ən populyar yozumlardan biri S. de Bovuarın "İkinci cins" kitabında irəli sürdüyü cinsi fərqlərin ekzistiensialist şərhidi və "qadın doğulmurlar, qadına çevrilirlər" şüarıyla ifadə olunur. Amma sosioloji nəzəriyyədə əsas mövqe struktur funksionalizmə aid idi. Bu istiqamətin klassiki T. Parsons ötən əsrin 40-50-ci illərində amerikan cəmiyyətin-

də evdar qadın statusunu ailə misalında cinsi rolların bölünməsi konsepsiyası şəklində ifadə etdi. Bu nəzəriyyəyə görə, qadın sosial sistemdə ekspressiv, kişi instrumental rol oynayır. Ekspressiv rol ailədə balansı saxlamaq üçündür. Bu, evdar qadındır. İnstrumental rol ailə və başqa sosial sistemlər arasında nizamlayıcı funksiyanı yerinə yetirən təminatçı roludu. Ötən əsrin 60-cı illərindən meydana çıxan ali təhsilli, tək qadınlar bu gender kontraktı ilə razılaşmır, siyasət və iqtisadiyyat sahəsində bərabərhüquqluluq tələb edirlər.

Liberal feminizmin epistemoloji bazası qadınlar haqda yeni, "obyektiv" biliyə yönəlmə oldu. Qadını "görünən" etmək onu idrakın həm subyekti, həm obyektinə çevirməkdir. Bu metodologiya "qadının əlavə edilməsi"- adding women adlanır. Qadını idrak subyekti olaraq əlavə etmək qadını elmi cəmiyyətin faktik iştirakçısına çevirməkdir. Obyekt kimi əlavə etmək qadın təcrübəsini öyrənməkdir. Liberal feminizm bu ikili strategiyanı həyata keçirmək üçün müxtəlif statuslu mövqelərdə kvota tətbiqi, eləcə də qadın tarixi, qadın ədəbiyyatı və qadın əməyini öyrənməyi təklif edir.

Liberal feministlərin təcrübəsi qadını sosial biliyin cisminə daxil etmənin bir neçə yolunu nümayiş etdirir. Birinci üsul "fiziki" hesab oluna bilər. Xüsusi imkan, güzəştlər tətbiq etməklə, məsələn, kvota sisteminin tətbiqi ilə müxtəlif sahələrdə qadın təmsilçilərin sayını artırmaq olar. Amma bu yanaşmayla epistemoloji situasiyanı dəyişmək olmur. "Əlavə olunan" qadınlar əsas sosioloji nəzəriyyənin, mövcud diskursun dilində danışmağa başlayırlar. Problemin bu nöqtəsinə deyinən S. Hardinq və D. Smit yazırlar: "Əlavə olunmuş qadınlar magistral metodologiyanın təsəvvürlərini mənimsəyərək abstrakt, ehtirassız-hissiz, kontekstdənkənar, bədənsiz-cismsiz düşünən Homo-nu idrak subyekti hesab edirlər. Onlar bu təsəvvürləri öz tədqiqatçı rolları olaraq mənimsəyərək öz şəxsi təcrübələrini istisna edirlər. Yeni bilik əldə olunsa da, kartezian idrak sistemində formalaşmış epistemoloji münasibətlərin əsasları olduğu kimi qalır"**(2, s.29-63)**

Qadınları əlavə etmə strategiyasının ikinci variantı bəzi ənənəvi tədqiqat sahələrinə cəmiyyətin inkişafında xidmətləri olan qadınların "qadınlar ədəbiyyatda", "qadınlar tarixdə", "qadınlar siyasətdə", "ictimai-rəy lideri qadınlar" rubrikaları adı altında qadın mövzuları formalaşdırmaqdır. Amma qadın mövzularını sosial tədqiqatlara daxil etmək sosial biliyin mövcud nizamını dəyişə bilməz. Qadının idrak obyekti kimi daxil edilməsi cəmiyyətdə bərkimiş gender praktikalarını qoruyub saxlayır. Öyrənilən qadınların ikincili statusları patriarxal nizam tərəfindən təkrar istehsal olunur.

Qadınları dominant diskursa daxil etmənin üçüncü yolu bəzi spesifik qadın təcrübələrinin öyrənilməsidir. Bunlar zorakılığa uğramış, ev-eşiyindən didərgin salınmış qadınların təcrübələri ola bilər.

Radikal feminizmin məhsulu sayılan *women studies* əmindir ki, cinslər arasındakı patriarxal münasibətləri hüquqi tədbirlərlə dağıtmaq mümkün deyil. Patriarxatın gerçək əsasları özəl, intim sferalardadır və onlar refleksiya sahəsinə gətirilmədikcə qadın istismar obyekti olaraq qalacaq. Seksuallıq və reproduktiv

funksiya kapitalist istehsal münasibətləri ilə yanaşı qadını istismarın əsasında durur.

Radikal feministlər elmə qadını "əlavə etməy"i yetərsiz yox, təhqiramiz sayır. Qnoseologiyada radikal feminizmin əsas tezisi *mövqe yanaşması- standpoint theory*-dir. Bu yanaşmanın məğzi ondadır ki, cinslərlə bağlı həqiqətləri yalnız birbaşa qadın təcrübəsi ilə bağlı adamlar, yəni hərəkat iştirakçısı olmuş şəxslər əldə edə bilər. Mövqe yanaşması ümumi mövqedə dayanmaq anlamındadır.

Mövqe yanaşması çərçivəsində iddia olunur ki, qadın "münasibətlər" kateqoriyası çərçivəsində düşünür, onun yanaşması hissidir, konkretdir. Feministlər qadın psixologiyası araşdırmaçısı Kerol Gilliqanın ardınca abstrakt maskulinliyi – abtract masculinity- münasibətlərə yönəli femininlik- relational feminity- yə qaqrşı qoyurlar. Qadınların tədqiqat predmetinə elə təcrübə və praktikalar gətirilir ki, onlar elmdə kişi maraq sahəsinə aid deyillər- əzablar, emosiyalar, seksuallıq. Sosial tədqiqatlarda özəl sfera və gündəlik təcrübə təhlil predmetinə çevrilir. Qadın təcrübəsi hiss edən və həssas praktikaya aid edilir. Maskulin rasionallaşdırma qadınların uşaqlarla təcrübəsini anlamaq iqtidrında deyil. Bununçun tədqiqat sferasına qayğı münasibətlərinin emosional təcrübəsini daxil etmək lazımdır. Mövqe yanaşması qadının müəyyən növ idrak subyekti kimi təyinini ön görür.

Sosial konstruktivist mövqe gender tədqiqatları- gender studies-də əksini tapır. Bu yanaşma genderi- cinsi əlamətə görə bərabərsizlik münasibətlərini sosial konstruksiya hesab edir. Bu yanaşma gender mədəniyyətinin kontekstual şərtlənməsini bu mədəniyyələ bağlı elmi və gündəlik biliklərlə əlaqələndirir. Bu yanaşma tədqiqatçının biliyin "sosial konstruktoru" roluna diqqət çəkərək hər bir halda cinslə bağlı biliyin subyektivliyinə, obyektiv olmamasına, yəni dəyişməz, həqiqi biliyin mümkünsüzlüyünə vurğu yapır. Inam simvolu qadınlıq və kişiliyin çoxcalığı və bunlar arasında münasibətdir. Qərbdə qadının öyrənilməsində tədqiqatlar irəlilədikcə yeni gerçəklər ortaya çıxdı. Bu, ilk növbədə bütün qadınlar üçün ortaq qadın təcrübəsi fikrindən imtinaydı. Bu təcrübə din, irq, milli, yaş, sosial zümrələrdən asılı olaraq dəyişə bilən hesab olundu. Yəni müxtəlif ölkələrdə gender kontraktları fərqlənə bilər. Hər ölkənin öz dominant maskulinlik və femininlik anlayışına uyğun gender kontraktı olur. Göründüyü kimi gender tədqiqatlarının qnoseologiyası konstruktivizm üzərində qərarlaşır. Yəni sosial quraşdırılmış dünyada "qadınınkı" iddia edildiyi kimi təbii və dəyişməz deyil.

Ötən əsrin 80-ci illərindən sosial-konstruktivist və poststrukturalist yanaşmanın inkişafı ilə gender tədqiqatlarının institutlaşması baş verir. Diqqət mərkəzinə gender bərabərsizliyini doğuran və təkrar istehsal edən mexanizmlər keçir.

Postmodernist feminist epistemologiya qadının öyrənilməsində alternativ epistemologiya sayıla bilər. Bu epistemologiya nəzəriyyədən asılı olmayaraq mövcud olan neytral "faktlar"ın mümkünlüyünü inkar edir. Əldə olunan bilik dərk edənin dəyər və maraqlarından qaynaqlanır. İstənilən bilik, o cümlədən,

sosioloji bilik hakimiyyətin mədəni formada istehsalı deməkdir. Bu səbəbdən obyektiv biliyə iddia hər bir halda əsassızdır. Məsələn, Cudit Batlerə görə, idrak subyekti eyni zamanda fəaliyyət subyektidir, "Subyekt hakimiyyətlə köklənib...və bu cür subyekt heç vaxt tam köklənmiş olmayacaq, amma onun təsirinə məruz qalacaq və bu münasibətlər təkrar-təkrar yenidən istehsal olunacaq"**(3, s.99).**

İdrakın strukturu olan diskurs təyin edir ki, hansı ideyalar ifadə oluna bilər, hansılar təkzib olunar və ya tabulaşdırılar. "Doğruluq, həqiqət rejimi"ni təhlil obyektini müəyyənləşdirməklə diskurs qərarlaşdırır. Yəni həmin düşünüləcək məsələlər, həm də idrak alətləri məcmusu diskursa tabedir. Burdan görünür ki, diskursun doğru olmağa izin verdiyi şey doğru ola bilər. Dərk olunan və dərk edən arasında münasibətlərin bu cür müzakirə məntiqi obyektiv bilik əldə etmənin epistemoloji əsaslarını dağıdır. Postmodernist epistemologiya bilik və hakimiyyətin ayrılmazlığının tanınmasından çıxış edir. Tək obyekti öyrənən subyekt yox, "öyrənən idrak" özü də quraşdırılıb. Bilik həqiqi hesab olunan kimi o, hakimiyyətin imperativinə və ya "istifadə qaydası"na çevrilir. Biliyin həqiqiliyini inkar feminist biliyin başqa bilikdən "yaxşı" və ya "doğru" olmasını da istisna etməkdir. Yəni feminist bilik sadəcə alternativ baxış verə bilər, şübhə altına ala bilər, sorğulaya, çağırış edə bilər. Gender nizamı kateqoriyalarını dekonstruksiya feminist tədqiqatın əsas məsələsinə çevrilir. Cudit Batler, Lüsi İraqare, Elen Siksu, Yuliya Kristeva kimi müəlliflər bu mövqedə dururlar. Digər tərəfdən, feminist müəlliflər yeni siyasi hərəkat üçün əsas axtarırlar. Çünki "Subyektin bu cür Fuko tənqidini gerçəklətmə subyektdən imtina və ya onun ölümünü iddia etmək deyil, subyektin müəyyən növlərini siyasi azğınlığın ifadəçiləri saymaqdır"**(4, s.99)**, deməkdir.

Keçmiş Sovetlər Birliyi və Azərbaycanda qadının öyrənilməsi

Qərbdən fərqli sosiomədəni kontekst ontoloji, siyasi, qnoseoloji və koqnitiv fərqlər deməkdir. Ontoloji planda keçmiş birliyin gender sistemi "həll olunmuş qadın məsələsi", "işləyən ana" kontraktlarına dayanırdı. Birliyə daxil respublikaların milli-mədəni özəllikləri də özünü büruzə verir. Məsələn, Rusiyaya münasibətdə işlənən "baş tutmayan maskulinlik"- failed masculinity Azərbaycana münasibətdə doğru deyil. Azərbaycanda patriarxal münasibətlər daha möhkəmdir, maskulinlik əvvəlki ağırlığını itirsə də, dominant mövqeyini qoruyub saxlayır.

Keçmiş Sovetlər Birliyində qadın məsələsi marksist nəzəriyyə əsasında qoyulub, həll edilməyə çalışılıb. Məsələnin qoyuluşu da, həlli yolları, mexanizmləri də dövlətə aiddi. Təbii ki, dövlətin qadın siyasətini reallaşdıranlarsa kişilərdi. Tədqiqatçılar keçmiş SSRI-də qadın siyasətinin həyata keçirilməsində 3 dövrü fərqləndirirlər.

1917-ci ildən başlayaraq 30-cu illərədək davam edən birinci dövr qadın emansipasiyası prosesinin başlanğıcı, formalaşması və inkişaf dövrüdür. Məhz bu dövrdə cinslərin bərabərliyi tək formal olaraq sənədlər, qanunlar sahəsində əksini tapmır. Qadınlar həyatda hüquq bərabərliyinin gerçəkləşdirmə imkanı

tapır. Seçici, təhsil hüququ verilir, analıq dəstəklənir. Qadın bölmələri, qadın şuraları, qadın qurultay və konfranslarının çağırılması ictimai şüurda gender bərabərliyi anlayışını yaratdı. 30-cu illərin əvvəllərindən qadınların kütləvi cəlb olunduqları hərəkat dağılsa da, emansipasiya prosesi ardıcıl olaraq davam etdi. Sovet cəmiyyət və dövlət həyatına qadının qatılımı genişləndi. Istehsalatda, partiya təşkilatlarında və idarəetmədə təmsil olunan qadınların sayı davamlı şəkildə artdı. Qadınların təhsil səviyyəsi və ictimai fəallığı yüksəldi, qadın-ana və qadın-işçinin sağlamlığını qoruma sistemi formalaşdı.

Sovet dövlətinin qadın siyasətinin ikinci dövrü XX əsrin 30-40-cı illərini əhatə edir. Ikinci dünya müharibəsi illərinə təsadüf edən bu dövr bütövlükdə ölkə təsərrüfatının dağılması vaxtı kimi xarakterizə edilə bilər. Cinslərin bərabərliyi məsələsi maksimal formallaşdırılaraq vəzifə və öhdəlik sahəsində reallaşdırıldı. Hətta qadın sağlığına zərərli deyə qadağan olunmuş əmək növlərinə qadınlar təzədən cəlb olundu.

Qadın siyasətinin üçüncü dövrü soyuq müharibə illərinə təsadüf edir. Qadın emansipasiyası ideyasının ən son həddə formallaşması bu mərhələyə aiddir. Təbliğat aparatı cinslərin tam bərabərliyinin qərarlaşmasını iddia etsə də, dövlət idarəetməsi və ictimai rəy bu iddianın uydurma olmasının fərqindəydi. Əslində bu dövrdə qadın məsələsinə istinad beynəlxalq ictimaiyyətə ideoloji təsir vasitəsinə çevrilir. Bu yolla inkişaf etməkdə olan ölkələr və sosialist düşərgəsi ölkələri sovet dövlətinin müsbət obrazının cazibəsinə gətirilir. Bu üçüncü dövr analıq və uşaqların dəstəklənməsi dövrü olaraq da tarixə düşüb.

Sovetlər Birliyində cinslərə, qadın məsələsinə yönəli həyata keçirilən tədbirlər, xüsusən, qadın siyasətinin birinci dövrü məsələnin dominant diskursa tabe tutulmasına ən yaxşı nümunədir. Yeni qurulmuş dövlətin ideoloji sistemi sosial-iqtisadi islahatları dəstəkləmək istiqamətində fəaliyyət göstərirdi. Dünyada ilk dəfə 1920-ci ildə Rusiyada abort qanunla leqallaşdırılır. Həmin il boşanmalar da qanunla leqallaşdırılır.

Yeni dövlətə idelloji baxımdan asan idarə olunan gənclər lazımdı. Bu məqsədlə nikahdankənar doğumlar təbliğ olunurdu. 1923-cü ildə SSRI-də doğulan uşaqların 50%-i nikahxarici olmuşdu. «Qadın uşaq dünyaya gətirən bir maşın kimi sənayeləşmə və kollektivləşmə prosesinə işçi resursunu təmin etməli, öz fiziki qüvvəsini ucuz işçi qüvvəsi kimi dövlətin iqtisadi həyatına sərf etməli idi. Yeni sistem «qadın azadlığı» ideyası altında qadını ailənin və kişinin istismarından xilas edib, dövlətin istismar alətinə çevirirdi**(5, s.531).**

Dövlətin cinsi, ailə siyasəti etnik, mədəni, dini özəllikləri nəzərə almadan yeni diskursun tələblərinə uyğun formalaşırdı. Xalq Komissarlarının 1Yanvar 1918-ci il qərarı ilə17-30 yaşarası bütün (5 uşaq anaları istisna olmaqla) zəhmətkrşlərin intim istifadəsinə verilirdi. 1920-ci ildə yaradılmış «azad sevgi» büroları müraciət edən kişiləri qadınla təmin edirdilər.

1925-ci ildə Moskvada səslənən «Həyaya son!», «Ailəyə son!», «Nikaha son!» şüarları yerlərə, Azərbaycana da gəlib çıxmışdı. Avtobusun üstündə uzanmış çılpaq qadın o illər seksual siyasətinin rəmzi olaraq bu gün də xatır-

lanmaqdadır. Bənzəri seksual inqilab dünyanın heç bir ölkəsində yaşanmamışdı. Stalinin hakimiyyətə gəlməsi ilə dövlətin qadın, ailə, uşaq siyasəti də dəyişir.

Qərbdə qadın emansipasiyası və keçmiş Sovetlər Birliyində qadın məsələsinin araşdırılması əsasında bəzi nəticələr çıxarmaq olar:

- Çar Rusiyası və onun mənəvi varisi eks Sovetlər Birliyində qoyulan «qadın məsələsi» daha kompleks xarakterlidir. Ölkənin sosial, siyasi, iqtisadi problemlərinin kompleks həllinə yönəlidir;
- Qərbdə meydana çıxan qadın emansipasiyası ideyası, onun birinci, ikinci dalğa feminist hərəkatda reallaşması daha dar, əsasən siyasi tələblərlə (ilk növbədə seçki hüququ) müşayiət olunan yanaşmadır;
- «Qadın məsələsi»nin ideya müəllifləri kişilərdir;
- Feminist hərəkatın ideoloqları qadınlardır (marksist, sosialist feministlər ümumi hərəkatın hissələri kimi istisnadırlar);
- Qadın məsələsinin qoyuluşu, adding siyasətinə uyğun kvota sisteminin tətbiqilə yaranan qadın fəallar, məsələn, parlamentdə qadın fraksiyalarının fəallığı formal xarakterlidir, onlar hakim ideologiya, siyasi kursun qeyd-şərtsiz təbliğçiləridirlər;
- Qərbdə «öz alın təri» ilə mövqe əldə edən qadınlar fəaliyyətlərində hərəkat, qrup maraqlarını şəxsi maraqlardan üstün tutmaq məcburiyyətindədirlər;
- Adding, kvota sisteminin tətbiqi ilə meydana çıxan qadın-liderlər qadın maraqlarına biganədirlər, öz aralarında qadın dayanışması nümayiş etdirə bilmirlər;
- Sovet emansipasiya siyasətinin paternalist yönümü aşkardır- bu siyasətin «yuxarı»-dan gerçəkləşməsi qadını sadəcə bu siyasətin obyektinə çevirdi. Qadın emansipasiya siyasətinin subyekti ola bilmədi;
- Sovetlər birliyinin qadınlara yönəli siyasətinin ikili xarakteri bir tərəfdən, qadınların bərabər imkan və bərabər hüquq əldə etməsinə yönəli sosial siyasət, diğər tərəfdən, bütün bu siyasətin epizodik xarakterində idi. Həyata keçirilən miqyaslı tədbirlərə rəğmən qadına ənənəvi münasibət dəyişməmiş qalmışdı. Retrospektiv yanaşmada sovet dövlətinin qadın siyasətini qiymətləndirsək, konstitusiya prinsipi, qanun bazasına rəğmən keçmiş SSRI-də faktik cinsi bərabərlik olmayıb. Bunun bir səbəbi də qanunvericilikdə əksini tapmış müddəaların ictimai rəylə dəstəklənməməsidir.

Bir daha metodologiya haqda

Yəqin ki, humanitar elmlərin təbiət, texniki, dəqiq elmlərdən əsas fərqlərindən biri də anlayışların, metodologiyanın qeyri-müəyyənliyidir. Fəlsəfəni birmənalı humanitar sahəyə aid etmək doğru olmasa da, bu sahədə işin metodoloji çətinlikləri əslində yaxşı məlumdur. Qadın refleksiyası, onun fəlsəfə tarixində araşdırılmasını çətinləşdirən başlıca məsələlərdən biri metodoloji, konseptual bazayla bağlı çətinliklərdir. Hərçənd patriarxal düşüncə qadının özünün düşüncə qabiliyyətini şübhə altına alır. Bəri başdan deyək ki, qadın düşüncəsinə münasi-

bətdə ən başlıca əks-arqumentlərdən biri qadının məntiqli düşünə bilməməsi iddiasıdır. Bütün fəlsəfə tarixini mizoginiya tarixi olaraq görən feministlər fəlsəfə klassiklərini müzakirə obyektinə çevirməklə bunun əksini sübut etməyə çalışmışlar. Xüsusən, müxtəlif elm, incəsənət sahələrinə münasibətdə "dahi qadın yoxdur" fikri feministlər arasında ən çox rezonans doğuran məsələlərdəndir. Feminist fikir bu məsələnin qoyuluşunda əslində 3 mərhələ adlamış sayıla bilər. İlkin etiraz qadın və kişilərin həyat şəraiti, konkret olaraq qadının cəmiyyətdəki sosial, siyasi statusunu nəzərə almaqla sadəcə özünüifadə imkanı olmaması yönündəki spekulyasiyalarla bağlıdır. Qadın cəmiyyətdə qul, kölə durumundaydı, onun təhsil, hər hansı qabiliyyətini inkişaf etdirəcək ixtisas təhsili almaq imkanı yox idi. Amma filosofların qadın düşüncəsi ünvanına səsləndirdikləri etimadsız fikirlər yanında azad (məhz ailə, məişət öhdəliklərindən azad qadın) qadın fenomeni də görünməkdədir. Yunan heteraları, yapon geyşaları, saraylarda xüsusi məqsədlə yetişdirilən qızların ədəbiyyat, sənət və hətta elm sahəsində sərbəst mühakimə yürüdüb kişi alim, sənətkarlar üçün ilham pərisi olmaları yaxşı məlumdur. Problemin qoyuluşuna yanaşmada ikinci mərhələ tarixdə iz qoymuş qadınların axtarışı ilə bağlıdır. Bu məsələ ədəbiyyat, elm, incəsənət sahəsində unudulmuş qadın-müəlliflərin axtarışı formasında ifadə olunub. Bu sahədə görülən işlərlə Qərbdə, eləcə də bəzi Şərq ölkələrində tarixin yadda saxlamadığı qadın-müəlliflər aşkar edilərək ümumi tarixə qazandırıldı. Amma bu məsələyə münasibətdə əsl dönüş nöqtəsi "dahilik" anlayışının özünün yenidən mənalandırılmasıyla bağlıdır.

Yeni rakurs

Günümüzdə "qadının refleksiyası" (hərçənd qadın məsələsinin qoyuluşu eks sovetlər məkanında bu ifadəni də qeyri-məqbul hesab edir) dedikdə, tarix səhnəsində qadın obrazının inkişaf dinamikası nəzərdə tutulur. Yəni mövzu qadın obrazlarının dəyişməsi, rol-modellərin bir-birini əvəzləməsi ətrafında hallanır. Müasirliyin alternativ nəzəriyyələri məsələnin araşdırılmasına öz yeni metodlarını təklif edirlər. Yuxarıda söylədiklərimizdən də göründüyü kimi feminist nəzəriyyədə məsələnin qoyuluşu dəyişir. Məsələn, Qrizelda Pollok məsələni araşdırma rakursunu dəyişməyi təklif edir. Bu yanaşmanın əsasında klassik "qadın obrazı" anlayışını "qadın ideoloji diskursda məzmun kimi" təsəvvürü ilə əvəzləmək durur. Yəni feminist kritika cinsi reprezentasiya məsələsini kontekstuallaşdırmaqdan söz açır **(6, s. 40)**.

"Qadın obrazı" anlayışından imtinanın əsasında tarixi diskursun nəzəri əsasında duran patriarxal interpretasiya modelinə etiraz dayanır. Bu modelin qadın obrazlarını pozitiv təsviri ehtimalı az olduğundan (müzakirələr gözəllik idealları, xeyirxahlıq, mənəvi təmizlik kimi ilk baxışda qadın obrazları ilə birbaşa əlaqəsi görünməyən məsələlər ətrafında aparılır) *reprezentasiya ideologiyası*ndan danışmaq daha doğru olar. Feminist kritika artıq tanış tekstlərin altenativ oxu imkanı məsələsini qabardır. Yəni qadın müəlliflər aramaq əvəzinə məlum mətnlərin yenidən oxunması əsasında mövcud ideologiyaya "qarşı çıxan" tamaşaçı və ya oxuyucu (resisting reader) imkanları üzə çıxarılır. Cinsi reprezenta-

siya məsələsinin kontekstuallaşması resepsiya və oxuyucu/tamaşaçı "cavabları"na əsaslanan nəzəriyyə əsasında mənalandırılır. Bu planda bir incəsənət əsəri, ədəbiyyat nümunəsi müxtəlif estetik ideologiyalar güzgüsündə öz tükədilməsi tarixi olaraq da interpretasiya oluna bilər. Estetik ideologiyalar da öz növbəsində sosial qrupların ideologiyaları ilə determinə olunur. Məlumdur ki. klassik mədəniyyətin bir çox teksti görünən "qapalılığ"a rəğmən semiotik planda müxtəlif resipiyent qruplarına ünvanlanmış olur. Feminist kritikanın ilk postulatı, burdan göründüyü kimi, mətnin çoxcalığı (çox sayda yozuma açıq olmasında) tarixdən tanış mətnləri təkrar oxu imkanını sanki legitimləşdirir. Tamlıq, əlaqəlilik, ardıcıllıq, kogerentlik və ziddiyyətsizlik ayrı-ayrı fraqmentləri birləşdirən baxışla təyin olunur. Mətni klassik oxu anlayışı üçün mətni unifikasiyaedən oxu anlayışı xarakterikdir. Hər şeyi, ayrı-ayrı elementləri ümumi bir əsasda izah cəhdidir. Bu əsas isə adətən dominant ideoloji sxem olur. İzahagəlməz detallar əhəmiyyətsiz, müəllifin səhvi hesab olunur.

Feminist kritika resepsiya və interpretasiyaya biganə qalmır, marağı reprezentasiyaya, təsvir olunandan onu qavrayışa, onu interpretasiya edən şüurda yaranan real həyatına, "varlıq dünyada"ya yönəldir. Feminist kritika kontekstində birinci dərəcəli məsələ hakimiyyət və onu görmə arasında münasibət olur. Yəni dominant ideologiyanın reprezentasiya siyasəti və interpretasiyanı necə təyin etməsi məsələsi araşdırılır: biz necə görürük, kim baxır, nəyə baxır, hakimiyyət münasibətləri baxımından bunun nəticələri nədir və s. Başqa sözlə, feminist kritika görmə və hakimiyyəti eyni düyündə birləşdirir, müxtəlif vizual praktikalar vasitəsilə tarixi və sosial münasibətlər aşkarlanır- perspektivdən tutmuş nəzarətə qədər.

Postfeministlərə görə, gender hər şeydən öncə reprezentasiya, performans effektidir, müxtəlif mədəni praktikalar- dil, ədəbiyyat, incəsənət, elm araçılığı ilə kişiyə, qadına aid olanın differensiasiyası prosesidir. Daha geniş fəlsəfi kontekstdə reprezentasiya reallığın mimetik təkrar istehsalı kimi öz əvvəlki əhəmiyyətini itirir. *Reprezentasiya deyəndə, ideyaların təkrar istehsalı üsulu, mədəniyyətin öz-özü haqda nə düşünməsi, yəni dünyanı müəyyən növ görmə üsulunun manifestasiyası başa düşülür*. Məhz reprezentasiya mədəniyyətdə dominant ideologiyanı, tabelilik formalarını legitimləşdirir və öz əsasına görə siyasi olur. Məsələn, «rəssamın çəkdiyi rəsm onun görmə hisslərinin qeydə alınması yox, özünəməxsus ekran kimi qiymətləndirilə bilər. Bu ekranda bədən hissələrdən toplanır, bizsə onu fantaziya matrisası kimi dəyərləndiririk. Bu, görülənin registrasiyası yox, vizuallaşmasıdır. Və nəyinsə yox, daha çox nə üçünsə vizuallaşmasıdır. Şəkil bütün referensiyaları, sitat, şüursuz investisiyaları, xatirələri ilə birgə mətnin məkanıdır»**(7, s. 330).**

Azərbaycan fəlsəfəsində qadının reprezentasiyası

Hər bir xalqın milli düşüncəsi, ilk öncə mədəniyyətin ilkin qaynaqları sayılan folklor nümunələrində əksini tapır. Mədəniyyətin əsasında duran ənənənələr sistemi uyğun xalqın özünə xas dünyasını yaradır. Y. Evolanın fikrincə, «ənənə məzmununa görə insan üçün yalnız inisiasiya yoluyla anlaşıla bilən fö-

vqəldünya səviyyəsindəki bilikləri özündə təcəssüm etdirir… Formanın deyil, məzmunun vacib olduğu belə ənənəvi dəyərlər ki, varlığın sakral əsaslarının heç kim tərəfindən şübhə altına alınmadığı bir zamanda yaradılmışdı» **(8, s.197).** Bu mənada cinsi simvolika, bizim situasiyada Azərbaycan qadını kimdir, amalı, məqsədi nədir, tarixdə nə kimi rol oynaya bilər (mədəniyyətdə qadın subyektivasiyası məsələsi) kimi məsələlərin ilkin qoyuluşu, kodları məhz miflərdə, dastanlarda, nağıllarda, atalar sözləri, bayatılarda (qadın düşüncəsi daha çox bu kiçikhəcmli, fraqmentar folklor nümunələrində əksini tapır) axtarılmalıdır.

Türk tarixinin ən xarakterik xüsusiyyəti bu tarixin sənədləşməməsində, yazılı mənbələrinin olmaması və ya çox az olmasındadır. Türklərlə bağlı məlumatlar qonşu xalqların yazılı mənbələrində aşkar olunur ki, onların da tərəfsiz olma ehtimalı azdır. Türk inanc sistemi də bu cür qarmaşalar içində itib-batır. Türklərin din adı olan tanrıçılığın (hərçənd türklər öz dinlərini adlandırmır, bu dinin peyğəmbəri, ibadətgahı yoxdur) dual dünyagörüşündən evolyusiyası iddia olunur, onda yunan, Roma panteonuna uyğun strukturlar, ilahlar, ilahələr aranır. Bununla belə son araşdırmalar bu dinin monoteist görüşlərə daha yaxın, panteon təşkil etməsi iddia olunan ilahların isə Göy Tanrı ətrafında cəmlənmiş hami ruhlar-əyələr olması qənaətinə gətirir **(** daha ətraflı bax**- 9).**

Etnik-mədəni birlikləri var edən, mövcudluqlarını təmin edən mifoloji strukturlardır. Ritual-mərasimləri şərtləndirən də bu strukturlardır. Zamanla, dövr dəyişdikcə mifoloji şüur arxa plana keçincə bu strukturlar yoxa çıxmış kimi görünsə də, onlar bədii ədəbiyyat və başqa sənət sahələrinə mifik ad, motiv, süjet olaraq səpələnib mədəniyyətin alt strukturları kimi yaşamaqda davam edirlər. Mifoloji struktur bütün sonrakı dəyişmə, transformasiyalara rəğmən invariant struktur olaraq qorununb saxlanır. Türk mifologiyasının arxaik strukturlu belə obrazlarından biri Ulu Ana, Ulu Ağ Ana, Ilahə Ana adlandırılan kompleks strukturdur. Bir neçə dəfə transformasiyaya uğrayan Ulu Anadan müstəqil funksiya daşıyan obrazlar meydana çıxmış, hər biri ayrılıqda fəaliyyət göstərməyə başlamışlar. Onlar bəzən Ulu Ananın bir neçə funksiyasını daşısalar da, ayrılıqda onu kompleks təmsil edə bilmirlər. Ulu Ana obrazı ambivalent təbiətli ritual-mifoloji varlıq kimi həm nizamlayıcı kosmik başlanğıc, həm də dağıdıcı xaos başlanğıcıdır. Ulu Anadan qopan eyni mifoloji struktur bəzən həm oğuluşaq verir, həm də ona mane olub əlindən ala bilir. Ulu Ana su stixiyası ilə bağlıdır və Yer üzündə nə varsa hamısına nəfəs, can verən odur. Hətta dağ və su əyələri hər şeyi bilən Yer ananın konkret təzahür şəkilləri hesab olunur. Ulu Ana metaforik yox, canlı varlıq olaraq güman ediləndir. Arxeoloji qazıntılar zamanı tapılan iri, sallaqdöşlü qadın heykəlləri onun artım, bolluq-bərəkət düşüncəsiylə bağlı olmasını təsdiq edir. Kişi şamanların mərasim icra edərkən qadın paltarı geyməsi, qadın papağı qoyması Ulu Ana obrazının təcəssümü olmalarından irəli gəlir. Ullu Ana haqda bu söylənənlər mədəniyyətin invariantlarını üzə çıxarmaqdan çox müasir azərilərin davranış məntiqini anlamaq istəyilə bağlıdır. Ulu Ana obrazı modifikasiyaya uğramış şəkli ilə mədəniyyətin sonrakı

qatlarında, əfsanələrdə, nağıllarda, dastanlarda, bayatılarda yenidən qarşımıza çıxır. Məsələn, nağıllardan birində pəri qızı yeni doğulmuş körpəsini çaya (suya) atır, məlum əfsanədə atası Saranı qurtarmaq üçün Arpaçaya tullayır (yeri gəlmişkən, su əyəsi hesab olunan Sarı qız da Ulu Ana obrazının törəməsi və ya modifikasiyalarından biridir). Türklərdə ana kultu məhz Ulu Ana strukturu ilə bağlıdır. Iddia olunduğu kimi patriarxal dünyagörüşü (oğul anası statusu) ilə yox. Məlumdur ki, Qərbi Avropa fikir ənənəsi yunan miflərinin yozumunu bir çox istiqamətdə universallaşdırır. Başqa xalqlarda, o cümlədən, bizdə də bənzər strukturlar, süjetlər arayışı müşahidə olunur. Eyni struktur, süjetlər tapılmayınca, bu, millətin mənəvi sərvətlərinin kasadlığı, zəifliyi ilə əlaqələndirilir və ya yanlış yozulur.

Dastanlarda adı keçən bir olay- buta alma. Demək olar, bütün dastanlarda ana xətt kimi keçən bu olay müasir məntiqi-rasional təfəkkür baxımdan izahı yox kimi görünür. Məlum «Füzuli eşqi» üstünlük dərəcəsi yox, alay mövzusuna çevrilib. Bizim ədəbiyyatımızda, sənətimizdə sevgi-məhəbbət mövzusu əndazəsini aşmış durumdadır.

Qadın Azərbaycan dastan, nağıl və başqa folklor nümunələrində, Orta əsrlər, Yeni Dövrdə sevgi obyekti kimi

Dünyagörüşünün ilkin qatında kosmoqonik miflər ağırlıqlı olduğu üçün burda sevgi mövzusu aydın formalamayıb. Qadın başlanğıc əsasən Ulu Ana mifik strukuru ilə bağlıdır ki, burda önə çıxan qadının törədici, təbiətlə assosiasiyalaşan hami, bərəkət, məhsuldarlıq əlamətidir.

Məhəbbət mövzusu dastanlarda önə çıxır. Buta alma süjeti, demək olar ki, bütün dastanlarda rastlanır. Buta alan kişi (oğlan yox?) və qız (qadın yox?) haqq aşığına dönüşür, qəfil çalıb-oxumağa başlayır, gizli mətləblərdən xəbər bilir. Bu olayın mahiyyəti, zənnimizcə, şüurun genişlənməsi təcrübəsi yaşanmasındadır. Buta almaq bir növ inisiasiya mərasimi yaşamaq kimi bir şeydir. Bütün xalqların taleyində bənzər təcrübələr müşahidə olunur. O cümlədən, Dədə Qorqud dastanlarında ad almaq üçün gənclərin göstərməsi gərəkən hünər buna misaldır. Maraqlı odur ki, buta mövzusu ad dəyişsə də Azərbaycan ədəbiyyatında, mədəniyyətində yaşamaqda davam edir. Azərbaycan tarixində böyük şairlər, dövlət adamlarının çoxunun başından belə bir sevgi macərası keçir və onun əsl məzmunu məhz şüurun genişlənməsi aktıyla bağlıdır.

Nağıllarda qadın yenə də sevginin obyekti durumundadır. Gözəl qənimət olaraq qəhrəmana verilir. Qarşılıqlı sevgi mövzu deyil, yəni qadın sevginin subyekti qismində çıxış etmir.

Orta əsrlər məhəbbət mövzusunun ən yüksək səviyyədə, Füzuli şeirlərində tərənnüm olunduğu dövrdür. Doğrudur, yenə təsvir olunan kişi hisləridir, qadın canalan afətdir. Meydana çıxan qadın-şairələr də (Məhsəti Gəncəvinin gözəl rübailəri bu dövrə aiddir) kişi forma və üsullarından faydalanır. Bununla belə qadın-şairələrin yaradıcılığını bu aspektdə də araşdırmaq lazımdır. Çünki qadın bu şeirlərdə subyekt qismində çıxış edir.

Yeni dövr deyəndə, ilk növbədə maarifçilər yada düşür. Azərbaycan maarif-

çilərinin yaradıcılığında, istər erkən, istər sonrakı, yetkin dövründə qadın azadlığı aparıcı mövzudur. Sevgi mövzusu realist ədəbiyyatın meydana çıxmasıyla arxa plana keçir. Qadın azadlığı mövzusunun bu qədər aktuallaşması isə məsələyə kompleks yanaşmayla bağlıdır. Yəni bu, qadının yox, cəmiyyətin məsələsidir və qadının cahillikdən qurtulması bütövlükdə cəmiyyətin qurtuluşu deməkdir. Bu dövr, xüsusən, XX əsrin əvvəllərində ədəbiyyatda meydana çıxan qadın surətləri rəngərəngdir (Cəfər Cabbarlının əsərlərini yada salaq) və cəmiyyətin inkişaf istiqaməti, dominant diskursun diktəsilə meydana çıxsa da, millifəlsəfi, mifoloji şüur elementləri müşahidə olunur **(**daha ətraflı bax **10)**.

Qadın islama görə

Qadın mövzusunun rasional planda araşdırılması deyəndə, ən qiymətli yazılardan biri, bəlkə birincisi Əhməd bəy Ağayevin 1901-ci ildə nəşr etdirdiyi "Qadın islama görə və islamda" məqaləsi hesab oluna bilər. Məqalədə müsəlman dünyasında qadın əgər belə demək mümükünsə, ən tərəfsiz, obyektiv formada təqdim olunur. Avropalı tədqiqatçıların müsəlman qadını, islam haqda stereotiplərə dayalı, tərəfli yanaşmasına qarşı Əhməd bəy tam başqa qadın tarixi ortaya qoyur. Bu məqaləni oxuyanadək nəzərimdə müsəlman Şərqində qadının tarixi fraqmentar, göydəndüşmə idi. Qatı patriarxal münasibətlərin hakim olduğu müsəlman dünyasında Məhsəti, Sara Xatun, Möminə Xatun, Natəvan kimi qadınların peyda olmasının məntiqi izahını tapmaq çətindi. Bu məqalə qadın mövzusu kimi, islamın da bir çox aspektinə işıq tutur. Əhməd bəy xəbər verir ki, qadın müsəlman Şərqində iddia olunduğu qədər hüquqsuz, cahil şəxs olmayıb. Islam da öz mahiyyətinə görə qadını buxov altda saxlayan, evdən çölə çıxıb sosiallaşmaya, təhsil almağa qoymayan qatı patriaxal sistem, struktur qoruyucusu deyil. Əhməd bəy, bir tərəfdən, o vaxtlar, lap indi də Qərbdə islamla, onun peyğəmbəri ilə bağlı stereotpləri dağıdır, Quranda qoyulan bəzi məsələlərə, məsələn, örtünmək məsələsinə aydınlıq gətirir. Islam tarixi boyu qadının vəziyyəti, ona münasibət məsələsini dövr-dövr, mərhələ-mərhələ nəzərdən keçirir. Göstərir ki, Məhəmməd peyğəmbərin dövründəki qadına, onun inkişafına xoş münasıbət ümmiyə və abbasilər dövründə davam edir. Amma müsəlman qadın obrazının zəif düşməsi bu sonuncuların hakimiyyəti dövründə başlanır. Bu, bir tərəfdən, Əhməd bəyin iddia etdiyi kimi ifrat zənginləşmə, eyş-işrətə uyma ilə, digər tərəfdən, öz ən yüksək inkişaf səviyyəsinə çatmış ərəb sivilizasiyasiyasının tənəzzülə başlaması, ona fars, suriyalı təsirinin artmasıyla bağlıydı. Müsəlman tarixi Ümmi Səlimə (birinci abbasi xəlifəsi İbn Səffanın qadını), Harun ər Rəşidin qadını Zübeydə və baçısı Abbasə, I Mötəzidin qadını Qətr-un Nada (sonuncu öz sarayında "Ədəbiyyat, elm və sənət həvəskarları cəmiyyəti " yaratmış və dəstəkləmişdi, şəxsən məhkəmə tribunalında çıxış etmişdi) kimi maarifçi hökmdar qadınlarıyla yanaşı mədrəsədə təhsil verən qadınalimlərə də- Fərxun-Nisa (ədəbiyyatçı), Ümməl–Xeyr Fatimə və Ümməl İbrahim əl-Yezdani kimi teoloq alimlərə də şahid olub. İslam türk mənşəli hökmdarların hakimiyyəti təhsilə, o cümlədən qadın təhsilinə loyal münasibəti ilə seçilib. "Qaniçən" Teymurləngin özü və oğulları hər yerdə məktəb, kitabxana

açıb. Qadına münasibətin kəskinləşməsi islamda məhz İran, Suriya təsiri ilə əlaqəlidir.

Əhməd bəyin məqaləsindən çıxan nəticə- qadının Şərqdə Qərbdən geri qalmasının səbəbi islamla, onun mahiyyəti ilə bağlı deyi, müsəlman Şərqində müəyyən səbəblərdən dinə verilən xüsusi mövqe ilə bağlıdır. "Müsəlman dini öz mahiyyətinə görə həyatsevər, proqressivdir. Onda fatalizm insan taleyi üstə asılı qarşısıalınmaz güc yox, artıq baş vermişlə post factum barışmaq yönümlüdür" **(11, s.108)**.

Yusif Vəzir Çəmənzəminlinin qadın mövzusunda Azərbaycanda və ondan kənarda çap etdirdiyi yazılar da qadın mövzusunda araşdırmaların ən çox müraciət etdiyi mənbələrdəndir.

"Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Ana və analıq" haqda məqalələr qadının ağır vəziyyətini açıb göstərməklə bərabər məsələyə fərqli rakurslarda yanaşmağa da imkan verir.

"Çadra ətrafında" adlı məqalədə müsəlman Şərqində qadının statusunu müəyyənləşdirmək üçün ta qədimdən türklərdə, farslarda və ərəblərdə qadına münasibəti araşdırır. Müəllif məqalədə "qadın" sözünü ifadə edən söz-anlayışların filoloji təhlilini verir ki, bizim mədəniyyətimizdə adlandırmadan (qadına aşağılayıcı münasibət) qadına münasibəti ifadə etmək istəyən müəlliflərin əsas istinad mənbələrindəndir **(12).**

Qadının türk, fars, ərəb cəmiyyətlərində vəziyyətini araşdıran ədib ilk öncə həyat şərtlərindən irəli gələn fərqlərə diqqət çəkir: türk qadınlar ailə təsərrüfatının idarəediciləridir. Kişilər daha çox savaş, ulusun müdafiəsində görəvli olduqlarından ev, təsərrüfat, uşaqlar, ticarət onların fəaliyyət sahəsidir. Qadınlar kişilərlə bərabər bir növ müasir parlamenti andıran siyasi yığıncaqlara qatıla, söz deyə bilər. Çəməmzəminli yunan, ərəb səyyahlarının verikləri məlumatlara dayanaraq ordu, dövlət başçıları arasında türk qadınlara təsadüf edilməsindən xəbər verir. Herodot, İbn Bətutənin həməzənlər (müasir deyimlə amazonlar) haqda verdikləri məlumatlar xüsusi maraq doğurur. Maraqlıdı ki, həməzənlər orta əsrlərdə də tarix səhnəsindən itmirlər. 15-ci əsr Avropa səyyahı Qlavixo Teymurləngin yanına səfər zamanı Çin hüdudlarında yaşayan həməzən-türklərdən xəbər verir. Çəmənzəminli türklərdə saray həyatının təhlili zamanı qadının dəyişik vəziyyətinə diqqət çəkir- türklərdə çoxarvadlılıq başlamış, saray çəkişmələri qadına münasibəti və qadınlararası münasibəti dəyişmişdir.

İranda günümüzdə qadına xüsusi münasibətin (bir tərəfdən qadın ən dəyərli, incə əşyadır, digər tərəfdən, heç bir hüququ yoxdur) köklərini açır, çadranın islamın ayrılmaz atributuna çevrilməsində farsların xidmətindən bəhs edir. Farslar çox məsələdə olduğu kimi qadının örtünməsində də ifrata varmışdılar və zamanla bu örtük qadının müsəlman cəmiyyətində vəziyyətinin simvoluna çevrilmişdir.

Ərəblərə gəlincə, Çəmənzəminlinin bir təsbiti maraqlıdı- ərəb qadını heç də iddia edildiyi kimi islama qədər haqsız-hüquqsuz, evdən bayıra çıxmayan övrət deyildi. Səhrada kişilərlə bərabər at çapıb savaşan, gərəkəndə sözünü deməyi

bacaran hüquq sahibiydi. İslam onu Həvvanın günahının varisinə çevirməklə evə qapayıb, söz haqqını əlindən aldı. Əlbəttə, Çəmənzəminli islamın qadına verdiyi imkanları (Quranda təsbit olunmuş boşanmaq imkanı, qadın vərəsəliyi-islama qədər qadın nə atasından, nə ərindən vərəsə haqqına malik deyildi, evlilik təsbit olunur, ərin qadın, uşaq qarşısında borcu qanuniləşdirilirdi) danmır, amma islamın birmənalı qadının vəziyyətini yaxşılaşdırmasını sual altına alır.

Çəmənzəminli müasiri olduğu XX əsrin əvvəllərində tək Azərbaycanda yox, bütün islam Şərqində qadının hüquqsuz, cahil vəziyyətini, bütövlükdə müsəlman dünyasının geridə qalmasının əsas səbəblərindən birini dinin cəmiyyət həyatında artan rolunda görür.

Çəmənzəminli və Əhməd bəy Ağayevin müsəlman Şərqində qadının vəziyyətini tarixi təhlilindən göründüyü kimi qadının hüquq və azadlıq imkanları yüksələn xətt üzrə inkişaf etməmiş, zaman-zaman dəyişmişdir.

Azərbaycanda sovet dövrü qadın məsələsinin qoyuluşu məqalənin əvvəlində təhlil olunur.

Müasir dövr Azərbaycanda qadın rol-modellərin çeşidlənməsi (feminist nəzəriyyələrdə cinsi identiklik məsələsinin klassik qoyuluşundan qeyri-klassik qoyuluşuna keçidə uyğun) Azərbaycanın qloballaşan dünyanın hissəsinə çevrilməsi fonunda baş verir. Beynəlxalq təşkilatların, xüsusi maliyyə-qrant təşkilatlarının fəaliyyəti ölkənin qadın, hətta uşaq, ailə siyasətinə yön verir. Azərbaycan qoşulduğu beynəlxalq konvensiya və qərarlara, eləcə də qəbul etdiyi qanunvericilik aktlarına görə ölkənin iç siyasətini müəyyənləşdirir.

Belə bir dövrdə artan feminist meyllərdən söz açılır **(**məsələn, bax**- 13)**

Feminist şüarlar istər bəzi qadın QHT-lər, siyasi partiyaların qadın qolu (sosdemlər), eləcə də ədəbiyyatda, gənclər arasında tez-tez səsləndirilir.

Ədəbiyyat bu meyl, şüarların əhatə çevrəsini təyin etmək üçün göstərici ola bilər. Elnaz Eyvazlı **(14),** Xuraman Hüseynzadə **(15)**, Sevinc Pərvanə **(16)**, Günel Mövlud **(17)**, Sevinc Çılğının **(18)** şeirləri sadəcə qadın hiss-duyğularını dilə gətirmir. Qadının yeni situasiyaya- kişinin hüquq və azadlıqlarla yanaşı onlara görə məsuliyyəti də qadına qaytardığı duruma cavab reaksiyasıdır. Qarşı cins nümayəndəsinin bu çağırışlara cavabı yeni mənəvi situasiyadakı qeyri-müəyyənliklə yanaşı, kişi olma üstünlüyünü qoruma xülyasından xəbər verir **(19)**.

Elnarə Akimova adı çəkilən dissertasiya işində **(13)** müasir Azərbaycan ədəbiyyatında yeni meyllərdən söz açarkən postmodernist meyllərə xüsusi deyinir. Bəzi əsaslandırmaların absurd olması, məntiqi səslənməməsinin altını çizir. Kamal Abdullanın «Unutmağa kimsə yox» əsərinin qəhrəmanı aspirant çiçəkli yazının şifrəsini çözməklə böyük tarixi həqiqətin üstünü açacağına əmindir. Oysa çiçəkli yazının bir məhəbbət məktubu olması üzə çıxır **(20).** Məsələ də bundadır. Bizim milli kimliyimiz tarixi sənədlərdə yox, bu məhəbbət məktubunda saxlıdır.

Azərbaycanda feminizm olubmu və ya mümkünmüdür sualının cavabını elə bu «feministlər»in yaradıcılğına azca nəzər salmaqla müəyyənləşdirmək olar.

Qərbdə feministlərin əsas tələbləri siyasi hakimiyyət tələb etmələri ilə bağlıdır. Hətta özəl həyat belə bu tələblərə tabe tutulur. «Şəxsi olan siyasidir». Bizdə qadının etirazı imkan, hüquq bərabərliyindən yana yox, kişinin əvvəlki kişi olmamasından, məsuliyyətsiz, evə, ailəyə başçı funksiyasını itirməsindən dolayıdır. Feminizmin Qərbdə inkişaf tarixini izləmək belə bir gerçəyi ortaya qoyur-feminizm fərdi azadlıq ideyasıyla bağlıdır və bu səbəbdən Ingiltərə, Fransa kimi ölkələrdə meydana gəlib inkişaf edir. Almaniya kimi kollektivist cəmiyyətə malik ölkə feminizm üçün əlverişsiz mühit hesab oluna bilər. Bütün bu mülahizələr Azərbaycana münasibətdə fərqli qadın kimliyindən söz açmaq gərəyi doğurur.

Azərbaycan fəlsəfəsində qadın identikliyi

Qadın identikliyinin fəlsəfi konsepsiyalarını Qərbdə feministlər işləyib hazırlayıb. Bu məsələyə iki cür yanaşma esensialist və qeyri-esensialist yanaşma uyğun olaraq fərqlər nəzəriyyəsi nümunəsində fransız feminist məktəbi və ingilis-amerikan feminist məktəbi misalında təqdim olunur (bu haqda ətraflı bax**- 21**). Son konsepsiyalar postmodernist əsaslı olduğundan kifayət qədər çevik-flexible hesab olunur, qloballaşmanın dünyanı böyük kənd halına gətirdiyi günümüzdə dünyanın hər yerində özünü doğru göstərmə ehtimalını artırır.

Bununla belə, yuxarıda feminizm haqda söylədiklərimizi də nəzərə almaqla Azərbaycana münasibətdə fərqli qadın identikliyi konsepsiyası işləyib hazırlamaq ehtiyacını dilə gətirməliyik.

Əvvəla, feminizm (marksizm də bu kritikadan geniş istifadə edir) patriarxat haqda təsəvvürləri çox universallaşdırır. Hər yerdə, hər zaman hər şeyi patriarxal münasibətlər prizmasından qiymətləndirməyə çalışır və dolayısı ilə kişi düşmənçiliyi doğurmuş olur ki, bu da bizimki kimi ənənəvi cəmiyyətlərdə haqlı etiraz yaradır. Oysa daha geniş yanaşmada kişilər də tarixin (patriarxatın yox) qurbanlarlarıdır. Müharibələrdə ən çox kişilər, xüsusən, gənc, cavan kişilər kütləvi şəkildə qırılır, qadınlar daha çevik olmaları səbəbinə dəyişik mühit və dövrə daha tez uyğunlaşa bilirlər. Ümumiyyətlə, daha geniş yanaşmada patriarxat dövrün dominant diskursunun tələblərini yerinə gətirən münasibətlər toplusudur ki, onun kişilərlə, hələ fərd halında kişi ilə elə bir bağlantısı yoxdur. Dil, mədəniyyət bu münasibətləri özü yaradır və təkrar istehsal edir.

Başqa bir məsələ qadınlara qarşı zorakılığın universallaşdırılması məsələsi ilə bağlıdır. Bu məsələdə də feminizmin xidmətləri danılmazdır. Reduksionist, dualist yönümlü Qərb təfəkkürü hər yerdə istismar, ayrılıqlar, fərqlər arayışına rəvac verir. Feminizm Qərb təfəkkürünün bu xüsusiyyətini bir tərəfdən, qeydə alıb tənqid edir, diğər tərəfdən, özü də bu tələyə düşür.

Qadına qarşı zorakılıq, əlbəttə, bütün, o cümlədən, ənənəvi cəmiyyətlərdə mövcuddur. Sadəcə, o, feministlərin iddia etdiyi kimi məhz qadına yönəli deyil. Zorakılıq, şiddət dövrümüzün əsas bəlasıdır və sadəcə etik, hüquqi məsələ deyil. Bütün problemləri sosial kontekstə bağlamağa meyl, məsələnin arxasında duran ekzistensial, qnoseoloji əsasları görməzə, danmaza gətirib çıxarır. Maraqlıdı ki, Azərbaycanda qadına qarşı zorakılığa həsr olunan elmi işlər, məsələn,

sosial-fəlsəfi kontekstdə işlənən dissertasiya işləri durmadan artır. Bunu AAK yanında Fəlsəfə üzrə Koordinasiya Şurasının verilərinə dayanaraq sübut etmək mümkündür.

Zorakılıq bütövlükdə cəmiyyətin, dünyanın, zamanın bəlasıdır və ondan kişilər də qadınlar qədər əziyyət çəkir. Suisidin artması insanın mürəkkəbləşən dünya-insan-cəmiyyət münasibətləri qarşısında acizliyinin göstərgəsidir və reduksionist, ayrımçı, rasionalist təfəkkür bu problemin həllini tapa bilməz.

Milli fəlsəfədə qadın identikliyinin fəlsəfi əsaslarına gəlincə, bu, sözsüz, ənənəyə, onun ilkin mənbəyi mif və folklora dayanmalıdır.

Qərb feminist fikri qadının yarımadam (bax, **21, s.247**) hesab olunması tezisindən çıxış edir və qadının identiklik konsepsiyaları bu müddəanı sıradan çıxarmaq yönündə spekulyasiyalar üzərində qərar tutur. Türk mif, folklor nümunələrinə əsaslanaraq, bizim mədəniyyətdə tək qadının yox, kişinin də yarımadam hesab olunması tezisini irəli sürmək mümkündür. Məhz bu iki cinsin bir tamda-ailədə birləşməsi hər iki cinsi tam, bütöv adama çevirir. Mədəniyyətimizdə evlənməmiş, ailə qurmamış erkəyi kişi hesab etməmək bu görüşdən qaynaqlanır. Ümumiyyətlə, Haydeggerüsulu dekonstruksiya tək sözlərə, onların etimologiyasına münasibətdə yox, ənənəyə münasibətdə də çox maraqlı material verə bilər.

Azərbaycan mədəniyyətinin, fəlsəfəsinin ən qabarıq xüsusiyyətlərindən biri bu mədəniyyətdə «örtü», «pərdə» **(Əli Abasov)** məsələsidir. Gizlilik sadəcə mədəniyyətin özünüqoruma vasitəsi, etik prinsip yox, eyni zamanda qnoseoloji prinsipdir. Bu mədəniyyətin, ümumiyyətlə, reflekiyaya qapalı olması anlamında yox, bu refleksiyanın dilə gətirilməməsi, yad gözlərdən gizlədilməsi mənasındadır. Yeri gəlmişkən, yapon fəlsəfəsi araşdırmaçıları da bu fəlsəfənin belə bir xüsusiyyəttindən söz açır. Yaponların, bir tərəfdən, müasir dünyanın elmi-texnoloji çağırışlarına cavab verib, digər tərəfdən, öz milli-mədəni kimliklərini qoruya bilmələrində bu gizliliyin payı böyükdür.

Azərbaycanlıları mərasimçilikdə (toy, yas mərasimlərinə, göstəriş xarakterli əşyalara böyük pullar xərcləmək) günahlandırmaq əsassız sayıla bilməz. Amma ənənəyə münasibətdə dekonstruksiya milli birlik, həmrəyliyin məhz bu bayram və mərasimlərdə formalaşmasından xəbər verir. Ənənəylə ilkin bağlılığını itirən, nəyi niyə etməsini yaddan çıxaran xalq mərasimlərə sadiqliklə öz mili-mənəvi birliyini qoruyub saxlamağa çalışır.

Bütün bu söylənənlər milli fəlsəfə zəminində identiklik (istər qadın, istər kişi) konsepsiyası işləyib hazırlamanın önəmini üzə çıxarır.

Milli fəlsəfəni xalqın ruhani arayışları fenomeni olaraq tanımlasaq, burda mentalitet, psixologiya, özünüdərk və milli yaddaş intellektual dünyagörüşün mənbəyi olaraq çıxış edəcək. Intellektuallığın konsentrasiya və ya gərginlik səviyyəsi rasionallıq göstəricisidir. Fəlsəfə ilkin formasında, yunan ənənələrinə görə rasional yönümlüdür. Məhz bu rasionallıq dərəcəsi milli fəlsəfələrin mümkünlük diskussiyalarını doğuran səbəbdir. «Qərb, Şərq fəlsəfəsi məsələsi dünyagörüşündə rasionalizm kriteriyasını seçmək məsələsidir»**(22).** Amma Şərqdə ruhani aləmin fəlsəfədən daha geniş, fəlsəfənin bu dünyanın bir hissəsi olması

rasionallıqdan başqa düşüncələrin milli fəlsəfə məsələlərində, o cümlədən, milli qadın, kişi identikliyi məsələlərinin işlənməsində zəruri qılır.

Mənbə və qeydlər:

1. Манхейм К. Диагноз нашего времени. М, 1994;
2. Sandra Harding, Introduction/ Is there a feminist method, pp.1-14, Смит Д. Социологическая теория. Методы патриархатного письма// Хрестоматия феминистских текстов,СПб.:2000;
3. Батлер Д. Случайно сложившиеся основания: феминизм и вопрос о «постмодернизме»// Гендерные исследования.1999, №3;
4. Батлер Д. Случайно сложившиеся основания: феминизм и вопрос о «постмодернизме»// Гендерные исследования.1999, №3;
5. Rauf Məmmədov. Tarixdə qadının yeri və rolu// Tarixin fəlsəfəsi: retrospektiv və perspektiv, Bakı, Azərbaycan, 2018;
6. G. Pollock. What's wrong with Images of Women, Betterton, ed/, Looking on: Images of Feminity in the visual Arts and media (London and New York: Pandora Press, 1987;
7. Gouma-Peterson Th., Mathews P. «The Feminist Critique of Art History», The Art Bulleten LXIX, Sept. 10987;
8. Эвола Ю. Оседлать тигра (перевод с итальян. В. Ванюшкиной), СПб.: Владимир Даль, 2005;
9. Cəlal Bəydili (Məmmədov). Istiqbal xalq ədəbiyyatınındır (seçmə yazılar), Bakı, 2005;
10. Səlahəddin Xəlilov. Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti (fəlsəfi etüdlər), Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2001;
11. Ахмед бек Агаев. Женщина по исламу и в исламе// Азербайджан в мире, н.4(6), октябрь 2006, с. 98-182;
12. Arayış. Qadın sözünü ifadə edən ləfzlər türkçə "xatun", farsca "zən", azəri ləhcəsində "övrət" və Krımda "apaxay"dır. Xatun yüksək sinif qadınlara verilən bir ünvandır ki, osmanlı türkcəsində "x"-nin "k" hərfinə dəyişməsilə "kadın" olmuşdur. Zən Avesta dilindəki "Les denas"ın yeni bir şəkli olmalıdır. Professor Harle bu sözü belə təfsir eləyir: "Jena ya sadə qadın mənasını ifadə edir, yaxud doğruluq, din, pərəstiş, şəfqət, zəka, nemət kibi məfhumları təmsil edən rümuzu şəxsiyyətlərdən ibarətdir". Övrət ərəbcə bədəni-insanın görünməsi və göstərilməsi eyib sayılan və haram olub, namazda örtülməsi şərt olan yerləridir.Apaxay-abla ağay "abla ağa"dan zəbanzədi olmuş bir ləfzdir ki, yalnız Krım tatarı arasında istemal olunur. "Böyük bacı ağa"- deməkdir. Bu kiçik filoloji təhlil bizə böyük bir tarix açır: Xatun və abla ağa sözləri türk irqinin qadına qarşı bəslədiyi hörməti göstərir; Zən arilərin bidayətdə qadını təqdir etməsinə işarədir. Övrət isə ərəb istilasıyla Azərbaycanda və Şərqi Anadoluda istemala başlanmış sözdür ki, islam ehkamını açıqcasına anladır. (Yusif Vəzir

Çəmənzəminli. Biz kimik? Məqalələr, Bakı, Nurlan- 2004, s. 110)

13. Akimova Elnarə Seydulla qızı. Müstəqillik dövrü Azərbaycan poeziyası müasir ədəbi təmayüllər kontekstində. Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı-2017

14. Elnaz Eyvazlı
Səhərəcən buz kimi yataqda
İt kimi ulayıram.
Qonşum deyir ki,
Bu gecə bir köpək bizi yatmağa qoymayıb.
Qayıt, məni saçlarımla yuvama zəncirlə.
Həsrətindən köpək olduğumu
Biləcəklərindən qorxmuram.
Bu gec-tez hamıya çatacaq.
Sahibsiz olduğumu bilsələr,
Hərə bir daş atacaq. (Eyvazlı Elnaz. Kişi etirafı, Bakı, Qanun, 2011, s.56)

15. Xuraman Hüseynzadə
Ah, Azad qadın...
Bu məhbəs məmləkətdə
Elə heykəl olaraq qalacaqsan... (Hüseynzadə Xuraman. Ağ atlı Avropa. Bakı, Qanun, 2011, s.15)

16. Sevinc Pərvanə
qadınlığıyla barışanları
heç sevmədim
daha sonra yazığım gəldi onlara, çünki uşaq kimidirlər lap
ovcunda ağlayır qadınlar
gözləri ovuclarının içindədi...(Pərvanə Sevinc. Uçuş məsafəsi. Bakı, Qanun, 2006, s.12)

17. Günel Mövlud
bağışla məni, ana
mən qürbətdə anladım
vətən qadınları necə mənasızdır. (Mövlud Günel. 5XL, Bakı: Qanun, s.19)

18. Sevinc Çılğın
Adam kimi yaşamaq üçün
Özündən qaç
Lazımsa
Özünə yox deməyi məşq et..
Süpür keçmişini
Üflə hisslərinin tozunu
Yaşamağa davam! (Çılğın Sevinc. Mən @2006, Bakı: Qanun , 2007, S. 39)

19. Aqşin. Sizin eradan əvvəl
Qadınlara elə gəlir ki, qaranlıq onları gizləyir

Əksinə, qadın qaranlıqda daha aydın görünür
Məndən iki addım qabaqda gedən bu qadının
azadlığının sərhəd dirəkləridir sevişdiyi kişinin qolları
o "dirək"lərdən o tərəfdə səhər çoxdan açılıb
kişi qolları arasında qadın üçün həmişə qaranlıqdır
qadın azadlığı qaranlıqdır. (Aqşin. Unutmaq sözünün şəkli. Bakı: Adiloğlu, 2002, s.17)

20. Kamal Abdulla. Unutmağa kimsə yox.
Qarağacın kölgəsi hər yana çatdı,
Amma sən kölgənin altında yoxsan.
Sən yoxsan. Sən Qarağacı unutmadın.
Qarağac səni untdu. Qarağac indi səni anır.
Qarağacın ürəyi deşilir.Para-para olur.
Göy də, yer də sən deyir.
Qarağacın kölgəsi hər yana çatdı. Sən yoxsan.
Qarağac səni unutdu.
Yerin ürəyində taxtını qurdun.
Qarağacı ürəyində saxladın.
Qarağac səni unutdu.
Qarağacın kölgəsi səni anır. (Kamal Abdullayev. Unutmağa kimsə yox. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1995, s. 104)

21. Mahrux Abbas. Müasir feminist nəzəriyyələrdə qadın identikliyi məsələsi// Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri, Bakı, Elm və təhsil, 2014, s.238-256;

22. Али. Абасов. Какой была, есть и может стать философия вообще и национальная в частности// Проблемы истории, теории и методологии познания, Баку, Yeni Nəsil, 2001.

Nəzakət Salmanova

MİLLİ FƏLSƏFƏDƏ AİLƏ DƏYƏRLƏRİNİN ROLU

Ailə ata, ana, uşaq, nənə və babadan ibarət güclü, amma kiçik bir milli birlikdir. Bu milli birliyi bir arada tutan ailə törəsidir. Yəni, bütün ailə üzvlərinin məcburi olaraq əməl etməli olduqları yazılmamış qayda-qanunlardır. Bu törələrə görə hər bir ailə üzvü öz funksiyasını bilməli və ona əməl etməlidir. Zaman-zaman ailə daxilində müəyyən dəyişikliklər baş verə bilər. Amma istənilən dəyişiklik, islahat ailənin ümumi mahiyyətinə, təməl prinsiplərinə zərər gətirməməlidir. Ailə həmişə əsas prinisplərinə sadiq qalmalı, heç vaxt onlardan imtina etməməlidir.

Məncə, ailənin əsas prinsipləri bütövlük, yekdillik, şərəflilik, inamlılıq,

inanclılıqdır. **Bütövlük** ailənin başlıca sütunudur. Ailənin bütövlüyünün qorunması vacib şərtdir. Ailənin şərəfini tapdalayan istənilən üzvün bəraəti yoxdur, o layiq olduğu cəzanı çəkməlidir. **Yekdillik** ailə üzvlərinin önəmli məsələlərdə ortaq nöqtədən çıxış etməsidir. Hər bir ailə üzvü çıxarılan qərara hörmətlə yanaşmalıdır. **Şərəflilik** ailənin "üzü"dür. Bu üzü dəyişdirmək, ona başqa bir rəng qatmaq qəti qadağandır. **İnamlılıq** ailədə qarşılıqı etibardır. Ailə üzvləri birbirlərinə nünasibətdə inamsızılığa yol verməməli, əgər hər hansı şübhə toxumları varsa onu cücərməyə qoymamalıdır. **İnanclılıq** tapındıqları dəyərləri mənimsəmək və dərk etməklə olmalıdır. Kor-koranə inancın əvvəli olmadığı kimi, sonu da yoxdur. İnanc ilk növbədə, Tanrıya tapınmaqdır. Tanrısını dərk edən, yaxud da, anlamağa çalışan millətini və vətənini də sevmək iqtidarında olacaqdır.

Bütün bunlar ailə sisteminin təməlləridir. Bunlar olmadan ailə sistemindən bəhs etmək mənasızdır.

Bu anlamda millətin etnik kimliyi, dini kimliyi, ədəbiyyatı, tarixi, mədəniyyəti, əxlaqı, adət-ənənələri ilk növbədə ailədən başlayır. Ailə məktəbi uşaqlar üçün kimlik, tarix və mədəniyyət məktəbidir. Ailə məktəbi bir növ millətin şah damarıdır. Ailə məktəbini önəmsəməyib uşaqlarını yalnız dövlət məktəblərinin, yaxud da cəmiyyət "məktəbləri"nin ixtiyarına buraxanlar ehtiyatlı olmalıdırlar. Xüsusilə, cəmiyyət "məktəbləri"nə daha çox həssas yanaşılmalıdır.

Məncə, arzu olunan hal ailə məktəbi ilə dövlət məktəblərinin prinisiplərinin üst-üstə düşməsidr. Yəni ailə və dövlət gələcək vətəndaşın hansı şəkildə formalaşması məsələsində ortaq nöqtədən çıxış edərsə nəticə də yaxşı olacaqdır. Ancaq ailə bir, dövlət başqa şey istəyirsə bu zaman əsas zərbə millətə dəyəcəkdir. Amma burada ən təhlükəlisi odur ki, ailə və dövlət gələcək vətəndaşın milli dəyərlərdən uzaq, yalnız maddiyyatı düşünəcək şəkildə formalaşmasına razı olmasıdır. Deməli, 1-ci hal arzuolunan, 2-ci hal arzuolunmayan, ancaq ümidlərin bitmədiyi durum; 3-cü hal isə arzuolunmazdır. Çünki 3-cü halda millət, din, vətən, əxlaq, şərəf arxa plana keçir, öndə isə fərdin "azadlığı", "xoşbəxtliyi" və "karyera"sı dayanır.

Bu "azadlıq", "xoşbəxtlik", "karyera" milli dəyərlərin üstündən praqmatistcəsinə xətt çəkir. Artıq fərdin düşüncəsində millət, din, vətən kimi anlayışlar ya yoxdur, ya da "azadlıq", "xoşbəxtlik", "karyera"ya çatmaq üçün yalnız vasitədir. Bu zaman fərdin dərindən düşünməsinə heç ehtiyac da qalmır. Çünki onun yerinə düşünənlər var. Fərd düşünmədikcə, düşünməyə ehtiyacın olmadığı qənaətinə gəldikcə, daha da "azad" olur. Bu "azadlığ"ın onun köləliyi olduğunun ya fərqinə varmır, ya da fərqinə vardığı halda belə onunla razılaşır. Bununla da, həyatın dadını çıxartmağa, ömrüboyu adını belə duymadıqları Qərbə məxsus freydizm, həyat məktəbi, praqmatizm kimi "fəlsəfi təlimlər"in mahiyyətinə uyğun yaşamağa davam edirlər. Çünki özdən uzaqlaşanlar sürətlə özgələşirlər. Bir cəmiyyətdə bu cür özgələşənlər zahirən və dilcə bizlərə yaxın olsalar da, ruhca və mahiyyətcə bizdən deyillər.

XIX və XX əsrlərdə Rusiya işğal etdiyi Türk ellərində bu ideologiyanı türk-

soylu toplumlara uyğuladı. Rusiya bunu etmək üçün Qərbdən çox böyük dəstək gördü. Çünki türk toplumlarında mövcud olan törəni pozmaq məsələsində Rusiya və Qərb həmişə həmrəy olmuşlar. Bu gün də həmrəydirlər. Əslində Rusiyada kommunizmin reallaşması bir Qərb layihəsi idi. Bunun Qərbdə gerçəkləşməyəcəyini yaxşı anlayan Avropa ideoloqları Rusiyaya əngəl olmadılar. Məqsəd kommunizm adı altında Rusiyadakı türk-müsəlmanların özdən uzaqlaşdırılıb özgələşdirilməsi idi. SSRİ dövründə kommunizm adı altında türk törələri alt-üst edildi. Halbuki çar Rusiyası dönəmində durum pis olsa da, bu qədər acınacaqlı deyildi. Komminizmi əldə bayraq edərək türk-müsəlmanlarin milli və dini kimlik inancları qəsb edildi, əxlaqi dəyərlərə yeni don geyindirildi.

Ailə milli kimliyi – millətin varlığını sürdürməsi baxımından çox önəmli faktordur. Hər bir ailə, ailə üzvü milli kimliyini bilməlidir. Bu hər bir fərdin təbii haqqıdır. Fərd milli kimliyini bilməli və onun bir hissəsi olmalıdır. Ancaq buradakı milli kimlik tanımlanması yalnız soy və dil ilə bağlı deyildir. Burada soy və dil ilə yanaşı şüur, mədəniyyət və vətən anlayışları da önəmli yerə malikdir. Bu anlamda fərqli soy və dilin təmsilçiləri ortak milli kimlikdən çıxış edə bilərələr. Yəni mənim soyumdan olmayanlar, mənim dilimdə danışmayanlar bizdən deyildir demək yanlış olardı. Çünki eyni soyu və dili paylaşdığınız halda elələri tapılar ki, bizdən olmasınlar, ancaq fərqli soyda və dildə olanlar isə bizdən olsunlar. Bu milli ruhla bağlıdır. Bəzi hallarda insanın kimliyini onun dili və soyu deyil, içindəki ruhu müəyyən edə bilər.

Ailə dini kimliyi – ailə inancının təməlidir. Ailə üzvləri, özəlliklə ata və ana inanc məsələsində diqqətli olmalı, Allah sevgisni, peyğəmbər sevgisini bütpərəstlik səviyyəsinə endirməmlidirlər. Tanrının böyüklüyünü həddən artıq nə mürəkkəbləşdirmək, nə də sadələşdirmək doğru deyildir. Ailədə dini kimliyin təməlində paklıq, ülvilik və sevgi dayanmalıdır. Allahdan qorxmaq şərdən, haramdan, yalandan uzaq durmaq anlamında dərk edilməlidir. Bu anlamda düşüncələrimizin fərqliyindən hər bir kəsin özünəməxsus qəbul etdiyi inanclar deyil, ortaq inanclar önə çəkilməlidir.

Ailə beynəlmiləlçiliyi - insanlığın bir parçasıdır. Hər birimiz təmsil olunduğumuz milli kimlik və dini inancımızdan asılı olmayaraq Yer kürəsində təkbaşına yaşamadığımızı da yaxşı dərk edirik. Bu anlamda fərqli milli və dini kimlikləri görməzdən gələ bilmərik. Sadəcə, hər bir ailə bunları dəyərləndirmək və doğru nəticə çıxartmaq səviyyəsində olmalıdır. Ailədaxili tolerantlıq onun kənar təsirlər qarşısında əriməsi səviyyəsində olmamalıdır. Hər bir ailə milli və dini kimlik baxımından ona yad olan milli və dini kimlik daşıyıcılarına müəyyən həddə qədər münasibət bəsləməli, mənasız "bəşəri duyğusallığa", "humanizm"ə qapılmamalıdır. Yadsoylu millətlərin təmsilçiləri ilə ailə qurulması məsələsinə, özəlliklə diqqət yetirilməlidir. Atalarımız demişkən: "Elini hürküt, axsağından yapış". Çünki eldən çıxmayan eldən olmaz... Amma qeyd edək ki, son dövrlərdə əcnəbi vətəndaşlarla bağlanan nikahlar artıb.

Gənclərimizin bir qismi vaxtında evlənə bilmir, bəzən, yaş hətta 30-u belə adlayıb keçirdi. Bu hal indi də Azərbaycan cəmiyyətində özünü göstərir. Ona

görə də onlar o vaxt Rusiyanın bir sıra şəhərlərinə üz tuturdular. Bu isə oğlanlarımızın milli psixologiyasının dəyişməsinə səbəb olurdu. Qısa müddətdə adət və ənənələrimizi unudur, nəticədə isə, bu bir tərəfdən qızlarımızın evdə qarımasına, digər tərəfdən isə, oğlanlarımızın vaxtında ailə qura bilməmələrinə səbəb olurdu. Bir məsələni də qeyd edək ki, oğlanlarımızın qızlarımıza olan münasibəti də dəyişirdi. Onların qeyri-millətdən olan qızlarla evlənməsi, ailə qurması, Azərbaycanda milli ailənin formalaşmasının qarşısını alırdı. Müasir dövrdə isə başqa bir cəhət də özünü Azərbaycan reallığında göstərməkdədir. "Azərbaycandan xarici ölkələrə qazanc üçün getmiş gənclər geri dönmür, ölkədən gedənlərin sayı isə ilbəil azalır". Dövlət Statistika Komitəsinin məlumatında belə deyilir. Komitə bunu ölkədə yeni iş yerlərinin açılması ilə əsaslandırılır. Məlumata əsasən, 2011-ci ildə daimi yaşamaq üçün Azərbaycana gələnlər 2200, gedənlər isə 500 nəfər olub. Immiqrantların 77,1 faizini Rusiyadan, 8,1 faizini Qazaxıctandan, 4,3 faizini Ukraynadan gələnlər təşkil edir. Ölkədən miqrasiya edənlərin 45,1 faizi Rusiyaya, 32,7 faizi Qazaxıstana, 8,4 faizi isə Ukraynaya gediblər. Komitənin məlumatında deyilir ki, 2011-ci ildə Azərbaycanda 94 minə yaxın yeni iş yeri açılıb. Bunun da 73 minə yaxını daimi iş yeridir. Komitə hesab edir ki, bununla da ölkədə işsizlik daha 0,5 faiz azalaraq 5,4 faizə enib.

2017-ci il üçün olan statistik göstəricilərə görə Azərbaycana daimi yaşamaq üçün gələnlər cəmi 3073 nəfər, gedənlərin sayı isə 1901 nəfərdir. 2000-ci ildə Prezidentin sərəncamı ilə Azərbaycanın Demoqrafik İnkişaf Konsepsiyası təsdiq edilib. Son 12 ildə Azərbaycanda miqrasiya proseslərinin sürət fonunda demoqrafik proseslərin tənzimlənməsinə dair milli siyasətin formalaşması təqdirəlayiq bir haldır.

Qadınlar ailənin əsas üzvlərindən birini təşkil edir. Lakin tarix boyu qadına fərqli münasibət olub. Bir az keçmişə qayıtsaq görərik ki, tarix, fəlsəfə, təbiət elmlərində, dində qadının cəmiyyətdəki rolu barədə tez-tez bir-birinə əks fikirlər söylənilib, problem müxtəlif cür həllini tapıb. Xüsusən də bu barədə bir-birinə əks və ziddiyyətli fikirlərə (qadının cəmiyyətdə və ailədə rolu, onun doğum keyfiyyət və məziyyətləri) dində rast gəlmək olar. Məsələn, 1400 il bundan əvvəl Makon kilsə məclisi (kilsənin ali xristian ruhaniləri) rəsmi olaraq belə bir məsələyə baxmışdır: qadının ruhu varmı? İştirak edənlərin təqribən yarısı bu suala mənfi cavab vermişdi. Xristian kilsə məclisi cəmi bir səs çoxluğu ilə qərara gəlmişdi ki, aşağı məxluq olsa da, qadında nə isə ruha oxşar bir şey var. Bu kimi baxış onun nəticəsidir ki, minilliklər boyu qadına öz intellektini üzə çıxarmağa imkan vermişdilər.Qadını daima lənətləyən xristianlıq onun insan ləyaqətini alçaldırdı. Qadına olan bu ənənəvi nifrət orta əsrlərdə daha da güclənmişdi. "Zəif cinslə" əlaqədə olmaq –dəhşətli günaha batmaqdır. Platon özünün "Timey" və "Dövlət" əsərlərində ziddiyyət təşkil edən iki fikir söyləyir. "Dövlət" əsərində o, qadın azadlığından bəhs edir, lakin bu fikir ikinci dərəcəli qalır. "Timey" əsərində onun "qorxaq və bir çox cəhətlərdən qəbahəti olan kişilərin ruhu öləndən sonra qadınlara keçir" söylədiyi fikir isə orta əsr mütəfəkkir-

lərinə böyük təsir göstərmişdir. Kapitalizm dövrü qadının cəmiyyətdəki yeri və rolu baxımından çoxlu cərəyanlarla xarakterizə olunur. Yeni Kodeks yaratmış Napaleon Bonapart qadın tərbiyəsini Dövrünün A.Şopenhauer, F.Nitsşe, O.Veyninger və qadın dəyərsizliyi haqqında yanlış nəzəriyyənin digər burjua nümayəndələri belə hesab edirdilər ki, təbiət qadınlara yalnız hiyləgərlik, yalançılıq, xəyanətə meyllilik, naşükürlük hissləri bəxş etmişdir. Bu mütəfəkkirlərin və onların tərəfdarlarının qadına münasibəti kişi əsrini, kişi tiraniyasını həm də müəlliflərin fərdi xüsusiyyətlərini əks etdirirdi. Hazırkı dövrdə qadına qarşı ruhanilərin də münasibəti bir qədər dəyişmişdir. Məsələn, Vatikanın başçısı papa II İoann Pavel özünün 1990-cı ildə Meksikadakı moizəsində qadınlara xitabən söyləmişdir ki, onlar yer üzünə böyük missiya ilə gəlmişlər, eyni zamanda o, qadınların təbii təyinatı olan analıq funksiyasının daşıyıcıları və ailə ocağının qoruyucuları olduqlarını vurğulamışdır. Papa eyni zamanda qadın ayrı-seçkiliyinə və onun rolunun nüfuzdan salınmasına qarşı mübarizəyə çağırmışdır. Qadının cəmiyyətdəki yerinə münasibətdə müasir islam ölkələrində də müəyyən müsbət dəyişikliklər baş vermişdir. Bir sıra islam dövlətləri (Türkiyə, Suriya, Əlcəzair, Misir) cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında qadın bərabərliyi prinsipinə tərəfdar çıxırlar, "cəmiyyətin mədəniyyəti qadının onda tutduğu yerdən birbaşa asılıdır" fikri ilə razılaşırlar.

Deyirlər cəmiyyətin inkişafı ailədən “su içir”. Ailəni cəmiyyətin təməl daşı adlandıran mütəfəkkirlərin fikrincə, ailədə münasibətlər necə formalaşırsa bu özünü ictimai münasibətlərdə əks etdirir. Odur ki, ailənin sağlam təməl üzərində qurulmasının, cəmiyyətin, dövlətin inkişadında rolu danılmazdır. Bu gün də ailə, vətəndaş cəmiyyətini formalaşdıran əsas elementlərdən sayılır. Bu mənada Azərbaycan ailəsi hər zaman digər xalqlara nümunə göstərilib. Azərbaycanda ailə modeli, ailə ənənələrinə, milli-mənəvi dəyərlərə söykəndiyindən tarix boyu öz simasını itirməyib. Qərb dünyasında ailə institutu deformasiyaya uğradığı bir vaxtda, bizdə ailə dəyərlərinin qorunub saxlanılması, Azərbaycan xalqına xas ən müqəddəs xüsusiyyətlərdən biridir. Bunun kökündə isə milli-mental dəyərlər, əxlaqi keyfiyyətlərimiz dayanır. Bir xalq olaraq, ailəyə hər zaman müqəddəs ocaq kimi baxmışıq. Zaman-zaman ailə institutunun dağılmaması üçün xalq kimi yeri gələndə mətanət, dözüm nümayiş etdirmişik. Azərbaycanda ailə institutunu möhkəmləndirmək üçün ailə dəyərlərini qorumaq lazımdır. Azərbaycan ailəsi bütün dünyada monolitliyi ilə örnək göstərilmişdir. Amma əlbəttə ki, qloballaşma, inteqrasiya mədəniyyətlərin qovuşması və digər bu kimi tendensiyalar, ailələrə yeni keyfiyyətlər gətirməklə bərabər, bəzi arzuolunmaz fəsadlara da yol açır.

Mən bəzi məqamları xüsusilə vurğulamaq istərdim. Əvvala Azərbaycanda müasir dönəmdə ailə qurmaq istəməyən gənclər artır. Belə gənclər daha çox karyera haqqında düşündükləri üçün bu fikrə gəlirlər. İkinci məqam isə ondan ibarətdir ki, gənclər ailə qurarkən uşaq məsələsini 3-cü və 4-cü vəzifədə yerinə yetirməyə çalışırlar. Bu isə onlarda valideyn olmaq riskini azaldır. Sonda isə özləri istədikləri təqdirdə artıq övlad sahibi olmaq şansını itirirlər. Nəticədə ai-

lələrin dağılması prosesi baş verir. Bu isə bütövlükdə cəmiyyətdə tənəzzül hallarına və əvəzedici nəslin təlim-tərbiyəsinə mənfi təsir edir. Bu gün ailə institumuzla bağlı cəmiyyəti narahat edən əsas məsələlər qurulan ailələrin, rəsmiləşdirilən nikahların bəzən uğursuz nəticələnməsidirsə, digər problem ailələrdə məişət zorakılığı hallarının baş verməsidir. Elə məişət zorakılığı özü, ailələrin dağılmasına gətirib çıxaran əsas səbəblərdən biridir.

Hazırda Azərbaycanda 2 milyon 62 min 30 ailə var. Hər il orta hesabla ölkədə 80 mindən çox nikah qurulur. Yuxarıda qeyd etdiyim kimi ailənin inkişafı və sosial müdafiəsi, qadın və uşaq hüquqlarının müdafiəsi "Azərbaycan 2020 gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapıb. 15 may Beynəlxalq Ailə Gününün qeyd olunması artıq ölkəmizdə ənənəyə çevrilib. Ailə dəyərlərimizin qorunub saxlanılması sahəsində görülən marifləndirmə işlərinin mühim hissəsi kimi 2009-cu ildən başlayaraq "Azərbaycan ailəsi" qısametrajlı film festivalı uğurla davam etdirilir. 2014-cü ildən isə bu festival çərçivəsində "Həyatdan şəkilə" adlı foto müsabiqə də həyata keçirilir.

Mən hesab edirəm ki, bu gün ailələrin uzunömürlü olması, boşanmaların, məişət zorakılığının qarşısını alması üçün çıxış yolu maarifləndirmə və təbliğatın gücləndirilməsindədir. Azərbaycanda bu işlə məşğul olan bir dövlət qurumu fəaliyyət göstərir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu istiqamətdə əsas dövlət siyasətini həyata keçirir. Bu çox mühüm addımdır. Biz yüksək dəyərlərin saxlanıldığı cəmiyyət, güclü dövlət qurmaq istəyiriksə, mütləq ailələr sağlam təməl üzərində qurulmalıdır. Bunun üçün isə ailə dəyərlərimiz təbliğ olunmalı, Azərbaycan ailə modeli qorunub-saxlanılmalıdır.

Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən, "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi", "Azərbaycan gəncliyi", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramları, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı və digər Sərəncamlar hər bir vətəndaşımızın hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün bütün imkanlar yaradır. Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına" və bir sıra digər Dövlət Proqramları təsdiq edilmiş, eyni zamanda, tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Ölkəmizin bu sahədə uğurlarının davam etdirilməsi üçün yeni qanunvericilik aktlarının, milli fəaliyyət planlarının qəbul edilməsi vacibdir. Qeyd edim ki, ölkə başçısının Sərəncamları ilə təsdiq edilən Gələcəyə Baxış İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məq-

sədlərindən irəli gələrək, ailə institutunun möhkəmləndirilməsi, gender bərabərliyinin təmin edilməsi, bütün sahələrdə qadınların və qızların imkanlarının genişləndirilməsi, uşaqların bütün sahələrdə hüquqlarının müdafiəsi üçün hədəflər müəyyən edilmişdir. Onlardan ən vacibləri ailə institutunun gücləndirilməsi, qadın və uşaq hüquq və imkanlarının artırılması, reproduktiv sağlamlıq, məişət zorakılığı və s. göstərmək olar.

Ailənin dəyəri, onun cəmiyyətə verdiyi məhsul ilə, yəni şəxsiyyət ilə ölçülməlidir. Şəxsiyyətin dəyəri isə, öz vətəninə, dövlətinə, dünyaya, öz ailəsinə, xalqına və bəşəriyyətə verdiyi töhvələr ardıcıllığı əsasında müəyyənləşdirilməlidir. Bunun üçün də fərdin özünüinkişafına və özünüdərkinə azad şərait yaradılmalıdır.

İnsanın mənəviyyatını hər şeydən uca tutan, daxili zənginliyini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boyabaşa çatdığı ailədə formalaşır. Hər bir ailədə böyüyən və tərbiyə alan insan, bütövlükdə dünyaya təsir edə bilir və onun təməlini təşkil edir. Ona görə də bu sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur. Biz bu vəzifəni yerinə yetirməklə, həm də bəşəriyyətin daha mütərəqqi inkişafına təsir edə bilərik.

Ədəbiyyat:

1.Azərbaycan Qanunvericiliyinin Gender ekspertizası. Nigah və Ailə haqqında Qanunlar Məcəlləsi. Bakı, 1999.

2.Miller Cin Beyker.Yeni qadın psixologiyası. Bakı, 2000.

3.Azərbaycan Respublikası Konstitusiyası, Bakı, Qanun, 2002.

4.Azərbaycan Respublikasının statistik göstəriciləri. Bakı, Elm, 2003.

5.Nigar Ələkbərova. Siyasi elmin tarixi və metodologiyası. Bakı, 2005.

6.Azərbaycan Sovet Ensiklopediyası. 1-ci cild, Bakı, 1976.

7.Azərbaycanda qadınlar və kişilər. Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, Səda, 2017.

8.www. az.stat.com.

Zeynəddin Şabanov

AZƏRBAYCAN FİLOSOFLARININ DÜNYANIN ELMİ MƏNZƏRƏSİNİN FƏLSƏFİ DƏRKİNƏ MÜNASİBƏTİ

Fəlsəfi fikirlər dünyanın, cəmiyyətin inkişafı ilə, burada baş verən sosiomədəni və siyasi hadisələrlə bağlı olaraq dərinləşir, daha böyük məna yükü daşıyır, yeni paradiqmalarla zənginləşir. Düşünən insan daim axtarışa çıxır, mahiyyətə enmək istəyir, hadisə və prosesin səbəbini tapmaq üçün səy göstərir, dünyanın elmi mənzərəsinə yeni baxış bucağından nəzər yetirir, idrakını "iti-

ləyərək" təbiətin və cəmiyyətin inkişafına xidmət edəcək yeni fikirlər irəli sürür. Filosoflar daim fikirləşir, müəyyən məkan və zaman daxilində yeni ideyalarını cilalayır, müasirliyin nəbzini tuturlar. Bunun nəticəsində müasir fəlsəfə inkişaf etmiş bütün elmlər üçün fayda verə biləcək bir elm sahəsinə çevrilmişdir. Hələ yunan filosofu Platon üçün fəlsəfə əbədi və keçici olmayan haqqında təfəkkür idi. Pifaqor fəlsəfə dedikdə, həqiqətin üzə çıxarılmasını deyil, müdrikliyə məhəbbət və mənəvi həyat sevgisini başa düşürdü. Aristotel fəlsəfənin kökünü təəccübdə, heyrətdə görürdü - predmetini isə «ilkin başlanğıc və səbəblər»in tədqiqi ilə əlaqələndirirdi. Böyük filosofun fikrincə, fəlsəfə eyni zamanda fəaliyyətin məqsədini başa düşməyə kömək edir. Fəlsəfəyə can atanlar fayda götürməyi demək olar ki, düşünmürlər.

XX əsr fəlsəfəsi özünün yeni-yeni sahələri ilə diqqəti cəlb edir. Bu sahələr, texnikanın fəlsəfəsi, elmin fəlsəfəsi, mədəniyyətin fəlsəfəsi, həyat fəlsəfəsi və s.- dir. Həmin sahə fəlsəfələri müasir dillə desək, fəlsəfi biliyin ənənəvi sahələrini əhatə edir. Onlar ontologiya, fenemonologiya, epistomologiya, aksiologiya, fəlsəfi antropologiya və s. adlarla təqdim olunur. Bəzi tədqiqatçılara görə fəlsəfənin üç başlıca mövzusu vardır. Bunlar: dünya, insan və dünyaya münasibətdir. Təbiidir ki, hər bir mövzunun müzakirəsi öz problemlərini doğurur (**1, s.102**).

Fəlsəfə bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim və dəyərli sahəsidir. Təsadüfi deyildir ki, müasir Avropa və Amerikanın təhsil ocaqlarında fəlsəfənin tədrisinə böyük əhəmiyyət verilir. Bütünlükdə, ümumdünya fəlsəfi fikrini, eləcə də ayrılıqda hər bir xalqın milli fəlsəfəsini mənimsəmədən yeni cəmiyyət qurucularının yetkin şəxsiyyət kimi formalaşdırılması problem olaraq qala bilər.

"Fəlsəfə" anlayışının etimologiyasına münasibət bildirən Azərbaycanlı alim-tədqiqatçı E.Hüseynov yazır ki, "fəlsəfə" terminini adətən yunan dilindən birbaşa (etimoloji) anlamda "müdrikliyi sevmək" kimi tərcümə edirlər. Amma fəlsəfə (philosophy) termininin ikinci hissəsində özünə yer alan Sophia anlayışı dəqiq tərcümədə "müdriklik" anlamını vermir. Yəni əslində biz "Sophia'nı sevmək" ilə rastlaşırıq, amma Sophia'nın nə olduğunu bilmədən hətta ilkin anlamda (etimoloji anlamda) belə fəlsəfənin nə demək olduğunu anlaya bilmirik. Fəlsəfə terminini Avropa dillərinin terminoloji tərkibinə daxil edən qədim yunan filosofu Platonun yanaşmasında Sophia bir insanın sahiblənə biləcəyi, özününkü edə biləcəyi bir subyektiv reallıq deyildir. Sophia mükəmməl qurulmuş harmonik reallığın (bu realıq bizim duyğu orqanlarımız vasitəsilə siqnallar qəbul etdiyimiz maddi dünya anlayışının ekvivaenti deyil) əsasında duran, daxilən ona xas olan obyektiv bir prinsipdir. Bütün həqiqət orada gizlənir. İnsan həyatının və imkanlarının məhdud olması səbəbindən insan həmin obyektiv reallıq ilə heç bir zaman qovuşa bilməz, ən ali həqiqətə heç bir zaman çata bilməz. Həmin həqiqəti yalnız müəyyən məsafədən "sevə" bilər, yəni qovuşa bilməsə də hər zaman ona can ata bilər. Bu səbəbdən fəlsəfə termininin "həqiqəti sevmək" şəklində tərcüməsi daha dəqiq (amma yenə də tam deyil) sayıla bilər. Bu kontekstdə maraqlı məqam ezoterik (mistik) fəlsəfi düşüncədə Sophia həm də real-

lığın (ümumi tamın) qadın başlanğıc kimi qəbul edilməsidir - həmin başlanğıcın (bir qadın qəlbi və ruhu ilə olduğu kimi) dərk edilməsi bütün həqiqətin (sirlərin) açarı ola bilərdi, halbuki prinsipcə həmin başlanğıc qeyd etdiyimiz məhdudiyyətlər səbəbindən ayrıca bir insan tərəfindən sonadək dərk edilməzdir, ona tərəf yalnız can atmaq olar, amma qovuşmaq mümkün deyildir - onu yalnız müəyyən məsafədən "sevməklə" kifayətlənməli olursan (**4**).

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət və ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Milli ruhu qorumaq, inkişaf etdirmək və nəsildən-nəslə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edərək, milli ruhu həyat tərzinə çevirmə imkanına qadirdir. İstər dövlətçilik ideologiyası olsun, istərsə də milli ideologiya eyni bir təməl üzərində-milli fəlsəfi fikir zəminində formalaşır. Milli dövlətin dövlətçilik ideologiyasının təşəkkülündə milli fəlsəfi fikir əsas yer tutur.

Fəlsəfə millətin inkişafında, onun intellektual qabiliyyətinin nümayişində mühüm rola malikdir. Azərbaycanın görkəmli filosofu Əbülhəsən Abbasov bu məsələyə xüsusi diqqət yetirərək yazır: "Fəlsəfə sadəcə olaraq, "millət" fenomen-məfhumunun nə olduğunu, hansı praktiki və nəzəri əhəmiyyət daşıdığını, mütərəqqi inkişafda, sivilizasion gedişatda xüsusi rol oynadığını anladıb-öyrətməklə kifayətlənmir, o, millətin özünü yaradır! Fəlsəfəsiz nə millət və milli siyasət, nə də dövlət və milli dövlətçilik məfkurəsi, ənənəsi mövcud deyil və olmayıb. Belə ki, "millət" qapalı və mütləq mənada dəyişməz (invariant) fenomen deyil, o, kifayət qədər variativ, dinamikliyi ilə fərqlənən varlıq-prosesdir. Burada, etnik sintezləşmə və ümumiliklə yanaşı, ümumi siyasətdə, vahid hüquqi məkanda, dövlətləşmədə iştirak var, sosial-siyasi-iqtisadi dəyər və institutlar hesabına sisteməqovuşma, birgəyaşayış duyumuna və mədəniyyətinə daxilolma var. Millət—mütləqləşdirilmiş "sabitlik əmsalı" yox, tarixi və sosial zaman cərəyanında fəal iştirak edən, stabil elementlərini qorumaqla yanaşı daim özünü təşkilatlandıran, mövcudluq və inkişaf naminə zəruri dəyişikliklərə, yeniliklərə həssas olan fenomendir. Bütün bunlar isə yalnız xoş niyyətlər, ülvi hisslər, ümid-güman hesabına baş vermir; daha çox nəzəri refleksiya, rasional ağıl, elmi biliklər və onlardan qaynaqlanan əməli-praktiki fəaliyyət hesabına reallaşır. Və burada fəlsəfi biliklər sisteminin, onun kamilliyinin rolu əvəzsizdir... Əgər sual olunarsa ki, cəmiyyət-millət-dövlət rabitəsində mütərəqqi sinergizmi qidalandıran ən başlıca amil-şərt nədir, deyə bilərik—intellektual əmtəənin istehsalı və onun optimal dövriyyəsi! Xüsusilə də informasion cəmiyyətlərin vüsət tapdığı indiki dövrdə! Fəlsəfənin isə bu amil – şərt kontekstində hansı müstəsna əhəmiyyətə mailk olduğunu anlamaq o qədər də çətin deyil. İstər cəmiyyətin və intellektual resursların idarə olunmasının nəzəri əsaslarının işlənib hazırlanması olsun, istər çoxsaylı sosial sifarişlərin çözülməsinə xidmət edən epistemoloji bazanın, idrakı texnologiyaların yaradılması olsun—fəlsəfənin rolu danılmazdır! Müasir dünyanın öz tərəqqisinə görə səcdə edib, baş əyəsi bir

neçə varlıqlar içərisində fəlsəfənin yeri xüsusidir. "Tərəqqi" dedikdə, yalnız elmi-texniki-texnoloji və mədəni zirvələrin fəth olunması yox, həm də əxlaqlı yaşamaq nəzərdə tutulur ki, bunun üçünsə Xeyir və Şərin mahiyyətini dərk etmək, sosial məsuliyyət və vicdan borcu, mənəviyyat və ədalət haqqında mükəmməl biliyə malik olmaq gərəkdir. Və bütün bu qazanc və zərurətlərin ödənilməsi, fəlsəfəsiz mümkün deyil. Söhbət, şübhəsiz ki, fəzilətlərə, sağlam düşüncəyə, qurucu işlərə yol açan fəlsəfədən gedir (**2, s. 6-7**).

Milli fəlsəfəni bir millətin ağıl səviyyəsinə uyğun olaraq formalaşan spesifik bir fəlsəfə adlandırmaq da olar. Milli fəlsəfə bir millətin sahib olduğu xalis dil bazası üzərində inşa edilməlidir. Əks təqdirdə formalaşan fəlsəfə vətəndaş hüququ qazana və milliləşə bilməyəcək. Odur ki, hər fəlsəfə istənilən millət içərisində özünə yer tapa bilmir. Milli fəlsəfəmiz başqalarının deyil, "öz ağılımızın" məhsulu olmalıdır, o elə bir ağıldır ki, bütün fikri düyünlərimizi məhz onun yardımı ilə açırıq. Hər bir milli fəlsəfənin "açar sözlər"i olur, belə ki, həmin sözlər insana həmin dildə fəlsəfələşmək imkanı verir. Odur ki, açar sözlər xalis olmadığı təqdirdə həmin dildə fəlsəfələşmək effektiv olmur. Bu baxımdan, milli fəlsəfədə xalis dil bazası nə qədər zəngin olarsa, bir o qədər o dildə fəlsəfələşmək asanlaşar. Milli fəlsəfənin açar sözləri dedikdə fəlsəfənin ən mərkəzi anlayışları nəzərdə tutulur. Belə ki, həmin anlayışlar fəlsəfənin altqurumunu təşkil edirlər. Digər bütün anlayışlar isə üstqurum kimi onların üzərində inşa edilir. Fəlsəfənin iki əsas hissədən - ontoloji və epistemoloji hissədən ibarət olduğunu nəzərə alsaq, zənnimcə, öz ağlımızda bu iki sahəyə dair xalis açar sözlər mövcuddur. Bu açar sözlər aşağıdakı kimidir: varlıq-nəsnə;bilik-öznə.Fəlsəfənin birinci hissəsini "varlıq-nəsnə", ikinci hissəsini isə "bilik-öznə" təşkil edir. Fəlsəfə varlıqdan bir nəsnə kimi danışır, öznə isə onu bilik şəklində qavramağa çalışır. Nəsnə-öznə anlayışı fəlsəfənin mahiyyəti hesab olunan "nə-öz-söz" formulunu ifadə edir. Yəni nəsə var, öz onu dərk edir və daha sonra onu sözlə ifadə edir. Nəsnə varlığı təmsil edir, öznə onu bilik şəklində dərk edir və daha sonra bu ikisinin sintezindən "söz" doğur:

"Nə(snə)-öz(nə)-(nə)s(nə)öz(nə)".

Hər bir millətin formalaşdırdığı milli fəlsəfə ilə yanaşı "beynəlmiləl fəlsəfə" də vardır. İkinci fəlsəfə birincinin dili ilə ifadə olunur və onun rənginə boyanır. Başqa sözlə, milli ağıl həmin beynəlmiləl fəlsəfi normaları, qaydaları özününküləşdirir. Obrazlı ifadə etsək, milli ağıl bir arı kimi universal fəlsəfi qaydalar adlanan çiçəklərdən şirə alaraq ondan milli fəlsəfə adlanan bir bal istehsal edir. Bu zaman əldə edilən yeni fəlsəfi məhsul artıq həmin millətə xas olur. Düzdür, həmin məhsul universal olsa da, milli ağıl sistemində bir hissə kimi tama tabe olur.

Fəlsəfə tarixində "Azərbaycan məktəbi" adlı fəlsəfi məktəb olub. Bu məktəbin böyük görkəmli filosofları vardır. Düzdür, onlar müəyyən səbəblərdən dolayı öz xalis ana dillərində fəlsəfələməsələr də, formalaşdırdıqları fəlsəfi irs milli ağılın məhsulu olmuşdur. Bu isə o deməkdir ki, milli fəlsəfəmizin "Azərbaycan məktəbi" adlı bir bazası vardır. Bizim üzərimizə düşən görəv isə

həmin məktəbdən xammalları, ideyaları alaraq xalis ana dilimizdə fəlsəfələməkdir.

Vitqenşteynin "həyat tərzləri (forms of life)" nəzəriyyəsindən çıxış edərək deməkolar ki, milli fəlsəfədə "kimlik" müstəsna rola malikdir. Odur ki, bir qeyri-Azərbaycanlı birisi bir Azərbaycanlı kimi milli fəlsəfəmizi dərk edə bilməz. Onu dərk edə bilmək üçün, mütləq, milli ağıla malik olmaq gərəkdir, çünki azəri həyat tərzini yaşamayan birisi bu millətin milli fəlsəfəsini dərindən anlaya bilməz. Bəli, əgər uzun bir müddət bu millətin içərisində yaşayaraq onların həyat təcrübələrində yaxından aktiv iştirak edərsə, bu zaman milli fəlsəfənin dərkinə yaxınlaşa bilər. Bir sözlə, bir millətin milli fəlsəfəsini anlamq üçün onun həyat tərzini yaşamaq lazımdır.

Azərbaycan fəlsəfə məktəbində iki fərqli paradiqma olub. Biri fəlsəfi, o biri isə irfani idi. Fəlsəfi paradiqma aləmə "varlıq-yoxluq" pəncərəsindən, irfani paradiqma isə ona "işıq-qaranlıq" pəncərəsindən baxırdı. İrfani paradiqma öz fəlsəfi sistemində varlığı "işıq"la, yoxluğu isə "qaranlıq"la əvəz etmişdi. Əlbəttə, bu, formal bir əvəzetmə deyildi, çünki onlar aləmə fərqli bir aspektdən yanaşırdılar. Belə ki, onlar mənəvi eynəklə baxırdılar nəsnə və olaylara. Ancaq fəlsəfi paradiqma ardıcılları eyni eynəklə baxmırdılar aləmə. Zənnimizcə, milli ağıldakı varlıq və yoxluq anlayışları maddi inkişaf və tənəzzülü ifadə edən "varlılıq və yoxsulluq" anlayışları ilə sıx əlaqədardır. Elə buna görə, irfani paradiqmada varlıq(=varlılıq) işıqla, yoxluq(=yoxsulluq) isə qaranlıqla ifadə olunurdu. Bu, ona görə idi ki, varlılıq işıq, yoxsulluq isə qaranlıq bəxş edirdi insana. Buradan aydın olur ki, milli ağılda mənəvi inkişafa gedən yol maddi inkişafdan keçir. Deməli, milli fəlsəfəmiz hər iki amala xidmət etməlidir (**3**).

Azərbaycan filosoflarından Füzuli Qurbanov yazır ki, "milli fəlsəfə necə mümkündür" haqqında danışanda ilk olaraq iki şeyi fərqləndirməliyik. Birincisi, ümumiyyətlə metafizika, ontologiya olmadan heç bir fəlsəfi sistemin mövcudluğundan söhbət gedə bilməz. Nə cərəyanın, nə məktəbin, nə də ayrıca bir istiqamətin mövcudluğu mümkün deyil. İkincisi, fəlsəfənin metafizikası prizmasından baxanda milli fəlsəfə anlayışı ifadəsi nəyi əks etdirə bilər, özündə hansı pozitiv, konstruktiv məzmun daşıya bilər. Bu iki sualın işığında araşdırmalar aparanda belə bir mənzərə yaranır. Mütəxəssislərin rəyinə görə milli fəlsəfə anlayışına iki yanaşma mövcuddur. Birinci yanşma: ümumiyyətlə milli fəlsəfə mövcud deyil. Çünki fəlsəfə özü universal təfəkkürün məhsuludur, fəlsəfənin milli rəngi olmur və o dünyanın ən ümumi formaları haqqında elmdir. Dünyanın ən ümumformaları haqqında elmdirsə, onda ayrı-ayrı milli özünəməxsusluqlara malik olan xalqların ruhi, mənəvi dəyərləri burada necə əks oluna bilər? Bu suala da bu yanaşmanın tərəfdarları belə cavab verirlər: Milli özünəməxsus olan dəyərlər ümumi formanın ayrı-ayrı tərkib hissələri kimidir ki, onların da qarşılıqlı əlaqəsi ümumi dialektik bir vəhdət formalaşdırır. Deməli, birinci yanaşmaya görə, buradan belə çıxır ki, əgər milli fəlsəfə yoxdursa da, şərti olaraq onun bir mövcud olma forması ola bilər, o da kulturoloji yanaşmadır. Yəni ki, mədəniyyət hadisəsi olaraq hər bir xalqın, cəmiyyətin dünya mədəniyyət siste-

mindəki yeri, rolu, funksiyaları, qarşıya qoyduğu məqsəd, özünəməxsusluğu, milli psixologiyası, milli şüurun psixologiyası və s. kimi məsələləri ümumformanın yaradılması naminə öyrənilə bilər. Bu formada müstəqil olaraq milli fəlsəfə anlayışını qəbul etmirlər.

İkinci yanaşmada isə bunun əks tezisi irəli sürülür ki, milli fəlsəfə mövcuddur, milli fəlsəfə vardır və onun mövcudluğu, varlığı hər bir millətin, xalqın özünəməxsus mədəniyyətinə, təfəkkür tərzinə, həyat tərzinə, psixologiyasına, şüura malik olmasıdır. İkinci bir tərəfdən, bunun fonunda hər bir cəmiyyətin özünün öz həyat strategiyaları, məqsədləri olmasıdır. Üçüncüsü, cəmiyyətlər bir-birindən inkişaf səviyyələrinə görə fərqlənirlər. Deyək ki, onların birində milli dövlət vardır, digərində yoxdur, bir başqasında başqa cürdür və bütün bu fərqliliklərin fonunda hər bir millətin özünün fəlsəfi dünyagörüşü, həyata fəlsəfi baxışlar sistemi, özünün düşündüklərinin həyata interpritasiyası üsulu, məntiqi ola bilər. Deməli, milli fəlsəfə bu cür ola bilər. İkinci variantda deyirlər ki, regional fəlsəfə və regionun fəlsəfəsi formasında milli fəlsəfə mövcud ola bilər. Məsələn, regional fəlsəfə deyəndə "azərbaycan fəlsəfəsi", burada "Azərbaycan" sözü kiçik hərflə yazılır. Region fəlsəfəsi deyəndə, "Azərbaycan fəlsəfəsi", burada Azərbaycan artıq regionun, ölkənin konkret bir ifadəsi kimi. Və nəhayət, milli fəlsəfənin mövcudluğunun üçüncü forması kimi hər bir cəmiyyətinin özünün konkret tarixi, retrospektiv reallıqları ilə müasir dünyada, müasir zamanda, zamanın hər bir müasir anında qarşısına qoyduğu vəzifələrin ümumi səviyyədə dünyada gedən proseslərin fonunda öyrənilməsi ilə məşğul olar ki, milli fəlsəfə bu formada da mövcud ola bilər (**5**).

Azərbaycan filosoflarının təfəkküründün məhsulu olan sanballı əsərlərdə birbirindən maraqlı fikir və ideyalar yer alır. Belə ki, təbiətdə və cəmiyyətdə cərəyan edən proseslərin son dərəcə mürəkkəb olduğunu qeyd edən filosoflarımız bildirirlər ki, müasir dövrdə elmlər onların mahiyyətini açmaqda yeni nailiyyətlər əldə etməkdədir. Belə şəraitdə insanların çevik təfəkkürə malik olması həmişəkindən daha zəruridir. Bununla əlaqədar varlığın - təbiət, sosial həyat və insanın daxili dünyası kimi üç əsas sahəsinin sirrlərinin dərindən mənimsənilməsində fəlsəfi dünyagörüşünün rolu durmadan artır.

Fəlsəfəni bilmək kamil şəxsiyyətin zəruri keyfiyyətlərinin insanda formalaşmasına kömək edir, həqiqətə, xeyirxahlığa yiyələnməyə şərait yaradır. Fəlsəfə insanı təfəkkürün adi tipinin məhdud, səthi çərçivəsindən qoruyaraq, dəqiq elmlərin nəzəri və empirik anlayışlarını inkişaf etdirir. Yüksək təfəkkür mədəniyyətinin göstəricilərindən biri subyektin idrakı ziddiyyətlərdən yan keçməməsi, ondan çəkinməyərək həll etməyə çalışmasıdır. Dialektik inkişaf etmiş təfəkkür formal-məntiqi ziddiyyətlərə imkan verməyərək obyektin real ziddiyyətlərini həll etməyə cəhd edir və bu yolla özünün yaradıcı antidoğmatik xarakterini təzahür etdirir (**1, s.78**).

Filosoflarımızın fikrincə, demokratik cəmiyyət quruculuğunda fəlsəfi təfəkkürün tarixiliyi prinsipinə riayət olunması,fəlsəfənin real həyatla ayrılmaz əlaqəsinin təmin edilməsi xüsusilə vacibdir. Belə ki, mücərrəd, qapalı xarakterli

fəlsəfə siyasi-iqtisadi və mənəvi həyatda baş verən əsaslı dəyişiklikləri, köhnə stereotiplərin ləğv olunması prosesini, demokratiya və aşkarlığın inkişafını tam əks etdirə bilmir. Cəmiyyətimizin tarixinin indiki dönüş mərhələsində fəlsəfənin gerçəkliyə münasibətini dəyişdirmək, onu mürəkkəb həyat problemlərinin həllinə yönəltmək tələb olunur. Bu mənada fəlsəfənin əsl sosial-tarixi bilik, həyatda daimi əlaqəli dünyagörüşü olması indi həmişəkindən daha vacibdir.

Qeyd etmək lazımdır ki, fəlsəfə xüsusi reallıqla-mümkün olan dünya ilə əlaqədar olur. İmkan dedikdə - insanın ətraf mühitlə ən ümumi, universal əlaqələrinin zəruri tərəfi başa düşülür. Ən ümumi haqqında iki mənada danışmaq olar: abstrakt- ən ümumi və konkret-ən ümumi, həmin mənalardır. Bu da onu subut edir ki, fəlsəfə biliyin nəzəri formasıdır. O, xüsusi elmlərin adi əlamətlərindən məhrumdur. Fəlsəfə özünün tarixindən ayrılmazdır. Eyni zamanda ənənə ilə əlaqənin qırılmasına yönəldilmişdir. Fəlsəfə adi, həm də qeyri- adi dildə danışır. Fəlsəfə insanın tələbatından doğur, lakin özünün şübhələri ilə sabitliyi dağıdır. O ən ümumi haqqında danışsa da, ancaq ayrılıqda götürülmüş şəxsiyyətin sorğularına cavab verir. Bəzi tədqiqatçılara görə yuxarıda qeyd etdiyimiz ziddiyyətlər fəlsəfədən ayrılmazdır və onun mövcduluğunun iki formasını doğurur (**1, s.128**).

Fəlsəfi problemləri "xalis" şüur problemləri kimi deyil, real gerçəklikdə mövcud olan, zəruri olan problemlər kimi çıxış etdiyini qeyd edən filosoflarımıız, onların nəzəri həllinin birdəfəlik başa çatmadığını bildirirlər. Həyat inkişaf etdikcə bu problemlərə münasibət yeniləşir və zənginləşir. Filosofların qənaətinə görə, fəlsəfi problemlərin həlli onların keçmişinin ümumiləşdirilməsinə, müasir vəziyyətinin təhlil edilməsinə və gələcəyinin proqnozlaşdırılmasına əsaslanır.Nəzəri təfəkkür forması kimi fəlsəfə təkcə keçmişi və müasir dövrü öyrənməklə məhdudlaşmır, həm də gələcəyə müraciət edir. Fəlsəfi təfəkkürün gələcəyin dünyagörüşü modellərini, obraz və ideallarını yaratdığını bildirir.

İnsana fəaliyyətinin uğurlu olması üçün düzgün məqsəd müəyyənləşdirməyin, müvafiq qərar qəbul etməyin son dərəcə vacib olduğunu bildirən filosoflar, dünya haqqında hərtərəfli və düzgün təsəvvürlərə malik olmağı tövsiyə edirlər.

Öz elmi axtarışlarını daim dərinləşdirməyə, həqiqətə, dünyanın sirlərinə daha dərindən yiyələnməyə cəhd göstərən milli düşüncəyə malik filosoflarımız bildirirlər ki, dünyagörüşü insana obyektiv reallıqvə burada insanın yeri haqqında, insanın onu əhatə edən gerçəkliyə və özünə münasibəti haqqında sistemli biliklərverir. Onun məzmununa, filosoflarımız, həm də bu biliklər əsasında formalaşan əqidə və ideallar, idrak və fəaliyyət prinsipləri, dəyər oriyentasiyalarını daxil edirlər.

Azərbaycan filosoflarını dünya binasının quruluşu, maddi ilə mənəvinin münasibəti, dünyada baş verən dəyişikliklərin qanunauyğun və ya təsadüfi olması, xeyir və şər, həqiqət və yalan, həyatın mənası, ölüm və ölməzlik, insan ləyaqəti, məsuliyyət və basqa fəlsəfi məsələlər maraqlandırır. Onların fikrincə, hər bir insan çox vaxt özü də hiss etmədən filosofluq edir, əsrlər boyu fəlsəfəni

düşündürən məsələlər barədə fikirləşir (**4, s.253**).

Filosoflarımız fəlsəfəni bəşər tarixində baş vermiş böyük mədəni çevrilişi-nayrılmaz tərkib hissəsi adlandırırlar. O həm də insanın mahiyyəti, məqsədi və taleyi, həyatın ağıllı təşkili ilə bağlı məsələlərə dair maraqlı fikirlərini bölüşdürürlər.

Azərbaycan filosofları bildirirlər ki, fəlsəfənin elm, siyasət, sosial praktika və mənəvi mədəniyyətlə qarşılıqlı əlaqəsinin daha qabarıq nəzərə çarpmasına baxmayaraq, fəlsəfə əsrlər boyu mənəvi fəaliyyət forması kimi öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

Milli filosofların araşdırmalarına görə, fəlsəfə nəzəri elm kimi müxtəlif məsələləri əhatə edir: insan tərəfindənidraki, sosial və təbiət reallığının mənalandırılmasını təmin edir; bu münasibətdə hər bir konkret mərhələdə əldə edilmiş miqyasları və səviyyəni onu daha da genişləndirmək məqsədilə müəyyənləşdirir; insanların əqidəsinin normativ-dəyər əsaslarını işləyib hazırlayır, dünyanın nəzəri mənzərəsini verir; idrakın prinsiplərini və yollarını göstərir; təbii və ictimai bütövlük daxilində insanın yerini, onun həyatının mənasını müəyyən edir; insanların dəyərlərini, prioritetlərini, ideallarını və məqsədlərini işləyib hazırlayır (**5, s.193**).

Fəlsəfənin mövzularını insanların real həyatı ilə sıx əlaqədə axtaran filosoflarımız, fəlsəfənin əhəmiyyətini belə ifadə edirlər: o, praktiki fəaliyyət üçün mühüm əhəmiyyət kəsb edən emosional-iradi əhval-ruhiyyə yaradır; subyektin müvafiq yaradıcılıq növünə nə dərəcədə uyğun gəldiyini göstərir; insanların həyat fəaliyyəti tiplərini formalaşdırır; onların sınaqdan keçirilməsini və mümkün olanın reallığa çevrilməsini təmin edir; insana özünü reallaşdırmaq üçün proqram verir; onun həyatının vətəndaşlıq mövqeyini, mənasını və amalını müəyyən edir.

Filosoflarımızın təbirincə, yalnız fəlsəfəni öyrənməklə insanlar özlərinin dünya haqqında kortəbii formalaşan təsəvvürlərindəki səthiliyi və yanlışlıqları aradan qaldıra bilir, dünya haqqında düşünülmüş, sistemli və səhih məlumat əldə edirlər.

Həyatı son dərəcədə mürəkkəb, burada gedən prosesləri isə çox ziddiyyətli və rəngarəng adlandıran filosoflarımız onları anlamaq üçün inkişafın meyilləri və perspektivlərini düzgün müəyyənləsdirə bilmək üçün geniş erudisiyaya, həqiqi fəlsəfi biliklərə malik olmaq zəruriliyini irəli sürürlər. İnsanın praktiki fəaliyyəti və mədəni həyatının əsasında duran dünyagörüşü problemlərinin izahında fəlsəfənin rolunun misilsiz olması qənaətinə gəlirlər.

Filosoflarımız fəlsəfəni insanın malik olduğu biliklər sisteminin, dünyanın elmi mənzərəsinin nəzəri bünövrəsi adlandırır. Onlar həm də cəmiyyətdə normal mənəvi mühitin, insanın mənəvi dünyasının formalaşmasına kömək etdiyini, mühüm tərbiyəvi əhəmiyyətə malik olduğunu bildirirlər. Fəlsəfənin əsaslarına yiyələnmiş adamın istənilən elm sahəsində uğurlu fəaliyyət göstərə biləcəyinə əmindir. Eyni zamanda, fəlsəfə digər elmlərin optimal inkişafına kömək edir, onlarda baş verən metodoloji çətinlikləri aradan qaldırır. Fəl-

səfə insanı idrak nəzəriyyəsi ilə silahlandırır, yəni gerçəkliyi mənəvi mənimsəməyin yollarını və vasitələrini müəyyənləşdirir. Fəlsəfəni bilən adamda, filosofların fikrincə, düzgün məntiqi təfəkkür formalaşır, o, həyatı tənqidi və yaradıcı surətdə öyrənir.

Fəlsəfə humanist idealların, ümumbəşəri dəyərlərin qərarlaşmasına kömək edir. Fəlsəfə həm də gerçəkliyi insanların tələbatlarına uyğun şəkildə dəyişdirməyin mühüm alətidir. Ölkəmizin yaşadığı açıq cəmiyyətə keçid, demokratik və hüquqi dövlət quruculuğu vəzifələrinin həllində fəlsəfənin rolunun və əhəmiyyətinin durmadan artdığını bildirirlər.

İnsanlar malik olduqları biliklərə əsaslanaraq öz həyat və fəaliyyət proqramlarını, davranış istiqamətlərini müəyyən edirlər.İnsanların fəaliyyətində biliklə yanaşı, sərvətlər, dəyərlər də çox mühüm əhəmiyyət kəsb edir. Bu sonuncular vasitəsilə insan həyatda baş verən hadisələrə və proseslərə fəal münasibətini bildirir, onları öz məqsədi, tələbatı və mənafeləri mövqeyindən qiymətləndirir və bu halda insanın ədalət və ədalətsizlik, xeyir və şər, gözəllik və eybəcərlikkimi normativ anlayışlardan istifadə etdiyini söyləyir.

Filosoflarımızın qənaətinə görə, insanların sosial vəziyyətini, milli xüsusiyyətlərini, mədəni səviyyəsini, fərdi psixoloji, iradi keyfiyyətlərini səciyyələndirən dünyanı hissetmə,bütövlükdə dünyagörüşünə əhəmiyyətli dərəcədə təsir göstərir (**7, s.16**). Mənəvi-əxlaqi hisslər olan həya, vicdan əzabı, mənəvi borc, mərhəmət, başqasının halına yanmaq - hər bir dövrdə insanların dünyagörüşünün mühüm tərəfini təşkil etdiyini bildirirlər.

İnsanların dünyagörüşünün strukturunda onlar tərəfindən dərindən qəbul edilən, öz həyat mənafelərinə uyğun hesab olunan biliklər **-** əqidə xüsusi yeri tutur. Əqidə və məsləkin rolu o qədər böyükdür ki, onların həyata keçirilməsi yolunda insanlar hətta öz həyatını da qurban verə bilirlər. Biliyin əqidəyə çevrilməsi o vaxt baş verir ki, insanlarda bu biliklərə, onların məzmunu və mənasına inam yaranır və möhkəmlənir.

Demokratik cəmiyyətin qurulmaqda olduğu müasir dövrdə fəlsəfi təfəkkürün tarixiliyi prinsipinə riayət olunması**,** fəlsəfənin real həyatla ayrılmaz əlaqəsinin təmin edilməsi xüsusilə vacibdir. Belə ki, mücərrəd, qapalı xarakterli fəlsəfə siyasi-iqtisadi və mənəvi həyatda baş verəm əsaslı dəyişiklikləri, köhnə stereotiplərin ləğv olunması prosesini, demokratiya və aşkarlığın inkişafını tam əks etdirə bilmir. Cəmiyyətimizin tarixinin indiki dönüş mərhələsində fəlsəfənin gerçəkliyə münasibətini dəyişdirmək, onu mürəkkəb həyat problemlərinin həllinə yönəltməktələb olunur (**7, s.148**). Bu mənada, filosofların fikrincə, fəlsəfənin əsl sosial-tarixi bilik, həyatda daimi əlaqəli dünyagörüşü olması indi həmişəkindən daha vacibdir! Başqa sözlə deyilsə, yeni şəraitdə qarşıda duran problemləri həll edə bilmək üçün fəlsəfə açıq xarakter daşımalıdır.

Fəlsəfə düşüncə sahibi olan alimlərimiz qeyd edirlər ki, cəmiyyətdə obyektiv ilə subyektiv, varlıq ilə şüur, maddi ilə mənəvi bir-birilə sıx əlaqədə və çulğaşmış şəkildə çıxış edir. Bu, təbiidir, çünki insanların yaratdığı bütün nemətlər öz təbiətinə görə insanin əməyinin, vərdiş, bilik və yaradıcılığının mad-

diləşmiş təcəssümüdür.

Onlar izah edirlər ki, insan, onun humanist idealı fəlsəfi dünyagörüşünün mərkəzi məsələsidir. Fəlsəfə insanın mənəvi azadlığını təbliğ edir. Çünki hazırda baş verən əsaslı dəyişikliklər, fəaliyyətin bütün sahələrində özünü göstərən ssiyentizm yəni elmiləşmə və texnisizm insanın şəxsiyyət göstəricilərinə güclü mənfi təsir edir. Nəticədə şəxsiyyətin mənəvi kasadlaşması baş verir. Belə şəraitdə texniki və sosial inkişafa insan ölçüləri baxımından yanaşmağın rolu və əhəmiyyətidurmadan artır. Bu zərurət həm də indiki şəraitdə insanların fəaliyyəti və dünyagörüşünün kəskin surətdə siyasiləşməsi meyli ilə izah olunur. Həmin meyil də şəxsiyyətin humanizmi üçün müəyyən təhlükə yaradır. Beləliklə, fəlsəfənin daha da humanistləşməsi, onun yeniləşməsi və inkişafının əsasını təşkil edir. Cəmiyyətin yaşadığı indiki keçid dövründə, ictimai həyatda özünü göstərən, qeyri-stabillik halları və çətinliklər, köhnə davranış stereotiplərinin və ideallarının əsaslı surətdə yeniləşməsi humanistləşməni daha da zəruriləşdirir.

Filosoflara görə, fəlsəfə müəyyən konkret mədəniyyətin və bütövlükdə insanların ictimai həyatının əsasında duran ən ümumi anlayışları, ideyaları, təsəvvürləri, təcrübə formalarını üzə çıxarır. Belə ümumi kateqoriyalara, universal anlayışlara misal olaraq varlıq, materiya, dəyişilmə, inkişaf, səbəb və nəticə, təsadüf və zərurəti və onlarca başqalarını göstərmək olar. Real gerçəklikdəki hadisə və proseslər arasındakı ən ümumi əlaqələri və münasibəti ifadə edən bu kateqoriyalarsız nə gündəlik həyatda, nə də elmdə və praktiki fəaliyyətin heç bir sahəsində keçinmək mümkün deyildir. Onlar təfəkkür prosesinin zəruri tərəfini təşkil edir.

Filosoflarımız bildirir ki, mədəniyyət sistemində fəlsəfə tənqidi süzgəc rolunu həyata keçirir. O, müxtəlif dünyagörüslərində yaranmış olan müsbət tərəfləri toplayır və onu gələcək nəsillərə ötürür.

Azərbaycan filosofları gündəlik təcrübəni, praktiki və elmi bilikləri nəzəri cəhətdən ümumiləşdirir, sintez edirlər. Fəlsəfi təfəkkürün praktiki, idraki və qiymətverici tərəflərin vəhdətini təmin etmək sahəsindəki rolu ictimai həyatda çox mühümdür. Belə ki, həmin üç tərəfin ahəngdarlığı və mütənasibliyi ictimai inkişafın zəruri şərtidir. Məsələn, deyək ki, bu və ya digər tarixi dövrdə yeridilən siyasət yalnız elm və əxlaq ilə düzgün əlaqələndirildikdə tam dolğun reallaşa bilər. Xüsusilə də bugünkü şəraitdə bəşəriyyətin ümumi mənafeyinə uyğun gələn dünyagörüşü oriyentasiyası mədəniyyətin bütün vəzifə və sərvətlərinin birləşdirilməsini - elmi, humanist və əxlaqi tərəflərin əhatə olunmasını tələb edir. Bu işdə isə fəlsəfi təfəkkür müstəsna yer tutur (**12, s.342**).

Filosoflar bildirir ki, fəlsəfə həm də mühüm mədəni-tərbiyəvi funksiya yerinə yetirir. Onu öyrənərkən insanın təfəkkür və ümumi mədəniyyəti yüksəlir. Fəlsəfəni bilən adam dünyada və cəmiyyətdə gedən prosesləri izah edərkən adi şüur səviyyəsinə xas olan dayazlıq, dağınıqlıq və ziddiyyətlilikdən azad olur.

Fəlsəfi kateqoriyalar və anlayışlarda gerçəkliyin bu və ya digər tərəfinə aid

çox qiymətli informasiyalar toplanılır, təhlil edilir və nəsildən-nəslə ötürülür.

Fəlsəfi metodun digər metodlardan üstünlüyünü bildirən filosoflarımıza görə, fəlsəfə elmi biliklərin artmasına, yeni elmi müddəaların yaranmasına kömək edir. Bu, fəlsəfi və formal məntiqi metodun vəhdətdə tətbiqi ilə təmin olunur. Nəticədə fəlsəfə müəyyən nəzəri-dünyagörüşü və ümummetodoloji xarakterli yeniliklər yarada bilir. Digər tərəfdən fəlsəfi metod başqa metodlarla birləşdikdə mürəkkəb nəzəri və fundamental problemlərin həllində xüsusi elmlərə mühüm köməklik göstərir. Fəlsəfə həm də ayrı-ayrı elmlərə hipotez və nəzəriyyələr yaratmaqda kömək edir. Belə ki, yeni nəzəriyyə təkcə empirik şərtlər üzərində qurulmur. Bu işdə nəzəri müddəalar çıxış nöqtəsi rolunu oynayır.

Fəlsəfə ilə digər elmlərin əlaqələrini təhlil edən filosoflarımız bildirirlər ki, fəlsəfə və xüsusi elmlər bir-birilə qarşılıqlı təsirdəçıxış edir, qarşılıqlı surətdə bir-birini zənginləşdirirlər. Fəlsəfə ilə digər konkret elmlərin müqayisəsi sübut edir ki, fəlsəfənin idraki imkanları çox böyükdür və o, biliklər sistemində mühüm yer tutur. Fəlsəfə ilə elmin əvvəlcə tarixən eyni kökdən yarandığını, sonralar onların bir-birindən ayrı inkişaf etdiyini bildirirlər. Lakin onların inkişafı bir-birindən təcrid olunmuş halda deyil, bir-birilə sıx dialektik əlaqədə baş vermədiyini qeyd edirlər. Onlar qeyd edirlər ki, konkret hadisələri öyrənən xüsusi elmlərdən fərqli olaraq fəlsəfə ən ilkin səbəblər, ilkin prinsiplər, varlığın ən ümumi əsasları haqqında təlimdir. Buna görə də fəlsəfə xüsusi elmlərdən daha güclüdür.

Varlıq mövzusunun fəlsəfədə mərkəzi yer tutduğunu filosoflar aşağıdakı səbəblərlə izah edirlər: birincisi, bütöv bir tam kimi dünyanın varlığının və insanın varlığının öyrənilməsi fəlsəfənin əsas predmetidir. İkinci, varlıq haqqında təlim (ontologiya) fəlsəfənin ən mühüm tərkib hissəsidir. Nəhayət hər bir fəlsəfi cərəyan öz baxışlarını izah edərkən birinci növbədə varlıq anlayışına əsaslanır. Buradan aydın olur ki, varlıq fəlsəfənin əbədi və dəyişməz məsələsidir (**7, s. 284**).

Varlıq ətrafında gedən fəlsəfi axtarışlar öz mahiyyətinə görə müəyyən bir şəxsin və ya sosial qrupun mənafeyi ilə məhdudlaşmır. O, bütünlükdə cəmiyyəti düşündürən və narahat edən məsələdir. İnsanın təkcə maddi fəaliyyəti deyil, həm də mənəvi həyatı (elmlə, bədii yaradıcılıqla və incəsənətlə məşğul olması) onun varlıq haqqındakı təsəvvürləri ilə sıx bağlıdır. Bundan əlavə varlığın anlaşılması insanları xoşbəxtliyə, vicdanlı olmağa, öz borcunu başa düşməyə yönəldən cəhdlərin mənbəyidir. Bir halda ki, varlığı yalnız insan öz təfəkkürü ilə dərk edə bilir, deməli, onu bilmək insanı öz həqiqi mövcudluğunu, əzəli varlığını anlamaq, əldə etdiyi azadlıq səviyyəsini mənalandırmaq üçün son dərəcəzəruridir.

Varlıq anlayışının geniş və dar mənada işləndiyini bildirən Azərbaycan filosofları qeyd edir ki, birinci halda dünyada mövcud olan hər şey (cansız təbiət, üzvi aləm, cəmiyyət, Yer kürəsi, bütövlükdə Qalaktika) varlığa daxil edilir. Belə yanaşdıqda insanların siyasi fəaliyyəti və mənəvi fəaliyyətinin bütün məhsulları, elmi, şüuru, ideya və baxışları, hiss və təsəvvürləri də varlığa daxildir. Sö-

zün məhdud (dar) mənasında varlıq dedikdə isə insanların şüurundan kənarda və ondan asılı olmayaraq mövcud olan obyektiv reallıq başa düşülür Bu halda varlığın iki əsas növünü-obyektiv reallığın və subyektiv reallığın bir-birindən fərqliliyi vurğulanır.

Filosoflarımız belə bir həqiqəti də bizə mesaj göndərir: bütöv bir tam kimi götürülən dünya əbədi xarakter daşısa da, buradakı konkret cismlər, təbiət hadisələri və canlılar müvəqqətidir, onlar fasiləsiz surətdə dəyişilirlər.

Filosoflarımız şüuru bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində duran problem adlandırmaqla qeyd edir ki, fəlsəfənin əsas predmetini təşkil edən dünyagörüşü məsələləri sırasında şüur öndə durur və insanın dünyada yeri və rolunun izahı şüurun anlaşılmasından başlayır. Şüuru bilmədən insanın ətraf dünya ilə qarşılıqlı münasibətlərini aydın təsəvvür etmək qeyri-mümkündür.Xüsusən də bu münasibətlərin özünəməxsus xarakterini başa düşmək üçün şüurun təbiətini öyrənmək lazımdır**.** Fəlsəfə şüura ümumnəzəri planda yanaşır.O, şüuru insanın və cəmiyyətin fəaliyyəti baxımından təhlil edir. Ona dünyagörüşünün çıxış nöqtəsi kimi yanaşır. Fəlsəfə həm də şüuru insanın gerçəklik ilə münasibətlərinin özünəməxsus forması kimi mənalandırır.

Şüur birdən-birə hazır şəkildə meydana çıxmamışdır. O, uzun davam edən təkamülün nəticəsi kimi yaranmışdır. İnsanın heyvanlar aləmindən ayrılması və əmək fəaliyyəti şüurun yaranmasında mühüm rol oynayır (**7, s. 299**).

Ruhdan danışarkən göstərilməlidir ki, hər bir insanın ruhu sırf fərdi fenomendir. O, özündə həmin şəxsiyyətin təkrarolunmaz xüsusiyyətlərini təşkil və ifadə edir. Qədim təsəvvürlərə görə ruh yaranmır. O, əbədi mövcuddur. Özü də ruh xarici aləmdən və insan bədənindən tam azaddır. Onun müstəqil, öz həyatı vardır. Ruh insanın fikirləri, hissləri və arzularının daşıyıcısı və səbəbidir. Lakin ruhun bu cür izahı kifayət deyildir. Çünki nə qədər sehrli olsa da ruh insanın təbii imkanları, tərbiyəsi, təhsili, cəmiyyətdə yeri və ümumi mədəniyyəti ilə əlaqədə formalaşıb inkişaf edir. Bu mənada hər bir insanın ruhu məhz ona məxsus olan xarakteri, temperamenti, davranış manerasını ifadə edir. Onun məzmununda fikirlər, arzu və istəklər, iradi keyfiyyətlər vardır. Bu unikallığı ilə yanaşı ruh bütün insanlara xas olan keyfiyyətdir. Odur ki, bütövlükdə insan ruhu haqqında danışmaq mümkündür.

İnsanın şüuru öz daxili məzmununa görə mürəkkəb və çoxsəviyyəli xarakter daşıyır. O, bütöv bir sistemdir. Bu sistemin daxilində bir-birilə qanunauyğun əlaqələrdə olan müxtəlif elementlər və tərəflər vardır.

Şüurun tərkibində mənlik şüuru çox mühüm yer tutur. Bəzən belə fikir söylənilir ki, mənlik şüuru şüurdan kənarda, onunla yanaşı mövcuddur. Filosoflar yazır ki, mənlik şüuru şüurun daxilində onun yüksək səviyyəsi kimi çıxış edir. Mənlik şüuru insanın özünün fikir və hisslərinin, mənafe və məqsədlərinin öyrənilməsinə yönəlir. Başqa sözlə bu halda insanın daxili aləmi şüurun obyekti kimi çıxış edir. Beləliklə, mənlik şüuru insanın öz hərəkətlərini, hissləri və fikirlərini, davranış motivlərini, mənafelərini, cəmiyyətdə öz yerini başa düşməsidir.

İnsanın öz-özünə maraq göstərməsi təzə məsələ deyildir. Vaxtı ilə Sokrat "öz-özünü dərk et!" şüarını elan etmişdi. Bu çağırışı o, öz fəlsəfi dünyagörüşünün çıxış nöqtəsi hesab edirdi.

Özünü dərk etmək və özü haqqında fikirləşmək yalnız insana məxsus keyfiyyətdir.Filosoflar hər bir insanın "Mən"ində ən azı üç obrazı ayırır: a) insan hazırkı vəziyyətdə özünü necə qavrayır; b) o, öz "Mən"inin idealını necə təsəvvür edir; s) onun "mən"i başqalarının gözündə necə görünür (**12, s.174**).

İnsanın öz-özünü dərk etməsi onun fəaliyyətinin və inkişafının nəticəsidir. Özünüdərk şüurun inkişafının xeyli dərəcədə sonrakı dövrünün məhsuludur. Mənlik şüurunun formalaşması şəxsiyyətin qüvvələrinin və bütövlüyünün artması, müstəqil subyekt kimi qərarlaşması gedişində baş verir.

Mənlik şüurunda insan öz şüurunun, hərəkətlərinin və ünsiyyətinin subyekti kimi özünü başa düşür. Əgər şüur başqa bir obyekt haqqında bilikdirsə, ondan fərqli olaraq mənlik şüuru insanın özü haqqında bilikdir. Vaxtilə Hegelin dediyi kimi o, bir növ həm özünü, həm də başqalarını aşkar edən mənəvi işıqdır.

Mənlik şüuru insanın özünə kənardan baxa bilmək qabiliyyəti ilə bağlıdır. O, insana öz şüur aktlarına tənqidi yanaşmaq imkanı verir. Bu o deməkdir ki, subyekt öz daxili dünyasına aid olan hər şeyi, kənardan daxil olanlarla müqayisə edir, onlardan fərqləndirməklə öz daxilini daha dərindən öyrənir.

Mənlik şüurunun formalaşması və inkişafı ictimai mahiyyət kəsb edir.Bu o deməkdir ki, hər bir şəxsin mənlik şüuru başqaları ilə ünsiyyətdə, onların verdiyi qiymətləndirici münasibətlərlə ayrılmaz əlaqədə yaranır. Digər tərəfdən hər bir insanın hərəkət və davranışlarına müəyyən tələblər və normalar qoyulur. Mənlik şüuru onları nəzərə almaqla və onlara müvafiq formalaşır.

İnsan, onun varlığı, mənşəyi, həyatının mənası, ölümü və ölməzliyi ilə bağlı məsələlər də filosoflarımızı maraqlandırır və bu barədə orijinal fikirlər irəli sürür. Hazırda insan probleminə çoxalmaqda olan diqqəti filosoflar aşağıdakı səbəblərlə əlaqələndirir. Hər şeydən əvvəlmüasir ictimai inkişafda insanın rolu durmadan artır. O, sosial proseslərə və bütövlükdə dünyanın gedişatına güclü təsir göstərir. Digər tərəfdən müasir eimi-texniki tərəqqinin törətdiyi nəticələr baxımından insan ilə texnika arasındakı münasibətlərə yeni tərzdə yanaşmaq tələb olunur. Nəhayət,indi bəşəriyyətin rastlaşdığı qlobal problemlər insanın varlığını təhlükə altına alır. Deməli onların həlli də insan ilə sıx bağlıdır.

Fəlsəfə, filosofların fikrincə, insanı öyrənən konkret elmlərdən (iqtisadi nəzəriyyə, sosiologiya, psixologiya, təbabət, biologiya və s.) fərqli olaraq ona bütöv bir tam kimi yanaşır. Müasir dövrdə insanı öyrənən bu xüsusi elmlər böyük nailiyyətlər əldə etmişlər. Lakin onlar öz predmetlərinə uyğun olaraq insanın bu və ya digər səpkisinə diqqət yetirirlər. Buna görə də həmin məlumatlar əksərən birtərəfli xarakter daşıyır. Odur ki,insanı kompleks və hərtərəfli öyrənməyə tələbat və ehtiyac yaranır. Bu vəzifə isə fəlsəfənin öhdəsinə düşür. O,ümumnəzəri və dünyagörüşü elmi olmaq etibarilə insan haqqındaki konkret elmləri bir növ inteqrasiya edir. Fəlsəfə insanı kompleks və hərtərəfli təhlil edir. Beləliklə də, insanı öyrənən konkret elmlərin dar çərçivəsini,

məhdudluqlarını aradan qaldırmağa imkan verir.

İnsan nədir sualına cavab verərkən filosoflarımız bildirir ki, insan ən mürəkkəb və sirli obyektlərdəndir. Onun mahiyyətinin izahında hələ də bir çox məsələlər aşkar olunmamış qalır. İnsanın mahiyyəti kainat qədər sirlidir. Bu mənada onun öyrənilməsini bitmiş hesab etmək olmaz. Elm onun dərinliklərinə nüfuz etdikcə açılmamış qatların çox olduğu daha aydın görünür (**5**). Odur ki, insanı tam öyrənmək üçün bir ömür kifayət deyildir.

Modernləşməyə münasibət bildirən filosoflarımızın fikrincə, modernləşmə sistemli şəkildə ictimai həyatın bütün sahələrində baş verən mürəkkəb və uzunmüddətli sosial dəyişikliklər prosesidir. O, cəmiyyətdə siyasi, iqtisadi, sosiomədəni, sosial-psixoloji, ailə-məişət sahələri ilə yanaşı, dünyagörüşü və ictimai şüurda baş verən mühüm dəyişiklikləri əhatə edir. Əslində, modernləşmə müasir dövrün hadisəsi deyil, o bəşəriyyətin inkişafının bütün dövrlərində bu və ya digər şəkildə təzahür etmişdir. Yəni modernləşmə paradiqması nəzəri cəhətdən yeni ideyalarla, nəzəri-metodoloji yanaşmalarla zənginləşərək inkişaf edir. Bütövlükdə, modernləşmə nəzəriyyəsi hər bir konkret ölkənin daxili inkişaf amillərinin nəzərə alınmasına, dövlətin inkişafını təmin edən sosial dəyişikliklərin və təkamül prosesinin müəyyənləşməsinə yönəlməlidir. Bu sahənin tədqiqatçıları modernləşmə proseslərində siyasi, iqtisadi elitanın rolunun danılmaz olduğu iddialarına xüsusi diqqət yetirirlər. Yəni Hantinqtondan başlayaraq, bu sahəyə aid fikir sahibləri modernləşmənin "aşağıdan" həyata keçirilməsini mümkün saymırlar. Modernləşmənin, yeniləşmənin, bütövlükdə, inkişafın əldə edilməsi üçün siyasi elita öz ölkəsinin iqtisadi, siyasi, mədəni xüsusiyyətlərini dərindən bilməlidir, ən əsası isə, bunları nəzərə almaqla dəyişikliklərin həyata keçirilməsini reallaşdırmağa çəhd etməlidir (**6**).

Azərbaycanda A.A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı ilə başlayan maarifçilik hərəkatı M.F.Axundzadə və H.Zərdabi ilə davam etdirilmiş, daha sonra C.Məmmədquluzadə, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, İ.Talıbov, F.Köçərli, İ.Musabəyov, S.Qənizadə, R.Əfəndiyev Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, M.Rəsulzadə, M.Məmmədzadə, N.Yusifbəyli və digər ziyalılarla davam etdirilmişdir. Bu mənada dövrün ictimai-siyasi görüşlərinin ideya mənbəyini milli və bəşəri dəyərərin vəhdəti təşkil edirdi. Və tarix də təsdiq etdi ki, modernləşməyə, yeniləşməyə aparan yol da məhz bu vəhdətin necə reallaşdırılmasından asılıdır. O dövrün ziyalıları Avropa demokratik təcrübəsini, qabaqcıl ideyaları mənimsəyərək, Azərbaycan reallığına tətbiq etməyə cəhd göstərmişlər. Yəni bu ziyalılar öz fəaliyyətlərini yalnız ənənələrlə, milli zəminlə məhdudlaşdırmamışlar, onlar dünya mədəniyyəti səviyyəsinə çatmağın yollarını aramışlar.

Qeyd etmək lazımdır ki, bir milli-ideoloji hərəkat olaraq, maarifçilik Azərbaycanda milli ideyanın formalaşmasında misilsiz rol oynamışdır. Bu baxımdan akademik Ramiz Mehdiyevin milli ideyanın təşəkkülünü mərhələlərə bölməsi, mahiyyətcə hadisəni ətraflı izah edir. Akademikin fikrincə, milli ideyanın təşəkkülünün birinci mərhələsi 1828-1875-ci illəri əhatə edir. Rusiya-İran

müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin ərazisi Rusiya imperiyasının tərkibində qalmış, burada azərbaycanlıların tədricən həmrəy olması prosesi başlanmışdır. O dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl hissəsi hələ fars və ərəb ruhanilərinin təsiri altında idi. Bununla bərabər, məhz həmin dövrdə milli realist ədəbi məktəb formalaşmağa başlayır. Bu məktəbin səpdiyi milli oyanış toxumları sonrakı onilliklərdə cücərmişdir (**6**).

İndustrial, postindustrial və informasion cəmiyyət, vətəndaş cəmiyyəti və hüquqi dövlət konsepsiyalarını, etik problemləri ətrafı təhlil edərək maraqlı fəlsəfi fikirlər irəli sürən Azərbaycan filosofu İlham Məmmədzadə qloballaşma barəsində yazır: "Qloballaşma milli dövlətlərə meydan oxuyur. Dünya iqtisadiyyatının və maliyyəsinin inteqrasiyası milli dövlətlərin qəbul etdiyi qərarların əhəmiyyətini azaldır. Əgər əvvəllər dövlət sərhədləri hakimiyyətin siyasi və iqtisadi səlahiyyəti daxilində idisə, indi dövlət getdikcə daha çox ümumdünya iqtisadiyyatına cəlb edilir, dünya miqyaslı iqtisadi prosesdən asılı vəziyyətə düşür. Transmilli korporasiyaların (TMK) iqtisadi qüdrəti suveren dövlətlərin çoxunun ümumi daxili məhsulu ilə müqayisə edilir. Hər hansı bir ölkənin nəzarətindən kənarda olan beynəlxalq maliyyət sistemi öz şərtlərini irəli sürür. Beynəlxalq münasibətlərin transmilliləşməsi nəticəsində iqtisadi həyat fəal şəkildə ayrı-ayrı dövlətlərin sərhəddindən kənara çıxır. Tənzimlənməsində hər bir dövlətin maraqlı olduğu təsərrüfat məkanı dövlətlərin öz qanuni ərazilərinə uyğun gəlmir. Dünyanın siyasi və iqtisadi xəritələri çox hallarda bir-birinə uyğun gəlmir, milli suverenlik isə getdikcə əvvəlki məzmununu itirir.

Ərazi üzərində nəzarətin qismən itirilməsi və bununla əlaqədar milli dövlət funksiyalarının həmin dövlətin fövqündə duran beynəlxalq qurumlara və onların arxasında duran qüvvələrə keçməsi vətəndaş cəmiyyətinin bütün təşkilat sistemini prinsipcə kökündən dəyişir. Dövlət aparatı ictimai həyat qaydaları və normalarını işləyib hazırlamaq sahəsində nəzarəti qismən itirir, beynəlxalq hüquq normaları aparıcı rol oynamağa başlayır. Qlobal qaydaların formalaşdığı bir şəraitdə milli dövlətçilik ikiqat təzyiqə məruz qalır – yuxarıdan beynəlxalq və fövqəltəşkilatlar, aşağıdan lokal bölgə strukturları. İndiki vaxtda siyasi dünya milli mədəniyyətlər çərçivəsindən kənara çıxsa da, çox hallarda vahid siyasi məkana çevrilsə də, sosial-mədəni fərqlər hələ də qalmaqdadır və vahid informasiya meydanında bir-biri ilə toqquşurlar. Böyük dünya dinləri nəhəng regionları əvvəlki kimi birləşdirir, hərəsi özünün xristian, müsəlman, hind-buddist, konfutsi-buddist dünyasını yaradır. Sosial-mədəni və dini fərqlər çox vaxt siyasi dialoqa mane olur, siyasi münaqişələrdə bayraq kimi istifadə olunur.

Yuxarıda deyilənlər zamanın reallığı olsa da, qloballaşma prosesi milli dövlətlərin ənənəvi funksiyalarının keyfiyyətcə dəyişməsinə və məhdudlaşmasına, beynəlxalq və transmilli təşkilatların isə daha da güclənməsinə gətirib çıxarır. Bu prosesdə müasir informasiya texnologiyasının rolu həlledicidir (**8, s.13**).

XX əsrin ikinci yarısından qloballaşma proseslərinin genişlənməsi, informasiya texnologiyalarının, kütləvi kommunikasiya vasitələrinin inkişafi, habelə

elmi tədqiqatlarda yeni metodoloji yanaşmaların – sinergetika, diskurs və s. kimi yanaşmaların yayılması ilə fəlsəfi-intellektual məkanda yeni təfəkkür tipi qərarlaşmağa başladı. Elmi rasionallığın tipi filosofun fəaliyyətini daha geniş rakursda götürərək obyekt haqqında biliklərimizin təkcə tədqiqat vasitələrindən və əməliyyatlardan deyil, alimin həm elmdaxili, həm də sosial oriyentasiyasından da asılı olduğunu vurğulayır.

Klassik elmin cəmiyyətə verdiyi töhfələrin yeri nə qədər böyükdürsə də, postneoklassik ideya və fikirlərin meydana gəlməsi və cəmiyyətin xidmətinə verilməsi böyük aktuallıq kəsb edən mühüm məsələdir. Çünki postneoklassik elm klassik elmdən qidalanaraq yeniliyi təbliğ edir, bunun həticəsində bir sıra köhnəlmiş ideya və fikirlər tarixin arxivinə verilir. Bunun üçün, yəni postneoklassikanın tam inkişafı və cəmiyyətdə öz yerini tapması, yeni-yeni fikirlərlə cilalanması üçün müəyyən zaman lazımdır.

Bu gün postneoklassik elmin problemlərinə həsr olunmuş çoxlu sayda əsərlər işıq üzü görməkdədir. Postneoklassik elmin xüsusiyyətlərinə bu sahənin tanınmış mütəxəssisi görkəmli Azərbaycan filosofu Ə.S.Abasov aşağıdakıları aid edir: a) təbiətin mexanizm yox, bütöv bir orqanizm kimi qavranılması, - bu, biosfer, ekosistem (ekologiya) kimi anlayışlarda öz əksini tapır; b) elmi və texnoloji mənimsənin obyektinə mürəkkəb, özinkişafda olan sistemlərin daxil olması və bunun nəticəsi olaraq qeyri-zorakılıq hərəkət strategiyalarının aktuallaşması; d) həqiqət və mənəviyyatın bir-biri ilə ayrılmaz bağlılığı ideyasının irəli sürülməsi. Ə.S.Abasov bildirir ki, rasionallığın postneoklassik tipinin meydana gəlməsi, təbii ki, fəlsəfi təfəkkür tərzinə yenidən baxılması məsələsini də aktuallaşdırdı. Bu, fəlsəfi diskussiyaların əsas mövzularından birinə çevrildi, bu diskussiyalardan elmi zəkanın əxlaqla birləşdirilməsinin mümkünlüyü, elmi-texniki tərəqqinin humanistləşdirilməsi, dünyanın yeni, qeyri-xətti mənzərəsinin olması haqqında fəlsəfi-dünyagörüşü nəticələr əldə edildi. Artıq danılmaz fakt olmuşdur ki, xətti modellərə arxalanmaqla müasirliyin bir çox problemlərini həll etmək mümkün deyil. Sosial və iqtisadi elmlərdə, siyasətdə və humanitar elmlərdə çalışan mütəxəssislər dərk edirlər ki, bəşəriyyətin əsas problemləri də qloballığı, mürəkkəbliyi, qeyri-xəttiliyi ilə seçilir. O, verballığın 3 növünü ayırd edir:1. Monoloq - başqasının fikrini nəzərə almamaq. 2. Dialoq - müsahibin dünyagörüşünü və ideyalarını qəbul etmək. 3. Poliloq - müzakirədəki iştirakçıların dünyagörüş və ideyalarının çox obrazlılığına diqqət yetirərək qəbul etmək. Həmin növlərə uyğun olaraq Ə.S.Abasov aşağıdakı təsnifatı əsaslandırır: 1. Monoloq - klassik fəlsəfə və elm. 2. Dialoq - qeyri-klassik fəlsəfə və elm. 3. Poliloq – postneoklassik fəlsəfə və elm **(9, s. 50).**

Buna görə də Ə.Abasov postneoklassik fəlsəfəni Azərbaycan filosofları üçün *terraincognito* adlandırmagın düzgün olmadığını və onların bəzilərinin idrakın bu istiqamətində uğurlu tədqiqatlar apardığını yazır. Bununla bərabər filosof qeyd edir ki, bu tədqiqatların hamısı nəzəri xarakter daşımır və fəlsəfənin, elmin, Azərbaycan cəmiyyətinin praktik reallıqları ilə uzlaşmır. (**10, s.15**).

Görkəmli Azərbaycan filosofu Ə. Abbasovun sistem yanasma, sistemlilik və

butövlük problemi, mürəkkəb sistemlər nəzəriyyəsi, mürəkkəblik fəlsəfəsi, sinergetika, optimum fəlsəfəsi, idarəetmənin sinergetik fəlsəfəsi, tənqidi sinergetik təfəkkür və açıq cəmiyyət konsepsiyaları, postneoklassik epistemologiya, milli maraqlar və milli ideologiya, azərbaycançılıq ideyası, insan haqları və ictimai rəy, intellektual resursların idarə olunması və insan kapitalı, yeniləşən cəmiyyətdə iqtisadi, siyasi və sosial institutların transformasiyası, ictimai meqatrend problemi, geosiyasi fəlsəfə və dünya nizamı problemləri, bəşəriyyətin inkisaf nəzəriyyəsi üzrə tədqiqatlar onun yaradıcılıgının əsas istiqamətləridir. Onun orijinal yaradıcılığı qnoseoloji və məntiqi zəminlərin, metodoloji yanasmaların, akseoloji məqamların dürüstlüyü, tamlığı və evristliyi ilə fərqlənir. Bu, filosofun böyük məsuliyyətinin, vətənpərvərliyinin, xalqına və bəşəriyyətə sonsuz məhəbbətinin, haqqa və ədalətə vurğunlugunun məhsuludur. Professor "Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti"adlı məqaləsində "millət", "milli ideya", "milli ideologiya", "milli maraqlar" kimi cəmiyyətin və dövlətin taleyində fundamental əhəmiyyətə malik olan fenomenlər haqında yazır: " **...** ortada yekdil qəbul edilmiş, qərarlaşmış fikir yoxdur. Nəzəri pərəkəndəlik, ümumi bir məxrəc üzərində vahidliyi təmin etməyən fikir müxtəlifliyi isə, bütün hallarda, praktiki işlərin gedişinə, ictimai proseslərin cərəyanına mənfi təsir göstərməyə bilməz. Bugünün özündə də bir çoxları belə vəziyyəti, əfsuslar ki, demokratiyanın təzahürü, hətta təntənəsi hesab edirlər. Unudurlar ki, millətin və dövlətin müqəddaratına xidmət etməli olan fundamental kateqoriyalar hansısa dəbə (qlobal olsa da belə!) qurban verilməməlidir. Ümumiyyətlə, həqiqi demokratiyaya xidmət dəbə qulluqla bir araya sığmır. Demokratiyaya, xalqın, millətin və şəxsiyyətin suverenliyinə aparan yol ağıldan, təfəkkürdən keçir. Hələ vaxtilə Akvinalı Foma deyirdi: "Hər bir azadlığın kökü zəkadadır". Beləliklə, məntiqi olaraq, deyə bilərik ki, mühüm kateqoriyalara yetirilən ziyanlar bilavasitə dəbin özündə və ona qulluqda (köləlikdə) deyil, problem təfəkkürdə, əqli durumda yuva salmış xəta və nöqsanlardadır. O cümlədən – barəsində söhbət gedən kateqoriya-fenomenlərə koqnitiv fəzada yararlı, yəni tarixi situasiyaya və sosial zamana, elmi tələb və meyarlara, reallıq və məntiq dəqiqliyinə cavab verən qnoseoloji zəminlərin və metodoloji yanaşmaların yoxluğunda, yaxud da gücsüzlüyündədir. Bütövlükdə, özündə, zəruri olaraq, aksioloji məqamları da ehtiva edən epistemoloji sistemin olmaması və yaxud yararsızlığı nəinki ictimai inkişaf və sosial rekonstruksiya üçün əhəmiyyətli olan bugünkü problemlərin həllini qəlizləşdirir, həm də keçmişi dəyərləndirməkdə və gələcəyi müəyyənləşdirməkdə maneə törədir, səhflərə yol açır.

Ola bilsin ki, bir çox bioloji, fiziki, kimyavi, riyazi və sair obyekt-fenomenləri təhlil edib öyrənmək üçün başqaları tərəfindən ortaya qoyulmuş və bir növ ümumi sərvətə çevrilmiş məhsuldan, yəni epistemoloji bazadan qədərincə bəhrələnmək olar (bunu tarixi praktikanın özü də təsdiqləyir!), lakin, fikrimcə, milli səciyyə daşıyan, daha dəqiq desək, milli mahiyyəti ifadə edən və bilavasitə bu mahiyyətin xidmətində dayanan fenomenlərin tədqiqində "öz epistemolo-

giyamız” olmalıdır, başqalarından, “ümumi”dən bəhrələnmək yalnIz məhdudi çərçivədə ola bilər. Əlbəttə ki, belə epistemoloji arsenalın yaradılmasında dünyada mövcud olan həm nəzəri, həm də praktiki-təcrübi sərvətdən istifadə vacibdir. Burada özünə qapılma əvvəlcədən nəyisə yaratmaq prosesinə son qoymaq deməkdir. Yaradıcılıq aktı, kreativlik yalnız ətrafa, mühitə açıqlıq və-ziyyətində mümkündür.Ümumiyyətlə, əqli və əməli fəaliyyətin dinamik açıq sistem məzmun-mahiyyətində qurulması etibarlı inkişaf və tərəqqinin şərtidir.

Bu məntiqin davamı olaraq deyə bilərik: milli məzmun-mahiyyətli feno-menlərlə bağlı vəzifə və prioritetlər bizim araşdırmaların qabaqcıl elmin müasir epistemologiya sahəsində əldə etdiyi səviyyəyə müvafiqliyi kontekstindən qavranılmalı və reallaşdırılmalıdır. Yuxarıda zərurətini göstərdiyim “öz episte-mologiyamız”ın yaradılması prosesi də yalnız bu zirvəyə yaxınlığı, doğmalığı şərtilə məhsuldar və faydalı ola bilər”(**11, s. 275-276**).

Milli fəlsəfəmiz günü-gündən inkişaf edir, yeni-yeni fikirlərlə cilalanır. Bu fəlsəfədə irəli sürülən fikirlər cəmiyyətin inkişaf vektoruna uyğun gələrək yeni-yeni çalarlar əldə edir ki, bunun müqabilində əldə olunan biliklər sintezləşdiri-lir, fərqli baxışların təsiri altında daha da möhkəmlənir.

Ədəbiyyat:

1.Şükürov A. Fəlsəfə. Bakı, 2011.

2.Abbasov Ə.F. Fəlsəfə millətləşmənin və müstəqil dövlətçiliyin zəruri əsaslarındandır//Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. Toplu. Bakı, Elm, 2011, s. 6-7.

3. İmani E.http://sizinyol.com/2017/02/milli-f%C9%zi-qeydl%C9%99rim/

4.www.elmarhussein.az 13.01.19

5. www.redaktor az. 01.05.19

4.Ramazanov F. və b. Fəlsəfənin əsasları. Bakı, 1997.

5.Mehtiyev R. Fəlsəfə. Bakı, 2007.

6. Rüstəmova A. Azərbaycanda milli ideyanın formalaşmasında maarifçiliyin və modernləşmənin rolu//http://xalqqazeti.com/az/news/politics/87510

7. Hacıyev Z. Fəlsəfə. Bakı, Elm, 2012.

8.Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin ak-tuallığı haqqında. Bakı, Təknur, 2013.

9.Абасов А.С. Монолог классисизма, диалог неклассизма и полилог постнеклассизма. /Müasir fəlsəfə, elm və mədəniyyət:postqeyri-klassik episte-mologiya. Konfrans materialları. Bakı, Təknur, 2011

10. Абасов А.С. Вместо введения. /Müasir fəlsəfə, elm və mədəniyyət:postqeyri-klassik epistemologiya. Konfrans materialları. Bakı, Təknur, 2011.

11. Abbasov. Ə.F. Milli fenomenlərin dərki və şərhində adekvat episte-mologiya zərurəti//Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik episte-mologiya. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Müasir fəlsəfə

problemləri şöbəsi. Respublika konfransının materialları. Bakı, Təknur, 2011, s.275-276.
12. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı, Təknur, 2008.

Radif Mustafayev

MÜASİR DÖVR LİBERALİZM ŞƏRAİTİNDƏ MULTİKULTURALİZMİN DİSKURSİV ƏSASLARINA BAXIŞ

Giriş

Keçən əsrin 60-cı illərindən başlayaraq Qərb aləmində gündəmə çıxmış multikulturalizm düşüncəsinin və bütövlükdə ideologiyasının, o cümlədən də artıq fəlsəfəsinin formalaşmasının başlıca səbəblərindən biri dünyada baş verən qloballaşma prosesi, onun doğurduğu nəticələr hesab edilməkdədir. Xüsusən də, 90-cı illərdə Sovet İttifaqının süqutundan sonra artıq kapitalizm və sosializm dilemması öz ideoloji əhəmiyyətini itirdiyindən nəinki postsosialist düşərgəsi cəmiyyətlərində, eləcə də liberalizmin hegemon olduğu ölkələrdə də yeni yanaşmalar, başqa sözlə deyilərsə postmodernist mövqelər özünü göstərməkdədir. Üstəlik buraya müasir dövr cəmiyyətlərdəki mədəniyyətlərin siyasiləşdirilməsini və ya getdikcə beynəlxalq arenada da özünü göstərməkdə olan siyasətin mədəniləşdirilməsini (müxtəlif sivilizasiyaların toqquşmalarından tutmuş dialoquna qədər mövcud konsepsiyalar timsalında) əlavə etsək onda çağdaş dönəmdə multikulturalizm fəlsəfəsinin aktuallığını anlamaq mümkündür. Amma müasir dövrün mürəkkəb geosiyasi reallıqları, bəlkə də müəyyən anlamda sosializmlə kapitalizmin qarşılıqlı mübarizəsinin zəruri nəticəsitək ortalığa çıxmış multikulturalizm ideologiyasını heç də bütövlükdə dəstəklənməyərək hətta mövcud vəziyyəti əldə rəhbər tutub bir-çox Qərb ölkələrində multikulturalizmin iflasından da bəhs edildiyinin şahidi oluruq. Elə bu baxımdan Ümumilli Lider Heydər Əliyevin memarı olduğu azərbaycançılıq ideologiyasının ləyaqətli davamçısıtək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il yanvar ayının 10-da Nazirlər Kabinetinin iclasındakı nitqini xatırlamağımız tam yerinə düşür: "...bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə hardasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik." (**1, s.114**)

Həqiqətən də biz müasir dövrün inkişaf tendensiyalarını təhlil edərkən deyə bilərik ki, multikulturalizm ideologiyası siyasi reallıqtək bəzi cəmiyyətlərdə ciddi maneələrlə qarşılaşmış olsa da, onun ideya, fəlsəfi əsasları hətta qalib hesab edilməli olan liberalizmin bütün daxili patternlərinə, xüsusən də neoliberalizmə münasibətdə öz nəzəri, ideoloji əhəmiyyətini qoruyub saxlamaqdadır. Odur ki, biz təqdim edilən məqalədə Azərbaycan Respublikasında rəsmi dövlət

ideologiyasının mühüm tərkib hissəsi elan edilmiş multikulturalizmin elmi-fəlsəfi tədqiqi baxımından müasir dövrdə sanki yeganə qalmış liberalizm şəraitində sözügedən fenomenlə bağlı diskursiv əsaslara diqqət edilməsini qarşımıza vəzifə kimi qoymuşuq. Xüsusən də, problemlə tanışlıq bizə deməyə əsas verir ki, sözügedən istiqamətlər və bütövlükdə multikulturalizm fəlsəfəsi cəmiyyətdəki ədalət, bərabərlik və azadlıq idealları ilə nəinki birbaşa əlaqəli, hətta onların müasir ifadə forması da hesab edilə bilər. Buna sübuttək 2016-cı ildə nəşr edilmiş Nicat Məmmədlinin "Multikulturalizm. Panaseya yoxsa alternativ" kitabından müəllifin I.Bloemraad və M.Wridght kimi Qərb tədqiqatçılarının mövcud akademik ədəbiyyatın ümumi təhlilindən multikulturalizm anlayışı ifadəsinin dörd qrupda cəmləşdirməyin mümkünlüyü qənaətlərini misal göstərə bilərik. Belə ki, bu qruplardan Azərbaycan multikulturalizm modeli üçün əhəmiyyət kəsb edən ikinci sırada duranın multikulturalizmin ədalət və bərabərliyin siyasi fəlsəfəsi olması, üçüncüsünün isə etnik, mədəni, irqi və dini müxtəlifliyin tanınmasına və idarəedilməsinə istiqamətlənmiş siyasət olduğu diqqət çəkməyə bilməz (**1, s.15**) Buna görə də biz, müasir dövrdə liberalizmlə multikulturalizmin qarşılıqlı münasibətlərinin diskursiv əsaslarına keçməzdən öncə ədalət və sosial ədalət anlayışlarının nəinki təkcə Qərb sivilizasiyası əsasında, o cümlədən də Şərqə münasibətdə, xüsusən də sivilizasiyaların qovuşağında yerləşmiş Azərbaycan bədii-ictimai-ədəbi-siyasi-fəlsəfi fikri zəminində araşdırılmasını olduqca zəruri hesab edirik. Bu baxımdan heç də təsadüfi deyildir ki, problemə bu cür yanaşmağımızın doğruluğu özünü respublikamızda nəşr edilmiş ilk multikulturalizmə aid ədəbiyyatın da məhz Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlarına həsr edildiyi ilə sübut olunur. Amma yuxarıda qeyd etdiyimiz məqsədi nəzərə alaraq biz ədalət, bərabərlik və azadlıq ideyalarından bəhs etdikdə belə əsasən müasir dövrün liberalizminə və multikulturalizmə aid fikirlərin müqayisəsinə diqqət çəkmək niyyətindəyik.

Bütövlükdə qeyd edək ki, müasir dövrün siyasət fəlsəfəçiləri tərəfindən son onilliklərin ədalət haqqında iki qütb siyasi-fəlsəfi diskursu fərqləndirilir. Bu ədalətin dərk edilməsində ağlın ilkin əhəmiyyətliliyindən çıxış edən universal – rasionalistik nəzəriyyələr və ədaləti müəyyən sosial birliyin internalizə edilmiş (daxili) kollektiv təsəvvürlərinin elementi kimi izah edən partikulyarist nəzəriyyələrdir (**2, s.77**). Tədqiqatçı N.V.Peçorskaya qeyd edir ki, nə rasionalizm, nə də ki, partikulyarizm homogen istiqamətlər deyildirlər. Belə ki, məsələn, rasionalizmə cəmiyyət anlayışında bərabərlik və individual azadlığın nisbətini müxtəlif cür izah edən libertarian və liberal ənənələr daxildir. Partikulyarizm ideyaları da son dərəcə fərqli fəlsəfi landşaft formalaşdırır. Onlar öz ifadələrini gah sosiosentrizmdə, gah əxlaqi antropologiyada, gah da tarixilikdə tapırlar. Əgər sonuncunu kollektiv təsəvvür elementi kimi nəzərdən keçirib kommunitarianlıq adlandırmaq mümkündürsə, onda rasionalizmdə ortaq olan libertarianlığı liberallıqdan fərqləndirən cəhət onun mədəni relyativizmidir.

Klassik və müasir liberalizm

Bir daha qeyd edək ki, multikulturalizmin Qərb ölkələrində 60-cı illərdən

başlayaraq kapitalist dövlətlərin idarəetmə fəlsəfəsinin tərkib hissəsinə çevrildiyi tarixi faktdır. Sözügedən fenomenin müasir dövrün reallıqlarından irəli gələrək liberalizmlə qarşılıqlı münasibətlərinin mühüm əhəmiyyət kəsb etdiyi də danılmazdır. Bu baxımdan müasir dövrdə liberalizm apologetiklərinin multikulturalizmə münasibət bildirdikdə onun cəmiyyətdəki liberal əsaslara nə dərəcədə və necə uyğun olub-olmadığı məsələsini daim diqqət mərkəzində saxladıqları olduqca səciyyəvi hallardandır. Belə bir vəziyyəti işıqlandırmaq və ən başlıcası burada cərəyan edən proseslərin mahiyyətini aydınlaşdırmaq üçün fikrimizcə, müasir dövrdə liberalizmin müdafiəçilərindən biri olan Brayn Berrinin multikulturalizmə qarşı kəskin mövqedən çıxış etməsi diqqət çəkməyə bilməz. Sözügedən münasibətə aydınlıq gətirməyə çalışmış rusiyalı tədqiqatçı M.B.Homyakov vurğulayır ki, mədəni relyativizmi özünün ən başlıca düşməni hesab edən "Berriyə görə liberal individi mənəviyyatın yeganə subyekti tanıyan[lar], onun hüquqlarını siyasi nəzəriyyənin yeganə əsası hesab edən[lər]dir" (**3, s.93**). Deməli, bu istinaddan da göründüyütək, həqiqətən də müasir dövrün liberalizminin əsasında ədalət, individual hüquqların demək olar ki bərabər şəkildə həyata keçirilməsinin mədəni, dini və digər mənsubiyyətlərinə baxmayaraq bütün qruplar üçün eyni olması ideyası durur. Buradan da B.Berrinin fikrincə tolerantlıq mühüm liberal dəyər olaraq liberal dövlət tərəfindən individləri müdafiə etmək məqsədilə müəyyən etdiyi hədləri pozmayana qədər qanunun insan davanışını nizamlamadığıdır. Başqa sözlə M.B.Homyakov ümumiləşdirir ki, "Tolerantlığın sərhəddi ədalətin liberal konsepsiyası ilə dəqiq müəyyən edildiyindən, deməli, tolerantlıq sosial institutların "birici xeyirxahlığı" ola bilməz" (**3, s.93**). Halbuki, sözügedən Qərb cəmiyyətlərində kapitalist münasibətlər sistemi inkişaf etdikcə burada demək olar ki, klassik liberalizm idealları ilə ortalığa çıxmış tolerantlığın böyük əhəmiyyət kəsb etdiyinin və getdikcə də multikulturalizm ideyalarının hətta təntənəsi ilə qarşılaşmış oluruq. Elə bu anlamda aşağıda mövqelərini açıqlayacağımız London İqtisadiyyat Məktəbinin professoru Çandran Kukatasa diqqət etsək oxuyuruq ki, "...cəmiyyətdəki milli münasibətlərin tənzimlənməsinə dövlətin müdaxiləsini qəbul etməyən zəif multikulturalizm klassik liberalizmə əsaslanırsa, qeyd olunan münasibətlərin tənzimlənməsinə dövlətin fəal müdaxiləsini vacib hesab edən güclü multikulturalizm müasir liberalizmə əsaslanır" (**4, s.22**). Amma, fikrimizcə, "müasir liberalizm" anlayışını daha dəqiq açıqlamış f.e.d., prof. Əbülhəsən Abbasova görə, ""Müasir Qərb liberalizmi" və yaxud "Qərb liberal demokratiyası" dedikdə, geniş planda, biz iki xətti nəzərdə tutmalıyıq: a) Hegel "liberalizmi"; b) anqlosakson liberalizmi"ni (**5, s.167**). Tədqiqatçının fikrincə, ictimai praktikada reallaşması və nisbi zəfər çalması baxımdan, şübhəsiz ki, üstünlük anqlosakson xəttinə məxsusdur. Hüquq və azadlıq, ədalət və həqiqət zəminlərinin əvvəlcədən daha səlistliyi və universal məğziliyi cəhətdən isə Ə.Abbasova görə, Hegel xətti danılmaz üstünlüyə malikdir.

Bu tezisin əsaslandırıldığı "Hegel fəlsəfəsində ağa-qul problemi və insan azadlığı" başlığı altında tədqiqatçı qeyd edir ki, "Tarixən mövcud olan və çoxla-

rı tərəfindən təbii vəziyyət sayılan cənab (ağa-R.M.)-qul münasibətlərini Hegel hüquqla, həqiqi dövlət anlayışı və vətəndaş cəmiyyəti ilə bir araya sığmayan hal sayır" (**5, s.150**). Hətta alimin Hegeldən gətirdiyi birbaşa istinadda da "...insanın yalnız azad varlıq kimi hüququn predmeti ol"ması fikri nə qədər də dəyərli görünsə belə əslində, fikrimizcə, bəşər tarixinin sözügedən şəkildə gerçəkləşmədiyini və bunun ancaq filosofun, burada konkret olaraq Hegelin fəlsəfi idealını ifadə etdiyini söyləyə bilərik. Üstəlik, ədalət naminə qeyd edək ki, Hegeldə bəhs edilən "təbii vəziyyət" ifadəsini "...müxtəlif növ despotiyanı, mütləqiyyəti təbii hal sayanların fikrinə münasibət" kimi dəyərləndirmiş Ə.Abbasovun qənaətini liberalizmin klassiklərindən olmuş C.Lokkun təqdimatları ilə də təsdiqləmək mümkündür. Halbuki, elə bəhs etdiyimiz mövzunun diskursiv əsaslarına mühüm tövhə hesab edilə biləcək C.Lokkun baxışlarına diqqət etmiş S.Benhabibdən oxuyuruq ki, "Bildiyimiz kimi, Lokk təbii vəziyyətində bütün insanların bərabər olduqlarının və təbiətən Xaliq tərəfindən həyat, azadlıq və mülkiyyətə sahib olduqları ifadəsini təsdiqləməkdən uzaq olmuşdur"(6, s.66). Deməli, insan haqlarının yalnız cəmiyyətdə və ya hər hansı birlik formalarında meydana gəldiyi kimi haqlarla hüquqların eyniləşdirilməsi yanlışlığı sözügedən C.Lokka da xas olmuşdur. Halbuki, S.Benhabibə görə, C.Lokkdakı " "Təbii hal/vəziyyət" özündə seçib qarşılıqlı gücləndirdiyi tarixi və psixoloji, analitik və kültürəl [bir] metaforadır" (**6, s.66**). Bu metafora isə bizi, "...adi hüququn hökmü altında olmayan insanların durumuna yönəldir"(6, s.66). Maraqlıdır ki, fəlsəfi fikir tarixində müşahidəmizə görə, belə bir durumun mövcudluğu etiraf edildiyi təqdirdə onun statusunun necə müəyyənləşdirilə bilməsi ilə əlaqədar münasibətlərlə rastlaşmırıq. Üstəlik sözügedən metafora nə qədər də hipotetik suallara cavab verən analitik abstraksiya olsa da, S.Benhabib qeyd edir ki, "Lokkun metaforasında dolayı da olsa ayrıca tarixi keçmişlərə istinadlar vardır" (**6, s.66**). Başqa sözlə desək, C.Lokk nə qədər də insanların bütövlükdə hər-hansı bir hakimiyyət formalarından kənarda mövcud olduqlarını iddia etsə də, S.Benhabibə görə o yalnız tamamilə vətəndaş idarəedilməsinin olmadığına yaxın insan birliyinin primitiv formalarının tarixi mövcudluğunu qeyd etmişdir. Bizə görə isə, heç bir insan birliyinin primitiv formaları tarixən mövcud olmasa da nəinki insanlarla, hətta bütün mövcud olanlarla əlaqədar haqq anlayışının istifadəsi olduqca anlamlıdır. Kifayət qədər idealist səciyyə daşısa da, fikrimizcə, yalnız bu cür ümumi, pozitiv əsaslardan sonra istənilən mövcudluq hüquqlarının nəinki mənalılığı, hətta meydana çıxma mexanizm və prinsiplərini aydınlaşdırmaq heç də çətin olmur.

Yenidən C.Lokka qayıtsaq, S.Benhabibin təqdimatında görürük ki, o kimsəsiz bir adada Qarsilazo de la Beqanın Peru tarixində xatırlatdığı iki şəxsin və ya Amerika meşələrində isveçrəli ilə hindlinin görüşünə antropoloji bir istinad edir. Bununla da o, S.Benhabibin təbirincə desək, avropalıların keçmişini xatırlatmış olur. Ən başlıcası isə, tədqiqatçı bildirir ki, C.Lokk tərəfindən təbii vəziyyəti təmsil edən hindlilərin məqsədli şəkildə Avropanın vətəndaş cəmiyyəti tarixinin təkamülü mənzərəsinə qoşulmalarının C.Tyullinin fikrincə iki vəzifəni

yerinə yetirmişdir: “Əvvəla, Lokk siyasi cəmiyyəti elə müəyyən edir ki, hindli hakimiyyət onun müəyyənliyinə legitim formada uyğun gəlmir...İkincisi, Lokk mülkiyyəti elə izah edir ki, torpaq istifadə edilməsinin hindli adəti onun üçün mülkiyyətin legitim variantı olmur” (**6, s.66**). Nəticədə, sonuncuya görə, “[Şimali və Cənubi] Amerikanın kaloniyalaşdırılmasına qurama fəlsəfi bəraət” verilmiş olur.

Bununla yanaşı psixoloji anlamda “Təbii hal/vəziyyət” metaforası artıq özünün tam formasında S.Benhabibə görə, “...individualizmi, avtonomluğu, müstəqilliyi və öz imkanlarına əminliyi təsdiqləyir”(**6, s.67**). Başqa sözlə, “İnsan ona verilmiş hüquqlara görə başqalarına heç bir borcu olmayan kəs kimi nəzərdən keçirilir”(**6, s.67**). Bir sözlə, “Yeni burjua individi öz qarşısında yalnız Xaliqi görür” (**6, s.67**). Amma S.Benhabib qeyd edir ki, “Elə insan mövcudluğunun “tanrı tərəfindən nizamsız əlaqələrində dünyaya gəlmiş” bu başlanğıc müstəqilliyini və avtonomluğunu burjua individi indi legitim vətəndaş idarəçilik qanunlarından vətəndaş asılılığına transformasiya etməlidir” (**6, s.67**). Bəlkə də sözügedən transformasiyanın nəticələri kimi azərbaycanlı alim Ə.Abbasovun baxışları maraq doğurmaya bilməz. Tədqiqatçıya görə, artıq anqlosakson ənənəsinin təşəkkül tapıb zirvələnməsi nəticəsində bazar fundamentalizmi, “kapital ideologiyası” elə bir maddiləşmiş dünya və elə “iqtisadi adam” yaratmışdır ki, hər bir individ kiməsə rəqibə, düşmənə, yaxud da kimin üçünsə qurbana çevrilmişdir. Xüsusən də, multikulturalizm baxımından bizi maraqlandıran cəhətlərə diqqət etsək Ə.Abbasovun fikrincə, “Müasir anqlosakson millətçiliyi birbaşa nə mədəniyyətlə, nə etnosla, nə dinlə, nə irqlə (dərinin rəngi ilə) bağlı deyil. O, aydın məzmuna malik deyil və kollektiv identifikasiya funksiyasını sanki ötəri daşıyır: onun məqsədi vətəndaş cəmiyyəti üzvlərinin səfərbərliyi hesabına bu cəmiyyəti potensial xarici təhdiddən müdafiə etməkdir”(**5, s.182**). Amma bizə görə bütün bu sadalanmışlar “anqlosakson millətçiliyi”ndə təzahür etdiyi kimi, çox təəssüflər olsun ki, elə yuxarıda xatırlatdığımız M.B.Homyakovun sözügedən məqaləsində də sətiraltı vurğulanan, lakin artıq açıq-aşkar təzahür etməkdə olan anqlosakson milliyyətçiliyi ilə əlaqədardır. Belə ki, bu cəmiyyətlərdəki multikultural durum da etiraf edilməsinə baxmayaraq daha çox son zamanlar dəbdə olan “multikulturalizmin iflası” barədə diskussiyalar önə çıxmaqla əslində bütün bunlar Qərb aləmində sözün əsl mənasında milliyyətçiliyin millətçiliyi üstələməsi deməkdir. Halbuki, İkinci dünya müharibəsindən sonra daha çox millətçiliyə üstünlük verilən və çox ehtimal ki, bu qayğılardan ortalığa çıxmış multikulturalizm indi milliyyətçi, radikal, şovinist, irqçi, ksenofob təşəbbüslərlə üz-üzə qalmaqdadır. Necə deyərlər - həqiqətən də, SSRİ-nin süqutundan sonra “soyuq müharibə”nin sanki liberalizmin xeyrinə başa çatması və əsasən də sosialist düşərgəsinin dağılması praktikada fərqli “məntiq” ortaya çıxartmışdır. Bu anlamda Ə.Abbasovun qeyd etdiyi kimi, “Anqlosakson millətçiliyi (biz isə deyərdik ki, millətçilik libasına girmiş milliyyətçiliyi – R.M.) yox olmadı, əksinə daha da eybəcər (etik-əxlaqi və mənəvi baxımdan) mahiyyət alaraq bütün dünyaya hegemenloq etmək

cəhdinə girişdi, müxtəlif yerlərdə "şər mərkəzləri" axtarıb aşkarlamağa başladı"(**5, s.183**). Nəticədə demokratiyanı özünə simgə etmiş bu neoimperializm davranışları elə Qərb cəmiyyətlərinin multikultural mənzərəsini ciddi şəkildə dəyişdirdiyindən artıq nəinki multikulturalizmin inkişaf etdirilməsindən söhbət getməyib ard-arda bir çox ölkə başçıları multikulturalizm siyasətinin iflasa uğradığını elan edərək siyasi-ictimai, sosial-iqtisadi fəaliyyətlərinə bu istiqamətdə yön verməkdədirlər. Halbuki, bu ölkələrin xarici və daxili siyasətləri kompleks şəkildə nəzərdən keçirilərsə, multikulturalizm sahəsində də tam bir mənəzərə ortalığa çıxıb əslində elə bu cəmiyyətlərdəki yanlış və ən başlıcası milliyyətçi təzahürlər ucbatından mövcud durumun hökm sürdüyünü anlamaq heç də çətin deyildir. Üstəlik, prof. Ə.Abbasovun vurğuladığı kimi, kapitalist münasibətlər sistemində olsa da belə yalnız Hegel "liberalizmi"ni, Fukuyama demişkən, rasional etirafa doğru cəhd hesab etmək olar. Çünki, tədqiqatçının aydınlaşdırdığı-tək, "Bu, ümumi əsasda elə etirafdır ki, hər bir şəxsiyyətin azad və müstəqil varlıq kimi ləyaqəti hamı tərəfindən qəbul və etiraf olunur" (**5, s.165**). Yaxud da alim davam edir ki, "Onun (Hegelin – R.M.) liberalizmi, anqlosakson ənənəsində başlıca məqsəd kimi özünü göstərən "pul əldə etmək" azadlığından və adi istəkləri ödəməkdən ibarət deyil. İnsanın, bizim ləyaqətimizin daxilən və ümumən etiraf olunmasındadır" (**5, s.165**). Bir növ sosial ədalətin liberalizm çərçivəsində mümkünlüyünü Hegelin baxışlarında aşkarlamış Ə.Abbasov yazır ki, "Yalnız ümumi və bərabər əsaslardan çıxış etməklə etirafı rasionallaşdırmaq, əxlaqi-mənəvi dəyərlərlə uzlaşdırmaq mümkündür" (**5, s.165**). Bunu "Ziddiyyətli ağa-qul münasibətlər sistemində gələcəyə aparan Hegel yolu" kimi şərh etmiş tədqiqatçıya görə "Və tam əminliklə söyləmək olar ki, bu yol ən perspektivli və optimal xətt kimi özünün üstünlüyünü sübut etmişdir"(**5, s.165**). Amma müasir dövr liberalizm nəzəriyyəsinin bariz təmsilçisitək yuxarıda adı vurğulanmış B.Berrinin baxışlarında da bərabərliyin üstünlük təşkil etdiyini, lakin burada eqalitarizmin artıq multikulturalizmə qarşı istifadə edildiyinin şahidi oluruq. Belə ki, onun 2001-ci ildə nəşr edilmiş "Mədəniyyət və bərabərlik: multikulturalizmin eqalitar tənqidi" kitabında müəllifin həm liberalizm daxilində mümkün hesab edilən, həmçinin əsaən də ümumiyyətlə bütün növ anti-liberal səciyyə daşıyan multikulturalizmə qarşı olduğu öz əksini tapmışdır. Çünki, ona görə, liberalizmin cəmiyyətdəki müxtəlifliklərə ədalətli münasibəti üçün kifayət qədər imkanları vardır. Elə bəlkə də, yuxarıda bəhs edilmiş "Hegel yolu" anlamında B.Berrinin baxışlarında liberalizmin perspektivlərini görmək mümkündürsə, onun "...liberalizm müxtəlif əxlaqi nəzəriyyələrə neytral olduğu kimi, mədəniyyətə də neytral yanaşmalıdır" (**3, s.47**) fikri heç də müasir dövrdə anqlosakson liberalizminin əsl mahiyyəti ilə səsləşmir. Və ya mədəni kimlikdə özünün qəbul etdiyi liberalizm əqidəsi üçün yolverilməz relyativizmi hiss etdiyindən onun fikrincə, "Mədəni varolmanın son məqsəd səviyyəsinə qaldırılması bu məqsədin həmin mədəni qrupun üzvlərinin maraqlarından qopması ilə nəticələnir" (**3, s.47**) ifadəsi olduqca metodloji səciyyə daşıdığı halda, görəsən bu Qərb liberalizminin həyata keçirməyə çalışdığı universalizmi nəzərdə tuturmu?!

Yaxud da, “Müəllifə (B.Berriyə - R.M.) görə multikulturalizmin çatışmayan cəhəti ondan ibarətdir ki, qrupların üzləşdiyi problemlərin kökü mədəniyyət məsələlərində axtarılır” (3, s.49). Üstəlik o izah edir ki, “...əslində əlverişsizliklərin mənbəyi qrup mədəniyyəti ilə şərtlənmiş məqsədlər deyil, hamı tərəfindən paylaşılan ümumi (məsələn, yaxşı təhsil) məqsədlərə nail olmaqda müvəffəqiyyətsiz olmaqdır” (**3, s.49**). Əlbəttə, B.Berrinin təsvir etdiyi liberalizmə xas olan oyun qaydaları nə qədər də neytral və heç bir fərqliliklərə varmadan hamıya münasibətdə eyni və ya bərabərdirsə (equality principle) onun M.B.Homyakov tərəfindən müəyyən edilmiş “...hətta nəticədə liberalizm bir mədəniyyətin inkişafına, digərinin isə məhvinə səbəb olacaqsa, buna haqq qazandırmaq olar” (**3, s.47**) fikrini heç də doğru (fairness principle) hesab etmək mümkün deyildir. Yaxud da N.Məmmədlinin təsvir etdiyitək B.Berrinin liberal cəmiyyətdə fərdi faydanın ali məqsəd olduğunu əldə rəhbər tutması və “...bunun əldə olunmasının əsas yolu fərdi hüquq və azadlıqların, o cümlədən birləşmək azadlığının təmin edilməsi” şəklində münasibəti, özündə nə əxlaq, nə də mədəniyyətə aid olanları nəzərdə tutmadıqda birbaşa da olmasa, impliçit olaraq yuxarıda bəhs olunmuş hər bir individin kiməsə rəqibə, düşmənə, yaxud da kimin üçünsə qurbana çevrilməsi yolunu açmaqdan başqa bir şey deyildir. Necə ki, heç də uzağa getməyib B.Berrinin assosiasiyalarda birləşmək və onları tərk etmək azadlığını təbliğ edərkən, aşağıda da görəcəyimiz kimi, fərdin qazanmaqdan daha çox itirdikləri, ödənci göz önündə olub bu cür situasiyalarda ədalətli qərarın verilməsinin olduqca çətin olduğu aşkarlanır. Hər halda B.Berri buradakı üzvlərin elə tərbiyə edilməsi tərəfdarıdır ki, onlar istədikləri zaman onu tərk edə bilsinlər. Lakin onun təklif etdiyi təhsil-tərbiyə sisteminin də haraya aparacağı olduqca sual doğurmaqdadır. M.B.Homyakovun fikrincə onun nəzəriyyəsini yalnız ədalətin “universal” tələbləri maskalayır. Halbuki belə olduğu təqdirdə də B.Berrinin təliminin daha da dolaşıqlığa düşdüyünü iddia edən tədqiqatçıya görə, başqa bir tərəfdən bu nə başlıca müəyyən edilmişləri dəyişdirir, nə də ki, reallaşdırılmaya təqdim edilənlərin nəticələrində fərqliliklərə gətirib çıxarır (**3, s.94**).Üstəlik, hüquq və azadlıqların həmişə fərdi səciyyə daşıdığını unutmasaq fərdi faydanın ümumi maraqlarla və ya insanın aid olduğu qrupun mədəni verilənləri ilə kəsişmədiyi həqiqətən də müasir dünyada Y.Habermasın ünsiyyətcil etməyə çalışdığı “soyuq”, Ç.Teylorun isə sərrastcasına müəyyən etdiyi “Özünə qapanmış” (buffered self) insan tipini formalaşdırmışdır. Bu cür insanlardan ibarət cəmiyyətlərin nəinki başqalarına, hətta öz cəmiyyət üzvlərinə qarşı dözümsüz və ya intolerant davranmaları və beləliklə də “multikulturalizmin süqutu”ndan bəhs etmələri heç də təsadüfi deyil, demək olar ki, bəlkə də dövrümüzün ən acı reallıqlarındandır. Başqa sözlə desək, ictimai müqavilə nəzəriyyəsinin müasir interpretasiyası üçün ilk növbədə ədalətin substansiyası deyil, ədalətli qərarın işlənib hazırlanmasının universal prosedurunun axrtarışı tipik olsa da, məsələn məşhur filosof Y.Habermasa görə “müasir heterogen cəmiyyətlər üçün ədalət...öncədən formalaşdırılmış substansional vahid ideyaya istinad edə bilməz” (**2, s.78**). Buna görə də müəllif bildirir

ki, rasionalizmin müasir tərəfdarları əsas gücü prosedur ədalət konsepsiyasının yaradılmasına verirlər. Prosedur ədalətin zəruri şərtinə gəldikdə isə bu tərəfsiz mühakimə etmək prinsipini təmin edən şəraitlərin olmasıdır. Bu anlamda N.V.Peçorskaya Y.Habermasın irəli sürdüyü ideal ünsiyyət situasiyasının yaxud da C.Roulzun reflektiv tarazlıq vəziyyəti haqqında olan baxışlarının çıxış edə bildiyini vurğulamışdır. Prosedur ədalətin ümumi tələblərinə isə aşağıdakılar daxildir: 1) iştirakçıların bərabərliyi; 2) iştirakçılarda gizli motivlərin olmaması; 3) diskusiya edən ictimaiyyətə açıq olması (**2, s.78**).

Həmçinin, fikrimizcə, etnosla mədəniyyətin eyniləşdirilməsinin doğru olmadığı fikrində haqlı hesab edilməli kimi B.Berri demokratiyanı yalnız qərar verərəkən çoxluğa üstünlük verilməsi kimi məhdudlaşdırmaq cəhdi heç də multikulturalizmin demokratiya ilə uzlaşmadığını deməyə əsas vermir. Çünki, bizə görə, multikultural yanaşma ilə demokratiyanın daha da humanist səciyyə daşıyıb zənginləşdiyini iddia etmək olduqca doğru və ədalətli olardı.

Kommunitarizm

Əgər multikulturalizmin meydana gəlməsinin başlıca səbəblərindən biri müasir dövrün qloballaşma tendensiyaları və ya təzahürləri olmuşdursa, başqa bir amil isə fikrimizcə, həm konkret tarixi, həm də siyasi-iqtisadi güc faktoru olmuş sosialist idealları və ideologiyasının liberalizmin hökm sürdüyü ölkə sistemlərinə nüfuz etməsi olmuşdur. Heç də təsadüfi deyildir ki, bəzən multikulturalizmin növ müxtəlifliyi hesab edilən, bəzən isə, müasir liberalizm şəraitində fərqli bir istiqamət kimi kommunitarizm Qərb ölkələrində bizi maraqlandıran ideologiyaların meydana çıxmasının normativ əsası hesab edilməkdədir. Xüsusən də totalitarizmin doğurduğu reallıqlar təkcə sosialist ölkələrində deyil, eləcə də kapitalist sistemində də müşahidə edildiyindən fərdin cəmiyyətə münasibəti problemi öz aktuallığını itirə bilməzdi. Odur ki, geniş istinadlar verməyə məcbur olduğumuz "Brayn Berri: Multikulturalizm və milliyyətçiliyə qarşı liberal universalizm" məqaləsində rusiyalı tədqiqatçı M.B.Homyakovdan oxuyuruq ki, "C.Roulz, Y.Habermas və onların kommunitarist davamçıları-filosoflar dirçəldilmiş klassik liberalizmdə bu nisbətin (fərd və cəmiyyət münasibətinin – R.M.) tam doğru olmayan anlamını" görmüşlər (**3, s.76**). Hətta Avropanın müasir aparıcı sosioloqlarından biri olan Piter Vaqnerin fikirlərinə istinad etmiş tədqiqatçı göstərir ki, şəxsi (burada xüsusi) sferanın inkişaf etdirilməsi individualist liberalizmin nailiyyətlərindəndirsə, öz-özlüyündə problematik olmasa da genişlənən bazar münasibətləri getdikcə dünyanın (burada kapital istehsal münasibətlərinin) elə transformasiyaya uğrayıb dəyişməsinə səbəb ola bilər ki, individin dünyadan ayrılmasına (worldlessness), əslində biz deyərdik ki, özgələşməsinə gətirib çıxarır. Bu isə, P.Vaqnerə görə, ümumi fəaliyyəti, ictimai birliyi pozur. Başqa sözlə, M.B.Homyakov qeyd edir ki, bəziləri "liberalizmin səhvini onun dünyanı yanlış təsvir etməsində deyil, daha çox onu (dünyanı – R.M.) arzuolunmaz dəyişikliklərə sürükləməsində" görmüşlər" (**3, s.76**). İstənilən halda kommunitarist baxışların yer aldığı tədqiqatlar sırasında Maykl Sandelin (Sandel 1982)**,** Çarlz Teylorun (Taylor 1989)**,** Alasder Makintayrın

(Macıntyre 1981), Maykl Volzerin (Walzer 1983) və Amitai Etzioninin (Etzioni 1996) əsərləri tədqiqatçının qeyd etdiyi kimi, hər şeydən öncə liberalizmin normativ tənqididir. Amma kommunitarizmin liberalizmi bu tənqidinin heç də yekcins olmadığını vurğulamış tədqiqatçı bildirir ki, burada subyektin/fərdin özünü anlamasından tutmuş resursların ədalətli bölüşdürülməsini təmin edə biləcək təşkilatların institutlaşdırılmasına qədər olduqca geniş məsələlər spektri müzakirə edilmişdir. Həmçinin nəzəri yanaşma dairəsinin də müxtəlif olduğunu qeyd edən M.B.Homyakov, bunun A.Makintayrın timsalında neotomizmdən başlayaraq A.Etsioninin dəstəklədiyi M.Bubberin cəmiyyətin dialoqlu konsepsiyasınadək dəyişdiyini vurğulayır. Daha çox kommunitaristlərin baxışlarındakı ortaq məqamlara diqqət çəkmiş müəllif bunu liberal fikrin "assosial individualizmi"nə qarşı durmuş "sosial tezis" (social thesis) kimi formulə etmişdir. Sözügedən tezisin və ya kommunitarist mövqelərin mahiyyətini açıqlayan M.B.Homyakov qeyd edir ki, "İctimai müqavilə konsepsiyasının (C.Lokk və b.-larının klassik liberalist baxışları – R.M.) dirçəldilmiş versiyası əsasında özlərinin azad və bərabər individlər nəzəriyyələrini əsaslandıran liberallar kommunitaristlərə görə individuallığın qeyri-sosial anlamını təqdim edirlər" (**3, s.76**). Bunun təsdiqi kimi tədqiqatçı yazır ki, "Həqiqətən də, əgər C.Roulzun ədalət prinsipi ilə əlaqədar məşhur əqli eksprementinə müraciət etsək burada individlərin "bilmədikləri/görünməzlər pərdəsi arxası"da (veil of ignorance) bacarıq və istedadları yaxud xeyir haqqında təsəvvürlər kimi öz identiklərinin başlıca elementlərindən biliksiz olmaları, onun individuallığı, bu individin çıxış edə biləcəyi istənilən bir sosial münasibətlərdən öncə ontoloji veriləntək düşünülmüşdür" (**3, s.76-77**). M.B.Homyakov M.Sandelin də özünün 1982-ci ildə nəşr edilmiş "Liberalizm və ədalətliliyin sərhədləri" əsərində bu cür individi "aprior olaraq individuallaşdırılmış kimsə/öz" (antecedently individuated self) adlandırdığını xatırladır. Deməli, individuallıq cəmiyyətə qədər müəyyən olduğundan istənilən bir sosial identiklik mənəviyyat baxımdan təsadüfi olub mənəvi universallığa iddia edən siyasət kimi nəzərdən keçirilə bilməz. İctimai müqavilə konsepsiyasına əsaslanmış liberalizmin əksinə olaraq kommunitaristlər individuallığın sosial şərtlənmiş səciyyəsindən çıxış edib onun birliyin (community) tarixinə və mədəniyyətinə "aidlik"liyini vurğulayırlar. M.B.Homyakov vurğulayır ki, buradakı "kollektiv" anlayışı əvəzində "birlik" termininin istifadə edilməsi Pol Kelliyə görə, 1989-cu ildən sonra "real sosializm"in kollektiv nəzəriyyəsi və təcrübəsi ilə aradan qaldırılmışdır. Əslində bu cür yanaşmanı biz, yenə də sosialist ideologiyasında başlıca yer tutmuş "sinif" anlayışının sadəcə "sosial qrup" anlayışı ilə əvəzləndiyi ilə də müqayisə edə bilərik. Başqa sözlə, M.B.Homyakov izah edir ki, kommunitarizmin "sosial tezisi" bütövlükdə individin tarixi və mədəni prosesə cəlb/müncər edildiyinin sadəcə təsdiqlənməsi, bir individtək öz birliyindən asılı olması, yəni Maykl Sandel tərəfindən şəxsiyyətin "aidiyyəti" (embedded self) adlandırdığı şəxsiyyət konsepsiyasıdır. Əlbəttə, bütün bunlar kommunitarizmin multikulturalizmlə əlaqəli olduğunu deməyə əsas verir. Xüsusən də, kommunitarizmin bəzi

görkəmli nümayəndələrinin, məsələn, ilk növbədə kanadalı filosof və teoloq Çarlz Teylorun multikulturalizmin müxtəlif istiqamətləri ilə əlaqədar lider olması sözügedənlərin M.B.Homyakovun təbirincə desək, dərin məntiqi əlaqədə olduğunu nümayiş etdirməkdədir. Halbuki, başqa bir məşhur kanadalı, amma baxışları birmənalı olaraq multikulturalizmə aid edilən U.Kimlikaya görə siyasi fəlsəfədəki bu iki istiqamətin (kommunitarizm və multikulturalizm) əlaqəliliyini nəzərdən keçirmək multikulturalizmin xüsusiyyətlərini anlamağa imkan vermir. Bununla razılaşmayan M.B.Homyakov bildirir ki, multikulturalizmin kommunitarizmlə metodoloji baxımdan əlaqədar olması həm klassik liberalizmlə multikulturalizm nəzəriyyələri arasındakı ziddiyyətləri aşkarlamağa imkan verdiyitək həmçinin sonuncunun müasir cəmiyyətdə necə fəaliyyət göstərdiyini də aydınlaşdırmış olur. Biz də bu mövqe ilə razılaşıb sadəcə klassik liberalizm dedikdə müasir kommunitarist və multikulturistlərin daha çox anqlo-sakson liberalizmi və ya neoliberalizmlə münasibətlərini aydınlaşdırmağa çalışdıqlarını vurğulamaq istərdik. Üstəlik hər iki istiqamətin liberalizmlə razılaşmadığı yenə də onların müəyyən bir anlamda yaxınlıqlarını təsdiqləyir ki, multikulturalizm müxtəlif formalarda təzahür ediyitək təkcə kommunitarist tendensiyalarla deyil, başqa istiqamətlərlə də səciyyəvidir. Liberalizmə münasibətdə isə Çarlz Teylor bir kommunitarist kimi onu "müxtəlifliyə etinasızlıq"da (difference-blind) ittiham edir. Yəni ona görə, "cəmiyyətdəki bütün qruplara eyni bir, hamı üçün ümumi qanunlar və normalar təqdim edən, müxtəlif qrup üzvlərinin öz individuallığını dərk etməyə mane olan eyni və hamı üçün ümumi hüquqları təsbitləyən liberalizm sadəcə ədalətsizdir" (**3, s.77**). Buradan da, M.B.Homyakovun qeyd etdiyi kimi onun - Ç.Teylorun publik siyasəti kültürəl qrupların tələbi ilə differansiyalaşdırmağı tələb edən "[mədəni müxtəlifliyi] tanıma siyasəti" (politics of recognition) və A.M.Yanqın "fərqlilik siyasəti" (politics of difference) ortalığa çıxmışdır. Yaxud da bəzi kommunitaristlərin iddia etdikləri kimi, əgər individ sosial baxımdan şərtlənibsə, yəni onun özünü başa düşməsi onu başqalarının necə görməsindən (qəbul edib -etmədiyindən) asılıdırsa, onda individ özünü individ kimi sadəcə qrupun adi bir üzvütək deyil, yalnız bu qrupun (community) kontekstində uğurlu realizə edərək başa düşə bilər. Buna görə də multikulturalistlərin fikrincə liberalizm individin hüquqlarının qayğısına qalaraq müxtəlifliklərə lazımi diqqət yetirmir (inhospitable to differences). Bununla da liberalizm siyasəti öz başlıca prinsiplərinə qarşı çıxaraq formalaşdırdığı şəxsin təfəkkür və fəaliyyətinin əsasında duran ideyaları anlamış olmur. Odur ki, heç də təsadüfi olmayaraq U.Kimlika düşünən liberalın qaçılmaz olaraq multikulturalist olacağını söyləyirdi. Çünki, multikulturalizm U.Kimlikanın və Ç.Teylorun iddia etdikləri kimi daha çox dayanıqlı olmayan/azsaylı mədəni qrupların qorunub saxlanmasına yönələn siyasəti dəstəkləməlidir. Öz növbəsində liberalistlər də iddia edir ki, əslində Yeni dövrdə də müşahidə edilmiş dini müharibələri yalnız cəmiyyətdəki fərqli "xeyir/fayda konsepsiyaları"na qarşı neytral mövqedə durmaqla həlli mümkün olmuşdur. Bu cür neytrallıq insan təbiətinə və bütün insanlar üçün ümumi olan rasionallığa istinad edib yenə də özünün incə məqam-

ları ilə C.Roulzun təbirincə deyildiyi kimi, hamı üçün faydalı ola biləcək "doğru/ədalətli" (fair) oyun şəraiti formalaşdırmış olur. Bütün bunlar əslində liberal perfeksionizm (ideallıq, kamillik – R.M.) barədə təsəvvürlərin ortalığa çıxması ilə M.B.Homyakovun vurğuladığıtək "...vaxtilə C.Rasın sübut etdiyi heç də yeganə/vahid "doğru" həyat tərzinin təsdiq edilməsinin zəruri olmayıb bunun (həyatın) "dəyərlərin plüralizmi" (value-pluralism) ilə uyğun gəldiyi" deməkdir (**3, s.78**). Öz növbəsində əksəriyyətin sahib olduğu mədəni dəyərlərin dəstəklənməsi azlıqların da mədəniyyətlərinin qorunmasını tələb edir ki, bu da liberal perfeksionizmdən fərqli olaraq multikultural siyasi proqramın daha ədalətli olduğunu deməyə əsas verir. Əlbəttə liberal neytrallıq mövqelərində liberal perfeksionizm yeganə alternativ olmayıb onsuz da liberal faydalılıq barədə incə məqamları daha gözəgəlimli edib bəzi multikulturalistlər daha yüksək fəlsəfi mücərrədlik səviyyəsinə qalxmaq ideyası ilə çıxış etməkdədirlər. Bu isə liberalizmi, bizsə deyərdik ki, anqlo-sakson liberalizmini, məsələn multikulturalistlərdən biri kimi B.Parekin təklif etdiyitək, prinsiplər və institutlaşma strukturlarıyla mədəniyyətlər və etnik normalar arasında dialoqu təsbitləməklə həyata keçirmək cəhdidir.

Göründüyütək kommunitarizmin "sosial tezisi" multikulturalizmin başlıca mənbəyi və əsası olduğu kimi ancaq liberalizmə və yenə də deyərdik ki, anqlo-sakson liberalizminə münasibətdə bəziləri, məsələn, U.Kimlika, Ç.Kukatas kimi nəzəriyyəçilər liberalizmi qoruyub saxlamaqla yalnız azlıqlara diqqət edilməsini vacib hesab edirlərsə, digərləri, məsələn, B.Parek kimi tədqiqatçı liberalizmin məhdudluğunda mədəni cəmiyyətdə dominantlıq edən dəyərlərin universallaşdırılmasını "qorxulu" hesab edirlər (**3, s.78**). Əsasən liberalizmi kökündən silib atmağı təlqin etməyən bu baxışlarda müxtəlif fəlsəfi və siyasi istiqamətlərin olduğunu vurğulamış M.B.Homyakov qeyd edir ki, "...günümüzdə multikulturalizm fəlsəfəsinin daha çox əhəmiyyətli paradiqmalarını liberal perfeksionist multikulturalizm (U.Kimlika), dialoji multikulturalizm (B.Parek), libertarist multikulturalizm (Ç.Kukatas), qrup fərqliliklərinin radikal eqalitar (bərabərləşdirici) multikulturalizm (A.M.Yanq) və "tanıma" kommunitarist multikulturalizm (Ç.Teylor) kimi səciyyələndirmək olar" (**3, s.79**). Hətta bunların sırasında U.Kimlikanın bir qədər qabağa gedərək azlıqda qalanların hüquqlarını müdafiə edənləri qalib hesab etməsinə, Natan Qleyzerin isə daha sərt olaraq "bu gün biz hamımız multikulturalistik" iddiasına baxmayaraq M.B.Homyakov qeyd edir ki, hələ də Qərb siyasi fəlsəfəsində multikulturalizmin ədalətli, effektiv və zəruri bir siyasət olması barədə mübahisələr səngiməmişdir. Bu zaman qeyd edək ki, M.B.Homyakov Brayn Berrinin müasir kommunitarizmi "Maarifçiliyin sol qanadı" adlandırdığını xatırlatması heç də təsadüfi deyildir (**3, s.80**). Çünki, maarifçiliklə kommunitarizmi liberalların da bölüşdürdükləri universalizm hadisəsi doğmalaşdırmaqdadır. Lakin bildirək ki, rasionallığın, mənəvi dəyərlərin nisbiliyi bütövlükdə liberalizm üçün çətinliklər törətdiyitək kommunitarizmin də bu nisbiliyə münasibətdə qəti bir fikir söyləməsi olduqca çətindir.

Libertarianlıq

Əslində liberalist olub yalnız multikulturallıq baxımından liberalizmə qarşı çıxan və beləliklə də yuxarıda qeyd edilmiş B.Berrinin başlıca rəqiblərindən olan libertarist multikulturalizm tərəfdarıtək Çandran Kukatas əksinə mədəni relyativizmdən bəhs edir. Belə ki, M.B.Homyakov Ç.Kukatasdan yazarkən bildirir ki, o, hansısa insanın deyil, konkret mədəni qrupun mənəvi normalarının universallıqlarını inkar edərək sözügedənlərin yalnız onlara aid olanlar hesab etməkdədir. Bu zaman B.Berri isə bununla əlaqədar M.B.Homyakovun təbirincə desək, mədəni relyativistlərin fərqli dəyərlərin ortalığa çıxmasına necə bəraət qazandıra biləcəkləri kimi kifayət qədər ciddi bir sual verir. Axı fərqliliklər qrupların fövqündə olduğundan bunlar qrup mənəvi standartları tətbiq edilməklə doğrulana bilməz. Hətta tolerantlığın müxtəlifliklərə tətbiq edilməsi sülh naminədirsə, B.Berri yenə də istənilən yolla sülhə nail olmağın nə qədər məqsədəuyğun olduğunu sual edir. Ç.Kukatas isə buna cavab olaraq M.B.Homyakovun qeyd etdiyinə görə, hər şeydən öncə özünün ağıl konsepsiyasına əsaslanır. Xüsusən də, Ç.Kukatasa görə, əgər vətəndaş hüquqlarının genişlənməsi qeyri-liberal qruplar üçün imkanların ifadəsini məhdudlaşdırırsa, onda bu ağlın şərtini pozmaq deməkdir. Daha sonra Ç.Kukatasın fikrincə, dövlət tərəfindən məcbur edilən vahid mənəvi standartlar təhlükə törədib təhrif edilə bildiyi kimi bu cür olanlar ümumiyyətlə dərin normativ fərqlilikləri olan cəmiyyətə uyğun gəlmirlər. Tolerantlığın məhdudlaşdırılması isə daha sonra vicdan azadlığını pozaraq təkcə dissidentlərin azadlığı üçün deyil, eləcə də daha ənənəvi təcrübələrə riayət edənlər üçün də tələb olunandır. M.B.Homyakovun fikrincə bu iki cavabın hər biri zəif olub Ç.Kukatasın arzulamadığı şəkildə nəzəriyyəsinə normativ çərçivələri "dartıb" gətirir. Axı İ.Kantın ağıl konsepsiyası və ona aid edilən ictimailik ciddi şəkildə neytral qala bilməz. Xüsusən də ağıl haqqında aydın təsəvvürlərimiz olmadığı təqdirdə, onun mənəvi standarların "dəyişilmələri"nə məruz qalması təhlükəsi həmişə real olacaqdır. Ç.Kukatasın üçüncü cavabını da qəribə hesab edən M.B.Homyakov bildirir ki, "Lap əvvəldə müstəqil izah etmək istədiyinə rəğmən burada tolerantlıq vicdan azadlığı ilə əsaslandırılır" (**3, s.93**). Deməli, Ç.Kukatas nə qədər də ağıl və cəmiyyətin anarxik modelini formalaşdırmaq istəsə də, yenə də azadlıq, tolerantlıq yaxud ağıllılıq kimi müsbət dəyərlərsiz keçinə bilmədiyindən haqlı olaraq tərəf müqabili B.Berrinin tənqid atəşinə tuş gəlir. Xüsusən də, M.B.Homyakov qeyd edir ki, B.Berriyə görə, Ç.Kukatasın nəzəriyyəsi qruplara öz üzvləri üzərində olduqca çox hakimiyyət verdiyindən tənqidə dözmür. Yenə də B.Berrinin fikrincə, bu təlimin nəticəsi özünün də inkar etdiyi mədəni/kültürəl qruplara hakimiyyətin verilməsidir (**3, s.94**).

M.B.Homyakov bir daha ümumiləşdirərək qeyd edir ki, Ç.Kukatasın nəzəriyyəsi ilə B.Berrinin baxışlarını relyativizmlə universalizm arasındakı fərqlənmə kimi müəyyən etmək olar. Belə ki, B.Berriyə görə, ağlın vahid universal qanunlarından irəli gələn mənəviyyatın vahid universal standartları mövcuddur. Yəni nəyin doğru olub-olmadığını ağıl müəyyən edir. Ədalət anlayışı da öz

növbəsində tolerantlığı məhdudlaşdırır. M.B.Homyakovun təsvir etdiyinə görə, əgər B.Berri məsələn, uşaqdan qan alınmasını onun həyatına təhlükə törətdiyindən ədalətsiz və liberal dövlətin yol verə bilmədiyi hadisə hesab edirsə, Ç.Kukatas burada təkcə dünyəvi deyil, o cümlədən də ruhun xilas edilməsi baxımından da əhəmiyyət kəsb edən məqam olduğundan dövlətin nəyin doğruluğunu müəyyən etməyə haqqının olmadığını iddia etmişdir. Eləcə də B.Berrinin "xarici" nəticələrlə əlaqədar təlimi də M.B.Homyakovdan oxuyuruq ki, Ç.Kukatasa görə, hər şeydən öncə dəyərlər barədə baxış olub liberal cəmiyyətin mənəvi normaları ilə ziddiyyət təşkil edir. Axı individin assosiasiyanı tərketməsinin "xarici" nəticələri qrup dəyərlərindən asılı olmayaraq müəyyən edilən yalnız ədalətsizliklər törədir. Müasir dövrün plüralist cəmiyyətləri üçün Ç.Kukatasın fikrincə ədalətin bu cür universal nəzəriyyəsini işləyib hazırlamaq mümkün deyildir. B.Berri kimi liberallar isə, özlərinin qruppalı, daha doğrusu sadəcə qanuni və deməli qaçılmaz olaraq özünəməxsus normativ, yəni heç bir əxlaq və ya mənəviyyatla məhdudlaşmayıb və ümumiyyətlə bu qismdən olanlara istinadı lüzumsuz bilən baxışlarını sırımaqla hər nə qədər də müasir liberalizmi təmsil etsələr də olduqca yanıldıqları göz önündədir.

M.B.Homyakov xatırladır ki, Ç.Kukatas hələ vaxtilə Maykl Volzerin təsvir etdiyi kimi dövləti olduqca zəif "assosiasiyaların assosiasiyası"tək əsasən individin özünüidarəetməsinə üstünlük verən azadlıq dəyərinin daşıyıcısı olaraq nəzərdə tutmuşdur. Ç.Kukatasın fikrincə, "yaxşı qurulmuş cəmiyyəti...hər şeydən yaxşı cəmiyyətlərin arxipelaqıtək (archipelago of societies) başa düşmək lazımdır ki, [bunu başqa bir deyimlə] liberal arxipelaq kimi təsvir etmək olar. Liberal arxipelaq isə cəmiyyətlər cəmiyyəti olub nə kimlərsə tərəfindən qurulmış, nə də ki, hər hansı bir hakimiyyətin nəzarət obyektində olan deyildir. Bu hər hansı bir hakimiyyət üçün əlçatmaz olan qanunlar çərçivəsində fəaliyyət göstərən hakimiyyətli cəmiyyətdir" (**3, s.89**). Bu məqamda M.B.Homyakov Ç.Kukatasın baxışlarının anarxist bakuninçiliyi xatırlatdığını bildirərək hətta onun 1995-ci ildə qələmə aldığı əsərində multikulturalist olmasına baxmayaraq parodoksal bir şəkildə hər hansı kültürəl haqları inkar etdiyini vurğulayır. M.B.Homyakov qeyd edir ki, Ç.Kukatasa görə dövlət hakimiyyətini mədəniyyətlərə vermir. Bütün mədəniyyətlərə sahib individlər qanun qarşısında mütləq şəkildə bərabərdirlər. Dövlət də bu zaman cəmiyyətdəki münasibətləri, onu təşkil edənləri liberal norma və prinsiplərə əsaslanan qanunlarla idarə edir. Bütün bunlarda fikirlərinin üst-üstə düşdüklərini qeyd edən M.B.Homyakov vurğulayır ki, Ç.Kukatasın liberalizmi necə anladığına gəldikdə onun baxışları B.Berri ilə fərqlənir. Belə ki, Ç.Kukatasa görə liberalizm iki başlıca prinsipə əsaslanmışdır. Bunlar biri azad birləşmə (o cümlədən də heç bir manea olmadan azad ayrılma) və digəri isə tolerantlıqdır. M.B.Homyakov xatırladır ki, bu zaman ikinci prinsip, yəni tolerantlıq birinci prinsipdən, yəni azad birləşmək və ya ayrılmadan irəli gəlir. Öz növbəsində "Bütün digərləri (prinsiplər), [məsələn] hakimiyyət rejimi yaxud individin real vəziyyəti [prinsipləri] aid olmaqla liberalizmin çərçivəsindən kənara çıxır" (**3, s.90**). Başqa sözlə, deməli, liberalizm

hansı hakimiyyət rejiminin hökm sürdüyünü və ya individin cəmiyyətdəki real vəziyyəti ilə birbaşa maraqlanmır. Bir növ ədalətli cəmiyyət idealını irəli sürmüş Ç.Kukatas bildirir ki, "Yaxşı cəmiyyət elə olmalıdır ki, heç bir məxsusi sosial təsisat müdafiə olunmaq məcburiyyətinə düşməyib müstəsnalıq vəziyyətinə sahib olmasın, amma bütün insanların azad birləşmək hüquqları olsun...Bu cür cəmiyyət elə bir cəmiyyət olacaq ki, buradakı hər bir qrup həyat tərziylə razılaşmadıqları ilə də tolerant davranmış olur...Bu cəmiyyət dissidentlərə də tolerant yanaşılandır" (**3, s.90**). Beləliklə də, Ç.Kukatasın azad birləşməsi mütləq səciyyə daşıyıb istənilən birinin o cümlədən də, tamamilə qeyri-liberal olan birləşmələrin də azadlığı deməkdir. Amma M.B.Homyakov bu cür cəmiyyətdə individlə əlaqədar müəyyən bir məsələnin başlıca problemə çevrildiyini vurğulamışdır. Belə ki, individ sözügedən cəmiyyətlərdə (yəni, azad birləşmə və ayrılmanın olduğu, eyni zamanda da tolerant cəmiyyətdə) maraqları assosiasiya ilə ziddiyyət təşkil edərkən hansı azadlıqlara sahib olacağı problemi qarşıda durur. Ç.Kukatasa görə individin ümumiyyətlə yalnız yeganə fundamental hüququndan danışmaq mümkündürsə, bu da bütün digər hüquqları şərtləndirən assosiasiyadan çıxmaq haqqıdır. Həqiqətən də, əgər assosiasiyanın azadlığı digər insanlarla ünsiyyətə girməmək sərbəstliyini də nəzərdə tutursa, onda elə individin assosiasiyadan çıxa bilmək azadlığı birbaşa assosiasiyanın azadlığı prinsipini tələb edir. Amma tədqiqatçı dəqiqləşdirir ki, "bu heç də sözügedən ayrılmanın məhdudlaşma/cəzalandırma ilə nəticələnib [insan üçün] baha başa gəlməli deyildir" (**3, s.90**). Bu baxımdan heç bir xüsusi mülkiyyətə sahib olmayan qutteritlərdən misal gətirən M.B.Homyakov onlardan kiminsə cəmiyyətlərini tərk edərkən heçnəsiz qaldığını vurğulayır. Buna münasibətdə Ç.Kukatasın baxışını izah edərkən oxuyuruq ki, ona görə belə situasiyada problem yoxdur. Belə ki, individ olduqca mücərrəd olan assosiasiyanı tərk etmək kimi prinsipial azadlığa sahibdirsə, onun hüquqları pozulmur və buna görə də dövlət müdaxiləsinə ehtiyac yoxdur. Hətta Ç.Kukatasın fikrincə, individin bu və ya digər birlikdə qalması uğurlu "beyinləri yumaq" (ideoloji təsir nəzərdə tutulur – R.M.), vərdiş və ya öz şəxsi maraqlarını anlamamaq sayəsində baş versə belə bütün bunların hamısı dövlətin müdaxilə etməsinə kafi əsas vermir. Çünki, "Əvvəla, Kukatas üçün azadlıq özünün üstünlük verdiyinə uyğun olaraq davranmaqdır ki, individ hər-hansı bir səbəbdən nəyəsə üstünlük verirsə bu onun seçimidir. İkincisi, assosiasiyanı [ondan] çıxmağın qiymətini aşağı salmağı tələb etmək onların azadlığını pozmaq deməkdir" (**3, s.90**). Amma M.B.Homyakov dərhal qeyd edir ki, Ç.Kukatas heç bir yerdə assosiasiyadan çıxmağın qiymətinin aşağı salınmasının azadlığın inkar edilməsi olduğunun hədlərini göstərmir. Üstəlik tədqiqatçı bildirir ki, Ç.Kukatas B.Berrinin tənqidinə cavab olaraq assosiasiyanı hansı tərk etmək nəticəsinin daha böyük/dəyərli olduğunu müəyyən etməyin qeyri-mümkünlüyünü birbaşa bəyan edir. Ç.Kukatasın özünün gətirdiyi misallarda dissedentlərin heçnəsiz və yaxud heç bir vasitələrsiz cəmiyyətdən qovulmaları ətraf aləmdə yaşamağı bacara bilmələri üçün zəruri olub heç də bu qəbildən olan insanlara baha başa gələn deyildir.

Yəni, bir cəmiyyəti tərk edən insan başqa birliklərdə yaşamağa məhkum olduğundan onlarda yaşamaq yollarını axtarıb tapmağa məcburdur. Hətta cəmiyyəti tərk etmək nə qədər də riskli olsa da bu risk insanın azadlığını məhdudlaşdıra bilməz. Bu zaman M.B.Homyakov yazır ki, "Görünür Kukatas üçün assosiasiyanı tərk etmək istəyən individə yalnız birbaşa fiziki zorakılıq göstərilməsi onun çıxmaq haqqının pozulmasıdır" (**3, s.91**). Ç.Kukatasın baxışlarını daha da aydınlaşdıran tədqiqatçıdan bilirik ki, ona görə individin azadlığı hər şeydən öncə individin özünün lazım hesab etdiyinə uyğun olaraq məcburi davranmadığı vicdan azadlığı termini ilə müəyyən edilir. Beləliklə də Ç.Kukatas vicdan azadlığı ilə azad assosiasiya anlayışlarını bir-biriylə sıxı əlaqədə götürərək birinin digərini tələb etdiyini bildirir. Deməli, assosiasiyadan çıxmaq azadlığını inkar etmək ona görə vicdan azadlığını inkar etməkdir. Halbuki, M.B.Homyakova görə Ç.Kukatas bu azadlığı olduqca mücərrəd terminlərdə başa düşür. Həmçinin tədqiqatçı qeyd edir ki, "Kukatas Roulzun, Berrinin və hətta Kimlikanın liberalizmindən öz nəzəriyyəsinin fərqini azad assosiasiyanı təşkil edə biləcək hər-hansı bir ümumi mənəviyyat çərçivələrinin legitimliklərinin inkar edilməsində görür" (**3, s.91**). Belə ki, o bəzi liberal filosofların müəyyən baza prinsiplərində fundamental razılığa gəlməyi bilsə də, Ç.Kukatas nəyinsə haqqında razılığa gəlməyi (agreeing-that) nəyisə etməyə razılaşmaqdan (agreeing-to) fərqləndirməyi təklif edir. Məsələn, əgər kişi və qadın nikahlarını qoruyub saxlamaq istəyirlərsə, bunu bəziləri uşaqlarına görə, digərləri isə elə bu münasibətlər xatirinə etmiş olurlar. Ç.Kukatasın fikrincə, nəyə görəsə razılığa gəlmək heç də nəyisə etməyə razılaşmaq demək deyildir. Yəni burada substansional və ya əsaslı razılaşmadan deyil, praktik, reallıqdan irəli gələn razılaşmadan söhbət gedir. Analoji vəziyyətin azad cəmiyyətlərdə də müşahidə edildiyini bildirən Ç.Kukatasa görə, insanların nəyisə birlikdə görmələrinə razılıq vermələri heç də başlıca baza prinsipləri ilə əlaqədar konsensusa gəldiklərini nümayiş etdirmir. Hətta praktik sahədə minimal razılıq, yəni heç olmasa sadəcə cəmiyyətdə birgə yaşamaq arzusunun olması müxtəlif assosiasiyaların zəruri modus vivendi-sini (həyat tərzi və ya rejimi ilə razılaşmanı) təmin etməyə kifayət edir. Ç.Kukatasın fikrincə, dözümsüzlüyün qaçılmazlığını iddia edənlərin əksinə, cəmiyyətdə tolerantlıq prinsipi əsasında mümkün olan modus vivendi anlayışını istifadə edə bilərik.

M.B.Homyakov aydınlaşdırır ki, əgər C.Roulz üçün sosial institutların "birinci xeyirxahlığı" ədalətdirsə, Ç.Kukatas üçün azad assosasiya (yəni birləşmə və ayrılmanı) nəzərdə tutub vicdan azadlığını dəstəkləyən cəmiyyətdə ilk xeyirxahlıq tolerantlıqdır (**3, s.91**). Amma Ç.Kukatasın nəzərdə tutduğu bu tolerantlığın Piter Nikolsonun "mənəvi ideal"dan fərqləndiyini və ya U.Kimlikadakı individin avtonomluğuna əsaslanmayan individual haqlarının tanınmasından seçilərək bunun daha çox bütün müxtəlifliklərə rəğmən birgə yaşamaq qüvvələrini balanslaşdırmağa yaxın modus vivendi cəmiyyətinin stabilliyini təmin edən prinsip olduğu aşkarlanır. M.B.Homyakov Ç.Kukatasın liberal cəmiyyətin birinci xeyirxahlığı hesab etdiyi tolerantlığın heç bir dəyərə istinad

etmədən müstəqil şəkildə izah etməsini də maraqlı adlandırır. Belə ki, Ç.Kukatasda tolerantlıq nə K.Popperin nəzərdə tutduğu kimi həqiqətə nail olmağın şəraiti, nə də ki, C.Roulzdakı ədalətə xidmət edən olmayıb öz-özlüyündə vacibdir. Bunu iddia edərkən Ç.Kukatasın İ.Kantın baxışlarına istinad edib kifayət qədər sərbəst interpretasiyaya yol verdiyini söyləyən M.B.Homyakov burada tolerantlığın ağlın özünün fəaliyyət göstərməsinin şərti olduğu ideyasına əsaslandığını iddia edir. Deməli, fikrimizin doğruluğunu əsaslandırmaq üçün bizim kənar nüfuza istinad etməyimizə heç bir ehtiyac qalmır. Halbuki, Roulz, Dvorkin, Berri kimi liberallar üçün belə bir nüfuz ağlın universallığıdır. Amma Ç.Kukatas üçün ağıllı tədqiqatın prosedurları, metodları və instrumentləri tənqid edilən və dəyişilməyə məruz qalandır. Axı həqiqətən də ağlın mahiyyəti onun ictimailiyində, tənqidi baxışa açıq olmasındadır. Elə bu səbəbdən də Ç.Kukatasa görə tolerantlıq olmadıqda ağla kənar nüfuzun təsiri artdığından bunun özü ağlın fəaliyyət şəraitini pozur. M.B.Homyakovun fikrincə tolerantlıq Ç.Kukatas üçün ağlı inkişaf etdirdiyinə görə deyil, ona hörmətin təzahürü kimi vacibdir. Bu zaman tədqiqatçı qeyd edir ki, "...Kukatasda tolerantlıq bir qrupun üzvlərinin başqa birilərinə qarşı dözümlülüyü olmayıb (əgər belə olsaydı onda məlum "tolerantlıq paradoksu"nun həlli tələb olunardı ki, yəni, bu insanın nəyisə mənəvi baxımdan təhlükəli hesab etdiyi təqdirdə həmin nəyinsə mövcud olmasına öz gücü daxilində istifadə etməkdən çəkinməni mənəvi xeyir bilməsidir) bu daha çox liberal cəmiyyətin bütövlükdə "formal" tolerantlığı olub "birliyin birliyi"tək insanın necə yaşaması barədə hər-hansı bir konsensusun olmadığı mənasını daşıyır" (**3, s.92**). Başqa sözlə M.B.Homyakov izah edir ki, bu müxtəlif qrupların modus vivendisidir ki, publik sferanı formalaşdırıb bu qəbil olanlarda müxtəlif qrup normalarının konvergensiyası baş verərək onlar arasında praqmatik kompramis gerçəkləşdirir.

Nəticə

Liberal dəyərlərin və bütövlükdə liberalizmin hökm sürdüyü cəmiyyətlərdə xüsusən də son dövr anqlo-sakson tendensiyalar mövcud olduqca multikulturalizm, kommunitarizm və libertarianlıq iddiaları davam edəcəkdir. Bu zaman liberalizm daxilində multikulturalizmin mümkünlüyündən tutmuş, onun və sonuncunun inkarına qədər fərqli mövqelər içərisində fikrimizcə, müasir liberalizmə tolerantlıq və ədalət anlayışlarını praqmatik şəkildə təqdim edən lebertarianlıq baxışı olduqca dəyərlidir. Ən azından müasir liberalizmin hansısa ideologiya ilə mümkün konvergensiyasına nail olmaqdan öncə elə mövcud durum daxilində insan haqları və azadlıqlarına nail olmaq, başqa sözlə deyilərsə, yuxarıda qeyd edilmiş "Hegel liberalizmi"ni gerçəkləşdirmək və ya ona doğru təşəbbüslərin sayını artırmaq bəlkə də bəşəriyyətin tamamilə itirilməmiş son şanslarındandır. Multikulturalizmin aradan gedib əvəzində interkulturalizmin qərarlaşdığını iddia edənlərə gəldikdə isə elə onların özləri də vurğulayır ki, "...xüsusilə Avropa mühitində intişar tapan interkulturalizm diskursiv olaraq mənfi çalar daşıyan multikulturalizmdən uzaqlaşmağa və fərqli ad altında oxşar modelin yenidən gündəmə gətirilməsinə imkan yaradır" (**1, s.162**). Bu isə, heç də

multikulturalizmin tamamilə aradan qalxması olmayıb, yalnız onun yeni səviyyədə inkarından başqa bir şey deyildir. Halbuki, sözügedən inkar da multikulturalizm kimi bir əsasın möhkəm olduğundan sonra mümkün hesab edilə bilər. Deməli, qlobal miqyasda da müasir liberalizmin fəsadlarını aradan qaldırmaq naminə onun daxilən yenilənməsinə və ən azından klassik dönəmlərində təsdiqini tapmış dəyərlərin yenidən dərk edilməsinə böyük ehtiyac duyulur. Bu baxımdan da istənilən növ mücərrədliklərdən çəkinərək cəmiyyətdə yüksək ədalət və bərabərlik şərtlərini bərqərar etməkdən ötrü insana və onun şəxsi ləyaqət hisslərinə mühüm önəm verilməlidir.

Ədəbiyyat:

1. Məmmədli N. Multikulturalizm. Panaseya yoxsa alternativ. B., 2016.
2. Печерская Н.В. Современный дискурс справедливости: Джон Ролз или Майкл Уолзер?//Общественные науки и современность. 2001, №2.
3. Хомяков М.Б. Брайн Берри: Либеральный Универсализм против мультикультурализма и национализма. Журнал социологии и социальной антропологии. 2007. Том X. № 1.
4. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. B., BBMM, 2017.
5. Abbasov Ə. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. Bakı, "MBM" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006.
6. Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. Пер. с англ. Под ред. В.И.Иноземцева. М., Логос, 2003.

Hüseyn İbrahimov

DİALOQ KONSEPSİYASI MULTİKULTURALİZM TARİXİNƏ FƏNLƏRARASI YANAŞMANI TƏLƏB EDİR

Annotasiya. Dialoq mühiti elə prosesdir ki, bu zaman mütləq milli-mənəvi dəyərlərin tənəzzül etməməsi və aşınmaması istiqamətində olduğu mövqeyindən asılı olaraq hər bir vətəndaş öz vəzifəsini yerinə yetirməli, bu yöndə bütün bilik və bacarığını səfərbər etməlidir. Bu məsələ həm də alim və tədqiqatçıları da narahat etməli, onlar məntiqli fikir və ideyalarını irəli sürməlidirlər. Doğrudur, bu istiqamətdə bəzi tədqiqat işləri işıq üzü görüb, lakin bu hələ kifayət deyildir. Əsas aktuallıq kəsb edən odur ki, necə etmək lazımdır ki, bizim milli-mənəvi dəyərlərimiz, əxlaqi qaydalarımız dünyanı öz ağuşuna almış bu prosesi daha da zənginləşdirsin, eyni zamanda türk dünyası mədəniyyətlərinin regional dialoquna təkan versin. Ancaq əksər ölkələrin timsalında bunun şahidi oluruq ki, qlobal-neqativ inteqrasiya prosesi ayrı-yarı mədəniyyətlərə, millətlərin özünəxas dəyərlərinə, elmi-mədəni mühitinə zərbə vurmuş, yad elementlərin milli mədəniyyətlərin tərkibinə daxil olmasına səbəb olmuş, bu mədəniyyətlə-

rin zəifləməsi istiqamətində cəhdlər olmuşdur.

Giriş. Mədəni müxtəlifliyin qorunması - etnik fərqliliyin saxlanılmasını və bu sahədə institut və qanunların yaradılmasını nəzərdə tutur. Prosesə nəzər yetirdikdə görmək olar ki, tolerantlıq və multikulturalizm anlayışları oxşar kateqorial aparat daşıyıcısıdır.Eyni zamanda hər iki anlayış mədəni siyasətin metodologiyasında vacib əhəmiyyət kəsb edərək müasir insanın dəyərlər sistemini müəyyyən edir. Cəmiyyət insan şəxsiyyətinin inkişafını təmin edən, adamlarda mənlik və ləyaqət, haqq-ədalət, qanuna hörmət hissləri doğuran biliklər sisteminin zəruriliyinə daim ehtiyac duyur.Belə sistemi yalnız keçmiş və bu gün barədə dərindən fikirləşmək, gələcək üçün proqnozlar vermək sayəsində qurmaq olar.Bundan ötrü fikir, hisslər, intuisiya və sair xüsusiyyətlərin sintezi gərəkdir. Mənəviyyatla birləşməyən bilik təhlükəli ola bilər (**3 s.20**). Bu baxımdan multikulturalizmin elmi metodoloji bazasının yaradılıb möhkəmləndirilməsi məsələsi də Azərbaycanı düşündürür. Məsələyə yeni yanaşma metodları isə fənlərarası yaxınlamanı istisna etmir, əksinə daha zəruri edr.

*Bu gün Azərbaycan elminin coğrafiyası ölkənin demək olar ki, bütün regionlarını əhatə edir, bu elmin prizmasından yer altındakı və Xəzər dənizinin dibindəki təbii sərvətlərlə yanaşı, həmçinin, ölkə ərazisindəki tarixi abidələr də keçir. Onlar yüzlərlə alimin həyatının məqsədinə çevrilərək elmi tədqiqatların nəticələri formasında xalqımıza xidmət edirlər (***2 s.34***).*

Bəzi dövlətlər multikulturalizm siyasətini dünya siyasi-mədəni mühiti zəminində, bəziləri isə dar etnoərazi qrup çərçivəsində həyata keçirirlər.Multikulturalizm tolerantlıq olmadan, başqalarının fərqliliyini qarşılıqlı olaraq qəbul etmədən təsviredilməzdir. Müxtəlif xalqlar arasında razılıq axtarışı bu gün müasir cəmiyyətin qarşısında duran əsas məsələlərdəndir və multikulturalizm bu problemin həllində mühüm vasitədir.

Multikulturalizm anlayışında tədqiqatçı D. Martuçellinin fikrincə, 4 aparıcı ideya var:

a) ədalətlilik bərabərliyi- hər kəsin mənafeyini nəzərdə tutur.

b) fərqlilik bərabərliyi –şəxsi və ümumu maraqların birləşməsini nəzərdə tutur

c) fərqlilik azadlığı –müstəqil qərarların mümkünlüyünü nəzərdə tutur

d) ədalətlilik azadlığı –hər bir ayrı fərdin mənafeyinin mümkünlüyünü nəzərdə tutur.

Digər baxışlara, dəyərlərə, vərdişlərə dözümlülük müasir dövrün beynəlxalq əhvali-ruhiyyəsinə çevrilməli, tolerantlıq böyük çoxmillətli dövlətlər üçün siyasi həyat tərzi daşımalıdır.

Mədəniyyətlərin kəsişməsindən vüsət alan pozitivizm tolerantlığın digərlərinə məhəbbətlə yanaşı, özünə yüksək inamla da yanaşmanın metodologiyasını tələb edir. Bu hər hansı bir cəmiyyətin hüquqi şüur səviyyəsi, milli mədəniyyətin əsl gücü və yaxud zəifliyi məhz bu keyfiyyətin təzahürü nəticəsində özünü göstərir. Hər bir ölkənin dünyada baş verən, o cümlədən qloballasma proseslərinə qoşulmasının özünəməxsusluğu mövcuddur. Müasir dünya dəyərləri siste-

mi qloballaşır, ölkələr inteqrasiyaya doğru gedir, sosial və siyasi proseslər belə desək ümumiləşir. Azərbaycan belə dünya reallığına istiqamətlənmiş praqmatik mədəni tərəqqi kursunu əsas götürərək son on ildə humanizmi və sülhü mədəniyyətlərin həll etməli olduğu beynəlxalq proqrama çevirə bilmişdir. təklif edir (**9**). Bu tezislər həm də dünyanı pozitiv inteqrasiyaya yeni çağrışlardır.

Azərbaycan dövləti XX əsrdə ikinci dəfə məhz belə bir dövrdə öz müstəqil siyasətini qurmuşdur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Azərbaycanın böyük elmi yaranmış, Respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir» (**1 s.71-72**).

Hər bir ölkənin dünyada baş verən, o cümlədən qloballaşma proseslərinə qoşulmasının özünəməxsusluğu mövcuddur ki, bu amildə də ölkə rəhbərinin siyasi kursunun mühüm əhəmiyyəti vardır. Yəni, dünya sistemi qloballaşır, ölkələr inteqrasiyaya doğru gedir, sosial və siyasi proseslər belə desək ümumiləşir.

Müasir qloballaşama şəraitində cəmiyyətdə gedən bütün islahatlar sosio-mədəni prosesləri əhatə edən uzunmüddətli perspektiv kimi, obyektiv şəkildə insanların həyat tərzinə də əsaslı təsir göstərir. İkinci tərəfdən isə, bu çoxcəhətli islahatlar təbəqələşmə prosesini sürətləndirir. Müasir sosio-mədəni hadisələrin, tarixi müasir inkişaf paradiqmalarının dinamikasının tədqiq edilməsi cəmiyyətin yenidən təşkilində və idarə olunmasında müasir proseslərin öyrənilməsi zərurətini daha da aktuallaşdırır. Siyasi mədəniyyət heç də mücərrəd bir proses kimi məkan və zamandan açılı olaraq formalaşmır. Sosial reallıq, cəmiyyətdəki və şəxsiyyətlər arasındakı münasibətlər, mənəvi və əxlaqi dəyərlər sistemi, ictimai rəy və ənənələr siyasi mədəniyyətin formalaşmasına təsir göstərir. Müasir siyasi mədəniyyət mədəni siyasət ideyalarının həm də beynəlxalq aləmdə qəbul etdirilməsi formasıdır. Siyasi mədəniyyət sistem daxilində siyasi təsisatların qarşılıqlı münasibətlərini, eləcə də onların sosial sistemin başqa ünsürləri ilə əlaqələrini normalar, sərvətlər, ənənələr vasitəsilə tənzimləyir. Siyasi mədəniyyət bir tərəfdən siyasi sistemin legitimliyini və səmərəli işini təmin edirsə, digər tərəfdən o, siyasətçilərin və onların təmsil etdikləri qüvvələrin "oyun qaydalarından" tutmuş geniş xalq kütlələrinin siyasi proseslərə münasibətinədək olan səviyyəni bildirir. Siyasi mədəniyyət cəmiyyətin mənəvi potensialının tərkib hissələrindən biridir. Onu ümumi mədəniyyətdən ayırmaq müəyyən mənada şərtidir, çünki mənəvi mədəniyyətin hüquqi, əxlaqi, estetik və s. sahələri bu və ya digər formada siyasi mədəniyyətə daxildir.

Siyasi mədəniyyətin inkişafının ən mühüm şərtlərindən biri siyasi plüralizmin həyat normasına çevrilməsinə geniş imkan yaradılması və digəri aşkarlığın genişlənməsidir. Azərbaycanda siyasi mədəniyyət plyuralizmin geniş spektrini əhatə edərək bu gün mədəniyyətlərin dialoq axtarışları özündə ehtiva edir. Məhz bu kontekstdən də: «Azərbaycan – yeni zəmanənin tələblərinə etinasızlıq göstərə bilməz, hər bir dövlətin, millətin, etnosun və hətta şəxsiyyətin mənafelərinə toxunan proseslərdən kənarda qala bilməz. Gələcəyin qlobal cəmiyyətin-

də layiqli yer tutmaq üçün bütün xalq, ilk növbədə, siyasi, iqtisadi və elmi elitamız böyük səy göstərməlidir»(**4**)

Müasir fəlsəfi araşdırmalar kontekstində sosio-mədəni paradiqmaların nəzəri cəhətdən təhlilində görürük ki, nəinki sosial fəlsəfə elmində, həm də ictimai həyatda, praktikada problemlərin öz əməli həllində, tətbiqində müəyyən boşluqlar vardır (**8, s.84**). Hazırda həm də qloballaşmanın postmodern düşüncə dövrü yaşayırıq, onu həm də informasiya dövrü adlandırırlar, buna görə də ictimai məsuliyyətin də rolu, imkanları artır ki bu da milli dövlətçilik maraqlarımızın yalnız korparativ əsaslarla deyil, ailə institutu çərçivəsində müdafiəsinə köklənməlidir. Cəmiyyətdə baş verən sosio-mədəni paradiqmaların bu baxımdan qlobal və innovasion problemlərinə aid olan və yeni ideyaların tətbiq olunmasının araşdırılması da zəruri əhəmiyyətə malikdir və bu mərhələnin də həlli imknalrı fənlərarası yanaşma metodları ilə sürətləndirilə bilər.

Azərbaycan və dunya ölkələri arasında mədəni əlaqələrin həm tarixi həm də müasir əlaqə körpüsü vardır. Bu əlaqələr çərçivəsində mədəniyyətlərin dialoqunun axtarışı həm də mühüm geosiyasi əhəmiyyət daşıyır.

Burada əsas məsələ, belə demək olarsa, paradoksal cəhət ondadır ki, bəşəriyyətin tarixi inkişafının qanunvericiliyi və məntiqi davamı olan inteqrasiya prosesləri dünya düzəninin köklü dəyişikliklərə uğradığı sistemli transformasiyalar mərhələsində baş verən hadisələrlə, ziddiyyətli münasibətlərlə müşayiət olunur.

Tarixi proses boyu mövcud olan sivilizasiyaların yanaşı yaşaması,milli və dini-konfensiyaların qonşu, insanların həyat normalarının və dünya duyumlarının birgə formalaşdığı prosesdir. XX əsrin ikinci yarısından başlayaraq "Roma klubu"nda birləşən alimlərin bəşəriyyəti böyük sürətlə öz inkarının məhvinə doğru getməsi haqqında mülahizələri bəşəriyyətin qlobal probleminə diqqəti artırdı. Bu proseslər özlüyündə qlobal problemlərin axtarısları yolunda ciddi çağırışlar idi. *Azərbaycanda minilliklər boyu dinc yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qorumuş, hazırda isə cəmiyyətdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar – dövlət siyasəti əlavə olunmuşdur ki, bu da respublikamızda multikultural mühitin uğurlu perspektivlərini təmin edir. Lakin Qərb dünyasında təqdim olunan multikulturalizm həmin ölkələrə sığınmış qaçqın və ümumilikdə gəlmələrə olan hörmət və ehtiramdan deyil, sadəcə dözümlü münasibətdən ibarətdir(5.46). Dözümlülük özlüyündə fiziki hadisə deyil, tam mənasında mənəvi proses olaraq özündə kompleks mədəni təsirləri birləşdirir.*

Artıq dünya birliyi haqlı olaraq dialoqun fəlsəfəsini bəşəriyyətə daha zəngin və güclü dəstək olacaq mədəniyyətlərdə axtarırlar. Bunu da qeyd etməliyik ki, mədəni siyasətin həyata keçirilməsinin modernləşmə axtarışları həmin prinsiplərə söykənir.

Ədəbiyyat:

1.Əliyev H.Ə. Müctəqillik yolu: seçilmiş fikirlər Б; Azərbaycan Universiteti

1997. 136 s.
2.Əlizadə A. A. "Dəqiq ideoloji məqsəd "– Multikulturalizm. Ədəbi-bədii,elmi publisistik jurnal №1, 2016 -232 Səh.
3.Mehdiyev R.Ə. "Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi". Multikulturalizm. ədəbi-bədii, elmi-publisistik jurnal, №1, 2016- 232 Səh.
4. Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, – Yeni Nəşrlər Evi. 2005, 464 c.
5.Qurbanlı M.Q. "Azərbaycan multikulturalizm modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur". Multikulturalizm. Ədəbi-bədii,elmi publisistik jurnal №1, 2016 -232 Səh.
6. Chesterton K.G.The Man Who Was Thursday, 1908.
7. ``Azərbaycan``qəzeti 03 oktyabr 2014-cü il N 142 (2587)
8.Ibrahimov H. Q.,Məmmədov Ş.A. Müasir İctimai Həyat Paradiqmalrı B, "Nafta-Press" 2015 125 səh.
9. http://www.azadinform.az/news/a-113398.html

Elmira Təhməzova

AZƏRBAYCAN MİLLİ FƏLSƏFƏSİNDƏ DƏYƏRLƏR PROBLEMİ

Fəlsəfə yarandığı gündən ona müxtəlif təriflər verilmişdir. Fəlsəfə məhz ən ümumi biliklər əsasında, ən ümumi qanunların dərki sayəsində dünyanın ümumiləşmiş mənzərəsini göstərir.

Hansı məkanda yaranmasından, hansı xalqı, milləti təmsil etməsindən asılı olmayaraq filosoflar dünyanı bir insan meyarı ilə, ümumbəşəri dəyərlər mövqeyindən dərk etməyə çalışır və insan-dünya münasibətlərinin müxtəlif konsepsiyalarını hazırlayırlar. Məsələn, Platon dövlət haqqında yazarkən konkret milli reallıqdan deyil, ümumiyyətlə insanlar arasındakı münasibətin tənzimlənməsindən danışır. Platonda insanlar arasındakı fərq milli deyil, olsa-olsa sosial səciyyə daşıyır. Aristoteldə isə dövlət anlamı milliliyin nəzərə alınması baxımından bir qədər konkretdir bununla belə mücərrəd insan-dövlət münasibətləri üstünlük təşkil edir.

Milli fəlsəfəyə gəldikdə isə millətin, vətənin elmi-fəlsəfi özünüdərk konsepsiyası bütün fərdlər deyil, milli intelektin səfərbər olunması sayəsində, milli filosoflar, ictimai-siyasi liderlər tərəfindən işlənib hazırlanmalı və geniş kütlələrin sərəncamına verilməlidir. Lakin elmi-kütləvi, fəlsəfi-publisistik, poetik dildə, bədii obrazlar vasitəsilə, ədəbiyyatın, kütləvi informasiya vasitələrinin bütün mümkün imkanları ilə istifadə insanlara çatdırılmalıdır.

Milli ideologiyaya söykənməyən, kortəbii fəaliyyətlət, millətçilik hisslərindən doğsa da son nəticədə o xalqa ziyan gətirə bilər. Deyilənlər bədii ədəbiyyat və başqa sahələrə, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinə də aiddir.

Milli ideologiyanın da əsasında milli fəlsəfi fikir dayanır. Milli dövlət maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində - milli fəlsəfi fikir zəminində formalaşır.

Milli mədəniyyətin tərəqqisi, xalqın maariflənməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən ziyalılarımız bu gün də cari problemlərin mənfi cazibəsinə düşmədən, bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə ümummilli tərəqqiyə xidmət edirlər.

Etnik-milli təfəkkürdən milli dövlətçilik şüuruna gedən yol milli və ümumbəşərinin sintezindən keçir. "Milli" anlayışı iki məzmun yükünə malikdir. Birincisi, hər bir millət üçün spesifik olan, onu fərqləndirən xüsusiyyətləri, ikincisi, fərqli cəhətlərlə ümumi cəhətlərin vəhdətini təşkil edir.

İnsan müəyyən bir millətə mənsub olmazdan əvvəl insandır. Milliyyətindən asılı olmadan bütün insanlar üçün ümumi, zəruri olan cəhətlər vardır. "Etnik-milli" anlamı müxtəlif qrupların insanlarını fərqləndirən cəhətlərin əhatə etdiyinə görə geniş deyil. "Milli" anlamı isə hər bir insana məxsus zəruri şərtləri əhatə etdiyindən və daha zəngindir.

İnsanı səciyyələndirən keyfiyyətlərdən çoxu, onun maddi ehtiyacları, intellekti, bilik və vərdişləri ümümbəşəri səciyyə daşıyır. Əsrlər boyu əvvəlki nəsillərin fəaliyyəti ilə yaranmış elm və texnologiya, maddi-texniki sərvətlər bütün insanlar üçündür.Lakin bu və ya digər millətə mənsub olan adamlar müəyyən dildə danışır, müəyyən adət-ənənələri qoruyub saxlayırlar. Bunlar etnik-milli xüsusiyyətlərə aiddir.

Bu baxımdan, biz artıq elə bir dövrə qədəm qoymuşuq ki, yeni ictimai birlik normaları yaranır və onlar hətta "etnik" birliklərə nisbətən daha dayanıqlı ola bilirlər.

Belə ki, "milli" anlayışının da yenidən dəyərləndirilməsinə, onun məzmununa daxil olan yeni məna çalarlarına xüsusi diqqət yetirilməlidir.

Milli fəlsəfi fikir dünyanın bir insanla münasibətini, bir insanın dünyaya şəxsi, fərdi münasibətini əks etdirməkdən fərqli olaraq milli Mənlə dünya arasındakı münasibəti ifadə edir.

Əlbəttə, əsl böyük fəlsəfə *fərdi Mənlə* dünya arasındakı münasibəti əks etdirir. *Fərdi Mən ümumbəşəri* və *milli Mənləri* etiva etmək imkanına malik olduğundan, daha zəngindir. Lakin *fərdi Mən* heç də həmişə özünü dərk edə bilmir. Ayrı-ayrı fərdlərin özünüdərk yolu milli və ümumbəşəri özünüdərklərin ancaq müəyyən elementlərini etiva edir. Bu baxımdan, fərdi şüur daha zəngin olsa da, daha çox qeyri-müəyyəndir. Ümumbəşəri şüur, ümumbəşəri özünüdərk əsrlər boyu insanların dünyaya münasibətinin rasionallaşmış ifadəsidir. Burada duyğudan, emosiyadan (xatirədən, nisgildən və s.) daha çox geniş biliklər əhatə olunur. Lakin insanın dünya haqqındakı bilikləri müxtəlif pillələrdə təzahür edir.

Hər bir fərdin öz dünyası olduğu kimi öz fəlsəfəsi də var. Müxtəlif fərdlərin fəlsəfəsini yığıb, vahid ortaq məxrəcə gətirmək mümkün deyil. Daha doğrusu,

fəlsəfənin özünəməxsus toplanma qaydaları vardır.

Millətin fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq, milləti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarət olur.

Milli-fəlsəfi fikir milli ruhun özünün mövcudluğudur. Elə xalqlar vardır ki, onların nümayəndələri fəlsəfi traktatlar yazır, lakin onları səciyyələndirən, özəlləşdirən, fərqləndirən ruh yoxdur.

Bu böyük dünyada, böyük xalqların yaşadığı dünyada, böyük tarixlər yaradan və böyük nəzəriyyələr yaradan xalqlarla birgə yaşayıb onlara qatılmamaq, fərqli qalmaq asan məsələ deyildir. "Olduqca çətin bir problem ortaya çıxdı. Necə etmək lazımdır ki, öz dinini, milliyyətini itirmədən Qərb sivilizasiyasını qəbul edək" (**3, s.79**) – deyə professor Y.Rüstəmov yazırdı.

Bəli, qloballaşma şəraitində milli-mənəvi dəyərlərimiz həqiqətən böyük təhlükələrlə üzləşir və milli-fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünü qoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətindir. Buna möhkəm iradə lazımdır.

İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. "Mənəvi dəyərlər" insanı cəmiyyətdə fotmalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyanının təməli qoyulandan başlamışdır. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutut. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşmış və göründüyü kimi, o vaxtdan bəri çox az dəyişmişdir. Bu dəyərləri "Dədə Qorqud" (XI əsr) və "Koroğlu" (XVI əsr) kimi türk dastanlarında görmək olar. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Koroğlu" dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Füzuli, Nəsimi və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, onda vətənpərvərlik, Vətənə məhəbbət hisslərini daim gücləndirmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri, İslam dininin təmizlik, düzlük, insanlıq kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Müasir insanın formalaşması və özünü təsdiqi, məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır. Azərbaycan xalqı

azad və suveren dövlət quraraq mədəni iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir. Milli-mənəvi dəyərlərin təbliği məqsədilə kitabxanalarda həyata keçirilən kütləvi tədbir formaları, milli-mənəvi dəyərlərin mühafizəsi və gələcək nəsillərə ötürülməsində əhəmiyyət kəsb edən beynəlxalq hüquqi sənədlər bu cəhətdən çox önəmlidir. Milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün döğma, əziz və müqəddəsdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müsair tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi səddə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişə gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir. O, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – Azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət vermişdir. Liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev cənabları onu üç tərkib hissəyə ayırırdı: dil, din, adət-ənənə. Heydər Əliyev cənabları milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən Heydər Əliyev "Əlimi Qurani-Şərifə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin edəcəyəm" (**1, s. 30**).O, eyni zamanda Azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşmışdır. Milli dövlətçilik və milli-mənəvi dəyərlər vəhdətdədir.

Professor Ə.Abbasov dövlətçilikdə milli ideologiyanın rolundan yazarkən qeyd edir ki: "Kamil milli ideologiyanın da başlıca vəzifəsi ondan ibarətdir ki, insan, cəmiyyət və millət durumunda azadlıq məfhumunu mədəniyyət atributuna çevirməkdə yardımçı olsun, birgəyaşayışın əxlaq qaydalarının zəruriliyini və

mahiyyətini aşılasın. Birləşdirici simvol – fenomenlərə, dəyərlərə (hüquqi dövlətə, demokratiyaya, milliliyə, azərbaycançılığa, doğma yurda, Vətənə, Torpağa, Dilə və Dinə, mədəni-mənəvi irsə və s.) güclü motivasiya fərdi və ümumi istək, sevgi formalaşdırsın, böyük və çətin başa gələn məqsədlərə çatmaqda, taleyüklü problemlərin həllində dayaq olsun" (**4, s.192**).

Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" – deyən Ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi. O, qadağalara məruz qalan, milli və dini bayramları, adət və mərasimləri xalqa qaytardı. Türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi onun dini-əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi. Qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi zamanda Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" –bəyanatı və "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" – deyən ümummilli liderin ideyaları bu gündə yaşayır və həyata keçirilir. Sonra isə Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz.2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Burada cənab İlham Əliyev qeyd etmişdir ki, "...Çox istərdim ki, bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, konkret fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin". (**2, s. 5**) bu gün Ulu öndərin ali ideyalarının gerçəkləşməsində cənab İlham Əliyevlə birgə onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Əslində, nə vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi tarixin hansısa mərhələsində unutduğumuz bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bər-

pası faktı məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Ölkəmizdə və ölkəmizdən kənarda muğamın yenidən təbliği buna bariz misaldır. Məhz bunun sayəsində milli-mənəvi dəyərimiz olan muğamımız sevilir və yaşayır.

Ədabiyyat:

1.“Heydər Əliyev irsi”.Beynəlxalq Elektron kitabxana. “Sabaha doğru”. Bakı, 2004

2.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2000-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfrasındakı çıxışı.

3.Rüstəmov Y.İ. Sivilizasiyaların dialoqu – bəşəriyyətin vəhdətinə aparan yoldur. “Şərq-Qərb: sivilizasiyaların dialoqu”. Elmi-nəzəri jurnal. Bakı, 2005, №1

4.Əbülhəsən Abbasov – Milli ideologiya birləşdirici məna – milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. “Elm və təhsil”, Bakı, 2012.

Фарида Багирова

ЭВОЛЮЦИЯ ПОНЯТИЙ «ЭТНОС» И «НАЦИЯ» В ИСТОРИИ ЕВРОПЕЙСКОЙ ФИЛОСОФИИ

Введение. В условиях информационного хаоса и неоднозначных интерпретаций реальности возникает необходимость творческих философских дискуссий и экспертных практик по осмыслению быстро меняющегося мира. Следовательно, национально - философский дискурс с необходимостью должен встраиваться в общемировой философский контекст, в рамках которого четко осознаются как мировые, так и национальные проблемы. Более того, современное рациональное мышление нуждается в новом знании, которое вскрывает новые пласты проблем. Одной из этих проблем на сегодняшний день является проблема наций. Сегодня в современных исследованиях, все больше обращают внимание на то, что принадлежность к нации определяется человеком в процессе самоидентификации. Термин «нация» скорее принимается не как «группа», а как «социальная общность», связанная посредством сплочения индивидов общим чувством идентичности, ценностями прошлого и настоящего, объединенных в одном государстве. Последнее совместно с институтами гражданского общества и системой массовых коммуникаций формирует у людей воображаемый ими образ «нации» и «гражданское сознание» (см.1).

Основной целью статьи является анализ эволюций понятий «этнос» и «нация» в истории европейской философии и науки XVIII – начала XX столетия, выявления основаные философские аспекты и исследовательские пара-

дигмы концепций происхождения и эволюции этих понятий.

Основная часть. С каждым днем мы наблюдаем активное насаждение и пропаганду западных ценностей, что иногда приводит к размытию культурных традиций, защита которых является насущной задачей историков, социологов и философов. Отметим что, именно философия создает целостную картину духовных ценностей национальной культуры, формируя самосознание и идеалы, которыми живет тот или иной народ. Таким образом, она дает целостную картину духовных достижений национальной культуры.

Следует отметить, что содержание термина «нация» в раннем и позднем Средневековье разительно отличалось от его современных значений. Будучи первоначально используемым для обозначения христианских народов, слово «natio» до эпохи Возрождения преимущественно употреблялось как термин, содержащий корпоративно - организационный смысл. Часто используемые в социальной философии и ряде других научных дисциплин, категории «нация» и «этнос» до сих пор не имеют общепринятого содержания. Появление терминов «нация» и «этнос» восходят к разным эпохам, например, если термин «этнос» («народ»), вошел в язык европейской науки лишь в XIX в., то «нация» («рождаться») активно употреблялись еще историками и писателями Древнего Рима. В позднем Средневековье термин «natio» наполняется новым содержанием. Например, в Парижском университете студентов делили на четыре нации: чешская (богемская), саксонская, баварская и польская. Как отмечает Ю. Хабермас, приписываемое другим национальное происхождение с самого начала связывалось с негативным разделением «Чужого от Своего» (см.4). Таким образом, эволюция значения термина «нация» в средние века соответствовала эволюции европейского общества того времени с характерным для него политическим устройством. Дальнейший этап эволюции представлений о понятии «нация», был исторически связан с переходом к «индустриальному обществу», а также с процессом формирования в Европе крупных буржуазно - демократических государств.

Оставляя в стороне эволюцию употребления термина «нация» отметим, что уже к концу XVIII столетия в лоне европейской философии сформировались, по меньшей мере, четыре теоретических подхода, в пределах которых исследовались проблемы формирования и развития наций:

1. Натуралистический (Ж. Боден, Ш. де Монтескье);

2. антропологический (Дж. Вико, И. Кант);

3. социально - экономический (А.Р.Ж. Тюрго, А. Фергюсон, А. Барнав, Н. де Кондорсе);

4. политический - выдающимся представителем которого был Г.В.Ф. Гегель.

Остановимся подробнее на основных моментах политической философии Гегеля, которая базируется на его философии истории. Согласно Гегелю, вектор исторического развития человечества задан эволюцией «мирового духа»,

реализующего себя в различных формах «народного духа». Каждая нация эта особая ступенька развития народного духа, проявляющаяся в определенных формах. «Народный дух» Гегеля, существует в своей религии, в своем культе, в своих обычаях, в своем государственном устройстве и политических законах (см.2). Это, по Гегелю, превращает нацию в явление вечное, существующее и оказывающее свое воздействие в течение всей истории человечества, поскольку вся история есть дело «мирового духа» и «народных духов».

Народ, нация как «духовный индивид», у Гегеля объединяется в единое целое – государство. Все общее, что познается в государстве, все то, под что подводится все существующее, - составляет образование нации. Определенная форма общности, которая заключается в той конкретной действительности, т.е., государство и есть сам «дух народа». Гегель считал, что в отношении «народа» («нации») определяющая роль государства состоит в том, что именно оно избирает «частных лиц» в собственно «народ». (см. 2). Трактовка Гегеля о роли государства в образовании наций немногим отличалась от взглядов его предшественников и современников, но в своих произведениях он настолько успешно описал процесс образования немецкой нации, что и сегодня эта работа пользуется интересом. Гегель, в своей работе «Конституции Германии», отмечает, что распад некогда единого германского государства на множество «бюргерских» государств, приводит к утрате политической, культурной и общенациональной идентичности. Допустить подобную культурную «гетерогенность» неоправданно и необходимо либо добровольное объединение разрозненных монархий, либо применить силу принуждения. Философ утверждал: «Толпу немецких обывателей вместе с их сословными учреждениями, которые не представляют себе ничего другого, кроме разделения немецких народностей, и для которых объединение является чем-то совершенно им чуждым, следовало бы властной рукой завоевателя соединить в единую массу и заставить их понять, что они принадлежат Германии» (см. 2). Напомним, что «Конституция Германии» Гегеля впервые была опубликована лишь в 1893 г.– спустя почти 20 лет после того, как «Железный канцлер» Бисмарк завершил объединение немецких государств почти в полном соответствии с рекомендациями Гегеля.

В конце XIX- начале XX вв. теории наций и национализма приобрели особый интерес у ученых и философов. Многие исследователи пытались раскрыть природу наций через объяснение коллективной психологии определенной нации, выявлялись основные группы факторов, сплачивающие людей в устойчивые коллективы. Территория проживания, язык, культура, особенности характера, восприятия и мышления являлись той частью признаков позволяющих, по мнению мыслителей, объяснить происхождение и развитие народов, а также отделить один народ от другого.

Одним из первых к проблеме национального характера обратились пред-

ставители немецкой этнопсихологии Вильгельм Вундт (1832-1920), Мориц Лацарус (1824-1903) и Гейман Штейнталь (1823-1899). Вундт, как представитель школы «Психология народов», считал языки определенными «формами», которые содержат духовность народа, мифы, обычаи. В труде «Нации и их философии» Вундт, пытаясь обосновать понятие «национальная философия», утверждал, что каждый народ приобретает свою неповторимость в искусстве, поэзии, философии. Раскрытие духовного характера нации просачивается через ее философию и поэзию, а поэзия - это средство выражения чувств и стремлений данного народа. Под влиянием Гегеля философ также считал, что каждая нация является раскрытием человеческого идеала и в этом проявляется интеллектуальное ее своеобразие. Так же, как неповторимые личности образуют общество, и народы в своем сочетании творят человечество.

Последующая концепция «универсализма», была господствующей тенденцией западной философии первой половины XX вв., представленной такими течениями как: неокантианство, неогегельянство, логический позитивизм. Основоположник позитивной философии и социологии Дж. Стюарт Милль, обративший внимание на важную роль «культурных компонентов», под воздействием которых формируется «национальное сознание», писал - "Часть человечества, образует «национальность», когда входящие в нее люди объединены общими чувствами, каких нет между ними и другими людьми. Причем иногда объединению людей могут содействовать общность языка и общность религии, а иногда – и географические границы общего проживания. Но наиболее главными факторами, полагает Милль, являются общая национальная история, общие гордость и унижение, радость и страдание, связанные с сообща пережитым в прошлом» (см. 3).

Наиболее влиятельными научными направлениями XIX – начала XX ст. становятся «эволюционизм» и «диффузионизм». Становление эволюционизма было связано с именами О. Пешеля, А. Бастиана и И. Липперта. Бастиан, в своей работе «Общие основания этнологии» (1871г.) исходил из так называемой «клеточной» теории культуры, по его мнению, «клетки» культуры (первичные культурные элементы) в случае одинаковых условий жизни всех первобытных людей должны были бы быть идентичными повсюду на Земле. Именно они, якобы, лежали в основе всех последующих этнокультурных трансформаций, в виде «этнических идей», являющихся модификациями «элементарных идей». Бастиан пытался свести все этнокультурное многообразие к нескольким основным элементам, которые в его системе представляли собой своего рода первобытную культуру человечества.

По мере накопления новых эмпирических данных к концу XIX в. все чаще стали обнаруживаться слабые стороны эволюционистской парадигмы, в пределах которой ученым не удавалось объяснить многие факты. Этнографический материал во многих случаях не согласовывался с эволюционистскими

схемами. В дальнейшем начались поиски новых путей в исследованиях культур и их распространения, вследствии чего возникла парадигма диффузионизма. Диффузионизм представлял собой концепцию, в основу которой была заложена идея не о линейном прогрессе, а о неизбежной взаимопроникновении культур в процессе миграции народов. Основоположник диффузионизма Ф. Ратцель - автор «Антропогеографии» (1909) и его последователи (Ф. Гребнер, Э. Норденшельд, Л. Фробениус и др.) усматривали источник распространения культур и ее элементов из одного или нескольких центров. Ученые - диффузионисты пытались выявить точку распространения культур, выявить области их происхождения, и определить временные рамки этого перемещения.

Концепция «культурных кругов» была разработана в исследованиях Л. Фробениуса и Г. Э. Смита, («Культура»1925 г), но общими для всех концепций оставалось понимание развития культуры как результата заимствований и смещений ее элементов за счет пространственного перемещения культур отдельных народов. Причем это перемещение затрагивает не только предметы материальной культуры, но и отдельные идеи самого разного типа (религиозные, художественные и т.д.), а также целые системы идей: идеологии и мифологии.

Выводы. Завершая обзор трансформации понятий «этнос» и «нация» в философии и общественных науках, следует еще раз отметить, что за этот период содержание терминов менялось неоднократно. Природа и эволюция исторически сложившихся общностей людей трактовались по-разному. Главными признаками этносов и наций объявлялись единство их хозяйственно - экономических связей, языка и культуры, а чаще всего – «национальный» дух (сознание). Попытки же выработать то универсальное и приемлемое для определения всех наций и этносов так и не увенчались успехом. Несомненно, что ни одно общество не может быть социально однородным и единым по ценностным приоритетам, тем не менее, существует риск рассогласования и потери этих ценностей в условиях информационного хаоса, что в противном случае приведет к расколу общества изнутри.

Литература:

1. Бауэр О. Национальный вопрос и социал-демократия. СПб.,1909.

2. Гегель Г.В.Ф. Конституция Германии // Политические произведения. М., 1978.

3. Милль Дж. Ст. Представительное правление. СПб., 1907.

4. Хабермас Ю. Вовлечение другого. Очерки политической теории. СПб., 2001.

Xalidə Nəzərova

FƏLSƏFƏDƏ MİFOLOGİYA VƏ DİN

Mifik şüur. Fəlsəfə lap əvvəldən mifologiya ilə sıx bağlıdır. Fəlsəfə qəbilə – icma mədəniyyətinin uzun sürən tənəzzülü prosesində və onun nəticələrindən biri kimi meydana gəlmişdir. Bu mədəniyyətin süqutu onun dünyagörüşü əsasını təşkil edən mifologiyanın böhranı ilə bağlı idi. Mifologiyanın əsasını fantastik varlıqlar haqqındakı müxtəlif rəvayətlər – miflər (əsatirlər) təşkil edir. Miflərin səciyyəvi xüsusiyyəti təbiət hadisələri və cansız predmetləri canlı varlıqlar şəklində təsvir etməkdir. «Hilozoizm» adlanan bu canlılaşdırma prinsipi mifi yaradan ibtidai təfəkkürün xüsusiyyətlərindən irəli gəlirdi. Bu xüsusiyyətləri başa düşmək üçün mifologiyanı yaradan qəbilə-icma cəmiyyətinin bəzi məqamları üzərində dayanmaq lazımdır. Əmək alətlərinin son dərəcə bəsit səviyyəsi və əmək vərdişlərinin inkişaf etməməsi üzündən ibtidai insan öz yaşayışını qəbilədən kənarda, təkbaşına təmin edə bilməzdi. Sağ qalmaq üçün bütün adamların öz səylərini birləşdirərək, vahid sosial orqanizm kimi çıxış etməsi bir zərurət idi. Insanın icmadan sərt asılılığı o dərəcədə ən ümumi səciyyə daşıyırdı ki, potensial olaraq müstəqil fərd kimi özünü qəbiləyə (icmaya) qarşı qoymaq onun heç ağlına də gəlmirdi. Ibtidai insan özünün real həyat fəaliyyəti prosesində özünü icmadan ayıra bilmədiyi kimi, onun şüuru da özünü icmaya qarşı qoya bilməzdi. Fərdlə onun qəbilə icmasının belə bir qovuşuqluğu şəraitində fərdi həyat öz gerçəkliyində bütöv bir tam kimi qavranılan icmanın həyat fəaliyyətindən heç nə ilə fərqlənmirdi. Buna görə də ibtidai insanın şüuru bütünlüklə icmadaxili həyatın xüsusiyyətləri ilə şərtlənirdi. Bu həyatın səciyyəvi cəhətini icmada fəaliyyət növlərinə münasibətdə əmək bölgüsünün yoxluğu təşkil edirdi. Qəbilənin yaşayışı üçün gərəkli olan fəaliyyət növlərinin hamısı ilə hər bir kəs eyni dərəcədə məşğul olurdu. Buna görə də qəbilədaxili həyat da öz tərkib hissələrinə ayrılmayaraq, sinkretik (bütöv) bir tam kimi mövcud idi. Özünü müstəqil şəkildə bu həyata qarşı qoya bilməyən ibtidai şüurun da səciyyəvi xüsusiyyətini, bu səbəbdən, onun sinkretizmi təşkil edir. Ibtidai insanın təfəkküründə dünyanın təbiət və insana, fərdi və sosial olana, maddi və mənəviyə, təbii və fövqəltəbiiyə, subyekt və obyektə bölgüsü mövcud deyildi. Öz məcmusunda dünyanı təşkil edən bu inqrediyentlər (tərkib hissələri) mifik şüurda hələ bir-birindən ayrılmayaraq, qovuşuq şəkildə mövcuddurlar. Beləliklə, fəlsəfədə mif ibtidai insan tərəfindən dünyanın bütöv, sinkretik şəkildə dərki kimi başa düşülür.

Qeyd etdiyimiz kimi, fəlsəfə dünyagörüşü formalarından biridir, lakin birincisi deyildir. Fəlsəfə üç min il bundan əvvəl, ilk böyük filosof yaşayib-yaratdığı dövrdə meydana gəlmişdi. O dövrdə şüurun hakim formaları mifologiya və din idi. Fəlsəfənin genezisinin, onun sosial funksiyalarının və ictimai şüurda tutduğu yerin dərk edilməsi yolunda fəlsəfənin mifologiyaya və dinə münasibətinin başa düşülməsi böyük əhəmiyyət kəsb edir. Elmin son nailiyyət-

ləri ilə əlaqədar bu məsələnin təhlili tarixi-fəlsəfi prosesin bəzi adi sxemlərindən müəyyən qədər kənarlaşmağı nəzərdə tutur. Mifoloji şüur dini və ya fəlsəfi şüurdan daha qədim şüur tipidir. O, sinkretikdir və dinin, bədii yaradıcılıq başlanğıcının, əxlaqi norma və məqsədlərin elementlərinin bölünməmiş vəhdəti kimi çıxış edir. Mifoloji şüurda təxəyyüldə canlandırılan, fantastik anlayışlar reallığa çevrilir, həqiqətdə mövcüd olanlar kimi qəbul edilir. Mifolöji və dini şüurun nisbəti məsələsi maraq doğurur. Əlbəttə, mifoloji şüur dini şüurun bir sıra cəhətlərini və xüsusiyyətlərini ehtiva edir: dünyanm fantastik inikası, mifik, illüzor obrazlara reallıq kimi münasibət, xaosu mifoloji vasitələrlə kosmosa "çevirməklə" mövcud ictimai münasibətlərin reallaşması. Lakin dinin əsas əlaməti fövqəltəbiiliyə inamdırsa, bu əlaməti mifoloji şüura tətbiq etmək çətindir. Çünki mifoloji şüurda təbii aləmin fövqəltəbiiliyə zidd olması yalnız potensial imkan kimi verilmişdir. Təbii ilə fövqəltəbiinin tamamilə və ya qismən eyniləşdirilməsi, onlardan birinin digərinə çevrilməsi mifologiyanın xüsusiyyətidir. Məhz bu xüsusiyyət mifologiyanın fövqəltəbiiliyinə baxmayaraq, insan məntiqinə tamamilə uyğun olmaq xüsusiyyətini qoruyub saxlamağa imkan verir. Y.E.Qolosovker göstərir ki, mifik qəhrəman müəyyən düşüncənin təcəssümüdür və onun mifdə təsvir edilən bütün hərəkətləri bu düşüncənin müxtəlif təzahürləridir: məsələn: Düşüncənin qızı olan Afinanın Zevsin başından, düşüncə mənbəyindən, yəni Zevsin başından doğulması təbiidir; Tesey Poseydonun mağarasının dibinə düşmüş, ancaq ölməmişdir, lakin Nikomed onu qayadan dənizə atanda Tesey batır, çünki o artıq öz mənasmı itirmiş və lazımsız olmuşdu. **Dini şüur.** Dinin mərkəzim anlayışı Allah, yaradıcıdır. Dinə görə, o cümlədən İslam dininə görə, Allaha inam insanm yaradıldığı andan ona xas olan təbii qabiliyyət, həqiqi həyat və davranış tərzidir. Quranın 30-cu surəsinin 30-cu ayəsində deyilir: "Üzünü Allahın insanlara verdiyi dinə (islama) tərəf tut... Doğru din budur". Quranın bu ayəsindəki "din" ("fitrə") anlayışını mütəxəssislər Allahı bütün varlığın yaradıcısı kimi tanımaq, Onun tək olmasını qəbul etmək və bu təkallahlılıq əsasında Allahın adlarının və atributlarının məcmusunun inikası olan dünyanı dərk etmək kimi fitri qabiliyyət hesab edirlər. Onun mahiyyəti prinsip etibarilə dərkedilməz və transsendentdir. Allahın transsendent olması o deməkdir ki, O, hər bir anlayışın, dilin və təcrübənin fövqündədir. Amma hüdudsuz olduğuna görə, elə bir yer yoxdur ki, O, orada olmasm. Eyni qayda ilə əgər O, hüdudsuzdursa, onun yaratdıqlarından nəyisə eyni zamanda yaşamadan onu təcrübədə dərk etmək üsulu yoxdur. Allah bu qabiliyyəti insanda lap əzəldən cilovlana bilməyən heyvani instinktlərdən, nəzarət edilə bilməyən, kamilliyə doğru aparan düz yoldan sapdıran arzulardan qorunma vasitəsi kimi proqramlaşdırmışdır. Bu vəzifənin yerinə yetirilməsi üçün O, insana hər şey vermişdir - biliyi nur saçdığı zəka, böyük quruculuq imkanları. Lakin insanlar heç də həmişə bu dinə sadiq olmamışlar. Dünya yaranandan insanlar nəsil-nəsil öz biliklərinin ilkin mənbəyindən uzaqlaşmış, yanılmış, süni tanrılarda müdafiə axtarmış və Allahı bu fərdi obyektlərlə eyniləşdirərək çoxallahlı bütpərəstlərə çevrilmiş, miflər yaratmışlar. Hər dəfə insanlar məhv olmaq həddinə lap yaxınlaşanda Allah onların

yanına peyğəmbərlər və özünün kəlamlarını - müqəddəs yazılar şəklində vahid mənbədən yaranan və vahid məqsədə xidmət edən nəsihətlərini göndərmişdir. Təkallahlılıq ənənələrini ilk dəfə tam bərpa edən İbrahim peyğəmbər olmuşdur. Bütün monoteist dinlər - iudaizm, xristianlıq və islam bu ənənədən qaynaqlanır. Bütün bəşəriyyət üçün rəhbər göstəriş olan Allah kəlamının universal xarakteri üç səmavi kitabda - "Tövrat", "İncil" və "Quran"da daha dolğun əksini tapmışdır. Eyni zamanda, Müqəddəs kitab təkcə bəşər tarixinin universal faktı olmayıb, həm də silsilə şəklində reallaşan və Tanrının Məhəmməd peyğəmbərə göndərdiyi ən mükəmməl səviyyəyə çatmış bir hadisədir. Beləliklə, dini şüur insanın mövcud olduğu ən qədim dövrlərdə yaranmışdır. Dini öyrənmədən dünyagörüşünün spesifik forması olan fəlsəfənin genezisini aydınlaşdırmaq mümkün deyildir. Rasionallığm xüsusi forması olan dini şüur həmişə mövcuddur və ətraf aləmi dərk etməyin mifoloji, fəlsəfi və elmi üsullarını tamamlayır. Dünyanı qavramağın və anlamağın dini üsulu fəlsəfi və elmi qurumlar yaratmaqla nəinki yox olmur, hətta dünya və həyat haqqında təfəkkür elementlərindən biri kimi onlara qovuşur. Fəlsəfə öz yaranışında dindən bəhrələnir və dini təfəkkür hüdudlarında kristallaşmağa başlayır. İlahi nüfuza əsaslanaraq din, hazır cavabların zəkanı qane edib-etməməsmdən asılı olmayaraq, həmişə bu cür cavablar təklif edir. Müqəddəs dini kitablar hazır həqiqətlərin tablusudır. Dindar adamın malik olduğu biliklər idrak vasitəsil deyil, çox güman ki, insanın qəlbində olan mənəvi göz, Allah qarşısında xof, sevgi və qorxu, Ona sədaqət vasitəsilə əldə edilir, o, Allahı heç vaxt öz zəkası ilə dərk edə bilməz. Din vahid Allahın, bütün canlıları yaratdığını dərk edilə bilməyən, transsendent olmağın mövcudluğunu, Onun mələklərinin, peyğəmbərlərinin, müqəddəs kitabların, məhşər gününün və ölümdən sonrakı həyatın həqiqiliyini qəbul etməyə sövq edir, ehkamların və qanunların müqəddəs nüfuzundan çıxış edərək insanın hisslərinin, fikirlərinin və davranışının tərzini formalaşdırır. Bunun sayəşində din bütün dövrlərdə çox güclü sosial tənzimləmə vasitəsi, əxlaqi ənənələrin mühafizəçisi olmuşdur. Din bəşər övladının vahidliyi şüurunu formalaşdırır. Dinin mənəvi dəyərlərinin əhəmiyyətinin dərk olunması bəşəriyyəti idarə edir.

Fəlsəfə şüur forması kimi. Fəlsəfə ilə din arasında yaxınlıq ondan ibarətdir ki, onların hər ikisi dünyagörüşü qəbilindən olan oxşar məsələləri həll edirlər. Fəlsəfə özünün ayn-ayrı cəhətlərinə, eləcə də ayrı-ayrı konsepsiyalarına görə, xüsusən, təkcə adi müdrikliyə deyil, həm də ali müdrikliyə can atmaq baxımından dinlə çox oxşardır. Onlar ictimai şüurun formaları olmaqla ayrılmaz şəkildə bağlıdırlar. Fəlsəfə dın zəminində yaranmışdır. Aristotel Allahı əbədi yaşar bir varlıq, bütün hərəkətin qeyri-maddi forması və hərəkətsiz mənbəyi kimi təsəvvür edirdi. O deyirdi: "Əbədi, hərəkətsiz və hissi şeylərdən təcrid olunmuş bir varlıq mövcuddur... Allah canlı, əbədi, ən yaxşı varlıqdır". Quran da Allahı təxminən eyni şəkildə səciyyələndirir: "Allah təkdir, daim canlı, hər yerdə mövcud olan Ondan qeyri ilahi varlıq yoxdur". Orta əsr mütəfəkkirləri ilahi zəkanın təzahürünü hər yerdə görürdülər, kəşf edilmiş hər bir yeni qanu-

nauyğunluq onları buna inandırırdı. Fəlsəfə və din, dünyagörüşün ictimai-tarixi formalarıdır. Onların məqsədi insanların şüuruna və davranışına təsir göstərmək yolu ilə dünyanı onlara izah etməkdir. Fəlsəfə ictimai şüurun elmi sahəsinə aiddir, onun özünün spesifik kateqoriyalar aparatı vardır və bəşəriyyətin vahid inkişaf təcrübəsinə əsaslanır. Buna baxmayaraq, onu mifologiya və din ilə eyniləşdirmək olmaz. Onun mövzusu mifoloji şüur üçün əlçatmaz olan və problemin qoyuluşu baxımından dini şüur üçün heç də həmişə məqbul olmayan problemlər axtarışından ibarətdir: Ruh nədir? Qəlb, materiya, şüur, varlıq nədir? Bütün bu suallar "dünya-insan" sistemində ən ümumi problemlərə aiddir. Fəlsəfə problemlərin həlli üçün öz variantını təklif etməklə, bir tərəfdən bütövlükdə dünya haqqında və insanın bu dünyaya münasibəti haqqında informasiya mənbəyi, digər tərəfdən idrak prinsipləri kompleksi kimi çıxış edir. Quranda ruhun mahiyyəti və keyfiyyəti barədə soruşanlara belə cavab verilir ki, ruh Allahın əmri ilə yaranmışdır, insanlara isə yalnız bir qədər bilik bəxş edilmişdir. Din insanları ruhun "fövqəlşüuri başlanğıc" kimi mövcud olmasına inanmağa çağırır, elm isə müxtəlif eksperimentlər yolu ilə ruhun fiziki çəkisini müəyyən etməyə çalışır. Fəlsəfə isə nəzəri mühakimələr və rasional dəlillər vasitəsilə ruhun əsaslandırılmış anlayışını verməyə səy göstərir. Bu halda fəlsəfə yeni yanaşmalara və yeni suallara yer saxlayır. Ayrı-ayrı filosoflar və fəlsəfi məktəblər "ruh" anlayışını müxtəlif şəkildə izah edirlər: təfəkkür; şüur; intuitiv şəkildə dərk edilən fövqəlşüuri başlanğıc; zəkada həyata keçirilən özünüdərk və şüurun vəhdəti; ruhun zəkalı hissəsi; mənəvi yaradıcılıq. Nöqteyi-nəzərlərin və yanaşmaların variantlılığı və azad düşüncə fəlsəfi fikrin səciyyəvi əlamətləridir. Bununla bərabər, həyat təcrübəsi açıq şəkildə göstərir ki, fəlsəfəni mifologiya və dinə qarşı qoymaq düzgün deyildir. Fəlsəfə, mifologiya və din bir-birini inkar etmir, dünyabaxışı bir-birini qarşılıqlı tamamlayır. Əgər din ona əməl edənlərə dini biliklər, yaxşılıq və ədalət haqqında universal fikirlər verirsə, fəlsəfə bu dəyərlər haqqında dolgun təsəvvürlər yaradır. Lakin bu halda unutmaq olmaz ki, hər hansı dünyabaxışı sisteminin əsasını müəyyən anlayışlar və terminlər aparatı təşkil edir. Bu aparatı bilmədən həmin sistemin ideya-nəzəri konstruksiyalarının və ya prinsiplərinin çoxunun, bəlkə də əksəriyyətinin real məzmununu adekvat şəkildə başa düşmək mümkün deyildir.

Fəlsəfə gerçəkliyin nəzəri mənimsənilməsinin spesfik usulu kimi birdənbirə, boş yerdən, hecdən yaranmamışdır. İnsanlar ilk dəfə onları əhatə edən ətraf aləmin necəliyi, şeylərin təbiəti hadisələrin səbəbi haqqında düşünməyə başlayan andan fəlsəfənin də tarixi başlamışdır. Bunun üçün bəşər idrakı çox ziddiyyətli və mürəkkəb bir təkamül yolu keçməli olmuşdur. Həmin yol öz başlanğıcını dünyanın mifoloji və dini anlamından götürülmüşdür. **Mifologiya** miflər haqqında elmə, təlimə deyilir. Mif dünyanın yaranması, təbiət hadisələri, allahlar, qəhramanlar, qədim xalqların adət-ənənələri, etiqadları haqqında möcüzəli əfsanəyə rəvayətə deyilir. Dünyanın hər bir xalqının özünəməxsus mifləri olmuşdur. Mifdə emosiyanın mühüm yer tutması onunla izah edilirki, burada insanla təbiət, subyektlə obyekt arasındakı ünsiyyət realistcəsinə

deyil, mistik mənada qavranılır. Arxaik təfəkkür tipi olan mifdə məcazi məna güclü olduğundan o, fantaziya, xəyal və möcüzələr aləmi kimi çıxış edir. Mifologiyanın möcüzə sirrlərindən olan məzmununda ibtidai insanların etiqadları, həyacanları, qəlb çırpıntıları əks olunmuşdur. Mifologiya bəşəriyyətin uşaqlıq dövrünün fantastik, emosional bədii salnaməsi, həyatı, dünyanı dərk etməyə başlayan, lakin gercək hadisələrlə xəyali hadisələr arasında fərq qoya bilməyən insanın dünyagörüşü kimi hər şeydən əvvəl bu insanın təbiət və cəmiyyət hadisələrinə müəyyən münasibətidir, onları duymaq, anlamaq və qiymətləndirmək qabiliyyətidir, onun hərəkətlərini tənzimləyən bir davranış formasıdır. Zaman keçdikcə onda estetik, etik, hüquqi və s. amillər daha qabarıq nəzərə çarpır.

Mifologiya məzmun və formaca müxtəlif olduğuna görə müxtəlif məqsədlərə xidmət etmişdir. Onun köməyi ilə insan kosmosu, ətraf aləmin predmet və hadisələrini bəşəriləşdirməklə, canlılandırmaqla onlara anlaşılır, heyrət və həyacanlarını dəf edir, özünə təskinlik verir, pisi yaxşıdan ayırd edə bilir. Mifologiyada keçmiş, gələcək və indi uzlaşdırılır. Onun vasitəsi ilə bu və ya digər xalqın kollektiv şüuru formalaşır, nəsillərin mədəni əlaqəsi təmin edilir, cəmiyyətin mənəvi sərvətlər sistemi hifz olunur, müəyyən davranış normaları təqdir edilir.

Dünyanın yaranması və cəmiyyətin meydana gəlməsi, həyat, ölüm və s. haqqında vaxtı ilə mifologiyanın irəli sürdüyü suallara cavab axtarmaqda **din** və fəlsəfə başqa yolu seçirlər. Mifin, dinin, incəsənətin, fəlsəfi və elmə qədərki təsəvvürlərin əvvəllər bir-birilə culğalaşan inkişaf yolları zaman keçdikcə bir-birindən fərqlənən müxtəlif istiqamətlərə çevrilir. Ətraf hadisələr tədricən insanlarda daha aydın təsəvvürlər yaratmağa başladıqca dünyanın mifoloji izahatı artıq onları qane etmir. İnsan təfəkküründün yaradıcılığa doğru inkişafı yeni mərhələyə qədəm qoyur. Dünya və həyat haqqında mif və dinlə sıx əlaqədar, dinin ağuşunda əmələ gəlmiş ilkin fəlsəfi elməqədərki təsəvvürlər ictimai şüurun müxtəlif tipləri kimi formalaşır.

Din dünyagörüşün elə bir formasıdır ki, burada dünyanın anlaşılması onun ikiləşdirilməsi prinsipi əsasında mümkün sayılır. Əbədi axirət dünyasına və hiss üzvləri ilə bilavasitə qavranılan real aləmə bölünən dünya dində fövqaltəbii qüvvələrin fəaliyyətinin məhsulu kimi təqdim olunur. Dini şüura xas olan ən mühüm əlamət fövqaltəbiiliyə, fövqaltəbii varlıqlarla real obyektlər arasında fövqaltəbii əlaqələrə, real obyektlərin fövqaltəbii xususiyyətinə inamdır, etiqaddır. Bu mənada mifologiya ilə dinin ilk mənbələri sanki eynidir.

Din forma və mahiyyətcə olduqca mürəkkəb təbiətə malikdir. Ateizm tərbiyəsini proqram vəzifə elan edildiyi sabiq sosializm quruculuğu şəraitində dinə birtərəfli, həm də yanlış təriflər verilmış, o, keçmişin zərərli qalığı elan edilərək kəskin tənqid hədəfinə çevrilmişdir. Söz yox ki, dinin bəşər tarixində rolu ziddiyyətli olmuşdur. Sinifli cəmiyyətlərdə dini fanatizim, mövhumat hakim qüvvələr tərəfindən cəhalət aləti kimi istifadə edilmişdir. Tarixən bəlli olan saysız-hesabsız müharibələr dinin bayrağı altında aparılıb. Lakin dinə qiymət

verilərkən ondan hansı məqsədlər naminə istifadə olunmasını deyil, onun həqiqi məziyətlərini və necəliyini əsas götürmək lazımdır.

Din mənəvi mədəniyyətin tərkib hissəsi kimi ümumibəşər sərvətlərin zənginləşməsi yolunda mühüm amildir. O, özünün ayin və mərasimləri ilə insanlar arasında məhəbbət, xeyirxahlıq, səbr, əzablara sinə gərmək, paxıllıq, nəciblik, vicdan, borc, ədalət və s. kimi müsbət keyfiyyətlərin aşılanmasına, mənəviyyatın zənginləşməsinə kömək edir. Din ilə fəlsəfənin yaxınlığı da məhz bundadır. Onların hər ikisi adamların şüuruna və davranışına təsir göstərən oxşar problemlərin həllinə səy göstərirlər. Lakin dünyagörüşün müxtəlif formaları kimi onların aralarındakı fərq olduqca böyükdür.

Din kor-koranə inama, etiqada, fəlsəfə isə zəkaya, elmə əsaslanır, öz müddəalarını məntiqi pasional cəhətdən subuta yetirir. Fəlsəfədə insanın dünyada yeri və rolu nəzəri cəhətdən aşkarlanır. Xiristanlıq və İslam kimi dünya dinlərində dünyagörüşü məsələlərinin qoyuluşu və həlli Allahın adı ilə bağlıdır. Fəlsəfədə isə ayrı-ayrı mütəfəkkirlərin düşüncə tərzi, əqidəsi, həyati mövqeyi, istək və arzuları zamanın tələbinin ifadəsi kimi başlıca amil hesab edilir. Etiqada əsaslanan dindən fərqli olaraq fəlsəfə dünyagörüşün intellektual cəhəti ön plana çəkilir, dünyanın və insanın zəka və rasional bilik mövqeyindən anlaşılmasına artan tələbat ifadə olunur. Bunu fəlsəfənin predmeti və funksiyalarının şərhində daha aydın görmək olar.

Ədəbiyyat:

1. Mehdiyev Ramiz. Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010

2.Дебец Г. Ф., Левин В. Г., Трофимов Т. А. Антропологический материал как источник изучения этногенеза. СЭ, 1952, № 1.

3.Əbülqazi Bahadır xan. Şəcərei – Tərakimə (Türkmənlərin soy kitabı). B.: Azərbaycan Milli Ensiklopediyası, 2002, 145 s.

4.Əlizadə R. Türk epos ənənəsində əcdad kultu. Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, Cilt: VIII, Sayı 1, Sayfa: 95-105, İZMİR 2008.

5.Inan A. Eski türk dini tarihi. İstanbul, MEB, 1976. 256 s.

6.İsmayıl Rüstəm qızı M. Naxçıvan əfsanələri. Naxçıvan, Elm, 2008. 190 s.

Asya Əhmədova

AZƏRBAYCANDA QADINLARIN MAARİFLƏNMƏSİNDƏ "MÜQƏDDƏS NİNA" GİMNAZİYASININ ROLU

Azərbaycanda XIX əsrin ortalarından başlayaraq yüksəliş mərhələsinə qədəm qoyan maarifçilik hərəkatı nəticəsində ölkədə bir çox nüfuzlu

cəmiyyətlər yarandı. Belə bir zamanda ölkənin müxtəlif şəhərlərində qadın cəmiyyətləri də yaranmağa başladı. Bu illər Tiflisin intellektual mühitində yetişən ziyalı nəsli qabaqcıl maarifçilik ideyalarının Azərbaycanda yayılması istiqamətində fəaliyyətə keçdi.

1848-ci ilin aprel ayının 30-da Tiflisdə fəaliyyət göstərən "Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyətinin eyniadlı qadın təhsil idarəsi Azərbaycanda fəaliyyətə başladı. Cəmiyyətin açmış olduğu rus qız məktəbi 2 il fəaliyyət göstərdikdən sonra 30 may 1850-ci ildə maliyyə imkanınının tükənməsi səbəbindən öz fəaliyyətini dayandırmalı oldu. Bu cəmiyyətin üzvləri arasında 17 nəfər azərbaycanlı qadın var idi. Onlardan Fatma Əsədbəyova, Xədicə Haqverdiyeva, Gövhər Qurtqaşinskaya, Balaxanım Xandəmirova və başqalarını göstərmək olar. Bu cəmiyyət ölkədə qadın hərəkatına stimul verdi. 1850-ci ildə maarifçi Dilbər xanım atası Mirmahmudun köməyi ilə Şamaxıda, öz evində qız məktəbi açdı. Uzun illər fəaliyyətini davam etdirən məktəbdə 1863-cü ilə qədər şəriət, ana dili, nəğmə və s. dərslər tədris olunurdu. Bunun ardınca 1865-ci ildə İrəvan quberniyasında "Müqəddəs Ripsime" cəmiyyəti qızlar üçün məktəb açdı. Həmin məktəbdə də fəaliyyət göstərən 65 qızdan 42-si azərbaycanlı idi. Beləliklə, qabaqcıl qadınların təşəbbüsü ilə 1864-cü ildə Dərbənddə, 1872-ci ildə Zaqatalada, 1873-cü ildə isə Şuşada qız məktəbləri açılır. O cümlədən, Bakıda 1874-cü ildə ilk qadın gimnaziyası fəaliyyətə başlayır.

Bu məktəblərin içərisində Azərbaycanda milli-mənəvi dəyərlərin formalaşmasında və Azərbaycan qadınları arasında maarifçilik hərəkatının yaranmasında "Müqəddəs Nina" qız gimnaziyasının özünəməxsus yeri və rolu olmuşdur. 1874 cü ildə "Müqəddəs Nina" xeyriyyə cəmiyyəti yenidən Bakıda qız məktəbi açdı. 1895-ci ildə isə müəssisəyə gimnaziya statusu verildi. Gimnaziya öz fəaliyyətini 1918-ci ilədək davam etdirə bildi.

Müqəddəs Nina qız gimnaziyası Gəncədə də fəaliyyət göstərib. Gimnaziyanın binası 1883-cü ildə Gəncənin ikinci hissəsində, ermənilərin və qeyri müsəlmanların kütləvi yaşadıqları ərazidə, "Qırmızı kənd" adlandırdılan yerdə inşa edilib və bu da əbəs yerə deyildi. Çünki, Çar Rusiyası azərbaycanlıların elmə yiyələnməsinin daim əleyhidarı olub və əsasən xristianların (ermənilərin) elm almaları üçün çalışıb, əsas elm mərkəzlərini də məhz xristianlar (ermənilər) olan ərazilərdə inşa edib.

Gimnaziyada 1885-ci ildən 1906-cı ilə kimi 334 rus, 506 erməni, 66 gürcü, 21 alman, 19 yəhudi, 16 polyak, 4 ingilis, 3 yunan, 3 sarı xaldey, 3 aysori, 1 avstraliyalı və bir osetin qızı təhsil aldığı halda, burda yerli xalqın cəmi 3 nəfər nümayəndəsi oxuyurdu ki, onlar da dövrünün zadəgan insanlarının övladları idilər. Xan qızı Ziyadxanova Zərnitac, məmur qızı Həsənbəyova Dilruba, general qızı Novruzova Sayad.

1906-cı ildə Gəncədə ilk dəfə olaraq Müsəlman Qadın Komitəsi qadınlar arasında xeyriyyə marafonu keçirir. Bu azsaylı savadlanan azərbaycanlı qadınlara paralel olaraq onlarla neft milyonçusunun arvadı, qızı evlərində ianə

məclisləri, "bəyaz çobanyastığı", "sinidə lentlər" aksiyaları keçirir, özləri kimi varlılardan pul yığıb qadınlar üçün məktəblər, savadsızlığın ləğvi məntəqələri açdırırdılar. "Bəyaz çobanyastığı" günlərində "Müqəddəs Nina" gimnaziyasının qızları rəmzi olaraq adi çobanyastıqlarını ağlasığmaz yüksək qiymətlərə alır, yığılan pullar müsəlman qızların təhsilinə verilirdi.

Beləliklə, böyük bir maarifçilik hərəkatının genişlənməsinə təkan verən bu hadisələr çoxlu sayda qadın ziyalıların yetişməsində önəmli rol oynayıb. Bu qadınlar cəmiyyətin müxtəlif sahələrində öz yerlərini almağa başlayıblar.

"Müqəddəs Nina" gimnaziyasını bitirən qızlar arasında Hənifə xanım Məlikova-Abayeva -Azərbaycanın ilk maarifçi qadınlarından biri olmuşdur. Gördüyü böyük işlərlə xalqımızın yaddaşında dərin izlər qoymuş bu fədakar qadın 5 may 1856-cı ildə Şimali Qafqazda, Nalçikdə dünyaya göz açıb. Atası balkarların dörd əsas tayfasından biri olan Abayevlərin ən şöhrətlisi olan Aslan bəy Abayev onu təhsil almaq üçün Tiflisə "Müqəddəs Nina" qız məktəbinə göndərib. O zaman müsəlman qızların xristian ölkəsində təhsil alması çox nadir hadisə idi.

Azərbaycanın görkəmli maarifpərvər ziyalısı Həsən bəy Zərdabi ilə ailə həyatı qurması Hənifə xanımın həyatını Azərbaycanla bağlamışdır. Millətimizin və ailəsinin yolunda fədakarlıqlar göstərmiş bu gözəl, ziyalı, sədaqətli və dəyanətli xanım Azərbaycanın ilk maarifçi qadınlarından olmuş, Həsən bəy Zərdabi ilə birlikdə bütün ömrünü maarifləmə işinə sərf etmişdir. Həsən bəy Zərdabi 1875-ci il iyulun 22-də Azərbaycanda türk dilində ilk qəzet olan "Əkinçi"ni nəşr etdirir. Həsən bəy Zərdabiyə tək həyat yoldaşı yox, həm də mübarizə yoldaşı olan Hənifə xanım 1875-1877-ci illərdə Əkinçi qəzetinin nəşrində Həsən bəylə birlikdə çiyin-çiyinə çalışmış, çox əziyyətlər çəkmişdir. Hənifə Məlikzadə 1880-cı ildən başlayaraq Həsənbəy Məlikovla birgə 16 il polis nəzarəti altında Zərdabda yaşamağa məcbur olarkən üzləşdiyi əzab-əziyyətlərə rəğmən orada qadınlar arasında maarifləmə işləri apararaq xalqa fayda vermək üçün əlindən gələni əsirgəməyib. Hənifə xanım və Həsən bəy Zərdabda yaşadıqları dövrdə - 1881-ci ildən başlayaraq öz evlərində, mənzillərində pulsuz məktəb açıb, yerli din xadimlərinin və o vaxtlar Zərdabda məskunlaşmış ermənilərin əlaltılarının təqib və təzyiqlərinə baxmayaraq, heç bir təmənna ummadan insanlara elm, savad öyrədiblər. Hənifə xanım öz mənzilində uşaqlara dərs deməklə bərabər, oba-oba, ev-ev gəzib qadınlara biçib-tikmək, yazıb-oxumaq öyrədir, rus dilindən nağıllar tərcümə edib danışır, mənzil-mənzil dolaşıb uşaqları peyvənd edir, ayrı-ayrı obalarda qadın məsləhətxanaları təşkil edirdi. On altı ildən sonra onlar yenidən Bakıya qayıdırlar.

Bakıda ilk qız məktəbinin yaradıcısı kimi tarixə düşən Hənifə Məlikova 1901-1905-ci illərdə Bakı milyonçusu Hacı Zeynəlabdin Tağıyevin açdığı və nizamnaməsini Həsən bəy Zərdabi hazırladığı ilk müsəlman qız məktəbinin müdiri işləyib. O, 1909-cu ildən 1919-cu ilədək Bakı şəhər dövlət birinci

rus-tatar qız məktəbində müdir vəzifəsində çalışıb. Maarifçilik tariximizdə, dünyəvi təhsilin inkişafında və savadlı mütəxəssislərin yetişməsində bu məktəblərin böyük rolu olmuşdur.

Hənifə xanım Azərbaycan qadınlarının taleyində çox mühüm rol oynayıb. 1907-ci ildə Həsən bəyin ölümündən sonra da bu dəyanətli xanım ictimai işləri davam etdirib. Bakıdakı məşhur "Nicat" cəmiyyətinin qadın bölməsinin yaradıcılarından biri kimi qadınların tərəqqisi yolunda çox böyük işlər görüb. Belə ki, 1908-ci ildə Hənifə xanım Məlikova-Zərdabinin təşəbbüsü ilə Bakıda "Nicat" cəmiyyətinin bir şöbəsi kimi "Bakı xanımlarının ilk təşkilatı" yaradılıb. Bakı milyonçularından Murtuza Muxtarovun həyat yoldaşı Liza Tuqanovanın sədrlik etdiyi təşkilat tezliklə böyüyərək Bakı Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinə çevrilib.

Adı Azərbaycan tarixinə ilk maarifçi qadınlardan biri kimi düşən, gördüyü maarifpərvər işlər sayəsində Azərbaycanda yetərincə tanınan, xalq arasında böyük rəğbət qazanan Hənifə xanımın adı, onun maarifçilik fəaliyyəti Zaqafqaziyanın demokratik dairələrində də məşhurlaşıb. Cəhalətlə mübarizə aparan, tərəqqipərvər əməllərə təşəbbüs göstərən bu fədakar ziyalı xanımın amalı türk qadınlarının mədəni səviyyəsini bacardığı qədər yüksəltmək idi. Hənifə xanım deyirdi: "Həyatımın məqsədi avam kütlənin, xüsusən də qadınların hüquqları və istismara qarşı mübarizədə türk qadınlarının mədəni səviyyəsini qaldırmaq olmuş və olacaqdır. Xoşbəxtəm ki, türk qadınının əsarətdən qurtarması üçün bütün üfüqlərin açıldığı dövrə kimi yaşamışam"(**3**).

Hənifə xanım 1920-1926-cı illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında məsul vəzifədə işləmişdir.

Yüksək insani keyfiyyətləri ilə xalqın dərin hörmət və ehtiramını qazanmış Hənifə xanım, Azərbaycanda həyat yoldaşı haqqında memuar yazan altı qadından birincisidir. Hənifə xanım 1925-ci ildə həyat yoldaşı haqqında xatirələrini çap etdirib. Onun böyük fəxrlə qələmə aldığı bu xatirələrdə Həsən bəylə birlikdə xalqın maariflənməsi yolunda necə fədakarlıqla mübarizə apardığı əksini tapıb.

Unudulmaz maarifçi xanım Hənifə Məlikova-Zərdabi 1929-cu ildə 73 yaşında Bakıda vəfat edib. Həsən bəy Zərdabi kimi onu da bütün Bakı əhalisi son mənzilə dərin hüzn və ehtiramla yola salıb. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyov dəfn mərasimində çıxış edib: "Biz bu gün ağsaçlı ananı son mənzilə yola salırıq. Onun tərbiyə etdiyi, təhsil verdiyi övlad bir deyil, beş deyil, on da deyil – minlərlədir. Xalqımız Hənifə xanımın elədiyi xeyirxahlığı, təmənnasız yaxşılığı heç vaxt unutmayacaq" (**4**).

Hənifə xanım şəhər qəbiristanlığında dəfn olunub, sonralar nəşi Fəxri xiyabana - həyat yoldaşı Həsən bəy Zərdabinin məzarına köçürülüb.

"Müqəddəs Nina" məktəbini bitirənlərdən biri də Azərbaycan maarifpərvəri Firuzə Vəkilovadır. O, 1878-ci ildə Salyanda anadan olub. Firuzə xanım əslən Qazax mahalının Salahlı kəndindən - məşhur Vəkilovlar nəs-

lindən olan rus ordusunun polkovniki Abbasqulu bəy Vəkilovun qızı idi. O, Tiflisdə Müqəddəs Nina Qızlar Gimnaziyasını bitirmiş, rus və fransız dillərinə mükəmməl yiyələnmişdi. Firuzə xanım teatrı, musiqini də çox sevmiş, rus və Avropa ədəbiyyatına dərindən bələd olmuşdur.

Azərbaycanın məşhur xanəndəsi Məcid Behbudovun həyat yoldaşı, Azərbaycan müğənnisi, SSRİ xalq artisti Rəşid Behbudovun anası Firuzə Vəkilova 1927-ci ildə Bakıda vəfat edib.

Ömrü boyu maarif və mədəniyyətin inkişafına çalışmış qadınlardan biri də Mədinə xanım Qiyasbəyli olmuşdur. O, 1889-cu ilin aprelində Qazax qəzasının Salahlı kəndində maarifpərvər Mehdi ağa Vəkilovun ailəsində doğulmuş, ilk dini-dünyəvi təhsilini valideynlərindən, sonralar isə Tiflisdə "Müqəddəs Nina" pedaqoji məktəbində almışdır. Mədinə xanım daha sonra 1905-ci ildə birillik pedaqoji kursu bitirmiş, müəllimlik şəhadətnaməsi almışdır. Təhsilini başa vurduqdan sonra 1906-cı ildə 17 yaşlarında ikən doğma Salahlı kəndində – öz yaşadığı evdə birsinifli ilk kənd qız məktəbini açmış, orada dərs demişdir. Qazax və Gədəbəy bölgələrində məktəb təşkil etmiş Mədinə xanım Qiyasbəyli 1918-ci ildə Qazax qəzasında xalq məktəblərinin inspektoru olmuşdur. Bakıya köçəndən sonra da burada yaşadığı mənzildə kurslar təşkil etmişdir. Sonra azərbaycanlı qızlar üçün Darülmüəllimat-qız məktəbləri üçün ibtidai sinif müəllimləri hazırlayan ilk pedaqoji təhsil ocağını yaratmışdır. 1920-33-cü illərdə Bakı-Darülmüəllimatının müdiri, Bakı ali məktəblərinin rus dili müəllimi olmuş, Bakıda orta məktəblərdə, Kənd Təsərrüfatı İnstitutunda müəllimlik etmiş, milli pedaqoji kadrlar hazırlamışdır. O, "Şərq qadını" məcmuəsinin təsisçilərindən biri və müəllifi idi. "Şərq qadını" jurnalının yaradıcılarından biri kimi savadsızlığa qarşı mübarizəyə qoşulmuşdur. Mədinə xanım həmçinin də tərcüməçilik fəaliyyəti ilə ardıcıl məşğul olmuşdur. Rus oxucuları üçün M.S.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Yoxuşlar" romanı və başqa ədiblərin bəzi əsərlərini azəricədən ruscaya tərcümə etmişdir. Səməd Vurğun A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanının poetik tərcüməsi üzərində çalışarkən onun tövsiyələrindən bəhrələnmişdir.

Mədinə xanım Qiyasbəyli 1936-cı ilin dekabrında Azərbaycanda Sovet Hakimiyyəti qurulandan sonra da musavatçı mövqeyində qalıb Sovet Hökumətinə qarşı öz ətrafına əksinqilabi ruhda gəncləri yığmaqda, əksinqilabi-millətçi təşkilatın üzvləri R.Axundov, B.Çobanzadə ilə əlaqə saxlamaqda günühlandıraraq həbs olunmuş və 45 yaşlı maarifpərvər ziyalı xanım Azərbaycan SSR XDİK Xüsusi Üçlüyün 1937-ci il 26 sentyabr tarixli qərarı ilə 1937-ci il sentyabrın 28-də gecə saat 1.25 dəqiqədə güllələnmişdir. Mədinə xanım Qiyasbəyli haqqında çıxarılmış ədalətsiz hökm 24 avqust 1956-cı ildə Azərbaycan Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası tərəfindən ləğv edilmiş və ona bəraət verilmişdir.

Tiflisdəki "Müqəddəs Nina" gimnaziyasını bitirən maarifpərvərlərdən biri də İncəsənət Xadimi və Azərbaycanın ilk qadın pianoçularından olmuş

Xədicə Qayıbovadır. 24 may 1893-cü ildə Tiflisdə dünyaya gəlmiş Xədicə Qayıbovanın atası torpaq idarəsində çalışan və Tiflisin məşhur ruhanilərindən olan Osman bəy Müftizadə, anası isə XIX əsrdə burada məskunlaşan tatar əsilli Terequlovlar ailəsinə mənsub Züleyxa xanım idi. Atası qızına mükəmməl təhsil vermək arzusunda idi. Ona görə də bütün imkanlarından istifadə edərək onun "Müqəddəs Nina" Qızlar məktəbinə daxil olmasına nail olur. Xədicə xanım burada orta təhsillə yanaşı, eyni zamanda mükəmməl fortepiano təhsili də alır. Ancaq atası, bacısı və qardaşını vərəmdən itirən Xədicə xanımın təhsili yarımçıq qalır. 1911-ci ildə buradan ayrılan 18 yaşlı Xədicə xanım ailə həyatı qurur və sonrakı bir neçə ildə qadınlar üçün nəzərdə tutulan rus-müsəlman məktəbində dərs deyir. Xədicə xanım 1919-cu ildə ailəsi ilə birlikdə Bakıya köçür. Sovet ordusunun Bakını işğal etməsindən sonra Azərbaycan SSR Xalq Təhsil Komissarlığında Şərq musiqisi şöbəsinə rəhbər təyin edilir. Musiqiçinin təşəbbüsü ilə «Qısamüddətli Şərq musiqi kursları» təşkil edilir, uşaq xoru yaradılır. Onun təşəbbüsü və birbaşa iştirakı ilə Azərbaycanlı qadınları üçün musiqi-dram studiyası yaradılmışdır. O illərdə qurulan Şərq konservatoriyasının banilərindən hesab olunan Xədicə xanım fortepianoda ifa etdiyi klassik muğam əsərləri ilə qısa zamanda şöhrət qazanır. İsmailiyyədə baş tutan konsertlərdə çıxış edən Xədicə xanıma H.Z.Tağıyevin xüsusi hörməti varmış. Hətta H.Z.Tağıyev ona üstündə öz şəkli olan servis və çox qiymətli briliant qaşlı üzük də bağışlayıbmış. Şərq və Avropa musiqisinin gözəl bilicisi kimi o, respublikanın mədəni həyatında fəal iştirak edib, Ü.Hacıbəyov, R.M. Qliyer (sovet bəstəkarı), Bülbül, H. Sarabski, M.L.Presman, L.Rudolf, L.Ab, Q.Primov kimi sənətkarlarla əlaqə saxlamış, Azərbaycan musiqi folklorunun toplanmasında böyük rol oynamışdır.

Xədicə Qayıbova 1927-1931-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində təhsil almışdır. 1927-ci il tarixli məşhur çıxışında: "Qadın istərsə, başarar, nail olar. Tək gərək savad və maarif üçün çalışmaqdır. Mən vətənimin qızlarına sonsuz etimad edirəm" –söyləmişdi (**6**).

1933-cü ildə Xədicə xanım əks-inqilabçılıqda ittiham olunaraq həbs edilir. Ancaq lazımi qədər dəlil olmadığından 3 ay sonra sərbəst buraxılan Xədicə xanım çox keçmədən öz peşəkar fəaliyyətinə davam etdirir. 1934-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının tədqiqat heyətinə daxil olur və Azərbaycanın musiqi mirasının araşdırılması ilə vəzifələndirilir.

17 mart 1938 tarixində həyat yoldaşı Rəşad Qayıbovun əksinqilabi-millətçi təşkilatın üzvü kimi həbs olunmasından qısa müddət sonra Xədicə xanım da həbs edilir. 1938-ci il aprelin 28-ə kimi Xədicə xanım müstəntiq tərəfindən 9 dəfə dindirilmiş, Azərbaycan SSR XDİK-in Xüsusi Üçlüyünün 1938-ci il 19 oktyabr tarixli qərarına əsasən Qayıbova Xədicə xanım Osman qızı Türkiyə konsulluğu ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edilmişdir. Cəza 1 həftə sonra Bakıda icra olunmuşdur. Məhkum olduğu illərdə eyni hücrədə qaldığı Sul-

tanməcid Əfəndiyevin xanımı Zivər xanım Əfəndiyeva sonrakı illərdə xatirələrində qeyd edir ki, hər kəs Xədicə xanımın sürgün ediləcəyini düşünürdü. Ancaq bilinməyən bir səbəbdən 15 dəqiqəlik bir məhkəmə prosesi güllələnmə əmrilə başa çatdı.

Azərbaycan SSR Ali Məhkəməsi cinayət işləri üzrə Məhkəmə Kollegiyasının 14 fevral 1956-cı il qərarına əsasən Xədicə xanım Qayıbovaya bəraət verilmişdir.

Ayna Sultanova 1895-ci ildə indiki Şabran rayonunun Pirəbədil kəndində doğulub. 1912-ci ildə Bakıda "Müqəddəs Nina" gimnaziyasını bitirib və həmin məktəbdə dərs deyib. 1917-1918-ci illərdə bolşeviklərlə sıx əməkdaşlıq edib, 1918-ci il Mart soyqırımı zamanı bolşevik mövqeyini dəstəkləmişdir.

Ayna Sultanova və həyat yoldaşı H.Sultanov mart qırğınından az sonra Stepan Şaumyanın rəhbərliyi ilə yaradılmış kommuna ilə sıx əməkdaşlıq edib və Azərbaycanda sovet rejimi qurmaq uğrunda çalışmışlar.

O, Bakı Kommunasının süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyəti əleyhinə fəaliyyətini davam etdirmiş və Həştərxana gedərək Müsavat hakimiyyətini yıxıb, yerində kommunist sistemli bir ölkə qurmaq üçün bolşeviklərə yaxından köməklik göstərmişdi. Bu dövrdə A.Sultanova Rusiya Kommunist Partiyasının Həştərxan Quberniya Komitəsi müsəlman bölməsi rəyasət heyətinin üzvü və Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda maarif şöbəsinin müdiri olmuşdu. 1919-cu ilin avqustunda Moskvaya Y.Sverdlov adına kommunist universitetində oxumağa göndərilmiş, eyni zamanda RSFSR Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin katibi işləmişdir.

A.Sultanova XI Qırmızı Ordu Azərbaycana daxil olduqdan sonra Bakıya qayıtmış və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi aparatında qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsi müdirinin müavini, sonra müdiri vəzifələrində çalışmış, 1923-cü ilin noyabrında təsis olunmuş "Şərq qadını" jurnalının ilk redaktoru olmuşdur. "Şərq qadını" jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu. Bu jurnal Şərq aləmində qadın azadlığı uğurunda mübarizə aparan, qadınlar arasında azadlıq ideyalarını yayan ilk qadın jurnalı olmuşdur. "Şərq qadını" adlanan bu jurnalın adı 1938-ci ildə dəyişdirilərək "Azərbaycan qadını "adlandırılıb.

A.Sultanova 1930-1937-ci illərdə Azərbaycan SSR xalq maarif komissarının müavini, maarif komissarı və bir qədər sonra ədliyyə komissarı və digər vəzifələrdə çalışmışdır.

İctimai-siyasi xadim, Azərbaycan SSR-nin Maarif Xalq Komissarı, "Şərq qadını" jurnalının redaktoru, Azərbaycan tarixinin ilk qadın naziri, Xalq Ədliyyə Komissarı və Ali Məhkəmə sədri Ayna Sultanova siyasi fəaliyyətinin böyük bir qismi Azərbaycanda Sovet hakimiyyətinin möhkəmləndirilməsi olmuşdur.

Müəyyən müddətdən sonra yeni qurulmuş rejimin onun uğrunda çalışdığı rejim olmadığını görmüş, Stalinlə görüşüb şikayətlərini bildirmək üçün Moskvaya getmiş, elə vağzalda da həbs olunmuşdur. Xüsusi mühafizə dəstəsinin müşayiəti ilə Bakıya gətirilmiş, istintaq zamanı çox alçaldılmış və SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının 1938-ci il 3 iyul tarixli hökmü ilə ən yüksək cəzaya - güllələnməyə məhkum edilmişdir. Onun qardaşı Qəzənfər Musabəyov və həyat yoldaşı Həmid Sultanov da 1938-ci ildə repressiyaya məruz qalmış və xalq düşməni kimi güllələnmişlər.

14 iyun 1902-ci ildə Bakı şəhərində Nəcəfqulu Tağıyevin ailəsində anadan olmuş Zivər xanım Məmmədova da ilk orta təhsilinə yeddi yaşında "Müqəddəs Nina" qızlar gimnaziyasında başlamışdır. O, Şərqin ilk heykəltəraş qadını idi. Zivər xanım 1924-cü ildə Bakı Ali Rəssamlıq Məktəbini bitirmişdir. O, bir müddət S.D. Erziya və P.V. Sabsayın emalatxanasında çalışmışdır. Zivər xanım portret ustası kimi tanınmış və zəngin bir qalereya yaratmışdır. O, hələ tələbəlik illərində Hüseynqulu Sarabskinin büstünü yaratmış, sonralar isə Məhsəti Gəncəvinin, Nizaminin əsərlərinə illüstrasiyalar işləmişdir. 1930-40 illərdə yaratdığı Ə.Əzimzadə, H.Sarabski, M.Əzizbəyov, Sovet İttifaqı Qəhrəmanı İ.Süleymanov, Bəsti Bağırova və başqalarının büst-portretləri, Ü. Hacıbəylinin heykəli ən yaxşı işlərindəndir. Zivər xanımın yaratdığı ilk qadın təyyarəçilərindən olan Leyla Məmmədbəyova və pambıqçı Bəsti Bağırovanın büst əsərləri dövrünün gözəl heykəltəraşlıq nümunələrindəndir. O, kiçik plastika əsərləri və tətbiqi sənət nümunələri də yaratmışdır.

Zivər xanım həmdə gözəl skripka çalırdı. Hətta Üzeyir Yacıbəyov öz sevimli skripkasını ona bağışlamışdır. Sənətkar dəfələrlə Üzeyir Hacıbəyov obrazına müraciət etmiş, böyük ustadın bir neçə variantda büst və heykəlini yaratmışdır. O, görkəmli pedaqoqun mühazirələrinin dinləyicisi olmuş, bəstəkarın 1922-ci ildə yaratdığı və rəhbərlik etdiyi Dövlət Simfonik Orkestrində skripka çalmış, 1923-cü ildə "Arşin mal alan" operettasının ilk tamaşasında əsas ifaçılardan olmuşdur. Zivər xanım 1924-cü ildə Həbib Məmmədovla ailə qurmuş və iki övladı olmuşdur. O, görkəmli Azərbaycan heykəltəraşı Tokay Məmmədovun anasıdır.

Zivər Məmmədova sevimli müəllimi Əzim Əzimzadənin obrazınada müraciət etmişdir. Həmin abidə Fəxri xiyabanda Əzim Əzimzadənin məzarı üzərindədir. Zivər Məmmədova milli heykəltaraşlıq sənətimizin ilk yaradıcılarından sayılır. O, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, musiqisinin inkişafında mühüm xidmətləri olan insanların bədii obrazları, daşlaşmış surətlərini yaratmağa böyük əmək sərf etmişdir. Zivər Məmmədova 22 aprel 1980-ci ildə Bakıda vəfat etmişdir.

XIX əsrin ikinci yarısından başlayaraq yaranan məktəblərdə qadınların savadlanması artıq XX əsrin əvvəllərində Azərbaycanın mədəni, ictimai, siyasi həyatında özünü göstərmişdir. XX əsr dünyada olduğu kimi Azərbaycanda da qadınların rolunun cəmiyyətdə artması ilə yadda qalıb. Dünya mə-

dəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Azərbaycan qadını XX əsrdə - istər Xalq Cumhuriyyəti dövründə, istərsə də sovet hakimiyyəti illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə edib.

Ədəbiyyat:

1. Şahverdiyev A.B. Azərbaycan mətbuatı tarixi. Bakı: Təhsil, 2006
2. Bağırova Nərmin. Azərbaycanın ilk peşəkar qadın pianoçusu Xədicə xanım Qayıbova (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). Bakı, 2012.
3. az.wikipedia.org› Hənifə Məlikova
4. azertag.az›xeber/ Bakida ilk qiz mektebi
5. az.wikipedia.org› Mədinə xanım Qiyasbəyli
6. az.wikipedia.org› Xədicə Qayıbova
7. az.wikipedia.org› Ayna Sultanova
8. az.wikipedia.org› Zivər Məmmədova

Rauf Məmmədov

AVROPADA MİLLİ ŞÜURU VƏ MİLLİ FƏLSƏFƏNİ ŞƏRTLƏNDİRƏN SOSİAL-TARİXİ AMİLLƏR

Giriş.

Fəlsəfədə millilik və ya "milli fəlsəfə" anlayışı, özündə "millət", "fəlsəfə" və "milli fəlsəfə" anlayışlarını bir araya gətirir. Formal məntiq baxımından "millət" və "fəlsəfə" anlayışları ayrı-ayrılıqda bir-birinin nə həcminə daxil olur, nə də bir-biri ilə kəsişirlər. Ancaq, onlar, bir-birinə zidd olan və bir-birini istisna edən anlayışlar da deyillər. O zaman, bu anlayışlar arasında necə bir əlaqə mövcuddur?

Bu əlaqəni müəyyənləşdirmək üçün, fəlsəfə tarixi materialları milli-etnik baxımdan araşdırılmalıdır. Fəlsəfə tarixinin feminist və gender metodları əsasında araşdırılması fəlsəfi təfəkkürün gender stereotiplərindən qurtula bilmədiyini ortaya qoydusa, onun milli-etnik yanaşmalar əsasında tədqiqi də, fəlsəfə və milli-etnik fenomenin hansı əlaqədə olduğunu müəyyənləşdirə bilər.

Milli fəlsəfə, Avropada Yeni Dövrün (modern) maarifçilik fəlsəfəsi ilə meydana çıxmışdır. Onu səciyyələndirən əsas əlamət, bu dövrdə milli dövlətlərin yaranması və milli dildə fəlsəfi əsərlərin yazılması idi. İkincisi, bu dövrün milli fəlsəfələrini səciyyələndirən xüsusiyyət, onların, feodalizmin süqutu və yeni liberal sistemin doğuşu ərəfəsində milli azadlıq zəminində meydana gəlməsi idi. Biz, millət anlayışına konstruktivizm yanaşmasından baxsaq, o zaman, Yeni Dövrdən əvvəl milli fəlsəfənin mövcudluğu məsələsini qəbul etməməliyik. Lakin, millətin bütün dövrlərdə fərqli formalarda mövcud olduğunu irəli sürən primordialist yanaşmadan çıxış etsək, o zaman, milli fəlsəfənin hər bir zaman fərqli formalarda mövcud olduğunu söyləməliyik. O zaman, iki fərqli yanaşmaya münasibət bildirmək üçün, qoyulan problemin hər iki yanaşma çərçivəsində araşdırılması labüddür.

Ikinci Dünya müharibəsindən sonra meydana çıxan postmodernizm ideyaları, modernizmin dəyərlərini kölgədə qoydu. Çünki əsasən yəhudi mənşəli filosoflar Maks Horkhaymer, Teodor Adorno və başqaları maarifçilik sistemini faşizmə yol açan "totalitar sistem" kimi dəyərləndirdilər (**1, s. 33**). Postmodernist filosofların əsas hədəfi, modernizmin tənqidi üzərində qurulubdur. Postmodernist fəlsəfədə dekonstruksiya konsepsiyasının qurucusu olan yəhudi mənşəli filosof Jak Derridanın əsas hədəfi, Avropa fəlsəfi ənənəsi ilə mübarizə olmuşdur. Əslində, bu ənənənin təməlini daha əvvəl polyak mənşəli filosof F. Nitşe qoymuşdur.

A. Toyinbi, postmodernizmi din və mədəniyyətdə Qərb hakimiyyətinin sonu hesab etmişdir (**2, s. 65**). Feminizm fəlsəfəsinin də tarix və mədəniyyətə tənqidi yanaşması, hər şeyin yenidən dəyərləndirilməsi məsələsini gündəmə gətirir.

Bütün bunlar, fəlsəfədə post-neo-klassik dövrün başlamasına təkan vermişdir. Bu transformasiya şəraitində milli fəlsəfənin mövcud olub olmaması məsələsi yenidən gündəmə gəlir.

1. ***Milli özünüdərk prosesində reformasiya və önreformasiya hərəkatları***

1.1. Böyük bölünmə: Qərbi Avropa fenomeninin zühuru

IV-V əsrlərdə xalqların böyük miqrasiyası, hun və german tayfalarının hücumları, apardığı militarist və quldarlıq siyasəti nəticəsində dağılan bütpərəst Roma imperiyasının yerində bir-biri ilə münaqişə edən kiçik german tayfa-dövlətləri yarandı. VIII əsrdə german tayfaları tərəfindən qurulan və güclü Karolinqlər sülaləsi tərəfindən idarə olunan Frank dövləti Qərbi Avropa üzərində hakimiyyəti öz əlinə aldı. Onlar, öz hakimiyyətlərini gücləndirmək üçün, dini ideologiyaya ehtiyac duydular. Bu ehtiyac, onları katolik kilsə ilə birləşdirdi. Avropaya hücum edən müsəlman qoşunlarının qarşısını alan bu ittifaqın nüfuzu daha da artdı. 800-cü ildə Roma yepiskopu III Lev Frank kralı Böyük Karlı "romalıların imperatoru" elan etdi. X əsrdə Frank dövlətinin üç yerə parçalanması nəticəsində meydana çıxan Şərqi-Frank Krallığının kralı Böyük I Otton papa XII İoann tərəfindən "Müqəddəs Roma İmperiyası"nın (962-1806) imperatoru kimi təqdim olundu. Bu güclü krallıqların meydana çıxması və onların ərazi iddiaları, onlara sığınan Roma katolik kilsəsinin Konstantinopola qarşı çıxmasına və nəticədə, XI əsrdə böyük bölünməyə səbəb oldu.

XI əsrdə (1054) Roma imperiyasının şərqi-pravoslav (Konstantinopol) və qərbi-katolik imperiyalarına (Roma) bölünməsi ilə Qərbi Avropa fenomeni öz tarixi varlığını təsdiq etdi. IX əsrdə (863-867) Roma kuriyası I Nikolayın Balkanları və digər əraziləri öz siyasi-iqtisadi nəzarəti altına almağa çalışması, Konstantinopol patriarxı Fotiyin qəzəbinə səbəb olmuşdur. Konstantinopol patriarxılığı, İtaliyada hakimiyyəti öz əlinə almaq uğrunda papalıq ilə mübarizə aparırdı. Bu siyasi-iqtisadi maraqlara əsaslanan toqquşmalar, dini-ideoloji bəhanələrlə (filioque) pərdələnir, hər iki kilsənin ehkam, dini mərasim və dini terminlərində fərqlərin meydana çıxmasına səbəb olurdu (cədvəl 1). XI əsrdə bu qarşıdurma pik həddə çatdı. Konstantinopol latın, Roma isə, yunan dilini kilsənin və mədəniyyətin dilindən uzaqlaşdırdı, iki kilsə arasında teoloji qarşıdurma daha da dərinləşdi. Tərəfləri bir araya gətirmək (uniya) istəyənlərin cəhdləri baş tutmadı. Çünki pravoslavlıq yunan, katoliklik isə latın millətçiliyinin əsasını qoydu. Bu parçalanmanın əsasını, qədim Roma və Ellinizm mədəniyyətləri arasında olan parçalanmada araşdırmaq doğru olardı (bu ayrıca bir mövzudur).

Cədvəl 1. Roma-katolik və Provaslav kilsələri arasında doqmatik ixtilaflar (**3**)

Provaslav kilsəsinin ehkamları	**Roma-katolik kilsəsinin ehkamları**
Pravoslavlara görə, katoliklər filiokve ilə bidətə yol vermiş və dinin rəmzini (Nikey-Konstantinopol) pozmuşlar.	Müqəddəs Ruh həm Atadan, həm də Oğuldandır (filioque).

Müqəddəs Üçlük varlıqda və onun enerjisində təzahür edən əbədi və əzəli başlanğıcdır.	Müqəddəs Üçlüyün enerjisi məxluqdur (əbədi və əzəli deyildir).
Xeyir – Tanrının birbaşa enerjisidir (yəni yaradılmayandır).	Xeyir - ilahi səbəbin nəticəsidir (zaman və məkanda yaradılandır).
Sevgi - Müqəddəs Üçlüyün hər üç sifətinin enerjisidir.	Sevgi - Müqəddəs Ruhun Ata və Oğul, Tanrı və insanlar arasında olan bağıdır.
Belə ehkam yoxdur.	Məryəm – təbii şəkildə doğulmuş və cismani olaraq qeybə çəkilmişdir.
Kilsənin başçısı yalnız İsadır və onu dünyada təmsil edən yoxdur.	Kilsənin görünən başçısı Papa, görünməyən başçısı İsadır.
Belə ehkam yoxdur.	Papa məsumdur və səhvə yol verə bilməz.
Yer və Göy kilsəsi vardır.	Ölümdən sonra paklanma yeri olan bərzəx aləmi (Purgatorium) mövcuddur.

Roma-katolik kilsəsi, Qərbi Avropa coğrafiyasını öz ideoloji təsiri altına aldı. Bizans və müsəlmanlara qarşı səlib yürüşləri onun bu coğrafiya üzərində hakimiyyətini gücləndirdi. Katolik təriqətlərinin böyük bölünmə dövründə Rusiya ərazisini öz nəzarətləri altına almaq cəhdləri baş tutmadı. Konstantinopol patriarxlığı burada xristianlığın meydana çıxmasında və yayılmasında daha fəal rol oynadı. Konstantinopolun 1453-cü ildə türklər tərəfindən fəthi, provaslavlığın siyasi mərkəzinin tədricən Moskvaya köçməsinə (Moskva-üçüncü Roma) səbəb oldu.

Roma-katolik kilsəsi, qədim Roma imperiyasının siyasi-mədəni varisi kimi, Qərbi Avropada roma-katolik identikliyinə əsaslanan matrisa formalaşdırdı. Provaslav kilsəsi isə, Ellinizmin varisi kimi, Şərqi Avropa və Rusiyanın provaslav-ellin matrisasını yaratdı. Lakin, sonralar katolik və provaslav kilsələrinin bəzi elementlərini özündə birləşdirən sinkretik kilsələr meydana çıxdı. Avrasiya məkanında bu matrisalar üzərində sonralar meydana çıxan bir çox xristian millətlərinin təməli qoyuldu.

XI əsrdə böyük parçalanmadan sonra katolik kilsənin hakimiyyəti altında formalaşan Qərbi Avropa sisteminin daxilində antisistem elementləri üzə çıxdı. XII-XIII əsrdə İtaliya və Cənubi Fransada antisistem önreformasiya hərəkatının ilkin elementləri yarandı. Bu hərəkat, tədricən böyüyərək XVI əsrin geniş miqyaslı reformasiya hərəkatlarına təkan verdi (diaqram 1).

Diaqram 1. Xristianlıq tarixdə



Önreformasiya və reformasiya, hərəkatları vahid bir hərəkatın müxtəlif tarixi mərhələləri idi. Bu hərəkat, dini ideyalara əsaslansa da, əslində, hakim zümrələrin iqtisadi-siyasi maraqlarının toqquşmasının nəticəsi kimi meydana çıxmışdı. Humanizm hərəkatı, reformasiyanın nəzəri-fəlsəfi əsaslarının formalaşmasına xidmət etməklə yanaşı, onun ideyalarının incəsənət yoluyla sadə insanlara çatdırılmasına çalışmışdı. Bu baxımdan, humanizmi maaarifçilik hərəkatnın başlanğıcı hesab etmək olar.

Önreformasiya, reformasiya, humanizm hərəkatlarını birləşdirən ümumi hədəf, katolik-feodal sistemin inhisarını ortadan qaldırmaq və onun yerində liberal sistemi yaratmaq olmuşdur. Bu hədəf, onların bir araya gəlməsini, gizli masonluqlar şəklində təşkilatlanmasını və antisistem kimi formalaşmasını təmin etmişdir. Bu hərəkatların baxışlarında olan paralelliklər, hərəkat liderləri və nümayəndələrinin əlaqəli fəaliyyətləri, sistemli idarəetmənin mövcudluğu təsdiq edir ki, hərəkat, daima vahid bir mərkəzdən konkret şəxslər tərəfindən yönəldilmişdir. Ciddi beyin mərkəzi, güclü siyasi iradə və böyük maliyyə olmadan, bu cür hərəkatların yaranması və idarə olunması real deyildir. Bu gün, dünyada baş verən sosial-siyasi hadisələr, müəyyən hərəkat və fəaliyyətlər kimlər tərəfindən idarə olunursa, orta əsrlərdə də onların sələfləri tərəfindən yönləndirilmişdir. Bu güclərin kim olduqlarını müəyyənləşdirmədən öncə, katolik kilsənin qurduğu orta əsr Qərbi Avropa sisteminin nədən ibarət olduğunu və kimlərin mənafeyinə toxunduğunu ortaya qoymaq lazımdır.

1.2. Qərbi Avropa krallıqları və katolik kilsə "ittifaqı"

Kral hakimiyyətinin himayəsi altında olmağı seçən provaslav kilsəsindən fərqli olaraq, katolik kilsə öz ruhani hakimiyyətini dünyəvi hakimiyyətin üzərində görürdü. Buna görə də, o, Romada öz teokratik dövlətini yaratmağa

çalışırdı. Krallar kilsənin dəstəyini almaq üçün, onlara, İtaliya ərazisində öz kiçik dövlətini qurmağa imkan yaradırdılar. Lakin, bu kiçik teokratik dövlətin rəhbəri olan Papa, həm də Avropada olan bütün katoliklərin rəhbəri idi. Onlar, evlənmədikləri (selibat) üçün, hər yeni papa varislik yoluyla deyil, kardinalların səsverməsi ilə seçilirdi. Onların gücü, Avropadakı güclü dövlətlərin dəstəyi ilə təmin olunurdu. Məsələn, karolinqlər sülaləsinin hakimiyyəti bitdikdən sonra, papalar Roma zadəganlarının əlində oyuncağa çevrilmişlər. 932-ci ildə yaranan "Müqəddəs Roma İmperiyası" isə, kilsəni özünə tabe etməyə çalışmışdır. Kilsə, onların dəstəyi ilə 1176-cı ildə öz müstəqilliyini qazanmışdı. Lakin, katolik kilsənin məqsədi, Avropa üzərində yalnız dini-ideoloji deyil, həm də siyasi-iqtisadi hegemonluq qazanmaq idi. Buna görə də, Avropa kralları kilsəni həm də özləri üçün rəqib kimi görürdülər.

Katolik kilsənin hakimiyyətini səciyyələndirən xüsusiyyətlər aşağıdakılar idi:

- Avropa krallarının hakimiyyətinin legitimliyi kilsə tərəfindən təsdiq olunurdu.
- Krallıqların rəiyyəti dini-ideoloji baxımdan kilsəyə bağlı idilər.
- Kilsələr yerlərdə əhalinin mövcud sistemi ədalətli bir sistem kimi qəbul olunması istiqamətində təbliğat işləri aparırdılar.
- Kilsələr, əhalini dini ayinlərə cəlb edərək qazandıqlarının böyük bir hissəsini əllərindən alırdılar.
- Siyasi və dini-ideoloji baxımdan kilsədən asılı olan krallar, onlardan ərazilər və böyük vergilər tələb edən kilsəyə qarşı gəlməkdən çəkinirdilər.

1119-cu ildə birinci səlib yürüşündən sonra Fələstin ərazisində Hüqo de Peyn (İtaliyanın cənubunda Kampaniya vilayətinin Noçera de Paqani ərazisində doğulmuşdur) tərəfindən yaranan **tampliyer** təriqəti (Yerusəlim-Solomon məbədinin və İsanın miskin cəngəvərləri) 1291-ci ilədək papanın hakimiyyəti altında Yaxın Şərq və Avropada bir çox əraziləri nəzarətdə saxlayır, ondan əvvəl yaranan hospitalyer təriqəti (indiki Malta təriqəti) ilə birlikdə Fələstin xristian ziyarətçilərinin təhlükəsizliyi məsələləri ilə məşğul olurdular (**4**). Hospitalyer təriqətinin bir qolu kimi yaranan tevton təriqəti də almanların katolik kilsəsinin rəhbərliyi altında qurduqları təriqət idi. Lakin, onlar, 1291-ci ildə Misir Məmluk sultanı Xəlil Əşrəf tərəfindən Fələstindən qovuldular. Bundan sonra, tampliyer təriqəti ticarət və maliyyə işləri ilə məşğul olmağa başlamış və yoxsulluqdan qurtularaq böyük sərvət sahibinə çevrilmişlər.

Tampliyerlərin aparıcı üzvlərinin əksəriyyəti mənşəcə fransız olduğu və Fransada dərin iqtisadi və demoqrafik kök saldıqları üçün, onları fransız təriqəti kimi səciyyələndirmişlər. Onlar, XII-XIII əsrdə Fransanın siyasi-iqtisadi həyatında aparıcı rol oynayırdılar. Fransa kralları və Roma papası iqtisadi baxımdan onlardan asılı duruma düşmüşdü. Tampliyerlər, faizli kredit verməklə yanaşı, ziyarətçilərin üzərlərində pul, zinət əşyaları daşımamaları üçün qəbz verirdilər. Onlar mühasibatlıq, nəğdsiz ödəmə, mürəkkəb faizlər ilə bağlı zəngin bilik və təcrübəyə malik idilər. Avropada sadə insanlardan tutmuş kral və pa-

paya kimi onlara borclu idilər. Onlar, bank işlərində o qədər səriştəli və məhsuldar idilər ki, II Filip (1179-1223) Fransanın maliyyə nazirliyini 25 il onların öhdəsinə buraxmışdır. Onlar öz hesablarından yollar salır, çoxlu qala və məbədlər tikirdilər. Tədqiqatçı Desmond Stüard yazır: "Tampliyerlərin iqtisadi fəaliyyəti, kilsənin sələmçilik üzərindəki inhisarını dağıtdı. Heç bir orta əsr qurumu, kapitalizmin inkişafı üçün bu qədər böyük iş görməmişdir." (**5, s. 123**).

Tampliyer təriqətinin XIII əsrdə Fransada güclü siyasi-iqtisadi gücə malik olduğu dövrdə, İtaliya ərazisində olan kiçik dövlətlərin həm öz aralarında, həm də Roma papası ilə münasibətlərində gərginlik var idi. Roma papası öz nüfuzu ilə bu gərginliyi tənzimləyə bilmədiyi üçün, nüfuzdan düşürdü. Bu, Avropada papalığa olan etimadı azaldır və dini separatçılığa şərait yaradırdı.

XIII əsrin sonlarında Sisiliyada hakimiyyətə gələn kral III Federiqo Papa VIII Bonifasiyin taxtdan imtina etməsi əmrinə məhəl qoymadığı üçün, onu bidətdə suçlayaraq kilsədən kənar elan etdi və Sisiliya keşişlərinə dini ayinləri icra etməyi qadağan etdi. Xalq və kral buna məhəl qoymadılar. Papa, İtaliya ərazisində Venesiya və Genuya arasında gedən münaqişələrin, Florensiya kralı Karl Valuanın iddialarının qarşısını ala bilmirdi. Onun, İngiltərə (Eduard I) və Fransa (Filip IV) arasında qarşıdurmaları dayandırmağa, Germaniyada hakimiyyət davalarının qarşısını almağa gücü çatmırdı. Eduard Ivə Filip IV öz ölkələrində Papanın iradəsinə qarşı çıxaraq katolik ruhanilərinə vergi qoydular. Bu hadisələr, İngiltərə və Fransada katolik keşişlərin Papadan deyil, öz krallarından asılı vəziyyətə düşməsinə səbəb oldu. Papa, həmişə olduğu kimi, bu qarışıqlıqların qarşısını almaq və gücünü artırmaq üçün, türk-müsəlmanları hədəf göstərərək, səlib yürüşləri vasitəsilə Avropanı öz ətrafında səfərbər etməyə çalışırdı.

Fransa kralı IV Filip ilə Papa VIII Bonifasiyin münasibətləri elə bir həddə çatdı ki, kral papanı cinayətlərdə ittiham etdi, papa isə kralı və onun rəiyətini bidət əhli elan etdi. Papa "iki qılınc" (unam sanctam) ehkamından çıxış edərək, hər iki hakimiyyətin (ruhani və dünyəvi) ona mənsub olduğunu və ruhani hakimiyyətin hər şeyin üstündə dayandığını bildirdi. Fransa kralı IV Filip Romaya qoşun göndərərək papanı həbs edilməsini və vəzifəsindən istefa etməsini tələb etdi. Papa öldürülür və ölümündən sonra Fransanın Avinyon şəhərində onun sodomiya günahkarı və bidətçi olması barədə məhkəmə qərarı çıxarılır. XIV əsrdə (1309-1378) katolikliyin dini mərkəzi Roma deyil, **Avinyon** şəhəri (Fransa) olur. Yeni papa V Kliment fransız mənşəli papa olur və o, kardinalları əsasən fransızlardan təyin edir. XIV əsrin sonralarına kimi (1378) Avinyonda seçilən papalar fransız əsilli olmuş və onlar, Fransa kralının dünyəvi hakimiyyətinə tabe olmuşlar. İtaliya humanisti Petrarka Avinyonda kilsənin indulgensiya, simoniya (kilsənin əşyalarının satılması) və digər gəlirlər hesabına zəngin həyatını tənqid etmişlər.

Papalığın Avinyona köçürülməsi və Fransız kralı IV Filipin hakimiyyətinin güclənməsi, ölkədə güclü siyasi-iqtisadi gücə malik olan tampliyer təriqəti üçün təhlükənin başlanğıcı oldu. 1312-ci ildə Fransız kralı IV Filip və Roma Papası V

Kliment təriqətin sərvətlərini öz əllərinə keçirmək və onlara olan borclardan qurtulmaq üçün, təriqəti bidətçi damğası adı altında ləğv etmiş (onlara qarşı bir çox iftiralar atılmışdır) və üzvlərinə qarşı ağır inkivizisiya cəzaları tətbiq olunmuşdur (işgəncələr, oda atmaq və s). Onların sərvətləri Fransız kralı IV Filip tərəfindən mənimsənilmiş və bir qismi də onların rəqibləri olan hospitalyer təriqətinə, həmçinin, dominikan, kartezian, avqustin və selistin təriqətlərinə verilmişdir. Tampliyer təriqətinin yerdə qalan üzvləri gizlinə çəkilmiş və ilk mason təşkilatı şəklində təşkilatlanmışlar.

Bu hadisədən sonra Avropa kralları kilsənin asılılığından qurtuldular. Artıq, papalar kralların dünyəvi hakimiyyətini təsdiq etmirdilər. Bu, Avropada papalığın nüfuzunu günü-gündən aşağı salırdı. Bunlar Avropa kralları arasında çəkişmələrin artmasına səbəb olurdu. İngiltərə və Fransa arasında davam edən yüzillik müharibə hər ikisini zəiflətmişdi.

1367-ci ildə papa V Urban Romaya köçməyə qərar verir. Yerli əhali fransız əsilli papanı qəbul etməkdən imtina etsə də, bu baş verir. Romada papalığın əsas qərargahı Lateran sarayı yandığı (1308-ci ildə) üçün, yeni mərkəz Vatikan olur. 1378-ci ildə V Urban vəfat edir və Romada onun yerinə papa VI Urbanı Bartolomeo Prinyano seçilir. O, qeyri-italyan, xüsusilə, fransız mənşəli kardinallara qarşı tədbirlər görməyə başlayır. Bu isə, katolik kilsənin daxilində parçalanmaya və qarşıdurmaya səbəb olur. Təqib olunan kardinallar özlərinə VII Klimenti (Cenevrəli Robert) papa seçirlər və o, Romada papa VI Urbana qarşı hərbi təcavüzə keçir. Hərbi qarşıdurmalar nəticəsində papa VII Kliment Avinyona qayıdaraq, orada papalıq institutunu bərpa edir. Beləliklə, katolik kilsəsi bir-birinə düşmən olan və bir-birini anafem (inkar) edən iki qütbə bölünür. Avropa ölkələri bu qütbləşmədə üç qismə bölünür:

1. Roma tərəfdarları – İtaliya (mərkəzi və şimali), İngiltərə, Daniya, Polşa, Norveç, Macarıstan, Flandriya (Niderland ərazisində)
2. Avinyon tərəfdarları – Cənubi İtaliya (Neapol, Sisiliya), Şotlandiya, Fransa, İspaniya ərazisində (Kastiliya, Leon, Araqon, Navarra, Savoyya), Kipr, Uels.
3. Orta mövqedə dayananlar – Portuqaliya, Burqundiya (Fransa ərazisi), ikiyə bölünən monastır təriqətləri, ikiyə bölünən Müqəddəs Roma imperiyası (X-XVIII əsrlərdə mövcud olan dövlətüstü italyan, alman, balkan, frank və digər xalqların birliyi)

İki kilsəni bir araya gətirmək üçün, Piza şəhərində 1409-cu ildə toplantı keçirilir. Tərəflər bu toplantıda iştirak etmirlər. Lakin, baş tutan toplantı yeni Piza papası V Aleksandrı seçir. German imperatoru Siqizmund 1414-1418 illərdə Konstans şəhərində böyük məclis təşkil edir və 1417-ci ildə bu məclis hər üç papanı ortadan qaldıraraq, dördüncü papa V Martinanı seçir. Bununla, katolik kilsənin bölünməsinə son qoyulur və katolik kilsənin mərkəzi əvvəlki kimi yenidən Roma olur. Lakin, kilsənin əvvəlki nüfuz və gücünü bərpa etmək mümkün deyildi.

***

Göründüyü kimi, Avropada krallıqlar ilə katolik kilsə arasında ittifaq formal xarakter daşımışdır. Əslində, onların öz aralarında bir-biri ilə toqquşan dərin siyasi-iqtisadi mənafeləri mövcud idi. Katolik kilsənin maraqları, katoliklik və Roma matrisası üzərində sivilizasyon kimliyi formalaşdırırdısa, krallıqların ondan müstəqil olmağa çalışması milli identikliyin təməlini qoyurdu. Bunu, dini mərkəzin Romadan Avinyona köçürülməsində müşahidə etdik.

Katolik kilsənin daxilində kardinallar arasında və kilsənin himayəsi altında formalaşan katolik təriqətlərdə milliləşmə prosesləri müşahidə olunurdu. Məsələn, Tevton təriqəti əsasən almanlardan ibarət olduğu üçün alman təriqəti, tampliyer təriqəti əsasən fransızlardan ibarət olduğu üçün fransız təriqəti hesab olunurdu. Lakin, onlar, katolik olduqları üçün, milli identiklik arxa plana keçirdi. Deməli, katolik kilsənin yaratdığı sistemin çökməsi, milli identikliyin ortaya çıxmasına səbəb ola bilərdi. Bu isə, təhlükəli idi. Çünki kilsədən savayı, sivilizasyon birliyi qoruyan alternativ bir qurum və ideya yox idi. Kilsə, bunu istəmədiyi kimi, krallıqlar da istəmirdilər. Çünki onlar da, sistemin çökməsi nəticəsində öz hakimiyyətlərinin itirilməsindən qorxurdular. Buna görə də, onlar, sadəcə olaraq, dini mərkəzi öz əllərində saxlamağa çalışırdılar.

Katolik kilsənin və kralların mənafeləri ilə tacir, bankir və zadəganlardan ibarət olan üçüncü zümrənin mənafeləri üst-üstə düşmürdü. Çünki bu zümrə, daima kralların və kilsənin qurduğu sistemdə təqib olunur və maneçiliklərlə üzləşirdilər. Dini zümrədən üçüncü protoburjua zümrəsinə çevrilən tampliyerlərin taleyi təsdiq etdi ki, krallıqlar və kilsə, onların meydana çıxmasına imkan verməyəcəkdir. Deməli, protoburjua zümrəsinin öz maraqlarını önə çəkməsi və qələbə qazanması üçün, krallıqlar və kilsənin maraqlarını ifadə edən feodal sistem çökməli idi.

Bu necə baş verməli idi?

Təbii ki, bu, aşağıdan, yoxsul və məzlum əhalinin protobolşevik inqilabı vasitəsi ilə baş verə bilərdi. Bunun üçün əsas da var idi. Çünki əhali, hakim təbəqənin zülmündən məzlum duruma düşmüşdür. Xristianlıqda sosial ədalət ideyalarının təbliği və kilsənin real sifətinin ortaya qoyulması, üsyanların genişlənməsi üçün əsas verirdi. Lakin, savadsız xalq kütləsinin sosial partlayışı, protoburjua təbəqəsi üçün də təhlükəli idi. Deməli, bu silahdan ehtiyatlı şəkildə istifadə etmək və onu yönləndirmək lazım idi. Eyni zanamda, alternativ sistemin strateji layihəsi olmadan, sosial prosesləri idarə etmək və yönləndirmək mümkün deyildi. Deməli, belə bir layihənin ortaya qoyulması zərurəti mövcud idi. Bu layihə, ənənəvi sistemi çökdürməli və sonra onu əvəz etməli idi.

Tampliyerlərin məğlubiyyət səbəbi, onların xalq tərəfindən dəstəklənməməsi oldu. Onlar, mövcud sistemin, onların çiçəklənməsinə və güclənməsinə göz yumacaqlarını düşündülər. Tampliyerlərin iqtisadi gücü, onların siyasi gücünü də artırırdı. Təbii ki, nə krallar, nə də kilsə bununla barışa bilməzdi. Lakin, tampliyerlər tamamilə ortadan qalxmadılar. Onların İngiltərə, Şotlandiya, Flandriya, Normandiya və İtaliyada da kifayət qədər üzvləri olmuşdur. İngiltərədə də (iki məbədləri vardı) onların mövqeyi güclü idi. Xüsusilə, onlar, Şot-

landiyaya sığınmışlar. Çünki Şotland kralı Robert Brüs (1306-1329) katolik kilsəsindən təcrid edildiyi üçün, kilsənin qanunları onun ölkəsində işləmirdi. Bəlkə də, təsadüfi deyildir ki, Avropada ilk protobolşevik inqilib Böyük Britaniya ərazisində baş qaldırdı. Bunu, önreformasiyanın ilk protestant hərəkatı kimi də səciyyələndirmək olar.

1.3. Önreformasiya – protobolşevik, yoxsa protoburjua inqilabları?

XIV əsrdə katolikliyə qarşı çıxış edən yanlız Fransa krallığı deyildi. XIV əsrdə katolikliyin Avinyona köçürülməsi və kilsənin fransızlaşdırılması, Fransa ilə yüzillik müharibə şəraitində olan İngiltərəni narahat etməyə bilməzdi. Çünki Avinyon, Fransanın tərəfini müdafiə edir və İngiltərəni ittiham edirdi. Bu, İngiltərədə kilsənin müstəqil olması və onun ingilisləşdirilməsi ideyasını ortaya qoydu. Oksford universitetinin alimi **Con Viklif**, 1377-ci ildə kilsəni dəbdəbəyə və dünyəviliyə meyilli olmaqda ittiham edən 12 tezis irəli sürdü. Onu, əvvəllər kral sarayında və universitetdə dəstəkləyənlərin çoxu, 1381-ci il geniş miqyaslı kəndli üsyanından sonra dəstək vermədilər. Çünki sosial bərabərlik tələb edən üsyançılar arasında onun tərəfdarları çox idi. Kenterber arxiyepiskopunun təzyiqi ilə Oksford universitetinin ilahiyyatçıları, onun tezislərini bidət xarakterli olduğunu bildirdilər. Nəticədə, Con Viklif və onun tərəfdarları universitetdən qovuldular və kilsədən uzaqlaşdırıldılar. Con Viklif Lattenfordda gizlənərək, Bibliyanı ingilis dilinə çevirdi və özünün reformator ideyalarını əks etdirən "Trialoq" əsərini yazdı. 1384-cü ildə vəfat etdi və 1428-ci ildə kilsənin qərarı ilə onun cəsədi yandırıldı. Çünki o, öz əsərində hər bir xristianın vasitəsiz (keşişlər və kilsə olmadan) Tanrı ilə əlaqə yaratmasının mümkün olduğunu irəli sürmüş, kilsənin xüsusi mülkiyyət sahibi olmasına qarşı çıxmış, onların torpaq ərazilərinin dövlətə verilməsini dəstəkləmiş, yepiskopluğun, indulgensiyanın, ölümdən sonra paklaşma məkanı və evxaristiya (çörək və şərabı İsanın bədən və qanı ilə eyniləşdirən) inancının, yağlama mərasiminin ləğv olunmasını, kralın Tanrının yer üzərində canişini olduğunu və kilsənin ona tabe olmasını istəmiş, papaları bidətçi və antixrist hesab etmişdir. Onun tərəfdarları və onun təsirində olan xristianlar sonralar bir çox avropa ölkələrində lollardlar, qusitlər, valdenslər kimi tanınmışlar.

Bir çox tarixçilər, 1381-ci ildə bütün İngiltərəni əhatə edən Uot Taylerin rəhbərliyi altındakı kəndli üsyanının yüksək səviyyəli təşkili və üsyanda şübhəli məqamların olması ilə bağlı olaraq belə bir nəticəyə gəlmişlər ki, bu üsyan, gizli okkult təşkilatı olan tampliyer təriqəti tərəfindən təşkil olunmuşdur (**6**). Bu üsyanda Con Viklifin tərəfdarları hesab olunan **lollardlar** təqib nəticəsində Şotlandiyaya qaçmışlar. Onların başçısı olan ingilis keşişi Con Boll, Viklifin təliminin təblağatçısı olmuş və buna görə əvvəllər həbs olunmuşdur. Əgər biz bu üsyanın tampliyer təriqəti tərəfindən təşkil olunduğunu qəbul etsək, o zaman, Con Viklifin, onun tərəfdarları olan lollardların tampliyerlər ilə gizli əlaqədə olmasını iddia edə bilərik.

***

1419-cu ildə keşiş və Praqa universitetinin rektoru **Yan Qus** (1415-ci ildə oda atılaraq yandırılmışdır) davamçıları tərəfindən baş verən **qusitlər** hərəkatı (Praqa üsyanı) da birbaşa və dolayı olaraq əvvəlki üsyanların davamı idi. Çünki qusitlər ("Çex boqem qardaşları", çaşniklər və taboritlər) də Viklifin və onun təlimini davam etdirən Yan Qusun ideyalarını təbliğ edir, katolikliyi təkzib edir, katolik keşişləri məbədlərdən qovub öldürür, monastırları qarət edir, dini mərasimlərin çex dilində aparılmasını tələb edir və özünəməxsus Morav kilsəsində bir araya gəlirdilər. Müqəddəs Roma imperiyasının imperatoru Siqizmund 1420-ci ildə qusitlərə qarşı səlib yürüşü başlatdı. Qusitlər onlara qalib gələrək Çexiyanı azad etdilər və Germaniyaya, Sileziyaya, Avstriyaya hücum etdilər. Lakin, mülayimyönlü qusitlər (çaşniklər) katolik kilsəsi ilə danışıqlara getdiyi üçün, hərəkat öz məqsədinə çatmadı. Onlar, sonralar lüteranlara və kalvinistlərə qoşulmuşlar (**7**).

1.4. Önreformasiya, İtaliya və Qafqaz Albaniyası əlaqələri

XII-XIII əsrlərdə Avropada Fransanın cənubunda və İtaliya ərazisində gizli şəkildə mövcud olan antikatolik valdens və katar (albiqoy) hərəkatı olmuşdur. **Valdens** hərəkatının (**8**) yaradıcılarından birinin Lion taciri Peter Valdus olduğu bildirilir. O, ilkin apostol xristianlığından çıxış edərək, xüsusi mülkiyyətə qarşı çıxmış, sadə həyat tərzinin xistianlığın əxlaqına uyğun olduğunu bildirmiş, Bibliyanın hamı tərəfindən sərbəst oxunmasını dəstəkləmiş və katolik kilsəsinə qarşı çıxmışlar. Lombardiyada (İtaliya) yaşayan qumiliat (monastır təriqəti), Niderland və Almaniya ərazilərində olan beqin qadın monarxları, beqard kişi monarxları hərəkatları da onlarla həmrəy olmuşlar. XII əsrdə papa onları bidətçi elan etmiş, üzvlərini tonqalda yandırmış və sağ qalanlar əsasən Pyemont (İtaliya), Savoyi (Fransa) və Boqemiya (Çexiya) ərazilərində gizlənmişlər. Onlar, reformasiya dövründə kalvinistlərlə birləşərək Bibliyanın fransız dilinə çevrilməsində (1535) fəal rol oynamışlar. Katoliklərin onlara qarşı apardığı soyqırım siyasətinin qarşısını, XVII əsrdə Con Milton və Oliver Kromvel almağa çalışmışdır. Görünür, onların qusit və lollard hərəkatlarının meydana çıxmasında da öz təsiri olmuşdur.

Avropada geniş yayılan və katolik kilsənin hakimiyyətinə qarşı XII-XIII əsrlərdə ən təhlükəli xristian təriqətlərindən biri olan **katar**sonradan müxtəlif qollara və təriqətlərə bölünərək fərqli adlar altında tanınsalar da (albiqoy, boqomil, pataren və s.), onların ilkin qruplarının və ilk adlarının pavlikian olması iddiası daha doğrudur (**9**). Akademik Ziya Bünyadov "pavlikian" isminin Qafqaz Albaniyasında olan "Paytakaran, Paylakan, Balasakan" (Beyləqan) toponimindən meydana çıxdığını əsaslandırmışdır (**10, s. 34**). Qədim mənbələr də onların Qafqaz Albaniyasından olduğunu təsdiq edir (11). Lakin, onun yaranma tarixi VI-VII əsrlər göstərilsə də, tam dəqiq deyildir. Düşünürəm ki, bu hərəkat ilk dəfə III-IV əsrlərdə meydana çıxmış və VI-VII əsrlərdə isə daha çox tanınmağa başlamışdır. Bu hərəkat, Beyləqanda III əsrdə Qreqori peyğəmbərin (Cərcis) meydana çıxması ilə yarana bilərdi. Hətta, bu gün Beyləqanda Cərcis peyğəm-

bərin adı ilə bağlı bir ziyarətgah da mövcuddur. Onların yeni peyğəmbərlik hərəkatından irəli gəlməsini təsdiq edən amillərdən biri də o idi ki, onlar, ilkin xristianlar kimi, öz dövrlərində, bütün xristian icmalarının dinə baxışları ilə barışmır və onlar tərəfindən təqib olunurdular.

Pavlikianlar Qafqaz Albaniyasında olduğu kimi, Bizansda da xristian icmalarının bidətlərinə qarşı mübarizə aparmışlar. Xilafət onların Bizans ərazisində yayılmasına maraqlı olduğu kimi, Bizans da onları təqib edərək Frakiya ərazilərinə (Bolqariya) miqrasiya etmələrində maraqlı idi (**12**). Onlar, Frakiyada boqomil hərəkatının yaranmasına səbəb olmuş və bu hərəkat, tədricən Qərbi Avropa ölkələrinə yayılmışdır. Bu baxımdan, xristianlığın katar, boqomil təriqətləri pavlikianlığın təsiri ilə yaranmışlar. Bu təriqətlər, qərbi xristianlığı təmsil edən katoliklik üçün yad və zidd idi.

Katarların xristianlığa baxışları ilə katolik kilsənin baxışları arasında ziddiyyət var idi. Bu, katolik kilsənin hakimiyyəti üçün təhlükə idi. Buna görə də, kilsə onlara qarşı səlib yürüşünə başlamışdır (1209-1229). Katolikliyə qarşı çıxan xristian təriqətləri təqiblərdən və soyqırımlardan qorunmaq üçün, gizli təşkilatlanmaya üstünlük vermişlər (**13, s. 145**). Təqib olunan təriqətlərin bir araya gəlməsini təmin edən amil, onların vahid bir düşmənə, katolik kilsəsinə qarşı mübarizəsi olmuşdur. Sonralar bu gizli təşkilatlar daha mürəkkəb bir struktura çevrilmiş və Avropada gizli mason təşkilatlarının meydana çıxmasına əsas vermişdir.

Katar və ona yaxın olan təriqətləri səciyyələndirən xüsusiyyətlər:

1. Onlar apostol xristianları, yevangelistlər, asketlər kimi tanınmış və katolik kilsəsinin (onlara görə, "iblis məbədi") sərvət, hakimiyyət hərisliyi ilə ilkin apostol xristianlığından kənarlaşdığını iddia etmişlər.
2. Onların təliminin əsasını manixeylik (ontoloji olaraq ruhaniyyəti xeyir və dünyanı şər bilən təlim) təşkil edirdi. Katar dini baxışlarında ontoloji dualizm vardır: işıq və zülmət, tanrı və dünya. Onlara görə, dünya iblisin (lüsifer, üsyankar mələk) hakimiyyətində, Tanrı isə, gözəgörünməz bir nur aləmindədir. İsa, insanları bu zülmət aləmindən xilas etmək üçün gəlmişdir.
3. Onlar, müqəddəsləri, təsvirləri (ikonaları), dini mərasim əşyalarını təzkib etmiş və onların ilkin xristianlığa yad ünsürlər olduğunu irəli sürmüşlər.
4. Katar keşişləri də ruhun xilas olması, vəftiz və günahların buraxılması mərasimini yerinə yetirir, monastırlarda yaşayır, oruc tutur və ibadət edirdilər.
5. Katarlar Əhdi-Ətiq (Tövrat) kitabını təkzib edir və yalnız İncili, xüsusilə, Yuhannanın yevangeliyasını qəbul edirdilər. Onlar İncili xalq dilinə tərcümə etmiş, lakin, dini mərasimləri latın dilində həyata keçirmişlər.
6. Katarlar ilkin günahabatmaya və iradə azadlığına inanmır, qadınların "Yevanın günahı" ilə heç bir əlaqələrinin olmadığını irəli sürürdülər.
7. Onlara görə, Hz. İsa və Hz. Məryəm insan şəklində görünmüş mələklərdir və Hz. İsa insanların günahlarını öz üzərinə götürməmişdir.
8. Onlar canlıların öldürülməsini və yalanı ən böyük günah hesab edərlər.
9. Onlar xaçı və digər rəmzləri qəbul etmir və dini mərasimlər üçün kilsə-

ləri məqbul saymırdılar. Onlara görə, əsil tanrı məbədi könüldür. Dini mərasimləri təbiətdə və evlərdə keçirirdilər.

10. Katarlara görə, yepiskopluq vəzifəsi silsilə yoluyla apostollardan başlayaraq ötürülə-ötürülə gəlir (**14, s. 149**).

Katarların bu baxışları, onlarla bağlı olan bütün təriqətlərin (pavlikian, valdens, albiqoy, boqomil və s) ortaq baxışlarıdır. Bu baxışlar, katolik kilsəsinin dinə baxışları ilə uyğun gəlməsə də, sonralar peyda olan protestantların baxışları ilə uyğun gələn cəhətləri çox idi. Buna görə də, onların XII-XIII əsrlərdə Avropada katolik kilsəsinə qarşı qaldırdığı qiyamlar və buna görə təqib olunmaları, önreformasiyanın başlanğıcı hesab oluna bilər. Protestantlığın bu təməl üzərində formalaşdığını iddia etmək olar.

***

Reformasiyanın ilk öncə İtaliyada valdens, albiqoy və katar kimi təriqətlər tərəfindən başlaması barədə məlumat verdik. XIV-XV əsrlərdə bu proseslərin yenidən baş qaldırdığını görürük. İtaliyada katolik kilsəsinin özbaşınalığına qarşı çıxan dominikan təriqətinin monarx qadını **Sienli Yekatrina** cəsarətlə deyirdi: "Tanrının on əmrini bir əmrə "Bizə pul verin!" - əmrinə çevirdiniz. Roma, İblisin oturduğu cəhənnəmin dibidir." (**15**).

XV əsrdə tanınmış Paduan (Venesiya) ailəsindən olan **Cirolamo Savonarolanın** Florensiyada başladığı reformasiya hərəkatı daha geniş vüsət alır. Çünki bu narazılıq yalnız sadə xalq arasında deyil, həm də kilsənin hakimiyyətindən təngə gələn krallar, zadəganlar arasında da geniş yayılmışdı. Tacirlər və bankirlər də onlardan narazı idi. Çünki kilsə onların fəaliyyətinə maneçilik törədirdi. Katolik kilsəsinin daxilində bir çox keşişlər də (əsasən, aşağı rütbəli) papanın nüfuzuna qarşı idi. Bunu təsdiq edən əsas amil, reformasiya hərəkatının liderlərinin keçmiş katolik keşişləri olması idi. Bundan başqa İtaliyada katolik kilsənin dini dəyərləri ilə toqquşan bidətçi xristian təriqətləri mövcud idi (valdens, albiqoy və ya katar).

Cirolamo Savonarolanın başlatdığı reformasiya hərəkatında (1486) onun ən yaxın silahdaşı, ilkin humanistlərdən olan Covanni Piko della Mirandola idi. Florensiyanın başçısı və humanizm hərəkatını maddi baxımdan dəstəkləyən Lorenso Mediçi onların hər ikisi ilə yaxın əlaqələri var idi. Savonarolanın kilsəyə qarşı sərt mövqeyi, onun həyatını təhlükə altına alırdı. Lakin, Fransız kralı VIII Karl onu, 1494-cü ildə Florensiyada fransız səfiri vəzifəsinə təyin etmişdir. O, bu hakimiyyətdən istifadə edərək, Florensiyada dünyəvi-meşşan mühiti dindar, sadə həyat tərzi mühiti ilə əvəz etmişdir. Onun sadə xalq arasında nüfuzunun artması, hakim təbəqəni narahat etməyə başladı. Buna görə də, o, bidətdə ittiham olunaraq 1498-ci ildə asıldı və sonra yandırıldı.

XVI əsrdə Avropada yayılan protestantlıq təriqətləri (anabaptitizm, lüteranlıq, kalvinizm, antitrinitarizm və s) İtaliya ərazisində (Venesiya, Florensiya, Neapol, Lukke, Ferrare və s) yayılmağa başlayır. İtaliyada reformasiya və humanizm bir-biri üzvi şəkildə bağlanır. Humanizmin fəlsəfi ideyaları reformasiyasının dini ideyaları ilə bir nəzəriyyə şəklinə salınır. Bu nəzəriyyədə nə papa

institutuna, nə də onun təbliğ etdiyi xristianlığa yer yox idi.

Venesiya Romaya qarşı olduğu üçün, reformasiyanı dəstəkləyirdi. O dövrün ən nəhəng nəşriyyat mərkəzi burada yerləşirdi. Orada Martin Lüter və Svinqlinin əsərləri italyan dilində çap olunurdu. Bundan əlavə, burada Padua universitetinə Germaniyadan çoxlu protestant tələbələr cəlb olunurdu ki, onlar əhali arasında reformasiya ideyalarını təbliğ etsinlər. Neapolda ispan keşişi, mistik Xuan de Valdesin rəhbərliyi altında yaradılan reformasiya ideyaları dərnəyi güclü təbliğat işləri aparırdı. Onun işini zadəgan nəslindən olan qadın Culiya Qonzaka davam etdirmişdir.

Roma papası III Pavel 1542-ci ildə reformasiya tərəfdarlarına qarşı inkivizisiya qərarı çıxardı və nəticədə, onlar İtaliyanı tərk edərək Avropanın müxtəlif ərazilərinə yayıldılar. Onların böyük bir qismi Auqsburq şəhərinə (Bavariya ərazisi) köçdülər. İnkivizitorlar 1560-cı ildə baldens təriqətçilərinin yaşadıqları şəhərlər (La Guardia və Santo Xisto) viran qoyuldu, 1567-ci ildə italyan humanisti Pyetro Karnesekki yandırıldı, antitrinitarizmin banisi olan Leliy Sosinin qohumları həbs edildi, humanist-reformator Aonio Palerio (1570), utopist Françesko Puççi (1597), filosof Cordano Bruno (1600), filosof Culio Çezare Vanini (1619) edam edildi. filosof Tommazo Kampanella 33 il həbs edildi, Qaliley öz əqidəsindən imtina etməyə vadar edildi.

1.5. Reformasiya –protoburjuaziyanın açıq savaşı

Avropada katolik kilsəsinin ehkamlarına qarşı ilk geniş etirazlar 1517-ci ildə üzə çıxan **Martin Lüter** hərəkatı idi. O, özünün məşhur "95 tezisi" ilə kilsəyə qarşı çıxdı. Etirazların başında indulgensiya məsələsi (verilən pul qarşılığında kilsənin günahları müvəqqəti bağışlanması ayinini icra etməsi) dayanırdı. Martin Lüterin başlatdığı inqilabi hərəkata bütün sadə insanlarla yanaşı, bəzi zadəganlar da gizli şəkildə qoşulur və ona dəstək verirdilər (Sakson başçısı Fridrix, kurfürist Georq Spalatin). Martin Lüter kim idi?

Martin Lüter, Vittenberq universitetinin alman mənşəli ilahiyyatçı professoru idi. O, hələ gənc yaşlarından Avqustin təriqətinə daxil olmuşdur. Bu təriqətin öncüllərindən olan İohan Ştaupis ona himayədarlıq və dostluq etmişdir. 1508-ci ildə Lüter, Vittenberq universitetində dərs deməyə göndərilir və orada Müqəddəs Avqustinin əsərlərini araşdırır. O, 1512-ci ildə ilahiyyatçı doktor dərəcəsini alır. Sonra onun, katolik kilsəsinin ehkamlarına qarşı açıq irad və etirazları dövrü başlayır. O, "müqəddəs ənənəni" (kilsə qərarları, papaların fərmanları, müqəddəslərin adından söylənilən rəvayətləri, hədisləri və s.) inkar edərək, dini biliklərin yeganə mənbəyinin dini kitablar (İncil, Tövrat) olduğunu bildirir (**16, s. 55**).

Martin Lüter, insan və Tanrı arasında kilsənin vasitəçilik missiyasının (günahların bağışlanması, ruhun xilası) uydurma olduğunu və buna, hər kəsin öz imanı ilə nail olacağını bəyan edir. Lüter, ruhani və dünyəvi həyatı bir-birinə qarşı qoyan katolik ehkamına qarşı, dünyada əməyin ilahi bir nemət olması ideyasını qoyur. O, hər bir xristianın Bibliyanı sərbəst oxuyub düşünməsi fikrini

dəstəklədiyi üçün, Bibliyanı alman danışıq dilinə tərcümə edir. Bütün bunlar, kilsənin onu bidətçi elan etməsinə kifayət edirdi. Lakin, o, öz tərəfdarları ilə birlikdə Germaniyada üsyan hərəkatının başlanğıcını qoyur.

Martin Lüter başlatdığı hərəkat tezliklə Germaniyanın hər tərəfinə yayılır və ölkədə sosial-dini zəmində vətəndaş müharibəsi başlayır. Üsyançılar katolik kilsələrinə təcavüz edir, monastırları boşaldır, kilsələri qarət edir, yandırır və ikonaları sındırırdılar. Lüter, baş verən anarxiyanın qarşısını almaq üçün, əhalini "mənəvi üsyana" dəvət etdi. Lakin, artıq gec idi. Üsyançılara, humanist Uilrix fon Qutten və Frans fon Zikkinqenin başçılığı altında cəngavərlər də qoşuldu.

1524-1526-cı illərdə "hər yerdə bərabərlik və qardaşlıq" tezisi ilə çıxış edən Tomas Münserin başçılığı ilə geniş kəndli hərəkatı başladı. Artıq, bu protobolşevik hərəkatının lideri Lüter deyil, keşiş-mistik Tomas Münser idi. O, kilsələrlə yanaşı, zadəganların da mülklərini qarət edir, sadə insanların evlərindəki bütləri (ikonaları və digər dini əşyaları) sındırır, ilk xristianlar kimi xalq hakimiyyətini bərqərar etməyə çalışırdı. V Karlın hərbi təcavüzü nəticəsində protestantların bir çox liderləri və onlara gizli dəstək verən knyazlar həbs edildi. Protestantlar radikal (qnesiolüteranlar) və mülayim (melanxtonistlər) olmaqla iki yerə bölündü. Bu vətəndaş müharibəsi 1555-ci ildə Auqsburq dini sülhü ilə bitdi və 1580-ci ildə razılaşma formulu əsasında protestantların mövcudluğu məsələsi öz həllini tapdı. Nəticədə, lüteranlıq Germaniyanın və Skandinaviyanın bir çox şəhər və knyazlıqlarında qəbul edildi. Protestantlıq sözünün mənası da buradan irəli gəldi.

Martin Lüter hərəkatı, kapitalizmin və Yeni Dövrün yaranmasında dönüş nöqtəsi idi. O, alman dilini dini-mədəni həyata gətirdiyi üçün, milli dil və milli şüurun formalaşmasında və sonra alman milli dövlətinin meydana çıxmasında mühüm rol oynadı. Lakin, bu milli şüurun təməlində irqçilik elementləri mövcud idi. Çünki Lüter, yəhudiləri "müqəddəs üçlüyü" tanımadıqları üçün, onların təqib olunmasını dəstəkləyirdi. Bu baxımdan, əksər protestantlardan fərqli olaraq, lüteranların yəhudilərə münasibəti katoliklərdən fərqlənmirdi.

***

Avropada reformasiya hərəkatının ən geniş yayılan təriqətlərindən biri də **kalvinizm** idi. Martin Lüter hərəkatı bütün Avropaya yayılır. Lakin, protestantlar arasında bəzi dini məsələlər ətrafında yaranan mübahisələr, onların fərqli qollara parçalanmasına səbəb olurdu. 1529-cu ildə Marqburq disputu (evxarastiyanın real və ya rəzmi olması ilə bağlı) alman lüteranları ilə Ulrix Svinqlinin rəhbərliyi altında olan İsveçrə protestantlarını ikiyə böldü. Ulrix Svinqli katoliklərlə savaş ərəfəsində erkən vəfat etdi (1531). Onun yolunu İsveçrədə yaşayan fransız Jan Kalvin (Koven) davam etdirdi.

Jan Kalvin (1509-1564) vəkil ailəsində doğulan fransız ilahiyyatçısı idi. O, Parij universitetində hüquq və humanitar elmlər üzrə təhsil almış, bir müddət hüquq ilə məşğul olduqdan sonra ilahiyyat sahəsinə meyil etmişdir. O, Martin Lüterin əsərlərini mütaliə edir və Senekanın əsərinə şərhlər yazırdı. 1532-ci ildə doktor elmi dərəcəsinə layiq görülür. 1533-cü ildə yazdığı "Xristian fəl-

səfəsi" məqaləsindən sonra kilsə tərəfindən təqib olunur və Fransanı tərk edərək Bazel (İsveçrə) şəhərinə yerləşmək məcburiyyətində qalır. O, burada, mühacir fransız protestanlarla bir araya gələrək Bibliyanı fransız dilinə çevirir. 1536-cı ildə Kalvin İtaliyanın Ferrara şəhərinə gedir və orada kral XII Lüdovikin qızı hersoginya Renenin sarayında qalır. O, hersoginyanı reformasiya hərəkatına cəlb edir. Bir müddətdən sonra Cenevrəyə və Bazelə qayıdır.

Cenevrə ticarət baxımından sərbəst yer olduğu üçün, hər yerdən tacirləri özünə cəlb edirdi. 1535-ci ildə Cenevrə əsasən protestantların əlində olan şəhər idi. Kalvin burada yaşayan fəal reformator Qiyom Farel ilə tanış olur. Buradakı reformatorlar Müqəddəs Pyotr katolik kilsəsini reformator kilsəsinə çevirmişdilər. Kalvin bu kilsədə öz məruzələri ilə çıxış edərək protestantlar arasında şöhrət qazanır. Sonra onu Strasburqa dəvət edirlər və o, burada da məşhurlaşır. Sonra Cenevrə protestantları onun Cenevrəyə qayıtmasına nail olurlar. O, Cenevrədə dini-ideoloji və siyasi həyatı öz təsiri altında saxlayır və "Cenevrə papası" kimi şəhərdə teokratik diktatura rejimi yaradır. Kalvin burada öz rəqiblərini (antitrinitar Miqel Servet, libertinlər) edam yoluyla ortadan qaldırır. O, 1559-cu ildə Cenevrə ilahiyyat akademiyasını açır və burada protestant keşişlər yetirşdirir. Beləliklə, Cenevrə reformasiyanın əsas mərkəzlərindən birinə çevrilir və buradan digər Avropa ölkələrinin ərazisinə kalvinizm ideyaları yayılır.

Jan Kalvin və onun tərəfdarları (kalvinistlər) yalnız Bibliyada tələb olunan şeyləri qəbul edir və bunun fövqündə olan hər şeyi inkar edirdilər. Onların dinə yanaşmasında maksimal rasionalizm mövcud idi. Onlar, taleyin öncədən Tanrı tərəfindən yazıldığını qəbul edən fatalistlər idilər. Kalvinizm individualizm ideyasını inkişaf etdirir, ikonaçılığa, mərasimçiliyə və bir çox dini ayinlərə qarşı çıxır.

Kalvinistlər Fransada quqenotlar kimi tanınırdılar. 1572-ci ildə Parijdə Varfolomey gecəsində 3 min kalvinist katoliklər tərəfindən öldürülmüşdür. Niderland ərazisində reformator kilsəsinin ətrafında birləşən kalvinistlər ikonalara qarşı üsyan hərəkatı başlatdıqları üçün, Niderland inqilabına təkan vermişlər. Böyük Britaniya ərazisinə daxil olan kalvinistlər puritanlar kimi tanınırdılar. Onlar, İngiltərə inqilabının baş verməsində əsas rol oynadılar. Lakin, puritanların anqlikan kilsəsinə münasibəti birmənalı olmadı. Buna münasibətdə onlar iki yerə bölündülər: konqreqasionalistlər Şimali Amerikaya miqrasiya edərək, orada XVIII əsr inqilabını ortaya çıxardılar, digərləri isə, Şotlandiyanın dini həyatını müəyyənləşdirdilər.

***

1.6. İngilissayağı reformasiya: yuxarıdan aşağıya doğru

İngilis reformatoru və humanisti **Vilyam Tindeyl** 1525-ci ildə Bibliyanı ingilis dilinə tərcümə edir. İngiltərə kilsəsi onun əsərlərini və özünü atəşə ataraq yandırır (1536). İngiltərədə Tüdorlar sülaləsindən olan kral VIII Henrix katolik kilsəsini müdafiə edərək Martin Lüterin bidətçi olduğunu bildirir. Lakin, sarayda və parlamentdə protestantlığa meyl edən nüfuzlu adamlar var idi. Onlara Tomas Kromvel, Tomas Mor, Tomas Kranmer aid idi.

Tomas Kromvel kral VIII Henrixin birinci müşaviri, ingilis reformasiyasının əsas ideoloqu və anqlikan kilsəsinin əsasını qoyanlardan idi. O, Londonda sadə bir ailədə dünyaya gəlmişdir. Gənclik illərində Florensiyada Friskabaldilərin bankında işləmiş və oradan tanınaraq yüksək vəzifələrə ucalmışdır. Vatikan arxivləri, onun, 1514-cü ildə Romada arxiyepiskop Yorksinin, kardinal Kristofer Beynbricin agenti olduğu və Müqəddəs Roma Rotası Tribunalı qarşısında ingilis kilsəsinin hesabatlarını hazırladığı bildirir (**17**).

O, Roma ilə İngiltərə arasında siyasi və iqtisadi fəaliyyətlə məşğul olmuş və 1523-c ildə İngiltərə parlamentinə deputat seçilir. Kral VIII Henrixin lord-kansleri kardinal Tomas Uolsi (o, ölkənin daxili və xarici siyasətini müəyyənləşdirirdi) onu İngiltərə sarayında "Məxfi Şura" üzvü olmasına qədər dəstək verir. Tomas Uolsi vəfat etdikdən sonra onun yerini Tomas Kromvel tutur.

İngiltərədə reformasiya hərəkatı aşağıdan deyil, yuxarıdan başlayır. 1532-ci ildə Parlamentdə anqlikan kilsəsinin əsası qoyulur. Yəni, İngiltərədəki kilsənin başçısı papa deyil, İngiltərə kralı olur. Tomas Kromvel bu məsələdə əsas rol oynayır. Humanist-filosof, lord-kansler Tomas Mor bu hadisədən sonra, reformasiyanın əleyhdarı və Roma katolik kilsəsinin tərəfdarı kimi öz vəzifəsindən istefa verir və bununla T. Kromvelin reformasiya istiqamətində islahatlarının yolu açılır. O, öz istəklərinə nail olur. Lakin, onun saraydakı rəqibləri, Kromvelin bir xain kimi edam olunmasına nail olurlar.

Tomas Kromvelin bacısı oğlu Riçard, İngiltərədə puritan hərəkatının lideri Oliver Kromvelin ulu babası idi. Ancaq, Tomas Kromvelin karyera xəttinin Florensiyadan başlaması və sonra onun İngiltərə sarayında yüksək vəzifələrə gətirilməsi, bir çox mətləblərə aydınlıq gətirir.

1553-cü ildə hakimiyyətə gələn Kral VIII Henrixin Yekatrina Araqondan (ispan kralının qızı) olan qızı Mariya Tüdor (Qanlı Meri) qatı katolik kimi kontrreformasiya hərəkatı başlatdı. İngiltərədə reformatorlar edam edildi və bir çoxları ölkəni tərk edərək canlarını qurtardılar.

1558-ci ildə İngiltərə və İrlandiyanın kraliçəsi I Yelizaveta (Kral VIII Henrixin Anna Boleyindən olan qızı) yenidən, atası kimi, reformasiya hərəkatını dəstəkləyir. 1571-ci ildən başlayaraq, müasir anqlikan kilsəsinin əsası qoyulur. Reformasiya nəticəsində protestantlar anqlikanlara (yepiskopçular) və puritanlara (antiyepiskopçular) bölünür. Bunun ardınca, İngiltərə inqilabına səbəb olan monarxistlərin (yepiskop krala tabe olduğu üçün) və respublikaçıların siyasi qarşıdurması başlayır. Anqlikanların təqibləri nəticəsində puritanlar iki yerə bölünür (presviterian və konqreqasionalist) və Şimali Amerika qitəsinə miqrasiya edirlər (1620-1640). Lakin, katoliklər, XVII əsrdə İngiltərədə öz hakimiyyətlərini bərpa etməyə cəhd edirlər (terror, yakobit hərəkatı).

XVII-XVIII əsrdə 39 dini maddəyə əsaslanan anqlikan kilsəsi iki strukturdan ibarət oldu: Ali kilsə - ilkin xristianlıqdan reformasiyaya qədər olan ənənələri, aşağı kilsə - reformasiyanın dəyərlərini davam etdirdi. Buna görə də, anqlikan kilsəsinin katolikliyə və ya protestantlığa aid olduğunu müəyyənləşdirməkdə tədqiqatçılar çətinlik çəkirlər.

1.7. Reformasiya hərəkatlarını birləşdirən ümumi cəhətlər

- *Önreformasiya və reformasiya hərəkatlarının bir-biri ilə əlaqəli olması və bir-birinin içindən doğması şübhə yaratmır.* Avropada önreformasiya hərəkatı XII-XIII əsrlərdə İtaliya və Cənubi Fransa ərazilərində tampliyerlər, valdenslər, katarlar tərəfindən başladı. Əslində, İtaliya, Fransa və İsveçrə bir-birinə yaxın məsafəli sərhədlərdə yerləşdikləri üçün, onlardan birində baş verən hadisələr digərinə sürətlə sıçrayırdı. İtaliya və Cənubi Fransa ərazilərində üzə çıxan önreformasiya hərəkatlarının qarşısı qəddarlıqla alındı və onun üzvləri buradan Avropanın digər ərazilərinə yayıldılar. Sonra, biz, bu hərəkatın yeni təzahür formalarını İngiltərədə Con Viklifin lollardlar hərəkatında və onların iştirakı ilə 1381-ci il Uot Taylerin rəhbərliyi altındakı kəndli inqilabında, sonra eyni proseslərin Çexiya ərazisində Yan Qusun başçılığı altında baş verən qusitlər üsyanında, XV əsrdə tanınmış Paduan (Venesiya) ailəsindən olan Cirolamo Savonarolanın Florensiyada başladığı reformasiya hərəkatında, XVI əsrin əvvəllərində Almaniya və İsveçrədə üzə çıxan lüteranlıq və kalvinizm qiyamlarında, Fransada quqenotlar, Niderlandda anabaptistlər və mennonitlər, İngiltərədə geniş yayılan puritan hərəkatlarında müşahidə edirik. Bu hərəkatların liderləri bir-biri yaxın əlaqədə olmuşlar.

- *Önreformasiya və reformasiya hərəkatlarının ikl mərkəzi İtaliya (Venesiya, Genuya, Florensiya) və cənubi Fransa idi.* Önreformasiyanın ilk dəfə tampliyerlər, valdenslər və katarlar hərəkatı tərəfindən başlaması, sonra onların Avropaya yayılması və bütün reformasiya dövründə bu ərazilərin əsas qərargah qismində çıxış etməsi bunu təsdiq edir. Reformatorlardan olan Cirolamo Savonarola və ilk humanistlərdən olan Covanni Piko della Mirandola Florensiyanın başçısı və humanizm hərəkatını maddi baxımdan dəstəkləyən Lorenso Mediçinin himayəsi altında idilər. Jan Kalvin İtaliyanın Ferrara şəhəri və orada kral XII Lüdovikin qızı hersoginya Rene ilə yaxın əlaqələri var idi. Kral VIII Henrixin birinci müşaviri, ingilis reformasiyasının əsas ideoloqu və anqlikan kilsəsinin əsasını qoyan Tomas Kromvel Florensiyada Friskabaldilərin bankının kadrlarından idi. Martin Lüterin Rozenkreyser (gül və xaç) təriqəti ilə bağlı olduğu və həmin təriqətin də tampliyer təriqətinin davamı olduğu bildirilir.

- *Önreformasiya və reformasiya hərəkatları aşağıdan sadə xalq arasından başlayan protobolşevik inqilabları idi.* Lakin, İngiltərədə reformasiya həm aşağıdan, həm də yuxarıdan başlamışdır. Ancaq, bu hərəkatı gizli şəkildə dəstəkləyənlər arasında mövcud rejimdən narazı olan həm katolik din xadimləri, həm də zadəgan ailələri olmuşdur. Reformasiyanın liderlərinin çoxu katolik kilsənin keşişləri olmuşlar.

- *Önreformasiya və reformasiya hərəkatları Avropada milli hərəkatın təməlini qoymuşlar.* Onlar kilsənin əsaslandığı latın dilindən imtina etdilər. Çünki refomasiyanın inqilabi ideyalarını aşağı kütləyə çatdırmaq lazım idi. Sadə insanlar isə, öz etnik dillərində danışıb başa düşürdülər. Buna görə də, Bibliyanı və yazılan əsərləri onların dilində yazmaq gərəkirdi. Bu isə, milli şüurun formalaşmasına təkan verdi.

- *Avropada XII-XIV əsrlərdə yaranan universitetlərin bəzi müəllim-alim heyəti reformasiya hərəkatının və humanizmin ideya rəhbərləri oldu*. Con Viklif Oksford universitetinin ilahiyyatçı alimi, Yan Qus Praqa universitetinin ilahiyyatçı rektoru, Martin Lüter Vittenberq universitetinin alman mənşəli ilahiyyatçı professoru, Jan Kalvin Parij universitetinin ilahiyyatçı alimi idilər.

- Bu hərəkatların feodal katolik sistemə qarşı qoyduqları tezislər, bəzi istisnalar xaricində mahiyyətcə bir-birindən fərqlənmirlər. Onlara görə, katolik kilsə bidətlərlə dolu, ilkin xristianlıqdan uzaqlaşmış, sərvət və hakimiyyət hərisliyinə aludə olmuş bir "iblis məbədi"dir. Buna görə də, ondan qurtulub yeni reformasiya xristianlığına keçid, onlar üçün zərurət idi. Onlar reformasiyanın mahiyyətini öz tezisləri ilə əsaslandırmağa çalışırdılar. Onlar, papaya tabe olmamağı, monax və monastırların ləğv olunmasını, Bibliyanın sərbəst oxunmasını, Romaya vergi verilməməsini tələb edirdilər.

Önreformasiya və reformasiya hərəkatlarının əsas tezisləri aşağıdakılardır:

- İlkin apostol xristianlığına qayıtmaq;
- Qeyri-dünyəvi asket həyat tərzi keçirmək və dünyada əməyin ilahi bir nemət olduğunu qəbul etmək (M. Veber hesab edirdi ki, asketizm və qənaətcillik, ilkin kapitalın toplanma mənbəyi və kapitalist münasibətlərin başlanğıc mərhələsi idi);
- Müqəddəs dini şəxsiyyətləri ortadan qaldırmaq;
- Dini təsvirləri (ikonaları) ləğv etmək;
- Əksər dini mərasimlərdən və dini mərasim əşyalarından qurtulmaq (kalvinistlər Bibliyada tələb olunan şeyləri qəbul edir və bunun fövqündə olan hər şeyi inkar edirdilər);
- Bibliyanı milli dillərə çevirmək;
- Dini ibadət yerlərini kilsədən daha çox, təbiət qoynuna və evlərə daşımaq;
- Kilsənin xüsusi mülkiyyət sahibi olmasına qarşı çıxmaq və dövlətə tabe olmasını dəstəkləmək;
- Hər bir xristianın vasitəsiz (keşişlər və kilsə olmadan) Tanrı ilə əlaqə yaratmasını təmin etmək və insan-Tanrı arasında kilsənin vasitəçilik missiyasının (günahların bağışlanması, ruhun xilası) uydurma olduğunu və buna, hər kəsin öz imanı ilə nail olacağı bəyan etmək;
- İnsan öz inam və əməlləri ilə bağışlana bildiyi üçün, indulgensiyanı ləğv etmək;
- Katolikliyin ölümdən sonra paklaşma məkanın olması (bərzəx) inancını batil hesab etmək;
- Evxaristiya (çörək və şərabı İsanın bədən və qanı ilə eyniləşdirən) inancını batil hesab etmək (Evxarastiyanın real və ya rəzmi olması ilə bağlı lüteranlar ilə svinqli tərəfdarları arasında ixtilaf var);
- Qadın hüquqlarına katoliklərdən daha çox önəm vermək;
- Yəhudilərə katoliklərdən daha çox müsbət yanaşmaq (Martin Lüter istisnadır);
- Dinə maksimal rasionalist yanaşmaq;

- Fatalizmə meyilli olmaq (Kalvinistlər taleyin öncədən Tanrı tərəfindən yazıldığını qəbul edirlər);
- İndividualizmə meyilli olmaq (Kalvinizm individualizm ideyasını inkişaf etdirir);
- İnamın sevgini formalaşdırmasına inanmaq (sxolastlar isə, əksinə, sevginin inamı formalaşdırdığına inanırlar);
- İnsan Tanrıya itaət etməlidir. İsa, Tanrı və insan arasında yeganə vasitəçi olduğu üçün, nicat yalnız ona inamla gerçəkləşə bilər.

1.8. *Önreformasiya və reformasiya hərəkatlarına təkan verən amillər*

Önreformasiya və reformasiya hərəkatlarına təkan verən amillərin başında XII əsr Avropa intibahı dayanırdı. Bu dövrləri səciyyələndirən əsas hadisələr aşağıdakılar idi:

1. Avropada ilk universitetlərin açılması:

XI əsr (Bolonya-İtaliya), XII əsr (Moden-İtaliya, Parij), XIII əsr (Oksford, Monpelye, Kembric, Parij, Paduan-İtaliya, Salamanka-İspaniya, Neopolitan-İtaliya, Sien-İtaliya, Tuluz-Fransa, Koimbriski-Lissabon, Madrid) və XIV-XV əsrlərdə onların sayı daha da artmışdır.

2. Sxolastikanın son mərhələsində fəlsəfənin və naturfəlsəfənin tədricən sxolastik teologiyaya alternativ kimi ortaya çıxması və onu, tədricən sıxışdırması, həmçinin, qeyri-ənənəvi baxışların meydana çıxması müşahidə olunur.

3. Qədim yunan və ərəb dilində olan elmi və fəlsəfi əsərlərin kütləvi şəkildə latın dilinə tərcümə edildiyi və milli dillərdə ilk əsərlərin yazıldığı müşahidə olunur:

- *Alman Notker* (950-1022) Vil (İsveçrə) şəhərində zadəgan ailəsində doğulan alman mənşəli benedikt monarxı idi. O, Aristotelin ilk şərhçilərindən hesab olunur. Notker, latın dilindən bir çox mətnləri alman dilinə (ləhcələrindən birinə) çevirmişdir. Hətta, alman dilinin qrammatikasını yazmışdır. Bununla, alman ədəbiyyatının banisidir.
- *İmperator xronikası* (1150)- alman dilində yazılan tarixi əsərdir.
- *Mayster Ekhart* (1260-1328) Xoxxaymda (Türingiya, Almaniya) tanınmış ailədə doğulan teoloq-mistik və filosof-panteist olmuşdur. O, alman ədəbiyyat dilinin formalaşmasında mühüm rol oynamışdır.
- *Martin Lüter* "İncil" kitabını 1522-ci ildə latın dilindən alman dilinə tərcüməsini nəşr etdirmiş, dini mətnlərin və dini mərasimlərin alman dilində olmasını təmin etmişdir.
- *Nikolay Orem* (1330-1382) – Lizyede (Normandiya, Fransa) doğulan yepiskop idi. O, V Karlın əmri ilə Aristotelin bir çox əsərlərini şərhlərlə birlikdə latın dilindən fransızcaya tərcümə etmişdi.
- *Fransua Rable* (1483-1553)- Şinonda (Fransa) doğulmuş fransız satiriki olmuşdur. O, "Qarqantüa və Pantaqrüel" əsəri ilə fransız ədəbiyyatının əsasını qoymuşdur.

- *Kollej de Frans*- burada XVI əsrdən başlayaraq fransız dilində dəsr keçirilir. *Jan Kalvinin* "Xristianlıq inancının əsasları" (1540), *Pyer de la Ramenin* "Dialektika" əsərlərinin fransızcaya çevrilməsi fransız dilinin inkişafında mühüm rol oynayır.

- *Dante* (1265-1321) Florensiyada doğulan şair və teoloq idi. O, ilk dəfə italyan dilində yazaraq italyan ədəbiyyatının əsasını qoymuşdur.

- *Ceffri Çoser* (1340-1400) – O, London şəhərində doğulan ingilis mənşəli şair idi. "Kenterberiy hekayələri" əsəri ilə ingilisdilli ədəbiyyatın əsasını qoymuşdur.

- *Uilyam Şekspir* (1564-1616) – Uorikşerdə (İngiltərə) doğulan ingilis mənşəli şair idi.

Göründüyü kimi, Avropada XI-XII əsrdən başlayaraq, universitetlərin yaranması, milli dillərdə ilk ədəbiyyat nümunələrinin meydana çıxması və latın-yunan dilində olan dini-fəlsəfi ədəbiyyatdan bəzi fraqmentlərin milli dillərə tərcümə edilməsi, milli mədəniyyətlərin formalaşmasına təkan vermişdir. Bu proses, ilk öncə sxolastikanın daxilində zəif şəkildə baş vermişdir. O, protestanlığın ortaya çıxması ilə daha da intensivləşmişdir. Çünki katolik və protestant məzhəbləri arasında gərgin qarşıdurma zəminində baş verən uzunmüddətli vətəndaş müharibələri ənənəvi sistemin zəifləməsinə və yeni baxışlara zərurətin yaranmasına səbəb olmuşdur. Məhz, bu yeni baxışlar protestantlar tərəfindən ortaya atılmışdır. M. Veber təsadüfi olaraq protestantlığı "kapitalizmin ruhu" adlandırmamışdır.

Sual oluna bilər ki, orta əsrlərdə və hətta, qədim dövrlərdə məktəblər və universitetlər olmuşdursa, nəyə görə əhali kütləvi savadsız olmalı idi?

Düzdür, həmin dövrlərdə həm Şərqdə, həm də Qərbdə tanınmış tədris mərkəzləri olmuşdur. Lakin, Yeni Dövrdən fərqli olaraq, burada təhsil xalqın əksəriyyətinin danışdığı etnik dildə deyil, ona yaxşı aydın olmayan bir dildə aparılırdı. Həmçinin, əhalinin çox cüzi hissəsini çıxmaq şərti ilə, əksəriyyət yoxsulluq içində yaşayırdı. Bu insanların yüksək təhsil mərkəzlərində oxumaq imkanları yox idi (bəzi istisnaları çıxmaq şərti ilə). Yeni Dövrə qədər avropa cəmiyyətlərində, həmçinin, dünyanın digər yerlərində sosial təbəqələşmə, kütləvi savadsızlıq, sadə xalq dilində təhsilin olmaması, hüquq bərabərsizliyi, fikir və söz azadlığının olmaması, elmi-texniki inkişafın olmaması cəmiyyətin bir bütün olmasına mane olmuşdur. Bunlar aradan qaldırılmadan bütün cəmiyyəti bir araya gətirən milli şüur formalaşa bilməzdi.

Orta əsrlərin əsas elm və təhsil mərkəzləri dini xarakter daşıyırdı. Yeni Dövrə qədər Avropanın əksər məktəb və universitetlərində sxolastik dini tədris latın dilində aparılırdı. Halbuki, bu dilin heç bir praktiki əhəmiyyəti yox idi. Bu dildə, yanlız, kilsələrdə savadlı keşişlər, bu tədris mərkəzlərində dərs deyən ilahiyyatçılar bilirdilər.

Nəyə görə katolik kilsə latın dilindən imtina etmirdi?

- Birincisi, latın dilində danışmaq ilahiyyatçılara xüsusi bir status verirdi. Onlar, dini və fəlsəfi mətnlərə açarı olan seçilmiş insanlar kimi, savadsız əhalini özlərinə tabe etməyə imkan əldə edirdilər. Bu insanların dini öyrənmək və

məlumat almaq üçün başqa alternativləri yox idi. Bu durum, kilsənin xalq üzərində hakimiyyətini gücləndirirdi.

- İkincisi, bu dildə hələ xristianlıqdan əvvəl yazılan əsərlər, fəlsəfi traktatlarla yanaşı, ilkin orta əsrlərdə yazılan xeyli sayda dini əsərlər mövcud idi. Bu ənənənin davam etdirilməsi üçün, latın dilinin öyrənilməsi vacib idi. Biz, hələ Yeni Dövrdə bu ənənənin qismən davam etdirildiyini görürük. Məsələn, bu günə qədər bütün elm sahələrində anlayış və terminlər bazası latın dilinə əsaslandığı üçün, əksər sahələrdə (tibb, tarix, filologiya) o tədris olunur.

- Üçüncüsü, xristianların müqəddəs kitabı sayılan İncil ivrit və aramey dilindən yunan və latın dillərinə tərcümə edilmişdir. Bundan sonra, onun nədənsə orijinal dildə olan mətnləri kölgədə qalmış və yalnız latın və yunan tərcümələri ortada qalmışdır. Halbuki, xristianlar latın və yunan dilində deyil, İncil kitabının orijinal ivrit və aramey dilində tədris sistemini qurmalı idilər (Məsələn, müsəlmanlar elm və tədris dilini Kurani-Kərimin klassik ərəb dili üzərində qurduqları kimi). Çünki orijinal dini mətnlər ivrit və aramey dilində olduğu üçün, onun şərhləri də ona əsaslanmalı idi. Belə olduğu təqdirdə, romalılar öz ənənəsindən imtina etməli və qulları hesab etdikləri yəhudi ilahiyyatçılarının təsiri altında olmalı idilər. Çünki onlar, ivrit dilində olan İncili onlar kimi şərh edib oxuya bilməzdilər.

- Dördüncüsü, yəhudi ilahiyyatçılar Hz. İsanı və onun təlimini qəbul etmirdilər. Onların bundan imtina etməsi, Romanın ona sahib çıxmasına şərait yaratdı. Romanın antisemitizm siyasəti, ilkin xristianlığın yəhudilikdən uzaqlaşdırılaraq, romalaşdırılmasına səbəb oldu. Bu, Şərq və Qərb xristianlığı fenomenlərini ortaya çıxardı. Bu xristianlığın avropalaşdırılması prosesinin başlanğıcını qoydu. Sonrakı dövrlərdə bu proses daha da dərinləşdi.

- Beşincisi, antik düşüncənin və mədəniyyətin davam etdirilməsi, Romanın varlığını davam etdirmək demək idi. Roma imperatoru Konstantinin xristianlığı qəbul etməsində də əsas məqsəd bu idi. O, anlayırdı ki, əks təqdirdə, Romanın varlığı mümkün deyildir. Romanın xristianlarla məcburiyyət üzündən bağladıqları ittifaq, xristianlığın qlobal bir təlimə çevrilməsinə şərait yaratdı. Çünki, Roma Şərq və Qərbə hökm edən böyük bir imperiya idi. Təbii ki, bu imperiyanın qəbul etdiyi dini təlim də, ellinizm mədəniyyətinin qlobal funksiyasını yerinə yetirməli idi. Tədricən ellinist roma və monoteist yəhudi loqoslarının sintezindən meydana çıxan yeni milli loqos, Yeni Dövrə qədər ümumavropa loqosunu təşkil etdi. Bu gün, ondan ayrılan avropa milli loqoslarının hər biri özündə bu rüşeymi daşıyır.

- Altıncısı, dini və dünyəvi təhsilin latın dilində deyil, çoxsaylı etnik dillərdə aparılsaydı, katolik kilsəsinin Avropa üzərindəki hakimiyyəti sona çatardı. Sonrakı dövrlərdə baş verən hadisələr bunu təsdiq etdi.

2. İtaliya (Venesiya, Genuya, Florensiya) – kapitalizmin ilk beşiyi (XII-XIII əsrlər) və Renessansın vətəni

Avropada mövcud feodal sistemə qarşı antisistem önreformasiya hərəkatı XII-XIII əsrlərdə İtaliya və Cənubi Fransa ərazilərindən başladı (tampliyerlər, valdenslər, katarlar).

Katolik kilsəsi **Venesiyanı** ortadan qaldırmaq üçün, Fransa və İspan imperiyaları ilə Kambrey liqasını qurur. Lakin, bu birlik, papanın özü tərəfindən 1509-cu ildə dağıdılır. Çünki o, ispan və fransızların təsiri altına düşməkdən qorxur. Venesiya oliqarxları katolik kilsəsi və onun təsiri altında olan iqtidarlarla yeni mübarizə yolu seçir. Bu, 1648-ci ilə qədər bir-birinin qanını tökən reformasiya və kontrreformasiya hərəkatları idi. Venesiya hər iki hərəkatı öz əlində saxlayıb idarə etməyə çalışmışdır (**18**).

Filosof Bertran Rassel XVI əsrdə İtaliyada baş verən hadisələri belə səciyyələndirir: "Reformasiya və kontrreformasiya, eyni dərəcədə, az sivil xalqların İtaliyanın ağıllı hakimiyyətinə qarşı üsyanıdır. Reformasiya üsyanları siyasi və teoloji xarakter daşımış, papanın nüfuzundan və onun sayəsində xəzinəyə daxil olan vergilərin verilməsindən imtina edilmişdir. Kontrreformasiya üsyanı, İntibah dövrünün intellektual və mənəvi azad İtaliyasına qarşı idi. Papanın qüdrəti azalmadı, əksinə, artdı və eyni zamanda, məlum oldu ki, onun nüfuzu, Borcia və Medici kimilərinin özbaşınalığı ilə uzlaşmır. Xülasə, reformasiya almanlarla, kontrreformasiya ispanlarla bağlı idi. Dini müharibələr, həm də İspaniyanın güclü olduğu dövrdə öz düşmənləri ilə apardığı müharibələr idi." (**19**).

İtaliyanın Venesiya, Genuya, Florensiya kimi şəhər-dövlətləri Avropada burjuaziyanın ilk meydana çıxdığı yerlər olmuşlar. IV-V əsrlərdə Roma imperiyasının hun və german tayfaları tərəfindən məğlub edilməsindən sonra, bu ərazilərə müxtəlif yerlərdən miqrantlar axışmağa başlamış və burada ticarət əlaqələri inkişaf etmişdir. Bir tərəfdən, bu ərazilərin Aralıq Dənizinə çıxışının olması, Şərq və Qərb arasında körpü rolunu oynaması, digər tərəfdən, quru ərazilərdən gələn hərbi təhlükələrdən qismən qorunma imkanlarının çox olması, tacirlərin maraqlarının bu əraziyə yönəlməsinə səbəb olmuşdur. Burada toplaşan tacirlər arasında yəhudilər, Yaxın Şərqdən olan tacirlər kifayət qədər olmuşdur. Buna görə də, Venesiya, Genuya, Florensiya kimi şəhər-dövlətlərinin əhalisi müxtəlif xalqların nümayəndələri ilə zəngin idi. Burada formalaşan ilk burjuaziya təbəqəsi də transmilli xarakter daşıyırdı. Buna görə də, onların maraqları milli deyil, transmilli iqtisadi maraqlara söykənirdi. Məsələn, Bizans hakimiyyəti Venesiya tacirlərindən narazı idilər. Çünki onlar, Bizans ilə müharibə edən müsəlmanlara silah satırdılar. Həmçinin, onlar, müsəlmanlara qarşı səlib yürüşlərinin təşkil olunmasında maraqlı idilər. Çünki bunun üçün bankirlər səlibçilərə faizli kreditlər verirdilər. Venesiya, Florensiya burjuaziyası bir tərəfdən katolik sistemə qarşı qaldırdıqları reformatorları maddi baxımdan himayə edirdilər, digər tərəfdən, kilsənin içinə qədər sızaraq bir çox kardinalları öz əllərinə alır, hətta, Roma papası vəzifəsinə qədər yüksələ bilirdilər. Məsələn, Mediçilər ailəsinin renessans və reformasiya nümayəndələrini dəstəkləməsi danılmaz bir faktdırsa (Mediçi Lorenso), bu ailədən dörd Roma papasının olması (Lev X, Lev XI, Piy IV, Kliment VII), iki kraliçənin olması (Fransa kraliçələri olan Yekatrina Mediçi və Mariya Mediçi) və uzun müddət Florensiyaya başçılıq etdikləri tarixi faktlardır.

Venesiyada 1172-ci ildə burjua nümayəndələrindən (bankir ailələri, tacirlər,

oliqarxlar) ibarət parlament (Maggior Consiglio – "Böyük Şura") yaradılır və o, hökmdarı (doja) və hökuməti təyin edir. Onlar üçün, Avropada yaranan yeni xristian Frank dövləti və sonra Müqəddəs Roma İmperiyası böyük bazarlardan biri idi. Onun Yaxın Şərq bazarına çıxışına Bizans dövləti mane olurdu. Buna görə də, Venesiya 1204-cü ildə Konstantinopola qarşı səlibçi-katoliklərin hərbi təcavüzünü təşkil etdi və şəhəri xaraba qoyaraq, ölkənin bütün sərvətlərinə sahib çıxdı. XIII-XIV əsrlərdə Venesiya bütün Avropanın maliyyə mərkəzi idi (**20**).

Venesiya Bizansın çökməsini istəyirdi. Buna görə də, bir tərəfdən, səlib yürüşlərini maliyyələşdirir, digər tərəfdən, türklərə silah və başqa dəstəklər verərək, Konstantinopolu ələ keçirmələrinə şərait yaradırdı. Lakin, 1453-cü ildə Konstantinopolun türklər tərəfindən ələ keçirilməsi nəticəsində onlar, planlaşdırdıqları məqsədlərinə çata bilmədilər. Çünki türklər, özləri dünya ticarətinə nəzarəti öz əllərinə almağa çalışdılar. Bu, İtaliya burjuaziyası üçün böyük zərbə idi.

Bu durumdan çıxmaq üçün, Şərqə yeni yolların kəşf olunması vacib idi. İspanlar Amerikanı (1492), portuqallar Afrikaətrafı okean yolu ilə Hindistana çıxışı kəşf edirlər. Amerika və Hindistana yeni yolların kəşf olunması, avroatlantik mərkəzin formalaşmasına şərait yaratdı. Buna görə də, Qərbi Avropa ərazisi aktuallıq qazandı. Lakin, Qərbi Avropa hökmdarları katolik kilsəsi ilə sıx bağlı idilər. Onların hakimiyyəti kilsə tərəfindən təsdiq olunurdu. Qərbi Avropaya yerləşmək üçün, kilsənin hakimiyyətini zəiflətmək lazım idi. Kilsənin əlindən bu hakimiyyəti almaq asan deyildi. 1453-cü ildə türklər tərəfindən Konstantinopolun fəth olunması, 1492-ci ildə Əndəlusun rekonqistlər tərəfindən ələ keçirilməsi, Amerika və Hindistana alternativ yolların kəşf edilməsi, bu dövrdə katolik Fransa və İspanyanın Avropada böyük imperiyalara çevrilərək Venesiyanın maddi maraqlarını təhdid altına alması ərəfəsində, katolik Fransa və İspanyanın Avropanın siyasi-dini mərkəzi olan İtaliya uğrunda savaşı (1494), Avropada katolik kilsənin teokratik hakimiyyətinə qarşı yönələn humanizm (renessans) və reformasiya hərəkatları (protestantlıq) meydana çıxdı.

Avropada meydana çıxan humanizm (renessans) və reformasiya hərəkatlarının (protestantlıq) ideoloji və maliyyə mərkəzi İtaliya ərazisi idi. Çünki burada şəhər dövlətlərdə (Venesiya, Genuya, Florensiya) formalaşan ilk burjua təbəqəsi güclü hakimiyyətə malik idi. Bankirlərdən və tacirlərdən ibarət olan, müxtəlif etnik qrupları təmsil edən bu təbəqənin maraqları nə katolik kilsəsi ilə, nə də krallıqlarla uzlaşırdı. Onların iqtisadi maraqları tələb edirdi ki, kilsə və krallıqları özlərinə tabe etsinlər. Buna görə də, humanizm (renessans) və reformasiya hərəkatları baş qaldırdı.

***

İtaliya ərazisində Avropada hökm sürən ictimai sistemə alternativ dəyərlər sistemi formalaşırdı. Bir tərəfdən Venesiya, Genuya, Florensiya kimi şəhər dövlətlərin siyasi-hüquqi strukturu, digər tərəfdən, burada formalaşan iqtisadi münasibətlər, həmçinin, bu ərazilərdə meydana çıxan mədəniyyət özünəməxsus xarakter daşıyırdı. O, Avropada katolik kilsənin təsiri altında olan sistemə alternativ kimi yaranmışdı. Çünki İtaliya Aralıq Dənizinə, yəni, dünya

ticarətinə girişi olan və bununla da, dünyaya açılan bir qapı idi. O, Avropa ilə Şərq arasında körpü rolunu oynayırdı. Buna görə də, bu ərazilər müxtəlif mədəniyyətlərin və fərqli etnik qrupların bir araya gəldiyi məkana çevrilmişdir.

Renessans latınca "Dirçəliş" sözündəndir. Yəni, katolik kilsənin Avropada qurduğu orta əsr sisteminə qədər olan dəyərləri, ona alternativ olaraq yenidən dirçəltmək gərəkirdi. Bu proses, XIV əsrdə İtaliyadan başladı. Çünki Venesiya, Genuya, Florensiya kimi şəhər dövlətlərini idarə edən yeni protoburjua təbəqəsi, onun Avropada iqtisadi-siyasi maraqlarına mane olan katolik sistemi çökdürməkdə maraqlı idi. Buna görə də, bu prosesin bir tərəfi humanizm (renessans), digər tərəfi reformasiya hərəkatları oldu.

Renessans ilk mərhələdə daha çox dünyəvi incəsənət vasitəsilə özünü biruzə verdi (Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Tisian, Dante Aliqyeri). Daha sonra dünyəvi antik fəlsəfəni kilsənin sxolastik fəlsəfəsinə qarşı qoydu. Beləliklə, burada kilsənin paradiqmasına qarşı antiparadiqma formalaşdı: teosentrizm-antroposetrizm (humanizm), ruhanilik-dünyəvilik, sxolastika-antik fəlsəfə.

1453-c ildə Konstantinopolun türklər tərəfindən fəthi nəticəsində, Bizansın bütün maddi və mənəvi, elmi-fəlsəfi resursları Venesiya, Genuya, Florensiya şəhər dövlətlərinə yerləşdi (hələ fəthdən əvvəl). Bununla, sxolastik Avropa üçün yad olan yunandilli platonçu təlimlər və filosoflar (Georqiy Qemist Plifon, Trapezuntlu Vasiliy) Avropaya ayaq açdı.

Konstantinopoldan İtaliyaya gələn yunan **Georqiy Qemist Plifon** (1355-1452) Platonun təlimini, neoplatonizmi, şərq dinlərinin ideyalarını, şərq fəlsəfəsini Avropaya gətirən şəxs hesab olunur. Onun gətirdiyi ideyalar, Avropada renessansın əsas prinsiplərinə çevrilir. O, həmçinin, ərəb və yəhudi fəlsəfəsinin bilicisi kimi tanınmışdır (Onun Elisey adlı bir yəhudi filosofun tələbəsi olduğu bildirilir). Konstantinopolda sxolastlara qarşı platon məktəbini yaratdığı və bidətçi baxışları ilə seçildiyi üçün təqib olunmuş və Konstantinapolu tərk edərək Florensiyaya gəlmişdir. İtaliyada Mediçilər ailəsinə ona sahib çıxmışdır. Ola bilsin ki, onun bu ailə ilə əlaqələri Konstantinopolda olduğu müddətdə də olmuşdur. Bu şəxsin qaranlıq məqamları həddən artıq çoxdur. Lakin, onun dərindən öyrənilməsi vacibdir. Çünki Renesans mədəniyyətinin başlanğıcını onun adı ilə başlamaq olar.

Georqiy Qemist Plifon katoliklik və provaslavlıq arasında qarşıdurmanın səbəbini, Aristotelin Platonun təlimini təhrif etməsində, yanlış fəlsəfi fikirlər irəli sürməsində görür və çıxış yolunu bütpərəst neoplatonizm ideyalarının təbliğ olunmasında, Platonun ideyalarının bazasında dayanan müdriklərin təliminin (Zoroastr, stoiklər, brahmanlar, Midiya maqları) öyrənilməsində görürdü. Onun baxışları, xristianlıq ehkamlarının fövqünə çıxır və neoplatonizmin bütpərəstlik fəlsəfəsinə əsaslanırdı. O, Zoroastrı bütün şərq fəlsəfəsinin, xaldey təliminin banisi kimi səciyyələndirirdi. Bununla, həqiqətin öyrənilməsində yanlız xristianlığa deyil, müxtəlif şərq təlimlərinə baş vurmağın önəmini irəli çəkirdi. Digər tərəfdən, o, etnik mənsubiyyət əsasında öz etnomədəni sərhədləri, ordusu, milli valyutası olan milli dövlət ideyasını ortaya qoyurdu (**21**).

İspaniyada Əndəlus müsəlman dövlətindən ərəbdilli filosofların təlimləri

İtaliyada və Fransada yayılırdı (İbn Sina-Avisenna, İbn-Rüşd-Averroes). Averoizmin latın davamçıları Brabant Siqer, Dakiyalı Boesiy, Covanni Piko della Mirandola, Raymund Lulliy və digərləri olmuşlar.

Bunlar, Qərbi Avropa üçün, yeni və gözlənilməz hadisələr idi. Sxolastik dünyagörüşünə zidd olan bu təlimlərin Avropaya daxil olması və yayılmasında maraqlı olan protoburjua qüvvələri, bununla sxolastik paradiqmasını ortadan qaldırmaq məqsədini daşıyırdılar.

Georqiy Plifonun qoyduğu irs üzərində məşhur tacir və bankir, ictimai-siyasi xadim Kozimo Mediçi 1462-ci ildə Florensiyada (Kareci) Platon Akademiyasını yaratdı və oranı filosof Marsilio Fiçinonun rəhbərliyi altında neoplatonizmin mərkəzinə çevirdi. Marsilio Fiçino, Georqiy Plifonun varisi idi. Akademiyaya o dövrün zadəganları, diplomaları, tacirləri, məmurları, ilahiyyatçıları, həkimləri, universitet alimləri, şairlər, rəssamlar, keşişlər, Mediçi ailəsinin üzvləri və digərləri cəlb olundu. Akademiyada toplanan filosof və mütəfəkkirlər platonçu, neoplatonçu, qeyri-xristian təlimlərinin tərəfdarları (Hermes Trimegist, Orfey, Zoroastr), okkultist (magiya, astrologiya), panteist və mistiklər kimi tanınırdılar.

Buna paralel olaraq eyni tipli akademiyalar Mediçi ailəsinin himayədarlığı ilə Romada humanist Pomponio Leto (Roma Akademiyası 1468), Neopolda Covanni Pantano tərəfindən açılmışdır. Florensiya Platon Akademiyasının, Roma və Neopol akademiyalarının üzvləri və onların təsiri altında olan şəxslər, Avropada renessans humanizminin əsasını qoydular. Florensiya Platon Akademiyasının tanınmış üzvləri Marsilio Fiçino, Xristoforo Landino, Covanni Piko della Mirandola, Covanni Nezi, Ancelo Polisiano, Naldo Naldi, Sandro Bottiçelli və digərləri idi. Onlar II-III əsrdə yaşayan neoplatonçuların (Porfiriy, Yamvlix, Prokl, Dionisiya Areopaqita) əsərlərini yunancadan latıncaya çevirərək onlardan yararlanırdılar. Lakin, onların görüşləri katolik kilsəsinin aristotelizmə əsaslanan sxolastik görüşlərinə (Akvinli Foma tərəfindən sistemləşdirilən) zidd olduğu üçün, daima kilsə tərəfindən təqib olunurdular. Buna baxmayaraq, Mediçilər ailəsi və digər tanınmış ailələr onları həbslərdən və təqiblərdən xilas edirdilər.

Renessans dünyagörüşü paradiqmasını səciyyələndirən ümumi xüsusiyyətlər:

- ***Antroposentrizm*** - onların fəlsəfi dünyagörüşü idi. Yəni, cismani insan, varlığın əsas meyarı kimi səiyyələndirilirdi. Bu həm kilsənin teosentrizminə, həm də antik fəlsəfənin kosmosentrizminə qarşı qoyulan paradiqma idi. O, insanın mənəvi-etik aspektlərinə deyil, onun cismani-estetik aspektlərinə yönələn, yaradıcı insanı ilahlaşdıran bir sistem idi. Buna görə də, o dövrün rəssamları çılpaq insan rəsmləri ilə, insanın estetik varlığını kult obyektinə çevirirdi. Bu kult, insanın təfəkküründü metafizikadan və kosmosdan ayırıb, sosial varlığa yönəldirdi.

- ***Sosial-fəlsəfi ideyalar*** meydana çıxdı. Onlardan bir qismi utopik (Tomas Mor, T. Kampanella), digər qismi realist nəzəriyyələr idi (Jan Boden, N. Makiavelli). Jan Boden güclü monarxiya dövlətini dəstəkləyirdi. O, sosial münaqişələrin kökünü gəlirlərin qeyri-bərabər şəkildə bölüşdürülməsində, siyasi partiyaların mübarizəsində və dini dözümsüzlükdə görürdü. Buna görə də, vətəndaşların xüsusi mülkiyyət hüququnun və əqidə azadlığının tanınmasını, qul in-

stitutunun ləğv olunmasını vacib hesab edirdi. Makiavelli güclü dövlət-respublika naminə, "dövlət maraqlarını" əxlaqın üstündə görür və vətəndaş azadlığına xüsusi önəm verirdi. Bu yanaşma, dövlətdə kilsənin və onun mənəvi normalarının arxa plana keçməsini təmin edirdi. Bu metafizik-utopist "ilahi şəhər" ideyasına qarşı real "vətəndaş şəhəri" ideyasını qoydu. Plifonun görüşləri isə, etnomədəni əsaslarda milli dövlət ideyalarının təməlini qoyurdu.

- ***Skeptisizm, rasionalizm, individualizm və fərdi təşəbbüskarlığın*** inkişaf etdirilməsini dəstəkləyirdilər (Mişel Monten, Nikolay Kuzanlı və s.).

- ***Həqiqətin meyarı =təcrübə+fayda*** formuluna əsaslanırdı. Sonralar meydana çıxan müasir təbiət elmlərinin metodologiyası buradan qaynaqlanırdı.

- ***Neoplatonçu panteist*** dünyagörüşü aparıcı idi (İoann Skot Eriuqen, Meyster Ekhart, Nikolay Kuzanlı, Cordano Bruno). Panteizmə görə, Xristian Tanrısı təbiət ilə eyniləşir, təbiət isə ilahlaşırdı. Bu yanaşma, yaradılış anlayışını ortadan qaldırırdı. Çünki təbiət, kosmik ruha immanent idi. Tanrı təbiətdə aşkar olduğu üçün, onun təbiətdən kənarda varlığı mövcud deyildir. O zaman, tanrını okkultizm, təbiət elmləri vasitəsilə təbiətin özündə kəşf etmək lazımdır. Əslində, Riçard Dokinzin sözləri ilə desək, panteizm bəzədilmiş ateizmdir (**22**).

- ***"Ümumi din"***konsepsiyasından çıxış edirdilər. Marsilio Fiçino Platonun fikirlərinin xristianlığa daha çox uyğun olduğunu göstərməyə çalışırdı. O, bir neoplatonçu kimi, bütün dinlərin ilahi vəhylərə əsaslandığını, fəlsəfi intellektin isə, onların nurundan nurlandığına əsaslanaraq, sadələşdirilmiş (mərasim və ehkam fərqliliklərindən azad olan) "ümumi din" ideyasından çıxış edirdi (XVI əsrdə Jan Bodenin əsaslandırmaq istədiyi "təbii din" anlayışı buna istinad edirdi). Buna görə də, əksər humanistlər neoplatonizm çərçivəsində müxtəlif təlimləri bir araya gətirməyə çalışırdılar. Nikolay Kuzanlı xristianlıq ilə islamın birbirinə yaxınlaşması ideyasından çıxış edirdi. Sonralar dinlərarası dialoq ideyası da buradan qaynaqlanırdı.

- ***Heliosentrikçilik*** (Günəş sistemi) mövqeyindən çıxış edirdilər. Nikolay Kuzanlı, Cordano Bruno, Qaliley, N. Kopernik.

- ***Ezoterik***(magiya, astrologiya, kabbala, əl-kimya) təlimlər inkişaf etdirilməyə başladı (Marsilio Fiçino, Covanni Piko della Mirandola, Nikolay Kuzanlı, Cordano Bruno və s.).

Göründüyü kimi, İtaliyada protoburjua təbəqə katolik kilsənin Avropada qurduğu ictimai paradiqmaya qarşı alternativ paradiqma yaradırdı. Bunun üçün, antroposentrizm, humanizm, individualizm, rasionalizm, skeptisizm, sekulyarizm, neoplatonizm, şərq dinləri, okkultizm, heliosentrizm, ezoterizm, ümumi din, ilkin milli dövlət ideyaları, praqmatizm kimi yeni ideyaların meydana çıxmasına və inkişaf etməsinə dəstək verirdi. Renessans dövrünün ideyaları İtaliyadan Avropanın bütün hissələrinə yayılırdı.

3. Əndəlus əmirliyi – aydınlığa açılan pəncərə

Danılmaz bir tarixi faktdır ki, İspaniya ərazisində VIII-XV əsrlərdə mövcud olan

Əndəlus xilafəti reconquista hərəkatının (VIII-XV əsrlərdə xristian dövlətlərinin hərbi təcavüzləri) təzyiqlərinə baxmayaraq, X-XI əsrlərdən Pireney yarımadasının elmi-mədəni baxımdan inkişafında əsas rol oynamışdır. Çünki həmin dövrlərdə Müsəlman Şərqində bütün sahələrdə yüksək inkişaf müşahidə olunurdu. Əndəlus, Müsəlman Şərqi ilə Avropa arasında yerləşdiyi üçün, islam mədəniyyətinin bir hissəsi kimi, onun bütün nailiyyətlərini sürətlə mənimsəyirdi. Bu özünü, sürətli şəhərləşmə prosesində (**23**), memarlıq və sənətdə, savadlılıq səviyyəsinin yüksək olmasında, qadınların cəmiyyətdə heç bir sıxıntıya məruz qalmadan sərbəst fəaliyyətində, inkişaf etmiş elm və təhsil müəssisələrində, böyük kitabxanalarda, yaradılan azadfikirlilik mühitində və bir çox məsələlərdə buruzə verirdi. Təsadüfi deyildir ki, burada, İbn Baccə, İbn Tufeyl, İbn Hazm, İbn Tumlus, İbn Ərəbi, İbn Rüşd, Musa b. Meymun (yəhudi), İbn Gebirol (yəhudi) kimi məşhur filosoflar, Əbul Qasım Məcriti (İbn Xəldunun müəllimi), Cabir b. Əflah, İshak əl-Bitruci kimi astronom və riyaziyyatçılar, İbn Vafid, İbn Haccac, İbnul-Baytar, İbn Bassal kimi zooloq və botaniklər, Əbul Qasım Zəhravi, Əbu Mərvan Əbdülməlik b. Zuhr, təbib və kimyaçılar yetişmişdir.

XII əsrdə Tuleytulanın baş keşişi Raymundu Bağdadda olan Beytül-hikməyə bənzər müəssisə yaradıb, bütün elm sahələrinə aid olan ərəbdilli ədəbiyyatı latın dilinə tərcümə etdirdi. XIII əsrdə belə müəssisələrin sayı artdı. Avropalılar bu tərcümələr vasitəsilə yunan filosofları, xüsusilə, Aristotel ilə tanış oldular. İbn Rüşdün fikirləri Avropada böyük maraq doğurdu və yeni yaranmaqda olan universitetlərdə tədris olundu. Yəhudi filosof Musa b. Meymun İbn Rüşdün fikirlərini davam etdirməklə, yəhudi və xristianlar arasında tanındı. Əndəlusda toplanan müsəlman, xristian və yəhudi alim və mütərcimləri, orada yaşayan və təhsil alan insanlar vasitəsilə Pireney yarımadasının digər ərazilərinə yayılırdı. Xüsusilə, İtaliyanın renessans mədəniyyətinin mərkəzinə çevrilməsi də bununla bağlı idi.

Əndəlusdə bütün dinlərin nümayəndələri (müsəlmanlar, yəhudilər, xristianlar), müxtəlif etnik qruplar yaşayırdılar. Onlar, sərbəst şəkildə öz dinlərinə itaət edir və ayrıseçkiliyə məruz qalmırdılar. Çünki tolerant multikultural mühit hökm sürürdü. Ərəb və roman dilləri paralel şəkildə istifadə olunurdu. Bir çox xristian və yəhudi alimləri öz əsərlərinin bir qismini ərəb dilində yazır, digər qismini də öz dillərində (ivrit-ibrani, latın) qələmə alırdılar. Onlar, sərbəst ticarətlə məşğul ola bilirdilər. Çünki burada hər bir vətəndaşın dini kimliyindən asılı olmayaraq, xüsusi mülkiyyət hüququ var idi. Bu mühit, xristianları özünə cəlb edirdi. Bir çox xristianlar (vestqot zadəgan ailələri) bundan təsirlənərək islam dinini qəbul etmişdilər. Çünki onların burada gördükləri inkişaf səviyyəsi, Qərbi Avropada 500-600 ildən sonra (XVIII-XIX əsr) müşahidə olunmağa başladı. Lakin, İtaliya ərazisi yaxın olduğu üçün, orada Yeni Dövrdə müşahidə olunan sistemin əksər elementləri artıq XIV-XV əsrlərdə mövcud idi.

Əndəlusdə yəhudilərə münasibət çox yaxşı idi. Onlar, yüksək vəzifələrdə çalışırdılar (Kordova xəlifəsi III Əbdürəhmanın müşaviri Hasday ibn Şaprut, xəlifənin vəziri Şmuel ha-Naqid və s). Sefard yəhudiləri ərəb dilinə və müsəlman mədəniyyətinə bələd olmaqla yanaşı, latın, ispan, portuqal və digər avropa

dillərinə də bələd idilər. Bu baxımdan, onlar, xristian-müsəlman mədəniyyətləri arasında körpü rolunu oynayırdılar. Müsəlman filosof və alimlərinin əsərlərinin ərəb dilindən latın və ispan dillərinə tərcümə edilməsində və müxtəlif ideyaların Avropaya yayılmasında mühüm rol oynamışlar. Təsadüfi deyildir ki, sefarad yəhudiləri Əndəlus dövrünü yəhudi mədəniyyətinin qızıl dövrü hesab edirdi (**24**).

Lakin, XIII-XV əsrlərdə Əndəlus dövləti, rekonqistlərin hərbi təcavüzləri və kəşfiyyat əməliyyatlarının, daxili siyasi çəkişmələrin nəticəsində zəifləyərək parçalanmışdı. XIII-XIV əsrlərdə Müsəlman Şərqinin monqollar tərəfindən işğal olunması və ənənəvi beynəlxalq ticarət əlaqələrinin çökməsi, onun zəifləməsinin əsas səbəblərindən biri idi. Avropanın Yaxın Şərqə açılan digər qapısı olan Konstantinapolun 1453-cü ildə türklər tərəfindən fəth olunması, Avropa ölkələrinin kollaps durumuna düşməsinə, daxildə iqtisadi gərginliyin artmasına və sosial-siyasi təşvişlərə səbəb olmuşdur. İspaniyada olan müsəlman və yəhudilər nəticədə bu təşvişlərin ilk qurbanına çevrildilər. 1492-ci ildə Əndəlus, rekonqistlər tərəfindən ələ keçirildi. İspan kralı II Araqonlu Ferdinand və onun qadını Katolik İzabella 1492-ci ildə İspaniya, Sardiniya və Sisiliya ərazisində yaşayan bütün müsəlman və yəhudilərə üç ay ərzində katolikliyi qəbul etmək və ya ölkəni tərk etmək barədə qərar verdilər (Qranat edikti). Hərbi təcavüz nəticəsində bütün mədəniyyət abidələri dağıdıldı, Qrenada kitabxanasının bir milyon cilddən çox kitabları yandırıldı.

Məşhur fransız fiziki Pyer Küri bununla bağlı olaraq demişdir: "Müsəlman Əndəlusdən bizə 30 kitab qaldı və biz atomu parçalaya bildik. Əgər yandırılan bir milyon kitabın yarısı qalsaydı, çoxdan kosmosda qalaktiklərarası səfərə çıxardıq." (**25**).

4. Yəhudilər – mədəniyyətlərarası körpü

İspan kralı II Araqonlu Ferdinandın təcavüzü nəticəsində Əndəlus müsəlmanları və yəhudilərinin bir çoxu ölkəni tərk etmək məcburiyyətində qaldılar. Xristianlığı formal olaraq qəbul edən bir qrup yəhudilər (marran) və müsəlmanlar (morisko) təqiblərə məruz qalırdılar. Çünki katoliklər, onların formal xristian olduqlarını və öz dinlərini gizli şəkildə yaşadıqlarını iddia edirdilər. Buna görə də, onların çox az hissəsi istisna olmaqla (orada qalanlar sürətlə assimlyasiya oldular), İspaniya ərazisini tərk etdilər. Müsəlmanlar Yaxın Şərq, Afrika, Kiçik Asiya ərazilərinə miqrasiya etdilər. Yəhudilər isə, Portuqaliya (1506-cı ildə yəhudilər katoliklərin Lissabon soyqırımına məruz qalaraq oranı da tərk etməli oldular), İtaliya (Venesiya, Genuya) və Afrikanın şimal bölgələrinə, Antverpen liman şəhərinə (Belgiya), Osmanlı ərazisinə (İstanbul, İzmir, Edirnə), Şimali Amerikaya sığındılar.

Yəhudilərin İspaniya və sonra Portuqaliyanı tərk etmələri, əslində, həmin ölkələr üçün böyük itki idi. Çünki onlar, mədəniyyətlərarası əlaqələndirmə funksiyasını yerinə yetirməyi bacaran, ticarət, maliyyə və sələmçiliklə məşğul olmaqla böyük sərvətlərə malik olan, diasporalarının dünyaya geniş yayılması

ilə bağlı geniş əlaqələr və kəşfiyyat məlumatları əldə edən, siyasət, elm, idarəetmə sahəsində böyük bilik və təcrübələr toplayan, etnik və dini kimlikləri birbirini tamamlayan mütəşəkkil bir xalq idi. Onlar, bu baxımdan, qədim finikiyalılara daha çox bənzəyirdilər.

Avropanın katolik kilsəsinin güclü olduğu başqa yerlərində məskunlaşmaq yəhudilər üçün təhlükəli idi. Çünki Qədim Roma və onun varisi qismində iştirak edən katolik kilsə dini və irqi zəmində daima yəhudilərə qarşı antisemitizm siyasəti aparmış, onların avropa ərazisində məskunlaşmasının qarşısını almış, əksəriyyəti katolik olan avropalıların şüurunda belə bir stereotip yaratmışdır ki, yəhudilər Tanrı İsanın qatili (Yəhudanın ona xəyanət etdiyini və yəhudilərin onu öldürdüklərini) və Kainin (Hz. Adəmin xain oğlu Qabilin) varisləridir. Yəhudilərin də katolik kilsəsinə düşmənçiliyi ispan və portuqal yəhudi soyqırımları ilə məhdudlaşmırdı. Əslində, yəhudilərin bütün dünyaya dağılmasının əsas səbəbi, Qədim Roma imperiyasının İkinci Yerusəlim məbədini dağıtması olmuşdur.

Katoliklərdən fərqli olaraq, protestantların yəhudilərə münasibəti müsbət idi. Çünki katolik kilsəsi, onların hər ikisinin düşməni idi. 1580-ci ildə qəbul edilən "razılaşma formulu"na (1555-ci ildə Auqsburq dini sülh müqaviləsi əsasında) görə, Germaniya və Skandinaviyanın bir çox şəhər və knyazlıqlarında lüteranlar öz dini inanclarını sərbəst yaşamaq imkanları əldə etmişdilər. Lakin, yəhudilərin onlar arasında məskunlaşması çətin idi. Çünki, yəhudiləri "müqəddəs üçlüyü" tanımadıqları üçün ittiham edən Martin Lüter və onun davamçıları (lüteranlar) yəhudilərə münasibətdə katoliklərdən az fərqlənirdilər. Ancaq, digər protestant qolları onlara daha tolerant yanaşırdılar. Digər tərəfdən, lüteranlar müstəqil dövlət yaratmadıqları üçün, katolik kilsəsinə bağlı hakimiyyətin təzyiqi altında idilər.

Avropa ərazisinin müxtəlif yerlərinə gizli şəkildə sığınan yəhudilər üçün, XVI əsrin sonlarında ən əlverişli yer Niderlandın şimalındakı Amsterdam şəhəri idi. Çünki burada 1581-ci ildə ispan müstəmləkəçiliyinə qarşı qalxan xalq, I Vilhelm Oranskinin rəhbərliyi ilə müstəqillik qazanmışdır. Bu ərazidə protestantların öz əqidəsini sərbəst yaşaması üçün əlverişli şərait yaranmışdır. Çünki alman mənşəli I Vilhelm Oranski bir lüteran kimi vəftiz olunsa da, sonralar kalvinizmə meyl etmişdir. Bu, həm Avropadakı protestantların, həm də yəhudilərin buraya və Niderlandın qonşu ərazilərinə toplanmasına səbəb oldu.

5. XVII əsr Hollandiya "qızıl əsri"nin sirləri

Niderlandda yəhudilərlə yanaşı, protestantların ictimai mülkiyyəti (həmçinin, qadınların ümumi olmasını) və poliqamiyanı dəstəkləyən anabaptist təriqətinin mennonit qolu geniş yayılmışdı. Bu təriqətin qutterit qolu Çexiya ərazisinə yerləşmişdir. Anabaptizm təriqəti isə, lüteranlığın bazasında formalaşan svinqlianlıq təriqəti ilə yaxın əlaqələri var idi. Mennonitlər 1535-ci ildə katoliklərin onlara qarşı törətdikləri qanlı Münser hadisələrindən sonra Niderlandda sığınmışdılar. XVII əsrdə İngiltərədə meydana çıxan independent təriqəti ilə anabap-

tistlərin, mennonitlərin esxotoloji baxışları (İsanın minillik ilahi səltənətinin, "5-ci monarxiyanın" gələcəyinə inanırlar) üst-üstə düşürdü.

Onlar, ifrat pasifist (müharibəyə, əsgərliyə qarşı) olduqları üçün, yerli hakimiyyətin narazılığına səbəb olurdular. Çünki I Vilhelm Oranski ölkəni qorumaq üçün katolik İspaniya ilə müharibə edirdi. Bu savaş, 80 il (1568-1648) davam etdi. Buna görə də, onlar, savaşlar zamanı yaşadıqları ölkələri tərk edərək başqa yerlərə köçürdülər. Yəhudilər də azsaylı xalq olduğu üçün, savaşa meyilli deyildilər.

Müharibədə həlledici amillərdən biri maliyyədir. Çünki onu əldə etdikdən sonra, muzdlu döyüşçülərdən də istifadə etmək mümkün idi. Həm də, yerli hollandlar I Vilhelmin müstəqillik mübarizəsi ətrafında sıx birləşmişdi. Lakin, Amsterdamda bankir və tacirlərdən ibarət oliqarx bir sinif formalaşmışdı. Onlar dövlətin müxtəlif təbəqələrində təmsil olunur və istənilən qanunun qəbulu və ləğvi ilə bağlı qərar verə bilirdilər. I Vilhelm Oranski özü onlardan asılı duruma düşmüşdür. I Vilhelm İspaniya ilə savaşdığı üçün, onların maliyyə dəstəyinə daha çox arxalanırdı. Bu isə, oliqarxların sarayda hakimiyyətini daha da gücləndirirdi. Buna görə də, I Vilhelmin xalq arasında hörmətini tədricən itirir, yerli zadəgan və knyazların narahatçılığına səbəb olurdu.

XVII əsr, Niderlandın qızıl dövrü kimi səciyyələndirilir. Çünki bu dövrdə Niderland müstəqil respublika elan edilmiş (1588), ticarət, elm və sənət inkişaf etmiş, dini azadlıq tətbiq olunmuş, ətrafdan ora güclü miqrasiyalar olmuş, Leyden universiteti yaranmış (1575) və o, Avropa elminin, təhsilinin mərkəzinə çevrilmiş, 1602-ci ildə dünyada ilk səhmdar və transmilli Holland Ost-İnd Şirkəti qurulmuşdur. Əslində, Qərbi Avropada ilk milli dövlət və milli inkişaf ideyalarının təməli Niderland ərazisində qoyulmuşdur.

Qərbi Avropada ilk milli dövlət və milli inkişafın təməlinin Niderlanddan başlaması nə ilə bağlı idi?

XVII əsrdə Niderlandın qızıl dövrünü yaşaması təsadüfi deyildi. Məlum olur ki, XVI-XVII əsrlərdə Niderland insan və maliyyə kapitalının bir araya gəldiyi ərazi olmuşdur. I Vilhelm Oranskinin hakimiyyətdə güclənən oliqarxlardan asılı olması və ölkənin həmin güclər tərəfindən idarə olunması bir reallıq idi. K. Marks Niderlandın qızıl dövrünü "XVII əsrin nümunəvi kapitalist ölkəsi" kimi səciyyələndirir və manufakturaların, gəmiqayırmanın, parça istehsalının yüksək səviyyəyə çatdığını, burada olan kapitalın bütün Avropada olan kapitaldan çox olduğunu bildirir (26). Onlar dünya ticarətində birinci yerə çıxır və Şərq-Qərb ölkələri arasında ticarət əlaqələrini quran nəhəng beynəlxalq subyektə çevrilir. O, Fransa və Germaniyanın xarici ticarətinin böyük hissəsini öz əlində saxlayır. Amsterdamda 1609-cu ildə bank yaradılır və bu şəhər, qiymətli kağızlar üzrə birja mərkəzinə çevrilir.

Bəs, Niderlandı idarə edən o güclər kim idi?

Fransız tarixçisi F. Brodel "Kapitalizmin dinamikası" əsərində yazır: "Kapitalizmin inkişafının ilk böyük mərhələsində İtaliyanın Venesiya, Genuya, Florensiya kimi şəhər-dövlətlərində hakimiyyət pul elitasının əlində idi. XVII əsr-

də Hollandiyada zadəganlar ölkəni iş adamları, tacirlər və böyük maliyyəçilərin maraqları, hətta, onların göstərişi əsasında idarə edirdilər. İngiltərədə, 1688-ci il inqilabından sonra, hakimiyyət Hollandiyaya bənzər bir vəziyyət aldı. Fransa bir əsrdən çox gecikdi: 1830-cu ilin iyul inqilabından sonra burjuaziya nəhayət əminliklə hakimiyyəti öz əlinə keçirir."

F. Brodelin "iş adamları, tacirlər və böyük maliyyəçilər" kimi səciyyələndirdiyi burjuaziyanın Hollandiyaya İtaliya ərazisindən gəldiyi göstərilir. Lakin, o, İspanya və Portuqaliyadan gələn yəhudilərin adını çəkmir. Əslində, Hollandiya burjuaziyası, İspanya və Portuqaliyadan gələn yəhudilərdən, İtaliya ərazisindən gələn burjuaziya nümayəndələrindən (onlar arasında da yəhudilər var idi) təşkil olunmuşdur.

Biz, yəhudilərin böyük qisminin İspanya və Portuqaliyadan sonra Niderland ərazisinə, xüsusilə, Amsterdama sığındıqlarını bilirik. Onlar arasında zəngin, bilikli və təcrübəli insanlar kifayət qədər olmuşdur. Təbii ki, yəhudilər, yaranmış əlverişli azad mühitdən yararlanaraq ölkənin inkişafında mühüm rol oynamışlar. Onlar, bank və ticarət işlərində səriştəli olduqları üçün, bu sahədə önəmli yerləri öz əllərində saxlayırdılar. Bu baxımdan, Niderlandın siyasi və iqtisadi həyatında aparıcı rol oynayan oliqarxlar arasında onların sayı çox idi. Onlar arasında məşhur Barux, Lopes Suasso (İsaak İsrael), Pereyra (Abendan), Pinto, Mokatta, Qumpers, Rafael ailələri var idi. Onlar XVI əsrdə London, Antverpen, Bordo və digər şəhərlərdə məskunlaşmış və XVII əsrdə multikultural mühitin yaranması ilə bağlı olaraq Amsterdama köçmüşlər. Lopes Suasso Amsterdamın ən böyük vergi ödəyici kimi böyük nüfuz sahibi idi. İspaniya kralı II Karl ona irsi baron rütbəsi vermişdir. Holland Ost-İnd şirkətində onun və digər yəhudilərin səhmləri çox idi. O, bankir Pinto ailəsi ilə qohum olmuşdu. Pinto ailəsi Holland Ost-İnd şirkətini idarə edənlərdən, Şimali və Cənubi Amerikada iş görən, Niderlandın büdcəsinin zənginləşməsini təmin edən yəhudi ailələrindən biri idi. Hollandiyada aşkenaz yəhudiləri XVIII əsrdən başlayaraq fəallaşdılar. Bank işləri ilə məşğul olan məşhur aşkenaz yəhudilərinə Koen, Qoldsmit, Bişofşaym, Salamon ailələri aid idi. Onlar, Amsterdamda bir neçə bank qurmuş və Holland Ost-İnd şirkətinin idarə heyətində olmuşlar.

Yəhudilərlə yanaşı, Hollandiyada holland protestantlardan olan, bank və maliyyə işləri ilə məşğul olan burjuaziya da mövcud idi. Sillem, Borski, Van Loon, Van Lanşot, Pirson, Miz ailələri buna misal göstərilə bilər. Onlar güclənmək üçün, bir-biri ilə qohumluq əlaqələri qururdular. Onların Britaniyadan olan və Hollandiyada fəaliyyət göstərən məşhur Berinq, Houp (şotland), Klifford ailələri ilə də əlaqələri var idi. Onlar, gəmi sənayesi, kölə alveri, Amerikaya emiqrasiyanın təşkil olunması, müstəmləkə malları və almaz ticarəti, sənət əsərlərinin satışı ilə məşğul olurdular. Houp ailəsinin Rusiya ilə fəal əlaqələrinə görə, II Yekatrina bankir Henri Houpa dvoryan titulu vermiş, lakin, o, bundan imtina etmişdir.

İtaliyadan gələn burjuaziyanın nümayəndələri də Hollandiyada fəaliyyət göstərirdilər. Florensiyalı zadəgan ailəsi Strossilərin Hollandiyada banklarının fili-

alları açılmışdır (27, 56). Venesiya, Genuya oliqarxları Hollandiyanın bütün sahələrinə sirayət etmişdilər. Bütün Avropa Hollandiyanın müstəqilliyinə qarşı çıxdığı halda, 1619-cu ildə Venesiya onun müstəqilliyini tanımış və onun dövlətçiyinin qurulmasında birbaşa iştirak etmişdir. 1618-ci ildə başlayan 30 illik müharibənin Venesiya hərbi strateqləri tərəfindən ortaya qoyulduğu söylənilir. Çünki onlar İspaniya kralı ilə öz gəlirlərini bölüşdürmək istəmirdilər. Buna görə də, onlar, katolik kilsəsinə və onun təsiri altında olan İspan krallığına qarşı olan protestantları maliyyələşdirmək və onları bir-biri ilə toqquşdurmaqda maraqlı idilər.

Tanınmış tədqiqatçı A. Onopriyenko yazır: "Venesiya kapitalı atlantik ticarətinə rahat daxil olmaq üçün, yeni bir ada ərazisinə keçmək məcburiyyətində idi. Ticarət şəhər-respublikaları strategiyalarının davamı, yeni fəaliyyət teatrı olan Hollandiyada toqquşdu... XVI əsrin ikinci yarısından Hollandiyanın şimalına yeni əməliyyatlar axtaran Venesiya kapitalı daxil oldu. Orada yəhudi və Venesiya kapitalları İspan tacının çətiri altında Hollandiya ticarət və sənaye pulları ilə tikilmiş bir evdə"evləndilər". Venesiya kapitalları, böyük kapital ittifaqına dəniz ticarətinin inhisarlaşması və qitə zadəganlarının manipulyasiyasını təmin edən çoxəsrlik ada strategiyasını gətirdi." (**28**).

Hollandiya burjuaziyasının ticarət və bank fəaliyyətləri Avropanın bir çox ölkələrini, Amerika və Asiya ölkələrini əhatə edirdi. Hollandiyada yeni avroatlantik layihənin əsası qoyulurdu. Çünki Aralıq Dənizi ticarət loqistikası layihəsi iflasa uğramışdır. Yeni layihədə İspanya və Portuqaliyadan gələn yəhudilər, holland, şotland və ingilis mənşəli protestant bankir və tacirlər fəal iştirak edirdilər. Holland Ost-İnd şirkəti yeni burjuaziyanın maraqlarını bir araya gətirirdi. Tədqiqatçılar İtaliyadan gələn burjuaziyanın bu prosesdə aparıcı rol oynadığını və ilkin kapitalizmin İtaliyanın Venesiya, Genuya, Florensiya kimi şəhər-dövlətlərində formalaşdığını bildirirlər. O zaman, XVII əsr Hollandiya fenomeninin kökünü bu şəhər-dövlətlərdə axtarmaq doğru olardı.

6. İngiltərə - transmilli burjuaziyanın yeni avroatlantik mərkəzi

Hollandiyanın ərazisi müxtəlif dövlətlərlə sərhəd olduğu üçün, daima müharibələr meydanına çevrilirdi. Xüsusilə, burjuaziyanın burada qələbə çalması, onun Avropanın nəhəng dövlətlərinin hədəfinə çevrilməsinə səbəb olurdu. Bu baxımdan, burjuaziya, bütün resurslarını burada yerləşdirməkdən ehtiyat edirdi. Bunun üçün, daha təhlükəsiz və dünya sularına, avroatlantik məkana çıxışı olan yeni bir əraziyə sığınmaq lazım idi. Bunun üçün ən əlverişli məkan, ada ölkəsi olan İngiltərə idi.

Bura yerləşmək bir tərəfdən asan, digər tərəfdən çətin idi. Ona görə asan idi ki, burjua təbəqəsinin əlindəki böyük sərvətlər istənilən dövlət üçün yararlı idi. Ona görə çətin idi ki, burjua təbəqəsinin sərvətləri ilə yanaşı, böyük əlaqələri, kəşfiyyat məlumatları, zəngin idarətmə təcrübələri və gücləri vardı. Təbii ki, onlar, bu imkanları ilə məskunlaşdıqları dövlətdə tezliklə hakimiyyəti özlərindən asılı vəziyyətə salacaq və sonra onu ələ keçirəcəkdilər (Niderlandda olduğu

kimi). Buna görə də, İngiltərə hakimiyyəti buna razı olmadı. Lakin, transmilli burjuaziya artıq öz hədəfini seçmişdi və ona nail olmaq üçün bütün imkanlarını işə salmışdı. Bunun üçün, ən əlverişli imkan, İngiltərədən təqib olunaraq Hollandiyaya sığınan protestantlar və onların İngiltərədə fəaliyyət göstərən tərəfdarları, eyni zamanda, parlamentdə (əksəriyyət presviterian və independent puritan deputatlardan ibarət idi) və hökumətdə yerləşən 5-ci kolon vasitəsilə hakimiyyətə qarşı qiyamlar təşkil etmək və orada hakimiyyət dəyişikliyinə nail olmaq planı işlənib hazırlandı. İngiltərədə Stüart kral ailəsinə qarşı inqilab təşkil olunmalı və inqilabın lideri Oliver Kromvel olmalı idi.

Oliver Kromvel – protestant-puritan ailəsində doğulmuşdur. O, ingilis reformasiyasının və anqlikan kilsəsinin əsasını qoyan ictimai xadim Tomas Kromvelin həm genetik, həm də ideoloji varisi idi. O, puritanların independent qolunun lideri idi. Oliver Kromvel həm də bir hərbçi və bir sərkərdə kimi məşhurlaşmışdı. O, İngiltərədə kral hakimiyyətinə qarşı başlayan və daxildə bir çox qrupların (anqlikanlar, katoliklər, ingilis puritanlar və şotland puritanlarının) və etnik qrupların (ingilislər, valliylər, şotlandlar, irlandlar) bir-biri ilə toqquşması ilə nəticələnən vətəndaş müharibəsində antiroyalist parlament ordusuna rəhbərlik etdi. 1642-ci ildə başlayan vətəndaş müharibəsi 1645-ci ildə Oliver Kromvelin qələbəsi ilə bitdi. 1649-cu ilə qədər kral tərəfdarları ilə inqilabçılar arasında münaqişələr davam etdi və 1649-cu ildə Oliver Kromvel tam qələbə əldə edərək I Karlı edam etdirdi və həmin ilin may ayında monarxiyanın bitdiyi və respublikanın qurulduğu elan edildi. K. Marks, bunu "İngiltərə burjua inqilabı" kimi səciyyələndirdi.

İngiltərə burjua inqilabından sonra hakimiyyət Oliver Kromvelin əlində səfərbər olundu. O, kilsənin və kralın inhisarında olan bütün sahələri ləğv etdi. Yalnız, Ost-Hind Şirkətinə toxunulmadı. Ölkədə ticarət, sahibkarlıq fəaliyyətləri üçün yeni imkanlar açıldı. Anqlikan kilsəsi, digər dinlər ilə eyni statusa endirildi.

1660-cı ildə parlament monarxiyanı yenidən bərpa etmək və II Karlı hakimiyyətə dəvət etmək barədə qərar çıxarsa da, bu uzun çəkmədi. 1688-ci ildə şanlı inqilab nəticəsində parlament kral II Yakovun hakimiyyətini ləğv edir və Hollandiya kralı Oranlı Vilhelm İngiltərə kralı təyin olunur (O, I Karlın nəvəsi idi). Beləliklə, Hollandiyada bir araya gələn burjuaziya üçün, İngiltərəyə qapılar açılır.

Deməli, İspanya və Portuqaliyadan katolik kilsənin rəhbərliyi ilə qovulan yəhudilər, həmçinin, İtaliyanın Venesiya, Genuya şəhərlərindən gələn burjua təbəqəsi Amsterdamda protestantlarla əlaqəyə girərək güclü bir transmilli birlik yaratmış və İngiltərədə katolikliyə meyilli Stüartlar sülaləsini ortadan qaldıraraq protestantların lideri III Vilhelmi taxta çıxarmışlar. Bununla, İngiltərədə hakimiyyət yəhudi-protestant birliyinin, transmilli hökumətin və transmilli şirkətlərin (Ost-Hind Şirkəti) əlinə keçmişdi. Bu hadisələr, Avropada Yeni Dövrün başlanğıcını qoydu.

***

Yəhudilər İngiltərəyə necə yerləşdilər?

Yəhudilər, Amsterdamda icma şəklində sərbəst yaşayaraq, bank-sələmçilik, ticarət işləri ilə məşğul oldular və kral Oranski sülaləsi ilə yaxın əlaqələr quraraq Yaxın Şərq və Cənubi Amerika ilə ticarət əlaqələrini genişləndirdilər. Onlar, 1621-ci ildə Holland Vest-İnd şirkətinin qurulmasında və idarə olunmasında yaxından iştirak etdilər. Avropada XVII əsrin ilk rübündən başlayan 30 illik müharibə nəticəsində Polşa və digər Avropa ölkələri ərazində yaşayan aşkenaz yəhudiləri də Niderland ərazisinə miqrasiya etdilər. Yəhudilər tədricən Niderlandın ticarət və maliyyə işlərini öz əllərinə aldılar. Lakin, aşkenaz və sefard yəhudiləri burada da bir araya gəlmədilər.

Yəhudilərin lideri Menaşe ben İsrael yəhudilərin İngiltərəyə yerləşməsi üçün Oliver Kromvel ilə danışıqlar aparırdı. Menaşe ben İsrael 1644-cü ildə Venesiya məktəbinin yetirməsi hesab olunan kabbalist, saray maqı, astroloq və kəşfiyyatçı, şotland əsilli Con Düri ilə tanış olur. Sefard yəhudilərin (29) İngiltərə dərin dövləti və puritanlarla yaxın əlaqələrə girmələri, onların həyatında yeni bir səhifənin açılmasına şərait yaratdı.

Spinozanın müəllimlərindən olan Menaşe ben İsrael ilahiyyatçı və mütəfəkkir kimi tanınmışdır. O, XVII əsrdə yəhudilərin İngiltərəyə qayıtmasını təmin etmişdir. O, bir kabbalist kimi yəhudilərin bütün dünya ölkələrinə yayıldıqdan sonra İsrail dövlətini qurmaq üçün messiyanın (Tövrata görə, Davud peyğəmbərin soyundan olan sonuncu xilaskar peyğəmbərin) gələcəyinə inanırdı. Avropa ölkələrinin əksəriyyəti yəhudilərə sığınacaq verməк istəmirdilər. Bunun üçün, onları buna razı salmaq lazım idi. Onun messiya və Cənubi Amerika hindularının yəhudi mənşəli olması ilə bağlı fikirləri ingilis puritanlarının diqqətini çəkmişdi. Menaşe ben İsrael, beləliklə, ingilis puritanlarla müəyyən əlaqələr yarada bilir. Onun ingilis parlamentinə gördərdiyi məktub müəyyən müzakirələrə yol açır. Bəziləri hesab edir ki, İsraili qurmaq üçün messiyanın gələcəyinə inanan yəhudilər ilk öncə xristianlığı qəbul etməlidirlər (**30**).

Oliver Kromvel yəhudilərin ölkəyə daxil olmasını maddi, yaxın Şərq ölkələri ilə ticarət əlaqələri və kəşfiyyatda istifadə baxımdan sərfəli hesab etdiyi üçün, 1653-cü ildə bir qrup yəhudi-marranı ölkəyə qəbul etdi. Onların İngiltərəyə daxil olmasına şərait yaradanlardan biri XIII əsrdən İngiltərədə məşkunlaşan yəhudi-marran Antonio Fernandes de Karvalhal (Avraam İsrael) ailəsi idi. O, parlamentə maddi dəstək verir və həm də, öz kəşfiyyat şəbəkəsi ilə royalistlərin İspaniya, Portuqaliya ilə əlaqələri barədə məlumat toplayırdı (**31**).

Yəhudilər Oliver Kromvelin vaxtında İngiltərədə öz sinaqoqlarını tikdilər, icma hüquqlarını bərpa etdilər və ticarət-maliyyə işləri ilə məşğul oldular. Kromvelin yəhudilərə münasibəti o qədər müsbət idi ki, yəhudilər onu özlərinin maşyahı (messiya) hesab edirdilər. Çünki 1290-cı ildə yəhudiləri ölkədən sələmçilik və irqçilik zəminində kənarlaşdıran (Polşaya yerləşdirən) İngiltərə kralı I Edvarddan fərqli olaraq, Kromvel, əksər ingilislərin etirazına baxmayaraq, yəhudiləri İngiltərəyə yerləşdirərək, onlara böyük imkanlar yaratdı. Kromvelin vəfatından 3 il sonra İngiltərə hakimiyyətinə onun tərəfindən qətl

edilən I Karlın oğlu II Karl Stüart gəldi. O, atasının qisasını Kromveldən almaq üçün, onu qəbirdən çıxarıb boynunu vurdurdu və cəsədini meydanlarda dolaşdırdı. Lakin, II Karl yəhudilərə toxunmadı, əksinə, onların ölkəyə yerləşməsinə şərait yaratdı. Çünki onlar, kralın maliyyə məsələlərini idarə edirdilər. Amsterdamda olan yəhudilər və protestantlar isə, Holland kralı Vilhelm Oranskinin İngiltərəyə hücumunu, Fransaya sığınan sonuncu Stüart kralı II Yakova qarşı təzyiqlərini maliyyələşdirirdilər. Nəticədə, İngiltərədə Stüartlar sülaləsinin hakimiyyəti, Holland kralı Vilhelm Oranskinin qələbəsi ilə başa çatdı. Yəhudi bankiri Suassonun maliyyə dəstəyi ilə İngiltərə kralı olan III Vilhelm, II Yakovun qızı II Mariya Stüart ilə evlənərək taxta sahib çıxdı. 1688-ci ildə baş verən bu hadisə, tarixə şanlı inqilab kimi düşdü. III Vilhelm 1696-cı ildə yəhudi bankirlərə (Suasso, Pereyra) İngiltərə bankını yaratmaq imkanı verdi (daha əvvəl Amsterdamda yaratmışdılar). Beləliklə, yəhudilər tədricən Qərbi Avropa ölkələrində özlərinə yer etdilər və orada bank sistemlərini qurdular (Qoldsmit, Aaron Bencamin, Mokatto). Aşkenaz yəhudiləri Hollandiyadan İngiltərəyə XVIII əsrdə köç etdilər və onlar da burada öz bank sistemlərini yaratdılar (Koenlər, Rotşildlər, Montefior və s.) (**32**).

7. Yeni Dövr fəlsəfəsinin təməlini qoyan filosoflar

Yeni Dövr fəlsəfəsinin təməlini qoyan filosoflardan biri ***Barux Spinoza*** (latınca - Benediktus de Spinoza) 1632-ci ildə Amsterdamda vaxtilə Potuqaliyadan qovulan tacir sefard-yəhudi ailəsində doğulmuşdu. O, digər sefard yəhudiləri kimi kiçik yaşlarından dini təhsil almış, yəhudi, müsəlman və latındilli filosofların əsərləri ilə tanış olmuşdur. Onun ilk müəllimləri (haham İsaak Aboab da-Fonseka, ravvin Saul Moyteyra və Menaşe ben İsrael) kabbalist olmuşdur. Spinozanın sinif yoldaşı Moisey Zakuto sonralar Venesiya və Mantuedə nəzəri-kabbala məktəbinin yaradıcı idi. Bunlar onu göstərir ki, Spinozanın ilk təhsilini əsasən yəhudi ilahiyyatı və kabbala təlimi təşkil etmişdir. Spinozanın oxuduğu kitablar daha çox Müsəlman Şərq mədəniyyətini təmsil edən yəhudi ilahiyyatçıları, kabbalistləri, filosof və alimlərinin əsərləri (Avraam inb Ezra, Maymonid, Xasday Kreskas, kabbalist Avraam Koqen Errer, Qersonid, neoplatonik Yəhud Abrabanel), həmçinin, müsəlman müəlliflərin kitabları idi (İnb Sina, İbn Rüşd, Fərabi).

Spinoza da Amsterdamda olan protestantlar (kolleqiantlar təriqəti) ilə əlaqələr qurmuşdur. Onun bu hərəkəti, dindar yəhudi icmasını qəzəbləndirir. Ola bilsin ki, onun protestantlarla yaxınlığı, yəhudilik ehkamları ilə bağlı fərqli baxışlarının formalaşmasına təsir etmişdir. Buna görə də, o, 1656-cı ildə yəhudi-sefard icmasından təcrid olunur (herem). Öz payını qardaşına sataraq ailəsini tərk edir (o zaman atası və anası da vəfat etmişdilər). O, Enden kollejinə daxil olur və burada bir qədər fərqli biliklər əldə edir. Yunan və latın dillərini öyrənir, Qobbs, Dekart, Qassendi, Makiavelli, Brunonun əsərləri ilə tanış olur. Onun bu fəaliyyəti yəhudi icmasını daha da qəzəbləndirir və o, Amsterdamı tərk edərək yaxınlıqda olan və kolleqiantlar təriqətinin mərkəzi olan Reinsburq kəndinə yerləşir (Leyden yaxınlığında). O, kolleqiantlar təriqəti (**33**) ilə yaxın

əlaqələr qurur. Kolleqiantlar təriqəti – protestantlığın əsasən İngiltərədə yayılan və puritanlardan ayrılan İndependent cərəyanının (Robert Broun) Arminian fraksiyası idi. İndependent cərəyanının lideri İngiltərədə inqilabın başında dayanan Oliver Kromvel idi. Onların böyük bir hissəsi Hollandiyaya köçmüşlər.

Spinozanın kolleqiantlar təriqətində nüfuzu böyük olmuşdur. O, öz geniş bilikləri ilə ətrafının diqqətini özünə cəlb edə bilirdi. 1661-ci ildə London kral elmi cəmiyyətinin (1660 ildə yaradılan) sədrlərindən olan Henri Oldenberq onu ziyarət edir və onların əlaqələri formalaşır. 1663-də Haaqa yaxınlığına köçür və burada London kral elmi cəmiyyətinin bir çox üzvləri (Xristian Qyüqens) ilə görüşür. 1670-ci ildə nəşr etdirdiyi "Teoloji-siyasi traktat" əsərinə ateist damğası vurulur və o, təqib olunmağa başlayır. Buna görə, o, Haaqaya köçür və orada yaşayır. Orada Qotfrid Leybnis ilə tanış olur. Ona Heydelberq universitetində müəllimlik təklif olunsa da, bundan imtina edir. 1677-ci ildə vəfat edir və vəfatından sonra bütün əsərləri qadağan olunur. O, sonralar öz əsərlərini latın, ivrit, italyan, fransız, ispan, portuqal dillərində qələmə almışdır.

Spinozanın panteist görüşləri neoplatonizm fəlsəfəsinə əsaslanırdı. Renessans dövrünün filosoflarının əksəriyyəti panteist idi. Spinoza onların baxışlarını daha sistemli və konseptual şəkildə təqdim etməyi bacardı. Panteizmin ideyalarının yayılması burjua təbəqəsənin maraqlarına xidmət edirdi. Bunu, Florensiyada Mediçilər ailəsi tərəfindən panteizmin əsas mərkəzlərindən olan Platon Akademiyasının açılmasında və üzvlərinin maddi himayə olunmasında fəal iştirakında müşahidə etmək mümkün idi. Çünki panteizm bütün dinləri ortadan qaldırır, onları ilahlaşdırılan təbiətə itaət etməyə, ezoterik biliklərlə onun sirlərinə bələd olmağa şərait yaradırdı. Bu cür baxışlar, yəhudilər üçün vacib idi. Çünki onlar, Avropada dini diskriminasiyaya məruz qalan və bundan ən çox əziyyət çəkən əhali qrupu idilər. Eynilə, burjua təbəqəsi də, katolik kilsənin sosial-mədəni inhisarını ortadan qaldırmaqla, sekulyar cəmiyyətdə daha rahat öz siyasi-iqtisadi məqsədlərinə çata bilərdilər. Həmçinin, panteizm təlimi, ateizm və materializmə əsaslanan yeni qlobal bir dinin layihəsi idi. Renessans dövrünün mütəfəkkirləri də bu ümumi dindən geniş bəhs edirdilər.

***

Yeni Dövrün siyasi fəlsəfəsi, iki məşhur ingilis filosofu ***Tomas Qobbs və Con Lokk*** arasında gedən polemika ilə başlayır. Ölkədə yaranmış vətəndaş müharibəsi, optimal çıxış yolunun düşünülməsini zəruri edirdi. Kromvel tərəfindən təqib olunan royalistlərlə (Stüart krallığını dəstəkləyənlər) birgə Parisə sığınan və sonra onları tərk edərək Londona qayıdan Tomas Qobbs, vətəndaş müharibəsinin gətirdiyi anarxiyanın səbəbini insanın təbii anarxist təbiəti ilə əlaqələndirir və cəmiyyəti, insanı bu təhlükədən qorumağın yeganə rasional yolunun (ictimai müqavilə əsasında) süveren monarxiya dövlətinin (Leviafan) qurulmasında, dinin dövlətə tabe olmasında və onun hakimiyyətin alətinə çevrilməsində olduğunu bildirirdi.

Siyasi liberalizm nəzəriyyəsinin banilərindən olan Con Lokk, Kromvelin cəhbəsində olan mütəfəkkirlərdən olmuşdur. O, "Məxfi Şura"nın üvzlərindən

olan lord Entoni Eşlinin oğlunun müəllimi və həkimi olmuş, onun vasitəsilə siyasətə cəlb olunaraq, 1669-cu ildən Kral Cəmiyyəti Şurasının üzvü seçilmiş, sonra daha yüksək vəzifələrdə olmuşdur. Stüart II Yakov hakimiyyətə gələndə, lord Eşli ilə birlikdə Hollandiyaya sığınmış və inqilabdan sonra hakimiyyətə gələn Niderland kralı Vilhelm Oranskinin hakimiyyəti dövründə İngiltərəyə qayıtmışdır. O, "1688-ci il şərəfli inqilabı barədə düşüncələr" əsərində Vilhelm Oranskinin hakimiyyətə gəlməsini ingilis xalqının azadlığının və azad iradəsinin gerçəkləşməsi kimi dəyərləndirmişdir (**34**).

Con Lokkun"Məxfi Şura"nın üvzlərindən olan lord Entoni Eşlinin yaxın adamlarından olduğunu nəzərə alsaq, onun dərin dövlət sirlərini bilən bir şəxs olduğunu iddia edə bilərik. O, məhz bu mühitdə ilkin liberal ideyalarla tanış ola bilərdi. Çünki katolik və şotland əsilli olan Stüartların hakimiyyətinə alternativ layihə gətirmək lazım idi. Bu layihədə hakimiyyət anqlikan kilsəsinin və transmilli hökumətin əlində olmalı idi.

Tomas Qobbs və Con Lokk arasında insanın təbiəti, əxlaqı və ona uyğun olan sosial sistem barədə davam edən mübahisələr liberal düşüncənin təməlini formalaşdırdı. İnsanı təbiətən anarxist hesab edən T. Qobbsdan fərqli olaraq, C. Lokk "insan təmiz lövhədir (tabula rasa) və onu formalaşdıran sosial mühitdir" tezisini ortaya qoydu. Leviafan ideyası, fərdin azad inkişafına, onun mənəvi potensialının üzə çıxmasına və cəmiyyətin tərəqqisinə (proqres) sədd çəkirdisə, C. Lokkun dinamik sosial mühit ideyası proqresə əsaslanırdı. C. Lokkun görüşündən belə bir nəticə çıxırdı ki, güclü dövlət qapalı və zorakı bir sistem yaratdığı üçün, gec-tez ortadan qalxacaq, lakin, vətəndaş cəmiyyətinin tərəqqisi dövlətlərin ortadan qalxması ilə dayanmayacaq və irəli gedəcəkdir. Buna görə də, belə bir nəticəyə gəlindi ki, sosial inkişafın əsas meyarı dövlət deyil, vətəndaş cəmiyyətinin sonsuz proqresidir.

Proqres əsas meyar olduğu üçün, onun dinamikasına mane olan bütün ictimai institutlar (dövlət, din, ailə) deformasiya, adaptsiya və ya ləğv olunmalı və proqresin əsas ölçü vahidi individ (fərd) olmalıdır. Proqres və individ münasibətlərindən ortaya çıxan yeni dünyagörüşü sistemi – liberalizmdir. Əslində, proqresin fəlsəfəsi, transmilli hökumətin maraqlarına xidmət edən kapitalizmin dünyada genişlənməsinə, individin isə, bu məqsədə xidmət etməsinə yönəlmişdir. C. Lokkun özü də, siyasi elitanın içində olan şəxs idi. Çünki o, fərdin azadlığından bəhs etdiyi halda, Britaniya qul ticarəti sahəsinə ən böyük sərmayə qoyan şəxslərdən biri idi və Vilhelm Oranskinin monarxiyasını dəstəkləyirdi. O, yəhudi və xristianların bir cəmiyyətdə yaşamasını təmin edən tolerantlıq ideyasını dəstəklədiyi halda, katolik kilsəsinə qarşı dözümsüzlük ifadə edirdi. Çünki hesab edirdi ki, katoliklərin başçısı Romada oturduğu üçün, onlar, dövlət içində bir dövlətdirlər (**35, s. 415**). Halbuki, Britaniya ərazisində əksəriyyət təşkil edən şotlandlar, irlandlar məzhəb baxımından katolik idilər.

***

C. Lokkun liberal görüşünü iqtisadi tərəfdən inkişaf etdirən Böyük Britaniyalı alim, şotland mənşəli **Adam Smit** oldu. O da, lord Taunşend və lord

Keyms (Henri Hyum) vasitəsilə London kral cəmiyyətinə üzv seçilmiş və siyasi elitanın içinə daxil olmuşdur (**36**). O, C. Lokkun liberal ideyaları bazasında "azad ticarət" (free trade), obyektiv iqtisadi qanunlar, azad bazar, iqtisadi insan, təbii nizam ideyalarını ortaya qoydu və bildirdi ki, hər bir şəxs kimliyindən asılı olmayaraq, sərbəst sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. İqtisadi inkişafa təkan verən nəfsani istəklər ilə cəmiyyətin ümumi istəkləri bir-birini tamamlayır. Liberal iqtisadiyyat o zaman inkişaf edə bilər ki, o, milli deyil, transmilli xarakter daşısın. Çünki dövlət sərhədlərinin mövcudluğu, merkantilizm iqtisadiyyatın inkişafına mane olur. Buna görə də, liberal iqtisadiyyat və demokratiya proqressin təmsilçisi kimi dövlətin rolunu sıfıra endirməyə, fərdin rolunu isə, yüksəltməyə yönəlir (**37**).

Adam Smit hesab edirdi ki, təbiətdə olduğu kimi, cəmiyyətdə də insanların qarşılıqlı maraqları və bacarıqları istiqamətində ümumi bir iqtisadi sistem formalaşır. Bu sistemi hərəkətə gətirən mexanizmin mahiyyətini, xüsusi mülkiyyətə əsaslanan fərdi eqoizm və onun üzərində qarşılıqlı mənfəətə söykənən ümumi maraqlar təşkil edir. A. Smit bu mexanizmi, iqtisadi sistemin daxilində tənzimləyici və istiqamətləndirici xarakter daşıyan "görünməz əl" adlandırmışdır (**38, c. 66**).

A. Smitin "Təbii ehtiyatlar məhdud, insan ehtiyacları qeyri-məhduddur" tezisi, kapitalizm sisteminin təməl prinsipinə çevrildi. İnsanın və ümumən cəmiyyətin ehtiyaclarının qeyri-məhdudluğuna əsaslanan iqtisadi şüur yeni bazarlar əldə etmək, daha çox qazanmaq, ətrafa genişlənmək, bu yolda zəifləri əzmək, güclülərlə rəqabətə çıxmaq, dünyanın təbii resurslarını əldə etmək, onlardan bəhrələnən insanları (xalqları) genosidə məruz qoymaq (Maltus nəzəriyyəsi), hərbi güc tətbiq edərək imperializm siyasəti həyata keçirmək, başqa ölkələrin ərazilərini işğal etmək və digər bu kimi nəticələrə rəvac verir.

A. Smitin gəldiyi maraqlı qənaətlərdən biri də bu idi ki, cəmiyyətin iqtisadi inkişafının əsasında dayanan elmi-texniki tərəqqi və fərdi eqoizm amilləri sonsuzadək davam edə bilməzlər. Çünki onun dediyi kimi, insan ehtiyacları qeyri-məhduddursa, dünya qeyri-məhdud deyildir. Yəni, bir cəmiyyətin daxilində genişlənən iqtisadi sistem həmin cəmiyyətin fövqünə çıxaraq digər bazarlara genişlənəcək və nəticədə dünya bazarını ələ keçirəndən sonra genişlənmək imkanları olmayacaqdır. O zaman, sistem qapanacaq və öz içindən tənəzzülə doğru irəliləyəcəkdir.

İngiltərədə sefarad yəhudisi olan Devid Rikardo öz iqtisadi nəzəriyyəsi ilə XIX əsrin əvvəllərində sosialist-utopist cərəyanın əsasını qoydu (T.Qodskin, U.Tompson, F. Brey). Bu nəzəriyyə, kapitalizmin zəhmətkeş insanların əməyini istismar etdiyini və onu düzgün dəyərləndirmədiyini ortaya qoydu. Sonralar sefarad yəhudisi olan K. Marks da, bu nəzəriyyə əsasında öz "kapital" əsərini yazdı. K. Marks, A. Smitin sistemin qapanması və öz içindən tənəzzülə doğru irəliləməsi ideyasını götürərək, onun üzərində öz tarixi dialektika metodologiyasını yaratdı. Yəni, ona görə, əvvəlki ictimai-iqtisadi formasiyalar kimi, kapitalizm sistemi də öz imperailizm mərhələsində qapalı sistemə düşərək öz içindən tənəzzülə gedəcəkdir. O zaman, onun genişlənməsinə təkan verən elmi-texniki

tərəqqi fenomeni də sıradan çıxacaqdır. K. Marks, bunu yeni sosializm formasiyasına keçid kimi dəyərləndirirdi. A. Smit, D. Rikardo, K. Marks və digərləri faizli bank kredit sisteminin üstündən sükutla keçdilər. Halbuki, transmilli qurumların varlığı əvvəllər olduğu kimi, bu gün də, məhz bu sistem üzərində bərqərardır.

***

Göründüyü kimi, liberal nəzəriyyələrin əsasını qoyan Con Lokk və Adam Smit öz dövrlərində siyasi elitanın içində olan şəxslər kimi, onların maraqlarına xidmət etmişlər. Onlardan sonra gələnlər də mahiyyətə toxunmadan, səthi xarakterli fərqli fikirlər irəli sürmüşlər. Bunlar, "demokratiya"nın və bazar iqtisadiyyatının dünyada genişlənməsinə, dövlətlərin ortadan qalxmasına və transmilli qurumların vətəndaş cəmiyyəti üzərində gizli hakimiyyətinə şərait yaratmışdır. Əslində, bu strategiya, liberal nəzəriyyələrin yarandığı ilk gündən nəzərdə tutulmuşdur. İngilis milli loqosu, milli dövlətin yaradılmasını, transmilli dünya sisteminin qurulmasına körpü kimi baxmışdır. Bu gün, artıq nəzərdə tutulan vaxt yetişmişdir. Milli dövlətlərin etnik dövlətlərə parçalanması və qlobal sistemin yaranması fonunda, ingilis dilinin və ingilis milli fəlsəfi loqosunun dominant olması və qloballaşması hadisəsi danılmaz bir həqiqətə çevrilməkdədir.

Adam Smit və Con Lokk liberalizmin siyasi və iqtisadi əsaslarını qoymuşdular. Bu ideyalar, tədricən Avropanın digər yerlərinə yayılırdı. Con Lokk, Devid Yum, Adam Smit və digər ingilis mütəfəkkirləri Avropa ölkələrinə, ABŞ-na səyahət edir, oradakı yerli mütəfəkkirlərlə, maarifçilərlə əlaqələr qururdular. Bu fikirlərin yayılması, transmilli qurumun hakimiyyətinin genişlənməsi demək idi. Çünki ideyalar şüurlarda dərk olunduqdan sonra maddiləşir və özünü gerçəkləşdirmək ehtiyacı duyur.

8. ABŞ və Fransa burjua inqilabları

İngiltərədə kök salan transmilli burjuaziya müstəmləkəçilik siyasətinə başladı. Dünya bazarını ələ keçirmək üçün, böyük imperiyalar parçalanmalı və onların yerində bazarlarını ələ keçirmək üçün kiçik milli dövlətlər yaranmalı idi. Transmilli Ost-Hind şirkəti Hindistan və Şimali Amerika bazarlarını ələ keçirdi. Ona, dünya bazarını ələ keçirməkdə ən böyük maneə, güclü Fransa krallığı idi.

Fransa İngiltərənin Şimali Amerika ərazisində qurduğu müstəmləkələri dağıtmaq üçün, qiyamçı qruplara (azadlıq oğulları) silah, maliyyə dəstəyi verdi. 1776-cı ildə ABŞ-da qiyamçılar qələbə qazandı və müstəmləkəni ləğv etdilər. Bu qiyamçılar, vaxtilə İngiltərəni tərk edən puritanlar idilər.

İngiltərənin transmilli hökuməti bu qiyamın qisasını almaq üçün, 1789-cu ildə Fransada burjua inqilabını həyata keçirdi və kral XVI Lüdoviki taxtdan salaraq öldürülməsinə şərait yaratdı. Fransada anarxiya pik həddə çatdı və bunun nəticəsi olaraq xalq içindən çıxan Napaleon Bonopartın rəhbərliyi altında yenidən monarxiya sistemi quruldu. Lakin, bu uzun sürmədi. Çünki transmilli qurum, Fransa ilə Rusiyanı qarşı-qarşıya gətirərək, hər iki rəqibini zəiflədib ortadan qaldırdı.

Fransa inqilabının dalğalarının Avropanın katolikləri arasında yayılmasının qarşısını almaq üçün, katolik kilsəsi İspaniya, Portuqaliya kimi yerlərdə feodal təsərrüfat və idarəetmə sisteminin dağılmasına imkan vermirdi. Lakin, protestantların çox olduğu yerlərdə bu ideyalar sürətlə yayılırdı. Onların yayıldığı ərazilərdə protestantlar sosial-siyasi gücə çevrilir, katolik kilsəsinə qarşı mübarizə aparır və onun hakimiyyətindən qurtulmaq istəyirdilər. Beləliklə, katolik kilsəsinin hakimiyyətindən qurtulan ərazilərdə milli dövlətlər meydana gəlirdi. Çünki onlar ənənəvi şəkildə yaşamaq istəmirdilər və yeni həyat tərzi üçün, milli inkişafdan başqa bir yol yox idi. Bu isə, mexaniki sürətdə milli dövlətlərin transmilli qurumların təsiri altına düşməsinə səbəb olurdu.

9. Maarifçilik və maarifçilər

Maarifçilər üçün milli fəlsəfə nəyə görə aktual idi?

Fəlsəfədə millilikdən bəhs edəndə, ilk növbədə ingilis, fransız və alman fəlsəfəsi kimi oturuşmuş anlayışlar yada düşür. Çünki Avropada Yeni Dövrün paradiqmalarını ilk həyata keçirənlər, ilk milli dövlətləri yaradanlar və imperialist siyasət kursunu götürənlər onlar olmuşlar. İlk dəfə sosial-siyasi həyatda böyük inqilabi dəyişikliklər, liberal transformasiya prosesləri İngiltərə (Şanlı inqilab - 1688), ABŞ (müstəqillik deklarasiyasının qəbulu - 1776), Fransa (İnsan və vətəndaş hüquq deklarasiyası - 1789), Almaniya ərazilərində baş vermişdir. XIX-XX əsrlərdə onların təsiri ilə Avropanın digər ərazilərində, Asiyada milli ideyalar maarifçilik fəlsəfəsi vasitəsilə yayılmışdı.

Milli dövlət - etnik, dini, sosial kimliyindən asılı olmayaraq, konkret bir ərazidə yaşayan əhalini konkret bir dil, vətəndaşlıq ideologiyası və milli strategiya ətrafında birləşdirmək, bu istiqamətdə onları assimlyasiya edərək siyasi bir millət formalaşdırmaq məqsədini qarşıya qoyurdu. İmperialist siyasəti həyata keçirən milli dövlətlərin uzaq hədəfi də buna xidmət edirdi. Əslində, milli dövlətlərin hakim elitası, Yeni Dövrdə tarixi rekonstruksiya nəticəsində hakimiyyətə gələn transmilli qruplar idi. Onlar, bazar iqtisadiyyatı və ETİ vasitəsilə yerli və dünya bazarlarını ələ keçirmək, individualizm ideyası vasitəsilə təhlükəli ənənəvi kollektiv birlik formalarını atomlara bölmək, sekulyarizm və ifrat rasionalizm vasitəsilə marginal və deist bir toplum yaratmaq, proqress ideyası vasitəsilə cəmiyyətləri öz strateji məqsədləri istiqamətində səfərbər edərək istismar etmək istəyirdilər. Bunlar, Yeni Dövrün əksər filosoflarının əsas ideya istiqamətlərini təşkil etmişdir. Yalnız, XIX əsrin sonlarında F. Nitşe buna "stop" demişdir.

Milli fəlsəfənin formalaşması və inkişafında müxtəlif etnoslara mənsub olan filosoflar fəal rol oynamışlar. Məsələn, yepiskop, filosof Corc Berkli İrlandiyada doğulan irland olsa da, öz əsərlərini latın, ingilis və fransız dillərində yazmışdır. Şotlandiyada doğulan şotland əsilli filosof Devid Yum öz əsərlərini ingilis dilində qələmə almışdır. Demək olar ki, Böyük Britaniya ərazisindən olan irland və şotland mənşəli mütəfəkkirlərin hamısı ingilis dilində yazıb yaratmışlar. Halbuki, şotland və irlandların öz dövlətləri, dövlətçilik ənənələri və milli dilləri olmuşdur.

Filosofların yaşadıqları ərazi və yetişdikləri mühit də fəlsəfi əsərlərin dilinə təsir etmişdir. Məsələn, Paul Qolbax Almaniyada doğulan alman olduğu halda, öz əsərlərini fransızca yazmışdır. Çünki o, gənc yaşlarından Parisə köçmüş və orada yaşamışdır. Yaxud, Jan-Jak Russo Cenevrədə (İsveçrə) doğulsa da, məşhur fransız filosofu kimi tanınmışdır. Çünki kiçik yaşlarından kimsəsiz qalan filosof, özünə Fransada sığınacaq tapmışdır.

Maarifçilərin ideyaları köhnə sistemin fonunda daha ədalətli və aktual görünürdü. Maarifçi filosoflar, katolik kilsənin hegemonluğu altında olan orta əsrləri "zülmət əsrləri" kimi səciyyələndirməklə, şüuraltı şəkildə özlərinin təmsil etdiyi maaarifçiliyi "aydınlanma, ziyalı, işıqlı" (the enlightenment) kimi təqdim edirdilər. Bununla, maarifçilər, qnoseoloji dualizm paradiqmasından çıxış edərək, teologiyaya qarşı azadfikirlilik, empirizm və skeptisizmə əsaslanan rasional fəlsəfəni, sekulyarizmi, elmi metodları qoyurdular. Onlar, Bibliyanın Tanrı kitabı olması məsələsini şübhə altına alır və fitri din ilə eyniləşdirilən deizm inancını gündəmə gətirirdilər. Dini, kilsənin nəzarəti altında saxlanılan sosial fenomen kimi deyil, fərdin seçimi ilə bağlı olan şəxsi fenomen kimi dəyərləndirirdilər (laiklik, sekulyarlıq). Cəmiyyətin əksəriyyəti, artıq, bu fikirləri qəbul edir və onları doğru hesab edirdilər. Çünki 500 illik tarixi proses, onların şüurunda çox dəyişikliklər etmişdir. ABŞ və Fransada baş verən burjua inqilabları və hadisələrin sonrakı inkişafı göstərdi ki, maarifçilərin təbliğ etdikləri azadlıq ideyaları əbəs deyildi. Onlar, sanki, barıt çəlləyinə atılan bir qığılcım idi.

Yeni Dövrdə fransız dili Avropada latın dilini əvəz etdiyi üçün, o, beynəlxalq elmi-fəlsəfi dil statusu qazanmışdır. Almanlar və ingilislər də öz dillərini yaymağa cəhd edirdilər. Bu xalqların hər üçü germanmənşəli olsalar da, öz siyasi-iqtisadi maraqları istiqamətində fərqli milli kimliklərin formalaşdırılmasında maraqlı idilər. Çünki onların orta əsrlərdə qurduqları dövlətlər, yaratdıqları universitetlər və digər amillər buna əsas verirdi. Bundan başqa, bu prosesləri daxildən idarə edən və onları yönləndirən siyasi-iqtisadi elitalar var idi. Onlar, bir-biri ilə yaxın əməkdaşlıq mühitində olan maarifçiləri açıq və gizli şəkildə dəstəkləyirdilər. Lakin, maarifçiliyi dəstəkləyən məhcul qüvvələr, eyni zamanda, onların təşkilatlanmasına və güclənməsinə şərait yaradırdılar.

Maarifçilik fəlsəfəsi, ilk dəfə milli dillərdə meydana çıxan böyük eksiklopediyalar ilə yayıldı. İngiltərədə Efraim Çembers (İngiltərədə tərcüməçi, kitabşünas 1728-ci il) iki cildlik Siklopediya, Almaniyada Yohan Sedler (1731-1754) alman dilində 68 cildlik "Böyük universal leksikon" əsərlərini ortaya qoydular. Deni Didro və digər maarifçilər tərəfindən fransız dilində hazırlanan 35 cildlik ensiklopediya (1751-1780) Yeni Dövrün ən tanınmış və mükəmməl əsəri hesab olundu. Bu əsərlərin meydana çıxmasında bütün resurslar milli-mədəni inkişaf üçün bir araya gətirilirdi. İngiltərə, Fransa, Almaniya ərazisində yaşayan bütün alim və filosoflar etnik mənşələrindən asılı olmayaraq, bu milli-mədəni inkişaf prosesində iştirak edirdilər. Fransız maarifçiləri daha çox sosial və siyasi məsələlərə ağırlıq verdikləri halda, alman maarifçiləri din və əxlaq məsələlərinə diqqət yetirirdilər. Lakin, onların hamısının ortaq hədəfi, feodal sistemi ortadan

qaldırmaq və liberal dəyərləri (demokratiya, bazar iqtisadiyyatı) həyata keçirmək idi.

Cədvəl 1. Tanınmış avropa filosof və mütəfəkkirlərinin etnik mənşəyi

Etnik göstərici	Filosofların adları
1. Alman mənşəli filosoflar	Böyük Albert (XIII əsr -dominikan), M. Ekhart (XIII əsr - dominikan), M. Lüter, X. Tomazius, İ. Kant, İ. Fixte, F. Şellinq, Q. Hegel, L. Feyerbax, Bruno Bauer, MaksŞtirner, A. Şopenqauer, V. Vindelband, V. Diltey, M. Veber (anası fransız), Q. Rikkert, K. Yaspers, O. Şpenqler, Y. Habermas, M. Haydeqqer, F. Brentano (alman-italyan), K.Ştumpf.
Qeyri-alman mənşəli alman filosofları	(Yəhudi mənşəlilər): K. Marks, L. Vitqenşteyn, Q. Zimmel, T. Adorno, E. Fromm, Q. Markuze, E. Qusserl, M. Xorkxaqmer, Z. Freyd. Q. Leybnis (atası serb, anası alman), F. Nitşe (polyak)
2. İngilis mənşəli filosoflar	Alkuin, Rocer Bekon, Uilyam Okkam, Tomas Mor, Frensis Bekon, Con Lokk, Entoni Şeftsberi, Ceremi Bentam, Tomas Qobbs, Çarlz Darvin, Herbert Spenser, Tomas Qrin, Frensis Bredli, Corc Mur, Bertran Rassel
Qeyri-ingilis mənşəli ingilis filosofları	İoann Skot Eriuqen, Corc Berkli (irland), İoann Duns Skot, İsaak Nyuton, Devid Yum, Con Stüart Mill, Adam Smit (şotland) Kenterberli Anselm (italyan), Devid Rikardo (yəhudi-sefard), Alfred Ayer (yəhudi)
3. Fransız mənşəli filosoflar	Pyer Abelyar, Monten, Rene Dekart, Qassendi, Nikola Malbranş, Blez Paskal, Volter, Deni Didro, Etyen Kondilyak, Jülyen Lametri, Şarl Monteskye, Oqüst Kont, Sen-Simon, Şarl Furye, Pyer Prudon, Jan Pol Sartr, Alber Kamyu, Merlo-Ponti, Qabriel Marsel, Rolan Bart, Mişel Fuko, Jil Delez, Fransua Liotar, Jan Bodriyar, Alen Badyu, Teyar de Şarden, Jorj Batay, Qaston Başlyar, Lui Altüsser, Pyer Burdye, Pyer Qvattari, Jak Lakan
Qeyri-fransız mənşəli fransız filosofları	(Yəhudi mənşəlilər): Emil Dürkqeym, Derrida, Anri Berqson, Levi-Stross, Jak Derrida, Jak Mariten, Aleksandr Koyre. Qolbax (alman), Jak Russo (isveç).
4. Italyan mənşəli filosoflar	Mark Siseron, Lukresiya Kar, Seneka, Mezoniy Ruf, Mark Avreliy, Akvinli Foma, Mediçilər ailəsi, Dante, Marsilio Fiçino, Cordano Bruno, Nikkolo Ma-

	kiavelli, Cambatista Viko, Antonio Cenavezi, Qaliley, Melxior Coiya, Paskantonio Labriolauale Qaluppi, Antonio Rosmini-Serbati, Vinçenso Coberti, Trensio Mamiani, Luici Ferri, Avqusto Vera, Bertrando Spaventa, Covanni Centile, Benedetto Kroçe, Abbanyano, Canni Vattimo.
Qeyri-italyan mənşəli italyan filosofları	Antonio Qramşi (alban).

Qərbi Avropa filosoflarının etnik mənşələri barədə məlumatlar tam şəkildə araşdırılmamışdır. Lakin, əldə olan məlumatların bir çoxu, onların etnik və milli kimliklərini bir-birindən ayırmağa imkan verir (cədvəl 1). Onu da nəzərə almaq lazımdır ki, alman, fransız, ingilis milli kimliyində və onların etnogenezisində bir çox xalqların nümayəndələri iştirak etmişdir (keltlər, normanlar, hunlar, romalılar və s). Etnosları sosial konstruksiya materialları kimi dəyərləndirən konstruktivizmə görə bunun heç bir əhəmiyyəti yoxdur. Lakin, primordialist yanaşmaya görə, bu məsələ əhəmiyyətlidir. Çünki müxtəlif tarixi sosial konstruksiyaların formalaşmasında iştirak edən etnoslar, sadəcə bir inşaat materialı kimi deyil, öz sosial-mədəni matrisası olan substansiyalar kimi daxil olurlar. Düşünürəm, hər iki yanaşmada ifratçılıq vardır. Çünki matrisalarını itirən sosial substansiyalar, yəni, assimlyasiyaya məruz qalan etnoslar da bir gerçəklikdir.

Nəticə. Yeni Dövr, qlobal tarixi rekonstruksiya idi. O, XVII-XVIII əsrdə yeni milli dövlətlərin meydana çıxması ilə öz siyasi-hüquqi varlığını təsdiq etdi. Bununla, orta əsrlərdən başlayaraq Avropada katolik kilsənin ehkamları əsasında formalaşan tradisionalist paradiqma məğlub oldu və onu, Yeni Dövrün liberal paradiqması əvəz etdi. Lakin, bu proses, öz başlanğıcını önreformasiya (XII-XV) və reformasiya (XVI-XVII) hərəkatlarından alırdı. 500 ildən çox davam edən bu kəşməkeşli proses dəhşətli fəlakətlərə səbəb oldu.

Bu mübarizə, katolik kilsənin hakimiyyətindən və onun hegemoniyasından narazı olan qüvvələrə lazım idi. Bu qüvvələr arasında kilsənin müflisləşdirdiyi, aldatdığı, zülm etdiyi sadə insanlar, kilsə tərəfindən siyasi-iqtisadi maraqları məhdudlaşdırılan kral, knyaz və zadəganlar, kilsə tərəfindən təqib olunan fərqli fikir adamları, dini təriqətlər, ideoloji cərəyanlar və yəhudi icmaları var idi. Onlar, düşmənləri üzərində qələbə qazanmaq üçün, bir araya gəlmək, təşkilatlanmaq və ümumi konsepsiyadan çıxış etmək məcburiyyətində olmuşlar. Müxtəlif xarakterli insan və qrupları bir araya gətirmək üçün, gizli və mürəkkəb strukturların yaradılmasına ehtiyac var idi. Belə strukturlar mason təşkilatları şəklində meydana çıxmışlar. Buna görə də, təsadüfi deyildir ki, Yeni Dövrün, reformasiya və önreformasiya hərəkatlarının, humanizmin görkəmli liderləri, filosofları, siyasi xadimləri arasında mason təşkilatlarının üzvləri çox olmuşdur. Yeni Dövrün paradiqması ilə mason təşkilatlarının konsepsiyalarının üst-üstə düşməsi də buradan irəli gəlirdi.

Milli dövlətlər, katolik kilsənin təzyiqi və təsiri altında olan imperiyaların parçalanması və müstəqillik əldə etməsi nəticəsində meydana çıxa bilərdi. İmperiyaların parçalanması üçün, sadə xalqların, kəndlilərin ayağa qaldırılması, silahlandırılması və idarə olunması lazım idi. Bu proseslər isə, özbaşına baş verə bilməzdi. Bunun üçün inqilabi ideyalara, maliyyəyə, təcrübəli, bilikli insanlar və qruplara ehtiyac var idi. Bu inqilabi proseslər, paralel şəkildə həm təkamül (maarifçilik hərəkatı), həm də üsyan yoluyla həyata keçirilməli idi. Lakin, şüurlarda inqilab etmək üçün, azadlıq ideyaları sadə insanların danışdıqları dillərdə və sadə bədii formalarda təbliğ olunmalı idi. Bu isə, milli şüurun, milli mədəniyyətin formalaşmasına və onun üzərində milli dövlətçiliyin yaranmasına təkan verirdi. Bu proseslərin dərinləşməsi, imperiyaların milli dövlətlərə parçalanmasına və onlardan güc alan katolik kilsəsin zəifləməsinə səbəb olurdu. Nəticədə, keçmiş imperiyalar ərazisində gücünü itirən katolik kilsənin yerini, ona qarşı əsas mübarizə mərkəzləri olan mason təşkilatları və digər gizli təşkilatlar tuturdu. Beləliklə, kilsənin hegemoniyasının yerində gizli transmilli qrupların gözəgörünməz hegemoniyası qurulurdu.

Ədəbiyyat və qeydlər:

1. История философии: Запад-Россия-Восток (книга четвёртая. Философия XXв.). Второе издание. Ред. Н. В. Мотрошилова и А. М. Руткевич. М.: «Греко-латинский кабинет» Ю.А. Шичалина, 2000. — с.252

2. Маньковская Н. Б. Эстетика постмодернизма. — М.: ИФ РАН — С. 132

3. https://ru.wikipedia.org/wiki/Различия_между_православием_и_католицизмом

4. Hospitalyerlər təriqəti Fələstində 1099-cu ildə yaranmışdır. Onlar, Fələstinə gələn xristian ziyarətçilərin təhlükəsizliyinə və sağlamlıq məsələlərinə baxırdılar. Onlar, xəstə ziyarətçiləri müalicə etmək üçün, Fələstində tibbi yardım mərkəzi yaratmışlar. Bu gün işlənən "hospital" sözü də buradan irəli gəlir.

5. Seward D. The monks of war: the military religious orders. — Archon Books, 1972. - 346 p.

6. Robinson, John J. Born in Blood: the Lost Secrets of Freemasonry. - Lanham, US: Rowman and Littlefield,2009. — Silvercloud, Terry David. The Shape of God: Secrets, Tales, and Legends of the Dawn Warriors. — Victoria, Canada: Trafford, 2007.

7. Katoliklərlə qusitlərin qarşıdurması bir qədər səngisə də, XVII əsrdən başlayaraq qusitlərin bir hissəsi lüteranlara, digərləri kalvinistlərə qoşulmuş, radikal qusitlər isə (taboritlər) öz kimliklərini bu günə qədər qoruya bilmişlər.

8. Valdenslər əksər protestantlar kimi, yəhudilərlə normal münasibətdə olmuşlar. II Dünya müharibəsi zamanı İtaliya valdenslərinin yəhudiləri faşizmdən qorumaları göstərir ki, orta əsrlərdə də onların yəhudilərlə münasibətləri pozitiv olmuşdur.

9. K**atarlar** (albiqoylar, yəni Albijuadan olan katarlar) xristian təriqəti,

Fransa (Lanqedok), İtaliya və digər avropa ölkələrində katarlar, Balkan və Bizansda boqomillər (bolqar din xadimi Pop Boqomil tərəfindən yaradılmış) və onların qolu olan patarenlər (Bosniya), babunlar (Makedoniya), Kiçik Asiyada pavlikianlar və digər adlar (manixeylər, messalianlar, evxitlər, publikane və s) altında tanınırlar.

10. Z. M. Bünyadov – Azərbaycan VII – IX əsrlərdə, Bakı, 2007

11. https://az.wikipedia.org/wiki/Pavlikanlar_hərəkatı

12. Bizans ərazisində onların paytaxtı Tefriku şəhəri olmuşdur. Bu şəhər indi Türkiyədə Ərzurum və Sivas arasında olan kiçik Divriqi şəhəridir. Onlar, bu ərazidən Bizansın digər şəhərlərinə hücum edir, kilsələri dağıdır, dini ayin alətlərini qərət edir və keşişləri girov götürürdülər. Xilafətdən bəzən himayə alırdılar. Xilafət onları Bizansa qarşı bir silah kimi istifadə edirdi. Buna görə də, Bizans onları Avropa istiqamətində uzaqlaşdırmaq qərarına gəlir.

13. Блюм Жан. Ренн-ле-Шато. Вестготы, катары, тамплиеры: секрет еретиков / Пер. с фр. А. Ю. Карачинского, И. А. Эгипти. — СПб.: Евразия, 2007. — 256 с.

14. Байджент М., Лей Р., Линкольн Г. Священная загадка. Иисус Христос. Катары. Священный Грааль. Тамплиеры. Сионская община. Франкмасоны / Пер. с фр. О. Фадиной. — СПб.: Кронверк-Принт; Норма-Пресс; Ривакс, 1993. — 368 с.

15. https://ru.wikipedia.org/wiki/Реформация_в_Италии

16. Смирин, М. М. Германия в XVI и в начале XVII в.// История средних веков в двух томах / Под ред. С. Д. Сказкина. — 2-е изд. — — Т. 2. М.: Высшая школа, 1977.

17. Kinney, Kinney, Arthur; Swain, David W. Tudor England: An Encyclopedia. — Garland, 2001.

18. https://www.e-reading.club/chapter.php/82838/22/Kalashnikov%2C_Kugushev_-_

19. Бертран Рассел. История западной философии. Кн. 3. Гл. V. Контрреформация и Реформация. http://psylib.org.ua/books/rassb01/index.htm

20. https://www.e-reading.club/chapter.php/82838/22/Kalashnikov%2C_Kugushev_-_Tretiii_Proekt._Tom_II__Tochka_perehoda_.html

21. https://ru.wikipedia.org/wiki/Плифон

22. https://ru.wikipedia.org/wiki/пантеизм

23. Kordova şəhərinin əhalisi yarım milyon olduğu halda, həmin dövrdə Parisdə 38.000 əhali yaşayırdı. Şəhərdə 700 məscid, 60.000 ev, 70 kitabxana (kitabxalaların birində 500.000 əlyazma kitab vardı), 900 hamam, küçələrdə lampalar vardı (İslam ansikplodesi - https://islamansiklopedisi.org.tr/).

24. https://islamansiklopedisi.org.tr/endulus

25. Erol Toy, Cumhuriyet Gazetesi, 30 Temmuz 1979.

26. ttps://wg-lj.livejournal.com/621353.html
27. Crabb A. The Strozzi of Florence: widowhood and family solidarity in the Renaissance. UniversityofMichiganPress; 2000.
28. А. Оноприенко. Мировой кризис 8: расцвет венецианских стратегий в Голландии. https://historiosophy.ru/predel-razvitiya-kapitalizma-spiral-chetyryox-venecij/Sefarad yəhudilərinin İngiltərəyə daxil olması üçün, yəhudi ilahiyyatçı-kabbalist, filosof, Amsterdamda ilk dəfə yəhudi tipoqrafiyasını yaradan (1627) Menaşe ben İsrail yeni hökumət və İngiltərə puritanlarının liderləri ilə danışıqlar apardı. Puritan liderlər ona bildirirdilər ki, yəhudilər vəd olunmuş torpaqlarına qayıtmaq və öz messiyalarını qarşılamaq üçün, xristianlığı qəbul etməlidirlər. Kromvelin nümayəndəsi Menaşe ben İsrail ilə görüşdü və nəticədə, yəhudilərin 1656-ci illərdə İngiltərəyə qeyri-rəsmi buraxılması qərarı verildi. Sonralar onların ölkəyə daxil olması üçün heç bir maneə olmadı. Yəhudilərin zəngin və bilikli olması da, görünür bu qərarlara təsir etmişdir (Ковард Бэри. Оливер Кромвель. — Ростов-на-Дону: Феникс, 1997. - С. 234.).
29. Манассе бен-Израиль // Еврейская энциклопедия Брокгауза и Ефрона. — СПб., 1908-1913.
30. http://www.jewishencyclopedia.com/articles/4089-carvajal-antonio-fernandez
31. Karl Marks da ana tərəfindən məşhur bankir ailəsi olan Koenlərdən olmuşdur. https://cyberleninka.ru/article/n/dinastii-evreyskih-finansistov-v-londone-v-xvii-xx-vekah
32. Kolleqiantlar təriqəti, 1610-cu ildə Niderland ilahiyyatçısı Yakob Arminianın davamçıları tərəfindən qurulmuşdur. Onlar, fatalizmi (ilkin günahabatmanı) təbliğ edən kalvinistlərə qarşı çıxaraq iradə azadlığı (xeyir və şərin insanın seçimi ilə olduğu, insanın günahkar doğulmadığı) fikrinə üstünlük vermiş, tolerantlıqları ilə seçilmiş və buna görə əksər xristian icmaları tərəfindən təqiblərə məruz qalaraq (Dortrext sinodu) XVIII əsrdə yoxa çıxmışlar (baptistlərə, rivayvellərə, metodistlərə təsir etmişdir).
33. https://ru.wikipedia.org/wiki/Локк,_Джон
34. Нуреев *Р. М.* Теоретические основы критики меркантилизма. Дж. Локк // Всемирная история экономической мысли: В 6 томах / Гл. ред. В. Н. Черковец. — М.: Мысль, 1987. — Т. I. От зарождения экономической мысли до первых теоретических систем политической жизни. — С. 414—418. — 606 с.
35. Hyum sülaləsi bu günə kimi Böyük Britaniyada lordlar palatasında yer alır. Adam Smit, Edinburq universitetində çalışarkən lord Keyms (Henri Hyum) ilə tanış oldu və onun himayəsində fəaliyyət göstərməyə başladı. Bu tanışlıqdan iki il sonra (1750-1751), onun liberal iqtisadiyyat barədə əsəri meydana çıxdı. Şotland filosofu Devid Yum ilə 1750-ci ildə tanış olur və onlar birgə şotland

maarifçiliyinin əsasını qoyurlar. O, Lord Taunşend ilə tanış olur və onun vasitəsilə London kral cəmiyyətinə üzv seçilir. *Аникин А. В.* Шотландский мудрец: Адам Смит // Исследование о природе и причинах богатства народов. — М.: Эксмо, 2009. - С. 879-901. - 960 с.

36. *Смит А.* Теория нравственных чувств. — М.: Республика, 1997.

37. Кейнс Дж. М. Общая теория занятости, процента и денег. - М., 1978.

Əhməd Qəşəmoğlu

AHƏNGYOL ELMİ VƏ ONUN MÜASİR ELMİ DÜŞÜNCƏ ÜÇÜN ƏHƏMİYYƏTİ

1.Ahəngyol elminin yaranma zərurəti.

İndiki zamanda ortada olan müasir elmi sistem əsasən XIV əsrdən sonra qərb elmi düşüncəsinin təsiri altında formalaşmışdır. Elmin inkişafı tarixində, qərb elmi estafedi əsasən orta əsr islam alimlərindən almışdır. Amma bu zaman orta əsr islam alimlərinin elmin yaranması sahəsində rasionallıq çərçivəsinə sığmayan biliklərinə, düşüncələrinə, şərtlərinə lazımi əhəmiyyət verilməmişdir. Nəticədə müasir qərb elmi sistemi - onun təsiri altında ümumiyyətlə bütün dünyadakı dünyəvi elmi sistemi, əsasən rasional amillər, praqmatik yanaşmalar prinsipi ilə formalaşmışdır. Belə bir elmi sistem ilk baxışdan xeyli cəlb edici görsənir və XX əsrin ortalarına qədər də xeyli uğurlu olduğu düşünülmüşdür. Amma əslində, XX əsrin ikinci hissəsindən başlayaraq elmdə alınan nəticələr yalnız rasional amillər əsasında araşdırma aparmaqla arzu olunan nəticələri almağın mümkün olmadığını göstərməkdədir. Qlobollaşma sürətləndikcə, daha da mürəkkəbləşməkdə olan sistemlərdə isə bu daha da çətin olur. Ona görə də yeni bir elmi paradiqmanın yaranmasına ehtiyac vardır. Bu elmi paradiqma, elmin indiyədək keçdiyi inkişaf yolunda əldə etdiyi bütün nəticələrin nəzərə alınması əsasında qurulmalıdır. Xüsusi ilə orta əsrlərdəki islam alimlərinin əldə etdiyi bir sıra nəticələr xeyli faydalı ola bilər. Çünki onlar beş əsr ərzində rasional amillərlə, rasional olmayan amillərin birlikdə nəzərə alınması ilə araşdırmalar aparılması üçün yollar axtarmış, mühüm nəticələr əldə etmişlər. *Müasir elmin səviyyəsi həmin nəticələrdən daha faydalı şəkildə yararlanmağa imkan verir.* Bu isə müasir elmi sistemin təkmilləşməsində mühüm rol oynaya bilər. Ahəngyol elmi bu sahədə atılmış ciddi bir addımdır. Bu elmin əsas ideyasını dövrümüzün nəhəng alimlərindən biri olan, müasir sistem nəzəriyyəsinin formalaşmasında mühüm rol oynayan, fazzy logic elm sahəsini yaradan, Koiforniya Universtetinin məşhur professoru L. Zadə dəstəkləmişdir. O Ahəngyol elminin əsas tezislərini 2011 – ci ilin iyul ayının 7 – də BİSC elektron jurnalında yayımlamışdır. Bundan sonra 15 ölkədə ahəngyol elmi haqda məqalələr çıxmış, təqdimatlar keçirilmişdir. Müasir, yüksək indeksli jurnallarda ahəngyolun tədbiqini əks etdirən məqalələr nəşr edilmişdir.

2. Ahəngyol elmi haqda

"Ahəngyol" yeni bir sözdür, harmoniya mənasında işlədilən "ahəng" və "yol" sözlərinin birləşməsindən yaranmışdır. Ahəngə(harmoniyaya) aparan yol mənasında işlədilir. Bu mənada ahəngyol – istənilən bir sahədə ahəng vəziyyətinin yaradılması, ahəng vəziyyətinə aparan yolun axtarılması elmidir. 2008-ci ildə Azərbaycan sosioloqu və riyaziyyatşısı Əhməd Qəşəmoğlu tərəfindən təklif edilmişdir. Bu elmin əsas müddəaları aşağıdakılardır:

1. Bütün kainat vəhdətdə olan, sonsuz ölçülü bir orqanizmdir. Yer planeti, bu planetdəki hər bir varlıq bu kainatın bir hissəsi, zərrəsidir. Kainat milyon illərdir ki, ahəng prinsipi ilə mövcuddur və fəaliyətdədir. Kainatın fəaliyyətinin əsas prinsipi ahəng prinsipidir. Kainatın hissəsi olan cəmiyyətdə də baş verən proseslər kainatın mövcudluq və fəaliyyət prinsipi olan ahəng prinsipinə uyğun davam etdikdə davamlı uğura nail olmaq olar. Başqa hallarda, uğur əldə edilsə də davamlı olmayacaqdır. Müəyyən müddətdən sonra uğursuzluq başlayacaqdır.
2. İndi bütün dünyanın haqqında danışdıqları, müəyyən qədər mücərrəd olan dayanıqlı inkişafdan yox ahəngdar inkişafdan danışılmalı və onun əsas yollarını müəyyənləşdirilməlidir. Elmin bu sahədəki əsas nəaliyyətlrini bir araya gətirməklə, ahəngdar inkişafı pozan istənilən amilə qarşı daha diqqətli olmaq lazımdır.
3. Müasir, ortada olan elm 14 – cü əsrdən sonrakı qərb elmim kanonları əsasında, daha çox rasional, praqmatik yanaşmalar əsasında yaranmışdır. Elmlərin mükəmmələşməsi üçün ilk növbədə riyaziyyat elmində ciddi dəyişikliklər olmalıdır. Bu baxımdan fazzy-logic ilk mühüm dəyişiklikləri etməyə başlamışdır. Bununla, elmlərin mükəmməlləşməsi üçün yeni bir yol açılmışdır.
